بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعَالَمِينَ وَالصَّلَاةُ وَالسَّلَامُ عَلَى اَشْرَفِ الْاَنْبِيَاءِ وَالْمُرْسَلِينَ مُحَمَّدٍ وَآلِهِ الطَّيِّبِينَ الطَّاهِرِينَ لَاسِيَّمَا بَقِيَّةِ اللهِ فِي الْاَرَضِينَ وَاللَّعْنَةُ الدَّائِمَةُ عَلَى أَعْدَائِهِم أَجْمَعِينَ

***Bu şərif risalənin məsələləri mənim fətvalarım ədsındadır.***
***Hüseyn Vəhid Xorasani***

# TƏQLİDİN HÖKMLƏRİ

**Məsələ:** ١. İnsanın üsuli-dinə əqidəsi elm əsasında olmalıdır və üsuli-dində təqlid etmək (yə`ni elm hasil olmadan başqasının dediyinə tabe olmaq) batildir. Ancaq üsuli-dindən savayı, zəruri və qəti olmayan hökmlərində, həmçinin, istinbata ehtiyacı olan məsələlərdə (mükəlləf) şəxs ya özü müctəhid olmalı və öz vəzifəsini onun mənbələri əsasında ələ gətirsin, ya bir müctəhidin göstərişinə əməl etsin (onun şərtləri irəlidə gələcəkdir), ya da ki, gərək ehtiyata əməl etsin, yə`ni, elə əməl etsin ki, öz vəzifəsini yerinə yetirmiş olduğuna yəqin etsin. Məsələn: əgər müctəhidlərdən bə`ziləri müəyyən bir əməli haram bilsələr, bə`ziləri isə haram bilməsə, gərək həmin əməli tərk etsin. Lakin əgər bə`ziləri bir əməli vacib, bə`ziləri isə caiz bilsələr, həmin əməli yerinə yetirsin. Deməli, müctəhid olmayan və ehtiyata əməl edə bilməyənlər gərək təqlid etsinlər.

**Məsələ:** ٢. Əvvəlki məsələdə qeyd olunan təqlid – müctəhidin göstərişinə əməl etməkdir. O müctəhidin nəzəri (sözü) müqəllid üçün höccətdir ki, kişi, aqil, on iki imamçı şiə, halalzadə, diri – hətta şəxs, müməyyiz olan (yaxşı ilə pisi ayıran) vaxtda müctəhidin sağlığını görmüş olsa belə – ədalətli və vacib ehtiyata görə həddi-buluğa çatmış olmalıdır.

Vacib işləri yerinə yetirən və haram işləri tərk edən adama "ədalətli" deyirlər. Ədalətli olmağın əlaməti şəxsin zahirdə o qədər yaxşı

olmasıdır ki, onun yaşadığı məhəllənin camaatından, yaxud qonşularından, yaxud da onunla oturub-duran, yaxın münasibətdə olanlardan onun vəziyyətini soruşduqda, yaxşı adam olmasını təsdiq etsinlər.

Şəxsin təqlid etdiyi müctəhid – şəxs, qarşıya çıxan məsələlərdə fətva verməkdə müctəhidlər arasında fikir ayrılığı olduğunu ümumi (icmali) elm şəklində belə, bildiyi surətdə – gərək ə`ləm olsun. Yəni, əql və şəriət baxımından Allahın hökmünü və tə`yin olunmuş vəzifələri dərk etməkdə öz zəmanəsinin bütün müctəhidlərindən üstün olsun. Amma əgər qeyri-ə`ləm müctəhidin buyruğu (fətvası) ehtiyatla üst-üstə düşsə, (onda belə qeyri-ə`ləmə təqlid edə bilər.)

**Məsələ:** ٣. Müctəhidi və ə`ləmi bir neçə yolla tanımaq olar:

a) İnsanın özü yəqin etsin. Məsələn, elə bir elmi dərəcədə olsun ki, müctəhidi və ə`ləmi tanıya bilsin.

b) Müctəhidi və ə`ləmi ayırd edə bilən iki nəfər ədalətli və alim kəs bir şəxsin müctəhid və ya ə`ləm olmasını təsdiq etsinlər. Bu şərtlə ki, digər iki nəfər ədalətli alim onların sözü ilə müxalifət etməsinlər. Əqva nəzərə görə sözünün əksinə zənn olunmadığı halda bir nəfər siqə (e`timadlı) və xəbir (bu məsələlərdən agah olan) şəxsin dediyi ilə ictihad və ə`ləmlik sübut olunur.

c) Müctəhidi və ə`ləmi tanıya bilən, sözlərindən xatircəmlik hasil olan bir dəstə elm əhlinin, bir kəsin müctəhid və ya ə`ləm olmasını təsdiq etməsi.

**Məsələ:** ٤. Əgər (mükəlləf) şəxs, qarşıya çıxan məsələlərdə iki və yaxud bir neçə müctəhid arasında ixtilaf olduğunu-hətta ümumi şəkildə olsa belə – bilsə, onların elmdə bərabər səviyyədə olmasını bilsə və ya şər`i baxımdan bir dəlili olsa, onda fətvası ehtiyata uyğun olan müctəhidin fətvasına əməl etməlidir. Amma əgər o müctəhidlərdən heç birinin fətvası ehtiyata uyğun olmasa, məsələn; Müctəhidlərdən biri namazın qəsr, digəri isə tamam qılınmasına dair fətva versə bu halda hər ikisinə əməl etməklə ehtiyat etməlidir.

Əgər ehtiyat etmək mümkün olmazsa, (məsələn, bir müctəhid hər hansı bir əməlin vacibliyinə, digəri isə haram olmasına dair fətva versə), yaxud (ehtiyata əməl etmək) çətin olsa, fətva verməkdə təqvası (vərə`si) daha çox olan müctəhidin fətvasına əməl etməlidir. Əgər bu məqamda da bərabər olsalar, müqəllid onların hər birinin fətvasına əməl etməkdə ixtiyar sahibidir.

Həmçinin, bundan qeyri hallarda: istər ə`ləm müctəhidin varlığı mə`lum olub, özü müəyyən olmasa, istərsə də ə`ləm müctəhidin varlığına ehtimal verilsə əgər ehtiyat etmək mümkündürsə və məşəqqət də yoxdursa, ehtiyat etməlidir.

Əgər ehtiyat mümkün olmazsa və ya məşəqqət olsa, ə`ləm

müctəhidin varlığı mə`lum olub, amma özü müəyyən olmasa, bu halda bir tərəfin ə`ləm olmasına daha çox ehtimal verilərsə, onun fətvasına əməl olunmalıdır. Əgər (elmdə) bərabər olsalar, ehtiyata görə fətva məqamında təqvası daha çox olanın fətvasına əməl olunmalıdır. Əgər fətva məqamındakı təqvada da bərabər olsalar, bu zaman müqəllid hər hansı birinə təqlid etməkdə ixtiyar sahibidir.

Ə`ləm müctəhidin varlığına ehtimal verilirsə, ehtiyata görə ə`ləm olmasına güman etdiyi, yaxud ehtimal verdiyi, yaxud ə`ləmiyyət ehtimalı güclü olan müctəhidin fətvasına əməl etməlidir. Əks halda isə, ehtiyata görə gərək fətva məqamında daha təqvalı olanın fətvasına əməl etməlidir. Bu cəhətdən bərabər olsalar, hər birinə təqlid etməkdə ixtiyar sahibidir.

**Məsələ:** ٥. Müctəhidin fətvasını dörd yolla ələ gətirmək olar:

a) Müctəhidin özündən eşitməklə;

b) Müctəhidin fətvalarını nəql edən iki ədalətli şəxsdən eşitməklə;

c) E`timadlı olan və dediyinin əksinə zənn olunmayan şəxsdən və ya sözünə əmin olduğu şəxsdən eşitməklə;

d) Fətvaları müctəhidin öz risaləsində görməklə. Bu şərtlə ki, risalənin düzlüyünə arxayınlıq olsun.

**Məsələ:** ٦. İnsan, müctəhidin fətvasının dəyişdiyinə yəqin etməyənədək ona əməl edə bilər. Müctəhidin fətvasının dəyişməsinə (sadəcə) ehtimal versə axtarış aparmaq lazım (vacib) deyil.

**Məsələ:** ٧. Ə`ləm bir müctəhid hər hansı bir məsələdə fətva verdiyi halda vəzifəsi ona təqlid etmək olan kəs o məsələdə başqa bir müctəhidin fətvasına əməl edə bilməz. Amma əgər ə`ləm müctəhid bir məsələdə fətva verməyib: "Ehtiyat budur ki, filan cür əməl olunsun. Məsələn, ehtiyat budur ki, namazın üçüncü və dördüncü rükətində üç dəfə *"Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər" deyilsin"*, -deyə, buyursa müqəllid ya "vacib ehtiyat" deyilən bu ehtiyata əməl etməli, ya da təqlid etdiyi müctəhiddən sonrakı növbədə başqalarından ə`ləm olan və təsbihatın bir dəfə deyilməsini kifayət olduğunu deyən müctəhidin fətvasına əməl etməlidir. Habelə, ə`ləm müctəhid "məsələ məhəlli-təəmmül və yaxud məhəlli-işkaldır" - deyə buyurduqda, da eynilə.

Bu risalədə deyilmiş müstəhəb əməllərin yerinə yetirilməsi və məkruh əməllərin tərk olunması ilə bağlı olan hökmlər "rəca" (savaba ümid) qəsdilə yerinə yetirilməlidir.

**Məsələ:** ٨. Ə`ləm müctəhid bir məsələdə fətva verəndən sonra və yaxud fətvadan əvvəl ehtiyat etsə, (məsələn, desə ki, nəcis qabı kürr suda bir dəfə yumaqla pak olur, baxmayaraq ki, ehtiyat üç dəfə yumaqdır) onun müqəllidi "müstəhəb ehtiyat" adlanan bu ehtiyata əməl etməyə bilər.

**Məsələ:** ٩. Şəxsin təqlid etməyə vəzifəli olduğu müctəhid dünyasını dəyişsə, bu halda diri bir müctəhidin dünyasını dəyişmiş müctəhiddən ə`ləm olması o şəxs üçün sübuta yetsə, qarşıya çıxan məsələlərdə ölü müctəhidlə diri müctəhidin fətvaları arasında ixtilaf olmasını ümumi (icmali) şəkildə olsa belə bilsə, diri müctəhidə təqlid etməsi vacibdir.

Amma əgər ölü müctəhidin ə`ləm olması onun üçün sübuta yetərsə diri müctəhidin ə`ləm olması onun üçün sübuta yetməyincə ölü müctəhidin fətvasına əməl etməlidir, istər ölü müctəhidin sağlığında onun fətvalarına əməl etməyə iltizamlı olmuş olsun, istərsə də olmasın; həmçinin, istər onun fətvasına əməl etmiş olsun, istərsə də əməl etməmiş olsun; istər onun fətvalarını öyrənmiş olsun, istərsə də yox.

**Məsələ:** ١٠. Bir məsələdə şəxsin vəzifəsi diri müctəhidə təqlid etmək olmuşsa, yenidən ölü müctəhidə təqlid edə bilməz.

**Məsələ:** ١١. İnsanın adətən, qarşısına çıxan məsələləri öyrənməsi vacibdir.

**Məsələ:** ١٢. Şəxsin qarşısına, hökmünü bilmədiyi bir məsələ çıxdıqda ya ehtiyat etməli, ya da yuxarıda deyilmiş şərtlər daxilində təqlid etməlidir. Amma əgər qarşıya çıxan məsələlərdə qeyri-ə`ləm müctəhidin ə`ləm müctəhidlə müxalifətini, hətta ümumi (icmali) şəkildə belə bilsə, ə`ləm müctəhidin fətvasını əldə edə bilməsə, ə`ləm müctəhidin fətvasını əldə edənə qədər əməli tə`xirə salmaq və ehtiyata da əməl etmək mümkün olmazsa, yaxud hərəc (çətinlik) olsa, qeyri-ə`ləm müctəhidə təqlid edə bilər.

**Məsələ:** ١٣. Əgər bir kəs müctəhidin fətvasını başqasına demiş olsa, bu halda əgər müctəhidin fətvası dəyişsə fətvanın dəyişmə xəbərini həmin şəxsə çatdırmaq lazım (vacib) deyil. Amma fətvanı başqasına deyəndən sonra səhv dediyini başa düşsə, bu halda ilzami (vacib) hökmlə müxalifətə səbəb olarsa, mümkün olan surətdə gərək səhvi aradan qaldırsın.

**Məsələ:** ١٤. Mükəlləfin bir müddət təqlidsiz olaraq yerinə yetirdiyi əməllər vəzifəsi hal-hazırda təqlid etməli olduğu müctəhidin fətvası ilə və ya gerçəkliklə müvafiq olarsa düzgündür.

# TƏHARƏTİN HÖKMLƏRİ

## MÜTLƏQ VƏ MUZAF (QARIŞIQ) SU

**Məsələ:** ١٥. Ümumi şəkildə su iki qismə bölünür: Mütləq və muzaf ( qarışıq). Muzaf su – qarpız, gül və s. bu kimi şeylərdən çəkilmiş və yaxud başqa bir şeylə qarışdırılmış suya deyilir, məsələn, su bir qədər palçıqla qarışdırılaraq artıq su deyilməyəcək həddə çatarsa; bundan başqa sular mütləq su adlanır və bu sular da beş qismdir:

١. kürr suyu; ٢. az su; ٣. axar su; ٤. yağış suyu; ٥. quyu suyu.

### ١. *Kürr suyu*

**Məsələ:** ١٦. Eni, uzunluğu və dərinliyi hər biri üç qarış qədərində olan qabın suyu kürr suyu adlanır.

**Məsələ:** ١٧. Bövl, qan kimi nəcisin eyni, yaxud paltar kimi, nəcis olmuş bir şey kürr suyuna dəysə və nəcis şeyin vasitəsilə onun iyi, rəngi, dadı dəyişmiş olarsa, (kürr suyu) nəcis olar. Əgər deyilən şeyləri dəyişdirməzsə, nəcis olmaz.

**Məsələ:** ١٨. Kürr suyunun iyi, rəngi və dadı nəcis olmayan şeylərin vasitəsilə dəyişmiş olarsa, (kürr suyu) nəcis olmaz.

**Məsələ:** ١٩. Əgər nəcisin eyni – qan kimi kürr suyundan artıq olan suya düşərək suyun bir qədərinin iyini, rəngini və dadını dəyişərsə, bu halda (rəng, iy, dad) dəyişməmiş olan miqdar su kürr qədərindən az olarsa, o suyun hamısı nəcis olur. Əgər rəngi, iyi, dadı dəyişmiş miqdar su kürr həddində və yaxud ondan artıq olsa, suyun təkcə iyi, rəngi və dadının dəyişdiyi miqdarı nəcis olar.

**Məsələ:** ٢٠. Fəvvarənin suyu əgər kürr suyuna bitişik olsa nəcis suyu təmiz edər. Amma damcı-damcı nəcis suyun üzərinə tökülərsə, onu pak etməz. Lakin fəvvarənin üstünə elə bir şey qoysalar ki, su damcı-damcı tökülməzdən öncə nəcis suya bitişsin, (onda onu pak edər) və müstəhəb ehtiyata əsasən; (bu halda) gərək fəvvarə suyu nəcis su ilə qarışsın.

**Məsələ:** ٢١. Kürr suyuna bitişik olan su krantının altında nəcis bir şeyi yusalar, o şeydən ayrılan su, kür qədərindən az olmayan su anbarına töküləsə və onun iyi, rəngi və dadı nəcasətin vasitəsilə dəyişməsə, onda anbarın suyu təmizdir.

**Məsələ:** ٢٢. Kürr suyunun bir qədəri buz bağlasa, kürr həddində olmayan qalan hissəyə nəcis dəysə, nəcis olar. Həmçinin, buzdan hər nə

qədər ərisə, o da nəcis olar.

**Məsələ:** ٢٣. Şəxs, əvvəlcə kürr qədərində olan suyun sonradan azalıb-azalmamasında şəkk etsə, həmin su kürr kimdir. Yəni, nəcasəti pak edər və əgər ona nəcasət də dəymiş olsa, nəcis olmaz. Amma şəxs əvvəlcə kürr qədərindən az olan suyun sonradan kürr həddinə çatıb-çatmamasında şəkk etsə, həmin su kürdən az olan su hökmündədir.

**Məsələ:** ٢٤. Suyun kürr qədərində olmasını bir neçə yolla sübut etmək olar:

١) Şəxs özü yəqin və arxayınçılıq edərsə;

٢) İki ədalətli kişinin deməsi ilə;

٣) E`timadlı olan və sözünün əksinə güman olunmayan bir nəfərin xəbər verməsi ilə,

٤) Yalançılıqda ittiham olunmayan halda suyun ixtiyarı əlində olan şəxsin xəbər verməsi ilə.

### ٢. *Az (qəlil) su*

**Məsələ:** ٢٥. Kürrdən az olan və yerdən qaynayıb çıxmayan suya "az su" deyilir.

**Məsələ:** ٢٦. Əgər nəcis az suya dəysə və yaxud az su nəcis bir şeyin üstünə tökülsə, nəcis olar. Amma az su yuxarıdan təzyiqlə nəcis bir şeyin üstünə tökülərsə, nəcisə dəyən hissəsi nəcis, ona dəyməyən hissəsi isə pakdır.

**Məsələ:** ٢٧. Nəcasətin eynini aradan qaldırmaq üçün nəcis bir şeyin üzərinə tökülərək ondan ayrılan az su nəcisdir. Vacib ehtiyata görə, nəcasətin eynini aradan apardıqdan sonra nəcis bir şeyi suya çəkmək üçün onun üzərinə az su tökülərsə, ondan ayrılan sudan çəkinmək lazımdır.

**Məsələ:** ٢٨. Bovl və ğaitin məxrəcinin yuyulmasında istifadə olunan su beş şərtlə, ona dəyən pak şeyi nəcis etməz:

a) İyi, rəngi və dadı nəcasətin vasitəsi ilə dəyişməmiş olsun;

b) Kənardan ona (başqa bir) nəcasət dəyməsin;

c) Bövl və ya ğaitlə birlikdə qan kimi başqa bir nəcasət çölə gəlməmiş olsun;

d) Ehtiyata görə, ğaitin zərrələri həmin suda olmasın;

e) İfraz olunan nəcasət məxrəcin ətrafına adi qaydadan artıq bulaşmamış olsun.

### ٣. *Axar su*

Çeşmə və kəhriz kimi yerdən qaynayıb cərəyan edən suya "axar su" deyilir.

**Məsələ:** ٢٩. Axar su kürr qədərindən az olmasına baxmayaraq, ona nəcis dəysə, onun vasitəsilə iyi, rəngi və dadını dəyişməyincə

pakdır.

**Məsələ:** ٣٠. Əgər axar suya nəcasət dəysə nəcis vasitəsilə iyi, rəngi və dadının dəyişdiyi hissəsi nəcisdir, bulağa bitişik olan hissəsi isə, kürr qədərindən az olmasına baxmayaraq, pakdır. Axar suyun çeşmənin, arxın digər tərəfindəki su, əgər kürr qədərində olsa və ya rəngi, iyi və dadı nəcis vasitəsilə dəyişməyən tərəfin suyu ilə çeşməyə bitişsə, pak, əks halda isə nəcisdir.

**Məsələ:** ٣١. Axar olmayan, amma su götürüldükdə yeri dərhal dolan çeşmənin suyu axar su hökmündədir. Yə`ni, əgər nəcasət ona dəydikdə iyi, rəngi və dadı nəcasətin vasitəsilə dəyişməzsə, pakdır.

**Məsələ:** ٣٢. Çayın, arxın kənarında olan və axar suya bitişik halda yığılıb qalmış su, iyi, rəngi və dadı nəcis vasitəsilə dəyişmədiyi təqdirdə, nəcis olmaz.

**Məsələ:** ٣٣. Qışda qaynayıb yayda quruyan bulaqlar yalnız qaynayan vaxt axar su hökmündədir.

**Məsələ:** ٣٤. Hamam hovuzunun suyu kür qədərində olmasa da lakin suyu kürr qədərində olan anbara bitişik olsa, axar su kimidir.

**Məsələ:** ٣٥. Kürr qədərindən az olmayan anbara bitişik borularla hamam duşu və evlərin krantından axan sular axar su hökmündədir.

**Məsələ:** ٣٦. Yerin təkindən qaynamayan, amma yer üzündə axan su kürrdən az olduğu təqdirdə, nəcasət ona dəysə nəcis olar. Lakin təzyiqlə axarsa, aşağı hissəsinə nəcis dəydikdə, yuxarı hissəsi nəcis olmaz.

### ٤. *Yağış suyu*

**Məsələ:** ٣٧. Üzərində nəcasətin eyni olmayan nəcis dəymiş bir şeyə bir dəfə yağış yağsa, yağışın ona dəydiyi yer pak olar, xalça-palaz, paltar və s. şeyləri sıxmaq lazım (vacib) deyil. Lakin yağışın iki-üç damla yağması onun pak olması üçün faydasızdır. Əksinə, yağış elə yağmalıdır ki, "yağış yağır" deyilə bilsin. Vacib ehtiyata görə, yağış elə bir həddə yağmalıdır ki, bərk yerə yağdıqda axsın.

**Məsələ:** ٣٨. Yağış nəcisin eyninin üzərinə yağsa və ondan başqa bir yerə sıçrasa nəcisin eyni onunla birgə olmadığı və iyi, rəngi, dadı nəcisin vasitəsilə dəyişmədiyi halda pakdır. Deməli, əgər yağış qanın üzərinə yağsa və başqa bir yerə sıçrasa, qanın zərrələri onda olduğu, yaxud iyi, rəngi, dadı nəcis vasitəsilə dəyişmiş olduğu təqdirdə, nəcis olar.

**Məsələ:** ٣٩. Əgər evin tavanında və ya damın üstündə nəcisin eyni olarsa, yağışın damın üzərinə yağdığı vaxta qədər nəcisə dəyən və damın üzərindən, yaxud da navalçadan axan su pakdır. Lakin yağış dayandıqdan sonra axan suyun nəcis bir şeyə dəyməsi mə`lum olsa, nəcisdir.

**Məsələ:** ٤٠. Üzərinə yağış yağan nəcis yer pak olar. Əgər yağış (suyu) yerin üzərində axsa və yağan halda tavanın altında olan nəcis bir yerə dəysə, o da pak olar.

**Məsələ:** ٤١. Daxilinə yağış suyu olan və suyu muzaf olmayan nəcis torpaq yağış vasitəsilə palçıq olmasına baxmayaraq pak olur.

**Məsələ:** ٤٢. Əgər yağış suyu bir yerdə toplaşsa hətta kürr qədərindən az olsa belə, yağış yağan vaxt nəcis bir şeyi onda yusalar və suyun iyi, rəngi və dadı nəcisin vasitəsilə dəyişməzsə, o nəcis şey pak olar.

**Məsələ:** ٤٣. Nəcis yerə sərilmiş pak xalça-palazın üzərinə yağış yağaraq nəcis yerə çatsa, palaz nəcis olmaz və nəcis yer də pak olar.

**Məsələ:** ٤٤. Əgər yağış suyu gölməçədə yığılsa və kürrdən az olsa, yağış kəsəndən sonra nəcis ona dəysə, nəcis olar.

***٥. Quyu suyu***

**Məsələ:** ٤٥. Kürr qədərindən az olsa da, yerdən qaynayan quyu suyuna nəcasət dəysə, iyi, rəngi və dadı nəcasətin vasitəsilə dəyişməzsə, pakdır. Lakin bə`zi nəcasətlər quyu suyuna düşdükdə quyudan, hökmü təfsilatı ilə deyilmiş kitablarda deyilən miqdarda su çəkmək müstəhəbdir.

**Məsələ:** ٤٦. Quyu suyuna nəcis düşsə və iyi, rəngi, yaxud dadını dəyişmiş olsa, bu dəyişiklik aradan getdikdə su pak olar. Müstəhəb ehtiyat budur ki, quyudakı su sonradan çıxan su ilə qarışsın.

## SULARIN HÖKMLƏRİ

**Məsələ:** ٤٧. Mə`nası ١٥-ci məsələdə açıqlanmış "muzaf su" nəcis bir şeyi pak etməz və onunla alınan dəstəmaz, qüsl də batildir.

**Məsələ:** ٤٨. Muzaf su, qəlil (az) və ya kəsir (çox) olmasından asılı olmayaraq, nəcisə toxunduqda nəcis olur. Baxmayaraq ki, çoxluğun bə`zi dərəcələrinə nisbətən ümumi hökm məhəlli-işkaldır, lakin muzaf su təzyiqlə nəcisə dəysə, ona dəyən hissəsi nəcis, qalan hissəsi isə pakdır. Məsələn, nəcis əlin üstünə gülab qabından gülab töküldükdə ələ dəyən hissələr nəcis, qalan hissələr isə pakdır.

**Məsələ:** ٤٩. Əgər nəcis olmuş muzaf su, artıq ona "muzaf su" deyilməyəcək tərzdə kürr suyu, yaxud axar su ilə qarışsa, pak olur.

**Məsələ:** ٥٠. Əvvəlcə mütləq olan suyun, sonradan muzaf həddinə çatıb-çatmaması bilinmədikdə mütləq su kimidir. Yə`ni, nəcis bir şeyi pak edər və həmçinin, onunla dəstəmaz və qüsl də düzgündür. Amma əvvəlcə muzaf olunan suyun sonradan mütləq su olub-olmamağı bilinmədikdə, muzaf su kimidir. Yə`ni nəcis bir şeyi pak etməz və onunla alınan dəstəmaz, qüsl də batildir.

**Məsələ:** ٥١. Suyun əvvəllər mütləq, yoxsa muzaf olması; və (hazırda) yaxud mütləq və ya müzaf olması bilinmədikdə nəcasəti pak etməz, həmçinin, onunla alınan dəstəmaz və qüsl də batildir. Amma əgər kürr qədərində və yaxud ondan çox olduğu təqdirdə ona nəcis dəysə, paklığına hökm olunur.

**Məsələ:** ٥٢. Qan, bovl və s. kimi eyni-nəcasət suya dəyməklə iyini, rəngini, dadını dəyişsə, hətta kürr və yaxud axar olsa da, nəcis olur. Amma suyun iyi, rəngi və dadı suyun kənarında olan nəcis şey vasitəsilə dəyişmiş olsa, nəcis olmaz. Məsələn, suyun kənarındakı ölü heyvanın iyini su özünə çəksə, nəcis olmaz.

**Məsələ:** ٥٣. İçinə bovl və qan kimi eyni-nəcasət tökülərək onun vasitəsilə iyi, rəngi və dadı dəyişmiş su kürr, yaxud axar suya bitişərsə, yaxud onun üzərinə yağış yağarsa və yaxud külək yağışı onun üzərinə tökərsə, yaxud da yağış yağan vaxt yağışın suyu navalçadan axıb onun üzərinə tökülərsə və suyun dəyişikliyi aradan gedərsə, o su pak olar. Müstəhəbb ehtiyata əsasən, gərək yağış suyu və yaxud kürr, yaxud da axar su onunla qarışsın.

**Məsələ:** ٥٤. Əgər nəcis bir şeyi axar və yaxud kürr suyunda paklasalar, paklaşmaya səbəb olan yuyulmada, ondan çıxarıldıqdan sonra ondan ayrılan su da pakdır.

**Məsələ:** ٥٥. Əvvəlcə pak olması mə`lum olan suyun sonradan nəcis olub-olmaması bilinmədikdə pakdır. Əvvəlcə nəcis olması mə`lum olan suyun sonradan pak olub-olmaması bilinmədikdə nəcisdir.

**Məsələ:** ٥٦. İt, donuz və kitab əhli olmayan kafirin yeməyinin artığı nəcis və onu yemək haramdır. Əti haram olan heyvanların yediyinin artığı pakdır və pişikdən başqa onların artığının yeyilməsi məkruhdur.

## AYAQ YOLUNA GETMƏYİN (TƏXƏLLİNİN) HÖKMLƏRİ

**Məsələ:** ٥٧. Təharət və digər hallarda mükəlləfin öz övrətini yaxşı-pisi ayıran kəslərdən – hətta onunla məhrəm olsalar belə – örtməyi vacibdir – istər (yaxşı və pisi ayıran) mükəlləf olsunlar, istərsə də olmasınlar. Lakin ər-arvad və kənizlə onun sahibi kimi, ər-arvad hökmündə olanların öz övrətlərini biri-birindən örtməsi lazım (vacib) deyil.

**Məsələ:** ٥٨. Övrətin məxsus bir şeylə örtülməsi lazım (vacib) deyil; əgər məsələn, əli ilə örtsə də, kifayət edər.

**Məsələ:** ٥٩. Ayaqyoluda olarkən bədənin qabaq hissəsi, yəni, qarın və sinə üzüqibləyə və ya arxası qibləyə olmasın.

**Məsələ:** ٦٠. Təharət zamanı üzü və yaxud arxası qibləyə oturan şəxsin öz övrətini qiblədən (sağa-sola) döndərməsi kifayət etməz. Üzü və yaxud arxası qibləyə oturmayan şəxs vacib ehtiyata əsasən, hətta övrətini də qibləyə döndərməsin.

**Məsələ:** ٦١. Müstəhəb ehtiyata əsasən, istibra zamanında (bunun hökmü sonradan deyiləcək) və bövl və ğaitin məxrəcinin paklanması vaxtı üzü və yaxud arxası qibləyə olmasın.

**Məsələ:** ٦٢. Övrətinə naməhrəm olan şəxsin, onun övrətini görməsi ilə üzü, yaxud arxası qibləyə oturması arasında çıxılmaz vəziyyətdə qalarsa (yə`ni övrətini örtmək istədiyi təqdirdə mütləq üzü, yaxud arxası qibləyə olacaqsa) bu halda övrətini naməhrəmdən gizlətməsi vacibdir və vacib ehtiyata əsasən, bu halda gərək arxası qibləyə otursun. Həmçinin, üzü və ya arxası qibləyə olmaqda məcbur qaldığı surətdə də məsələnin hökmü bu cürdür.

**Məsələ:** ٦٣. Müstəhəb ehtiyatdır ki, təharət vaxtı uşağı üzü və ya arxası qibləyə oturtmasınlar.

**Məsələ:** ٦٤. Dörd yerdə ayaqyoluna getmək haramdır:

١) Sahibi icazə verməyən dalanlarda;

٢) Təxəlli üçün icazə verməyən şəxsin mülkündə;

٣) Məxsusi bir qrupa vəqf olunmuş yerlərdə (məsələn, bə`zi mədrəsələrdə);

٤) Mö`minin, yaxud din və məzhəbin müqəddəslərinə hörmətsizlik gətirə biləcək yerlərdə.

**Məsələ:** ٦٥. Üç halda ğaitin məxrəci yalnız və yalnız su ilə pak olar:

١) Ğaitlə birlikdə qan kimi digər nəcislər ifraz olanda;

٢) Ğaitin məxrəcinə kənardan başqa bir nəcis dəyəndə;

٣) Ğaitin məxrəci adi haldan çox bulaşdıqda.

Su ilə yuyulmasının daha yaxşı olmasına baxmayaraq bu üç surətdən başqa hallarda (bunun qaydası sonradan deyiləcək) ğaitin məxrəcini parça, daş və s. ilə pak etmək olar.

**Məsələ:** ٦٦. Bövlün məxrəci sudan başqa heç bir şeylə pak olmaz. Kürr və axar suda bir dəfə yumaq kifayətdir. Lakin vacib ehtiyata əsasən, az su ilə gərək iki dəfə yuyulsun. Təbii olmayan bövl məxrəcinin yuyulmasında əqva hökm bir neçə dəfə (iki dəfə) yumaqdır və yaxşı olar ki, üç dəfə yuyulsun.

**Məsələ:** ٦٧. Əgər ğaitin məxrəci su ilə yuyulsa, ğaitin zərrələrindən heç bir şey belə qalmamalıdır. Lakin rəng və iyinin qalmasının eybi yoxdur. Birinci dəfə ğaitin zərrələri qalmayacaq tərzdə yuyulsa, ikinci dəfə yumaq lazım (vacib) deyildir.

**Məsələ:** ٦٨. Quru və pak olan parça, kəsək, daş kimi şeylərlə ğaitin məxrəcini paklamaq olar. Hətta ğaitin məxrəcinə sirayət etməyəcək dərəcədə azacıq nəmliyi olan parça, daş kimi şeylərlə paklamağın eybi yoxdur.

**Məsələ:** ٦٩. Ehtiyat müstəhəbdir ki, ğaitin təmizlənməsində

istifadə olunan kəsək, daş və parça kimi şeylər üç tikə olsun. Məxrəcin tamamilə təmizlənməsi mümkün olan surətdə bundan azla da kifayətlənmək olar. Əgər üç hissə ilə təmiz olmasa, gərək məxrəcin tam təmizlənməsi üçün əlavə olunsun. Lakin, adətən daş və s. kimi şeylərlə aradan getməyən əsər-əlamətlərin qalmasının eybi yoxdur.

**Məsələ:** ٧٠. Şəriətdə hörmət edilməsi vacib olan şeylərlə məsələn Allah -Taalanın, peyğəmbərlərin (əleyhimussalam), mə`sum imamların (əleyhimussalam) adlarının yazıldığı kağız və s. kimi şeylərlə ğaitin məxrəcini təmizləmək haramdır. Lakin bu kimi şeylərlə istinca edilsə təmizlik hasil olar. Təzək və sümüklə təmizliyin hasil olması məhəlli-işkaldır.

**Məsələ:** ٧١. Bir kəsin adəti (bövl və yaxud ğait ifraz olunduqdan sonra) məxrəci dərhal paklamaq olsa da, məxrəci paklayıb-paklamadığında şəkk etsə, paklaması vacibdir.

**Məsələ:** ٧٢. Namazı qılıb qutarandan sonra, namazdan əvvəl məxrəci paklamaqdan qafil olmasında elmi olmayan bir şəxs şəkk etsə ki, namazdan öncə məxrəci paklayıb ya yox, qıldığı namazı səhihdir. Lakin məxrəcin nəcis olmasına hökm olunur.

## İSTİBRA

**Məsələ:** ٧٣. İstibra – kişilərin bövl etdikdən sonra yerinə yetirdiyi bir əməldir ki, ondan sonra bövlün məcrasında hər hansı bir nəmlik xaric olsa, onun bövl hökmündə olmaması üçün yerinə yetirirlər.

İstibra bir neçə qismdir. Ən yaxşısı budur ki, bövldən sonra ğaitin məxrəcindən alətin dibinə qədər olan yeri sol əlin orta barmağı ilə (sıxa-sıxa) çəksin, sonra baş barmaqla bövl kanalının üstündən, baş barmağın yanındakı barmaqla isə kanalın altından tutaraq üç dəfə dəllək kəsən yerədək çəksin, sonra alətin başını üç dəfə sıxsın.

**Məsələ:** ٧٤. Mazaqlaşdıqdan sonra bə`zən insandan xaric olan su pakdır. Bə`zən məni xaric olduqdan sonra gələn su məni ilə qarışmayınca və həmçinin, bə`zən bövldən sonra gələn su bövllə qarışmayınca pakdır. Əgər şəxs bövldən sonra istibra etsə və sonra ondan bir su xaric olsa, onun bövl, yoxsa mənidən başqa bir su olub-olmamasında şəkk etsə, o su pakdır.

**Məsələ:** ٧٥. Bir şəxs istibra edib-etməməsində şəkk etsə və ondan bir nəmlik xaric olduqda onun pak olub-olmamasını bilməsə, həmin nəmlik nəcisdir. Belə ki, dəstəmaz almış olsa, batil olar. Amma etdiyi istibranın düz olub-olmamasında şəkk etsə və ondan pak olub-olmamasını bilmədiyi bir nəmlik xaric olsa, o nəmlik pakdır və dəstəmazı da batil etməz.

**Məsələ:** ٧٦. İstibra etməyən və kanalda bövl qalmamasına arxayın olacağına səbəb olan bir zaman müddəti keçdikdən sonra bir nəmlik

xaric olsa və o nəmliyin pak olub-olmamasında şəkk etsə, pakdır və dəstəmazı da batil olmaz.

**Məsələ:** ٧٧. Bövldən sonra istibra edərək dəstəmaz alan bir şəxs, dəstəmazdan sonra özündə nəmlik görsə və onun bövl və məninin ikisindən biri olmasını bilsə, gərək ehtiyat edib həm qüsl etsin, həm də dəstəmaz alsın; amma istibradan sonra dəstəmaz almamış olsa, dəstəmaz alması kifayətdir.

**Məsələ:** ٧٨. Qadın üçün bövldən ötəri istibra yoxdur. Gördüyü nəmliyin bövl olub-olmamasında şəkk etsə pakdır, onun dəstəmaz və qüslünü də batil etməz.

***Təxəllinin müstəhəbb və məkruh əməlləri***

**Məsələ:** ٧٩. Müstəhəbdir şəxs təxəlli edən zaman elə bir yerdə otursun ki, heç kəs onu görməsin və təxəlli yerinə sol ayaqla daxil və sağ ayaqla xaric olsun. Həmçinin, təxəlli halında başı örtmək, təqənnö etmək (gözlərdən savayı üzü bütünlüklə örtmək) və bədənin ağırlığını sol ayağın üstünə salmaq müstəhəbdir.

**Məsələ:** ٨٠. Təxəlli edərkən üzü günəşə və aya tərəf oturmaq məkruhdur, amma bu zaman övrətini bir şeylə örtsə, məkruh olmaz. Həmçinin, təxəlli edərkən küləklə üzbəüz, yolda, xiyabanda, küçədə, evin qapısında və meyvə ağacının altında oturmaq, təxəlli halında bir şey yemək, çox oturmaq, sağ əl ilə paklanmaq; eləcə də təxəlli zamanı danışmaq məkruhdur. Lakin danışmağa məcbur olsa, məkruh deyildir. Həmçinin, Allaha zikr etdikdə də (eybi yoxdur). Çünki zikr etmək hər bir halda müstəhəbdir.

**Məsələ:** ٨١. Ayaq üstə, bərk yerə, heyvanların yuvasına və suya, məxsusən də axarı olmayan durğun suya bövl etmək məkruhdur.

**Məsələ:** ٨٢. Bövl və ğaitin gəlməsinin qarşısını alıb saxlamaq məkruhdur. Əgər bədənə ümumi ziyanı olmuş olsa, haramdır.

**Məsələ:** ٨٣. Şəxsin namazdan, yatmazdan, cimadan (cinsi əlaqədən) əvvəl və məni gəldikdən sonra bövl etməsi müstəhəbdir.

## NƏCİS ŞEYLƏR

**Məsələ:** ٨٤. Nəcislər ondur:
١. Bövl.
٢. Ğait.
٣. Məni (sperma).
٤. Murdar (özü ölmüş, yaxud şər`i göstərişlə kəsilməmiş heyvan).
٥. Qan.
٦. İt.
٧. Donuz.
٨. Kafir.
٩. Şərab.
١٠. Pivə.

### ١ – ٢ *Bövl və ğait*

**Məsələ:** ٨٥. İnsanın və əti haram olub, atıcı qanı olan (yəni, damarın kəsilməsi ilə qanı təzyiqlə sıçrayan) hər bir heyvanın bövl və ğaiti nəcisdir. Əti haram olan və atıcı qanı olmayan heyvanların, məsələn, əti haram olan balıq kimi, həmçinin, milçək və ağcaqanad kimi əti olmayan xırda həşəratların ifrazatı (fəzləsi) pakdır. Müstəhəbb ehtiyat atıcı qanı olmayan haram ətli heyvanların bövlündən çəkinməkdir.

**Məsələ:** ٨٦. Əti haram olan quşların bövl və peyini (fəzləsi) pakdır, lakin əhvət ondan çəkinməkdir.

**Məsələ:** ٨٧. Nəcis yeyən heyvanın, insanın cinsi əlaqədə olduğu heyvanın, donuzdan süd əmmiş çəpişin (sonradan izahı veriləcək) və həmçinin, vacib ehtiyata əsasən, donuzdan süd əmmiş quzunun bövl və ğaiti nəcisdir.

### ٣ - *Məni (sperma)*

**Məsələ:** ٨٨. İnsanın, əti haram və atıcı qanı olan bütün heyvanların mənisi nəcisdir. Həmçinin, ehtiyat vacibə görə atıcı qanı olan halal ətli heyvanın mənisi nəcisdir.

### ٤-*Murdar (özü ölmüş və ya şər`i göstərişlə kəsilməmiş heyvan)*

**Məsələ:** ٨٩. İnsanın və atıcı qanı olan hər bir heyvanın ölüsü nəcisdir – istər qeyri-şər`i yolla kəsilmiş olsun, istərsə də özü ölmüş olsun. Suda ölsə də atıcı qanı olmadığı üçün balığın ölüsü pakdır.

**Məsələ:** ٩٠. Diriliyində eyni-nəcis olmayan heyvanın ölüsündəki ruhu olmayan yun, tük, kürk (qoyun-quzu tükünün dibindəki xırda

tüklər) pakdır.

**Məsələ:** ٩١. Atıcı qanı olan heyvan və ya insanın diri ikən bədənindən ət və ya ruhu olan hər hansı bir şey ayrılsa nəcisdir.

**Məsələ:** ٩٢. Əgər dodağın və bədənin başqa yerlərinin dərisi azacıq qoparılsa, pakdır.

**Məsələ:** ٩٣. Əgər ölü toyuğun qarnından çıxan yumurtanın qabığı bərkimişdirsə, pakdır, ölü bədənə toxunduğuna görə onun üstü gərək suya çəkilsin. Amma qabığı bərkiməmiş olsa, onun nəcis olması məhəlli-işkaldır.

**Məsələ:** ٩٤. Südəmər quzu və ya çəpiş ot yeməyə başlamazdan öncə ölsə, onların qursağında mövcud olan pendir mayası pakdır. Lakin ehtiyata əsasən, gərək onun zahiri suya çəkilsin.

**Məsələ:** ٩٥. Kafir ölkələrindən gətirilən maye dərman, ətir, yağ, ayaqqabı kremi və sabunun nəcis olmasına şəxsin yəqini olmasa, pakdır.

**Məsələ:** ٩٦. Müsəlman bazarından alınmış ət, piy və dəri pakdır. Həmçinin, əgər təzkiyə olunmuş bir müamilə edən bir müsəlmanın da əlində olsa, eyni hökmdür. Amma əgər o müsəlman kafirdən almış olsa və şəri qayda ilə kəsilib-kəsilmədiyi barədə təhqiq etməsə (bu halda pak deyildir).

***٥-Qan***

**Məsələ:** ٩٧. İnsanın və atıcı qanı olan (yəni, damarı kəsildikdə qanı təziqlə sıçrayan) hər bir heyvanın qanı nəcisdir. Deməli, ağcaqanad və balıq kimi, atıcı qanı olmayan heyvanın qanı pakdır.

**Məsələ:** ٩٨. Əti halal olan heyvan şər`i qayda ilə kəsilərsə və adi (normal) miqdarda qan axsa, bədənində qalmış qan pakdır. Lakin əgər heyvan kəsilərkən nəfəs almağına və yaxud başın bədəndən hündür yerdə olmağına görə qan bədənə qayıtsa, bu qan nəcisdir.

**Məsələ:** ٩٩. (Bə`zən) Yumurtanın sarısında olan qanın yeyilməsi haramdır və ehtiyata əsasən, nəcisliyinə hökm olunur.

**Məsələ:** ١٠٠. Heyvanın südü sağılarkən bə`zən görünən qan nəcisdir və südü də nəcis edər.

**Məsələ:** ١٠١. Ağızdan, məsələn, dişlərin dibindən gələn qan, əgər ağız suyu ilə qarışmaqla aradan gedərsə, ağzın suyundan çəkinmək lazım (vacib) deyil. Əgər ağzın suyu ilə qarışmaqla aradan getməsə və su ağızdan çıxsa o sudan çəkinmək lazımdır.

**Məsələ:** ١٠٢. Əzilmə səbəbilə dırnaq və ya dərinin altında ölən qan artıq "qan" deyilməyəcək tərzdə olsa, pakdır. Əgər ona "qan" deyilərsə, nəcisdir. Əgər o dəri və ya dırnaq deşilsə və bir şey ona dəysə, o şey nəcis olur. Əgər bu kimi hallarda qanı çıxarıb dəstəmaz və qüsl üçün yerini paklamağın hərəci (çətinliyi) olsa, gərək təyəmmüm

olunsun.

**Məsələ:** ١٠٣. Əgər şəxs qanın dərinin altında ölməsini, yoxsa ətin əzilmə səbəbilə bu hala düşməsini bilməsə, pakdır.

**Məsələ:** ١٠٤. Yemək qaynayan zaman qan zərrəsi onun içinə düşərsə, bütün yemək və onun qabı nəcis olar. Qaynama, hərarət və istilik pakedici deyildir.

**Məsələ:** ١٠٥. Yara sağalarkən onun ətrafında əmələ gələn sarı suyun qanla qarışıb-qarışmaması mə`lum olmazsa, pakdır.

### ٦ - ٧-*İt və donuz*

**Məsələ:** ١٠٦. Quruda yaşayan it və donuzun hətta tükü, sümüyü, dırnağı və onların rütubətləri də nəcisdir. Amma suda yaşayan it (suiti) və donuz pakdır.

### ٨-*Kafir*

**Məsələ:** ١٠٧. Kafir – yə`ni ya Allahı, ya sonuncu Peyğəmbər (səlləllahu əleyhi və alih)-in risalətini və ya məadı inkar edən, yaxud Allah və Onun Rəsulunda şəkk edən, yaxud Allaha şərik qoşan və ya Allahın yeganəliyinə şəkk edən kəs nəcisdir. Həmçinin, xəvaric – yə`ni mə`sum İmam (əleyhissalam)-a qarşı qiyam edənlər, habelə ğulat, yə`ni imamlardan birinin Allah olmasına əqidə bəsləyən (ilahiləşdirən) və yaxud Allahın onların birində hülul etdiyini deyənlər, habelə nasibilər, yə`ni imamlardan birinə və ya Fatimeyi-Zəhraya (ə.s) düşmən münasibəti bəsləyənlər; habelə namaz və oruc kimi dinin zəruri hökmlərindən hər hansı birini, dinin zəruri hökmlərindən olduğunu bilərək inkar edən kəs kafir və nəcisdir.

Kitab əhli (yə`ni, yəhudi və xristianlar) əqva nəzərə görə pakdır, hərçənd onlardan çəkinmək əhvətdir.

**Məsələ:** ١٠٨. Kafirin bütün bədəni, hətta tükü, dırnağı, rütubətləri belə, nəcisdir.

**Məsələ:** ١٠٩. Əgər həddi-buluğa yetişməmiş uşağın atası, anası, babası və nənəsi kafir olsalar, o uşaq da nəcisdir, amma əgər müməyyiz olan və yaxşını pisdən ayıran halda İslamı izhar etsə, pakdır. Əgər bunlardan hər hansı biri müsəlman olsa, uşaq da pakdır. Yalnız müməyyiz olsa və küfrü izhar etsə, nəcisdir.

**Məsələ:** ١١٠. Müsəlman olub-olmaması bilinməyən kəsin paklığına hökm olunur, ancaq müsəlman qadınla evlənmək, müsəlman qəbiristanlığında dəfn olunmaq kimi digər (islami) hökmlər ona şamil olunmur.

**Məsələ:** ١١١. Düşmənçilik üzündən on dörd mə`sum (əleyhimussalam)-dan birini söyən şəxs nəcisdir.

***٩-Şərab***

**Məsələ:** ١١٢. Məstedici şərab və nəbiz (xurma şərabı) nəcisdir. Müstəhəbb ehtiyata görə bu iki məstedicidən başqa pivə istisna olmaqla (onun hökmü sonradan deyiləcək) başqa məstedici mayelərdən çəkinmək lazımdır. Nə`şə və tiryək axıcı (maye) olmasalar da, üstünə bir şey əlavə edib maye hala salsalar belə, pakdır (amma istifadə etmək haramdır).

**Məsələ:** ١١٣. Qapı, pəncərə, stol, stul və s. kimi əşyaların rənglənməsində istifadə olunan texniki spirtin bütün növləri pakdır (amma içmək haramdır).

**Məsələ:** ١١٤. Üzüm və üzüm suyu bişirilməklə qaynayarsa, pak, lakin yeyilməsi haramdır. Əgər odda bişirilmədən qeyri bir vasitə ilə qaynayarsa, yeyilməsi haram və ehtiyata əsasən, özü də nəcisdir.

**Məsələ:** ١١٥. Xurma, məviz (iri dənəli üzüm qurusu), kişmiş və onların suyu qaynasa da belə, pak və yeyilməsi halaldır.

***١٠-Pivə***

**Məsələ:** ١١٦. "Arpa suyu" deyilən və arpadan hazırlanmış olan fuqqa (pivə) nəcisdir. Lakin həkimin göstərişi ilə arpadan hazırlanmış "mauş-şəir" deyilən su pakdır.

**Məsələ:** ١١٧. Haram yolla cünub olanın təri pakdır və onunla namaz qılmamaq ehtiyat vacibdir. Heyzli halda olan öz əyalı ilə yaxınlıq edən də haramdan cünub olanın hökmündədir.

**Məsələ:** ١١٨. Ramazan ayının günləri kimi, qadınla yaxınlıq etmək haram olan vaxtlarda öz qadını ilə yaxınlıq edən şəxsin təri pakdır, ancaq onunla namaz qılmamaq ehtiyat vacibdir.

**Məsələ:** ١١٩. Əgər haramdan cünub olan şəxs qüsl əvəzi təyəmmüm etsə və təyəmmümdən sonra tərləsə, onun tərinin hökmü – ehtiyat vacibə əsasən – təyəmmümdən əvvəlki tərin hökmündədir.

**Məsələ:** ١٢٠. Haramdan cünub olan şəxs sonradan öz qadını ilə yaxınlıq etsə, namazda öz tərindən çəkinməsi ehtiyat vacibdir. Amma əgər əvvəlcə öz qadını ilə yaxınlıq edəndən sonra harama düçar olsa, onun təri haramdan cünub olanın təri hökmündə deyildir.

**Məsələ:** ١٢١. İnsan nəcisini yeməyə adət etmiş dəvənin təri ehtiyat vacibə əsasən nəcisdir. İnsan nəcisi yeməyə adət etmiş digər heyvanların təri pakdır. Ancaq (onların təri insana dəydikdə) heç biri ilə namaz qılmaq caiz deyildir.

## NƏCASƏTİN SÜBUT OLUNMA YOLLARI

**Məsələ:** ١٢٢. Hər bir şeyin nəcis olmasını üç yolla sübut etmək olar:

١) Şəxsin özü bir şeyin nəcis olmasına yəqin etsin və arxayın

olsun. Əgər bir şeyin nəcis olmasına güman etsə, ondan çəkinməsi lazım (vacib) deyil. Buna əsasən, bir şəxs, şər`i hökmlərə (paklıq-nəcasət məsələlərinə) e`tinasız olan, paklığa riayət etməyən şəxslərin yemək yediyi kafe və mehmanxanalarda verilən yeməyin nəcis olmasına arxayınlığı olmasa, o yeməkləri yeməsinin eybi yoxdur.

٢) Yalan danışmaqda müttəhim olunmayan bir şəxsin, öz ixtiyarında olan hər hansı bir şeyin nəcis olduğunu deməsilə. Məsələn, insanın, yalan danışmaqla müttəhim olunmayan xidmətçisi, həyat yoldaşı və külfəti ixtiyarında olan bir qab və yaxud hər-hansı bir şeyin nəcis olmasını desin.

٣) İki nəfər ədalətli kişi "bu şey nəcisdir" desin. Hətta əgər bir nəfər ədalətli şəxs və ya ədaləti olmasa da, siqə (e`timadlı) hesab olunub sözünün əksi güman olunmayan şəxs bir şeyin nəcis olduğunu desə belə, həmin şeydən çəkinmək lazımdır.

**Məsələ:** ١٢٣. Məsələni bilməməzlik ucbatından şəxs bir şeyin pak və ya nəcis olmasını bilməsə, məsələn, qanın nəcis olub-olmadığını bilməsə, gərək məsələsini soruşsun. Məsələni soruşub öyrənmədiyi vaxta qədər ehtiyat etməlidir. Ancaq məsələni bilə-bilə, hər hansı bir şeyin nəcis və yaxud paklığında şəkk etsə, məsələn, şəkk etsə, ki, bu şey qandır, ya yox və yaxud bir mayenin qan olduğunu bildiyi halda insan, yoxsa ağcaqanad qanı olduğunu bilməsə, pakdır və bu surətdə soruşmaq lazım (vacib) deyil.

**Məsələ:** ١٢٤. Şəxs nəcis bir şeyin sonradan pak olub-olmamasında şəkk etsə, nəcisdir. Əgər pak bir şeyin sonradan nəcis olub-olmamasında şəkk etsə, pakdır. Hətta əgər onun nəcis və ya pak olmasını öyrənməyə qadir olsa da, axtarış aparması lazım (vacib) deyildir.

**Məsələ:** ١٢٥. Hər ikisi ixtiyarında olan iki qabdan və yaxud iki paltardan birinin nəcis olmasını bilən şəxs, hansının (dəqiq şəkildə) nəcis olmasını bilməsə hər ikisindən gərək çəkinsin. Lakin istifadə etdiyi paltarla istifadəsindən kənarda olan paltarın ikisindən birinin nəcis olmasını bilməsə, öz paltarından çəkinməsi lazım deyil.

## PAK ŞEY NECƏ NƏCİS OLUR?

**Məsələ:** ١٢٦. Əgər pak bir şey nəcis bir şeyə dəysə və hər ikisi, yaxud biri, yaşlığın birindən digərinə keçəcək həddə yaş olsa, pak şey də nəcis olar. Əgər yaşlıq digərinə keçməyəcək qədər az olarsa, pak şey nəcis olmaz.

Məşhur budur ki, nəcis şey mütləq şəkildə nəcis edəndir. Lakin bu hökm nəcis şeyə toxunan birinci şeydən başqa yerlərdə, az sudan qeyri şeylər və digər mayelərə dəysə, məhəlli-işkaldır və nəcis bir şeyin ikinci və üçüncü vasitədə (bir şey nəcis şeyə toxunub nəcis olur, ikinci şey də

birinciyə, üçüncü də ikinciyə toxunur, bunlara vasitə deyirlər, *red.*) mütənəccisə toxunan şeylərdən çəkinməkdə ehtiyata əməl etmək tərk olunmamalıdır.

**Məsələ:** ١٢٧. Əgər pak bir şey nəcis bir şeyə dəysə və şəxs hər ikisinin və ya onlardan birinin yaş olub-olmamasında şəkk etsə, pak şey nəcis olmaz.

**Məsələ:** ١٢٨. İki şeydən hansı birinin nəcis, hansının pak olmasını bilinmədikdə, hər ikisinin əvvəldən nəcis olmasını bilməsə, əgər pak bir şey sonradan yaş halda onlardan hər hansı birinə dəyərsə, nəcis olmaz.

**Məsələ:** ١٢٩. Torpaq, parça və bu kimi şeylərin yaşlığı (rütubəti) sirayət edəcək miqdarda olarsa, nəcisin ona dəyən qədəri nəcis, digər yerləri isə pak olar. Xiyar, qovun-qarpız kimi şeylər də bu cürdür.

**Məsələ:** ١٣٠. Şirə, yağ və bu kimi şeylər üstündən müəyyən qədər götürüldükdə yeri dolursa, bir nöqtəsi belə nəcis olsa, hamısı nəcis olar. Lakin üstündən götürüldüyü zaman yeri boş qalırsa, sonradan (tədriclə) dolmağına baxmayaraq, yalnız nəcis dəyən yeri nəcis olar. Məsələn: siçanın fəzləsi ona düşsə, onun düşdüyü həmin yer nəcis, qalanı isə pakdır.

**Məsələ:** ١٣١. Milçək və onun kimi heyvanlar yaş olan nəcis bir şeyin üzərinə qonaraq sonra yaş olan pak bir şeyin üzərinə qonarsa, insan nəcasətin heyvanla yanaşı olduğunu bildiyi surətdə pak şey nəcis olur. Əgər bilməsə, pakdır.

**Məsələ:** ١٣٢. Bədənin tərləmiş olan yeri nəcis olsa və tər o yerdən başqa yerə axsa, tər dəyən hər bir yer nəcis olur. Əgər başqa yerə axmasa, bədənin qalan yerləri pakdır.

**Məsələ:** ١٣٣. Burun və boğazdan gələn qatı bəlğəmdə qan olarsa, qanlı hissəsi nəcis, qalan hissəsi isə pakdır. Əgər ağız və burunun çöl tərəfinə dəysə, insanın bəlğəmin nəcis yerinin dəydiyinə yəqin etdiyi miqdar nəcisdir. (Bəlğəmdəki) nəcis yerin oraya dəyib-dəyməməsində şəkk etsə, o yerlər pakdır.

**Məsələ:** ١٣٤. Altı dəlik olan aftafa nəcis yerə qoyularsa və ondan az-az sızan su onun altında yığışaraq aftafanın suyu ilə eyni sayılırsa, aftafanın suyu nəcis olar. Lakin aftafanın suyu təzyiqlə çıxarsa, nəcis olmaz.

**Məsələ:** ١٣٥. Əgər bir şey bədənə daxil edilərək nəcisə dəyərsə və çıxarılanda nəcisə bulaşmış olmazsa, pakdır. Əgər imalə aləti, yaxud onun suyu ğaitin məxrəcinə daxil edilsə, yaxud iynə, bıçaq və s. kimi şəxsin bədənə daxil edilsə, çıxarıldıqda nəcasətə bulaşmış olmazsa, nəcis deyildir. Həmçinin, ağız və burun suyu da eynilə; daxildə qana dəymiş olsa da çıxanda qana bulaşmış olmasa, nəcis deyildir.

## NƏCASƏTLƏRİN HÖKMLƏRİ

**Məsələ:** ١٣٦. Qur`anın yazısını və vərəqini hörmətsizlik sayılacağı halda nəcis etmək haramdır. Əgər nəcis olarsa, dərhal suya çəkilməlidir. Hörmətsizlik sayılacaq hallardan başqa hallarda da vacib ehtiyata əsasən, belədir.

**Məsələ:** ١٣٧. Əgər Qur`anın cildi nəcis olsa, hörmətsizliyə səbəb olan surətdə gərək suya çəkilsin.

**Məsələ:** ١٣٨. Qur`anı zatən nəcis olan quru bir şeyin üzərinə qoymaq hörmətsizliyə səbəb olan surətdə haramdır və onu götürmək vacibdir.

**Məsələ:** ١٣٩. Qur`anı nəcis mürəkkəblə yazmaq hətta bir hərfi olmuş olsa belə, onu murdarlamaq hökmündəndir. Əgər onunla yazılmışdırsa, gərək su və yaxud başqa bir şeyin vasitəsilə aradan aparılsın.

**Məsələ:** ١٤٠. Qur`anı kafirə vermək hörmətsizliyə səbəb olsa, haram və onu geri almaq vacibdir.

**Məsələ:** ١٤١. Əgər Qur`anın vərəqi, yaxud Allahın, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və ya mə`sumlardan (əleyhimussalam) birinin adı yazılmış kağız kimi, hörmət edilməsi vacib olan şeylər ayaqyoluna düşərsə, xərci olsa da belə, çıxarıb suya çəkmək vacibdir. Əgər çıxarmaq mümkün olmasa, o kağızın çürüməsini yəqin edənə qədər oradan istifadə olunmamalıdır. Həmçinin, əgər türbət ayaqyoluna düşərsə və onu oradan çıxarmaq mümkün olmazsa, onun tamamilə aradan getdiyini yəqin edənə qədər oradan istifadə olunmamalıdır.

**Məsələ:** ١٤٢. Özü nəcis olan və ya nəcis olmuş bir şeyi yemək və içmək, həmçinin, başqasına da yedizdirib içirtmək haramdır. Lakin nəcis olmuş bir şeyi uşaq və dəli şəxsə yedizdirmək caizdir. Əgər uşaq və dəlinin özü nəcis olmuş bir şeyi yesə və yaxud nəcis əli ilə çörəyi nəcis edib yesə, qarşısını almaq lazım (vacib) deyil.

**Məsələ:** ١٤٣. Paklanması mümkün olan nəcis bir şeyin satılma və ya icarəyə verilməsinin eybi yoxdur. Lakin alan tərəf onu yemək və yaxud içmək üçün istifadə edəcəksə, nəcis olduğu deyilməlidir.

**Məsələ:** ١٤٤. Əgər şəxs, bir kəsin nəcis bir şeyi yediyini və yaxud nəcis bir paltarda namaz qıldığını görərsə, ona deməsi lazım (vacib) deyildir.

**Məsələ:** ١٤٥. Əgər bir kəsin evinin və yaxud xalça – palazının bir yeri nəcis olsa, onun evinə gedənlərin paltar və ya başqa şeylərinin yaş halda o nəcisə dəydiyini görərsə, bu işin səbəbkarı o olarsa və nəcis yeməli, içməli şeylərə sirayət edərsə, gərək onlara desin.

**Məsələ:** ١٤٦. Ev sahibi yemək əsnasında xörəyin nəcis olduğunu başa düşsə, qonaqlara deməsi gərəkdir. Amma qonaqlardan biri başa

düşsə, digərlərinə deməsi lazım deyil. Lakin onlarla elə ünsiyyətdə olsa ki, onların nəcis olmaları ucbatından onun özü də nəcis yemək, içməyə düçar olacaqsa yeməkdən sonra gərək onlara desin.

**Məsələ:** ١٤٧. Ariyəyə götürdüyü şey nəcis olsa sahibinin qab kimi, yeyib-içməkdə istifadə etdiyi bir şeydirsə, gərək bunu sahibinə desin. Ancaq paltar kimi şey olsa, sahibinin o paltarda namaz qıldığını bildiyi surətdə belə, nəcis olduğunu deməsi lazım deyildir. Lakin paltar sahibi gerçəkdə də pak olan paltarda namaz qılmaq istədiyi surətdə, vacib ehtiyata əsasən, paltarın nəcis olduğunu ona bildirməlidir.

**Məsələ:** ١٤٨. Uşaq bir şeyin nəcis olmasını və yaxud suya çəkdiyini desə, onun sözünü qəbul etmək olmaz. Lakin müməyyiz olan (yaxşı-pisi ayırd edə bilən) uşaq e`timadlı olarsa və sözünün əksi güman olunmazsa, bir şeyi suya çəkdiyini, həmçinin, bir şeyin nəcis olmasını desə, onun sözü qəbul olunur.

## MÜTƏHHİRAT (PAKEDİCİLƏR)

**Məsələ:** ١٤٩. On iki şey nəcasəti pak edir və onlara «pakedicilər» deyilir:

١) Su.

٢) Yer (torpaq).

٣) Günəş.

٤) İstihalə.

٥) İnqilab.

٦) İntiqal.

٧) İslam.

٨) Təbəiyyət.

٩) Nəcisin eyninin aradan getməsi.

١٠) Nəcis yeyən heyvanın istibrası.

١١) Müsəlmanın qaib olması.

١٢) Kəsilmiş heyvandan adi (normal) miqdarda qanın xaric olması.

Bütün bunların hökmləri ətraflı surətdə gələcək məsələlərdə deyiləcək.

### ١. *Su*

**Məsələ:** ١٥٠. Su dörd şərt daxilində nəcis bir şeyi pak edir:

١) Su mütləq olsun; Deməli, gülab və söyüd suyu kimi qarışıq su nəcis şeyi pak etməz.

٢) Pak olsun;

٣) Onunla nəcis bir şeyi yuyan vaxt su müzaf olmasın və o yuyulmaq ki, ondan sonra təkrar yumaq lazım olmayacaq gərək suyun iyi, rəngi və dadı nəcasətin vasitəsilə dəyişməmiş olsun. Həmin o yuyulmadan qeyri hallarda suyun (iyi, rəngi və dadının) dəyişilməsinin eybi yoxdur. Məsələn: O şey ki, onu iki dəfə yumaq lazımdır, birinci dəfə yuyulanda suyun iyi, rəngi, dadı dəyişsə belə, ikinci dəfə (iyi, rəngi, dadı) dəyişilməyən bir su ilə yusalar, pak olar.

٤) Nəcis bir şeyi suya çəkəndən sonra, nəcisin eyni onda olmasın. Nəcis bir şeyin az su (kürrdən az) ilə pak olmasının digər şərtləri də vardır ki, sonralar deyiləcək.

**Məsələ:** ١٥١. Əgər qabın içərisi nəcis olsa, az su ilə üç dəfə yumaq lazımdır, kürr və axar suda isə bir dəfə yuyulması kifayətdir. Ancaq itin maye halında olan bir şey yediyi qab əvvəlcə pak torpaqla sürtülməli, o torpağı təmizlədikdən sonra, su ilə qarışıq olan torpaqla yenidən

sürtülməlidir (bu iki işi görmək vacib ehtiyata əsasəndir), sonra su tökülməlidir ki, torpağı təmizlənsin və daha sonra kürr və axar suda bir dəfə, az suda isə ehtiyat vacibə əsasən iki dəfə yuyulsun. Ehtiyata əsasən, itin yaladığı qab da yuxarıda deyilən tərzdə paklanmalıdır.

**Məsələ:** ١٥٢. İt ağzını vurduğu qabın ağzı dar olarsa və onu torpaqlamaq mümkün olmazsa, mümkün olan surətdə parça və bu kimi bir şeyi çubuğa büküb əvvəlcə qabın içərisini torpaqlamalı, sonra ehtiyata əsasən, torpağı çölə tökərək yenidən bir az su ilə qarışmış torpaq ilə, həmin çubuqla (qabı) torpaqlamaq lazımdır. Bu ikisini birlikdə etmək vacib ehtiyatdır. Bu da mümkün olmasa, qabın içərisinə su və torpaq töküb möhkəm silkələmək və sonra, əvvəlki məsələdə deyilən tərtiblə pak etmək lazımdır.

**Məsələ:** ١٥٣. Donuzun içərisində maye halında bir şey yediyi və yaxud içərisinə çöl siçanı düşüb ölmüş qab, istər az su, istər kürr, istərsə də axar suda gərək yeddi dəfə yuyulsun. Vacib ehtiyata əsasən, donuzun yaladığı qab da deyilən tərzdə yuyulmalıdır.

**Məsələ:** ١٥٤. Şərabla nəcis olmuş qab gərək üç dəfə yuyulsun. Bu hökmdə az su, kürr və axar su arasında fərq yoxdur. Müstəhəb ehtiyat budur ki, yeddi dəfə yuyulsun.

**Məsələ:** ١٥٥. Nəcis torpaqdan düzəldilmiş və ya nəcis su hopmuş kuzəni – saxsı qabı əgər kürr və ya axar suya qoysalar, su onun hər yerinə dəysə, o yeri pak olar. Əgər onun içərisini də pak etmək istəsələr, gərək kürr və ya axar suda o qədər saxlasınlar ki, su onun hər yerinə hopsun. Əgər qabda suyun onun daxilinə keçməsinə mane olacaq (yağ və yağışqan kimi) bir rütubət olsa, gərək əvvəlcə qurudulsun, sonra kürr və ya axar suda qoyulsun.

**Məsələ:** ١٥٦. Nəcis qabı az su ilə iki cür paklamaq olar:

١) Üç dəfə doldurub boşaltmaqla.

٢) Üç dəfə suyu onun daxilində nəcis yerlərə çatana qədər çalxalamaqla.

**Məsələ:** ١٥٧. Böyük qazan və xum kimi iri qablar nəcis olduqda üç dəfə onu su ilə doldurub-boşaltdıqda pak olar. Nəcisi bütövlükdə əhatə etməklə suyu yuxarıdan üç dəfə tökmək və hər dəfə qabın dibinə yığılan suyu çıxarıb bayıra atmaqla da pak olur. Vacib ehtiyata əsasən, qabın dibində yığılmış suyu çölə tökmək üçün istifadə olunan qabı ikinci və üçüncü dəfələr də suya çəkmək lazımdır.

**Məsələ:** ١٥٨. Əridilən nəcis mis və onun kimi şeylər suya çəkilsə, zahiri pak olar.

**Məsələ:** ١٥٩. Bövl ilə murdarlanmış təndirə iki dəfə nəcisi tamamilə əhatə edəcək qədər yuxarıdan su töksələr, pak olar. Bövldən başqa şeylərlə murdarlandıqda isə həmin qayda ilə bir dəfə su tökülsə, kifayətdir. Müstəhəb ehtiyat budur ki, suyu nəcisin eynini aradan

apardıqdan sonra töksünlər. Yaxşı olar ki, təndirin dibində suyun yığılması üçün bir çala qazılsın və su çölə çıxarıldıqdan sonra pak torpaqla doldurulsun.

**Məsələ:** ١٦٠. Əgər nəcis bir şey kürr və ya axar suya bir dəfə batırılsa və su, nəcis yerlərin hamısına dəysə, pak olar. Xalça, palaz, paltar və s. kimi şeyləri sıxmaq, yaxud (şvabra və s. ilə) sürtmək ya da tapdalamaq lazımdır. Paltar və bu kimi şeylər bövl ilə murdarlandıqda kürr, yaxud axar suda bir dəfə yumaq kifayətdir.

**Məsələ:** ١٦١. Bövllə murdarlanmış bir şeyi az su ilə yumaq istədikdə, üzərinə bir dəfə su axıdılsa və su ondan ayrılsa, o şeydə ayrılan suda bövl qalmadığı surətdə ikinci dəfə üzərindən su axıdıldıqda pak olar. Lakin paltar, palaz və xalça kimi şeylərdə isə hər dəfə su axıdıldıqdan sonra sıxılma və s. yollarla ğusaləsi çıxarılmalıdır. (Ğusalə adətən, bir şeyi yuyan zaman, yaxud yuyandan sonra o şeydən öz-özünə və ya onu sıxmaq və bu kimi əməllə ayrılan suya deyilir).

**Məsələ:** ١٦٢. Yemək yeməyə başlamamış südəmər oğlan uşağının bövlü ilə murdarlanmış bir şeyin üzərinə bütün nəcis yerləri əhatə edəcək şəkildə su axıdılmaqla pak olar. Lakin müstəhəbb ehtiyat budur ki, onun üzərindən təkrarən bir dəfə də su axıdılsın. Paltar, palaz, xalça kimi şeyləri sıxmaq da lazım deyildir.

**Məsələ:** ١٦٣. Bövldən başqa şeylərlə murdarlanmış şeyləri az su ilə paklamağın qaydası budur ki, nəcisin eynini təmizlədikdən sonra üzərindən bir dəfə su axıdılsın və ondan ayrılsın. Vacib ehtiyat budur ki, su, nəcisin eyni aradan gedəndən sonra axıdılsın. Lakin paltar kimi şeylərin ğüsaləsi onu sıxmaqla çıxmalıdır.

**Məsələ:** ١٦٤. İplə toxunmuş həsir nəcis olarsa və onu kürr, axar və ya az su ilə paklamaq istəsələr, sıxmaq və bu kimi vasitələrlə gərək ğusaləsi çıxarılsın.

**Məsələ:** ١٦٥. Əgər buğda, düyü, sabun və bu kimi şeylərin zahiri (üzü) nəcis olsa, axar suya, yaxud kürrə batırmaqla pak olar. Əgər batini (daxili) də nəcis olmuşsa, onların paklanması, nəcis olmuş kuzənin (saxsı qabın) paklanması kimidir ki, ١٥٥-ci məsələdə deyildi.

**Məsələ:** ١٦٦. İnsan, nəcis suyun sabunun batininə keçib-keçmədiyində şəkk etsə, onun batini pakdır.

**Məsələ:** ١٦٧. Ət, düyü və bu kimi şeylərin zahiri bövldən başqa bir nəcislə murdarlansa, onu pak teştə yığıb üzərinə bir dəfə su töküb sonra suyu boşaltmaqla teşt ilə birlikdə pak olar. Bövllə murdarlanmış olarsa, iki dəfə su töküb boşaltmaq lazımdır. Hər iki surətdə kasa və bu kimi şeylərin də üzərinə vacib ehtiyata əsasən, üç dəfə su töküb boşaltmaq lazımdır. Paltar kimi, pak olması sıxılmağa bağlı olan şeylərin sıxılması və ğusaləsinin çıxarılması lazımdır.

**Məsələ:** ١٦٨. Sinka və bu kimi şeylərlə rənglənmiş nəcis paltarı

kürr və axar suyuna batırsalar və ya az su ilə yusalar sıxılan zaman ondan muzaf su ayrılmazsa, pak olar.

**Məsələ:** ١٦٩. (Nəcis) paltarı kürr, ya axar suda yuyularsa, sonra onun üstündə su yosunu görsələr, onun suyun paltara keçməsinə mane olmasını ehtimal etməsələr, paltar pakdır.

**Məsələ:** ١٧٠. Paltar və bu kimi şeylər suya çəkildikdən sonra onun üstündə palçıq və ya sabun parçaları görünərsə, pakdır. Lakin, nəcis su sabun və palçığın içərisinə keçmişdirsə, onların çölü pak, içərisi isə nəcisdir.

**Məsələ:** ١٧١. Nəcisin eynini aradan aparmadan nəcis olmuş heç bir şey pak olmaz. Lakin nəcisin iyi və yaxud rəngi onda qalmış olsa, eybi yoxdur. Deməli, qanı paltardan təmizləyərək suya çəksələr, qanın rəngi qalsa belə, pak olar. Ancaq rəng və ya iyin vasitəsi ilə nəcasətin xırda tərkiblərinin (zərrələrinin) qalması ehtimal edilərsə, həmin şey nəcisdir.

**Məsələ:** ١٧٢. Əgər bədəndəki nəcasəti kürr və ya axar suda aradan aparsalar, bədən pak olar və hətta o nəcis bövl olsa belə, bir neçə dəfə yumaq lazım deyil.

**Məsələ:** ١٧٣. Dişlərin dibində nəcis yemək qaldıqda ağıza su alıb nəcis yeməyi bütövlükdə əhatə edəcək qədər dolandırdıqda, onun zahiri pak olar.

**Məsələ:** ١٧٤. Əgər başın və üzün (nəcis olmuş) tükünü az su ilə yusalar, ğusalənin ayrılması lazımdır.

**Məsələ:** ١٧٥. Misal üçün, bədən və ya paltarın bir hissəsini az su ilə pakladıqda, ona birləşən və yuyulduqda adətən suyun islatdığı (sirayət etdiyi) yerlər, nəcis yerin pak olması ilə pak olar. Yə`ni islanmış yerləri ayrıca suya çəkmək lazım deyildir, əksinə, nəcis hissə və onun ətraf yerləri suya çəkilməklə hər ikisi pak olar. Həmçinin, biri nəcis, biri pak olan iki şey yan-yana qoyularaq suya çəkildikdə, hökm eynidir.

**Məsələ:** ١٧٦. Nəcis olmuş ət və quyruq da başqa şeylər kimi suya çəkilir. Həmçinin, bədən və ya paltar kimi şeylər suya çəkilərkən onlarda olan və suyun dəriyə və yaxud paltarın tərkibinə keçməsinə mane olmayan azacıq yağlılıq olduqda da hökm belədir.

**Məsələ:** ١٧٧. Misal üçün, bədən və yaxud qab nəcis olsa və sonradan, suyun ona yetişməyinə mane olacaq tərzdə yağlı olarsa, onu suya çəkmək istədikdə gərək yağı təmizlənsin ki, su ona yetişsin.

**Məsələ:** ١٧٨. Üzərində nəcisin eyni olmayan nəcis bir şey kürr suyuna bitişik krantın altında bir dəfə yuyulsa, pak olar. Həmçinin, nəcisin eyni onda olsa, əgər krantın altında və ya digər vasitə ilə təmizlənsə və ondan axan suyun iyi, rəngi və dadı nəcasət vasitəsilə dəyişməmiş olsa, krantın suyu ilə pak olar. Ancaq ondan axan suyu iyi, rəngi və dadı nəcisin vasitəsilə dəyişmiş olsa, gərək krantın suyu onun

üzərindən o qədər axsın ki, ondan ayrılan suda nəcisin vasitəsilə dəyişiklik olmasın.

**Məsələ:** ١٧٩. Əgər bir şeyi yuyub pak etdiyinə yəqin etdikdən sonra, nəcisin eynini təmizləyib-təmizləməsində şəkk etsə, onu yenidən suya çəkməli və nəcisin eyninin aradan getdiyinə yəqin etməli, yaxud arxayın olmalıdır.

**Məsələ:** ١٨٠. Üstü qum və çınqıl kimi, suyu hopduran şeylərlə örtülən yer nəcis olduqda, az su ilə pak olar.

**Məsələ:** ١٨١. Suyun hopmadığı daşla, kərpiclə döşənən, yaxud bərk yerlər nəcis olduqda az su ilə pak olar. Lakin üzərinə o qədər su tökülməlidir ki, axsın. Onun üzərinə tökülən su bir dəlikdən çıxaraq axsa, torpağın hamısı pak olar. Lakin su bir yerdən çıxmayıb toplansa, su yığılan yerlər nəcis olar. Onu pak etmək üçün toplanmış suyu pak bir şeylə yığıb götürmək lazımdır. Daha yaxşı olar ki, çala qazsınlar, su orada toplansın, su oradan götürüldükdən sonra həmin çala pak torpaqla doldurulsun.

**Məsələ:** ١٨٢. Daş duz və onun kimi şeylərin üstü nəcis olsa, muzaf (qarışıq) olmayan təqdirdə az su ilə pak olar.

**Məsələ:** ١٨٣. Əgər ərimiş nəcis şəkərdən qənd düzəldib kürr və ya axar suya qoysalar, pak olmaz.

**٢. *Yer***

**Məsələ:** ١٨٤. Yer üç şərtlə nəcis yerdə yol getmək və ya ayağı nəcis yerə qoymaqla nəcis olmuş ayağın və ya ayaqqabının altını pak edər:

١) Yer pak olsun;

٢) Quru olsun;

٣) Ayağın və ya ayaqqabının altında olan qan və bövl kimi eyni nəcis, yaxud palçıq kimi sonradan nəcis olmuş bir şey yol getmək və ya yerə sürtməklə aradan getsin. Həmçinin, yer də gərək ya torpaq, ya daş olsun, ya da kərpic və ya bu kimi şeylərlə döşənmiş olsun. Həsir, xalça, ot-ələf və bu kimi şeylərin üstündə getməklə nəcis olmuş ayağın və ya ayaqqabının altı pak olmaz.

**Məsələ:** ١٨٥. Asfalt və ya ağac döşənmiş yolun üzərində getməklə ayağın və ya ayaqqabının (nəcis olmuş) altının pak olması məhəlli-işkaldır.

**Məsələ:** ١٨٦. Nəcis olmuş ayağın və ya ayaqqabının altını pak etmək üçün yaxşı olar ki, ١٥ zira (zira – dirsəkdən barmaqların ucuna qədər olan məsafədir) və ya daha artıq yol gedilsin, hətta bundan az yol getməklə, yaxud yerə sürtməklə nəcis aradan getmiş olsa da belə.

**Məsələ:** ١٨٧. Nəcis olmuş ayağın və ya ayaqqabının altının (paklamaq üçün) yaş olması lazım deyil; quru da olsa, yol getməklə pak

olur.

**Məsələ:** ١٨٨. Ayağın və ya ayaqqabının altı yol getməklə pak olduqdan sonra, adətən onun ətrafından palçığa bulaşan tərəfləri də pak olar.

**Məsələ:** ١٨٩. Əlləri və dizləri ilə yeriyənlərin əl və dizləri nəcis olmuşdursa, yol getməklə pak olması məhəlli-işkaldır. Əsa, protez ayaq, heyvanların nalı, avtomobilin, faytonun təkərləri və bu kimi şeylər nəcis olmuşdursa, onların da hökmü bu cürdür.

**Məsələ:** ١٩٠. Yol getdikdən sonra ayağın və ya ayaqqabının altında nəcisin iyi və ya rəngi, yaxud nəcisin görünməyən zərrələri qalarsa, işkalı yoxdur, baxmayaraq ki, müstəhəbb ehtiyat iyin və rəngin aradan getdiyi miqdarda yol getməkdir.

**Məsələ:** ١٩١. Ayaqqabının içərisi pak olmaz. Corabın altının yol getməklə pak olması məhəlli-işkaldır.

**٣. *Günəş***

**Məsələ:** ١٩٢. Günəş yeri, binanı və binada olan qapı, pəncərə kimi şeyləri, eləcə də divara vurulmuş mismarları beş şərtlə pak edər:

١) Nəcis olan şey yaş olsun; əgər quru olarsa, günəş onu qurutsun deyə, gərək müəyyən bir vasitə ilə isladılsın.

٢) Əgər o şeydə nəcisin eyni varsa, günəşin saçması ilə qurumazdan əvvəl onu təmizləmək (aradan aparmaq) lazımdır.

٣) Günəş şüasının (birbaşa) saçmasına mane olacaq bir şey olmasın. Deməli, əgər günəşin şüası pərdə, bulud və bu kimi şeylərin arxasından düşərək nəcis bir şeyi qurutsa o şey pak olmaz. Lakin bulud və s. şeylər günəş şüasının keçməsinə mane olmayacaq dərəcədə nazik olsa, eybi yoxdur.

٤) Nəcis şeyi günəş təklikdə qurutsun. Məsələn: nəcis şey külək və günəşin ikisinin vasitəsilə qurusa, pak olmaz. Lakin külək, "külək nəcis şeyin qurumasına kömək edib" deyilməyəcək dərəcədə zəif olsa, eybi yoxdur.

٥) Günəş evin və ya binanın nəcis hopmuş qədərini birdəfəyə qurutsun. Deməli, əgər günəş bir dəfə nəcis yerə və binaya saçsa və onun çölünü qurutsa, növbəti dəfə onun içərisini qurutsa, yalnız çölü pak olar və içərisi nəcis halda qalar.

**Məsələ:** ١٩٣. Günəşin nəcis olmuş həsiri, yerdə olan bitkini və ağacı pak etməsi məhəlli-işkaldır.

**Məsələ:** ١٩٤. Günəş nəcis bir yerə saçdıqdan sonra insan, günəş saçarkən oranın quru, yoxsa yaş olmasında, habelə günəşin, yoxsa başqa bir şeyin vasitəsilə qurumasında şəkk etsə, eləcə də günəş şüası düşməzdən öncə nəcisin eyninin aradan gedib-getmədiyi, yaxud günəşin şüasının düşməsinə bir şeyin mane olub-olmamağında şəkk

etsə, o yer nəcisdir.

**Məsələ:** ١٩٥. Əgər günəş nəcis divarın bir tərəfinə saçsa və bununla günəş şüası düşməyən tərəf də qurusa, hər iki tərəf pak olar.

***٤. İstihalə***

**Məsələ:** ١٩٦. Əgər nəcis bir şey, camaat arasında öz zat və həqiqətini dəyişəcək dərəcədə başqa bir pak şeyin surətinə düşsə, məsələn, nəcis olmuş çubuq yanaraq külə dönsə, yaxud it duzlağa düşərək duz dönsə, pak olar. Lakin, onun həqiqəti dəyişməsə, məsələn: nəcis olmuş buğdanı üyüdərək un etsələr və yaxud çörək bişirsələr pak olmaz.

**Məsələ:** ١٩٧. Nəcis palçıqdan düzəldilmiş kuzə (saxsı qab) və bu kimi şeylər, eləcə də nəcis odundan hazırlanmış kömürdə əhvət nəzər ondan ehtiyat edilməsidir (çəkinsinlər).

**Məsələ:** ١٩٨. İstihalə olub-olmadığı mə`lum olmayan şeydə şəkkin mənşəyi nəcisin mövzusunun qalıb-qalmadığında şəkdirsə, o şey nəcisdir.

***٥. İnqilab***

**Məsələ:** ١٩٩. Şərab öz-özünə yaxud duz və sirkə kimi bir şeyin qarışdırılması vasitəsilə sirkəyə çevrilsə pak olar.

**Məsələ:** ٢٠٠. Nəcis üzüm və onun kimi şeylərdən hazırlanan şərab, hazırlandığı həmin qabda sirkəyə çevrilsə, pak olmaz. Əgər başqa bir pak qaba tökülərək sirkəyə çevrilsə, ehtiyata əsasən, pak olmaz. Eləcə də başqa bir nəcis şəraba düşüb şərabda aradan gedərsə, hökm eynidir.

**Məsələ:** ٢٠١. Nəcis xurma, kişmiş və üzümdən hazırlanan sirkə nəcisdir.

**Məsələ:** ٢٠٢. Əgər üzüm və xurmanın içərisində xırda qurumuş yarpaq, çör-çöp olsa və ona sirkə töksələr, eybi yoxdur. Sirkə olmamışdan öncə də olsa xiyar, badımcan kimi şeyləri də ora tökməyin eybi yoxdur. Amma əgər sirkə olmazdan əvvəl məstedici olmağı mə`lum olarsa bu halda işkalı vardır.

**Məsələ:** ٢٠٣. Üzüm suyu odla qaynasa, haramdır. Əgər ٢/٣ hissəsi gedənə qədər odla qaynasa, qalan ٣-də bir hissəsi halal olar. ١١٤-cü məsələdə deyildiyi kimi, odla qaynamaq vasitəsilə nəcis olmaz. Əgər oddan başqa şeylə qaynasa, haramdır və ehtiyata əsasən, nəcis olur. Vacib ehtiyata əsasən, sirkə olmaqdan başqa heç bir vasitəsi ilə pak və halal olmaz.

**Məsələ:** ٢٠٤. Əgər üzüm suyunun ٢/٣ hissəsi qaynamadan azalsa və yerdə qalanı qaynasa haramdır.

**Məsələ:** ٢٠٥. Qaynayıb-qaynamadığı bilinməyən üzüm suyu halaldır. Lakin qaynadılarsa ٢/٣ hissəsinin getməsinə yəqin olmayınca

halal olmaz.

**Məsələ:** ٢٠٦. Bir salxım qorada az miqdarda üzüm olsa və ondan alınan suya "üzüm suyu" deyilməzsə, həmin su qaynadılsa, onu içmək halaldır.

**Məsələ:** ٢٠٧. Odda qaynayan şeyin içərisinə bir üzüm dənəsi düşərək həmin şeylə birgə qaynasa və aradan getməsə, yalnız o üzüm dənəsini yemək haramdır.

**Məsələ:** ٢٠٨. Bir neçə qazanda şirə (doşab) bişirmək istəsələr, qaynayan qazana vurulmuş kəfgiri qaynamayan qazana vurmağın eybi yoxdur.

**Məsələ:** ٢٠٩. Qora, yoxsa üzüm olması mə`lum olmayan şey qaynayarsa, haladır.

### ٦. *İntiqal*

**Məsələ:** ٢١٠. İnsanın, yaxud atıcı qanı olan (yə`ni, damarını kəsəndə qan sıçrayan heyvanın) qanı atıcı qanı olmayan heyvanın bədəninə keçərək o heyvanın qanı hesab olunsa, pakdır və buna «intiqal» deyilir.

Eləcə də digər nəcislər bir heyvanın orqanizminə nəql olunaraq onun orqanizminin bir qismi sayılsa, həmin heyvanın bədən üzvləri hökmündədir. Əgər orqanizmin bir hissəsi hesab olunmazsa və bu heyvan o nəcisin sadəcə yerləşdiyi qab kimi olarsa, nəcisdir. Elə bu baxımdan zəlinin insan bədənindən sorduğu qana "zəli qanı" deyil, "insan qanı" deyildiyindən, nəcisdir.

**Məsələ:** ٢١١. Əgər ağcaqanad insan bədəninin bir yerində öldürülsə və ondan xaric olan qanın bədəndən sorulan qan, yoxsa ağcaqanadın qanı olduğu bilinməzsə; eləcə də bədəndən sorulduğu bilinsə, lakin ağcaqanadın bədəninin bir qismi hesab olunsa, o qan pakdır. Ancaq qanın sorulması ilə ağcaqanadın öldürülməsi arasında fasilə az olsa və nəticədə o qana "insan qanı" desələr, yaxud insan, yoxsa ağcaqanad qanı deyilməsi mə`lum olmazsa, o qan nəcisdir.

### ٧. *İslam*

**Məsələ:** ٢١٢. Əgər kafir şəxs, Allahın yeganəliyinə və sonuncu Peyğəmbərin (səlləllahu əleyhi və alih) nübüvvətinə şəhadət verərsə – hər hansı dildə olsa, belə – müsəlman olur. Şəhadət verməzdən öncə nəcis olmasına hökm verilmiş olsa da, müsəlman olduqdan sonra onun bədəni, ağzının və burnunun suyu, eləcə də təri pakdır. Lakin müsəlman olan anda bədənində nəcis eyni var imişsə, gərək onu təmizləsin və nəcisin yerini suya çəksin. Hətta əgər müsəlman olmamışdan öncə nəcisin eynini bədənindən təmizləmiş olsa, vacib ehtiyata əsasən, nəcisin yerini suya çəkməlidir.

**Məsələ:** ٢١٣. Kafir olduğu vaxt şəxsin paltarı yaş halda bədəninə

dəymişsə və müsəlman olduğu an bədənində olmamışdırsa, o paltar nəcisdir. Hətta əgər əynində olmuşsa belə, vacib ehtiyata əsasən, gərək o paltardan çəkinsin.

**Məsələ:** ٢١٤. Kafir şəhadəteyni (Allahın yeganəliyinə və sonuncu Peyğəmbərin (səlləllahu əleyhi və alih) nübüvvətinə şəhadət vermək) desə və insan bunun qəlbən müsəlman olub-olmadığını bilməsə; eləcə də qəlbən müsəlman olmadığını bilsə, lakin verdiyi şəhadətə zidd bir şey ondan baş verməsə, o şəxs pakdır.

**٨. *Təbəiyyət***

**Məsələ:** ٢١٥. Nəcis olmuş bir şeyin, başqa bir şeyin pak olması ilə eyni zamanda pak olmasına təbəiyyət deyilir.

**Məsələ:** ٢١٦. Əgər şərab sirkəyə çevrilsə, onun qabı da, şərab qaynayan vaxt onun çatdığı o yerə qədər pak olar. Adətən onun üzərinə çəkilən parça və bu kimi şeylər də şərabla nəcis olmuşdursa, o da pak olar. Lakin qabın bayır tərəfi şərabla nəcis olmuşdursa, sirkəyə çevrildikdən sonra vacib ehtiyata əsasən, ondan çəkinilməlidir.

**Məsələ:** ٢١٧. Kafirin uşağı iki halda tabelik yolu ilə pak olur:

١) Müsəlman olan kafirin uşağı paklıqda ona tabedir. Həmçinin, uşağın baba, nənə və anası müsəlman olduqda da (hökm) belədir.

٢) Kafirin uşağı müsəlmanın əlinə əsir düşsə və atası və ya babalarından biri onunla yanaşı olmasa.

Hər iki halda uşağın tabelik yolu ilə pak olmasının şərti budur ki, müməyyiz (yaxşını-pisi ayırd edə bilən) olduğu təqdirdə kafirliyi izhar etməsin.

**Məsələ:** ٢١٨. Üzərində meyyitə qüsl verilən taxta, daş, meyyitin övrətinə (eybli yerinə) örtülən parça, onu yuyan şəxsin əli və meyyitlə birgə yuyulan bütün bu şeylər meyyitin qüslü tamam olandan sonra pak olar.

**Məsələ:** ٢١٩. Bir kəs əlində bir şeyi yuyursa, o şey pak olduqdan sonra o şəxsin, həmin şeylə birgə yuyulan əli də pak olar.

**Məsələ:** ٢٢٠. Əgər paltar və bu kimi şeyləri az suda suya çəksələr və yuyulduğu suyun ondan ayrılması üçün adi qaydada sıxsalar (adətən) onda qalan su pakdır. Ondan ayrılan suyun hökmü ٢٧-ci məsələdə (ğusalənin hökmündə) deyildi.

**Məsələ:** ٢٢١. Nəcis qabı az su ilə suya çəkərkən onun üzərinə axıdılan su, ondan ayrıldıqdan sonra, adətən onda qalan az miqdarda su pakdır. Ayrılan bu suyun hökmü də ٢٧-ci məsələdə deyildi.

**٩. *Nəcasətin eyninin aradan getməsi***

**Məsələ:** ٢٢٢. Əgər heyvanın bədəni qan kimi nəcisin eyni, yaxud su kimi (sonradan) nəcis olmuş bir şeylə bulaşmış olsa, onlar aradan qalxdıqdan sonra heyvanın bədəni pak olar. Həmçinin, insanın ağız və

burunun içi kimi daxili orqanı; məsələn: dişlərin dibindən gələn qan ağız suyunda (həll olaraq) aradan getsə, ağızın içini suya çəkmək lazım (vacib) deyil. Lakin süni (protez) diş ağızda, ağızın qanı ilə bulaşarsa, ehtiyata əsasən, gərək suya çəkilsin.

**Məsələ:** ٢٢٣. Əgər dişin dibində yemək olsa və ağızın içindən qan gələrsə, şəxs dişlərin dibində qalan yeməyin qana dəydiyini bilməsə, yemək pakdır. Əgər qan ona dəymiş olsa, ehtiyata əsasən, nəcisliyinə hökm olunur.

**Məsələ:** ٢٢٤. İnsanın bədəninin bağlanan zaman üst-üstə düşən göz qapaqları, dodaqlar və bu kimi daxili, yoxsa zahiri hesab olunmasını bilmədiyi üzvlər nəcisə dəyərsə, ehtiyata əsasən, gərək suya çəkilsin.

**Məsələ:** ٢٢٥. Əgər nəcis toz-torpaq quru paltar, xalça-palaz və bu kimi şeylərə qonarsa, onların töküləcəyi tərzdə silkələsələr və yaş bir şey onlara dəyməsə, nəcis olmaz.

### ١٠. *Nəcasət yeyən heyvanın istibrası*

**Məsələ:** ٢٢٦. İnsan nəcisini yeməyə adət etmiş heyvanın bövl və peyini nəcisdir. Əgər onları pak etmək istəsələr, gərək istibra etsinlər; yə`ni müəyyən bir müddət nəcis yeməsinin qarşısını alsınlar və ehtiyata əsasən, onları pak şeylərlə yemləsinlər ki, bir müddətdən sonra daha ona «nəcis yeyən» deyilməsin.

Vacib ehtiyata əsasən, gərək nəcis yeyən dəvə ٤٠ gün, inək ٢٠ gün, qoyun ١٠ gün, su quşları ٥ gün, ev quşları ٣ gün deyilmiş tərzdə istibra olunsun. Əgər deyilən müddətdən sonra da onlara "nəcis yeyəndir" deyilərsə, gərək "nəcis yeyəndir" deyilməyəcək müddətə qədər yuxarıdakı qayda ilə istibra olunsun.

### ١١. *Müsəlmanın qaib olması*

**Məsələ:** ٢٢٧. Əgər müsəlmanın bədəni, paltarı, yaxud onun ixtiyarında olan qab, xalça-palaz və bu kimi başqa şeylərin nəcis olmasına yəqin etsələr və o müsəlman qaib olsa, həmin nəcis şeylərin o müsəlman tərəfindən suya çəkilməsinə ehtimal verilməsi şərtilə deyilən şeylər pakdır. Vacib ehtiyata əsasən, aşağıdakı şərtlərə də əməl olunması mö`təbərdir:

١) O müsəlman şəxs bədəni, yaxud paltarı nəcis edən şeyləri nəcis bilsin. Deməli, əgər kafiri nəcis hesab etməyərək onun paltarı yaş halda kafirə dəysə, amma şəxs onu nəcis hesab etməsə, o müsəlman qaib olduqdan sonra onun paltarını pak hesab etmək olmaz.

٢) Onun bədən və ya paltarının nəcis şeyə dəydiyini və paklıq nəcasət məsələlərinə laqeyd olmadığını bilməlidir.

٣) İnsan o şeyləri paklıqla şərtlənən işlərdə işlətdiyini görməlidir. Məsələn, görməlidir ki, o paltarla namaz qılır, yaxud o qabda yemək yeyir.

٤) Şəxs, o müsəlmanın, həmin şeylərlə gördüyü işlərdə paklığın şərt olmasını bilməsinə ehtimal verməlidir. Deməli, əgər bilməsə ki, namaz qılanın paltarı pak olmalıdır və nəcis olmuş paltarla namaz qılmış olsa, o paltarı pak hesab etmək olmaz.

٥) O müsəlman həddi-buluğa çatmış olmalıdır.

**Məsələ:** ٢٢٨. Şəxs əvvəllər nəcis olan bir şeyin paklanmasına yəqin etsə, yaxud arxayın olsa, yaxud iki nəfər ədalətli, yaxud bir adil şəxs onun pak olmasını desə; həmçinin, e`timadlı olan bir şəxs onun pak olmasını desə və onun sözünün əksi güman olunmasa, o şey pakdır. Eləcə də o bir şəxs, öz ixtiyarında olan nəcis şeyin pak olduğunu desə və murdar-təmizə riayət etməməkdə müttəhim olunmasa, yaxud müsəlman şəxs nəcis bir şeyi suya çəkmiş olsa, ancaq düzgün suya çəkib-çəkməməsi mə`lum olmasa da, hökm eynilə belədir (o şey pak olur).

**Məsələ:** ٢٢٩. Şəxsin paltarını suya çəkməyə vəkil edilmiş bir kəs "onu suya çəkmişəm" desə və onun dediyindən arxayınlıq hasil olsa, yaxud dediyinin əksi güman edilməyən e`timadlı şəxs olsa, o paltar pakdır. Lakin murdar-təmizə riayət etməməkdə ittiham olunmayan şəxs ixtiyarında olan paltarı suya çəkdiyini desə, arxayınlıq hasil olması lazım deyildir.

**Məsələ:** ٢٣٠. Nəcis bir şeyin suya çəkilməsində yəqin və arxayınlıq əldə edə bilməmək kimi bir hala malik olan (vəsvas) şəxs camaatın paklanmada əməl etdiyi miqdarla kifayətlənə bilər.

### ١٢. *Adi miqdarda qanın axması*

**Məsələ:** ٢٣١. ٩٨-ci məsələdə deyildiyi kimi, şər`i yolla başı kəsilmiş heyvandan adi miqdarda qan axmışdırsa, onun bədənində qalan qanlar pakdır.

**Məsələ:** ٢٣٢. Əvvəlki məsələdə deyilən hökm əti halal olan heyvanlara məxsusdur, əti haram olan heyvanlara aid deyildir.

## QABLARIN HÖKMLƏRİ

**Məsələ:** ٢٣٣. İtin, donuzun və murdarın dərisindən düzəldilmiş qablarda bir şey yemək-içmək, rütubət onun nəcisliyinə səbəb olduğu təqdirdə, haramdır. O qablar qüsl, dəstəmaz və pak şeylərlə əncam verilməsi şərt olan bu kimi əməllərdə istifadə olunmamalıdır. Müstəhəbb ehtiyat budur ki, it, donuz və murdarın dərisindən, qab kimi şeylər olmasa da, istifadə olunmasın.

**Məsələ:** ٢٣٤. Qızıl və gümüş qablarda yeyib-içmək haramdır. Ehtiyat vacibə əsasən, hətta onların otağın bəzədilməsi kimi hər növ istifadəsi də caiz deyildir. Lakin onları saxlamağın eybi yoxdur; eləcə də qızıl-gümüş qablar düzəltmək, düzəldilən şeyin əmək haqqını almaq və onları alıb-satmaq caizdir. Yalnız zinət məqsədi ilə olarsa, bu işlər

məhəlli-işkaldır.

**Məsələ:** ٢٣٥. Dəstəyi qızıl, ya gümüşdən düzəldilmiş stəkanı götürdükdən sonra o dəstəyə "qızıl, ya gümüş qab" deyilərsə, qızıl və gümüş stəkanın hökmündədir. Əgər ona qab deyilməzsə, onu işlətməyin eybi yoxdur.

**Məsələ:** ٢٣٦. Üzərinə qızıl, ya gümüş suyu çəkilmiş qabı işlətməyin eybi yoxdur. Lakin qabın üzərində gümüşlə işlədilmişsə, onun gümüşlə bəzədilmiş yerlərindən yemək və içməkdə istifadə oluna bilməz.

**Məsələ:** ٢٣٧. Əgər bir metalı qızıl, yaxud gümüşlə qarışdırıb onların qarışığından (xəlitədən) qab düzəldilsə və onun filizi (metalı) «gümüş, ya qızıl qab» deyilməyəcək qədər (çox) olsa, onu işlətməyin maneəsi yoxdur.

**Məsələ:** ٢٣٨. Əgər insan qızıl, yaxud gümüş qabda olan yeməyi, bu kimi qablarda yemək yeməyin haram olması üzündən həmin qablarda olan yeməyi başqa qaba töksə və bu əməl camaat arasında qızıl, yaxud gümüş qablardan faydalanmaq kimi qiymətləndirilməzsə, ikinci qabdan yemək yeməyin maneəsi yoxdur.

**Məsələ:** ٢٣٩. Qəlyanın lüləsi, qılıncın qını, bıçaq və ya Qur`anın qabı əgər qızıl, yaxud gümüşdən olarsa, onu işlətməyin eybi yoxdur. Müstəhəbb ehtiyat budur ki, qızıl və gümüşdən olan ətir qabı və sürmə qabları işlədilməsin.

**Məsələ:** ٢٤٠. Çarəsizlik ucbatından (çıxılmaz halda) qızıl, yaxud gümüş qablarda zəruri ehtiyacı aradan qaldıracaq qədərdə yeyib-içməyin maneəsi yoxdur. Lakin bu miqdardan artıq yeyib-içmək caiz deyil.

**Məsələ:** ٢٤١. Qızıl-gümüşdənmi, yoxsa başqa bir şeydən düzəldildiyi mə`lum olmayan qabı işlətməyin eybi yoxdur.

## DƏSTƏMAZ

**Məsələ:** ٢٤٢. Dəstəmazda üzü və qolları yumaq, başın qabaq tərəfinə və ayaqların üzərinə məsh çəkmək vacibdir.

**Məsələ:** ٢٤٣. Üz, uzunluğu alının yuxarısından, yəni tük bitən yerdən çənənin qurtaracağına qədər, eni isə, baş barmaqla orta barmağın arası tutan qədər yuyulmalıdır. Kamil yuyulmasına arxayın olmaq üçün gərək deyilən miqdarın ətrafı da bir az yuyulsun.

**Məsələ:** ٢٤٤. Əgər bir şəxsin üzü, yaxud əli adi insanlarla müqayisədə kiçik və ya böyük olarsa, adi insanların üzlərini necə yuduğuna baxmalı və üzünü o cür yumalıdır. Əgər üz və əl – hər ikisi adi qədərin əksinə, lakin bir-birilə mütənasibdirsə, qabaqkı məsələdə deyilən tərzdə yumalıdır.

**Məsələ:** ٢٤٥. Əgər gözlərin küncündə, qaşlarda və dodağın küncündə suyun (dəriyə) keçməsinə mane olan çirk, ya hər hansı bir şeyin olmasına ehtimal verirsə, onda bu ehtimal əqlə uyğun olarsa, gərək dəstəmazdan öncə nəzərdən keçirsin və maneələri aradan qaldırsın.

**Məsələ:** ٢٤٦. Üzün dərisi tüklərin altından görünərsə suyu dəriyə çatdırmalıdır. Əgər dərisi görünmürsə, tükləri yumaq kifayətdir və suyu tükün dibinə çatdırmaq lazım (vacib) deyildir.

**Məsələ:** ٢٤٧. Əgər üzün dərisinin tüklərin dibindən görünüb-görünmədiyində şəkk etsə, tükləri yumalı və həmçinin, dəriyə də su çatdırmalıdır.

**Məsələ:** ٢٤٨. Burnun içi, gözün və dodağın qapandıqda görünməyən yerlərini yumaq vacib deyildir. Lakin yuyulmalı olan yerlərdən yuyulmamış bir yerin qalmadığına yəqin etməlidir. Vacib olan qədərin hasil olmasına əmin olmaq üçün nə qədər yumaq lazım olduğunu əvvəllər bilməyən şəxs əgər almış olduğu dəstəmazlarda o miqdarı yuyub-yumadığını bilməsə, bu halda həmin dəstəmazla qıldığı namazın vaxtı keçməmişdirsə, dəstəmazını (həmin miqdarın yuyulduğuna yəqin edəcəyi şəkildə) təzələməli və namazı yenidən qılmalıdır. Vaxtı keçmiş namazları isə qəza etməlidir.

**Məsələ:** ٢٤٩. Dəstəmazda qollar yuxarıdan aşağıya doğru yuyulmalıdır. Əgər aşağıdan yuxarıya tərəf yuyularsa, dəstəmaz batildir. Üz də vacib ehtiyata görə həmin tərzdə yuyulmalıdır.

**Məsələ:** ٢٥٠. Əgər əli isladıb üzə və qollara çəksə, əlin yaşlığı suyun onlardan azacıq axması qədər olsa, kifayətdir.

**Məsələ:** ٢٥١. Üz yuyulduqdan sonra sağ qol, ondan sonra da sol

qol dirsəkdən barmaqların ucuna qədər yuyulmalıdır.

**Məsələ:** ٢٥٢. Dirsəyin tam yuyulmasına əmin olmaq üçün qollar gərək dirsəkdən bir az yuxarıdan yuyulsun.

**Məsələ:** ٢٥٣. Üzü yumazdan öncə, əllərini biləklərə qədər yumuş olan kəs, dəstəmaz alarkən (dirsəkdən) barmaqların ucuna qədər yumalıdır. Əgər biləklərə qədər yuyarsa, onun dəstəmazı batildir.

**Məsələ:** ٢٥٤. Dəstəmazda əlləri və üzü bir dəfə yumaq vacib, ikinci dəfə yumaq müstəhəbb, üç dəfə və daha artıq yumaq haramdır. Hansının birinci, ikinci və ya üçüncü hesab olunması üzvlərin dəstəmaz qəsdi ilə yuyulmasına bağlıdır. Məsələn: Əgər üç dəfə üzünə su vurub üçüncü dəfə dəstəmaz qəsdi ilə yusa, eybi yoxdur və bu, birinci dəfə yuması hesab olunur. Lakin üç dəfə üzünə su vurub və hər dəfə su vuranda dəstəmaz qəsdi etsə, üçüncü dəfə haramdır.

**Məsələ:** ٢٥٥. Hər iki qollar yuyulduqdan sonra gərək dəstəmazın əldə qalmış suyu ilə başa məsh edilsin. Vacib ehtiyata əsasən, (başa) məsh sağ əlin içi ilə edilməlidir. Müstəhəbb ehtiyatdır ki, məsh üstdən aşağı edilsin.

**Məsələ:** ٢٥٦. Başın, alnın müqabilində yerləşən dörddə biri məsh yeridir. Bu yerin hansı yerinə, hansı ölçüdə məsh edilsə kifayətdir. (Eni) üç bağlı barmaq ölçüsündə məsh edilməsi müstəhəbdir və uzunluğu bir barmaq uzunluğunda olması daha yaxşıdır.

**Məsələ:** ٢٥٧. Başın dərisinə məsh etmək vacib deyildir; hətta başın ön tərfinin tükünə də məsh edilsə, səhihdir. Lakin başın ön tərəfinin tükləri uzun olan və darayanda tükləri üzünə tökülən, yaxud başın başqa yerlərinə çatan şəxs gərək tüklərin dibinə məsh etsin, yaxud saçları ortadan ayırıb dəriyə məsh etsin. Əgər başın digər yerlərindəki tükləri və ya üzünə tökülən tükləri başın ön tərəfinə toplayıb onun üstünə məsh etsə, bu cür məsh batildir.

**Məsələ:** ٢٥٨. Başa məsh çəkdikdən sonra dəstəmaz suyunun əllərdə qalmış nəmliyi ilə gərək ayaqların üstünə məsh çəkilsin. Onun vacib olan qədəri barmaqların birinin başından ayağın üstündəki çıxıntıya qədərdir. Müstəhəbb ehtiyat budur ki, oynağa qədər çəkilsin. Vacib ehtiyata əsasən, sağ ayağa soldan qabaq məsh çəkilsin, həmçinin, sağ əl ilə sağ ayağa, sol əl ilə sol ayağa məsh edilsin.

**Məsələ:** ٢٥٩. Ayağın məshinin eni hər hansı miqdarda olsa, kifayət edər. Lakin daha fəzilətlisi budur ki, ayağın üstünün hamısına bütövlükdə əlin içi ilə məsh çəkilsin.

**Məsələ:** ٢٦٠. Vacib ehtiyat budur ki, ayağa məsh edərkən əli barmaqların başına qoyub, sonra ayağın üstünə çəksin, yaxud əli ayağın üstündəki çıxıntıya, yaxud oynağa qoyub barmaqların ucuna qədər çəkmək lazımdır, nəinki əli tamamilə ayağın üstünə qoyub bir az çəkmək.

**Məsələ:** ٢٦١. Baş və ayaqlara məsh çəkərkən əli onların üstünə çəkərkən lazımdır, nəinki əli saxlayıb başı, yaxud ayaqları onun üstünə çəkmək. Lakin əli çəkərkən baş, yaxud ayaq azacıq hərəkət etsə, eybi yoxdur.

**Məsələ:** ٢٦٢. Məshin yeri quru olmalıdır. Əgər əlin rütubəti, onda tə`sir etməyəcək qədər çox olsa, məsh batildir. Ancaq əgər onun yaşlığı, məshdən sonra onda görünən rütubət, camaat arasında "təkcə əlin yaşlığı səbəbilədir" deyiləcək miqdarda az olsa, eybi yoxdur.

**Məsələ:** ٢٦٣: Əgər məsh etmək üçün əlin içində yaşlıq qalmasa, (dəstəmaz üzvlərindən) kənarda olan su ilə əli islatmaq olmaz. Bunun üçün üzün çərçivəsi daxilində olan saqqalın nəmliyindən götürməli və onunla məsh çəkməlidir. Saqqaldan başqa yerdən yaşlıq götürülüb, onunla məsh etmək məhəlli-işkaldır.

**Məsələ:** ٢٦٤. Əgər əlin yaşlığı yalnız başa məsh etmək miqdarında olsa, başa həmin yaşlıqla məsh çəkilməli və ayaqların məshi üçün, üzün çərçivəsi daxilində olan saqqalın yaşlığından götürməlidir.

**Məsələ:** ٢٦٥. Ayaqqabı və corabın üzərindən məsh çəkmək batildir. Lakin şiddətli soyuq, oğru və yırtıcıdan qorxu və bu kimi səbəblər ucbatından ayaqqabını, yaxud corabı çıxartmaq mümkün olmasa, vacib ehtiyata əsasən, corabın və ya ayaqqabının üstündən məsh çəkməli və təyəmmüm də etməlidir.

**Məsələ:** ٢٦٦. Əgər ayağın üstü nəcis olsa və məsh etmək üçün onu suya çəkə bilməsə, gərək təyəmmüm etsin.

## İRTİMASİ DƏSTƏMAZ

**Məsələ:** ٢٦٧. Şəxsin dəstəmaz niyyətilə üzünü və qolları suya batırmasına "irtimasi dəstəmaz" deyilir. Lakin həmin əlin nəmliyi ilə məsh çəkməyin işkalı vardır. Buna görə də əgər sol qolu irtimasi şəkildə yuyarsa, qolun əlin içi tərəfindən olan bir miqdarını suya batırmasın və o hissənin suya batırılmayan qədər yerini sağ əli ilə yumalıdır. Vacib ehtiyata əsasən, qolları sudan çıxarmaqla irtimasi dəstəmaz gerçəkləşmir.

**Məsələ:** ٢٦٨. İrtimasi dəstəmazda qollar yuxarıdan aşağıya doğru yuyulmalıdır. Deməli, əgər qolları suya batıran zaman dəstəmaz qəsd edirsə, qolları dirsək tərəfdən suya batırsın. Həmçinin, vacib ehtiyata əsasən, üz də alın tərəfdən suya batırılmalıdır.

**Məsələ:** ٢٦٩. Dəstəmaz üzvlərinin bə`zisini irtimasi, bə`zisin isə qeyri-irtmasi şəkildə yumağın eybi yoxdur.

## DƏSTƏMAZ ALARKƏN MÜSTƏHƏBB OLAN DUALAR

**Məsələ:** ٢٧٠. Müstəhəbbdir ki, dəstəmaz alan şəxs suyu əllərinə götürdükdə belə desin:

بِسْمِ اللَّهِ وَ بِاللَّهِ اَللَّهُمَّ اجْعَلْنِي مِنَ التَّوَّابِينَ وَ اجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ

***"Bismillahi və billah, Əllahummə c`əlni minət-təvvabinə və c`əlni minəl-mutətəhhirin."***

Məzməzə (ağzını yaxalayan) vaxtı belə desin:

اَللَّهُمَّ لَقِّنِي حُجَّتِي يَوْمَ أَلْقَاكَ وَ أَطْلِقْ لِسَانِي بِذِكْرِكَ

***"Əllahummə ləqqini huccəti yovmə əlqakə və ətliq lisani bizikrik."***

İstinşaq edərkən (buruna su çəkəndə) belə desin:

اَللَّهُمَّ لا تُحَرِّمْ عَلَيَّ رِيحَ الْجَنَّةِ وَ اجْعَلْنِي مِمَّنْ يَشُمُّ رِيحَهَا وَ رَوْحَهَا وَ طِيْبَهَا

***"Əllahummə la tuhərrim ələyyə rihəl-cənnəti və c`əlni mimmən yəşummu rihəha və rovhəha və tibəha"***

Üzünü yuyan zaman desin:

اَللَّهُمَّ بَيِّضْ وَجْهِي يَوْمَ تَسْوَدُّ فِيهِ الْوُجُوهُ وَ لا تُسَوِّدْ وَجْهِي يَوْمَ تَبْيَضُّ فِيهِ الْوُجُوهُ

***"Əllahummə bəyyiz vəchi yovmə təsvəddu fihil-vucuhu və la tusəvvid vəchi yovmə təbyəzzu fihil-vucuh"***

Sağ əli yuyarkən belə desin:

اَللَّهُمَّ اَعْطِنِي كِتَابِي بِيَمِينِي وَ الْخُلْدَ فِي الْجَنَانِ بِيَسَارِي وَ حَاسِبْنِي حِسَاباً يَسِيراً

***"Əllahummə ə`tini kitabi biyəmini vəl-xuldə fil-cənani biyəsari və hasibni hisabən yəsira"***

Sol əli yuyarkən desin:

اَللَّهُمَّ لاَ تُعْطِنِي كِتَابِي بِشِمَالِي وَ لاَ مِنْ وَرَاءِ ظَهْرِي وَ لاَ تَجْعَلْهَا مَغْلُولَةً اِلَى عُنُقِي وَ أَعُوذُ بِكَ مِنْ مُقَطَّعَاتِ النِّيْرَانِ

***"Əllahummə la tu`tini kitabi bişimali və la min vərai zəhri və la təc`əlha məğlulətən ila unuqi və əuzu bikə min muqəttəatin-niran"***

Başa məsh edərkən desin:

اَللَّهُمَّ غَشِّنِي بِرَحْمَتِكَ وَ بَرَكَاتِكَ وَ عَفْوِكَ

***"Əllahummə ğəşşini birəhmətikə və bərəkatikə və əfvik"***

Ayağa məsh edərkən belə desin:

اَللَّهُمَّ ثَبِّتْنِي عَلَى الصِّرَاطِ يَوْمَ تَزِلُّ فِيهِ الْأَقْدَامُ وَ اجْعَلْ سَعْيِي فِي مَا يُرْضِيْكَ عَنِّي يَا ذَا الْجَلاَلِ وَ الْإِكْرَامِ

***"Əllahummə səbbitni ələs-sirati yovmə təzillu fihil-əqdamu***

***vəc`əl sə`yi fima yurzikə ənni, ya zəl-cəlali vəl-ikram."***

Hər zaman dəstəmaz alanda belə demək müstəhəbdir:

**اَشْهَدُ أَنْ لاَ اِلهَ إِلاَّ اللَّهُ اَللَّهُمَّ اجْعَلْنِي مِنَ التَّوَّابِينَ وَ اجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ وَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعالَمِينَ**

***"Əşhədu ən la ilahə illəllah. Əllahummə c`əlni minət-təvvabinə vəc`əlni minəl-mutətəhhirin, vəl-həmdu lillahi Rəbbil-aləmin."***

## DƏSTƏMAZIN DÜZGÜN OLMASI ŞƏRTLƏRİ

Dəstəmazın düzgünlüyündə bir neçə şey şərtdir:

**١-ci şərt:** Dəstəmaz suyu pak olmalıdır.

**٢-ci şərt:** Su mütləq olmalıdır.

**Məsələ:** ٢٧١. Muzaf və nəcis su ilə alınan dəstəmaz batildir. Baxmayaraq ki, şəxs onun nəcis, yaxud muzaf olmasını bilməsin və ya yaddan çıxarmış olsun. Əgər həmin dəstəmazla namaz qılmışdırsa, gərək düzgün dəstəmazla namazı yenidən qılsın.

**Məsələ:** ٢٧٢. Əgər dəstəmaz almaq üçün palçıqlı muzaf sudan başqa bir su olmasa namazın vaxtı dar olduğu təqdirdə təyəmmüm etməlidir. Əgər vaxt varsa, suyun saf olmasını (palçığın çökməsini) gözləməli, yaxud suyu süzüb təmizləməli və dəstəmaz almalıdır.

**٣-cü şərt:** Dəstəmaz alınan su və vacib ehtiyata əsasən, dəstəmazın alındığı yerin fəzası da mübah olmalıdır (qəsbi olmamalıdır).

**Məsələ:** ٢٧٣. Qəsb edilmiş, həmçinin, sahibinin razılığına dair dəlil olmayan su ilə dəstəmaz almaq haram və batildir.

Əgər dəstəmazın suyu qəsbi yerə tökülürsə, o yerdən başqasında dəstəmaz almaq mümkün olmursa, gərək təyəmmüm edilsin. Başqa yerdə dəstəmaz almaq mümkün olsa, həmin (başqa) yerdə dəstəmaz almaq lazımdır. Lakin günah edib həmin yerdə dəstəmaz alsa, dəstəmazın düzgünlüyü məhəlli-işkaldır.

**Məsələ:** ٢٧٤. Mədrəsənin ümumi insanlar, yoxsa təkcə mədrəsədə təhsil alanlar üçün vəqf edildiyi bilinməyən hovuzunda dəstəmaz almaq caiz deyildir. Əgər vəqfin ümumi olmasına, hətta camaatın dəstəmaz almasından belə, xatircəmlik hasil olarsa orada dəstəmaz almağın eybi yoxdur.

**Məsələ:** ٢٧٥. Əgər şəxs bir məsciddə namaz qılmaq istəmirsə və onun hovuzunun bütün camaat üçünmü, yoxsa təkcə orada namaz qılanlar üçün vəqf olunmasını bilmirsə, o məscidin hovuzundan dəstəmaz ala bilməz. Lakin əgər adətən, orada namaz qılmaq istəməyənlərin o hovuzdan dəstəmaz almaqları ilə vəqfin ümumiliyinə arxayınlıq hasil olarsa orada dəstəmaz ala bilər.

**Məsələ:** ٢٧٦. Mehmanxana, kiçik bazarların və bu kimi yerlərin sakini olmayanların oranın hovuzundan aldığı dəstəmazlar, sahibinin razılığına əminlik hasil olduğu təqdirdə, düzgündür, hətta bu əminlik o yerlərin sakini olmayanların dəstəmaz almalarından hasil olsa belə.

**Məsələ:** ٢٧٧. Sahibinin razı olub-olmaması bilinməsə belə, böyük arxlardan dəstəmaz almağın eybi yoxdur. Lakin sahibi dəstəmaz almağı qadağan etsə, yaxud insan onun razı olmadığını bilərsə, onlardan dəstəmaz almaq caiz deyildir. Həmçinin, vacib ehtiyata əsasən, onların sahibi uşaq və ya dəli olarsa, yaxud o arxlar qəsbkar bir adamın istifadəsində olarsa və ya sahibinin razı olmadığına güman edilərsə, (yenə də caiz deyil). Amma kəndlər kimi, abadlıqlardan keçən arx və kanalların suyundan içmək, dəstəmaz almaq və s. kimi istifadənin, sahibi uşaq və ya dəli olarsa belə, eybi yoxdur.

**Məsələ:** ٢٧٨. Suyun qəsb olunduğu unudularaq dəstəmaz alınırsa dəstəmaz səhihdir. Amma şəxs özü suyu qəsb etsə və qəsb etdiyini də unutsa, qəsbkarlıqdan tövbə etmədiyi təqdirdə aldığı dəstəmaz batildir. Tövbə etmiş olsa, dəstəmazın batilliyi məhəlli-işkaldır.

**٤- cü şərt:** Dəstəmaz suyunun qabı mübah olmalıdır.

**٥- ci şərt:** Dəstəmaz suyunun qabı vacib ehtiyata əsasən, qızıl, yaxud gümüşdən olmasın. Bu iki şərt sonrakı məsələlərdə təfsilatı ilə deyiləcək.

**Məsələ:** ٢٧٩. Əgər dəstəmaz suyu qəsb edilmiş qabda olsa və ondan başqa su olmasa, o suyu şər`i qaydada (qəsbi qaba toxunmadan) başqa bir qaba boşaltmaq mümkün olduğu təqdirdə ona boşaldıb sonra dəstəmaz almaq lazımdır. Əgər mümkün olmazsa, təyəmmüm edilməlidir. Əgər başqa suyu varsa, onunla dəstəmaz almaq lazımdır. Hər iki surətdə əgər günah edərsə və suyu götürüb sonra onunla dəstəmaz alsa, dəstəmazı düzgündür.

Bu qayda ilə, əgər qızıl, yaxud gümüş qabdan dəstəmaz alsa, düzgündür, istər başqa suyu olsun, istərsə də olmasın. Əgər qəsb edilmiş qabdan irtimasi dəstəmaz alsa, onun dəstəmazi haram və batildir, istər başqa suyu olsun, istərsə də olmasın. Amma qızıl, yaxud gümüş qabdan irtimasi dəstəmaz alsa, onun düzgün və caiz olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٨٠. Misal üçün, bir kərpici və ya daşı qəsbi olan hovuzdan su götürməyin camaatın nəzərində qəsbi kərpic və daşdan istifadə etmək kimi qiymətləndirilməzsə, eybi yoxdur. Amma qəsbi şeydən istifadə kimi qiymətləndirilərsə, bu halda o sudan başqa suyu olmazsa, təyəmmüm etməlidir. Ondan başqa suyu olduğu təqdirdə vəzifəsi o su ilə dəstəmaz almaqdır. Lakin hər iki halda əgər günah edib su götürsə və su götürdükdən sonra (başqa yerdə) dəstəmaz alsa, dəstəmazı düzgündür. Hər iki surətdə irtimasi şəkildə alınan dəstəmaz, camaatın nəzərində qəsbi şeydən istifadə kimi qiymətləndirilsə, batildir.

**Məsələ:** ٢٨١. Əgər İmam və ya imamzadələrin birinin keçmişdə qəbiristan olmuş səhnlərində (həyətlərində) hovuz, yaxud arx düzəltmiş olsalar, insan o səhnin yerinin qəbiristanlıq üçün vəqf olunmasını bilməsə, həmin hovuz və arxdan dəstəmaz almağın eybi yoxdur.

**٦-cı şərt:** Dəstəmaz üzvləri dəstəmaz alarkən və məsh edərkən pak olmalıdır. Hətta o paklıq dəstəmaz suyu ilə – su mö`təsim olduqda – yumaqla hasil olsa da belə; «mö`təsim» – yəni, yağış, kür və axar su kimi nəcis dəydikdə nəcis olmayan su.

**Məsələ:** ٢٨٢. Dəstəmaz tamamlanmamış, yuduğu və məsh etdiyi yerlər nəcis olsa, dəstəmaz düzgündür.

**Məsələ:** ٢٨٣. Bədənin dəstəmaz üzvü olmayan bir yeri nəcis olarsa, dəstəmaz səhihdir. Lakin əgər bövl və ğaitin məxrəcini nəcisdən paklamamışdırsa, müstəhəb ehtiyata əsasən, əvvəl onları paklayıb sonra dəstəmaz alsın.

**Məsələ:** ٢٨٤. Dəstəmaz üzvlərindən hər hansı biri nəcis olmuş olarsa və dəstəmaz aldıqdan sonra, həmin yerin dəstəmazdan qabaq suya çəkib-çəkməməsində şəkk edərsə bu halda dəstəmaz alarkən o yerin pak və ya nəcis olmasına fikir verməmişdirsə, dəstəmazı batildir. Əgər bu məsələyə fikir verdiyini bilsə və ya ehtimal versə, dəstəmazı səhihdir.Hər iki halda nəcis olan yeri suya çəkməlidir.

**Məsələ:** ٢٨٥. Əgər üzdə və əllərdə suyun zərəri olmayan və qanı dayanmayan kəsik, yaxud yara olarsa, o üzvün sağlam hissələrini yuduqdan sonra ٢٤٩-cu məsələdə deyilən tərtiblə, həmin kəsik və ya yara yeri kürr, ya axar suya batırmaq və suyun altında qan dayanana qədər oranı sıxmaq, kəsiyin, yaxud yaranın üstünə- dəstəmaz almaq niyyətilə əli yuxarıdan aşağı çəkmək lazımdır ki, su onun üstündə cari olsun. Sonra məshi əlin içinin suyu ilə çəkmək şərtinə riayət edərək dəstəmaz tamamlanmalıdır.

**٧-ci şərt:** Namaz və dəstəmaz üçün kifayət qədər vaxt edici olmalıdır.

**Məsələ:** ٢٨٦. Əgər vaxt dardırsa, belə ki, dəstəmaz almaqla namazın bir qədəri, yaxud hamısı vaxt keçdikdən sonra qılınacaqdır, bu halda təyəmmüm edilməlidir. Amma təyəmmümlə dəstəmazın hər biri üçün eyni qədərdə vaxt lazım olarsa, gərək dəstəmaz alınsın.

**Məsələ:** ٢٨٧. Vaxtın darlığı səbəbinə vəzifəsi təyəmmüm etmək olan, bir şəxs əgər dəstəmazın müstəhəb olması məqsədilə, yaxud dəstəmazın şər`i qanun olduğu – Qur`an oxumaq kimi –, bir iş üçün dəstəmaz alarsa, dəstəmaz düzgündür. Əgər şəxs bir namazı elə tərzdə qılmağı qəsd etsə ki, namazın dəstəmazla qılınması əmr olunmasaydı, dəstəmaz qəsdi olmazdı, bu halda o dəstəmaz batildir.

**٨- ci şərt:** Qürbət qəsdi ilə və ixlasla alsın. Qürbət qəsdi dedikdə məqsəd budur ki, əməli, mütəal Allaha mənsub etmək məqsədi ilə,

məsələn, Allahın fərmanlarını yerinə yetirmək və Onun üçün sevimli olması məqsədilə yerinə yetirsin.

**Məsələ:** ٢٨٨. Dəstəmazın niyyətini dilə gətirmək, yaxud qəlbdən keçirmək lazım (vacib) deyil; Əgər dəstəmazın bütün işlərini sadəcə, ilahi məqsədlə yerinə yetirsə, kifayətdir.

**٩-cu şərt:** Dəstəmaz deyilmiş tərtiblə yerinə yetrilməlidir. Yə`ni əvvəlcə üz, sonra sağ qol , sonra sol qol yuyulmalı və daha sonra baş və ayaqlara məsh çəkilməlidir. Əgər dəstəmazı bu tərtiblə almasa, batildir və vacib ehtiyata əsasən, sol ayağa, sağ ayaqdan sonra məsh çəkilməlidir.

**١٠-cu şərt:** Dəstəmazın işləri fasiləsiz, ardıcıl yerinə yetirilməlidir.

**Məsələ:** ٢٨٩. Dəstəmazın işləri arasında o qədər fasilə salsa ki, bir üzvü yuyan, yaxud ona məsh çəkən vaxt əvvəlki üzvlərin suyunun qurumasına gətirib çıxaracaq, bu halda dəstəmaz batildir. Amma əgər yumaq, yaxud məsh etmək istədiyi yerdən əvvəlki yer quruyarsa, məsələn, sol qolu yumaq istədikdə sağ qolun suyu quruyarsa, amma üz yaş olsa, dəstəmaz düzgündür.

**Məsələ:** ٢٩٠. Dəstəmazın işləri ardıcıl yerinə yetirilsə, amma havanın istiliyi, yaxud bədənin hərarətinin çoxluğu və s. buna bənzər səbəblərdən bir üzvü yuyarkən əvvəlki üzvün suyu quruyarsa, dəstəmaz səhihdir.

**Məsələ:** ٢٩١. Dəstəmaz əsnasında yeriməyin eybi yoxdur. Belə ki, üz və qolları yuduqdan sonra bir neçə addım yol gedərək sonra baş və ayaqlara məsh edilsə, dəstəmaz düzgündür.

**١١-ci şərt:** Üz və qolların yuyulmasını, baş və ayaqların məshini şəxs özü yerinə yetirməlidir. Əgər bir şəxs üçün başqası dəstəmaz alsa, yaxud üz və qolları yumaqda, həmçinin, baş və ayaqlara məsh etməkdə kömək etsə, dəstəmaz batildir.

**Məsələ:** ٢٩٢. Dəstəmaz ala bilməyən şəxs dəstəmaz almaq üçün gərək naib (köməkçi) tutsun. Belə ki, naib zəhmət haqqı da istəsə, dəstəmaz aldıranın buna imkanı olsa, həmçinin, halına ziyanı olmasa, zəhmət haqqını verməlidir. Lakin dəstəmazın niyyətini şəxs özü etməlidir. Vacib ehtiyata əsasən, köməkçi də niyyət etməlidir, şəxs məshi öz əli ilə etməlidir, əgər edə bilməsə, köməkçi şəxs onun əlindən tutmalı və onun əvəzindən məsh çəkməlidir. Əgər bu da mümkün olmasa, köməkçi o şəxsin əlindən nəmlik götürərək həmin nəmliklə şəxsin baş və ayaqlarına məsh etməlidir.

**Məsələ:** ٢٩٣. Dəstəmazın işlərindən hər hansı birini şəxs özü yerinə yetirə bildiyi halda həmin işdə köməkçi tutmamalıdır.

**١٢-ci şərt:** Sudan istifadə etməyin şəxs üçün maneəsi, ziyanı olmamalıdır.

**Məsələ:** ٢٩٤. Bir şəxs dəstəmaz alacağı təqdirdə xəstələnəcəyindən qorxursa, dəstəmaz almamalıdır. Eləcə də suyu dəstəmaza sərf etməklə susuz qalacağından, qorxsa, bu halda o susuzluq xəstəliyə səbəb olacaqsa, dəstəmaz almamalıdır. Yox, əgər susuzluq xəstəliyə gətirib çıxarmazsa şəxs təyəmmümlə dəstəmaz almaq arasında ixtiyar sahibidir. Su işlətməyin zərərli olduğunu bilməyən şəxs dəstəmaz alarsa və sonra zərərli olduğunu başa düşsə, lakin zərər haram zərərlərdən olmazsa, dəstəmazı düzgündür.

**Məsələ:** ٢٩٥. Üz və qolların yuyulacağına çatacaq az miqdarda sudan istifadə etməyin şəxsə zərəri yoxdursa və ondan çoxunun zərəri varsa, az miqdarda su ilə dəstəmaz almalıdır.

**١٣-cü şərt:** Dəstəmaz üzvlərində suyun dəriyə yetişməsinin qarşısını alacaq bir maneə olmamalıdır.

**Məsələ:** ٢٩٦. Dəstəmaz üzvlərinə bir şeyin yapışdığını bilsə, lakin suyun dəriyə yetişməyinə həmin şeyin mane olub-olmamasında şəkk etsə, o şeyi aradan aparmalı, yaxud da suyu onun altına çatdırmalıdır.

**Məsələ:** ٢٩٧. Uzunluğu adi miqdarda olan dırnağın altında çirk olarsa, dəstəmaza eybi yoxdur. Lakin dırnaq tutularsa, dəstəmaz alarkən çirk təmizlənməlidir. Həmçinin, dırnaq adi miqdardan uzun olduğu halda, həmin artıq artıq miqdarın altındakı çirki aradan aparmaq lazımdır.

**Məsələ:** ٢٩٨. Əgər üzdə və qollarda, başın qabaq tərəfində və ayaqların üstündə yanıq, yaxud başqa səbəbdən qabarma əmələ gələrsə, onun üstünü yumaq, yaxud məsh etmək kifayətdir. Əgər deşilsə, suyu onun dərisinin altına çatdırmaq lazım deyil. Hətta əgər bir hissəsi soyularsa, qalan hissənin də altına suyu çatdırmaq lazım deyildir. Lakin soyulmuş dəri bə`zən bədənə yapışıb, bə`zən qalxarsa, onu kəsmək, yaxud suyu onun altına çatdırmaq lazımdır.

**Məsələ:** ٢٩٩. Əgər şəxs dəstəmaz üzvlərinə bir şey yapışıb yapışmadığı barədə şəkk etsə və bu şəkk camaatın nəzərində yerli bir ehtimal olarsa, məsələn, palçıq, suvaq işindən sonra qoluna palçıq yapışıb-yapışmamasında şəkk etmiş olsa, ya axtarış aparmalı, yaxud da əlini o qədər sürtməlidir ki, mövcud olduğu təqdirdə aradan getdiyinə və suyun onun altına yetişdiyinə əmin olsun.

**Məsələ:** ٣٠٠. Əgər yuyulmalı və ya məsh edilməli bir yer çirkli olarsa, lakin o yerin çirki suyun dəriyə yetişməsinə mane olmazsa, eybi yoxdur; həmçinin, gəc, əhəng və bu kimi işlərdən sonra əldə suyun dəriyə yetişməsinin qarşısını almayacaq dərəcədə ağlıq qalarsa da eynilə. Lakin onların mövcud olmağı ilə suyun dəriyə yetişib-yetişməyəcəyində şəkk etdiyi təqdirdə onları təmizləməlidir.

**Məsələ:** ٣٠١. Dəstəmazdan öncə, dəstəmazın bə`zi üzvlərində suyun dəriyə yetişməsinə mane olacaq bir şeyin olmasını bilsə və

dəstəmazdan sonra, şəkk etsə ki, dəstəmaz alarkən su həmin yerə yetişib ya yox, bu halda dəstəmaz alarkən (bu işə) qafil olmadığına əmindirsə, dəstəmazı düzgündür.

**Məsələ:** ٣٠٢. Əgər dəstəmaz üzvlərinin bə`zisində suyun bə`zən öz-özünə çatıb, bəzən çatmadığı bir maneə olarsa və insan dəstəmazdan sonra, suyun onun altına çatıb-çatmadığında şəkk etsə, bu halda dəstəmaz halında buna diqqət yetirmədiyini bilirsə, yenidən dəstəmaz almalıdır.

**Məsələ:** ٣٠٣. Dəstəmazdan sonra bədənində suyun dəriyə yetişməyinə mane olan bir şeyi görsə və dəstəmaz halındamı, yoxsa dəstəmazdan sonra əmələ gəldiyini bilməsə, bu halda dəstəmaz halında bu maneədən qafil olduğunu bilsə, yenidən dəstəmaz almalıdır, əks halda isə, dəstəmazı səhihdir.

**Məsələ:** ٣٠٤. Şəxs dəstəmazdan sonra, dəstəmaz üzvlərində suyun dəriyə yetişməsinin qarşısını ala biləcək bir şeyin olub-olmadığında şəkk etsə, dəstəmaz halında ondan qafil olmasına yəqini olmayıbsa dəstəmazı düzgündür.

## DƏSTƏMAZIN HÖKMLƏRİ

**Məsələ:** ٣٠٥. Dəstəmazın şərtləri və işlərində çox şəkk edən şəxs, vəsvas həddinə çatdığı surətdə öz şəkkinə e`tina etməməlidir.

**Məsələ:** ٣٠٦. Əgər şəxs dəstəmazının batil olub-olmamasında şəkk etsə, dəstəmazın qalmasına hökm etməlidir. Lakin bövldən sonra istibra etməyib dəstəmaz alıbsa və dəstəmazdan sonra ondan bövl, yoxsa başqa bir şey olmasını bilmədiyi bir yaşlıq xaric olarsa, onun dəstəmazı batildir.

**Məsələ:** ٣٠٧. Dəstəmaz alıb-almadığında şəkk edən şəxs dəstəmaz almalıdır.

**Məsələ:** ٣٠٨. Həm dəstəmaz aldığını, həm də bövl kimi bir hədəsin (dəstəmazı pozan şeyin) baş verdiyini bilən, amma hansının əvvəl baş verdiyini bilməyən şəxs, şəkki namazdan əvvəl olduğu təqdirdə dəstəmaz almalıdır. Əgər namaz əsnasındadırsa, namazı saxlayıb dəstəmaz almalıdır, əgər namazdan sonra şəkk edibsə, qıldığı namaz səhihdir, bu şərtlə ki, namaza başlayan zaman ondan qafil olduğuna əmin olmasın. Lakin sonrakı namazları üçün dəstəmaz almalıdır.

**Məsələ:** ٣٠٩. Dəstəmaz aldıqdan sonra, yaxud onu alan əsnada bə`zi yerlərin yuyulmadığını və ya məsh edilmədiyini yəqin etsə, bu halda ondan əvvəlki yerlərin rütubəti uzun fasilə düşdüyünə görə quruyarsa, yenidən dəstəmaz almalıdır. Əgər qurumayıbsa və yaxud havanın hərarəti və bu kimi səbəblər nəticəsində quruyarsa, yumadığı və ya məsh çəkmədiyi yeri və ondan sonra gələn yerləri yumalı və ya məsh

etməlidir. Həmçinin, əgər dəstəmaz əsnasında bir yerin yuyulub, yaxud məsh edilməsində şəkk etsə, həmin göstərişə əməl etməlidir.

**Məsələ:** ٣١٠. Namazdan sonra şəkk etsə ki, dəstəmaz alıb ya yox, bu halda namaza başlayanda (bu məsələ barədə) qəflətdə olmadığına əmindirsə, namazı səhihdir. Lakin növbəti namazlar üçün dəstəmaz almalıdır.

**Məsələ:** ٣١١. Şəxs namaz əsnasında şəkk etsə ki, "dəstəmaz almışam, ya yox", namazı batildir, dəstəmaz almalı və namaz qılmalıdır.

**Məsələ:** ٣١٢. Namaz qılıb qurtardıqdan sonra şəxs bilsə ki, dəstəmazı batil olmuşdur, amma namazdan öncə, yoxsa sonra batil olmasında şəkk etsə, qılmış olduğu namaz səhihdir.

**Məsələ:** ٣١٣. Bövlü damcı-damcı axan və yaxud ğait xaric olmasının qarşısını ala bilməyən xəstə şəxs, namazın əvvəl vaxtından axır vaxtına qədər dəstəmaz alıb namaz qılmaq miqdarda möhlət tapa biləcəyinə yəqini varsa, gərək möhlət tapdığı həmin vaxtda dəstəmaz alıb namazını qılsın. Əgər möhlət tapdığı vaxt dəstəmaz və namazın ancaq vacib işlərini yerinə yetirmək qədərində olarsa, gərək dəstəmaz və namazın ancaq vacib işlərini yerinə yetirsin, müstəhəb işləri isə tərk etsin.

**Məsələ:** ٣١٤. Əgər dəstəmaz almaq və namaz qılmaq qədər möhlət tapmırsa və namaz əsnasında bir və yaxud bir neçə dəfə bövl, yaxud ğait xaric olursa, həmin namazı bir dəstəmazla qılsa kifayətdir, baxmayaraq ki, ehtiyat müstəhəb budur ki, ondan hər vaxt bövl və ya ğait xaric olsa, (namaz əsnasında) müvalatı (ardıcıllığı) pozmayacaq fasilədə dəstəmaz alsın və namazın ardını davam etdirsin.

**Məsələ:** ٣١٥. Bövl və yaxud ğaiti ardıcıl şəkildə xaric olan şəxsdən, başqa bir hədəs baş verməyincə, bir dəstəmaz bir neçə namaz üçün kifayətdir. Yaxşı olar ki, hər namaz üçün bir dəstəmaz alsın. Yaddan çıxmış səcdə və təşəhhüdü qəza etmək və ehtiyat namazı qılmaq üçün başqa dəstəmaz almaq lazım deyildir.

**Məsələ:** ٣١٦. Bövl və ya ğaiti ardıcıl xaric olan şəxsin dəstəmaz aldıqdan dərhal sonra namaz qılması lazım (vacib) deyildir. Baxmayaraq ki, dəstəmazdan dərhal sonra namaz qılması ehtiyat müstəhəbdir.

**Məsələ:** ٣١٧. Bövl və ya ğaiti ardıcıl xaric olan şəxs, dəstəmazdan sonra, müstəhəb ehtiyata görə möhdis (dəstəmazsız) adama əl vurmağın haram olduğu şeylərə – Qur`anın yazıları kimi – əl sürtməkdən çəkinsin.

**Məsələ:** ٣١٨. Bövlü damcı-damcı gələn şəxs namaz qılmaq üçün içində pambıq və s. olan və bövlün bədənin, başqa yerlərinə dəyməsinin qarşısını alan kisədən istifadə etməlidir ki, özünü qorusun. Vacib ehtiyat budur ki, hər vacib namazdan əvvəl bövlün məxrəcin suya çəksin. Yalnız məşəqqətə səbəb olan hallar istisna olunur.

Əgər belə şəxs zöhrlə-əsr, həmçinin, şamla-işa namazlarını birlikdə qılırsa, bu iki namazın arasında bövlün məxrəcini yuması lazım deyil. Eləcə də ğaitin xaric olmasından özünü saxlaya bilməyən şəxs, mümkün qədər namaz müddətində ğaitin başqa yerlərə dəyməsinin qarşısını alması lazımdır və hər namaz üçün ğaitin məxrəcini suya çəkməsi vacib ehtiyatdır, yalnız məşəqqətə (hərəcə) hallar istisnadır.

**Məsələ:** ٣١٩. Bövlün, yaxud ğaitin qarşısını ala bilməyən şəxs, mümkün olsa və çətinliyə düşməsinə səbəb olmasa, namaz müddətində onların xaric olmasının qarşısını alsın. Onun xəstəliyi asanlıqla müalicə oluna bilərsə, gərək müalicə etsin.

**Məsələ:** ٣٢٠. Bövl və ğaitin qarşısını ala bilməyən şəxs, xəstə ikən vəzifəsinə uyğun qıldığı namazları sağaldıqdan sonra qəza etməsi lazım deyil. Lakin namaz əsnasında sağalarsa, həmin vaxtda qıldığı namazı yenidən qılmalıdır.

**Məsələ:** ٣٢١. Əgər şəxsdə yelin xaric olmasının qarşısını ala bilmədiyi bir xəstəlik olsa, bövl və ğaitin qarşısını ala bilməyənlərin vəzifəsinə əməl etməlidir.

## DƏSTƏMAZ ALINMASI ŞƏRT OLAN VACİB ƏMƏLLƏR

**Məsələ:** ٣٢٢. Altı əməl üçün dəstəmaz alınması vacibdir:

١. Meyyit namazından başqa, sair vacib namazlar üçün. Müstəhəb namazlarda isə, dəstəmaz onların səhih olma şərtidir.

٢. Yaddan çıxmış səcdə və təşəhhüd, eləcə də yaddan çıxmış təşəhhüd üçün yerinə yetirməli olduğu iki səhv səcdəsinə görə. Əgər onlarla namazın arasında hədəs baş versə, məsələn, bövl xaric olsa, vacib ehtiyata görə namazı təzədən qılmalıdır. Lakin deyilmiş yerlərdən başqa səhv səcdələri üçün dəstəmaz almaq vacib deyildir.

٣. Həcc və ümrədə vacib təvaf üçün.

٤. Dəstəmaz almağı nəzr və ya əhd etdiyi, ya da bu işi görəcəyinə and içdiyi üçün.

٥. Qur`anı öpmək kimi, nəzr edilməsi düzgün olan təqdirdə, bədənin hər hansı bir yerini Qur`anın yazılarına vurmağı nəzr etdikdə.

٦. Nəcis olmuş Qur`anı suya çəkmək, yaxud Qur`anı, hörmətsizliyinə səbəb olacaq yerdən çıxartmaq üçün. Bu, o haldadır ki, əli və ya bədənin başqa yerlərini Qur`anın yazılarına vurmağa məcbur olsun. Lakin dəstəmaz almaq miqdarında yubanmaq Qur`ana hörmətsizlik olarsa, dəstəmaz almadan onu həmin yerlərdən çıxarmaq, yaxud da nəcis olduğu surətdə onu suya çəkmək lazımdır.

**Məsələ:** ٣٢٣. Dəstəmazı olmayan şəxsə Qur`anın yazısına məsh etmək, yə`ni bədənin hər hansı bir yerini ona vurmaq haramdır. Lakin bədənin, dəriyə yapışıq sayılmayan tüklərini Qur`ana vurmağın eybi yoxdur. Həmçinin, Qur`anı fars dili və ya başqa bir dilə tərcümə etsələr,

(onlarda) Allahın zatına və sifətlərinə aid olan adlarından başqa yerlərə dəstəmazsız əl vurmağın eybi yoxdur.

**Məsələ:** ٣٢٤. Uşaq və dəlinin Qur`an yazısına əl vurmasının qarşısını almaq vacib deyildir. Lakin onların Qur`ana əl vurması ona hörmətsizlik olarsa, onun qarşısı alınmalıdır.

**Məsələ:** ٣٢٥. Vacib ehtiyata əsasən, dəstəmazı olmayan şəxs, hansı dildə olursa-olsun, Allahın zatı və sifətlərini bildirən adlara əl vurmamalıdır. Mə`sumların (əleyhimussalam) adlarına da dəstəmazsız əl vurmamaq müstəhəb ehtiyatdır.

**Məsələ:** ٣٢٦. Namaz vaxtından əvvəl təharətli olmaq qəsdi ilə dəstəmaz və ya qüsl alsa səhihdir. Əgər namaz vaxtına yaxın vaxtlarda namaza hazırlıq qəsdi ilə dəstəmaz olsa, eybi yoxdur, üstəlik bu iş müstəhəbdir.

**Məsələ:** ٣٢٧. Vaxtın daxil olmasına əmin olan, yaxud şər`i dəlili olan şəxs əgər vacib dəstəmaz niyyəti etsə, məqsədi də vacib olmaqla qeyd vurmaq olmasa və dəstəmaz aldıqdan sonra vaxtın hələ daxil olmadığını başa düşsə, dəstəmazı səhihdir.

**Məsələ:** ٣٢٨. Müstəhəbdir ki, insan dəstəmaz alınması onların səhihliyində şərt olmayan, lakin kamal həddinə çatması üçün mö`təbər olan əməllər üçün dəstəmaz alsın. Məsələn, həccin iki əməlindən – vacib təvafdan və təvaf namazından başqa sair əməlləri (çünki bu iki əməldə dəstəmaz səhihlik şərtidir), həmçinin, meyyit namazı qılmaq, meyyiti qəbrə daxil etmək, məscidə getmək, Qur`an oxumaq və yazmaq üçün, yatanda dəstəmaz almaq; həmçinin, dəstəmazlı şəxsin yenidən dəstəmaz alması müstəhəbdir.

Bu deyilən işlər üçün dəstəmaz alan şəxs, dəstəmazla yerinə yetirilməli olan əməlləri yerinə yetirə bilər. Məsələn, həmin dəstəmazla namaz qıla, yaxud vacib təvafı yerinə yetirə bilər.

## DƏSTƏMAZI BATLİ EDƏN ŞEYLƏR

**Məsələ:** ٣٢٩. Dəstəmazı yeddi şey batil edir:

١ və ٢. Öz təbii məcrasından xaric olan bövl və ğait, yaxud adətən qeyri-təbii məcrasından xaric olan bövl və ğait, həmçinin, ehtiyat vacibə əsasən, adəti olmadığı halda qeyri-təbii məcrasından xaric olan bövl və ğait.

Bövlün istibrasından əvvəl bövlə oxşar yaşlıq bövl hökmündədir.

٣. Ğaitin təbii məxrəcindən xaric olan bağırsaq yeli və ondan qeyri yerdən də xaric olsa, ğait bölməsində deyildiyi açıqlama ilə, ona iki məxsus addan biri (səsli və səssiz) aid edilərsə.

٤. Yuxu; o da qulağın eşitmədiyi təqdirdə gerçəkləşir.

٥. Ağlı aradan aparan şeylər; dəlilik, məstlik, huşsuzluq kimi.

٦. Qadınların istihazə halı. (Onun hökmləri sonra deyiləcək.)

٧. Cənabət.

## CƏBİRƏ DƏSTƏMAZININ HÖKMLƏRİ

Yara və sınığa bağlanan şey, habelə yara və bu kimi yerlərin üstünə qoyulan dərman «cəbirə» adlanır.

**Məsələ:** ٣٣٠. Əgər dəstəmaz yerlərinin birində yara, sınıqlıq, yaxud çiban olarsa, bu halda suyun zərəri olmazsa və üstü açıqdırsa, adi dəstəmaz alınmalıdır.

**Məsələ:** ٣٣١. Əgər yara, çiban və yaxud sınıqlıq üzdə və qollarda olarsa, üstü də açıqdırsa, onların üstünə su tökməyin zərəri varsa, bu halda yaş əl çəkməyin zərəri yoxdursa, sınıq yerin üzərindən yaş əllə çəkilməlidir. Eləcə də, çiban və yarada da bu cür etmək vacib ehtiyatdır. Müstəhəb ehtiyata əsasən, (yaş əllə çəkdikdən) sonra pak bir parçanı onların üzərinə qoyub parçanın üstündən də çəkmək lazımdır. Əgər bu miqdarın da zərəri varsa, yaxud yara və sınıq yer nəcisdirsə və suya çəkmək olmursa, yarada onun ətrafını dəstəmazda deyilmiş tərzdə yuxarıdan aşağı yumaq lazımdır və təyəmmüm də lazım deyildir. Ancaq müstəhəbb ehtiyat budur ki, yaranın üzərinə pak bir parça da qoyub əldəki (dəstəmaz suyunun) rütubəti ilə parçanın üstündən əl çəkilsin və həmçinin, təyəmmüm də edilsin.

Lakin sınıqda isə, gərək təyəmmüm edilsin və (sonra) vacib ehtiyata əsasən, dəstəmaz da alınaraq sınığın üzərinə pak bir parça qoyulsun və əldə qalmış (dəstəmaz suyunun) rütubəti ilə parçanın üzərindən məsh edilsin.

**Məsələ:** ٣٣٢. Əgər yara, çiban, yaxud sınıqlıq başın qabaq hissəsində və üstü açıq olsa, ona məsh etmək mümkün olmazsa, məsələn, məsh olunan yer tamamilə yaradırsa, yaxud qalan sağ yerlərə məsh çəkmək mümkün deyilsə, vacib ehtiyata əsasən, həm dəstəmaz almalı, həm də təyəmmüm etməlidir. Belə ki, pak bir parçanı yaranın üstünə qoyaraq əldə qalmış dəstəmaz suyunun rütubəti ilə məsh etməli və sonra təyəmmüm də etməlidir.

**Məsələ:** ٣٣٣. Əgər yara, çiban və ya sınığın üstü bağlıdırsa, onu açmaq çətin deyilsə və suyun da zərəri yoxdursa onu açıb dəstəmaz almaq lazımdır; istər yara və onun kimi şeylər üz və qollarda, istərsə də başın qabaq hissəsində, istərsə də ayaqların üstündə olsun.

**Məsələ:** ٣٣٤. Əgər üstü bağlı olan yara, çiban ya sınıq üz və qollardadırsa, onu açmaq və üstünə su tökmək məşəqqətli, yaxud ziyanlıdırsa onun ətrafından zərər və məşəqqəti olmayan miqdarı yuyub cəbirənin üstünə məsh çəkmək lazımdır.

**Məsələ:** ٣٣٥. Yaranın üstünü açmaq mümkün olmadığı halda onun özü və üstünə qoyulan şey pakdırsa və zərər və məşəqqəti olmadan suyu yaraya çatdırmaq mümkündürsə, suyu, tərtibə riayət etməklə və

üzdə ehtiyata əsasən, yaraya çatdırmaq lazımdır. Lakin cəbirə üzdə olsa və tərtibə riayət etməklə suyu yaraya çatdırmaq mümkün olmasa, ehtiyata əsasən, tərtibə riayət etməklə həm yuyulmalı, həm də məsh edilməlidir. Əgər yara və yaxud onun üzərinə qoyulan şey nəcisdirsə, bu halda əgər onu suya çəkmək və suyu yaranın üstünə çatdırmaq mümkündürsə, zərər və məşəqqəti də yoxdursa, gərək suya çəkilsin və dəstəmaz vaxtı su yaraya çatdırılsın.

Yaranın üzünə su çatdırmaq mümkün olmasa, yaxud zərəri və məşəqqəti varsa, yaxud yara nəcisdirsə və onu suya çəkmək olmursa, yaranın ətrafı yuyulmalıdır, əgər cəbirə pakdırsa, onun üzərindən məsh etmək lazımdır; yox, əgər cəbirə nəcisdirsə, yaxud üzərindən yaş əllə məsh etmək olmursa, mümkün olan təqdirdə üzərinə pak bir parça qoyub, vacib ehtiyata əsasən, həm parçanın üzərindən məsh etmək, həm də təyəmmüm etmək lazımdır. Mümkün qədər parçanı elə qoymaq lazımdır ki, cəbirənin bir hissəsi hesab edilsin. Məsh etmək, yaxud üzərinə parça qoymaq mümkün olmadığı surətdə vacib ehtiyata əsasən, həm onun ətrafı dəstəmazda deyilmiş tərzdə yuyulmalı, həm də təyəmmüm edilməlidir.

**Məsələ:** ٣٣٦. Əgər cəbirə hər iki qolların, ya onlardan birinin, yaxud üzün hər yerini əhatə etmişdirsə, vacib ehtiyata əsasən, həm cəbirə dəstəmazı alınmalı, həm də təyəmmüm edilməlidir.

**Məsələ:** ٣٣٧. Əgər cəbirə bütün dəstəmaz üzvlərini əhatə etmişdirsə, vacib ehtiyata əsasən, həm cəbirə dəstəmazı alınmalı, həm də təyəmmüm edilməlidir.

**Məsələ:** ٣٣٨. Əlinin içərisində və barmaqlarında cəbirə olan, dəstəmaz alarkən əlində qalmış rütubəti onun üzərinə çəkmiş şəxs, başa və ayaqlara da həmin rütubətlə məsh çəkməlidir.

**Məsələ:** ٣٣٩. Əgər cəbirə bütünlükdə ayağın üstünü tutmuşsa, amma bir qədər barmaqlar tərəfdən, bir az da ayağın məsh edilməsi vacib olan yuxarı tərəfindən açıqdırsa, ayağın açıq olan yerlərində ayağın üstünə, bağlı olan yerlərində isə cəbirənin üstünə məsh edilməlidir.

**Məsələ:** ٣٤٠. Əgər üzdə və əllərdə bir neçə dənə cəbirə olarsa, onların arası yuyulmalıdır və əgər cəbirələr başda, yaxud ayağın üstündə olarsa, onların arası məsh çəkilməlidir. Cəbirə olan yerlərdə isə cəbirənin qaydalarına əməl edilməlidir.

**Məsələ:** ٣٤١. Əgər cəbirə yaranın ətrafını adi (normal miqdardan) çox tutubsa və onu məşəqqətsiz götürmək mümkün deyilsə, vacib ehtiyata əsasən, cəbirə dəstəmazı almalı, təyəmmüm də etməlidir. Əgər cəbirənin adi miqdarda artıq olan hissəsini məşəqqətsiz götürmək mümkündürsə, onu götürmək lazımdır. Deməli, yara üz və əllərdədirsə, cəbirə götürülən qədəri yuyulmalıdır. Əgər yara başda və ayaqların

üzərindədirsə və onun məsh edilməsi vacibdirsə, onu məsh etmək lazımdır. Yara olan yerlərdə cəbirənin qaydalarına əməl olunmalıdır.

**Məsələ:** ٣٤٢. Dəstəmaz üzvlərində yara, kəsik və sınıq yoxdursa, lakin başqa səbəbdən suyun zərəri varsa, təyəmmüm etmək lazımdır.

**Məsələ:** ٣٤٣. Əgər dəstəmaz üzvlərindən birində damar kəsilmişdirsə və zərərli olduğundan yumaq mümkün deyilsə, onun hökmü əvvəlki məsələdə deyilən yara və kəsiklik hökmündədir. Əgər kəsik yerin qanının dayanmaması kimi başqa bir səbədən yaranı yumaq mümkün deyilsə, təyəmmüm edilməlidir.

**Məsələ:** ٣٤٤. Əgər dəstəmaz və ya qüsl yerlərində götürülməsi mümkün olmayan, yaxud hərəcə (ağır əziyyətə) səbəb olacaq bir şey yapışmış olsa, vacib ehtiyata əsasən, (dəstəmazda) həm cəbirə dəstəmazı almalı, həm də təyəmmüm etməlidir, yaxud (qüsldə) həm cəbirə qüslü almalı, həm də təyəmmüm etməlidir.

**Məsələ:** ٣٤٥. Meyyit qüslündən başqa digər qüsllərdə cəbirə qüslü eynilə cəbirə dəstəmazı kimidir. Vacib ehtiyata görə onu tərtiblə yerinə yetirmək lazımdır. Lakin əgər bədəndə yara, yaxud çiban olsa – istər yaranın üstü açıq olsun, istərsə də bağlı–, qüsl ilə təyəmmüm etməkdə ixtiyar sahibi olmasına üstünlük verilsə də, amma vacib ehtiyat budur ki, qüsl etsin. Əgər sınıqlıq olsa, qüsldə onun, sınıq yerin, yara və çibanın hökmü eynilə dəstəmazda deyilən üzün və əllərin hökmü kimidir.

**Məsələ:** ٣٤٦. Vəzifəsi təyəmmüm olan şəxsin təyəmmüm yerlərindən bə`zisində yara, çiban, yaxud sınıqlıq vardırsa, cəbirə dəstəmazının göstərişlərinə əsasən, cəbirə təyəmmümü etməlidir.

**Məsələ:** ٣٤٧. Cəbirə dəstəmazı, yaxud cəbirə qüslü ilə namaz qılmalı olan şəxs, vaxtın axırına qədər üzrünün aradan qalxmayacağını bilirsə, vaxtın əvvəlində namazını qıla bilər. Lakin vaxtın axırına qədər üzrünün aradan qalxacağına ümid edirsə, yaxşı olar ki, gözləsin; əgər vaxtın axırına qədər üzrü qalsa, namazı vaxtın axırında cəbirə dəstəmazı, yaxud qüslü ilə qılsın. Əgər vaxtın əvvəlində namaz qılsa və vaxtın axırında üzrü aradan qalxarsa, gərək dəstəmaz, yaxud qüsl edib namazı yenidən qılsın.

**Məsələ:** ٣٤٨. Əgər insan, gözündə olan xəstəliyə görə gözünün tüklərini yapışdırsa, yaxud göz ağrısına düçar olduğundan suyun gözünə zərəri olsa, təyəmmüm etməlidir.

**Məsələ:** ٣٤٩. Vəzifəsinin cəbirə dəstəmazı, yoxsa təyəmmüm olmasını bilməyən şəxs, ehtiyat edərək hər ikisini yerinə yetirməlidir.

**Məsələ:** ٣٥٠. İnsanın cəbirə dəstəmazı ilə qıldığı namazlar, üzrü vaxtın axırına qədər davam edərsə, səhihdir və üzrü bütün vaxt ərzində davamlı olduğu təqdirdə, sonrakı namazları da həmin dəstəmazla qıla bilər. Lakin üzrü aradan qalxan kimi vacib ehtiyata əsasən, sonrakı namazlar üçün dəstəmaz almalıdır.

## VACİB QÜSLLƏR

Vacib qüsllər yeddidir:

١. Cənabət qüslü;

٢. Heyz qüslü;

٣. Nifas qüslü;

٤. İstihazə qüslü;

٥. Məssi-meyyit qüslü;

٦. Meyyit qüslü;

٧. Nəzr, and və s. vasitəsi ilə vacib olan qüsllər.

## CƏNABƏTİN HÖKMLƏRİ

**Məsələ:** ٣٥١. Şəxs iki yolla cünub olur:

١. Cima etməklə (cinsi əlaqədə olmaqla).

٢. Məninin (spermanın) xaric olması; istər yuxu halında, istərsə oyaq ikən; istər çox, istərsə az; istər şəhvətlə, istərsə şəhvətsiz; istər ixtiyari, istərsə qeyri-ixtiyari olaraq gəlmiş olsun.

**Məsələ:** ٣٥٢. Əgər kişidən sperma, yaxud bövl, yaxud da bunlardan başqa şey olduğunu bilmədiyi bir yaşlıq xaric olsa, bu halda əgər sıçrayış və şəhvətlə gəlsə və xaric olduqdan sonra bədən süstləşsə, həmin yaşlıq məni hökmündədir. Əgər bu üç əlamətdən heç biri, yaxud bə`ziləri (o rütubətdə) olmasa, məni hökmündə deyildir. Lakin xəstə adamda şəhvətlə xaric olsa, hətta əgər sıçrayışla olmasa və bədən süstləşməsə, yenə də məni hökmündədir. Qadında isə, şəhvət üzündən inzal edərsə, ona cənabət qüslü vacibdir.

**Məsələ:** ٣٥٣. Xəstəliyi olmayan bir kişidən, əvvəlki məsələdə deyilmiş üç nişanədən (təkcə) birinə malik olan bir maye xaric olsa və onda, başqa nişanələrin də olub-olmadığını bilməsə, o maye xaric olmazdan öncə dəstəmazlı olubsa, həmin dəstəmazla kifayətlənsin. Əgər dəstəmazlı olmamışdırsa, təkcə dəstəmaz alması kifayətdir.

**Məsələ:** ٣٥٤. Məni xaric olduqdan sonra müstəhəbbdir ki, şəxs bövl etsin. Əgər bunu etməzsə, qüsl aldıqdan sonra məni, yoxsa başqa bir rütubət olduğunu bilmədiyi rütubət xaric olsa, məni hökmündədir.

**Məsələ:** ٣٥٥. Şəxs bir qadınla cinsi əlaqədə olsa və cinsiyyət aləti xütnəgaha (dəlləkkəsən yerə) qədər, yaxud çox daxil olarsa, istər qarşıdan, istərsə də arxadan olsun; hətta məni xaric olmasa da belə, hər ikisi cünub olar. (Nəuzu billah!) Kişi ilə yaxınlıq etdikdə də vacib ehtiyata əsasən, əgər əvvəldə dəstəmazı yox imişsə, həm dəstəmaz, həm

də qüsl almalıdır. Əgər dəstəmazlı olmuşdursa, təkcə qüsl kifayət edər. Bu hökmdə həddi-buluğa çatıb-çatmamasının, həmçinin, ağıllı, yaxud dəli olmasının, eləcə də qəsd üzündən olub-olmamasının fərqi yoxdur.

**Məsələ:** ٣٥٦. Xütnəgah qədərində daxil olub-olmadığında şəkk etsə, qüsl vacib olmaz.

**Məsələ:** ٣٥٧. Əgər bir şəxs (nəuzu-billah!) heyvanla yaxınlıq etsə və ondan məni xaric olsa, təkcə qüsl kifayətdir. Əgər məni xaric olmasa və yaxınlıqdan öncə dəstəmazlı olmuşdursa, yenə də təklikdə qüsl kifayətdir. Əgər dəstəmazlı olmamışdırsa, vacib ehtiyata görə həm dəstəmaz, həm də qüsl alsın.

**Məsələ:** ٣٥٨. Məni öz yerindən hərəkət edib çölə çıxmasa, yaxud şəxs onun xaric olub-olmamasında şəkk etsə, ona qüsl vacib deyildir.

**Məsələ:** ٣٥٩. Qüsl edə bilməyən, lakin təyəmmüm etməsi mümkün olan şəxs, namaz vaxtı daxil olandan sonra belə, öz əyalı ilə yaxınlıq edə bilər.

**Məsələ:** ٣٦٠. Bir şəxs öz paltarında məni görərsə və onun özününkü olduğunu bilsə, bu halda əgər onun üçün qüsl etməmişdirsə, gərək qüsl etsin. Məni gələndən sonra qıldığına əmin olduğu namazları, vaxtı keçməmişdirsə, təzələməlidir. Vaxtı keçmişdirsə, qəza etməlidir. Lakin həmin məninin gəlməsindən qabaq qıldığına ehtimal verdiyi namazları qəza etməsi lazım deyildir.

## CÜNUB (CƏNABƏTLİ) ŞƏXSƏ HARAM OLAN ŞEYLƏR

**Məsələ:** ٣٦١. Cünub şəxsə beş şey haramdır:

١. Bədənin hər hansı bir yerini Qur`anın yazısına, yaxud hansı dildən olmasından asılı olmayaraq mütəal Allahın mübarək zatının adına və sair zati və sifati adlarına; o cümlədən gözəl sifətlərini ifadə edən sözlərə toxundurmaq. Həmçinin, müstəhəbb ehtiyata əsasən, peyğəmbərlərin (əleyhimussalam), imamların (əleyhimussalam) və həzrəti Zəhra (əleyha salam)-ın adlarına da toxundurmasın:

٢. Bir qapısından daxil olub digər qapısından çıxsa da belə; "Məscidül-Hərama" və Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidinə getmək.

٣. Başqa məscidlərdə dayanmaq; Lakin bir qapıdan daxil olub, digərindən xaric olmağın eybi yoxdur. Həmçinin, imamların (əleyhimussalam) hərəmlərində də dayanmaq cünub şəxsə haramdır. Vacib ehtiyat budur ki, bir qapıdan daxil olub, digərindən çıxmaqla olsa belə, cünub halda imamların (əleyhimussalam) hərəmlərinə getməkdən özünü saxlasın.

٤. Məscidə bir şey qoymaq, həmçinin, vacib ehtiyata əsasən, bir şey götürmək üçün oraya daxil olmaq;

٥. Vacib səcdəsi olan ayələrdən birini oxumaq. Bu ayələr dörd

surədədir:

١. "Səcdə" surəsi (٣٢-ci surə);

٢. "Füssilət" surəsi (٤١-ci surə);

٣. "Nəcm" surəsi (٥٣-cü surə);

٤. "Ələq" surəsi (٩٦-cı surə).

Vacib ehtiyata əsasən, bu dörd surənin vacib səcdəsi olmayan sair ayələrini, hətta "Bismillahir-Rəhmanir-Rəhim"ini və bu surənin "Bismillah"ı niyyəti ilə "Bismillah"ın bə`zi kəlmələrini belə, oxumaqdan çəkinsin.

## CÜNUB ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR

**Məsələ:** ٣٦٢. Doqquz şey cünub şəxsə məkruhdur:

١ və ٢. Yemək və içmək; Lakin dəstəmaz alsa, yaxud əllərini yusa, məkruh olmaz.

٣. Vacib səcdəsi olmayan surələrin ayələrindən ٧ ayədən çox oxumaq;

٤. Bədənin hər hansı bir yerini Qur`anın cildinə, haşiyəsinə və yazılarının arasındakı boş yerlərə toxundurmaq;

٥. Qur`anı özü ilə gəzdirmək;

٦. Yatmaq; Lakin dəstəmaz alsa, yaxud su tapmadığı təqdirdə qüsl əvəzinə təyəmmüm etsə, məkruh deyildir.

٧. Həna və bu kimi şeylər qoymaq.

٨. Bədənə yağ sürtmək.

٩. Möhtəlim olduqdan (yə`ni yuxuda ikən məni xaric olduqdan) sonra cima etmək.

## CƏNABƏT QÜSLÜ

**Məsələ:** ٣٦٣. Cənabət qüslü özlüyündə müstəhəbbdir. Lakin təharətin şərt olduğu vacib əməllər üçün vacibdir. Ancaq meyyit namazı, səhv səcdəsi – yaddan çıxmış təşəhhüd üçün səhv səcdəsindən başqa – həmçinin, şükr səcdəsi, Qur`anın vacib səcdələrini yerinə yetirmək üçün cənabət qüslü lazım (vacib) deyildir.

**Məsələ:** ٣٦٤. Qüsl edərkən vacib, yaxud müstəhəbb qüsl etməyi niyyət etmək lazım (vacib) deyil. Əksinə, əgər dəstəmazın hökmündə deyildiyi kimi, qürbət qəsdi ilə və ixlasla qüsl etsə, kifayətdir.

**Məsələ:** ٣٦٥. Əgər namaz vaxtının daxil olmasına əmin olsa və ya buna şər`i bir dəlili olsa, bu halda vacib qüsl niyyəti edərsə və məqsədi hər hansı bir vaciblə qeyd vurmaq olmazsa, qüsl aldıqdan sonra namaz vaxtından əvvəl qüsl aldığı mə`lum olarsa, qüslü səhihdir.

**Məsələ:** ٣٦٦. Vacib, yaxud müstəhəbb olmasından asılı olmayaraq qüslü iki cür etmək olar:

١. Tərtibi;

٢. İrtimasi.

***Tərtibi qüsl***

**Məsələ:** ٣٦٧. Tərtibi qüsldə, qüsl niyyəti ilə əvvəlcə baş və boyun, sonra isə bədən yuyulmalıdır. Vacib ehtiyata əsasən, bədənində əvvəlcə sağ, sonra sol tərəfi yuyulmalıdır. Əgər bilərəkdən, yaxud yaddan çıxmaq və ya məsələni bilmədiyi üçün başı bədəndən sonra yuyarsa, bədəni yenidən yuması kifayətdir. Əgər bədənin sol tərəfini sağ tərəfdən qabaq yuyarsa, vacib ehtiyata əsasən, sol tərəfi yenidən yumalıdır. Tərtibi qüslün bədənin hər üç üzvündən birini suyun altında hərəkət etdirməklə gerçəkləşməsi məhəlli-işkaldır.

**Məsələ:** ٣٦٨. Vacib ehtiyata əsasən, göbəyin və övrətin yarısı bədənin sağ tərəfi, digər yarısı isə sol tərəfi ilə birgə yuyulsun. Yaxşı olar ki, göbək və övrətin hər yeri hər iki tərəflə birgə yuyulsun.

**Məsələ:** ٣٦٩. Bədənin hər üç hissəsinin, yə`ni başla boyun, sağ tərəf və sol tərəfin tam şəkildə qüsl edildiyinə əmin olmaq üçün, gərək hər bir hissəni yuyarkən digər hissədən də bir az həmin hissə ilə birgə yuyulsun. Üstəlik müstəhəbb ehtiyat budur ki, boyunun sağ tərəfinin hamısı bədənin sağ təfəfi ilə, sol tərəfinin hamısı da bədənin sol tərəfi ilə birgə yuyulsun.

**Məsələ:** ٣٧٠. Qüsldən sonra bədəndə yuyulmamış bir yer qaldığını bilsə, amma başın, yoxsa sağ tərəfin və ya sol tərəfindən olduğunu bilməsə, başı yenidən yumaq lazım deyil. Gərək sol tərəfdən yuyulmadığına ehtimal verdiyi yerləri yusun. Həmçinin, vacib ehtiyata əsasən, sağ tərəfdən yuyulmadığına ehtimal verdiyi yeri, sol tərəfi yumazdan öncə yusun.

**Məsələ:** ٣٧١. Əgər qüsldən sonra bədənin bir qədərini yumadığını bilərsə, bu halda əgər o miqdar sol tərəfdən olsa, həmin qədəri yumaq kifayətdir. Əgər sağ tərəfdəndirsə, vacib ehtiyata əsasən, həmin qədəri yuduqdan sonra, sol tərəfi yumaq lazımdır. Əgər o yer baş və boyundandırsa gərək həmin qədər yer yuyulduqdan sonra bədəni yusun, vacib ehtiyata əsasən, sağ tərəfi sol tərəfdən əvvəl yusun.

**Məsələ:** ٣٧٢. Əgər bir şəxs qüsl tamamlanmazdan əvvəl sol tərəfdən bir qədər yerin yuyulub-yuyulmadığında şəkk etsə, həmin qədər yeri yumaq kifayətdir. Lakin sol tərəfin bir qədərini yuduqdan sonra, sağ tərəfin bir qədərinin yuyulub-yuyulmadığında şəkk edərsə, vacib ehtiyata görə, (şəkk etdiyi) həmin yeri yuduqdan sonra, gərək sol tərəfi də yusun. Əgər baş və boyundan müəyyən bir qədərin yuyulub-yuyulmadığında şəkk etsə və bədənin digər yerlərini yumağa başlamış olsa, həmin şəkk mö`təbər sayılmır və qüslü də səhihdir.

***İrtimasi qüsl***

**Məsələ:** ٣٧٣. İrtimasi qüsl bədənin hər yerini suya batırmaqla

hasil olur. Bədənin bir qədəri suda olarkən digər yerlərini suya batırmaqla irtimasi qüslün hasil olması məhəlli-işkaldır. Vacib ehtiyata əsasən, irtimasi qüsl elə olmalıdır ki, bütün bədən bir anda suya batırılsın və camaat arasında ona «bədənini bir dəfəyə suya batırdı» deyilsin.

**Məsələ:** ٣٧٤. Ehtiyata əsasən, irtimasi qüsldə bədənin suya batırılan ilk hissəsindən axırıncı hissəsinə kimi, qüsl niyyətində olmalıdır.

**Məsələ:** ٣٧٥. İrtimasi qüsl etdikdən sonra bədənin hər hansı bir yerinin suya dəymədiyini bilsə – istər su yetişməyən o yeri bilsin, istərsə yox, yenidən qüsl etməlidir.

**Məsələ:** ٣٧٦. Əgər tərtibi qüsl almağa vaxt olmazsa, lakin irtimasi qüslə vaxt vardırsa, irtimasi qüsl almalıdır.

**Məsələ:** ٣٧٧. Həcc və ya ümrə üçün ehram bağlamış olan şəxs irtimasi qüsl edə bilməz. Oruc şəxsin irtimasi qüsl etməsinin hökmü ١٦٢٥-ci məsələdə deyiləcək.

## QÜSL ETMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٣٧٨. İrtimasi və yaxud tərtibi qüsldə, qüsldən əvvəl bədənin hər yerinin pak olması lazım (vacib) deyildir; əksinə, su mö`təsim olduğu təqdirdə əgər qüsl qəsdi ilə suya baş vurmaqla və ya su tökməklə bədən pak olarsa, qüsl səhihdir. Mö`təsim su – yağış, kür və axar sü kimi, nəcasət dəyərkən nəcis olmayan suya deyilir.

**Məsələ:** ٣٧٩. Haramdan cünub olan şəxs isti su ilə qüsl etsə, hətta tərləsə də belə, qüslü səhihdir. Müstəhəbb ehtiyat budur ki, soyuq su ilə qüsl etsin.

**Məsələ:** ٣٨٠. Əgər qüsldə bədənin bir yeri yuyulmamış qalarsa, belə ki, əgər qüsl irtimasidirsə, batildir. Yox, əgər tərtibidirsə onun hökmü ٣٧١-ci məsələdə deyildi. Hər bir halda, burun və qulağın içi kimi, adətən bədənin daxili hesab olunan yerlərin yuyulması vacib deyildir.

**Məsələ:** ٣٨١. Bir yerin bədənin zahirindən, yoxsa daxilindən olduğunda şəkk etsə, bu halda əvvəllər əgər zahirdən olubsa, yumalıdır; əgər əvvəllər zahirdən olmayıbsa, yumaq lazım deyil. Əvvəlki halı mə`lum olmayan təqdirdə, vacib ehtiyata əsasən, yuyulmalıdır.

**Məsələ:** ٣٨٢. Əgər sırğa və bu kimi şeylər üçün deşilmiş yerin içi, zahirdən sayılacaq qədər geniş olarsa, yuyulmalıdır. Əks təqdirdə onu yumaq lazım deyil. Amma əgər zahir adlana biləcəyində şəkk edərsə, bu halda ehtiyata görə yumaq lazımdır.

**Məsələ:** ٣٨٣. Suyun bədənə dəyməsinin qarşısını alacaq bir şeyi təmizləyib aradan aparmaq lazımdır. Əgər onun aradan getməsini yəqin etməzdən qabaq irtimasi qüsl edərsə, yenidən qüsl etməlidir. Əgər qüsl, tərtibi olmuşdursa, onun hökmü ٣٧٢-ci məsələdəki hökm kimidir.

**Məsələ:** ٣٨٤. Qüsl edərkən suyun bədənə dəyməsinə mane olacaq bir şeyin olub-olmamasında şəkk edərsə, onun olmadığına arxayın oluncaya qədər axtarış aparmalıdır.

**Məsələ:** ٣٨٥. Qüsldə bədənin bir hissəsi hesab olunan xırda tüklər yuyulmalıdır, uzun tükləri isə yumaq vacib deyildir. Hətta əgər onları islatmadan suyu dəriyə çatdıra bilsə, qüsl səhihdir. Lakin suyun dəriyə çatması onları yumadan mümkün olmazsa, onları da yumaq lazımdır ki, su dəriyə çatsın.

**Məsələ:** ٣٨٦. Dəstəmazın səhihliyində şərt olan şeylərin hamısı: suyun pak və mübah olması kimi şeylər qüslün də səhihliyi üçün şərtdir. Lakin qüsldə bədəni yuxarıdan aşağıya yumaq lazım (vacib) deyildir. Həmçinin, tərtibi qüsldə bir hissəni yuduqdan sonra digər hissəni dərhal yumaq lazım (vacib) deyil; deməli, əgər baş və boyun yuyulduqdan sonra bir qədər gözləsə və bir müddətdən sonra bədəni yusa, yaxud sağ tərəfi yuduqdan sonra bir müddət gözləyib sol tərəfi yuyarsa, işkalı yoxdur. Lakin bövl və ğaitin ifrazından özünü saxlaya bilməyən şəxs qüsl etmək və namaz qılmaq qədərində özünü saxlaya bilirsə, bu vaxt ərzində gözləmədən, dərhal qüsl etməli və dərhal namaz qılmalıdır.

**Məsələ:** ٣٨٧. Hamamçının pulunu verməməyi nəzərdə tutan, yaxud onun pulunu nisyə verməyə razı olmasını bilməyən bir kəs, hətta sonradan hamamçını razı salsa da belə, qüslü batildir.

**Məsələ:** ٣٨٨. Əgər hamamçı hamam pulunun nisyə qalmasına razı olarsa, lakin qüsl edən şəxs onun pulunu ödəməmək qəsdində olarsa, yaxud haram maldan ödəmək qəsdində olarsa, onun qüslü batildir.

**Məsələ:** ٣٨٩. Şəxs, hamamçıya xümsü verilməmiş pul verərsə, haram iş görmüşdür və onun qüslü batildir.

**Məsələ:** ٣٩٠. Bir kəs ğaitin məxrəcini hamamın anbarının suyunda pak etsə və qüsldən əvvəl özünü anbarda pak etdiyi üçün hamamçının onun qüsl etməsinə razı olub-olmamasında şəkk edərsə, qüsldən öncə hamamçını razı salmayınca, qüslü batildir.

**Məsələ:** ٣٩١. Şəxs qüsl edib-etmədiyində şəkk etsə, gərək qüsl etsin. Lakin qüsl etdikdən sonra onu düzgün edib-etməməsində şəkk etsə, bu halda qüsl vaxtı onu səhih yerinə yetirməsi üçün diqqətli olduğunu ehtimal etsə, qüslü səhihdir.

**Məsələ:** ٣٩٢. Əgər qüsl əsnasında kiçik hədəs baş verərsə, məsələn, bövl edərsə, vacib ehtiyata əsasən, niyyətini tərtibi qüsldən irtimasiyə çevirməyibsə, qüslü tamamlamalı və yenidən qüsl almalı və sonra dəstəmaz da almalıdır.

**Məsələ:** ٣٩٣. Əgər vaxtın dar olmasına görə mükəlləfin vəzifəsi təyəmmüm olarsa, amma qüsl etmək və namaz qılmaq qədər vaxtın qaldığını güman edərək qüsl edərsə, misal üçün, cənabət qüslündən pak olmaq, yaxud Qur`an oxumaq qəsdilə qüsl etsə, onun qüslü səhihdir.

Əgər o namazı, "o namaza əmr olunmayacağı təqdirdə qüsl qəsdi etməyəcəkdi"-deyə qılmağı qəsd etsə, onun qüslü batildir.

**Məsələ:** ٣٩٤. Cünub olan və namaz qılan şəxs, qüsl edib-etmədiyində şəkk edərsə, namaza başlayan zaman diqqətli olduğuna ehtimal verdiyi təqdirdə, onun namazı səhihdir, lakin sonrakı namazlar üçün qüsl almalıdır. Əgər namazdan sonra ondan kiçik hədəs baş veribsə, (qüsl aldıqdan sonra) dəstəmaz da almalıdır. Əgər vaxt vardırsa, qılmış olduğu namazı da təzələməli, vaxt ötübsə, qəza etməlidir.

**Məsələ:** ٣٩٥. Boynunda bir neçə vacib qüsl olan şəxs onları ayrı-ayrı yerinə yetirə bilər, lakin gərək birinci qüsldən sonra qalanları üçün vacib niyyəti etməsin. Həmçinin, onların hamısının niyyəti ilə bir qüsl də ala bilər. Hətta əgər boynundakı müəyyən bir qüslü qəsd etsə, qalanları üçün də kifayətdir.

**Məsələ:** ٣٩٦. Əgər bir şəxsin bədəninin hər hansı bir yerində Qur`an ayəsi, yaxud Allah-Taalanın adı yazılmış olsa və o, tərtibi qüsl almaq istəsə, suyu bədəninə elə çatdırmalıdır ki, əli yazıya dəyməsin. Dəstəmaz üzvlərinin bə`zisində Qur`an ayəsi, həmçinin, vacib ehtiyata əsasən, Allahın adı olan şəxs, tərtibi dəstəmaz almaq istədikdə, deyilən göstərişə əməl etməlidir. Dəstəmaz və qüsldə peyğəmbərlər (əleyhimussalam), imamlar (əleyhimussalam) və həzrəti Zəhra (əleyha salam) adlarına qarşı ehtiyata riayət etmək müstəhəbdir.

**Məsələ:** ٣٩٧. Cənabət qüslü almış şəxs namaz üçün dəstəmaz almamalıdır. Hətta, mütəvəssitə istihazə qüslü istisna olmaqla, sair vacib qüsllərdən və ٦٥٠-ci məsələdə deyiləcək müstəhəb qüsllərdən sonra da dəstəmaz almadan namaz qıla bilər. Baxmayaraq ki, dəstəmaz almaq müstəhəb ehtiyatdır.

## İSTİHAZƏ

Qadınlardan xaric olan qanlardan biri də istihazə qanıdır. Qadın istihazə qanı görən zaman "müstəhazə" adlanır.

**Məsələ:** ٣٩٨. İstihazə qanı əksər vaxtlarda sarı və soyuq olur, təzyiq və yandırıcılıq olmadan gəlir, o, qatı da deyildir. Lakin onun bəz`ən qara, yaxud qırmızı rəngdə olması, isti və qatı olması, təzyiqlə və yandırıcılıqla gəlməsi də mümkündür.

**Məsələ:** ٣٩٩. İstihazə üç qismdir: qəlilə (az), mütəvəssitə (orta) və kəsirə (çox).

Qəlilə odur ki, qan qadının öz fərcinin daxilinə qoyduğu pambığın üzərinə hopur və pambığın içinə keçmir.

Mütəvəssitə odur ki, qan o pambığın, hətta bir hissəsində olsa belə, içinə keçir, lakin pambıqdan qadınların adətən, qanın qarşısını almaq üçün qoyduqları parçaya çatmır.

Kəsirədə isə qan pambığı bulayıb parçaya da keçir.

## İSTİHAZƏNİN HÖKMLƏRİ

**Məsələ:** ٤٠٠. Qəlilə istihazədə qadın hər bir namaz üçün bir dəstəmaz almalı, vacib ehtiyata əsasən, pambığı dəyişməli və əgər qan fərcin zahirinə dəyibsə, onu suya çəkməlidir.

**Məsələ:** ٤٠١. Mütəvəssitə istihazədə, qadın hər sübh namazı üçün qüsl almalı və növbəti sübhə qədər öz namazları üçün keçən məsələdə deyilmiş qəlilə istihazə göstərişlərinə əməl etməlidir. Əgər bu hal digər namazdan əvvəl baş verərsə, həmin namaz üçün qüsl almalı və gələn sübhə qədər öz namazlarında qəlilə istihazənin qaydalarına əməl etməlidir. Əgər qəsdən, yaxud unutqanlıq səbəbindən qüsl almalı olduğu namazdan əvvəl qüsl almasa, sonrakı namazdan əvvəl qüsl almalıdır. Bu zaman qanın gəlməsi, yaxud kəsilməsinin fərqi yoxdur.

**Məsələ**: ٤٠٢. Kəsirə istihazədə, keçən məsələdə deyilmiş mütəvəssitə istihazənin işlərindən əlavə, hər namaz üçün vacib ehtiyata əsasən, parçanı dəyişməli, yaxud suya çəkməlidir. Zöhr və əsr namazı üçün bir qüsl, məğrib və işa namazı üçün də bir qüsl etməli, zöhrlə əsr, həmçinin, məğriblə işa namazları arasında fasilə salmamalıdır. Əgər fasilə salsa, ikinci namaz üçün – istər əsr olsun, istərsə işa namazı – yenidən qüsl almalıdır. Kəsirə istihazədə qüsl dəstəmazdan kifayət (onu əvəz) edir.

**Məsələ:** ٤٠٣. Əgər istihazə qanı namaz vaxtından əvvəl də gəlsə,

bu halda qadın o qan üçün dəstəmaz, yaxud qüsl etməyibsə, həmin anda müstəhazə olmamasına baxmayaraq, namaz vaxtı dəstəmaz, yaxud qüsl yerinə yetirməlidir.

**Məsələ:** ٤٠٤. Dəstəmaz alıb qüsl etməli olan mütəvəssitə istihazəli qadın, hər hansını əvvəl yerinə yetirsə, səhihdir. Lakin əvvəlcə dəstəmaz alması daha yaxşıdır. Kəsirə istihazəli olan qadın, dəstəmaz almaq istəsə, qüsldən əvvəl almalıdır.

**Məsələ:** ٤٠٥. İstihazəsi qəlilə olan qadının (qanı) sübh namazından sonra mütəvəssitə olsa, zöhr və əsr namazı üçün qüsl almalıdır. Əgər zöhr və əsrdən sonra mütəvəssitə olsa, məğrib və işa namazı üçün qüsl almalıdır.

**Məsələ:** ٤٠٦. İstihazəsi qəlilə, yaxud mütəvəssitə olan qadın, əgər sübh namazından sonra kəsirə olarsa, zöhr və əsr namazı üçün bir qüsl, məğrib və işa namazı üçün də bir qüsl almalıdır. Əgər zöhr və əsr namazından sonra kəsirə olarsa, məğrib və işa namazı üçün qüsl almalıdır.

**Məsələ:** ٤٠٧. İstihazəsi kəsirə, yaxud mütəvəssitə olan qadın namaz vaxtı daxil olana qədər bu vəziyyətdə qalsa, namaz vaxtı daxil olmamışdan qabaq namaz üçün qüsl alsa, qüslü batildir. Lakin sübh azanına yaxın ümid (rəca) qəsdilə qüsl alıb gecə namazı qılarsa, caizdir, ancaq ehtiyata görə, fəcrdən sonra sübh namazı üçün qüslü təzələməlidir.

**Məsələ:** ٤٠٨. İstihazəli qadın, hökmü deyilmiş gündəlik namazlardan başqa, qılmaq istədiyi hər bir namaz üçün – istər vacib, istərsə müstəhəbb; həmçinin, qılmış olduğu gündəlik vacib namazları ehtiyatən yenidən qılmaq, yaxud fərdi qıldığı namazları yenidən camaatla qılmaq istəsə, istihazənin deyilmiş bütün qaydalarına əməl etməlidir. Kəsirə istihazəsi olan qadın (bu işlər üçün) ehtiyata görə, dəstəmaz da almalıdır və əgər o namazı qüsl alıb qılmalı olduğu gündəlik vacib namazın vaxtında qılsa, vacib ehtiyata əsasən, yenidən qüsl almalıdır. Lakin ehtiyat namazı, yaddan çıxmış səcdə və təşəhhüdü, eləcə də unudulmuş təşəhhüd üçün yerinə yetirməli olduğu iki səhv səcdəsini namazdan sonra dərhal yerinə yetirsə, istihazənin qaydalarına əməl etməsi vacib deyil. Namazın səhv səcdəsi üçün istihazənin işlərini etmək lazım (vacib) deyil.

**Məsələ:** ٤٠٩. İstihazə olan qadın, qanı kəsildikdən sonra yalnız qıldığı ilk namaz üçün istihazə qaydalarına əməl etməlidir, sonrakı namazlar üçün isə lazım deyildir.

**Məsələ:** ٤١٠. İstihazəsinin hansı qismdən olmasını bilməyən qadın, namaz qılmaq istədikdə ehtiyata uyğun əməl etməli, yaxud özünü yoxlamalıdır. Belə ki, fərcinə bir qədər pambıq daxil edib bir az gözləməli və sonra çıxarıb istihazəsinin hansı qismdən olduğunu tə`yin

edərək həmin qismə aid olan qaydalara əməl etməlidir. Lakin namaz qılmaq istədiyi vaxta qədər istihazəsinin dəyişməyəcəyini bilərsə, vaxt daxil olmamışdan qabaq da özünü yoxlaya bilər.

**Məsələ:** ٤١١. İstihazəli olan qadın, özünü yoxlamamışdan namaza başlasa, bu zaman qürbət qəsdi ilə öz vəzifəsinə əməl edirsə, məsələn, istihazəsi qəlilə olduğu üçün qəlilənin qaydalarına əməl edirsə, namazı səhihdir. Əgər qürbət qəsdi etməyibsə, yaxud əməli öz vəzifəsinə uyğun olmayıbsa, məsələn, istihazəsi mütəvəssitə olduğu halda qəlilənin qaydalarına əməl edibsə, namazı batildir.

**Məsələ:** ٤١٢. Özünü yoxlaya bilməyən və istihazəsinin hansı qismdən olduğunu bilməyən qadın, vacib ehtiyata əsasən, şər`i vəzifəsini yerinə yetirdiyinə əmin olmaq üçün öz vəzifəsini artıqlaması ilə yerinə yetirməlidir. Məsələn, əgər istihazəsinin qəlilə, yoxsa mütəvəssitə olduğunu bilmirsə, mütəvəssitənin işlərini yerinə yetirməlidir; və əgər mütəvəssitə, yoxsa kəsirə olduğunu bilmirsə, kəsirənin qaydalarına əməl etməli və hər namaz üçün dəstəmaz da almalıdır. Lakin əvvəllər üç qismdən hər hansı birindən olduğunu bilirsə, həmin qismin qaydalarına əməl etməlidir.

**Məsələ:** ٤١٣. Əgər istihazə qanı zahir olmasının əvvəl vaxtlarında batində olub bayıra çıxmasa, qadının almış olduğu dəstəmazı, yaxud qüslü batil etməz. Əgər (qan) bayıra çıxsa, az olsa da belə, dəstəmaz və qüslü batil edər.

**Məsələ:** ٤١٤. Müstəhazə qadın əgər namazdan sonra özünü yoxlayaraq qan görməzsə, yenidən qan gələcəyini bilsə də, almış olduğu dəstəmazla namaz qıla bilər.

**Məsələ:** ٤١٥. İstihazə olan qadın əgər dəstəmaz, ya qüslə məşğul olduğu vaxtdan ondan qan xaric olmadığını bilirsə, bu halda qalacağını bildiyi vaxta qədər namazını tə`xirə sala bilər.

**Məsələ:** ٤١٦. Əgər istihazəli qadın, namazın vaxtı keçməzdən əvvəl tamamilə pak olacağını, yaxud namaz qıla biləcək bir müddətdə qanın dayanacağını bilsə, gözləyib namazı pak olduğu vaxtda qılmalıdır.

**Məsələ:** ٤١٧. Əgər dəstəmaz və qüsldən sonra qan zahirdə kəsilsə və qadın bilsə ki, namazı dəstəmaz almaq, qüsl etmək və namaz qılmağa sərf olunan vaxt qədər tə`xirə salmaqla tamamilə pak olacaq, onda namazı tə`xirə salmalıdır. Elə ki, tamamilə pak oldu, yenidən dəstəmaz və qüsl alıb namaz qılmalıdır. Əgər namazın vaxtı dar olarsa, dəstəmazı və qüslü yenidən alması lazım deyildir, əksinə vacib ehtiyata əsasən, qüsl etmək əvəzi, həmçinin dəstəmaz almaq əvəzi təyəmmüm edib namaz qılmalıdır.

**Məsələ:** ٤١٨. Kəsirə və mütəvəssitə istihazəsi olan qadın qandan tamamilə pak olduqdan sonra qüsl almalıdır. Lakin bilsə ki, əvvəlki

namaz üçün qüsl etdiyi vaxtdan bəri qan gəlməyib və tamamilə pak olub, yenidən qüsl alması vacib deyildir.

**Məsələ:** ٤١٩. ٤١٥-ci məsələdə deyilmiş hallardan başqa, kəsirə, mütəvəssitə və qəlilə istihazəsi olan qadınlar öz vəzifələrinə əməl etdikdən sonra gərək namazı tə`xirə salmasınlar. Lakin namazdan öncə azan və iqamə deməyin eybi yoxdur, namazda da qunut və s. kimi müstəhəbb olan əməlləri yerinə yetirə bilərlər. Müstəhəbb ehtiyat budur ki, namazın vacib hissələrini icra etmək qədər vaxtda pak olsalar, müstəhəbb əməlləri tərk etsinlər.

**Məsələ:** ٤٢٠. Vəzifəsi dəstəmaz, yaxud qüsl olan müstəhazə qadın vəzifəsi ilə namaz arasında fasilə salarsa, yenidən vəzifəsinə uyğun olaraq dəstəmaz, yaxud qüsl almalı və fasiləsiz olaraq (dərhal) namaza başlamalıdır. ٤١٥-ci məsələdə deyilən halda olduğunu bildiyi hallar istisnadır (namazı tə`xirə sala bilər).

**Məsələ:** ٤٢١. Əgər qadının istihazə qanı arası kəsilmədən gəlirsə, ona zərəri olmayan təqdirdə gərək qüsldən sonra qanın gəlməsinin qarşısını alsın. Əgər e`tinasızlıq etsə və qan xaric olsa, yenidən qüsl almalı və əgər namaz da qılmış olsa, namazı təzələməlidir.

**Məsələ:** ٤٢٢. Əgər qüsl edərkən qan kəsilməzsə, qüslü səhihdir. Lakin qüsl əsnasında mütəvəssitə dönüb kəsirə olsa, qüslü əvvəldən başlamalıdır.

**Məsələ:** ٤٢٣. İstihazə olan qadın oruc olduğu bütün gün ərzində qanın gəlməsinin qarşısını bacardığı qədər alması müstəhəb ehtiyatdır.

**Məsələ:** ٤٢٤. Kəsirə istihazəsi olan qadının orucu o surətdə səhihdir ki, oruc tutduğu günün namazları üçün vacib olan qüslləri yerinə yetirsin və həmçinin, vacib ehtiyata əsasən, ertəsi gün oruc tutacağı gecə məğrib və işa namazlarının qüslünü yerinə yetirsin.

**Məsələ:** ٤٢٥. Əgər qadın əsr namazından sonra istihazə qanı görsə və gün batana kimi qüsl almasa, orucu səhihdir.

**Məsələ:** ٤٢٦. Qəlilə istihazəsi olan qadın namazdan öncə mütəvəssitə, yaxud kəsirə olarsa, mütəvəssitənin yaxud kəsirənin keçmiş məsələlərdə deyilmiş işlərini icra etməlidir. Əgər mütəvəssitə istihazə kəsirə olarsa, kəsirə istihazəsinin qaydalarına əməl etməlidir. Əgər mütəvəssitə istihazəsi üçün qüsl almış olsa, faydasızdır və gərək yenidən kəsirə istihazəsi üçün qüsl alsın.

**Məsələ:** ٤٢٧. Əgər namaz əsnasında qadının mütəvəssitə istihazəsi kəsirə olarsa, namazı saxlamalı və kəsirə istihazəsi üçün qüsl almalı, onun digər işlərini yerinə yetirməli və həmin namazı yenidən qılmalıdır. Müstəhəb ehtiyata əsasən, qüsldən öncə dəstəmaz almalı və əgər qüsl üçün vaxt olmasa, qüsl əvəzi təyəmmüm etməlidir. Əgər təyəmmüm üçün də vaxt yoxdursa, vacib ehtiyata əsasən, namazı həmin halda tamamlamalı, lakin vaxt xaricində namazı qəza etməlidir.

Həmçinin, əgər namaz əsnasında qəlilə istihazə, mütəvəssitə, yaxud kəsirə olsa, namazı pozmalı, mütəvəssitə, yaxud kəsirə müstəhazənin vəzifələrini yerinə yetirməlidir.

**Məsələ:** ٤٢٨. Əgər namaz əsnasında qan kəsilərsə və istihazə olan qadın qanın daxildə də kəsilib-kəsilmədiyini bilməzsə, bu halda namazdan sonra qanın (namaz əsnasında) kəsilmiş olduğunu başa düşsə, dəstəmaz və qüsldən ibarət olan vəzifəsini yerinə yetirərək yenidən namaz qılmalıdır.

**Məsələ:** ٤٢٩. Əgər qadının kəsirə istihazəsi dönüb mütəvəssitə olarsa, birinci namaz üçün kəsirənin, qalan namazlar üçün isə mütəvəssitənin əməllərini icra etməlidir. Məsələn, əgər kəsirə istihazəsi zöhr namazından öncə dönüb mütəvəssitə olsa, zöhr namazı üçün qüsl almalı və əsr, məğrib və işa namazları üçün dəstəmaz almalıdır. Lakin əgər zöhr namazı üçün qüsl almasa və yalnız əsr namazını qılacaq qədər vaxt qalsa, gərək əsr namazı üçün qüsl etsin. Əgər əsr namazı üçün də qüsl etməsə, məğrib namazı üçün qüsl etməlidir. Əgər məğrib namazı üçün də qüsl etmsə və yalnız işa namazını qılacaq qədər vaxt qalsa, gərək işa namazı üçün qüsl etsin.

**Məsələ:** ٤٣٠. Əgər hər namazdan əvvəl qadının kəsirə istihazəsi qanı kəsilib (sonra) yenidən kəlirsə, bu halda qan kəsilən vaxtda qüsl və dəstəmaz ala biləcək qədər geniş vaxt olsa, həmin fasilədə qüsl alıb namaz qılmalıdır. Yox, əgər qanın kəsildiyi vaxt, pak halda namaz qılmaq qədər geniş deyildirsə, həmin aldığı bir qüsl kifayət edər. Əgər qüsl almaq və namazın bə`zi hissələri üçün vaxt genişliyi varsa, vacib ehtiyata əsasən, həmin fasilədə (qan kəsilərkən) qüsl almalı və namaz qılmalıdır.

**Məsələ:** ٤٣١. Əgər qadının kəsirə istihazəsi dönüb qəlilə olsa, birinci namazı üçün kəsirənin, sonrakı namazlar üçün isə qəlilənin işlərini yerinə yetirməlidir. Həmçinin, mütəvəssitə qəlilə olduqda birinci namaz üçün mütəvəssitənin, sonrakı namazlar üçün isə qəlilənin işlərini icra etməlidir.

**Məsələ:** ٤٣٢. Əgər istihazəli olan qadın, ona vacib olan işlərdən birini tərk edərsə, namazı batildir.

**Məsələ:** ٤٣٣. Namaz üçün qüsl etmiş və ya dəstəmaz almış istihazəli qadın, ehtiyata əsasən, ixtiyari halda öz bədənindən hər hansı bir yerini Qur`anın yazısına toxundura bilməz və bu, zərurət halında caizdir, lakin ehtiyatən gərək dəstəmaz alsın.

**Məsələ:** ٤٣٤. Vacib qüslünü yerinə yetirmiş istihazəli qadının – hətta namaz üçün yerinə yetirdiyi digər işləri, məsələn, pambıq və parçanı dəyişmək kimi – etməsə də belə, məscidə getməsi, orada dayanması, vacib səcdəsi olan ayəni oxuması və ərinin onunla yaxınlıq etməsi halaldır. Əqva nəzər budur ki, bu işlər qüslsüz də caizdir, buna

baxmayaraq, əhvət nəzər budur ki, tərk olunsun.

**Məsələ:** ٤٣٥. Kəsirə, yaxud mütəvəssitə istihazəsi olan qadın namaz vaxtından əvvəl vacib səcdəsi olan ayə oxumaq, yaxud məscidə getmək və ya ərinin onunla yaxınlıq etməsini istəsə, müstəhəbb ehtiyata əsasən, qüsl almalıdır.

**Məsələ:** ٤٣٦. Ayət namazı istihazəli qadına vacibdir və ayət namazını qılmaq üçün o, gündəlik vacib namazları qılmaq üçün yerinə yetirməli olduğu işləri icra etməlidir. Ehtiyata əsasən, kəsirə istihazəsi olan qadın dəstəmaz da almalıdır.

**Məsələ:** ٤٣٧. Gündəlik vacib namazın vaxtında istihazəli qadına ayət namazı vacib olarsa, onları ardıcıl qılmaq istəsə də, ayət və gündəlik namazın hər biri üçün ayrılıqda müstəhazənin vəzifəsini icra etməlidir.

**Məsələ:** ٤٣٨. İstihazəli qadın tamamilə pak olana kimi qəza namazlarını tə`xirə salmalıdır. Qəza namazlarının vaxtı dar olduğu təqdirdə də əda olan (öz vaxtında qılmalı olduğu) namazlar üçün vacib olaraq yerinə yetirdiyi işləri qəza namazları üçün də yerinə yetirməlidir.

**Məsələ:** ٤٣٩. Əgər qadın özündən xaric olan qanın yara qanı olmadığını və şər`ən heyz və nifas hökmü daşımadığını bilsə, istihazə göstərişlərinə əməl etməlidir. Hətta əgər istihazə, yoxsa başqa qan olmasında şəkk etsə, bu halda o qanların əlamətləri həmin qanda olmasa, vacib ehtiyata əsasən, istihazənin işlərini yerinə yetirməlidir.

## HEYZ

Heyz – adətən, hər ayda bir neçə gün qadınların uşaqlığından (rəhimindən) gələn qandır. Heyz qanı görən qadına haiz deyilir.

**Məsələ:** ٤٤٠. Heyz qanı çox vaxt qatı, isti və qara, yaxud qırmızı rəngli olmaqla, təzyiq və bir az da yandırıcı halda gəlir.

**Məsələ:** ٤٤١. Qadınlar altmış yaş tamam olandan sonra yaisə olurlar və bundan sonra qan görsələr, heyz qanı deyildir. Vacib ehtiyata əsasən, istər qüreyşi (seyyidə), istərsə də qeyri-qüreyşi (seyyidə olmayan) qadınlar əlli yaşları tamam olandan altmış yaşları tamam olana qədər həm yaisə, həm də qeyri-yaisənin hökmlərinin hər ikisinə əməl etsinlər. Deməli, əgər əlli-altmış yaş arası fasilədə heyzin nişanələri olan, ya da adət günlərində qan görmüş olsalar, vacib ehtiyata əsasən, istihazə qaydalarına riayət etməli və haiz qadının tərk etdiklərini tərk etməlidir.

**Məsələ:** ٤٤٢. Qızın doqquz yaşı tamam olmamış gördüyü qan heyz deyildir.

**Məsələ:** ٤٤٣. Hamilə, yaxud uşağa süd verən qadının heyz qanı görməsi mümkündür və heyzin hökmlərində hamilə qadınla hamilə olmayan qadın arasında heç bir fərq yoxdur. Lakin hamilə qadın adət gününün əvvəlindən iyirmi gün keçəndən sonra heyz nişanələrinə malik qan görsə, ehtiyat vacibə görə istihazə əməllərinə riayət etməli və haiz qadının tərk etdiklərini tərk etməlidir.

**Məsələ:** ٤٤٤. Doqquz yaşının tamam olub-olmadığını bilməyən qız, heyzin nişanələri olmayan bir qan görərsə, heyz deyildir. Əgər heyzin nişanələri varsa, heyzdir və onun doqquz yaşı şər`ən tamam olmuş hesab olunur.

**Məsələ:** ٤٤٥. Yaisə olub-olmadığında şəkk edən qadın qan görsə və heyz (qanı) olub-olmadığını bilməsə, yaisə olmadığını əsas götürməlidir.

**Məsələ:** ٤٤٦. Heyzin müddəti üç gündən az, on gündən çox olmur.

**Məsələ:** ٤٤٧. Heyzin ilk üç günü ardıcıl olmalıdır. Deməli, əgər, məsələn, iki gün qan görüb, bir gün pak olduqdan sonra yenidən bir gün qan görsə, heyz deyildir. Baxmayaraq ki, bu surətdə müstəhəbb ehtiyata görə ikinci surətin oxşarlarında istihazə qaydalarına riayət və haiz qadının tərk etdiklərini tərk etməlidir.

**Məsələ:** ٤٤٨. Heyzin əvvəlində qan bayıra çıxmalıdır. Lakin üç günün hamısında bayıra çıxması lazım (vacib) deyil, hətta (heyz hesab

olunması üçün) fərcin daxilində də qan olsa, kifayətdir. Lakin uşaqlıqda (bətndə) qan olması kifayət etməz. Eləcə də, üç günün əsnasında qadınlar arasında həmişə adi sayılan qaydada azacıq pak olsa, yenə də heyzdir.

**Məsələ:** ٤٤٩. Birinci və dördüncü gecə qan görünməsi lazım (vacib) deyil, lakin ikinci və üçüncü gecə qan kəsilməməlidir. Deməli, əgər birinci günün sübh azanından üçüncü günün gün batan vaxtına qədər qan ardıcıl olaraq, heç vaxt kəsilmədən gəlsə, işkalsız olaraq heyzdir. Həmçinin, birinci günün ortalarında qan gəlməyə başlasa və dördüncü gün həmin vaxtda kəsilsə, yenə də heyz hesab olunur. Lakin əgər gün çıxandan başlayıb üçüncü günün axırı, gün batana qədər davam etsə, vacib ehtiyata əsasən, istihazə qaydalarına riayət etməli və haiz qadının tərk etdiklərini tərk etməlidir.

**Məsələ:** ٤٥٠. Əgər üç gün ardıcıl heyz nişanələri ilə, yaxud adət günlərində qan görsə və bundan sonra pak olsa və yenidən heyz əlamətləri olan, yaxud elə adət günlərində qan görsə, bu halda qan gördüyü və arada pak olduğu günlər üst-üstə on gündən artıq olmasa, arada pak olduğu günlər də heyzdir.

**Məsələ:** ٤٥١. Əgər üç gündən az və on gündən çox olmayan muddətdə qan görsə və yara, çiban, yoxsa heyz qanı olduğunu bilməsə, bu halda həmin qanda heyzin nişanələri olsa və ya adət günlərində gəlmiş olsa, onu heyz hesab etməlidir. Deyilmiş surətdən qeyrisində isə, əgər ondan əvvəlki halının pak olduğunu bilirsə, yaxud ondan əvvəlki halını bilmirsə, paklığa hökm etməlidir. Əgər heyz olduğunu bilirsə, əvvəlki halı və şəkkdə qaldığı haldakı qanların hamısının qədərinin şər`ən heyz olması mümkündürsə, heyz hesab etməlidir.

**Məsələ:** ٤٥٢. Adət günlərində və heyz nişanələri olmadan, üç günü ötməmiş bir qan görsə və yara, çiban, yoxsa heyz qanı olduğunu da bilməsə, bu halda əgər əvvəldəki halı heyzdirsə, (əvvəlki məsələdə deyilən tərzdə) gərək heyz hesab etsin. Əks halda isə, gərək öz ibadətlərini yerinə yetirsin.

**Məsələ:** ٤٥٣. Əgər heyz, yoxsa istihazə olmasında şəkk etdiyi bir qan görsə, bu halda əgər heyzin əlamətləri onda olmuş olarsa, heyz hesab etməlidir.

**Məsələ:** ٤٥٤. Əgər heyz, yoxsa bakirəlik qanı olduğunu bilmədiyi bir qan görərsə: gərək özünü yoxlasın; yə`ni bir qədər pambığı fərcin daxilinə qoyaraq bir az gözləməli, sonra çıxarıb baxmalıdır: əgər pambığın ətrafı qana bulaşmışdırsa, bakirəlik qanı, əgər pambığın hər yerinə dəyibsə, heyz qanıdır. Ya da haizin tərk etməli olduğu şeyləri tərk və pak qadının əməllərini yerinə yetirməklə ehtiyata əməl etsin.

**Məsələ:** ٤٥٥. Əgər bir qadın üç gündən az müddətdə qan görüb pak olarsa, sonra üç gün adət vaxtlarında və ya heyz nişanələri ilə olan

qan görərsə, ikinci dəfə gördüyü qan heyz qanıdır. Əvvəlki qan adət günlərində olmasına baxmayaraq, heyz deyildir.

## HAİZİN HÖKMLƏRİ

**Məsələ:** ٤٥٦. Haizə bir neçə şey haramdır:

١. Namaz kimi dəstəmaz, qüsl və təyəmmümlə yerinə yetirilməli olan ibadətlər.

Bu cür ibadətlərdə haram deyildikdə məqsəd, onları şər`i göstəriş və tələb olunan əməl qəsdi ilə yerinə yetirilməsinin caiz olmamasıdır. Lakin meyyit namazı kimi dəstəmaz, qüsl və təyəmmüm olunması lazım (vacib) olmayan ibadətləri əncam verməyin maneçiliyi yoxdur.

٢. Cənabətin hökmündə deyilən və cünuba haram olan bütün əməllər.

٣. Fərcdən cima etmək. Xütnəgah qədərindən az da daxil olsa və məni gəlməsə də, bu iş həm kişiyə, həm də qadına haramdır. Vacib ehtiyata əsasən, haiz qadına arxadan yaxınlıq etməkdən çəkinmək lazımdır. Yaxınlıq etməkdən başqa, haiz qadını öpmək və mazaqlaşmaq kimi ləzzətlərin maneçiliyi yoxdur.

**Məsələ:** ٤٥٧. Qadının haiz olması qəti olmayan, lakin özü üçün şər`ən heyz qərar verdiyi günlərdə cima etmək haramdır. Buna görə də on gündən çox qan görən və sonradan deyiləcək qayda ilə öz qohumlarının adət günlərini heyz qərar verən qadının əri, həmin günlərdə onunla yaxınlıq edə bilməz.

**Məsələ:** ٤٥٨. Əgər kişi özünün heyz halında olan qadını ilə yaxınlıq etsə, müstəhəb ehtiyata əsasən, onun birinci hissəsində (yaxınlıq etmişsə) səkkiz noxud[١] sikkəli qızıl, ikinci hissədə (yaxınlıq etmişsə) doqquz noxud, üçüncü hissədə (yaxınlıq etdikdə isə) dörd noxud yarım kəffarə verməlidir. Məsələn, altı gün heyz qanı görən bir qadının əri, birinci və yaxud ikinci günün gündüz, ya gecəsində onunla cima edərsə, on səkkiz noxud sikkəli qızıl, üçüncü və dördüncü günün gündüz və gecəsində yaxınlıq edərsə doqquz, beşinci və altıncı günün gündüz və gecəsində cima etdikdə isə dörd noxud yarım sikkəli qızıl verməlidir. Qadına isə kəffarə yoxdur.

**Məsələ:** ٤٥٩. Müstəhəbb ehtiyata əsasən, haiz qadınla arxadan əlaqədə olduqda, əvvəlki məsələdə deyilmiş tərzdə kəffarə verməlidir.

**Məsələ:** ٤٦٠. Əgər sikkəli qızıl (tapmaq) mümkün olmazsa, onun qiymətini verməlidir. Əgər qızılın cima etdiyi vaxtdakı qiyməti fəqirə vermək istədiyi vaxtla fərqli olarsa, fəqirə vermək istədiyi vaxtla hesab etməlidir.

---

[١] Rəvacda olan hazırkı qızılla ٢٤ noxud bir misqal, bir misqal da ٤،٦٤ qramdır, deməli, bir noxud misqalın ٢٤-də biri qədərdir.

Şəri ölçü ilə isə ١٨ noxud bir misqal və bir misqal da ٣،٥ qramdır.

**Məsələ:** ٤٦١. Əgər bir şəxs heyzin həm birinci, həm ikinci, həm də üçüncü hissəsində öz qadını ilə cima edərsə, müstəhəbb ehtiyata əsasən, üst-üstə otuz bir noxud yarım qədərində olan hər üç kəffarəni verməlidir.

**Məsələ:** ٤٦٢. Əgər şəxs haiz qadınla bir neçə dəfə cima etsə, hər cima üçün bir kəffarə verməsi müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٤٦٣. Əgər kişi cima halında qadının haiz olduğunu başa düşərsə, dərhal ondan ayrılmalıdır. Ayrılmadıqda müstəhəbb ehtiyata əsasən, kəffarə verməlidir.

**Məsələ:** ٤٦٤. Əgər kişi haiz bir qadınla zina etsə, yaxud əyalı olduğunu güman edərək naməhrəm və haiz qadınla cima etsə, müstəhəbb ehtiyata əsasən, kəffarə verməlidir.

**Məsələ:** ٤٦٥. Kəffarə verə bilməyən şəxsin bir fəqirə sədəqə verməsi müstəhəbb ehtiyatdır. Əgər bunu da edə bilməsə, istiğfar etməlidir (Allahdan bağışlanmasını istəməlidir).

**Məsələ:** ٤٦٦. Bir şəxs – qasir cahil olduğu halda – hökmü bilmədən, yaxud unutqanlıq ucbatından heyz halında olan qadınla yaxınlıq edərsə, kəffarəsi yoxdur. Lakin müqəssir cahil barəsində bu hökm məhəlli-işkaldır.

**Məsələ:** ٤٦٧. Bir şəxs qadının haiz olduğunu güman edib onunla yaxınlıq etsə və sonra haiz olmadığı mə`lum olsa, kəffarəsi yoxdur.

**Məsələ:** ٤٦٨. Talaqın hökmlərində deyiləcəyi kimi, qadına heyz halında verilən talaq batildir.

**Məsələ:** ٤٦٩. Əgər qadın haiz olduğunu, yaxud heyzdən pak olduğunu desə, onun sözü qəbul olunmalıdır.

**Məsələ:** ٤٧٠. Qadın namaz əsnasında haiz olsa, namazı batildir.

**Məsələ:** ٤٧١. Əgər qadın namaz əsnasında heyz olub-olmadığında şəkk edərsə, onun namazı səhihdir. Lakin namaz əsnasında heyz olduğunu namazdan sonra anlasa, o halda qıldığı namaz batildir.

**Məsələ:** ٤٧٢. Qadın heyz qanından pak olandan sonra dəstəmaz, qüsl və təyəmmümlə yerinə yetirilməli olan namaz və bu kimi ibadətlər üçün qüsl almalıdır. Onun qaydası eynilə cənabət qüslü kimidir və qüsldən əvvəl dəstəmaz alması müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٤٧٣. Qadın heyz qanından pak olduqdan sonra, qüsl almasa da ona talaq vermək səhihdir, əri də onunla cima edə bilər. Lakin vacib ehtiyata əsasən, yaxınlıq fərc yuyulduqdan sonra edilməlidir. Ehtiyat müstəhəbb budur ki, qüsldən əvvəl, məxsusən meylin şiddətli olmadığı təqdirdə, onunla cima etməkdən çəkinilsin. Ancaq heyz halında qadına haram olan işlər – məsciddə dayanmaq, Qur`anın yazılarına toxunmaq kimi işlər qüsl etməyincə halal olmur.

**Məsələ:** ٤٧٤. Əgər su dəstəmaz və qüsl almaq üçün kifayət etməsə və yalnız qüsl almaq qədərində olarsa, qüsl almalıdır. Müstəhəbb

ehtiyata əsasən, dəstəmaz əvəzinə də təyəmmüm etməlidir. Əgər, su ancaq dəstəmaz üçün kifayət edərsə və qüslə çatmasa dəstəmaz almalı, qüsl əvəzi də təyəmmüm etməlidir. Əgər onların heç biri üçün su olmasa, onda biri dəstəmaz, biri də qüsl əvəzi olmaqla iki təyəmmüm edilməlidir.

**Məsələ:** ٤٧٥. Qadının heyz halında qılmadığı namazların qəzası yoxdur. Ayət namazının isə hökmü ١٥١٤-cü məsələdə deyiləcəkdir. Ramazan ayının orucunu isə qəza etməlidir. Lakin müəyyən bir şeyə nəzr etdiyi üçün oruc vacib olsa, yə`ni müəyyən bir günü oruc tutacağını nəzr etsə və həmin gün heyz günlərinə təsadüf etmiş olsa, vacib ehtiyata əsasən, onu da qəza etməlidir.

**Məsələ:** ٤٧٦. Əgər namazın vaxtı daxil olmuşdursa və qadın da namazı tə`xirə salacağı surətdə haiz olacağını bilirsə, namazını dərhal qılmalıdır. Vacib ehtiyata əsasən, buna ehtimal etsə də belə, (namazı dərhal qılmalıdır).

**Məsələ:** ٤٧٧. Əgər qadın namazı vaxtın əvvəlindən tə`xirə salsa və onun vəziyyətinə uyğun olaraq, şəraitə malik olan və səhihliyinə mane olacaq şeylər olmayan bir namaz qılmaq qədər vaxt keçsə və sonra qadın haiz olsa, tə`xirə saldığı həmin namazın qəzası o qadına vacibdir. Həmçinin, vacib ehtiyata əsasən, hədəsdən pak olmaq üçün hətta təyəmmümlə belə vaxt olsa, hətta övrəti örtmək və xəbəsdən (nəcasətdən) paklanmaq kimi şərtlərdən bə`zisi olmasa da, hökm eynidir.

**Məsələ:** ٤٧٨. Əgər qadın namazın axır vaxtında heyz qanından pak olarsa və qüsl almaq və bir, yaxud bir rükətdən artıq namaz qılmaq qədəri vaxtı olmuş olsa, namaz qılmalıdır. Əgər namaz qılmazsa, qəzasını yerinə yetirməlidir.

**Məsələ:** ٤٧٩. Pak olduqdan sonra, haiz qadının qüsl almaq qədəri vaxtı olmasa, lakin təyəmmümlə namazı vaxtında qıla bilərsə, vacib ehtiyata əsasən, o namazı təyəmmümlə qılmalıdır. Qılmadıqda isə onun qəzası vacib deyildir. Ancaq suyun zərərli olması kimi, başqa bir səbəbdən vəzifəsi təyəmmüm etmək olduqda təyəmmüm etməsi və o namazı qılması vacibdir. Qılmadıqda isə qəzası vacibdir.

**Məsələ:** ٤٨٠. Əgər qadın heyzdən pak olduqdan sonra namaz üçün vaxt olub-olmamasında şəkk etsə, namazını qılmalıdır.

**Məsələ:** ٤٨١. Əgər namaza hazırlaşmaq və bir rükət qılmaq qədərində vaxtın olmadığını güman edib namaz qılmasa və sonra vaxt qalmış olduğunu anlasa, həmin namazın qəzasını qılmalıdır.

**Məsələ:** ٤٨٢. Müstəhəbbdir ki, haiz qadın namaz vaxtı özünü qandan təmizləsin, pambıq və parçanı dəyişsin, həmçinin, dəstəmaz alsın, əgər dəstəmaz ala bilmirsə, təyəmmüm edərək pak bir yerdə üzü qibləyə otursun və namaz miqdarında zikr, təsbih (Subhanəllah), təhlil

(la ilahə illəllah) və təhmid (əlhəmdu lillah) deməklə məşğul olsun.

**Məsələ:** ٤٨٣. Həna qoymaq və bu kimi şeylər, həmçinin, bədənin hər hansı bir yerini Qur`anın yazılarının arasına toxundurmaq haiz qadına məkruhdur. Qur`anı özü ilə gəzdirmək və (vacib səcdəsi olanlardan başqa) oxumağın manesi yoxdur.

## HAİZ QADINLARIN QİSİMLƏRİ

**Məsələ:** ٤٨٤. Haiz qadınlar altı qisimdir:

**١. *Vəqtiyyə və ədədiyyə adətinə sahib olanlar.***

Bu qadınlar iki ay ardıcıl olaraq müəyyən vaxtda heyz qanı görürlər. Onların heyz günlərinin sayı da hər iki ayda eynidir. Məsələn, iki ay ardıcıl olaraq ayın əvvəlindən yeddisinə kimi heyz qanı görürlər.

**٢. *Vəqtiyyə adətinə sahib olanlar.***

Bu qadınlar iki ay ardıcıl olaraq eyni vaxtda heyz qanı görürlər, lakin heyz günlərinin sayı iki ayda eyni olmur. Məsələn, iki ay ardıcıl olaraq ayın birindən başlayaraq heyz qanı görürlər, amma birinci ay ayın yeddisi, ikinci ay isə ayın səkkizi qandan pak olarlar.

**٣. *Ədədiyyə adətinə sahib olanlar.***

Bu qadınların hər iki ay ardıcıl olaraq gördükləri heyz qanının müddəti eynidir, amma qanı görmək vaxtı eyni deyildir. Məsələn, birinci ayın beşindən onuna qədər, ikinci ayın isə on ikisindən on yeddisinə qədər qan görürlər. Ədədiyyə adətinin bir ayda iki dəfə və eyni miqdarda qan görməklə gerçəkləşməsi məhəlli-işkaldır – məsələn, ayın əvvəli ٥ gün qan görüb, ١٠ gündən, yaxud daha artıq müddətdən sonra yenidən ٥ gün qan görsə.

**٤. *Müztəribə.***

Bu qadınlar bir neçə ay qan görsələr də müəyyən bir adət əldə edə bilməmiş, ya da adətləri pozulmuş və təzədən də adət tapmamışlar.

**٥. *Mübtədiə.***

Bunlar birinci dəfə heyz görən qadınlardır.

**٦. *Nasiyə.***

Bunlar öz adətlərini unutmuş qadınlardır.

Bunların hər birinin özünəməxsus hökmləri var ki, gələcək məsələlərdə deyiləcəkdir.

## ١. VƏQTİYYƏ VƏ ƏDƏDİYYƏ ADƏTİ OLAN QADINLAR

**Məsələ:** ٤٨٥. Vəqtiyyə və ədədiyyə adətli qadınlar iki dəstədir:

١) İki ay ardıcıl olaraq eyni vaxtda heyz görür və eyni vaxtda da pak olurlar. Məsələn, iki ay ardıcıl olaraq ayın birindən qan görür və

yeddinci gün pak olur. Bu qadının heyz adəti ayın birindən yeddisinə qədərdir.

٢) İki ay ardıcıl olaraq eyni vaxtda heyz qanı görür və eyni vaxtda da pak olurlar, amma üç gün və ondan artıq qan gördükdən sonra bir gün və ya daha çox pak olur və yenidən qan görürlər. Əgər qan görüb arada pak olduqları günlərin cəmisi üst-üstə on gündən artıq olmasa və hər iki ayda onun qan gördüyü günlərlə arada pak olduğu günlərin cəmisi bir əndazədə olsa, onun adəti, qan görüb arada pak olduğu günlərin məcmusu qədərdir. Bu zaman arada pak olduğu günlərin hər iki ayda eyni qədər olması lazım (vacib) deyil. Məsələn, əgər birinci ayda ayın birindən üçünə qədər qan görüb sonra üç gün pak olsa və yenidən üç gün qan görsə, ikinci ayda isə üç gün qan görəndən sonra üç gün, yaxud ondan az, yaxud çox pak olub yenidən qan görsə və bunlar üst-üstə doqquz gün olsa, hamısı heyzdir və bu qadının adəti doqquz gün olar.

**Məsələ:** ٤٨٦. Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın əgər adət vaxtında və ya camaat arasında «adətini qabaqlamışdır» - deyiləcək şəkildə bir neçə gün vaxtından qabaq qan görərsə, o qanda heyzin nişanələri olmasa da belə, heyzli qadınlara aid hökmlərə əməl etməlidir. Əgər sonradan heyz olmadığını başa düşsə, məsələn, üç gündən qabaq pak olarsa, yerinə yetirmədikləri ibadətlərin qəzasını etməlidir. Həmçinin, adət günlərinin əvvəlindən adət tə`xirə düşərsə, lakin adətdən xaric olmasa, hökm eynidir. Amma adət günlərindən xaricdə qan görsə və onda heyzin nişanələri olmasa, bu halda adət günlərinin axırından iki gün, ya çox, tə`xirə düşərsə, heyz deyildir. Amma iki gündən az olduğu təqdirdə vacib ehtiyata əsasən, haiz qadının tərk etdikərini tərk etməli və müstəhazə olan qadının əməllərini yerinə yetirməlidir.

**Məsələ:** ٤٨٧. Vəqtiyyə və ədədiyyə adəti olan qadın, əgər adət günlərinin hamısını və adətindən əvvəl bir neçə gün – camaat arasında "qabağa atıbdır" deyiləcək qədər və ya heyz əlamətləri ilə, adətdən sonra heyz əlamətləri olan qan görsə və bunlar üst-üstə on gündən çox olmasa, hamısı heyzdir. Əgər on gündən çox olsa, yalnız adət günlərində gördüyü qan heyz, ondan əvvəl və sonra gördüyü qan isə istihazədir. Bu zaman adətdən əvvəl və sonra yerinə yetirmədiyi ibadətləri qəza etməlidir.

Əgər adət günlərinin hamısını və üstəlik adətdən əvvəl bir neçə gün – camaat arasında "qabağa atıbdır" deyiləcək qədər və ya heyz əlamətləri ilə qan görsə və üst-üstə on gündən çox olmasa, hamısı heyzdir. Əgər on gündən çox olsa, yalnız adət günləri heyz, ondan əvvəl gördüyü qan isə istihazədir.

Əgər həmin günlərdə ibadət etməyibsə, qəza etməlidir. Əgər adət günlərinin hamısını və üstəlik adətdən sonra bir neçə gün heyz əlamətlərilə qan görsə və üst-üstə on gündən artıq olmasa, hamısı

heyzdir. Əgər adət günlərindən əlavə gördüyü qanda heyz nişanələri olmasa, vacib ehtiyata əsasən, artıq günlərdə haiz qadının tərk etdikərini tərk etməli və müstəhazə olan qadının əməllərini yerinə yetirməlidir. Əgər on gündən çox olarsa, adət günləri gördüyü qan heyz, qalanı isə istəhazədir.

**Məsələ:** ٤٨٨. Vəqtiyyə və ədədiyyə adətli qadın əgər adət günlərindən bir qədərini, üstəlik "bir neçə gün adətini qabaqlamışdır" - deyiləcək tərzdə heyz nişanələrinə malik olan qan görsə və üst-üstə on gündən çox olmasa hamısı heyzdir. Əgər on gündən çox olarsa, adət günlərindən əvvəl qan gördüyü günlər "bir neçə gün adətini qabaqlamışdır" - deyiləcək tərzdə heyz nişanələri ilə qan görərsə və üst-üstə adət günlərində gördüyü qədərdə olarsa, heyz, ondan qabaq gördüyü qanları isə istihazə qərar verəcək.

Əgər adət günlərindən bir qədərini və bir neçə gün də adət günlərindən sonra, üst-üstə on gündən çox olmayaraq, adət günlərindən sonra gördüyü qanda heyz əlamətləri olduğu təqdirdə hamısı heyzdir. Əgər heyz əlamətləri olmasa, adət günləri və ondan sonrakı günlərin məcmusu adəti qədərində olarsa, onu heyz qərar verəcək və adət qədərindən artıq – on günə qədər də – vacib ehtiyata əsasən, haiz qadının tərk etdikərini tərk etməli və müstəhazə olan qadının əməllərini yerinə yetirməlidir. Əgər on gündən çox olarsa, adət günləri qədərini heyz, qalanını isə istihazə qərar verəcək.

**Məsələ:** ٤٨٩. Əgər adəti olan qadın üç gün və ya ondan çox qan gördükdən sonra pak olarsa və yenidən qan görərsə, onda gördüyü iki qanın arasındakı fasilə on gündən az olduqda və qan gördüyü günlərin hamısı, arada pak olduğu günlərlə birlikdə on gündən çox olarsa, məsələn, beş gün qan görsə və beş gün pak olsa, sonra beş gün də qan görsə, bunun bir neçə surəti vardır:

١. Birinci dəfə gördüyü qanların hamısı adət günlərində olmuş olsa və pak olduqdan sonra gördüyü ikinci qan adət günlərində olmasa, bu surətdə birinci dəfə gördüyü qanın hamısını heyz və fasilədən sonra gördüyü ikinci qanı isə istihazə qərar verəcək. Həmçinin, birinci dəfə gördüyü qanın bir qədərini adət günlərində, bir qədərini də adət günlərindən qabaq, camaat arasında «adətini qabaqlamışdır» - deyiləcək tərzdə görərsə və yaxud onda heyz əlamətləri olarsa, istər adətdən qabaq olsun, ya sonra, hökm eynidir.

٢. Birinci dəfə gördüyü qan adət günlərində olmasa və ikinci qanın hamısı və yaxud bir qədəri (əvvəlinci surətdə deyildiyi kimi) adət günlərində olarsa, ikinci qanın hamısını heyz, birinci qanı isə istihazə qərar verəcək.

٣. Birinci və ikinci dəfə gördüyü qanın bir qədəri adət günlərində olsa və birinci dəfə gördüyü qanın adətə düşən günləri üç gündən az

olmadıqda, həmin qədər arada olan paklıq və ikinci dəfə gördüyü qanın adət günlərinə düşən hissəsi üst-üstə on gündən çox olmasa, hamısı heyzdir, birinci qanın adətdən əvvələ düşən qədəri və ikinci qanın adətdən sonraya düşən qədəri isə istihazədir. Məsələn, əgər adəti ayın üçündən onuna qədərdirsə, bir ayın, birindən altısına qədər qan görəndən sonra iki gün pak olub, sonra ayın on beşinə qədər qan görsə, üçündən onuna qədər heyz, ayın biri və ikisi, eləcə də on birindən on beşinə qədər isə istihazədir.

٤. Birinci və ikinci qandan bir qədəri adət günlərində olub, lakin birinci qanın adətə düşən günləri üç gündən az olsa, iki qanın cəm günlərində haiz qadının tərk etdiklərini tərk etməli və müstəhazə olan qadının əməllərini yerinə yetirməlidir. İki qanın arasında pak olduğu müddətdə isə haizin tərk etdiklərini tərk edib, pak olmuş qadının əməllərini birlikdə əmələ gətirəcək.

**Məsələ:** ٤٩٠. Vəqtiyyə və ədədiyyə sahibi olan qadın əgər adət vaxtında qan görməsə və adət vaxtından ayrı günlərdə heyz günlərinin sayı qədər qan görərsə, heyz əlamətlərinə malik olduğu təqdirdə onları heyz hesab etməlidir.

**Məsələ:** ٤٩١. Vəqtiyyə və ədədiyyə adətli bir qadın öz adət vaxtında üç gündən az olmayaraq qan görsə, lakin qan gördüyü günlərin sayı onun adət günlərinin sayından az, ya çox olsa və pak olduqdan sonra yenidən adət günlərinin sayı qədər heyz əlamətinə malik olan qan görsə, bu halda əgər bu iki qan arasındakı paklıq müddəti və qan gördüyü günlər üst-üstə on gündən çox olmasa, hamısını heyz hesab edəcək. Əgər on gündən çox olsa, adət günlərində gördüyü qan heyz, qalanı isə istihazədir.

**Məsələ:** ٤٩٢. Vəqtiyyə və ədədiyyə adətli qadın əgər on gündən artıq qan görsə, adət günlərində gördüyü qan heyz nişanələrinə malik olmasa da belə, heyzdir. Amma adət günlərindən sonra gördüyü qan, heyz əlamətlərinə malik olsa da belə, istihazədir. Məsələn, əgər bir qadının adəti ayın birindən yeddisinə kimidirsə, ayın birindən on ikisinə kimi qan görsə, əvvəlki yeddi günü heyz, sonrakı beş günü isə istihazədir.

## ٢. VƏQTİYYƏ ADƏTLİ QADINLAR

**Məsələ:** ٤٩٣. Vəqtiyyə adətli qadınlar iki dəstədir:

١. Birinci dəstəyə aid olan qadın ardıcıl olaraq iki ay eyni vaxtda heyz qanı görüb, bir neçə gündən sonra pak olur, lakin onun günlərinin sayı hər iki ayda eyni olmaz. Məsələn, iki ay ardıcıl olaraq ayın əvvəlində qan görür, lakin birinci ayın yeddisində, ikinci ayın isə səkkizində qandan pak olur. Bu qadın gərək ayın birinci gününü özünün heyz adəti qərar versin.

٢. İkinci dəstəyə aid olan qadın iki ay ardıcıl olaraq eyni vaxtda üç gün, yaxud üç gündən çox heyz qanı görüb sonra pak olur, yenidən ikinci dəfə qan görür və qan gördüyü günlərin hamısı, arada pak olduğu günlərlə birlikdə on gündən çox olmaz, lakin ikinci ayda birinci aydan az, ya da çox olar. Məsələn, birinci ayda səkkiz, ikinci ayda doqquz gün olarsa, bu qadın da ayın birinci gününü özünün heyz adətinin birinci günü qərar verməlidir.

**Məsələ:** ٤٩٤. Vəqtiyyə adətli qadın öz adət vaxtında, yaxud camaat arasında «adətini qabaqlamışdır» - deyiləcək tərzdə adət vaxtından əvvəl, yaxud camaat arasında «adəti gecikib» - deyiləcək tərzdə adət vaxtının əvvəlindən gecikərək qan görsə, heyz əlamətləri olmasa da, heyzli qadına aid olan hökmlərə əməl etməlidir. Əgər sonradan heyz olmadığını anlasa, məsələn, üç gündən qabaq pak olsa, yerinə yetirmədiyi ibadətləri qəza etməlidir.

**Məsələ:** ٤٩٥. Vəqtiyyə adətli qadın əgər on gündən artıq qan görüb, əlamətləri vasitəsilə onun heyz olduğunu ayırd edə bilməsə, istər ata, istərsə ana tərəfdən, istər diri, istərsə ölü olan qohumlarının adətini öz adət vaxtı qərar verəcək. Vacib ehtiyata əsasən, qohumların adəti altı, ya yeddi gün olmasa, onların adətlərinin altı, ya yeddi günlə fərqli olan miqdarda heyzli qadına haram olan əməllərdən çəkinməli və istihazəli qadına vacib olan əməlləri yerinə yetirməlidir. Lakin qohumların adətlərini o surətdə öz adəti qərar verə bilər ki, onların hamısının adət günlərinin sayı eyni qədərdə olsun. Amma onların heyz günlərinin sayı eyni qədərdə deyilsə, məsələn, bə`zisinin adəti beş, bə`zisininki yeddi gündürsə, onların adətlərini öz adəti qərar verə bilməz.

**Məsələ:** ٤٩٦. Vəqtiyyə adətli olan və öz qohumlarının adətlərinin sayını öz heyz adəti qərar verən qadın hər ayda onun adətinin əvvəli olan günü öz heyzi qərar versin. Məsələn, hər ay, ayın əvvəlində qan görən və bə`zən ayın yeddisi, bə`zən də səkkizi pak olan qadın bir ayda on iki gün qan görürsə və qohumlarının adəti yeddi gündürsə, ayın əvvəlindəki yeddi günü heyz, qalanını isə istihazə hesab edəcək.

**Məsələ:** ٤٩٧. Öz qohumlarının adət günlərinin sayını özünün adət günü qərar verməli olan qadının qohumu yoxdursa və ya onların adəti eyni olmasa, vacib ehtiyata əsasən, hər ay gördüyü qanın altı, yaxud yeddi gününü heyz, qalanını isə istihazə hesab edəcəkdir.

## ٣. ƏDƏDİYYƏ ADƏTLİ QADINLAR

**Məsələ:** ٤٩٨. Ədədiyyə adətli qadınlar da iki dəstədirlər:

١) Heyz günlərinin sayı iki ayda ardıcıl olaraq eyni olan, lakin qan görməsinin vaxtı eyni olmayan qadınlar; bu halda qan gördüyü günlər onların adətidir. Məsələn, əgər birinci ay ayın birindən beşinə, ikinci ay isə on birindən on altısına kimi heyz qanı görürsə, onun adəti beş

gündür.

٢) İki ayda ardıcıl olaraq üç gün, ya ondan çox heyz qanı görür və bir gün, yaxud ondan artıq pak olub yenidən qan görür, habelə birinci ayda qan gördüyü vaxt, ikinci ayda qan gördüyü vaxtla fərqli olur. Bu zaman qan gördüyü və arada pak olduğu günlərin ümumilikdə sayı on gündən çox deyilsə və həmçinin, hər iki ayda gördüyü qanların günlərinin sayı bərabərdirsə, qan gördüyü və arada pak olduğu günlərin hamısı onun heyz adəti olacaq.

Arada pak olduğu günlərin sayının hər iki ayda eyni olması lazım (vacib) deyil; məsələn, birinci ayda, ayın birindən üçünə kimi qan görür və iki gün pak olub, yenidən üç gün qan görür. İkinci ayın on birindən on üçünə kimi qan görüb, iki gün, ya çox, ya da az pak olur və yenidən qan görür və üst-üstə səkkiz gün olur. Bu təqdirdə onun adəti səkkiz gündür.

Əgər bir ayda səkkiz gün qan görsə və ikinci ay dörd gün qan görüb pak olsa və yenidən qan görsə, arada pak olduğu və qan gördüyü günlər üst-üstə səkkiz gündürsə, onun adəti səkkiz gün olacaq.

**Məsələ:** ٤٩٩. Ədədiyyə adəti olan qadın heyz əlamətlərilə öz adətinin sayından az, ya çox olan qan görərsə və on gündən artıq olmazsa, onların hamısını heyz qərar verəcək. Əgər on gündən çox olarsa, bu halda gördüyü qanların hamısında heyz əlamətləri olarsa, gərək qan gördüyü vaxtdan adət günləri qədər heyz, qalanını istihazə qərar versin. Əgər gördüyü qanların hamısı eyni olmasa, əksinə bir neçə gün heyz əlamətlərilə, bir neçə gün isə istihazə əlamətləri ilə qan görsə, heyz əlamətləri ilə gördüyü qan adət günlərinin sayı ilə eyni qədərdədirsə, həmin günləri heyz, qalanını isə istihazə qərar verəcək. Əgər heyz əlamətləri ilə gələn qanın günlərinin sayı adət günlərinin sayından çox olarsa, yalnız adət günlərinin sayı qədəri heyz qərar verəcək və adət günlərindən artıq gördüyü qanda heyz əlamətləri olarsa və on gündən çox olmazsa, ehtiyata əsasən, haizə haram olan işlərdən çəkinməli və istihazəli qadına vacib olan əməlləri yerinə yetirməlidir.

Əgər heyz əlamətlərinə malik olan qan üç gündən az olmazsa, lakin adət günlərindən az olarsa, həmin günləri heyz və ondan artıq olanlar isə – adət günlərinə qədər vacib ehtiyata əsasən, haiz qadına haram olan əməllərdən çəkinib, istihazəli qadına vacib olan əməlləri icra etməlidir.

## ٤. MÜZTƏRİBƏ

**Məsələ:** ٥٠٠. Müztəribə – yə`ni bir neçə ay qan görüb müəyyən adət tapmayan, yaxud adəti pozulan və sonradan yeni adət tapmayan qadın, əgər on gündən çox qan görsə və gördüyü qanların hamısında heyz əlamətləri olsa, bu halda qohumlarının adəti altı, ya yeddi gündürsə, bu qədəri heyz, qalanını isə istihazə qərar verəcək.

Əgər yeddi gündən azdırsa, məsələn, beş gündürsə, həmin beş günü heyz qərar verəcək və vacib ehtiyata əsasən, qohumların adətlərinin sayı ilə altı, ya yeddi gün arasındakı fərq də (burada bir, ya iki gündür) haizə haram olan işlərdən çəkinməli və istihazəli qadının əməllərini yerinə yetirməlidir.

Əgər qohumlarının adəti yeddi gündən çoxdursa, məsələn, doqquz gündürsə, onun altı, ya yeddi gününü özünün heyzi qərar verməli və vacib ehtiyata əsasən, onların adəti ilə altı, ya yeddi gün arasındakı fərq də (burada iki-üç gündür) haizə haram olan işlərdən çəkinməli və istihazəli qadınların işlərini yerinə yetirməlidir.

**Məsələ:** ٥٠١. Müztəribə qadın bir neçə gün heyz, bir neçə gün isə istihazə əlamətinə malik olmaqla on gündən çox qan görərsə, bu halda heyz əlaməti olan qan üç gündən az, on gündən çox olmazsa, onun hamısı heyzdir. Əgər hamısı heyz əlamətlərinə malik olanları heyz qərar verə bilməzsə, məsələn, beş gün heyz, beş gün istihazə və yenidən beş gün heyz əlamətləri olan qan görsə, bu halda heyz nişanələri olan günlərin hər birini heyz qərar verə bilərsə, yə`ni hər biri üç gündən az, on gündən çox olmasa, hər iki qanda ehtiyat etməli və haizə haram olan şeylərdən çəkinməli, istihazəli qadına vacib olanlara əməl etməlidir. Aradakı heyz nişanələri olmayan qanı isə istihazə qərar verməlidir. Əgər həmin qanlardan təkcə birini heyz qərar vermək mümkündürsə, onu heyz qərar versin və qalanını istihazə hesab etsin.

## ٥. MÜBTƏDİƏ

**Məsələ:** ٥٠٢. Mübtədiə – yə`ni birinci dəfə qan görən qadın, əgər on gündən artıq qan görsə və gördüyü qanların hamısı heyz əlamətlərinə malik olsa, öz qohumlarının adət günlərini özünə heyz, qalan günləri isə istihazə qərar verəcək. Əgər qohumu yoxdursa və yaxud qohumlarının adətləri müxtəlifdirsə, vacib ehtiyata əsasən, üç gün heyz qərar verəcək və birinci ayda on günə qədər, sonrakı aylarda isə altı, ya yeddi gününə qədər heyzli qadına haram olan əməlləri tərk edib, istihazəli qadına vacib olan əməlləri yerinə yetirəcək.

**Məsələ:** ٥٠٣. Mübtədiə əgər on gündən çox bir neçə günü heyz, bir neçə günü isə istihazə nişanələrinə malik olan qan görərsə, bu halda heyz nişanələrinə malik olan qan üç gündən az və on gündən artıq olarsa, hamısı heyzdir. Lakin heyz nişanələrinə malik olan qandan on gün keçməmiş yenidən heyz nişanələrinə malik qan görsə, məsələn, beş gün qara, doqquz gün sarı və yenidən beş gün qara qan görsə, ortada gələn qanı istihazə qərar verməli, əvvəldə və axırdakı qanda isə ehtiyat edərək haiz qadına haram olanlardan çəkinməli və istihazə qadına vacib olan əməlləri yerinə yetirməlidir.

**Məsələ:** ٥٠٤. Mübtədiə əgər on gündən artıq qan görsə və onun bir

neçə günü heyz, bir neçə günü isə istihazə əlamətinə malik olarsa, lakin heyz əlamətlərinə malik olan qan üç gündən az olsa, gördüyü qanların hamısı istihazədir.

## ٦. NASİYƏ

**Məsələ:** ٥٠٥. Nasiyə – yə`ni öz adətinin qədərini unutmuş qadın, üç qisimdir:

١) Yalnız say baxımından adət sahibi olan və öz adətinin sayını unudan. Bu surətdə əgər heyz əlamətləri olan və üç gündən az, on gündən çox olmamaqla qan görərsə, onun hamısını heyz saymalıdır. Əgər on gündən artıq olsa, adət ehtimalı veriləcək qədər gərək heyz qərar verilsin. Əgər ehtimal verilən qədər altı gündən az, ya yeddi gündən çox olarsa, vacib ehtiyata əsasən, adət seçdiyi altı, ya yeddi günlə ehtimal verilən qədər arasında fərqdə haizə haram olan işlərdən çəkinməli və istihazəli qadına vacib olan işləri yerinə yetirməlidir.

٢) Yalnız vəqtiyyə adətli olan və öz adətini unudan qadın. Bu surətdə əgər heyz nişanələrinə malik olan üç gündən az, on gündən çox olmamaqla qan görərsə, onun hamısı heyzdir. Əgər on gündən çox olsa, bu halda o qanın bə`zisinin adət günlərinə təsadüf etdiyini bilərsə, o qanların hamısında haiz qadının tərk etdiyi işləri tərk etməli və istihazəli qadının yerinə yetirdiyi işləri icra etməlidir, baxmayaraq ki, o qanların bə`zisi, yaxud hamısı heyz əlamətlərinə malik olmasın. Həmçinin, əgər onun adət günlərinə düşməsini bilməsə, amma ehtimal verərsə də hökm eynidir. Əgər adət vaxtlarına təsadüf etmə ehtimalı verməzsə, bu halda o qanın bə`zisində heyz, bə`zisində istihazə əlamətləri olsa, heyz əlamətləri olan qan üç gündən az, on gündən çox olmadıqda heyz, qalanı isə istihazədir. Qanların hamısı heyz əlamətli, yaxud heyz əlaməti olanlar on gündən çox olsa, onun altı, ya yeddi günü heyz, qalanları istihazədir.

٣) Vəqtiyyə və ədədiyyə adətinin hər ikisinə sahib olan qadın; bunun da üç surəti vardır:

١. Yalnız vaxtı unudan qadın; Onun vəzifəsi ikinci qismdəki kimidir. Lakin əgər qan heyz əlamətləri daşısa, adət vaxtına düşmədiyini bilsə və on gündən çox olsa, bu təqdirdə əgər onun adəti altı, ya yeddi gündürsə, həmin qanı heyz qərar verəcək. Yox, əgər ondan çox və ya azdırsa, vacib ehtiyata əsasən, həmin miqdarla adət seçdiyi altı, ya yeddi gün arasındakı fərqdə haiz qadının tərk etdiyi işləri tərk etməli, istihazəli qadının yerinə yetirdiyini icra etməli, qalanını isə istihazə qərar verməlidir.

٢. Yalnız sayı unudan qadın; Bu surətdə adət vaxtında gördüyü və adət qədərindən az olmadığına əmin olduğu qədəri – onda heyz nişanələri olmasa belə, heyz qərar verəcək, amma adət qədərindən

çoxda isə, əgər heyz nişanələrinə malik olsa və əvvəlki qanla birlikdə on gündən çox olmazsa, hamısı heyz, əgər on gündən çox olarsa, bu halda adətin o miqdarda olmasına ehtimal verdiyi altı gündən az olarsa, o qədəri heyz qərar verəcək, özünə adət seçdiyi altı, ya yeddi günə qədər olan müddətdə haizin tərk etdiyi əməlləri tərk edəcək və istihazəli qadının əməllərini yerinə yetirəcək. Əgər yeddi gündən çox olarsa, adəti seçdiyi altı, ya yeddi günə qədər heyz qərar verəcək, adət seçdiyi günlərdən on günü keçməyən müddətdə isə həmin ehtiyata əməl edəcək.

٣. Həm vaxtı, həm də sayı unudan qadın. Bu surətdə əgər heyz əlamətli qan görsə və üç gündən az, on gündən çox olmasa, onun hamısı heyzdir. Əgər (on gündən) çox olarsa və adət günlərinə düşmədiyini bilsə, bu halda adət ehtimalı verdiyi günlərin sayı altı, yaxud yeddi gün olsa, bu qədəri heyz, qalanını isə istihazə qərar verəcək. Əgər altı gündən az olsa, o miqdarı heyz, özünə adət seçdiyi altı, ya yeddi günə qədər günlərdə isə haiz və istihazəli qadının vəzifəsinə əməl edəcək. Yeddi gündən çox olduqda özünə adət seçdiyi altı, ya yeddi günə qədər heyzdir, adət seçdiyi günlərdən on günü keçməyən miqdarda isə həmin ehtiyata əməl edəcəkdir.

Əgər qanın əlamətləri müxtəlif olarsa, yə`ni bə`zisi heyz, bəzisi istihazə əlamətli olarsa, heyz əlaməti olub üç gündən az, on gündən çox olmayanı heyzdir, istihazə əlamətli qanın isə, adət günlərinə düşmədiyini bilsə, istihazə qərar verəcək. Əgər adət günlərinə düşməsinə ehtimal versə, heyzli və istihazəli qadının vəzifəsinə əməl etməklə ehtiyat edəcək.

## HEYZİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٥٠٦. Mübtədiə, müztəribə, nasiyə və ədədiyyə adətli qadın əgər heyz əlamətinə malik olan qan görərsə, ibadəti tərk etməlidir. Əgər sonradan, heyz olmadığını başa düşsə, yerinə yetirmədiyi ibadətləri qəza etməlidir. Əgər heyz əlaməti olmayan qan görərsə, ibadətini yerinə yetirməlidir. Nasiyə qadın isə, bu hökmdən istisnadır: o, adətinin gerçəkləşməsinə əmin olduqda, adətin davam etməsinə ehtimal verdiyi vaxta qədər ibadəti tərk etməlidir.

**Məsələ:** ٥٠٧. Heyzdə adəti olan qadın, istər heyzin vaxtında adəti olsun, istərsə də ədədində, yaxud həm ədəd, həm də vaxtında adət sahibi olsun; ardıcıl olaraq iki ay öz adətinin əksinə qan görərsə və onun ya vaxtı, ya günlərinin sayı, ya da hər ikisi – həm vaxtı, həm də günlərinin sayı eyni olsa, adəti bu iki ayda gördüyünə qayıdır. Məsələn, əgər ayın birindən yeddisinə kimi qan görüb pak olursa, bu halda iki ay, ayın ١٠-dan ١٧-ə kimi qan görüb pak olsa, ١٠-dan ١٧-ə qədər onun adətidir.

**Məsələ:** ٥٠٨. "Bir ayın keçməsi" dedikdə, ayın əvvəlindən axırına qədər deyil, qan görməyin əvvəlindən otuz gün keçənə qədər olan vaxt

nəzərdə tutulur.

**Məsələ:** ٥٠٩. Adətən, ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görsə və hər iki qanda heyz nişanələri olsa, bu halda əgər arada pak olduğu günlər on gündən az olmasa, gördüyü hər iki qanı heyz hesab etməlidir.

**Məsələ:** ٥١٠. Əgər üç gün, ya artıq heyz nişanəli olan qan görərsə, sonra on gün, ya artıq istihazə əlamətli qan görsə və sonra yenidən üç gün heyz əlamətlərinə malik qan görərsə, heyz əlaməti olan əvvəl və axırıncı günləri heyz qərar verməlidir.

**Məsələ:** ٥١١. Qadın əgər on gündən tez pak olub, daxildə qan olmadığını bilsə, on gün tamam olmamış yenidən qan görəcəyini güman etsə də belə, öz ibadətləri üçün qüsl almalıdır. Lakin on gün tamam olmamış yenidən qan görəcəyini yəqin etsə, qüsl almamalıdır.

**Məsələ:** ٥١٢. Əgər qadın on gündən tez pak olarsa və daxildə qan olduğunu ehtimal edərsə, ya ehtiyat etməli, ya da ki, bir qədər pambığı fərcin daxilinə qoyaraq bir az gözləməli və sonra çıxarıb baxmalıdır. Müstəhəbb ehtiyat budur ki, ayaq üstə dayanıb qarnını divara yapışdırsın və ayağı hündür bir yerə qoyub bu işi yerinə yetirsin. Əgər pak olubsa, qüsl edib ibadətlərini yerinə yetirsin; əgər pak olmayıbsa, hətta pambıq sarı rəngdə suya bulaşmış olsa da belə, bu halda heyzdə adəti yoxdursa, yaxud onun adəti on gündürsə, gözləməlidir; əgər on gündən tez pak olsa, qüsl alsın. Əgər on günün tamamında pak olsa, yaxud onun qanı on günü ötsə, on günün tamamında qüsl edəcək.

Əgər adəti on gündən azdırsa, on gündən tez, ya tamamında pak olacağını bildiyi təqdirdə qüsl etməməlidir. Əgər on günü ötəcəyinə ehtimal verərsə, bir gün ibadətini tərk etməsi vacibdir. Sonra istihazəli qadının əməllərini yerinə yetirəcək. Müstəhəbb ehtiyat budur ki, onuncu günə kimi haiz və istihazəli qadının hökmünə riayət etsin. Bu hökm o qadına məxsusdur ki, adətdən qabaq davamlı olaraq qan görməsin. Əks halda adət günlərini heyz, qalanını isə istihazə qərar verməlidir.

**Məsələ:** ٥١٣. Əgər bə`zi günləri heyz qərar verib ibadət etməsə və sonra heyz olmadığını başa düşsə, o günlərdə tutmadığı oruc və qılmadığı namazları qəza etməlidir. Əgər heyz olmadığını güman edərək ibadət etsə, sonra heyz olduğunu anlasa, oruc tutmuş olduğu günlərin orucunu qəza etməlidir.

## NİFAS

**Məsələ:** ٥١٤. Doğuşdan sonra ananın on gün tamam olmazdan qabaq, yaxud on günün tamamında doğum səbəbilə gördüyü qan nifas qanıdır. Həmçinin, vacib ehtiyata əsasən, uşağın ilk üzvü bətndən çıxmağa başladığı andan ananın gördüyü qan da nifasdır. Nifas halında olan qadına nəfsa və nüfəsa deyilir.

**Məsələ:** ٥١٥. Uşağın ilk üzvü ana bətnindən xaric olmamış görünən qan nifas deyildir.

**Məsələ:** ٥١٦. (On günə qədər görünəcək qanın nifas hesab olunması üçün) Uşağın xilqətinin kamil olması lazım (vacib) deyildir. Hətta natamam da olsa, camaat arasında ona "doğmuşdur" deyilərsə, on günə qədər gördüyü qan nifasdır. Camaatın nəzərində "doğmağın" aid edilib-edilməməsində şəkk olunarsa, o qan nifas deyildir.

**Məsələ:** ٥١٧. Nifas qanının bir andan çox gəlməməsi də mümkündür, lakin on gündən artıq olmaz.

**Məsələ:** ٥١٨. Bir şeyin düşüb-düşməməsində, yaxud düşən şeyin uşaq olub-olmamasında şəkk olunduqda, axtarış aparmaq müstəhəbb ehtiyat olsa belə, lazım (vacib) deyil və ondan xaric olan qan şər`ən nifas qanı deyildir.

**Məsələ:** ٥١٩. Bədənin hər hansı bir yerini Qur`anın yazısına, Allah-Taalanın mübarək zatının adına və digər gözəl adlarına toxundurmaq nifaslı qadına haramdır; eləcə də vacib ehtiyata əsasən, haiz qadına haram olan digər işlər nifas halında olan qadına da haram, haiz qadına vacib olanlar da nifas halında olan qadına vacibdir.

**Məsələ:** ٥٢٠. Nifas halında olan qadına verilən talaq batil, onunla cinsi əlaqədə olmaq haramdır. Lakin əgər əri onunla yaxınlıq etsə, kəffarəsi yoxdur.

**Məsələ:** ٥٢١. Qadın nifas qanından pak olduqda belə ki, fərcin daxilində qan olmadıqda qüsl edib, ibadətlərini yerinə yetirməlidir. Əgər yenidən qan görsə və qan gördüyü və arada pak olduğu günlər üst-üstə on günü ötməsə, bu halda əgər heyzdə adəti olmuş olsa və iki qan arasında pak olduğu günlər adət vaxtındakı iki qan arasında olsa, bütövlükdə iki qanın hamısı və aradakı paklıq nifasdır. Məsələn, əgər onun adəti altı gündürsə və altı günün arasında iki gün pak olursa, o altı günün hamısı nifasdır. Bu surətdən qeyri hallarda qan gördüyü günlər nifasdır və pak olduğu günlərdə isə, vacib ehtiyata əsasən, nifas halında olan qadının tərk etməli olduğu işlərdən çəkinməli və tahirə (pak) qadının əməllərini yerinə yetirməlidir.

**Məsələ:** ٥٢٢. Əgər qadın nifas qanından pak olsa və fərcin daxilində qan olduğuna ehtimal versə, ehtiyata əsasən, bir qədər pambığı fərcin daxilinə qoyaraq bir az gözləməlidir; əgər pak olmuşdursa, öz ibadətləri üçün qüsl almalıdır.

**Məsələ:** ٥٢٣. Əgər qadının nifas qanı on günü ötərsə, bu halda heyzdə adəti varsa, adət günləri həddində gördüyü qan nifas, qalanları isə istihazədir. Əgər adəti yoxdursa, on günə qədər nifas, qalanları istihazədir. Müstəhəb ehtiyat budur ki, adəti olan qadın, öz adət günündən sonrakı gündən, adəti olmayan isə doğuşun onuncu günündən ١٨-ci gününə kimi nifaslı qadına haram olan işləri tərk etsin və istihazəli

qadının əməllərini yerinə yetirsin.

**Məsələ:** ٥٢٤. Heyz adəti on gündən az olan qadın adət günlərindən çox qan görsə, öz adət günləri həddində olan günləri nifas qərar verəcək və bundan sonra vacib ehtiyata əsasən, bir gün ibadəti tərk etməlidir, onuncu günə kimi qalan günlərdə isə istihazəli qadının hökmlərini yerinə yetirməklə ibadəti tərk etmək arasında ixtiyar sahibidir.

Əgər qanın gəlməsi on günü keçərsə, gərək adət günlərindən sonrakı günləri istihazə hesab edib, həmin günlərin ibadətlərini qəza etsin. Məsələn, adəti altı gün olan qadın altı gündən çox qan görərsə, altı günü nifas hesab etməlidir və yeddinci gün vacib ehtiyata əsasən, ibadəti tərk etməlidir, səkkiz, doqquz və onuncu günlərdə isə ibadəti tərk etməklə istihazəli qadının işlərini yerinə yetirmək arasında ixtiyar sahibidir. Əgər on gündən artıq qan görərsə, adəti günlərindən sonrakı günlərdən e`tibarən istihazədir.

**Məsələ:** ٥٢٥. Heyzdə adəti olan qadın doğuşdan sonra bir aya qədər, yaxud daha artıq ardıcıl qan görərsə, onun adət günləri həddində olan qədəri nifasdır. Nifas qanından sonra on günə qədər gördüyü qan, aylıq adət günlərində olsa da, istihazədir. Məsələn, əgər bir qadının heyz adəti hər ayın iyirmisindən iyirmi yeddisinə qədərdirsə, ayın onuncu günü doğsa və bir aya qədər, yaxud daha çox ardıcıl qan görsə, ayın on yeddisinə qədərki qan nifas, on yeddisindən e`tibarən on gün müddətində, hətta adət günləri olan ٢٠-٢٧-də qan görsə də belə, istihazədir. On gün keçəndən sonra gördüyü qan əgər adət günlərindədirsə, heyzdir, istər onda heyz nişanələri olsun, istərsə olmasın. Həmçinin, adət günlərində olmasa, lakin heyz nişanələri olsa, hökm eynidir. Amma əgər nə adət günlərində olsa, nə də heyz əlamətlərini daşımasa, istihazədir.

**Məsələ:** ٥٢٦. Heyzdə ədədiyyə adəti olmayan qadın doğuşdan sonra bir ay, yaxud daha çox ardıcıl olaraq qan görsə, birinci on gün nifas, ikinci on gün istihazədir. Bundan sonra gördüyü qanda heyz əlamətləri olsa, yaxud adət vaxtı baş versə heyz, əgər heyz əlamətləri daşımasa, istihazədir.

## MƏSSİ-MEYYİT QÜSLÜ

**Məsələ:** ٥٢٧. Bir şəxs qüslü verilməmiş və bədəni soyumuş olan ölü insanın bədəninə məss etsə, yə`ni öz bədənindən hər hansı bir yerini meyyitin bədəninə toxundursa, gərək məssi-meyyit qüslü alsın, istər yuxuda məss etmiş olsun, istərsə də oyaqlıqda; istər ixtiyari halda məss etsin, istərsə də ixtiyarsız. Hətta onun dırnağı və sümüyü də meyyitin dırnağına, ya sümüyünə toxunsa, gərək qüsl alsın. Lakin ölmüş heyvana toxunsa, ona qüsl etmək vacib deyildir.

**Məsələ:** ٥٢٨. Bədəni tamamilə soyumamış ölünün hətta soyumuş bə`zi yerlərinə toxunmaqla da qüsl vacib olmaz.

**Məsələ:** ٥٢٩. Əgər insan öz tükünü meyyitin bədəninə, yaxud öz bədənini meyyitin tükünə, yaxud öz tükünü meyyitin tükünə toxundursa, bu halda tük dəriyə tabe olması qədər qısa olarsa, ehtiyata əsasən, qüsl vacib olar.

**Məsələ:** ٥٣٠. Ölmüş uşağın, hətta dörd ayı tamam olub yarımçıq siqt olmuş olsa da, bədəninə toxunmaqla məss-meyyit qüslü vacib olar. Dörd ayı tamam olmayan siqt olmuş uşağa toxunmaqla, bədəninə ruh daxil olmadığı surətdə, qüsl vacib olmaz. Deməli, əgər dörd aylıq uşaq ölü halda dünyaya gəlib, bədəni də soyumuş olsa ananın bədəninin zahirinə toxunarsa, anası məssi meyyit-qüslü almalıdır.

**Məsələ:** ٥٣١. Ananın ölümündən və bədəninin soyumasından sonra dünyaya gələn uşaq, ananın bədəninin zahirinə toxunmuş olarsa, həddi-buluğa çatdıqdan sonra məssi-meyyit qüslü almaq ona vacibdir.

**Məsələ:** ٥٣٢. Əgər bir şəxs, üç qüslü kamil surətdə verilmiş meyyitə toxunsa, ona məssi-meyyit qüslü vacib olmaz. Lakin üçüncü qüslü tamamlanmamış onun bədəninin bir yerinə məss etsə, toxunulan o yerin üçüncü qüslü başa çatmış olsa da belə, şəxs məssi-meyyit qüslü almalıdır.

**Məsələ:** ٥٣٣. Əgər dəli və ya həddi-buluğa çatmamış uşaq meyyitə toxunsa, dəli ağıllanandan, uşaq həddi-buluğa çatdıqdan sonra, məssi-meyyit qüslü almalıdır. Uşaq müməyyiz (yaxşını pisdən ayıran) olsa və məssi-meyyit qüslü etsə, qüslü səhihdir.

**Məsələ:** ٥٣٤. Əgər qüslü verilməmiş meyyitin bədənindən sümüyü olan bir hissə ayrılsa və o hissəyə qüsl verilməmişdən öncə insan ona toxunsa, ehtiyata əsasən, məssi-meyyit qüslü almalıdır. Lakin ayrılmış hissənin sümüyü olmazsa, ona toxunmaqla qüsl vacib olmaz. Amma diri insanın bədənindən ayrılan hissənin sümüyü olsa da belə,

ona toxunmaq qüslə səbəb olmaz.

**Məsələ:** ٥٣٥. Diri, yaxud ölü şəxsdən ayrılmasından asılı olmayaraq əti olmayan və qüslü verilməmiş sümüyə (insan sümüyünə) toxunan şəxsə qüsl vacib deyildir. Həmçinin, diri, yaxud ölü şəxsdən ayrılmış diş də bu hökmdədir.

**Məsələ:** ٥٣٦. Məssi-meyyit qüslü cənabət qüslü kimi edilməlidir. Məssi-meyyit qüslü etmiş şəxs namaz qılmaq istəsə, dəstəmaz almaq müstəhəbb ehtiyat olsa da, vacib deyildir.

**Məsələ:** ٥٣٧. Əgər bir şəxs bir neçə meyyitə məss etsə, yaxud bir meyyitə bir neçə dəfə məss etsə, bir məssi-meyyit qüslü kifayətdir.

**Məsələ:** ٥٣٨. Meyyitə məss edən, amma bu qüslü almamış şəxsin məsciddə dayanması, cima etməsi və vacib səcdəsi olan surələri oxumasının maneəsi yoxdur. Lakin namaz və bu kimi ibadətlər üçün qüsl almalıdır.

## MÖHTƏZİRİN (CAN VERƏNİN) HÖKMLƏRİ

**Məsələ:** ٥٣٩. Can vermə halında olan bir müsəlman, vacib ehtiyata əsasən, kişi-qadın, eləcə də böyük-kiçik olmasından asılı olmayaraq, mümkün olan surətdə arxası üstə elə uzandırılmalıdır ki, ayağının altı qiblə tərəfə olsun. Əgər deyilən tərzdə mükəmməl olaraq uzandırmaq mümkün olmazsa, müstəhəbb ehtiyata əsasən, deyilmiş qaydaya mümkün olan qədər əməl olunmalıdır. Bu cür uzandırmaq heç cür mümkün olmadığı təqdirdə, üzü qibləyə oturdulması da müstəhəbb ehtiyatdır. Əgər bu da mümkün olmasa, ya sağ, ya da sol böyrü üstə üzü qibləyə uzandırılmalıdır.

**Məsələ:** ٥٤٠. Vacib ehtiyata əsasən, nə qədər ki, cənazə yerdən götürülməyib, üzü qibləyə uzandırılmalıdır. Həmçinin, müstəhəbb ehtiyata əsasən, qüsl verilən vaxtda da üzü qibləyə olmalıdır. Lakin qüslü tamam olduqdan sonra müstəhəbbdir ki, ona namaz qılanda necə uzandıracaqlarsa, elə də uzandırsınlar.

**Məsələ:** ٥٤١. Ehtiyata əsasən, can verən şəxsi üzü qibləyə döndərmək hər bir müsəlmana vacibdir. Əgər mümkündürsə, can verənin özündən bu iş üçün icazə alınmalıdır. Mümkün olmadıqda, yaxud onun icazəsi mö`təbər olmadıqda ehtiyatən onun vəlisindən (qəyyumundan) icazə alınmalıdır.

**Məsələ:** ٥٤٢ Can verən halda olan şəxsə şəhadət kəlmələrini, on iki İmam (əleyhimussalam)-ın təsdiqi və sair haqq əqidələri başa düşəcək tərzdə təlqin emək, eləcə də deyilənləri ölənə qədər təkrar etmək və həmçinin, "Fərəc" duasını təlqin etmək müstəhəbdir.

**Məsələ:** ٥٤٣. Can üstə olan şəxsə bu duanı başa düşdüyü tərzdə təlqin etmək müstəhəbbdir:

**اَللّٰهُمَّ اغْفِرْ لِيَ الْكَثِيرَ مِنْ مَعَاصِيكَ وَ اقْبَلْ مِنِّي اليَسِيرَ مِنْ طَاعَتِكَ يَا مَنْ يَقْبَلُ اليَسِيرَ وَ يَعْفُو عَنِ الكَثِيرِ، اِقْبَلْ مِنِّي الْيَسِيرَ وَ اعْفُ عَنِّي الكَثِيرَ، اِنَّكَ اَنْتَ العَفُوُّ الغَفُورُ، اَللّٰهُمَّ ارْحَمْنِي فَاِنَّكَ رَحِيمٌ.**

***«Əllahummağfir liyəl-kəsirə min məasikə, vəqbəl minnil-yəsirə min taətikə, ya mən yəqbəlul yəsirə və yə`fu ənil-kəsir, iqbəl minnil-yəsirə və`fu ənnil-kəsir, innəkə əntəl-əfuvvul-ğəfur. Əllahummərhəmni fəinnəkə rəhim.»***

**Məsələ:** ٥٤٤. Çətin can verən şəxsi, narahat olmazsa, namaz qıldığı yerə aparmaq müstəhəbbdir.

**Məsələ:** ٥٤٥. Can verən şəxsin başı üstə mübarək "Yasin", "Saffat", "Əhzab" surələrini, "Ayətül-kürsünü", "Ə`raf" surəsinin ٥٤-cü ayəsini və "Bəqərə" surəsinin son üç ayəsini, hətta Qur`andan nə qədər mümkündürsə, oxumaq müstəhəbbdir.

**Məsələ:** ٥٤٦. Can üstə olan şəxsi tək qoymaq, qarnının üstə bir şey qoymaq, cünub və haiz şəxsin onun yanında olması, onun yanında çox danışmaq, ağlamaq, eləcə də qadınları onun yanında tək qoymaq məkruhdur.

## ÖLÜMDƏN SONRAKI HÖKMLƏR

**Məsələ:** ٥٤٧. Öləndən sonra meyyitin gözlərini, dodaqlarını və çənəsini bağlamaq, əl-ayağını uzatmaq, üstünə parça salmaq, gecə gecə ölmüşdürsə, öldüyü yerdə çıraq yandırmaq, cənazəsini müşayiət etmək üçün mö`minlərə xəbər vermək və dəfninə tələsmək müstəhəbbdir. Amma öldüyünə əmin olmadıqda mə`lum olanadək gözləməlidirlər. Həmçinin, əgər meyyit hamilə qadındırsa və bətnindəki uşaq diridirsə onun dəfnini o qədər tə`xirə salmaq lazımdır ki, qarnı yarılsın və uşaq çıxarılsın. Sonra qüsl verilməsi üçün həmin yer tikilməlidir. Yaxşı olar ki, uşağı çıxararkən onun sol böyrü yarılsın.

## MEYYİTİN QÜSL, KƏFƏN, NAMAZ VƏ DƏFNİNİN HÖKMLƏRİ

**Məsələ:** ٥٤٨. Müsəlmanın qüslü, hənutu, kəfəni, namazı və dəfni hər bir mükəlləfə vacibdir. Əgər bu işi mükəlləflərdən bə`zisi yerinə yetirsə, başqalarının öhdəsindən düşər. Amma əgər heç kəs yerinə yetirməsə, hamı günahkar sayılır.

**Məsələ:** ٥٤٩. Əgər bir şəxs meyyitin (qüsl, kəfən və s.) işləri ilə məşğul olsa, başqalarının bu işə başlaması vacib deyildir. Lakin o, bu işləri yarıda qoyarsa, başqaları işi başa çatdırmalıdırlar.

**Məsələ:** ٥٥٠. Əgər bir şəxs başqasının meyyitin işləri ilə məşğul olduğuna dair əmin olsa, yaxud şər`i dəlili olsa, bu işə başlamağı vacib deyil. Lakin əgər şəkk, yaxud güman etsə, işə başlamalıdır.

**Məsələ:** ٥٥١. Əgər bir şəxs meyyitin qüsl, hənut, kəfən, namaz və ya dəfnini batil şəkildə yerinə yetirildiyini bilsə, yenidən yerinə yetirməlidir. Lakin batil olduğuna güman etsə, yaxud düz olub-olmamasında şəkk etsə, işə başlamağı lazım deyildir.

**Məsələ:** ٥٥٢. Meyyitin qüslü, hənutu, kəfəni, namazı və dəfni üçün onun vəlisindən icazə alınmalıdır.

**Məsələ:** ٥٥٣. Qadının vəlisi onun əridir. Qadından başqalarında isə, meyyitdən irs aparan kişilər onun qadınlarından irəlidir. İrəli olmaq – irsdə irəli olmağa tabedir. Lakin əgər həm qohumluqda ən yaxın, həm də irs aparmaqda başqalarından irəli olanlar cəm olsalar, məsələn,

meyyitin atasının atası, onun oğlunun nəvəsi ilə cəm olsa, ehtiyat vacib budur ki, irsdə ən irəli olan, qohumluqda ən yaxın olandan icazə alsın.

**Məsələ:** ٥٥٤. Əgər bir kəs "meyyitin vəlisi mənəm"-desə, yaxud "meyyitin vəlisi meyyitin qüslü, kəfəni və dəfnini yerinə yetirmək üçün mənə icazə verib"-desə və ya "meyyitin təchizatına dair işlərdə mən onun vəsisiyəm (mənə vəsiyyət etmişdir)" desə, bu halda onun sözlərindən xatircəmlik hasil olarsa, yaxud meyyit onun ixtiyarında olsa, yaxud iki nəfər ədalətli şəxs, ya da sözünün əksinə zənn edilməyən e`timadlı bir kəs onun dediyi sözə şəhadət verərsə, onun sözü qəbul olunmalıdır.

**Məsələ:** ٥٥٥. Əgər insan (sağ ikən) öz qüslü, kəfəni, namazı və dəfni üçün öz vəlisindən başqa bir şəxsi tə`yin edibsə, onda bu işləri görmək onun ixtiyarındadır. Lakin onun vəlidən icazə alması müstəhəbb ehtiyatdır. İnsanın (öz sağlığında) bu işlər üçün tə`yin etdiyi şəxs, vəsiyyət edənin sağlığında vəsiyyəti rədd edə (öhdəsinə götürməyə) bilər. Amma əgər qəbul edibsə, ona əməl etməlidir.

Lakin o şəxsin sağlığında rədd etməsə, yaxud bunun rədd etməsi (xəbəri) vəsiyyət edənə çatmasa, ehtiyat vacib budur ki, vəsiyyətə əməl etsin.

## MEYYİTƏ QÜSL VERMƏYİN QAYDASI

**Məsələ:** ٥٥٦. Meyyitə üç qüsl verilməsi vacibdir:

١-Sidr qarışdırılmış su ilə;

٢-Kafur qarışdırılmış su ilə;

٣-Xalis su ilə.

**Məsələ:** ٥٥٧. Sidr və kafur nə suyu müzaf edəcək dərəcədə çox, nə də "sidr və kafur qatılmayıb" deyiləcək qədər az olmamalıdır.

**Məsələ:** ٥٥٨. Əgər lazım olan qədər sidr və kafur tapılmasa, müstəhəbb ehtiyata əsasən, əldə olunan qədəri suya qarışdırılsın.

**Məsələ:** ٥٥٩. Ümrə, ya həcc ehramı halında ölən şəxsə kafurlu su ilə qüsl vermək olmaz; onun əvəzində xalis su ilə qüsl verilməlidir. Lakin həcc ehramında olub sə`yi tamamladıqdan sonra ölərsə, kafurlu su ilə qüsl verilməlidir.

**Məsələ:** ٥٦٠. Əgər sidr və kafur, yaxud ikisindən biri tapılmasa, yaxud qəsbi və bu kimi səbəblər üzündən istifadə edilməsi caiz olmasa, vacib ehtiyata əsasən, mümkün olmayanın yerinə meyyitə "mümkün olmayanın əvəzi" qəsdi olunaraq xalis su ilə qüsl verilməli və həmin qəsd ilə təyəmmüm də verilməlidir.

**Məsələ:** ٥٦١. Meyyitə qüsl verən şəxs on iki imamçı müsəlman, ağıllı, həddi-buluğa çatmış olmalı, qüslün məsələlərini, hətta başqasının qüsl verərkən ona öyrətməsi ilə olsa da belə, bilməlidir.

**Məsələ:** ٥٦٢. Meyyitə qüsl verən şəxs, dəstəmaz məsələlərində

deyildiyi kimi, qürbət qəsdi etməli və ixlasla yerinə yetirməlidir. Bu niyyətin üçüncü qüslün axırına qədər davam etməsi kifayətdir.

**Məsələ:** ٥٦٣. Müsəlman uşağına, hətta zinadan olsa da belə, qüsl vermək vacibdir. Kafir və onun övladına qüsl, hənut, kəfən və dəfn kimi işlər caiz deyil. Uşaqlıqdan dəli olub və bu halda da həddi-buluğa yetişən kəsin ata-anası, yaxud onlardan biri müsəlmandırsa, yaxud başqa bir cəhətdən müsəlmanlığına hökm edilsə, ona qüsl verilməlidir. Əks təqdirdə qüsl caiz deyil.

**Məsələ:** ٥٦٤. Siqt olmuş uşaq dörd aylıq, yaxud ondan çox olarsa, ona qüsl verilməlidir. Əgər dörd ayı tamam olmasa və ruh daxil olmayıbsa, vacib ehtiyata əsasən, bir parçaya büküb qüsülsüz dəfn edilməlidir.

**Məsələ:** ٥٦٥. Kişinin qadına və qadının kişiyə qüsl verməsi caiz deyildir və (verilmiş olsa) batildir. Lakin qadın öz ərinə, kişi də öz qadınına qüsl verə bilər. Baxmayaraq ki, kişinin öz qadınına və qadının da öz ərinə qüsl verməməsi ehtiyat müstəhəbbdir.

**Məsələ:** ٥٦٦. Kişi müməyyiz olmayan qız uşağına, qadın da müməyyiz olmayan oğlan uşağına qüsl verə bilər. Baxmayaraq ki, tə`kidli ehtiyat budur ki, üç yaşından çox olan qız uşağına qadın, üç yaşından çox olan oğlan uşağına isə kişi qüsl versin.

**Məsələ:** ٥٦٧. Əgər kişi meyyitinə qüsl vermək üçün kişi tapılmasa, ona qohumluğu olan və məhrəm sayılan ana, bacı, bibi və xala kimi qadınlar, yaxud evlənmə vasitəsilə, ya süd verməklə məhrəm olanlar qüsl verə bilərlər. Həmçinin, qadın meyyitinə qüsl vermək üçün qadın tapılmadıqda, onunla qohum və məhrəm olan, yaxud süd əmmək, ya evlənmək vasitəsilə məhrəm olan kişi ona qüsl verə bilər. Vacib ehtiyata əsasən, eyni cinsdən olanlar mövcud olan surətdə (kişi üçün kişi, qadın üçün qadın) məhrəmlərə növbə yetişmir və bu halda paltarın altından qüsl vermək əhvət olsa da, vacib deyildir, lakin gərək ovrətə baxılmasın və ehtiyata görə ovrəti örtsün.

**Məsələ:** ٥٦٨. Əgər meyyit və ona qüsl verən şəxs hər ikisi kişi, yaxud hər ikisi qadın olsalar, meyyitin övrət yerlərindən başqa, qalan yerlərinin açıq olması caizdir.

**Məsələ:** ٥٦٩. Ər və arvaddan başqasının meyyitin övrətinə baxması haramdır. Meyyitə qüsl verən şəxs meyyitin övrətinə baxsa, günah etmişdir, amma qüsl qüsl batil olmaz.

**Məsələ:** ٥٧٠. Əgər meyyitin bədəninin bir yeri nəcis olsa, ٣٧٨-ci məsələdə deyilmiş qayda ilə paklanmalıdır. Yaxşı olar ki, hər üzvün qüslündən öncə, hətta meyyitin bütün bədəni qüslə başlamazdan öncə, başqa nəcasətlərdən pak edilsin.

**Məsələ:** ٥٧١. Meyyit qüslü cənabət qüslü kimidir. Vacib ehtiyat budur ki, nə qədər ki, tərtibi qüsl mümkündür, meyyitə irtimasi qüsl

verilməsin və tərtibi qüsldə də sağ tərəf soldan əvvəl yuyulsun. Suyun bədənin üzərinə tökülməsi ilə bədənin suya batırılmasının hansı birini etmək ixtiyaridir.

**Məsələ:** ٥٧٢. Cənabət, ya heyz halında ölən şəxsə cənabət, yaxud heyz qüslü verilməsi lazım deyil; elə meyyit qüslü onun üçün kifayətdir.

**Məsələ:** ٥٧٣. Meyyitə qüsl vermək üçün muzd almaq caiz deyil. Əgər bir şəxs muzd almaq üçün meyyitə qüsl versə, o qüsl batildir. Lakin qüslün vacib olmayan müqəddimə işləri üçün zəhmət haqqı almaq caizdir.

**Məsələ:** ٥٧٤. Əgər su tapılmasa, yaxud sudan istifadə edilməsinin maneəsi olsa, meyyitin hər bir qüslünün əvəzində gərək bir təyəmmüm verilsin. Vacib ehtiyata əsasən, hər üç qüslün əvəzinə əlavə olaraq bir təyəmmüm də edilsin. Meyyitə təyəmmüm verən şəxs, üç təyəmmümdən birində «ma fizzimmə» qəsdi etsə, (yəni niyyət edə ki, «bu təyəmmümü həqiqətdə öhdəmdə olan vəzifəyə əməl etmək üçün icra edirəm»), dördüncü təyəmmüm lazım (vacib) deyildir.

**Məsələ:** ٥٧٥. Meyyitə təyəmmüm verən şəxs öz əlini yerə vurub meyyitin üzünə və əllərinin arxasına çəkməlidir. Əgər mümkündürsə, vacib ehtiyata əsasən, meyyitin öz əli ilə də təyəmmüm etdirsin.

## MEYYİTİ KƏFƏNƏ BÜKMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٥٧٦. Müsəlman meyyiti fitə, köynək və sərtasər adlanan üç parça ilə kəfənə bükülməlidir.

**Məsələ:** ٥٧٧. Fitə və köynəyin ölçüsünün vacib olan qədəri, adətən ona camaat arasında "fitə" və "köynək" deyiləcək qədərdir. Lakin vacib ehtiyat budur ki, fitə göbəkdən dizə qədər bədəni örtsün. Daha yaxşısı budur ki, sinədən ayğın üzərinə qədər çatsın. Köynək, vacib ehtiyata əsasən, çiynin üstündən baldırın yarısına qədər bütün bədəni örtsün. Ayağın üzərinə qədər olması daha fəzilətlidir. Sərtasərin uzunluğu o qədər olmalıdır ki, onun hər iki başını bağlamaq mümkün olsun. Eni isə o qədər olmalıdır ki, bir tərəfi o biri tərəfin üzərinə gəlsin.

**Məsələ:** ٥٧٨. Əgər meyyitin vərəsəsi həddi-buluğa çatmış olsalar və kəfənin vacib miqdarından artıq hissənin (qabaqkı məsələdə deyildi) onun payından götürülməsinə icazə versə, eybi yoxdur. Vacib ehtiyat budur ki, kəfənin vacib qədərindən artığı həddi-buluğa çatmamış vərəsələrin payından götürülməsin.

**Məsələ:** ٥٧٩. Əgər bir şəxs kəfənin əfzəl olan hissəsini malının üçdə birindən götürülməsini vəsiyyət etsə, yaxud malının üçdə birini onun özünə xərcləməsini vəsiyyət etsə, amma nəyə sərf olunmasını müəyyən etməsə, yaxud təkcə bir qədərinin məsrəf olunma yerini tə`yin etsə, kəfənin müstəhəbb hissəsini onun malının üçdə birindən götürə bilərlər.

**Məsələ:** ٥٨٠. Əgər bir şəxs kəfənini malının üçdə birindən götürülməsini vəsiyyət etməsə və onu, malının əslindən götürmək istəsələr, ٥٧٨-ci məsələdə deyilmiş qaydaya əməl etməlidirlər.

**Məsələ:** ٥٨١. Qadının özünün malı olsa da, kəfəni ərinin öhdəsindədir. Həmçinin, talaq məsələlərində deyiləcək qayda ilə, qadına ric`i talaq versə və iddəsi tamam olmamışdan qabaq ölsə, əri onun kəfənini verməlidir. Əgər ər həddi-buluğa çatmamış olsa, ya dəlidirsə, ərin vəlisi onun malından qadının kəfənini ödəməlidir. Vacib ehtiyata əsasən, naşizə (ərinə itaət etməyən) və münqətiə (müvəqqəti əqddə olan) qadının kəfəni ərinin öhdəsindədir.

**Məsələ:** ٥٨٢. Meyyitin kəfəni qohumlarına vacib deyildir. Vacib ehtiyata əsasən, meyyitin özünün malı olmadığı təqdirdə, onun sağlığında xərclərini tə`min etmək kimə vacib idisə, o da kəfənini verməlidir.

**Məsələ:** ٥٨٣. Vacibdir ki, kəfənin hər üç parçasının məcmusu meyyitin bədəni görünəcək dərəcədə nazik olmasın. Hətta ehtiyat vacib budur ki, parçaların hər biri ayrılıqda o qədər nazik olmasın ki, onun altından meyyitin bədəni görünsün.

**Məsələ:** ٥٨٤. Qəsbi bir şeylə, hətta başqa bir şey tapılmasa da belə, meyyitin kəfənə tutulması caiz deyildir. Əgər meyyitin kəfəni qəsbi olsa və sahibi razı olmasa, onu dəfn etmiş olsalar da belə kəfən bədənindən çıxarılmalıdır. İxtiyari surətdə meyyiti murdarın nəcis dərisi ilə kəfənə tutmaq caiz deyildir. Hətta zərurət halında da məhəlli-işkaldır. Həmçinin, ixtiyari halda murdarın pak dərisi ilə kəfənə bükmək müşküldür.

**Məsələ:** ٥٨٥. Meyyiti nəcis bir şeylə və namazda güzəştə gedilən nəcasətdə ehtiyata görə; eləcə də xalis ipək parça, qarışığı ipəkdən çox olmayan qarışıq parça, həmçinin, vacib ehtiyata əsasən, qızılla toxunmuş parça ilə kəfənə tutmaq caiz deyildir, lakin çarəsiz qaldıqda eybi yoxdur.

**Məsələ:** ٥٨٦. Meyyiti ixtiyari halda əti haram olan heyvanın tük, ya yunundan hazırlanmış parça ilə, kəfənə tutmaq vacib ehtiyata əsasən, caiz deyildir. Həmçinin, (vacib ehtiyata əsasən) şəri yolla kəsilmiş əti halal olan heyvanın da dərisi ilə kəfən etmək caiz deyil. Lakin kəfən əti halal olan heyvanın tük və yunundan olsa, maneəsi yoxdur, baxmayaraq ki, ehtiyat müstəhəbbə görə heç bu ikisi ilə də kəfənə tutulmasın.

**Məsələ:** ٥٨٧. Əgər meyyitin kəfəni özündən olan nəcasətlə, ya başqa nəcasətlə nəcis olsa, kəfəni xarab etmədən onu yumaq, ya kəsmək mümkündürsə, qəbrə qoyulmuş olsa da belə, gərək nəcis olmuş yer ya kəsilib götürülsün, ya da yuyulsun. Əgər yumaq, ya kəsib götürmək mümkün olmazsa, lakin dəyişdirmək mümkün olsa, gərək dəyişdirilsin. Bu hökm namazda güzəşt ediləsi nəcasət barəsində ehtiyat əsasındadır.

**Məsələ:** ٥٨٨. Həcc, ya ümrə üçün ehram bağlamış şəxs əgər ölərsə, o da başqaları kimi kəfənə bükülməlidir, onun başı və üzünü örtməyin eybi yoxdur.

**Məsələ:** ٥٨٩. İnsanın sağlığında özü üçün kəfən hazırlaması müstəhəbdir və ona hər vaxt baxmağın da savabı var.

## HƏNUTUN HÖKMLƏRİ

**Məsələ:** ٥٩٠. Qüsldən sonra meyyitin hənut olunması vacibdir; yəni alnına, əllərinin içinə, diz qapaqlarına və ayağının iki baş barmağının başına kafur sürtülməlidir. Müstəhəb ehtiyata əsasən, həmin yerlərə bir qədər kafur da qoyulmalıdır. Burnunun ucuna da kafur vurulması müstəhəbdir. Kafur təzə və ətirli olmalıdır. Əgər köhnəlik səbəbinə ətri aradan getmiş olsa, kifayət etməz.

**Məsələ:** ٥٩١. Müstəhəbb ehtiyata əsasən, kafur əvvəlcə meyyitin alnına sürtülməlidir, lakin qalan yerlərdə tərtib yoxdur.

**Məsələ:** ٥٩٢. Kafurun meyyitə kəfəndən əvvəl, ya kəfənlənmə əsnasında, yaxud ondan sonra vurulması ixtiyaridir.

**Məsələ:** ٥٩٣. Həcc və ya ümrə üçün ehram bağlayan şəxs ölsə, onun hənut olunması caiz deyildir. Lakin həcc ehramında səyi başa çatdırdıqdan sonra ölərsə, onu hənut etmək vacibdir.

**Məsələ:** ٥٩٤. Əri ölmüş və iddəsi başa çatmamış qadın ölsə, onu hənut etmək vacibdir.

**Məsələ:** ٥٩٥. Vacib ehtiyat budur ki, meyyitə müşk, ənbər, ud və başqa ətirlər vurulmasın və həmçinin, onları kafura qatmasınlar.

**Məsələ:** ٥٩٦. Kafura həzrət Seyyidüş-şühəda İmam Hüseyn (əleyhissalam)-ın türbətindən bir qədər qatılması müstəhəbdir. Lakin türbət qarışdırılmış kafur, ehtiramsızlıq sayılan yerlərə vurulmamalıdır. Həmin türbət kafura qatılarkən «kafur deyildir» deyiləcək qədər çox olmamalıdır.

**Məsələ:** ٥٩٧. Əgər kafur tapılmasa və yaxud ancaq qüsl vermək qədər olsa, onda hənut lazım deyil. Əgər qüsldən artıq qalsa və yeddi üzvün hamısına çatacaq qədər olmasa, müstəhəbb ehtiyata əsasən, əvvəl alına, sonra isə artıq qalsa başqa yerlərə sürtülməlidir.

**Məsələ:** ٥٩٨. Meyyitlə birlikdə qəbrə iki yaş və təzə çubuq qoyulması müstəhəbbdir.

## MEYYİT NAMAZININ HÖKMLƏRİ

**Məsələ:** ٥٩٩. Müsəlman meyyitinə, həmçinin, altı yaşı tamamlanmış və müsəlmançılığına hökm edilmiş uşağa meyyit namazı qılmaq vacibdir.

**Məsələ:** ٦٠٠. Altı yaşı tamam olmamış uşağa rəca qəsdilə namaz qılınmasının maneəsi yoxdur. Lakin ölü dünyaya gəlmiş uşağa namaz qılınması şəri qanun deyildir.

**Məsələ:** ٦٠١. Meyyit namazı qüsl, hənut və kəfəndən sonra qılınmalıdır. Məsələni bilməməzlik, yaxud yaddan çıxarmaqla da olmuş olsa, onlardan öncə, ya onların əsnasında namaz qılınsa, kifayət etməz.

**Məsələ:** ٦٠٢. Meyyit namazı qılmaq istəyən şəxsin dəstəmazlı, qüsllü və yaxud da təyəmmüm etmiş olması, həmçinin, bədən və paltarının pak olması lazım (vacib) deyildir. Hətta onun paltarı qəsbi də olsa, namaza maneəsi yoxdur. Gündəlik namazlarda lazım (vacib) olan bütün şərtlərə meyyit namazında da riayət olunması ehtiyat müstəhəbbdir. Lakin, ehtiyat vacibə əsasən meyyit namazının necəliyində mütəşərriə arasında tanınan qaydaların əksinə olan şeylərdən çəkinsinlər.

**Məsələ:** ٦٠٣. Meyyitə namaz qılan kəs üzü qibləyə olmalıdır. Vacibdir ki, meyyiti onun qarşısında arxası üstə elə uzatsınlar ki, başı namaz qılanın sağ tərəfinə, ayaqları isə sol tərəfinə düşsün.

**Məsələ:** ٦٠٤. Müstəhəbb ehtiyata əsasən, namaz qılanın dayandığı yer qəsbi olmasın. Lakin meyyitin yerindən çox alçaq, yaxud uca olmamalıdır. Amma azacıq hündür, yaxud alçaq olmasının maneəsi yoxdur.

**Məsələ:** ٦٠٥. Namaz qılan kəs meyyitdən uzaq olmamalıdır. Lakin meyyit namazını camaatla qılan şəxs əgər meyyitdən aralı olsa və camaatın sıraları bir-birinə bağlı olsa eybi yoxdur.

**Məsələ:** ٦٠٦. Namaz qılan meyyitin müqabilində dayanmalıdır. Lakin namaz camaatla qılınsa və camaatın sırası meyyitin iki tərəfindən ötüb keçsə meyyitə müqabil düşməyənlərin namazının işkalı yoxdur.

**Məsələ:** ٦٠٧. Namaz qılanla meyyitin arasında pərdə, divar və bu kimi şeylər olmamalıdır. Lakin əgər meyyit tabut və bu kimi şeydə olarsa, eybi yoxdur.

**Məsələ:** ٦٠٨. Namaz qılınan vaxt meyyitin övrəti örtülü olmalıdır. Əgər onu kəfənə bükmək mümkün olmasa, heç olmazsa, övrəti taxta, kərpic və bu kimi şeylərlə də olsa, örtülməlidir.

**Məsələ:** ٦٠٩. Meyyitə namaz qılan şəxs mömin (on iki imam şiəsi) olmalıdır. Həddi-buluğa çatmayanın meyyitə namaz qılması səhih olsa da həddi-buluğ olmuş şəxsin əvəzindən olması kifayət etməz (vəzifəsini götürməz). Həmçinin, namaz qılan kəs ayaq üstə, qürbət qəsdi və xalis niyyətlə namaz qılmalı, niyyət edərkən meyyiti təyin etməlidir. Məsələn, «Bu meyyitə namaz qılıram, qürbətən iləllah» -deyə niyyət etsin.

**Məsələ:** ٦١٠. Əgər bir şəxs meyyitə ayaq üstə namaz qıla bilməsə, oturan halda ona namaz qıla bilər.

**Məsələ:** ٦١١. Əgər meyyit (sağlığında) ona müəyyən bir şəxsin namaz qılmasını vəsiyyət etmiş olsa, namaz qılacaq şəxsin meyyitin vəlisindən icazə alması və onun da icazə verməsi ehtiyat müstəhəbbdir.

**Məsələ:** ٦١٢. Bir meyyitə bir neçə dəfə namaz qılınması caizdir.

**Məsələ:** ٦١٣. Əgər meyyit bilərəkdən, yaxud yaddan çıxarmaq səbəbindən, yaxud da hansısa bir üzrlü səbəbə görə namazsız dəfn olunarsa, nə qədər ki, cəsədi çürüyüb dağılmayıb meyyit namazında deyilən şərtlər daxilində onun qəbrinə namaz qılınmalıdır. Həmçinin, ona qılınan namazın batil olduğu təqdirdə də belə edilməlidir.

## MEYYİT NAMAZININ QAYDASI

**Məsələ:** ٦١٤. Meyyit namazı beş təkbirdən ibarətdir. Əgər namaz qılan beş təkbiri aşağıdakı tərtiblə desə, kifayətdir: Niyyət edib birinci təkbiri deyəndən sonra desin:

اَشْهَدُ اَنْ لاَ اِلهَ اِلاَّ اللَّهُ وَ اَنَّ مُحَمَّداً رَسُولُ اللَّهِ

***«Əşhədu ən la ilahə illəllahu və ənnə Muhəmmədən rəsulullah».***

İkinci təkbirdən sonra desin***:***

اَللَّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ و آلِ مُحَمَّدٍ

***«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd».***

Üçüncü təkbirdən sonra desin:

اَللَّهُمَّ اغْفِرْ لِلْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ

***«Əllahummağfir lil-muʾmininə vəl muʾminat».***

Dördüncü təkbirdən sonra, əgər meyyit kişidirsə:

اَللَّهُمَّ اغْفِرْ لِهٰذَا الْمَيِّتِ

***«Əllahummağfir lihazəl-meyyit»,*** yox əgər qadındırsa:

اَللَّهُمَّ اغْفِرْ لِهٰذِهِ الْمَيِّتِ

***«Əllahummağfirli hazihil-meyyit»*** deyib beşinci təkbiri desin.

Yaxşı olar ki, birinci təkbirdən sonra:

اَشْهَدُ اَنْ لا اِلهَ اِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَ اَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَ رَسُولُهُ

اَرسَلَهُ بِالْحَقِّ بَشِيراً وَ نَذِيراً بَيْنَ يَدَيِ السَّاعَة

***«Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, ərsələhu bil-həqqi bəşirən və nəzirən bəynə yədəyis-saəh»*** desin.

Və ikinci təkbirdən sonra:

اَللّٰهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ بَارِكْ عَلى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَارْحَمْ مُحَمَّداً وَآلَ مُحَمَّدٍ كَافْضَلِ مَا صَلَّيْتَ وَ بَارَكْتَ وَ تَرَحَّمْتَ عَلَى اِبْراهِيمَ وَ آلِ اِبْرَاهِيمَ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ وَ صَلِّ عَلَى جَمِيعِ الأَنْبِيَاءِ وَالْمُرْسَلِينَ وَالشُّهَدَاءِ وَ الصِّدِّيقِينَ وَجَمِيعِ عِبَادِ اللّٰهِ الصَّالِحِينَ

***«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmmədin və barik əla Muhəmmədin və ali Muhəmmədin vərhəm Muhəmmədən və alə Muhəmmədin kə-əfzəli ma səlləytə və barəktə və tərəhhəmtə əla İbrahimə və ali İbrahim, innəkə həmidun məcid və səlli əla cəmiil-ənbiyai vəl-mursəlinə vəş-şühədai vəs-siddiqinə və cəmii ibadillahis-salihin»*** desin.

Üçüncü təkbirdən sonra:

اَللّٰهُمَّ اغْفِرْ لِلْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ وَ الْمُسْلِمِينَ وَ الْمُسْلِمَاتِ الأَحْيَاءِ مِنْهُمْ وَ الْأَمْوَاتِ تابِعْ بَيْنَنَا وَ بَيْنَهُمْ بِالْخَيْرَاتِ اِنَّكَ مُجِيبُ الدَّعَوَاتِ اِنَّكَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***«Əllahummağfir lil-muʾmininə vəl-muʾminati vəl-muslimina vəl-muslimat, əl-əhyai minhum vəl-əmvat, tabiʾ bəynəna və bəynəhum bil-xəyrat, innəkə mucibud-dəəvat, innəkə əla kulli şəyʾin qədir»*** desin.

Və dördüncü təkbirdən sonra əgər meyyit kişidirsə:

اَللّٰهُمَّ اِنَّ هٰذا عَبْدُكَ وَ ابْنُ عَبْدِكَ وَ ابْنُ اَمَتِكَ نَزَلَ بِكَ وَ اَنْتَ خَيْرُ مَنْزُولٍ بِهِ اَللّٰهُمَّ اِنَّا لاَ نَعْلَمُ مِنْهُ اِلاَّ خَيْراً وَ اَنْتَ اَعْلَمُ بِهِ مِنَّا اَللّٰهُمَّ اِنْ كَانَ مُحْسِناً فَزِدْ فِي اِحْسَانِهِ وَ اِنْ كَانَ مُسِيئاً فَتَجَاوَزْ عَنْهُ وَ اغْفِرْ لَهُ اَللّٰهُمَّ اجْعَلْهُ عِنْدَكَ فِي اَعْلَى عِلِّيِّينَ وَ اخْلُفْ عَلَى اَهْلِهِ فِي الْغَابِرِينَ وَ ارْحَمْهُ بِرَحْمَتِكَ يَا اَرْحَمَ الرَّاحِمِينَ

***«Əllahummə innə haza əbdukə vəbnu əbdikə vəbnu əmətikə nəzələ bikə. Və əntə xəyru mənzulin bih. Əllahummə inna la nələmu minhu illa xəyrən və əntə əʾləmu bihi minna. Əllahummə in kanə muhsinən fəzid fi ihsanihi və in kanə musiʾən fətəcavəz ənhu vəğfir ləh. Əllahummə cʾəlhu indəkə fi əʾla illiyyinə vəxluf əla əhlihi fil-ğabirin. Vərhəmhu birəhmətikə, ya ərhəmər-rahimin»*** deyib sonra beşinci təkbiri desin.

Lakin meyyit qadındırsa, dördüncü təkbirdən sonra:

اَللّٰهُمَّ اِنَّ هٰذِهِ اَمَتُكَ وَ ابْنَةُ عَبْدِكَ وَ ابْنَةُ اَمَتِكَ نَزَلَتْ بِكَ وَ اَنْتَ خَيْرُ مَنْزُولٍ بِهِ، اَللّٰهُمَّ اِنَّا لاَ نَعْلَمُ مِنْهَا اِلاَّ خَيْراً وَ اَنْتَ اَعْلَمُ بِهَا مِنَّا، اَللّٰهُمَّ اِنْ كَانَتْ مُحْسِنَةً فَزِدْ فِي

اِحْسَانِهَا وَ اِنْ كَانَتْ مَسِيْئَةً فَتَجَاوَزْ عَنْهَا وَ اغْفِرْ لَهَا، اَللّٰهُمَّ اجْعَلْهَا عِنْدَكَ فِي اَعْلَى عِلِّيِّينَ وَ اخْلُفْ عَلَى اَهْلِهَا فِي الْغَابِرِينَ وَ ارْحَمْهَا بِرَحْمَتِكَ يَا اَرْحَمَ الرَّاحِمِينَ

***«Əllahummə innə hazihi əmətukə vəbnətu əbdikə vəbnətu əmətikə nəzələt bikə və əntə xəyru mənzulin bih. Əllahummə inna la nəʾləmu minha illa xəyrən və əntə əʾləmu biha minna. Əllahummə in kanət muhsinətən fəzid fi ihsaniha və in kanət musiʾətən fətəcavəz ənha vəğfir ləha. Əllahummə cʾəlha indəkə fi əʾla illiyyinə vəxluf əla əhliha fil-ğabirinə vərhəmha birəhmətikə ya ərhəmər-rahimin»*** deyib sonra beşinci təkbiri desin.

**Məsələ:** ٦١٥. Təkbir və dualar ardıcıl olaraq elə deyilməlidir ki, namaz öz surətindən xaric olmasın.

**Məsələ:** ٦١٦. Meyyit namazını camaatla qılan şəxs məʾmum da olmuş olsa, onun təkbir və dualarını oxumalıdır.

## MEYYİT NAMAZININ MÜSTƏHƏBB ƏMƏLLƏRİ

**Məsələ:** ٦١٧. Meyyit namazında bir neçə şey müstəhəbbdir:

١. Meyyit namazı qılan şəxs dəstəmaz alması, qüsl, ya təyəmmüm etmiş olsun. Ehtiyat vacib budur ki, qüsl, ya dəstəmaz mümkün olmadıqda, yaxud qüsl, ya dəstəmaza məşğul olmaqla meyyit namazına çatmayacağından qorxsa təyəmmüm etsin.

٢. Meyyit əgər kişidirsə, imam-camaat, yaxud ona fürada (tək) namaz qılan şəxs onun bədəninin ortası ilə müqabil dayansın, qadındırsa, sinəsi ilə müqabil dayansın.

٣. Ayaqyalın namaz qılsın.

٤. Hər təkbiri deyəndə əllərini qaldırsın.

٥. Meyyitlə onun fasiləsi, külək əsərkən libasını yellədikdə cənazəyə dəyəcək qədər az olsun.

٦. Meyyit namazını camaatla qılsın.

٧. İmam camaat təkbir və duaları ucadan, onunla namaz qılanlar isə astaca desinlər.

٨. Camaatla qılarkən məʾmum bir nəfər də olsa, imamın arxasında dayansın.

٩. Namaz qılan kəs meyyit və möʾminləri çox dua etsin.

١٠. Camaatın meyyit namazı qılmaq üçün çox getdiyi yerdə namaz qılsın.

١١. Haiz qadın əgər meyyit namazını camaatla qılmaq istəsə, cərgədə tək dayansın.

**Məsələ:** ٦١٨. Məscidlərdə meyyit namazı qılmaq məkruhdur. Lakin Məscidul-haramda məkruh deyil.

## DƏFNİN HÖKMLƏRİ

**Məsələ:** ٦١٩. Meyyiti, qoxusu bayıra çıxmayacaq və yırtıcı heyvanların onun cəsədini bayıra çıxara bilməyəcəkləri formada torpağa dəfn etmək vacibdir. Əgər heyvanların cəsədi bayıra çıxaracaqları qorxusu olarsa, qəbir kərpic və bu kimi şeylərlə bərkidilməlidir.

**Məsələ:** ٦٢٠. Əgər meyyiti torpağa dəfn etmək mümkün olmazsa, onu dəfn etmək əvəzinə dəfn etməkdə nəzərdə tutulan məqsədi təʾmin edəcək bina, ya tabuta qoymaq olar.

**Məsələ:** ٦٢١. Meyyiti sağ böyrü üstə qəbrə elə qoymaq lazımdır ki, bədəninin qabaq tərəfi qibləyə tərəf düşsün.

**Məsələ:** ٦٢٢. Əgər bir şəxs gəmidə ölsə, cəsədi xarab olmayacaqsa və gəmidə olmağının manei yoxdursa gəmi sahilə çatana qədər gözləyib sonra torpağa dəfn etmək lazımdır. Əks təqdirdə, gəmidə qüsl verilməli, hənut və kəfən edib, meyyit namazı qıldıqdan sonra onu (tabut əvəzi) bir xümrəyə (böyük xuma) qoyub ağzını bağlayaraq dənizə atmaq lazımdır. Vacib ehtiyata əsasən, mümkün qədər üzü qibləyə olmasına riayət olunmalıdır. Əgər bu da mümkün olmasa, ayağına ağır bir şey bağlayıb dənizə atılmalıdır. Həmçinin, mümkün qədər heyvanlara dərhal yem olmayacaq yerdə suya atılmalıdır.

**Məsələ:** ٦٢٣. Əgər düşmənin meyyitin qəbrini açacağı, bədənini çıxardıb qulaq, burun və ya başqa üzvlərini kəsəcəyindən qorxu olsa, mümkün olan surətdə əvvəlki məsələdə deyilən qayda ilə dənizə atılmalıdır.

**Məsələ:** ٦٢٤. Meyyiti dənizə atmaq və ya qəbrini bərkitmək xərcləri – lazım olan surətdə – onun malının əslindən götürülməlidir.

**Məsələ:** ٦٢٥. Əgər kafir qadın ölsə və bətnindəki uşaq da ölsə, uşağın atası müsəlman olduğu təqdirdə qadını qəbirdə sol böyrü üstə və arxası qibləyə uzandırmaq lazımdır ki, uşağın üzü qibləyə tərəf olsun. Vacib ehtiyata əsasən, həmçinin, bədəninə ruh daxil olmamışdırsa da bu hökmə əməl olunmalıdır.

**Məsələ:** ٦٢٦. Müsəlmanı kafir qəbiristanlığında, kafiri də müsəlman qəbiristanlığında dəfn etmək caiz deyil.

**Məsələ:** ٦٢٧. Müsəlmanı, zibil və bu kimi şeylər tökülən yerlər kimi, hörmətsizliyinə səbəb olacaq yerdə dəfn etmək caiz deyil.

**Məsələ:** ٦٢٨. Meyyiti qəsbi yerdə və dəfndən başqa şeylər üçün vəqf olunmuş yerdə dəfn etmək də caiz deyil.

**Məsələ:** ٦٢٩. Meyyiti başqa ölünün qəbrində dəfn etmək, başqasının haqqından istifadə edilməsinə, yaxud cəsədi hələ çürüməmiş, aradan getməmiş meyyitin qəbrinin açılmasına, ya da meyyitə hörmətsizliyə səbəb olacağı təqdirdə caiz deyildir. Bu surətdən

qeyri hallarda, əgər qəbir köhnəlmiş olsa və əvvəlki meyyit çürüyüb aradan getmiş olsa, yaxud qəbir açılmış olsa, orada dəfn etməyin eybi yoxdur.

**Məsələ:** ٦٣٠. Meyyitdən ayrılan bir şey əgər onun bədəninin bir hissəsi olsa, onunla birgə dəfn olunmalıdır. Əgər həmin şey tük, dırnaq və diş olsa, vacib ehtiyata əsasən, gərək meyyitlə birgə dəfn olunsun. Amma insanın sağlığında ondan ayrılan diş və dırnağın torpağa basdırılması müstəhəbdir.

**Məsələ:** ٦٣١. Əgər bir şəxs quyuda ölərsə və onu oradan çıxarmaq mümkün olmazsa, həmin quyunun ağzı bağlanmalı və onun qəbri qərar verilməlidir.

**Məsələ:** ٦٣٢. Əgər uşaq ana bətnində ölsə və bətndə qalmasının ana üçün təhlükəsi olsa onu ən asan yol ilə çıxarmaq lazımdır. Əgər onu doğramağa məcbur olsalar, eybi yoxdur, lakin əri bu işdə mütəxəssisdirsə, o, əks halda mütəxəssis olan bir qadın onu çıxarmalıdır. Əgər bu işdə mütəxəssis olan qadın tapılmasa, bu işdə mütəxəssis olan məhrəm bir kişi; o da olmasa, bu işdə mütəxəssis naməhrəm bir kişi, o da olmayan təqdirdə bu işin mütəxəssisi olmayanlar deyilmiş tərtiblə ölü uşağı çıxarmalıdırlar.

**Məsələ:** ٦٣٣. Əgər ana ölsə və bətnindəki uşaq sağ olsa, uşağın sağ qalacağına ümid olmasa da, elə əvvəlki məsələdə deyilmiş kəslərin vasitəsilə və tərtibə riayət etməklə uşağın salamatlığı üçün hansı tərəfin yarılması yaxındırsa, bətnin həmin tərəfi yarılmalı və uşaq çıxarıldıqdan sonra anaya qüsl verilməsi üçün yarılmış yer tikilməlidir.

## DƏFNİN MÜSTƏHƏB ƏMƏLLƏRİ

**Məsələ:** ٦٣٤. Qəbri ortaboylu insanın boyu ölçüsündə qazmaq, meyyiti ən yaxın yerdəki qəbiristanlıqda dəfn etmək müstəhəbdir. Amma uzaqda olan qəbiristanlıqda üstün bir cəhət olsa; məsələn, yaxşı insanlar orada dəfn olunubsa, yaxud camaat qəbir əhlinə Fatihə oxumaq üçün oraya daha çox gəlirlərsə, (meyyiti orada dəfn etmək müstəhəbdir).

Həmçinin, müstəhəbdir ki, qəbrə bir neçə zira (zira-dirsəkdən barmaqların ucuna qədər olan məsafədir) qalmış cənazəni yerə qoyub üç dəfəyə, yavaş-yavaş qəbrə yaxınlaşdırsınlar. Yə'ni hər dəfə yerə qoyub götürülsün və dördüncü dəfə qəbrə qoyulsun. Əgər meyyit kişidirsə, üçüncü dəfə onu yerə elə qoysunlar ki, başı qəbrin aşağı tərəfinə düşsün və dördüncü dəfə meyyit baş tərəfindən qəbrə daxil edilsin. Əgər qadındırsa, üçüncü dəfə qəbrin qiblə tərəfinə qoyulub yan tərəfdən qəbrə daxil edilsin, qəbrə daxil etdikdə qəbrin üstünə parça çəkilsin.

Həmçinin, müstəhəbbdir ki, cənazəni aramla tabutdan götürüb qəbrə daxil etsinlər, dəfndən əvvəl və dəfn zamanı göstəriş verilmiş dualar oxunsun, meyyiti ləhədə qoyandan sonra kəfənin düyünləri

açılsın, üzünü torpağın üzərinə qoysunlar, başının altına torpaqdan balış düzəldilsin, arxası üstə aşmaması üçün arxasına xam kərpic, ya kəsək qoyulsun, ləhədi örtməzdən öncə sağ əl ilə meyyitin sağ çiyninə vurub, sol əlini qüvvət ilə meyyitin sol çiyninə qoyub ağzını onun qulağına yaxınlaşdırsın və onu bərk tərpədib üç dəfə desin: ***«İsmə', ifhəm, ya fulanəbnə fulan».*** «Fulanəbnə fulan» sözünün əvəzinə, meyyitin özünün və atasının adı deyilsin. Məsələn, əgər meyyitin adı Məhəmməd, atasının adı Əlidirsə, üç dəfə: ***"İsmə', ifhəm, ya Muhəmmədəbnə Əli***" deyib sonra deyilsin:

هَلْ اَنْتَ عَلىَ الْعَهْدِ الَّذِي فارَقْتَنَا عَلَيْهِ مِنْ شَهَادَةِ اَنْ لاَ اِلهَ اِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَ اَنَّ مُحَمَّداً صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ عَبْدُهُ وَ رَسُولُهُ وَ سَيِّدُ النَّبِيِّينَ وَ خَاتَمُ الْمُرْسَلِينَ وَ اَنَّ عَلِيّاً اَمِيرُ الْمُؤْمِنِينَ وَ سَيِّدُ الْوَصِيِّينَ وَ اِمامٌ افْتَرَضَ اللَّهُ طَاعَتَهُ عَلىَ الْعَالَمِينَ وَ اَنَّ الْحَسَنَ وَ الْحُسَيْنَ وَ عَلِيَّ بْنَ الْحُسَيْنِ وَ مُحَمَّدَ بْنَ عَلِيٍّ وَ جَعْفَرَ بْنَ مُحَمَّدٍ وَ مُوسَى بْنَ جَعْفَرٍ وَ عَلِيَّ بْنَ مُوسَى وَ مُحَمَّدَ بْنَ عَلِيٍّ وَ عَلِيَّ بْنَ مُحَمَّدٍ وَ الْحَسَنَ بْنَ عَلِيٍّ وَ الْقَائِمَ الْحُجَّةَ الْمَهْدِيَّ صَلَوَاتُ اللَّهِ عَلَيْهِمْ أَئِمَّةُ الْمُؤْمِنِينَ وَ حُجَجُ اللَّهِ عَلَى الْخَلْقِ اَجْمَعِينَ وَ أَئِمَّتُكَ أَئِمَّةُ هُدىً اَبْرَارٌ يَا فُلاَنَ بْنَ فُلاَنٍ

***«Həl əntə ələl əhdil-ləzi fərəqtəna ələyhi min şəhadəti ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh və ənnə Muhəmmədən səlləllahu ələyhi və alihi əbduhu və rəsuluhu və səyyidun-nəbiyyinə və xatəmul-mursəlin və ənnə Əliyyən əmirul-mu'mininə və səyyidul-vəsiyyinə və imamun iftərəzəllahu taətəhu ələl-aləmin və ənnəl-Həsənə vəl-Husəynə və Əliyyəbnəl-Husəyni və Muhəmmədəbnə Əliyyin və Cə'fərəbnə Muhəmmədin və Musəbnə Cə'fərin və Əliyyəbnə Musa və Muhəmmədəbnə Əliyyin və Əliyyəbnə Muhəmmədin vəl-Həsənəbnə Əliyyin vəl-Qaiməl-Huccətəl-Məhdiyyə sələvatullahi ələyhim əimmətul-mu'mininə və hucəcullahi ələl-xəlqi əcməinə və əimmətukə əimmətu hudən bikə əbrarun ya fulanəbnə fulan».***

«Fulanəbnə fulan» sözünün yerinə meyyitin özünün və atasının adı deyildikdən sonra:

اِذَا اَتَاكَ الْمَلَكَانِ الْمُقَرَّبَانِ رَسُولَيْنِ مِنْ عِنْدِ اللَّهِ تَبَارَكَ وَ تَعَالَى وَ سَئَلاَكَ عَنْ رَبِّكَ وَ عَنْ نَبِيِّكَ وَ عَنْ دِينِكَ وَ عَنْ كِتَابِكَ وَ عَنْ قِبْلَتِكَ وَ عَنْ اَئِمَّتِكَ فَلاَ تَخَفْ وَ لاَ تَحْزَنْ وَ قُلْ فِي جَوَابِهِمَا: اَللَّهُ رَبِّي وَ مُحَمَّدٌ صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ نَبِيِّي وَ الْاِسْلاَمُ دِينِي وَ الْقُرْآنُ كِتَابِي وَ الْكَعْبَةُ قِبْلَتِي وَ اَمِيرُ الْمُؤْمِنِينَ عَلِيُّ بْنُ اَبِيطَالِبٍ اِمَامِي وَ

الْحَسَنُ بْنُ عَلِيٍّ الْمُجْتَبَى اِمَامِي وَ الْحُسَيْنُ بْنُ عَلِيٍّ الشَّهِيدُ بِكَرْبَلاَ اِمَامِي وَ عَلِيٌّ زَيْنُ الْعابِدِينَ اِمَامِي وَ مُحَمَّدٌ الْبَاقِرُ اِمَامِي وَ جَعْفَرٌ الصَّادِقُ اِمَامِي وَ مُوسَى الْكَاظِمُ اِمَامِي وَ عَلِيٌّ الرِّضَا اِمَامِي وَ مُحَمَّدٌ الْجَوَادُ اِمَامِي وَ عَلِيٌّ الْهَادِي اِمَامِي وَ الْحَسَنُ الْعَسْكَرِيُّ اِمَامِي وَ الْحُجَّةُ الْمُنْتَظَرُ اِمَامِي هَؤُلاَءِ صَلَوَاتُ اللَّهِ عَلَيْهِمْ أَئِمَّتِي وَ سَادَتِي وَ قَادَتِي وَ شُفَعَائِي بِهِمْ اَتَوَلَّى وَ مِنْ اَعْدَائِهِمْ اَتَبَرَّءُ فِي الدُّنْيا وَ الْآخِرَةِ، ثُمَّ اعْلَمْ يا فُلانَ بْنَ فُلانٍ

***«İza ətakəl-mələkanil-muqərrəbani rəsuləyni min indillahi təbarəkə və -Taala və səəlakə ən rəbbikə və ən Nəbiyyikə və ən dinikə və ən kitabikə və ən qiblətikə və ən əimmətikə fəla təxəf və la təhzən və qul fi cəvabihima Allahu Rəbbi və Muhəmmədun səlləllahu ələyhi və alihi nəbiyyi vəl-İslamu dini vəl-Qur'anu kitabi vəl-Kə'bətu qibləti və Əmirul-mu'mininə Əliyyubnu Əbi Talibin imami, vəl-Həsənubnu Əliyyin əl-Muctəba imami, vəl-Husəynubnu Əliyyin əş-şəhidu bi Kərbələə imami və Əliyyun Zəynul-abidinə imami və Muhəmmədun əl-Baqiru imami və Cə'fərun əs-Sadiqu imami və Musəl-Kazimu imami və Əliyyun ər-Riza imami və Muhəmmədun əl-Cəvadu imami və Əliyyun əl-Hadi imami vəl-Həsənu əl-Əskəriyyu imami vəl-Huccətul-Muntəzəru imami, haulai sələvatullahi ələyhim əimməti və sadəti və qadəti və şufəai, bihim ətəvəlla və min ə'daihim ətəbərrəu fid-dunya vəl-axirəti. Summə'ləm ya fulanəbnə fulan».*** (Bu sözün əvəzinə meyyitin və atasının adı deyilməli və sonra:)

اَنَّ اللَّهَ تَبَارَكَ وَ تَعَالَى نِعْمَ الرَّبُّ وَ اَنَّ مُحَمَّداً صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ نِعْمَ الرَّسُولُ وَ اَنَّ عَلِيَّ بْنَ اَبِي‌طَالِبٍ وَ اَوْلاَدَهُ الْمَعْصُومِينَ الْأَئِمَّةَ الْإِثْنَي عَشَرَ نِعْمَ الْأَئِمَّةُ وَ اَنَّ مَا جَاءَ بِهِ مُحَمَّدٌصَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ حَقٌّ وَ اَنَّ الْمَوْتَ حَقٌّ وَ سُؤَالَ مُنْكَرٍ وَ نَكِيرٍ فِي الْقَبْرِ حَقٌّ وَ الْبَعْثَ حَقٌّ وَ النُّشُورَ حَقٌّ وَ الْصِّرَاطَ حَقٌّ وَ الْمِيزَانَ حَقٌّ وَ تَطَايُرَ الْكُتُبِ حَقٌّ وَ اَنَّ الْجَنَّةَ حَقٌّ وَ النَّارَ حَقٌّ وَ اَنَّ السَّاعَةَ آتِيَةٌ لاَ رَيْبَ فِيهَا وَ اَنَّ اللَّهَ يَبْعَثُ مَنْ فِي الْقُبُورِ

***«Ənnəllahə təbarəkə və -Taala ni'mər-rəbbu və ənnə Muhəmmədən səlləllahu ələyhi və alihi ni'mər-rəsulu və ənnə Əliyyəbnə Əbi Talibin və ovladəhul-mə'suminəl-əimmətəl-isna əşərə ni.məl-əimmətu və ənnə ma caə bihi Muhəmmədun səlləllahu əleyhi və alihi həqqun və ənnəl-movtə həqqun və sualə munkərin və nəkirin fil-qəbri həqqun vəl-bə'sə həqqun vən-nuşurə həqqun vəs-siratə həqqun vəl-mizanə həqqun və tətayurəl-kutubi həqqun və ənnəl-***

***cənnətə həqqun vən-narə həqqun və ənnəs-saətə atiyətun la rəybə fiha və ənnəllahə yəb'əsu mən fil-qubur».***

Sonra deyilsin: ***«Əfəhimtə ya fulan»,*** fulan sözünün əvəzində meyyitin adı deyilsin, sonra:

ثَبَّتَكَ اللَّهُ بِالْقَوْلِ الثَّابِتِ وَ هَدَاكَ اللَّهُ اِلَى صِرَاطٍ مُسْتَقِيمٍ عَرَّفَ اللَّهُ بَيْنَكَ وَ بَيْنَ أَوْلِيَائِكَ فِي مُسْتَقَرٍّ مِنْ رَحْمَتِهِ

***«Səbbətəkəllahu bil-qovlis-sabiti və hədakəllahu ila siratin mustəqim, ərrəfəllahu bəynəkə və bəynə ovliyaikə fi müstəqərrin min rəhmətih»***

Və sonra:

اَللَّهُمَّ جَافِ الْاَرْضَ عَنْ جَنْبَيْهِ وَ اصْعَدْ بِرُوحِهِ اِلَيْكَ وَ لَقِّهِ مِنْكَ بُرْهَاناً اَللَّهُمَّ عَفْوَكَ عَفْوَكَ

***«Əllahummə cafil-ərzə ən cənbəyhi vəs'əd biruhihi iləykə və ləqqihi minkə burhana, Əllahummə əfvəkə əfvək».*** [1]

**Məsələ:** ٦٣٥. Meyyiti qəbrə qoyan şəxsin təharətli, başı açıq və ayaqyalın olması və qəbirdən çıxarkən meyyitin ayaq tərəfindən çıxması müstəhəbbdir. Həmçinin, qəbirdən çıxandan sonra

اِنَّا لِلَّهِ وَ اِنَّا اِلَيْهِ رَاجِعُونَ وَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعالَمِينَ، اَللَّهُمَّ ارْفَعْ دَرَجَتَهُ فِي اَعْلَى عِلِّيِّينَ وَ اخْلُفْ عَلَى عَقِبِهِ فِي الْغَابِرِيْنَ (وَ عِنْدَكَ نَحْتَسِبُهُ) يَا رَبَّ الْعَالَمِينَ

***«İnna lillahi və inna iləyhi raciun vəl-həmdu lillahi Rəbbil-aləmin. Əllahummərfə' dərəcətəhu fi ə'la illiyyinə vəxluf əla əqibihi fil-ğabirinə (və indəkə nəhtəsibuhu) ya Rəbbəl-aləmin»*** demək müstəhəbbdir.

Mərhumun qohumlarından başqa, dəfndə iştirak edənlərin əllərinin arxası ilə qəbrə torpaq tökmələri müstəhəbbdir. Əgər meyyit qadındırsa, ona məhrəm olan kəs onu qəbrə qoysun və əgər məhrəmi yoxdursa, qohumlarından biri onu qəbrə qoysun.

**Məsələ:** ٦٣٦. Qəbri kvadrat, ya uzun düzbucaqlı şəkildə düzəltmək, yerdən dörd barmaq hündür etmək, səhvə düşməməsi üçün üzərinə əlamət, nişanə qoymaq, qəbrin üstünə su səpmək, su səpəndən sonra orada olanların əllərini qəbrin üstünə qoyub barmaqlarını açaraq torpağa batırıb yeddi dəfə «Qədr» surəsini oxumaları, meyyit üçün bağışlanmaq diləmək və bu duanı oxumaları müstəhəbbdir:

---

[1] Meyyit qadın olduğu təqdirdə bütün xitablar, şəxs və işarə əvəzlikləri (zəmirlər) və fe`llər qadın cinsində deyilməlidir.

اَللّٰهُمَّ جَافِ الْاَرْضَ عَنْ جَنْبَيْهِ وَ اصْعَدْ (صَعِّدْ) رُوْحَهُ اِلَى اَرْوَاحِ الْمُؤْمِنِينَ فِي عِلِّيِّينَ وَ اَلْحِقْهُ بِالصَّالِحِينَ

***«Əllahummə cafil-ərzə ən cənbəyhi vəs'əd (sə'id) ruhəhu ila ərvahil-mu`mininə fi illiyyinə və əlhiqhu bis-salihin».***

**Məsələ:** ٦٣٧. Cənazəni müşayiət edənlər gedəndən sonra müstəhəbbdir ki, meyitin vəlisi, yaxud vəlisinin tərəfindən icazəli olan şəxs bu barədə göstəriş verilmiş duaları meyyitə təlqin etsin.

**Məsələ:** ٦٣٨. Meyyiti dəfn etdikdən sonra əza sahiblərinə başsağlığı vermək müstəhəbbdir. Lakin bir müddət keçsə və başsağlığı vermək dərdlərin-qəmlərin təzələnəcəyinə səbəb olacaqsa, bu işi tərk etmək daha yaxşıdır. Həmçinin, üç günə qədər mərhumun ailəsinə yemək göndərmək müstəhəbbdir və onların yanında (evlərində) təam yemək məkruhdur.

**Məsələ:** ٦٣٩. İnsanın qohumların, xüsusilə, övladın ölümündə səbr etməsi, hər vaxt yadına düşəndə: «İnna lillahi və inna iləyhi raciun» -deməsi, meyyit üçün Qur'an oxuması, ata-ananın qəbri üstə Allahdan hacət istəməsi, tez dağılıb xarab olmaması üçün qəbri möhkəm düzəltməsi müstəhəbbdir.

**Məsələ:** ٦٤٠. Bir kəsin ölümü zamanı üzü və bədəni cırmaqlamaq və özünə xəsarət yetirmək, nəzərə çarpacaq dərəcədə zərəri olduğu təqdirdə caiz deyildir. Bundan qeyri hallarda da onun tərk olunması vacib ehtiyatdır.

**Məsələ:** ٦٤١. Vacib ehtiyata əsasən, ata və qardaşdan başqa bir kəsin ölümündə yaxa cırmaq caiz deyildir. Lakin ata və qardaşın müsibətində bunun maneəsi yoxdur.

**Məsələ:** ٦٤٢. Əgər qadın meyyitin əzasında üzünü cırmaqlasa və qana boyasa, yaxud saçlarını yolsa, müstəhəbb ehtiyata əsasən, bir qul azad etməli, ya on fəqirə təam verməli və ya onları geyimlə tə'min etməlidir. Həmçinin, kişi də öz əyalı, ya övladının müsibətində öz yaxasını, ya libasını cırsa, eyni hökmü daşıyır.

**Məsələ:** ٦٤٣. Müstəhəbb ehtiyat budur ki, meyyit üçün ağlayanda səsi çox ucaltmasınlar.

## VƏHŞƏT NAMAZI

**Məsələ:** ٦٤٤. Meyyitin qəbrə qoyulduğu birinci gecədə onun üçün iki rükət vəhşət namazı qılmaq müstəhəbbdir.

Onun qaydası budur ki, birinci rükətdə "Həmd" surəsi oxuduqdan sonra bir dəfə "Ayətül-kürsü", ikinci rükətdə isə "Həmd" surəsindən sonra on dəfə "Qədr" surəsi oxunmalıdır.

Namazın salamından sonra:

اَللّٰهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ ابْعَثْ ثَوابَهَا اِلَى قَبْرِ فُلاَنٍ

***«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmmədin vəb'əs səvabəha ila qəbri fulan»*** demək lazımdır. «Fulan» kəlməsinin əvəzinə meyyitin adı deyilməlidir.

**Məsələ:** ٦٤٥. Vəhşət namazını qəbrin birinci gecəsinin istənilən vaxtında qılmaq olar. Lakin gecənin əvvəlində, işa namazından sonra qılmaq daha yaxşıdır.

**Məsələ:** ٦٤٦. Əgər meyyiti uzaq bir şəhərə aparmaq istəsələr, yaxud başqa bir səbəbdən onun dəfni tə'xirə düşsə, vəhşət namazını meyyitin qəbrə qoyulduğu birinci gecəyə qədər tə'xirə salmaq lazımdır.

## QƏBRİN AÇILMASI

**Məsələ:** ٦٤٧. Uşaq, yaxud dəli olmasından asılı olmayaraq, müsəlmanın qəbrinin açılması haramdır. Lakin meyyitin cəsədi çürüyüb aradan getmiş olsa və sümükləri torpağa çevrilmişdirsə, eybi yoxdur.

**Məsələ:** ٦٤٨. İmam övladlarının, şəhidlərin, alimlərin qəbrinin açılması, həmçinin, bunlardan qeyri hallarda, illər uzun keçməsinə baxmayaraq onlara hörmətsizliyə səbəb olacaqsa, haramdır.

**Məsələ:** ٦٤٩. Bir neçə halda qəbrin açılması haram deyildir:

١. Meyyit qəsbi yerdə dəfn olunduqda və yerin sahibi həmin yerdə qalmasına razı olmadıqda.

٢. Kəfən, yaxud meyyitlə birgə dəfn olunan başqa bir şey qəsbi olsa, sahibi də onun qəbirdə qalmasına razı olmasa. Həmçinin, meyyitin vərəsəyə çatası malından bir şey meyyitlə birgə dəfn olunsa və vərəsələr də həmin şeyin qəbirdə qalmasına razı olmasa. Amma əgər həmin şey çox cüzi bir şey olsa, bu surətdə qəbrin açılması məhəlli-işkaldır.

٣. Qəbrin açılması hörmətsizliyə səbəb olmasa və meyyit qüslsüz, yaxud kəfənsiz dəfn olunubsa; yaxud da qüslünün batil olduğunu, ya şər'i qaydaya uyğun olmayan tərzdə kəfənə büküldüyünü, qəbirdə üzü qibləyə qoyulmadığını başa düşsələr.

٤. Meyyitə ehtiramdan da əhəmiyyətli bir haqqı sübut etmək üçün meyyitin bədənini görməyə ehtiyac duyulduqda;

٥. Meyyiti, ona hörmətsizlik olan yerdə, məsələn, kafir qəbiristanlığında, yaxud zibillikdə dəfn etdikdə;

٦. Əhəmiyyəti qəbri açmaqdan daha çox olan şər'i bir mətləb, məsələn, dəfn olunmuş qadının bətnindən diri uşağı çıxarmaq üçün.

٧. Yırtıcı heyvanın meyyitin bədənini parçalayacağından, sel aparacağından, yaxud düşmənin onu çıxaracağından qorxu olduqda.

٨. Meyyitlə birgə dəfn olunmayan hər hansı bir bədən üzvünü dəfn etmək istədikdə. Lakin ehtiyat vacib budur ki, həmin bədən üzvü qəbrə elə tərzdə qoyulsun ki, meyyitin bədəni görünməsin.

## MÜSTƏHƏBB QÜSLLƏR

**Məsələ:** ٦٥٠. Müqəddəs İslam şəriətində müstəhəbb olan çoxlu qüsllər vardır. O cümlədən;

١. Cümə qüslü. Onun vaxtı sübh azanından sonra zöhrə qədərki vaxt ərzindədir. Zöhrə yaxın yerinə yertirilməsi daha yaxşıdır. Əgər zöhrə qədər yerinə yetirilməsə, qüruba qədər əda və ya qəza niyyəti etmədən yerinə yetirilməsi daha yaxşı olar. Əgər bu qüslü cümə günündə edə bilməsə, müstəhəbdir ki, şənbə günü sübhdən qüruba qədər qəzası yerinə yetirilsin. Cümə günü su tapmayacağına əmin olan şəxs cümə axşamı rəca qəsdi ilə qüsl ala bilər. Müstəhəbbdir ki, cümə qüslü alarkən bu duanı oxusun:

اَشْهَدُ اَنْ لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَ رَسُولُه، اَللّٰهُمَّ

صَلِّ عَلَى مُحَمَّدٍ وَ آ لِ مُحَمَّدٍ وَ اجْعَلْنِي مِنَ التَّوَّابِيْنَ وَ اجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ

***«Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh və ənnə Muhəmmədən əbduhu və rəsuluh. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd, vəc'əlni minət-təvvabinə vəc`əlni minəl-mutətəhhirin».***

٢. Ramazan ayının birinci, on yeddinci, on doqquzuncu, iyirmi birinci, iyirmi üçüncü və iyirmi dördüncü gecələrinin qüslü.[١]

٣. Fitr və Qurban bayramları gününün qüslü. Onun vaxtı sübh azanından qüruba qədərdir. Zöhrdən qüruba qədər rəca qəsdi ilə yerinə yetirilməsi əhvətdir. Yaxşı olar ki, bayram namazından öncə yerinə yetirilsin.

٤. Fitr bayramı gecəsinin (sabahı fitr bayramı olan gecə) qüslü. Onun vaxtı qürubdan sonradır. Vacib ehtiyat budur ki, sübh azanına qədər gecənin qalan hissələrində, rəca qəsdi ilə edilsin.

٥. Zil-hiccə ayının səkkiz və doqquzuncu gününün qüslü. Doqquzuncu günün qüslünü zöhr vaxtı yerinə yetirmək əhvətdir.

٦. Günəş tam tutulduqda qəsdən Ayət namazını qılmayan şəxsin ayət namazının qəzası üçün etdiyi qüslü.

٧. Bədənindən hər hansı bir yerini qüslü verilmiş meyyitin bədəninə toxunduran şəxsin qüslü.

٨. Ehram qüslü.

٩. Allah Hərəminə daxil olmaq üçün alınan qüsl.

١٠. Məkkəyə daxil olmaq üçün qüsl.

١١. Kə`bə Evinin ziyarət qüslü.

١٢. Kəbəyə daxil olma qüslü.

---

[١] Birinci gecə - sabahı birinci gün olan gecəyə deyilir.

١٣. (Həcc ziyarətində) nəhr (dəvə kəsmək), ya zibh (heyvan kəsmək) və həlq (baş qırxmaq) üçün qüsl.

١٤. Mədineyi-Münəvvərəyə daxil olmaq üçün qüsl.

١٥. Peyğəmbər (səlləllahu əleyhi və alih) hərəminə daxil olmaq üçün qüsl.[١]

١٦. Peyğəmbərin (səlləllahu əleyhi və alih) pak qəbri ilə vida qüslü.

١٧. Düşmənlə mübahilə (nifrin) etmək üçün qüsl.

١٨. Yeni doğulmuş körpəyə verilən qüsl.

١٩. İstixarə üçün qüsl.

٢٠. İstisqa (yağış istəmək) üçün qüsl.

٢١. Küsufda-yə'ni günəş dairəsinin bütünlüklə tutulduğu vaxt.

٢٢-Həzrət Əba Əbdillah İmam Hüseyn (əleyhisslam)-ı yaxından ziyarət etmək üçün qüsl etmək;

٢٣-Günah və küfrdən tövbə etmək üçün qüsl.

**Məsələ:** ٦٥١. Fəqihlər (fiqh alimləri) qüslün bəyanında çoxlu müstəhəbb qüsllər nəql ediblər ki, onlardan bir neçəsi aşağıdakılardır:

١. Mübarək Ramazan ayının bütün tək gecələri, son on günlüyün bütün gecələri, iyirmi üçüncü gecənin axırına olan digər bir qüsl.

٢. Zil-hiccə ayının iyirmi dördüncü gününün qüslü.

٣. Novruz bayramı, Şə'ban ayının on beşinci günü, Rəbiül-əvvəlin doqquzuncu və on yeddinci günü, Zil-qə'də ayının iyirmi beşinci gününün qüslləri.

٤. Ərindən qeyri kişilər üçün ətirlənmiş qadının qüslü.

٥. Məst halında yatan adamın qüslü.

٦. Dara çəkilən adama baxmaq üçün gedib onu görən şəxsin qüslü. Lakin təsadüfən, yaxud çarəsizlikdən gözünə dəysə, ya məsələn, şəhadət vermək üçün getsə, qüsl müstəhəbb deyil.

٧. Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidinə daxil olmaq üçün qüsl.

٨. Uzaq və ya yaxından mə'sum imamları (əleyhimussalam) ziyarət etmək üçün qüsl.

٩. Qədir-Xum bayramı gününün qüslü.

Lakin əhvət budur ki, deyilən qüsllər rəca qəsdilə yerinə yetirilsin.

**Məsələ:** ٦٥٢. Şəxs, ٦٥٠-ci məsələdə xatırlanmış qüsllə, dəstəmazla yerinə yetirilməli olan namaz və bu kimi əməlləri yerinə yetirə bilər. Amma rəca qəsdi ilə yerinə yetirilən qüsllər dəstəmaz əvəzində kifayət etməz.

**Məsələ:** ٦٥٣. Bir şəxsə bir neçə qüsl müstəhəbb olsa və hamısının niyyəti ilə bir qüsl alsa, kifayətdir.

---

[١] Onun hüdudları Air və Vəir adlı iki dağın arasıdır.

## TƏYƏMMÜM

Yeddi yerdə dəstəmaz və qüsl əvəzindən təyəmmüm edilməlidir.

***Təyəmmümə səbəb olanlardan birincisi***

Dəstəmaz, yaxud qüsl etmək üçün lazım olan qədərdə su tapmaq mümkün olmasın.

**Məsələ:** ٦٥٤. Əgər insan abadlıq yerdə (yaşayış məntəqəsində) olsa, dəstəmaz və qüsl üçün suyu, onu tapmaqdan naümid olan vaxta qədər axtarmalıdır. Əgər çöldə, səhradadırsa və həmin yerlər dərə-təpədirsə, (hər dörd tərəfə) qədim zamanlarda kamanla atılan bir ox uçuşu qədər məsafədə su axtarmaq üçün getməlidir, əgər düzənlikdirsə, iki ox uçuşu qədər məsafədə su axtarmalıdır. Vacib ehtiyata əsasən, mərkəzi dayandığı nöqtədən, qurtaracağı isə ox uçuşu qədər olan məsafədəki dairə daxilində su üçün axtarış aparılsın.

**Məsələ:** ٦٥٥. Əgər o yerin bə'zisi hamar düzənlik, bə'zisi dərə-təpəli olsa, düzənlik yerdə iki ox uçuşu qədər, dərə-təpəli yerdə isə bir ox uçuşu qədər məsafədə, əvvəlki məsələdə deyilmiş qayda ilə axtarış aparmalıdır.

**Məsələ:** ٦٥٦. Su olmadığına şər'i dəlili, yaxud yəqini olduğu tərəfdə axtarış aparmaq lazım deyildir.

**Məsələ:** ٦٥٧. Namazının vaxtı dar olmayan və su axtarmaq üçün vaxtı olan şəxs axtarış etməli olduğu qədərdən daha uzaq məsafədə su olduğunu yəqin etsə və ya şər'i dəlili olsa, əziyyətə və zərərə səbəb olmayacağı təqdirdə, su tapmaq üçün ora getməlidir. Əgər su olduğunu güman etsə və gümanı güclü olmaqla əminlik həddinə çatmasa, getmək lazım (vacib) deyil, lakin əhvətdir.

**Məsələ:** ٦٥٨. Bir kəsin özünün şəxsən axtarış aparması lazım (vacib) deyil; hətta sözündən arxayınlıq gələn bir nəfəri də göndərə bilər, həmçinin, əgər o şəxs siqə (e'timadlı) olsa və onun sözünün əksi güman olunmasa, onun sözündən arxayınlıq gəlməsə də belə, hökm eynidir. Hər iki halda, bir nəfərin bir neçə nəfər tərəfindən getməsi kifayətdir.

**Məsələ:** ٦٥٩. Əgər öz səfər yükünün içərisində, yaxud mənzilində, ya da karvanda suyun olduğunu ehtimal etsə, su tapmayacağına dair yəqin edənə, ya arxayın olana, ya naümid olana qədər axtarış aparmalıdır.

**Məsələ:** ٦٦٠. Əgər şəxs namaz vaxtından əvvəl axtarış aparıb su tapmasa və namaz vaxtına qədər orada qalsa, bu halda həmin yerdə su

tapacağına ehtimal verdiyi təqdirdə, vacib ehtiyata əsasən, namaz vaxtından əvvəl axtarış aparmaqla kifayətlənməsin. Amma vaxtın daxil olduğu yaxın vaxtlarda olsa və namazın əvvəl vaxtda fəzilətinə nail olmaq istəsə kifayətlənmək olar.

**Məsələ:** ٦٦١. Əgər namazın vaxtı daxil olandan sonra axtarış aparsa və su tapmasa və növbəti namaz vaxtına kimi həmin yerdə qalsa, bu halda orada su tapılmasına ehtimal versə vacib ehtiyat budur ki, yenidən su axtarmağa getsin.

**Məsələ:** ٦٦٢. Əgər namazın vaxtı dar olsa, yaxud oğru və yırtıcının onun malına və ya özünə, öz vəziyyətinə uyğun olaraq nəzərə çarpacaq bir xətər yetirəcəyindən qorxsa, yaxud da su axtarmaq dözüləsi ağır olan dərəcədə çətin olsa, axtarış aparmaq lazım deyil.

**Məsələ:** ٦٦٣. Əgər namazın vaxtı daralana qədər su axtarmağa getməsə günah etmişdir, amma namazı təyəmmümlə səhihdir, baxmayaraq ki, sonradan axtarış aparacağı təqdirdə su tapacağını başa düşsə də belə. Müstəhəbb ehtiyat budur ki, o namazın qəzasını da qılsın.

**Məsələ:** ٦٦٤. Su tapmayacağını yəqin edən (əmin olan) şəxs, su dalınca getməyib, təyəmmümlə namaz qılsa və namazdan sonra başa düşsə, ki, axtarsaydı su tapacaqdı, bu surətdə əgər vaxt qalırsa, dəstəmaz alıb namazı təzələməlidir.

**Məsələ:** ٦٦٥. Əgər şəxs axtarış aparıb su tapmasa və təyəmmümlə namaz qılsa, sonradan axtarış apardığı yerdə su olduğunu başa düşsə, bu halda namaz üçün vaxtı vardırsa, dəstəmaz almalı və namazı təzələməlidir. Bundan başqa halda onun namazı səhihdir.

**Məsələ:** ٦٦٦. Namaz vaxtının dar olduğunu yəqin şəkildə (dəqiq) bilən şəxs axtarış aparmadan təyəmmümlə namaz qılsa və namazdan sonra, onun vaxtı keçməmişdən əvvəl axtarış üçün vaxtı olduğunu bilsə, namazını təzələməlidir. Əgər vaxtı keçdikdən sonra başa düşsə, qəzası lazım deyil.

**Məsələ:** ٦٦٧. Əgər namaz vaxtı daxil olandan sonra şəxsin dəstəmazı varsa və onu batil edəcəyi halda su tapmasının mümkün olmayacağını, yaxud dəstəmaz ala bilməyəcəyini bilsə, yaxud bu barədə arxayınlıq və s. kimi şər'i höccəti olsa, bu halda dəstəmazını saxlaya bilərsə və bu işin zərər və çətinliyi də yoxdursa, onu batil etməməlidir. Lakin qüsl almağa imkanı olmayacağını bilsə də, öz əyalı ilə yaxınlıq edə bilər.

**Məsələ:** ٦٦٨. Əgər namaz vaxtından əvvəl dəstəmazlı olsa və onu batil etdiyi təqdirdə su tapmağın mümkün olmayacağını və dəstəmaz ala bilməyəcəyini bilsə, yaxud bu barədə şər'i höccəti olsa, onda dəstəmazının zərəri və çətinliyi olmadan saxlaya bilərsə, onu batil etməməsi ehtiyat müstəhəbbdir.

**Məsələ:** ٦٦٩. Yalnız dəstəmaz, ya qüsl qədərində suyu olan şəxs onu atacağı halda su tapmayacağını bilirsə, yaxud bu barədə şər'i höccəti varsa, onda namazın vaxtı daxil olduğu təqdirdə onu atması caiz deyil. Namaz vaxtından əvvəl də onu atmaması müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٦٧٠. Su tapmayacağını bilən, yaxud bu barədə şər'i höccəti olan bir şəxsin, namaz vaxtı daxil olandan sonra zərər və çətinlik olmadan öz dəstəmazını batil etməsi, ya əlində olan suyu atması caiz deyildir, lakin (əgər bu işi görsə) namazı təyəmmümlə səhihdir. Baxmayaraq ki, həmin namazı qəza etməsi müstəhəbb ehtiyatdır.

***Təyəmmümə səbəb olacaq ikinci yer***

**Məsələ:** ٦٧١. Əgər zəiflik ucbatından, yaxud oğru, yırtıcı və bu kimi şeylərin qorxusundan, yaxud suyu quyudan çəkməyə bir şey tapmadığından su əldə edə bilməsə, təyəmmüm etməlidir. Həmçinin, əgər suyu əldə etmək, yaxud ondan istifadə etməyin şəxs üçün dözülməsi məşəqqətli (çətin) olsa, hökm eynidir.

**Məsələ:** ٦٧٢. Əgər suyu quyudan çəkmək üçün dolça (vedrə), kəndir və s. lazım olsa və onları almağa, yaxud kirayə götürməyə məcbur olsa, hətta adi qiymətdən bir neçə dəfə baha olsa da, gərək tədarük görsün. Eləcə də suyu bir neçə dəfə baha qiymətə satsalar, həmin hökmdədir. Lakin bu iş üçün şəxsin məşəqqət və çətinliyə düşməsinə səbəb olacaq miqdarda pul tələb olunsa, onları almaq vacib deyildir.

**Məsələ:** ٦٧٣. Əgər su əldə etmək üçün borc etməyə məcbur olsa, onda borc etməlidir. Lakin borcunu qaytara bilməyəcəyini bilən, ya xatircəm olan şəxsin borc etməsi caiz deyildir.

**Məsələ:** ٦٧٤. Əgər quyu qazmaq çətin deyilsə, su əldə etmək üçün quyu qazılmalıdır.

**Məsələ:** ٦٧٥. Əgər bir şəxs ona minnətsiz olaraq su bağışlasa, onu qəbul etməlidir.

***Təyəmmümə səbəb olan üçüncü yer***

**Məsələ:** ٦٧٦. Əgər canına görə su işlətməkdən qorxsa, yaxud onda xəstəlik və ya eyb yaranacağından, yaxud xəstəliyinin uzun çəkəcəyindən, ya şiddətlənəcəyindən, yaxud çətin müalicə olacağından (sağalacağından) qorxsa təyəmmüm etməlidir. Lakin isti suyun ona zərəri yoxdursa, isti su ilə dəstəmaz, ya qüsl almalıdır.

**Məsələ:** ٦٧٧. Suyun zərəri olduğuna əmin olmaq lazım (vacib) deyil, hətta suyun zərərli olmasından qorxsa və bu qorxu camaatın nəzərində də yerində olan qorxu olsa, təyəmmüm etməlidir.

**Məsələ:** ٦٧٨. Göz ağrısı xəstəliyinə tutulan və suyun ona zərəri olduğu şəxs təyəmmüm etməlidir.

**Məsələ:** ٦٧٩. Əgər zərər olduğuna əmin olduqda, ya buna görə qorxu yarandıqda təyəmmüm etsə və namazdan əvvəl suyun ona zərərli olmadığını başa düşsə, təyəmmümü batildir. Əgər namazdan sonra bilsə və namaz üçün vaxt olsa namazını dəstəmaz, ya qüsl ilə yenidən qılacaq, əgər vaxt qalmayıbsa qəzası vacib deyildir.

**Məsələ:** ٦٨٠. Suyun ona zərəri olmadığını bilən, yaxud xatircəm olan şəxs qüsl, ya dəstəmaz alsa, sonra ona zərərli olduğunu başa düşsə bu halda o zərər harama düşəcək həddə olsa, onun dəstəmaz və qüslü batildir.

***Təyəmmümə səbəb olan dördüncü yer***

**Məsələ:** ٦٨١. Suyu dəstəmaz və qüslə sərf etməklə aşağıdakı müşküllərin bə'zisi ilə üzləşəcəyini bilən şəxs təyəmmüm etməlidir:

١. Suyu dəstəmaz və qüslə sərf etdikdə özü həmin anda, ya sonradan tələf olmasına, ya xəstəliyə tutulmasına səbəb olan, yaxud dözülməsi çox çətin olan susuzluğa düçar olacağı halda.

٢. Qoruyub saxlanılması ona vacib olan şəxslərin susuzluqdan tələf olacağından, yaxud xəstələnəcəyindən qorxduqda.

٣. Özündən başqa bir canlı üçün – istər insan, istərsə də heyvanın tələf olması, xəstələnməsi, ya haldan getməsindən qorxarsa və ya o heyvanın tələf olmasında o şəxsin halı ilə müqayisədə nəzərə çarpacaq zərər dəyərsə.

**Məsələ:** ٦٨٢. Əgər bir şəxsin dəstəmaz, yaxud qüsl üçün olan pak suyundan əlavə, özünün və onunla əlaqədar olanların içəcəyi qədərdə nəcis suyu da olsa və suyun nəcis olması onlar üçün sübuta yetsə, nəcis suyu içməkdən imtina etsələr, həmin pak suyu içmək üçün saxlamalı və namazı təyəmmümlə qılmalıdırlar. Lakin suyu heyvanata, ya uşağa vermək istəsə, nəcis suyu onlara verib, pak su ilə dəstəmaz, ya qüsl almalıdır.

***Təyəmmümə səbəb olan beşinci yer***

**Məsələ:** ٦٨٣. Bədəni, ya paltarı nəcis olan şəxsin bir qədər suyu olsa və o su ilə dəstəmaz, ya qüsl almaq istədikdə bədəni, ya paltarı suya çəkməyə su qalmayacaqdırsa, bədəni, ya libası suya çəkib, namazı təyəmmümlə qılmalıdır. Lakin üzərinə təyəmmüm etmək üçün bir şey tapmasa, o suyu dəstəmaz, ya qüslə sərf edib nəcis bədən, ya libasla namaz qılmalıdır.

***Təyəmmümə səbəb olan altıncı yer***

**Məsələ:** ٦٨٤. Əgər işlədilməsi haram olan su və ya qabdan savayı, başqa su və ya qabı yoxdursa, məsələn suyu, yaxud qabı qəsbi olsa, o su və qabdan başqa da su, yaxud qabı olmazsa, qüsl, ya dəstəmaz əvəzinə təyəmmüm etməlidir.

***Təyəmmümə səbəb olan yeddinci yer***

**Məsələ:** ٦٨٥. Dəstəmaz, ya qüsl aldıqda namazın bir hissəsi, yaxud hamısı namaz vaxtından xaricdə qılınacaq dərəcədə vaxt dar olsa, təyəmmüm etməlidir. Amma qüsl, ya dəstəmaz almağa sərf olunan vaxt elə təyəmmümə sərf olunan vaxtla bərabər olduqda, dəstəmaz, ya qüsl almalıdır.

**Məsələ:** ٦٨٦. Əgər bilərəkdən namazı qüsl, ya dəstəmaz almağa vaxt olmayacaq qədər gecikdirsə, günah etmişdir, lakin namazı təyəmmümlə səhihdir. Müstəhəbb ehtiyat budur ki, həmin namazın qəzasını dəstəmaz, ya qüsllə də yerinə yetirsin.

**Məsələ:** ٦٨٧. Əgər bir şəxs dəstəmaz və ya qüsl aldığı təqdirdə namaz qılmağa vaxt qalıb-qalmayacağında şəkk etsə, təyəmmüm etməlidir.

**Məsələ:** ٦٨٨. Vaxtın darlığı səbəbinə təyəmmüm edən və namazdan sonra, dəstəmaz almağa imkanı olduğu halda su əldən çıxana kimi dəstəmaz almayan şəxsin, vəzifəsi təyəmmüm olduğu təqdirdə növbəti namazlar üçün yenidən təyəmmüm etməlidir.

**Məsələ:** ٦٨٩. Suyu olan şəxs, vaxtın dar olduğuna görə təyəmmümlə namaza məşğul olsa və bu su namaz əsnasında əldən getsə, bu halda vəzifəsi təyəmmümdürsə, sonrakı namazlar üçün yenidən təyəmmüm etməsi müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٦٩٠. Əgər şəxsin dəstəmaz, ya qüsl almaq və namazı iqamə, qunut kimi müstəhəbb işləri yerinə yetirmədən qılmaq qədər vaxtı olsa, dəstəmaz, ya qüsl almalı və namazı, müstəhəbb işləri yerinə yetirmədən qılmalıdır. Hətta əgər surə oxumağa da vaxt olmasa, dəstəmaz, ya qüsl almalı və namazı, surəni oxumadan qılmalıdır.

## ÜZƏRİNƏ TƏYƏMMÜM EDİLMƏSİ SƏHİH OLAN ŞEYLƏR

**Məsələ:** ٦٩١. Torpağa, quma, kəsəyə, daşa və adətən, camaat arasında torpağın bir hissəsi hesab olunan şeylərə təyəmmüm etmək səhihdir. Lakin müstəhəbb ehtiyata əsasən, torpağa təyəmmüm etmək mümkün olsa başqa şeyə təyəmmüm edilməsin. Əgər torpaq olmasa, quma, ya kəsəyə, onlar da olmasa, daşa təyəmmüm edilsin.

**Məsələ:** ٦٩٢. Əhəng daşına və gəc daşına (təbaşirə) təyəmmüm etmək səhihdir. Müstəhəbb ehtiyat budur ki, ixtiyari halda bişmiş əhəngə, bişmiş təbaşirə, bişmiş kərpicə təyəmmüm edilməsin. Amma əqiq, firuzə və bu kimi daşlara təyəmmüm caiz deyildir.

**Məsələ:** ٦٩٣. Əgər torpaq, qum, kəsək, daş, hətta əhəng daşı və təbaşir olmasa, paltar, xalça, palaz və bu kimi şeylərin üstündəki toza təyəmmüm edilməli, əgər bu da olmasa, palçığa təyəmmüm etsin, əgər o

da yoxdursa, müstəhəbb ehtiyata əsasən, təyəmmümsüz namaz qılsın, lakin sonra qəzasını yerinə yetirmək vacibdir.

**Məsələ:** ٦٩٤. Əgər palaz, xalça və bu kimi şeyləri çırpmaqla torpaq əldə etmək mümkün olsa, toza təyəmmüm etmək batildir. Əgər palçığı qurudub, ondan torpaq hazırlamaq mümkündürsə, palçığa təyəmmüm etmək batildir.

**Məsələ:** ٦٩٥. Suyu olmayan adamın buzu, yaxud qarı alsa, mümkündürsə onları əritməli və onunla qüsl, ya dəstəmaz almalıdır. Bu iş mümkün olmadıqda və üzərinə təyəmmüm səhih olan şeyi də olmasa, müstəhəbb ehtiyat budur ki, dəstəmaz və qüsl üzvlərini qar, yaxud buzla nəmli (yaş) edib namazını qılsın, lakin (bu yolla) qıldığı namazı qəza etməlidir.

**Məsələ:** ٦٩٦. Əgər torpaq və quma üzərinə təyəmmüm etmək səhih olmayan saman və bu kimi bir şey qarışıbsa, ona təyəmmüm edə bilməz. Lakin həmin şey çox az olsa və torpaq, ya qumda aradan getmiş hesab olunsa, həmin torpağa, ya quma təyəmmüm etmək səhihdir.

**Məsələ:** ٦٩٧. Əgər üzərinə təyəmmüm etməyə bir şeyi yoxdursa, mümkün olan və çətinliyi (hərəci) olmayan surətdə almaqla və bu kimi vasitələrlə əldə etməlidir.

**Məsələ:** ٦٩٨. Palçıqdan olan divara təyəmmüm etmək səhihdir. Ehtiyat müstəhəbbdir ki, quru yer və torpaq ola-ola, nəm yer və torpağa təyəmmüm edilməsin.

**Məsələ:** ٦٩٩. Üzərinə təyəmmüm edilən şey pak olmalıdır. Əgər üzərinə təyəmmüm edilməsi səhih olan pak bir şey tapılmasa, ehtiyat müstəhəbbə əsasən həmin nəcis şeyə təyəmmüm edib namaz qılmalı və sonra onun qəzasını yerinə yetirməlidir.

**Məsələ:** ٧٠٠. Əgər bir şeyə təyəmmüm etməyin səhih olduğuna əmin olub ona təyəmmüm etsə və sonra ona təyəmmüm etməyin batil olduğu başa düşsə, həmin təyəmmümlə qıldığı namazları yenidən qılmalıdır.

**Məsələ:** ٧٠١. Üzərinə təyəmmüm edilən şey və həmin şeyin yeri qəsbi olmamalıdır. Deməli, əgər qəsbi torpağa təyəmmüm etsə, ya özünə məxsus olan torpağı icazəsiz başqasının mülkünə qoyub üzərinə təyəmmüm etsə, təyəmmümü batildir. Amma təyəmmüm edənin dayandığı yerin qəsbi olmaması təyəmmümün səhihliyində mö'təbər (şərt) deyildir.

**Məsələ:** ٧٠٢. Qəsbi fəzada təyəmmüm etmək, məsələn, bir şəxs öz mülkündə əllərini yerə vurub icazəsiz başqasının mülkünə daxil olaraq alnına çəksə, ehtiyata əsasən, batildir.

**Məsələ:** ٧٠٣. Qəsbi şeyə, yaxud qəsbi yerdə olan bir şeyə təyəmmüm etsə, hətta qəsbi olduğunu bilməsə də, batildir. Həmçinin, qəsbi fəzada da təyəmmüm etmək ehtiyat vacibə görə batildir. Amma

qəsbi olduğunu unutsa, ya bundan qəflət etsə, səhihdir. Lakin bir şeyi özü qəsb etsə və bu qəsbdən tövbə etməsə, qəsb etdiyi şeyə, ya qəsbi mülkdə olan şeyə etdiyi təyəmmüm batildir. Əgər tövbə etsə də, ehtiyata əsasən, batildir.

**Məsələ:** ٧٠٤. Əgər bir şəxs qəsbi yerdə həbs edilsə və oranın həm suyu, həm də torpağı – hər ikisi qəsbi olsa, namazı təyəmmümlə qılmalıdır.

**Məsələ:** ٧٠٥. Vacib ehtiyata əsasən, üzərinə təyəmmüm olunan şey mümkün qədər tozlu olmalıdır ki, əldə qalsın. Əli ona vurandan sonra, müstəhəbbdir ki, əllərini çırpsın.

**Məsələ:** ٧٠٦. Çuxur yerə, yolların torpağına, üzünü duz tutmamış şoranlıq yerə təyəmmüm etmək məkruhdur. Əgər yerin üzünü duz tutarsa, orada təyəmmüm batildir.

## DƏSTƏMAZ, YA QÜSL ƏVƏZİ EDİLƏN TƏYƏMMÜMÜN QAYDALARI

**Məsələ:** ٧٠٧. Dəstəmaz, ya qüsl əvəzindən edilən təyəmmümdə dörd şey vacibdir:

١. Niyyət;

٢. İki əlin içini üzərinə təyəmmüm etmək səhih olan şeyə vurmaq; Ehtiyat vacibə əsasən, əllərin içi birlikdə yerə vurulmalıdır.

٣. Hər iki əlin içini bütövlükdə alına və onun iki tərəfinə, başın tükü bitən yerdən qaşlara və burunun yuxarısına qədər çəkmək. Vacib ehtiyata əsasən, əllər qaşların üstünə də çəkilməlidir.

٤. Sol əlin içini sağ əlin tamamilə arxasına çəkmək, ondan sonra sağ əlin içini sol əlin tamamilə arxasına çəkmək.

**Məsələ:** ٧٠٨. Müstəhəbb ehtiyat budur ki, istər dəstəmaz, istərsə də qüsl əvəzi olan təyəmmüm bu tərtiblə yerinə yetirilsin: əllərin içini bir dəfə yerə vurub alına və əllərin arxasına çəksin, yenidən bir dəfə də yerə vurub əllərin arxasına çəksin.

## TƏYƏMMÜMÜN HÖKMLƏRİ

**Məsələ:** ٧٠٩. Əgər alın, ya əllərin arxasından bir az yeri belə məsh etməsə – istər qəsdən, istərsə də məsələni bilmədiyinə görə, ya unutmaq üzərindən – təyəmmüm batildir. Lakin həddindən artıq diqqət etmək də lazım deyildir: Elə "Bütün alın və əllərin arxasını məsh edib" deyiləcək qədər olsa, kifayətdir.

**Məsələ:** ٧١٠. Əlin arxasına bütünlüklə məsh etdiyinə əmin olmaq üçün, biləkdən bir az yuxarıdan məsh etməlidir. Lakin barmaqların arasına məsh etmək lazım deyil.

**Məsələ:** ٧١١. Alın və əllərin arxası yuxarıdan aşağı istiqamətdə məsh edilməli və bu işlər ardıcıl, fasiləsiz icra olunmalıdır. Əgər onların

arasında "təyəmmüm edir" deyilməyəcək qədər fasilə olsa, təyəmmüm batildir.

**Məsələ:** ٧١٢. Niyyət edərkən onun dəstəmaz, yoxsa qüsl əvəzində olduğunu müəyyən etməlidir; əgər qüsl əvəzindədirsə, o qüsl də müəyyən edilməlidir. Onun icmali (xülasə) şəkildə müəyyən edilməsi, məsələn, "birinci, yaxud ikinci (mərhələdə) vacib olan bir şeydən əvəz olaraq təyəmmüm edirəm" deyə niyyət etsə, kifayət edər. Əgər ona bir təyəmmüm vacib olmuşdursa və hal-hazırdakı öz vəzifəsini yerinə yetirməyi qəsd etsə, onun müəyyən olunmasında səhvə yol versə də, təyəmmümü səhihdir.

**Məsələ:** ٧١٣. Təyəmmüm edərkən müstəhəbb ehtiyata əsasən, alın, əllərin içi və arxası mümkün qədər pak olmalıdır.

**Məsələ:** ٧١٤. İnsan təyəmmüm edərkən üzüyü barmaqdan çıxarmalı, alında, əllərin içində, ya əllərin arxasında maneə varsa, məsələn, onlara bir şey yapışmışsa, aradan qaldırmalıdır.

**Məsələ:** ٧١٥. Əgər alın, ya əllərin üstü yaradırsa və yaraya bağlanmış parçanı, yaxud başqa bir şeyi açmaq da olmursa, əlləri onun üzərindən çəkmək lazımdır. Həmçinin, əllərin içində yara olsa və onlara bağlanmış parça, ya başqa bir şeyi açmaq olmursa, vacib ehtiyata əsasən, həmin sarıqlı əli üzərinə təyəmmüm etmək səhih olan şeyə vurmalı, alına və əllərin arxasına çəkməlidir və həmçinin, əllərin arxası ilə də təyəmmüm etməlidir.

**Məsələ:** ٧١٦. Əgər alında və əllərin arxasında tük olsa, eybi yoxdur. Lakin başın tükü alına tökülsə, onu arxaya çəkmək lazımdır.

**Məsələ:** ٧١٧. Əgər alında, əllərin içində, yaxud arxasında bir maneə olduğunu ehtimal etsə və onun ehtimalı camaatın nəzərində yerli ehtimaldırsa, maneənin qalmadığına yəqin edənə, yaxud arxayınlıq gələnə qədər axtarış etməlidir. Hətta əgər e'timadlı bir nəfər maneənin olmadığını xəbər versə, dediyinin əksi güman olunmadığı təqdirdə onun xəbəri də kifayət edər.

**Məsələ:** ٧١٨. Əgər vəzifəsi təyəmmüm olan halda bunu edə bilməsə, hətta əlini torpağın üstünə qoya bilməsə belə köməkçi tutmalıdır. Əgər köməkçi ilə də təyəmmüm edə bilməsə, onda naib tutmalıdır. Naib olan şəxs, naibi olduğu şəxsin öz əli ilə təyəmmüm etdirməlidir. Əgər bu da mümkün olmasa, naib öz əlini üzərinə təyəmmüm etmək səhih olan bir şeyə vurub onun alın və əllərinin arxasına çəkməlidir. Lakin niyyəti onun özü etməlidir. Ehtiyat vacibə əsasən, naib də niyyət etməlidir.

**Məsələ:** ٧١٩. Əgər təyəmmüm əsnasında bir hissəni unudub-unutmamasında şəkk etsə, bu halda əgər onun məhəlli keçibsə, şəkkə e'tina etməməli, əgər məhəlli keçməyibsə, həmin hissəyə təyəmmüm etməlidir.

**Məsələ:** ٧٢٠. Əgər sol ələ məsh etdikdən sonra təyəmmümü düzgün yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda əgər əməl halında bu məsələyə diqqətli olduğunu ehtimal edərsə, təyəmmümü səhihdir. Amma onun şəkki sol əlin məshindədirsə, təharət şərt olan əmələ daxil olmadığı və muvalatın (fasiləsizlik) pozulmadığı surətdə, onu məsh etməlidir. Əgər sol əlin məshinin düzgün olub-olmamağında şəkk edərsə, onun təyəmmümü səhihdir.

**Məsələ:** ٧٢١. Vəzifəsi təyəmmüm etmək olan şəxs, namaz vaxtından əvvəl o namaz üçün təyəmmüm edə bilməz. Lakin başqa vacib, ya müstəhəbb olan bir işə görə təyəmmüm etsə və namaz vaxtına qədər üzrü qalmış olsa, bu halda namazın axır vaxtına kimi üzrünün aradan gedəcəyindən də mə'yus olsa, həmin təyəmmümlə namaz qıla bilər. Deyilən bu surətdən başqasında isə həmin təyəmmümlə namaz qılması məhəlli-işkaldır.

**Məsələ:** ٧٢٢. Vəzifəsi təyəmmüm olan şəxs vaxtın axırına qədər üzrünün aradan gedəcəyindən mə'yus olsa, vaxtın geniş olduğu vaxtda da təyəmmümlə namaz qıla bilər. Lakin əgər üzrünün aradan gedəcəyindən mə'yus deyilsə, gözləməlidir: Əgər üzrü aradan getsə, dəstəmaz, ya qüsl alıb namaz qılmalıdır. Əks təqdirdə isə dar vaxtda təyəmmümlə namaz qılmalıdır.

**Məsələ:** ٧٢٣. Qüsl, ya dəstəmaz ala bilməyən şəxs, üzrünün aradan qalxacağına yəqini, ya xatircəmliyi olsa, qəza namazlarını təyəmmümlə qıla bilməz, əks təqdirdə isə qıla bilər. Lakin əgər üzrü sonradan aradan getsə, onları dəstəmaz, ya qüsl alaraq yenidən yerinə yetirməlidir.

**Məsələ:** ٧٢٤. Qüsl, ya dəstəmaz ala bilməyən şəxs vaxtın axırına qədər üzrünün aradan gedəcəyindən mə'yus olduğu təqdirdə müəyyən vaxtlarda qılınmalı olan nafilə namazlarını təyəmmümlə qıla bilər. Əgər mə'yus olmasa, vacib ehtiyata əsasən, onları (nafilələrin) axır vaxtında yerinə yetirməlidir.

**Məsələ:** ٧٢٥. Vəzifəsi vacib ehtiyata əsasən, həm cəbirə qüslü, həm də təyəmmüm etmək olan şəxs əgər qüsl və təyəmmümdən sonra namaz qılsa və namazdan sonra bövl kimi kiçik bir hədəs baş versə, sonrakı namazları üçün qüsl əvəzi olaraq – ehtiyatən – təyəmmüm edib dəstəmaz da almalıdır. Hədəs baş verməsi namazdan əvvəl olarsa, o namaz üçün də dəstəmaz almalı və təyəmmüm etməlidir.

**Məsələ:** ٧٢٦. Əgər su əldə edə bilməmək və ya başqa bir üzrə görə təyəmmüm etsə, üzr aradan getdikdən sonra təyəmmüm batil olar.

**Məsələ:** ٧٢٧. Dəstəmazı batil edən şeylər dəstəmaz əvəzi olan təyəmmümü də batil edir. Həmçinin, qüslü batil edən şeylər qüsl əvəzində edilən təyəmmümü də batil edər.

**Məsələ:** ٧٢٨. Qüsl ala bilməyən bir şəxsə bir neçə qüsl vacib olsa, onların biri cənabət qüslü olduğu təqdirdə cənabət qüslü əvəzi təyəmmüm etsə, hamısı üçün kifayət edər. Əgər cənabət qüslündən başqa qüsllər olsa, onların hər birinin əvəzində bir təyəmmüm etməlidir.

**Məsələ:** ٧٢٩. Qüsl ala bilməyən şəxs, qüsl edilməsi vacib olan bir əməli yerinə yetirmək istəsə, qüsl əvəzindən təyəmmüm etməlidir. Həmçinin, dəstəmaz ala bilməyən şəxs, dəstəmazla yerinə yetirilməsi vacib olan bir əməli görmək istəsə, dəstəmaz əvəzindən təyəmmüm etməlidir.

**Məsələ:** ٧٣٠. Əgər bir şəxs cənabət qüslü əvəzindən təyəmmüm etsə, namaz üçün dəstəmaz alması lazım deyil. Lakin əgər (cənabətdən) qeyri qüsllərin əvəzindən təyəmmüm etsə, dəstəmaz almalıdır. Əgər dəstəmaz ala bilməsə, dəstəmaz əvəzində digər bir təyəmmüm də etməlidir.

**Məsələ:** ٧٣١. Əgər cənabət qüslü əvəzindən təyəmmüm etsə və sonra dəstəmazı batil edən işlərdən biri baş versə, bu halda sonrakı namazlar üçün qüsl ala bilməsə, qüsl əvəzindən təyəmmüm etməlidir. Müstəhəbb ehtiyat budur ki, dəstəmaz da alsın. Həmçinin, cənabətdən qeyri, böyük hədəslər üçün – heyz, nifas və məssi-meyyit kimi – qüsl əvəzindən təyəmmüm edəndə də hökm eynidir, bu fərqlə ki, dəstəmaz da almalıdır.

**Məsələ:** ٧٣٢. Namaz qılmaq kimi, hər hansı bir əməl üçün dəstəmaz və qüsl əvəzindən təyəmmüm etməli olan şəxsin, həmin əməli yerinə yetirə bilməsi qəsdi ilə üçüncü təyəmmüm alması lazım deyil. Lakin əgər birinci təyəmmümdə dəstəmaz, ya qüsl əvəzindən olması niyyəti etsə, ikinci təyəmmümü isə öz vəzifəsini (ma fizzimməni) yerinə yetirmək qəsdi ilə etsə, bu, ehtiyata uyğundur.

**Məsələ:** ٧٣٣. Vəzifəsi təyəmmüm olan şəxs hər hansı bir iş üçün təyəmmüm etsə, onun üzrü və təyəmmümü aradan getməyincə, dəstəmaz, yaxud qüsllə yerinə yetirilməli olan işləri görə bilər. Lakin üzrü vaxtın darlığıdırsa, yaxud su ola-ola meyyit namazı, yaxud yatmaq üçün təyəmmüm edibsə, yalnız təyəmmüm etdiyi işləri yerinə yetirə bilər.

**Məsələ:** ٧٣٤. Bir neçə yerdə şəxsin təyəmmümlə qılmış olduğu namazları qəza etməsi daha yaxşıdır:

١. Su işlətməkdən qorxduğu halda qəsdən özünü cünub edib təyəmmümlə namaz qıldıqda;

٢. Su tapmayacağını bildiyi, yaxud güman etdiyi halda qəsdən özünü cünub edərək təyəmmümlə namaz qıldıqda;

٣. Vaxtın axırına qədər qəsdən su axtarmağa getməyib təyəmmümlə namaz qılan, sonradan axtaracağı təqdirdə su tapacağını başa düşdükdə;

٤. Qəsdən namazı tə’xirə salıb vaxtın axırında təyəmmümlə namaz qıldıqda;

٥. Su tapılmayacağını bildiyi, ya güman etdiyi halda əlindəki suyu dağıdaraq təyəmmümlə namaz qıldıqda.

# NAMAZIN HÖKMLƏRİ

Namazın hökmlərini bəyan etməzdən öncə iki incə məsələyə işarə edilməsi gərəkdir:

١) Namazın əhəmiyyəti: Qur'ani-məciddə yüzə yaxın ayədə namazdan söhbət açılmışdır ki, onun iki nümunəsini qeyd etmək kifayətdir:

١. Mütəal Allah Həzrət İbrahimi (əleyhissalam) nübüvvət, risalət və dostluq məqamına seçdikdən, kəlmələrlə imtahan etdikdən və o həzrət bu kəlmələri sona çatdırdıqdan sonra imamlıq məqamına nail oldu. Bütün bu məqamlardan sonra imamlıq məqamı onun nəzərində o qədər əzəmətli və qiymətli cilvələndi ki, «Mənim övladlarımdan da bu məqama yetişəcəkmi?» - deyə Allahdan soruşdu.

Cavab eşitdi: «Mənim əhdim zalımlara çatmaz».

Namazın əzəməti barədə bunu demək kifayətdir ki, Mütəal Allahın imamlıq məqamını nəsib etdiyi və onun da Mütəal Allahdan öz övladları üçün dilədiyi məqamla belə, bütün məqamları ötüb keçdikdən sonra Allah evinin qonşuluğunda Allahdan belə istədi: ***«Pərvərdigara mən və mənim övladlarımı namaz qılanlardan qərar ver!»***-O, öz övladını Beytin yaxınlığında məskunlaşdırdıqdan sonra belə dua etdi: ***«Ey bizim Pərvərdigarımız! Həqiqətdə mən öz övladımı heç bir yaşıllıq, ot-ələf olmayan bir yerdə – Sənin hörmətli evinin kənarında sakin etdim ki, ey Pərvərdigarımız, onlar namazı bərpa etsinlər».***

٢. Qur'ani-məciddə bütöv bir surə «Mu'minun» adlandırılmış, həmin surədə mö'minlər bir sıra xüsusiyyətlərlə təqdim edilmişdir. O xüsusiyyətlərin birincisi ***«Onlar ki, namazlarında xüşu halında olarlar.»,*** axırıncısı isə, o xüsusiyyətlərin tamamlayıcısı olan ***«O kəslər ki, namazlarını qoruyub saxlayanlardır» ayəsidir. Deməli, imanın əvvəli də, sonu da namazdır və həmçinin, onun səmərəsi də bu ayədir: "Məhz o kəslər (namazlarına riayət edənlər) varis olanlardır; onlar Firdovs cənnətinə varis olub orada əbədi qalarlar!"***

Sünnədə də İmam Sadiq (əleyhissalam)-ın namazın əzəməti barəsində buyurduğu bu kəlam kifayətdir: ***«Mən Allahı tanıyandan sonra beş vaxtda qılınan bu namazlardan fəzilətli heç bir əməl bilmirəm.»*** O həzrətin «bilmirəm» deyə buyurması, həqiqi mə'nada ondan fəzilətli bir əməl olmamasını çatdırır. Bu rəvayətdə Mütəal Allahın Qur'ani-məciddə buyurduğu: ***«O kitab heç bir şəkk-şübhə yeri qalmayan əzəmətli bir kitabdır. Pəhrizkarları hidayət edəndir. Onlar***

***qeybə inananlar və namaz qılanlardır»*** kəlamın bəyan edicisidir. Belə ki, qeybə iman gətirməkdən sonra namaz qılınması buyurulmuşdur.

Namazın əzəməti barədə elə bu kifayət edər ki, ibadətlərin içərisində namazdan da hərtərəfli bir ibadət tapmaq mümkün deyil. Çünki bu ibadət həm fe'li (hərəkətdən ibarət olan), həm də «qövli» (danışıqdan ibarət olan) ibadətə şamildir. Fe'li ibadət – ibadət əməllərindən olan rüku, səcdə, oturmaq və durmaq, qovli ibadət isə qiraət, ilahi maarif və tə'limlərin hamısını əhatə edən və Allah -Taalanın bəyan etdiyi maarifin dördlük təşkil edən sütunları – zikr və təsbih, təkbir, təhmid, təhlildir. Belə ki, müqərrəb mələklərinin bə'zisinin ayaq üstə, bə'zisinin oturan halda, bə'zisini rüku, bə'zisinin isə səcdə halında olan bütün ibadətlərinə şamildir.

Çoxlu rəvayətlərdə namaz haqqında çoxlu ünvanlar vardır ki, onlardan aşağıdakıları qeyd etmək olar: ***«Dinin əsası»,*** «peyğəmbərlərin axırıncı vəsiyyəti», ***«əməllərin ən sevimlisi», «əməllərin ən xeyirlisi», «İslamın sütunu, dayağı», «Allah dərgahına yönəlmə vasitəsi», «peyğəmbərlərin yolu» və «bəndənin ali dərəcəyə yetişmə vasitəsi.»*** və s.

٢) İnsan diqqətli, ehtiyatlı olmalı və namazı tələsik qılmamalıdır; namaz halında Allahı xatırlamalı, xüzu-xüşu və vüqarlı olmalı, kiminlə danışdığına diqqət etməli və özünü Allahın əzəmət və böyüklüyü qarşısında çox kiçik, əhəmiyyətsiz sanmalıdır.

Həmçinin, namaz qılan şəxs tövbə və istiğfar etməli, namazın qəbul olunmasına mane olan həsəd, təkəbbür (lovğalıq), qeybət, haram yeyib-içmək, içki içmək, xüms-zəkat verməmək kimi günahları, ümumiyyətlə hər bir günahı tərk etməlidir.

Həmçinin, namazın savabını azaldan işləri yerinə yetirməməsi layiqdir. Məsələn, yuxulu və bövlü saxladığı halda namaza dayanmamalı, namaz qılarkən səmaya tərəf baxmamalıdır; eləcə də namazın savabını artıran işləri, o cümlədən əqiq üzük taxmaq, pak-pakizə paltar geymək, saçını, saqqalını daramaq, ətir vurmaq, dişləri sürtmək və s. kimi işləri yerinə yetirməlidir.

## VACİB NAMAZLAR

Vacib namazlar altıdır:

١- Cümə namazı da daxil olmaqla gündəlik namazlar.

٢- Ayət namazı.

٣- Meyyit namazı; bu əsasla ki, «namaz» kəlməsinin ona aid edilməsi həqiqi mə'nada olsun; hər bir halda vacibdir.

٤- Kə'bə evinin vacib təvafının namazı.

٥- Atanın, böyük oğula vacib olan qəza namazı.

٦- İcarə, nəzr, and, əhd və əqdin nəzdində olan şərt vasitəsilə olunan vacib namazlar (məsələn, birinə bir şey satır və şərt edir ki, əlavə olaraq ٢ rükət namaz da qılmalısan).

## GÜNDƏLİK VACİB NAMAZLAR

Cümədən başqa vacib namazlar beşdir: Hər biri dörd rükət olan zöhr və əsr namazı, üç rükətli məğrib, dörd rükətli işa və iki rükətli sübh namazı.

**Məsələ:** ٧٣٥. Səfərdə və qorxu zamanı dörd rükətli namazlar, sonra deyiləcək şərtlər daxilində iki rükət qılınmalıdır.

***Zöhr və əsr namazının vaxtı***

**Məsələ:** ٧٣٦. Əgər (düz) ağac və ya ona bənzər olan və «şaxis» adlanan bir şeyi hamar yerdə şaquli şəkildə basdırsalar, sübh vaxtı günəş çıxdığı zaman onun kölgəsi günbatan tərəfə düşür və günəş yuxarı qalxdıqca, onun kölgəsi azalır. Bizim şəhərlərdə şər'i zöhrün əvvəlində kölgə özünün ən az həddinə çatır. Zöhr keçdikdə kölgə günçıxan tərəfə düşür və günəş günbatana yaxınlaşdıqca kölgə uzanır. Buna əsasən, kölgə ən qısa həddə çatıb yenidən artmağa başladıqda şər'i zöhrün olması mə'lum olur. (Ekvator xəttində yerləşən) bə'zi şəhərlərdə kölgənin yox olub yenidən göründüyü zaman zöhr olduğu bilinir.

**Məsələ:** ٧٣٧. Zöhr və əsr namazının vaxtı günortadan günəş batana qədərdir. Lakin əgər bir şəxs əsr namazını qəsdən zöhr namazından əvvəl qılınsa, batildir. Amma əgər vaxtın sonuna bir namaz qılmaq qədərdən artıq vaxt qalmasa, bu surətdə zöhr namazını qılmamış olan şəxs əsr namazını qılmalı və sonra zöhr namazını qəza etməlidir. Əgər bir şəxs bu vaxtdan əvvəl (yə`ni əsr namazının məxsus vaxtından əvvəl) səhvən əsr namazının hamısını zöhr namazından əvvəl qılmış olsa, namazı səhihdir. Vacib ehtiyat budur ki, onu zöhr namazı qərar verib, sonra «ma fiz-zimmə» qəsdi ilə yenidən dörd rükət namaz qılsın.

**Məsələ:** ٧٣٨. Əgər bir şəxs zöhr namazını qılmazdan öncə əsr namazını qılmağa başlasa və namaz əsnasında səhv etdiyini anlasa, niyyətini zöhr namazına döndərməlidir. Yə'ni niyyətində tutsun ki, «indiyə qədər qılmış olduğum, hal-hazırda məşğul olduğum və bundan sonra axıra qədər qılacağımın hamısı zöhr namazı olsun». Namazı bitirdikdən sonra isə əsr namazını qılsın.

**Məsələ:** ٧٣٩. Cümə namazı mə'sum İmam (əleyhissalam), yaxud o həzrət tərəfindən tə'yin olunmuş şəxslə qılınması vacibi-tə'yinidir. Qeybət dövründə mükəlləf şəxs zöhr namazı ilə şərtlər daxilində cümə namazı qılmaq arasında ixtiyar sahibidir. Əhvət zöhr namazı qılmaqdır, cümə namazı isə əfzəldir.

**Məsələ:** ٧٤٠. Cümə namazının vaxtı dardır. Vacib ehtiyata əsasən, şər'i zöhrün əvvəlindən, yə'ni zöhrün əvvəlinin daxil olduğuna, vaxtın daxil olmasının əlamətləri olan yəqin, xatircəmlik və s. yolu ilə sübuta yetən o vaxtdan tə'xirə salınmamalıdır.

***Məğrib və işa namazlarının vaxtı***

**Məsələ:** ٧٤١. Vacib ehtiyata əsasən, məğrib namazı günəşin dairəsinin batmasından sonra, məşriq (günçıxan) tərəfdən əmələ gələn qırmızılıq insanın başı üzərindən (günbatana tərəf) keçənə qədər tə'xirə salınmalıdır.

**Məsələ:** ٧٤٢. Məğrib və işa namazlarının vaxtı ixtiyari halda gecə yarısına qədər davam edir. Amma yatmaq, unutqanlıq, heyz və yaxud bu kimi zərurətlə üzləşən (məcburiyyət qarşısında qalan) şəxslər üçün sadiq fəcrə qədər davam edir. Yaddan çıxmayan hallarda işa namazını məğrib namazından sonra qılmalı olduğu üçün, bu məsələni xatırladığı halda onu məğrib namazından əvvəl qılsa batildir. Yalnız bu hal istisnadır ki, vaxtdan, işa namazını qıla biləcək miqdardan artıq vaxt qalmamış olarsa; bu halda işa namazını məğribdən əvvəl qılmalıdır.

**Məsələ:** ٧٤٣. Əgər bir şəxs səhv olaraq işa namazını məğrib namazından əvvəl qılsa və namazdan sonra səhv etdiyini başa düşsə, namazı düzdür və ondan sonra məğrib namazını qılmalıdır.

**Məsələ:** ٧٤٤. Əgər bir şəxs səhv olaraq məğrib namazı qılmazdan əvvəl işa namazı qılmağa başlasa və namaz əsnasında səhvə yol verdiyini dərk etsə, bu halda əgər dördünücü rükətin rükusuna getməyibsə, niyyətini məğrib namazına çevirib namazı tamamlamalı və sonra işa namazını qılmalıdır. Əgər dördüncü rükətin rükusuna getmişdirsə, namazı pozub məğrib namazını qılandan sonra işa namazını qılmalıdır.

**Məsələ:** ٧٤٥. İxtiyar halında işa namazının axır vaxtı gecə yarısına qədərdir. Vacib ehtiyata əsasən, gecə günəş batandan sübh azanına qədər hesablanmalıdır, nəinki gün çıxana qədər.

**Məsələ:** ٧٤٦. Əgər məğrib, ya işa namazını bilərəkdən gecə yarısına kimi qılmasa, əhvət budur ki, əda, yaxud qəza niyyəti etmədən sübh azanından qabaq o namazı qılsın.

***Sübh namazının vaxtı***

**Məsələ:** ٧٤٧. Sübh azanına yaxın günçıxan tərəfdən bir ağartı (əmələ gəlib) yuxarıya tərəf hərəkət edir ki, ona «birinci fəcr» deyilir. O ağartı (səmada) yayılan vaxt «ikinci fəcr» və sübh azanının əvvəl vaxtıdır. Sübh namazının axır vaxtı günəşin çıxdığı vaxtdır.

***Namaz vaxtının hökmləri***

**Məsələ:** ٧٤٨. İnsan o zaman namaza məşğul ola bilər ki, namaz vaxtının daxil olduğuna yəqin etsin, əmin olsun, ya iki adil şəxs, yaxud dediyinin əksinə güman olunmayan e'timadlı şəxs vaxtın daxil olduğunu xəbər versin. Eləcə də vaxtı tanıyan və sözündən xatircəmlik gələn bir şəxs vaxtın daxil olması üçün azan versin.

**Məsələ:** ٧٤٩. Əgər şəxs bulud, yaxud toz-duman kimi ümumi üzrə görə, yaxud korluq və zindanda olmaq kimi şəxsi üzrə görə namazın əvvəl vaxtının daxil olmasına əmin ola bilməsə, yaxud başqa bir şər'i dəlil də tapmasa, namazı əmin olana, ya şər'i dəlil tapana kimi tə'xirə salmalıdır.

**Məsələ:** ٧٥٠. Əgər yuxarıda deyilmiş yollardan biri ilə şəxs üçün, namazın vaxtının olması sübuta yetsə və ona əsasən, namaza başlasa, amma namaz əsnasında vaxtın hələ daxil olmadığını başa düşsə, onun namazı batildir. Həmçinin, namazdan sonra da namazın hamısını vaxtından əvvəl qıldığını dərk etsə, eyni hökmdədir. Əgər namaz əsnasında vaxtın daxil olmasını başa düşsə, yaxud namazdan sonra başa düşsə ki, namaz əsnasında vaxt daxil olubmuş, namazı düzgündür.

**Məsələ:** ٧٥١. Əgər şəxs, namaz qılmaq üçün vaxtın daxil olmasının sabit olmasının lazım olduğunu bilməyərək namaza başlasa, bu halda namazdan sonra dərk etsə ki, namazın hamısını vaxtında qılmışdır, namazı düzgündür. Əgər vaxtından əvvəl qıldığını dərk etsə, yaxud vaxtında və ya vaxtından əvvəl qıldığını bilməsə və ya namazdan sonra vaxtın namaz əsnasında daxil olduğunu bilsə, namazı batildir.

**Məsələ:** ٧٥٢. Vaxtın daxil olmasına əmin, ya xatircəm olaraq bir şəxs namaza başlasa və namaz əsnasında vaxtın daxil olub-olmamasında şəkkə düşsə, namazı batildir. Lakin namaz əsnasında olarkən vaxtın daxil olduğuna əminlik, ya xatircəmliyi olsa, amma bu vaxta qədər qıldıqlarının vaxt daxilində olub-olmadığında şəkk edərsə, namazı səhihdir.

**Məsələ:** ٧٥٣. Əgər namazın vaxtı, onun müstəhəbb əməllərini icra etməklə bir qədərinin vaxtdan kənar qılınacağı qədər dar olsa, o müstəhəbbləri icra etməməlidir. Məsələn, qunut oxumaqla namazın bir qədəri vaxtdan sonraya düşəcəksə, qunut oxumamalıdır.

**Məsələ:** ٧٥٤. Yalnız bir rükət namaz qılmaq qədərində vaxtı olan şəxsin (həmin vaxtda qıldığı) namazı ədadır. Lakin bilərəkdən namazı bu vaxta qədər gecikdirmək olmaz.

**Məsələ:** ٧٥٥. Müsafir olmayan şəxs günəş batana qədər beş rükət namaz qılmaq qədərində vaxtı olsa, zöhr və əsr namazının hər ikisini qılmalıdır. Əgər vaxt bundan az olsa, yalnız əsri qılmalı və sonra zöhrü qəza etməlidir. Həmçinin, əgər üzrü olmayan şəxsin gecə yarısına qədər beş rükət namaz qılmaq qədərində vaxtı varsa, məğrib və işa

namazlarını qılmalıdır. Əgər vaxt (bundan) azdırsa, yalnız işa namazını qılmalı və sonra məğribi qılmalıdır; Vacib ehtiyat budur ki, məğrib namazını «ma fiz-zimmə» olaraq əda, ya qəza niyyəti etmədən qılsın.

**Məsələ:** ٧٥٦. Müsafir olan şəxsin gün batana qədər üç rükət namaz qılmaq qədərində vaxtı varsa, zöhr və əsr namazlarını qılmalıdır. Əgər vaxt (bundan) azdırsa əsr namazını qılmalı və sonra zöhrü qəza etməlidir. Həmçinin, üzrü olmayan müsafirin gecə yarısına kimi dörd rükət namaz qılmaq qədərində vaxtı varsa, məğrib və işa namazlarını qılmalıdır. Əgər o qədər vaxtı yoxdursa, amma gecə yarısından əvvəl işa namazını qılmaqla məğrib namazının bir rükətini qıla bilərsə, əvvəlcə işanı qılıb, sonra dərhal məğrib namazına başlamalıdır. Əgər vaxt bundan da az olsa, işa namazını qılıb sonra məğribi qılmalıdır. Vacib ehtiyata əsasən, (məğribi) «ma fiz-zimmə» qəsdi ilə, əda və qəza niyyəti etmədən qılsın. Əgər işa namazını qılandan sonra hələ gecə yarısına bir rükət, ya ondan artıq namaz qılmaq qədərində vaxt qaldığı mə'lum olsa, məğrib namazı ədadır və dərhal yerinə yetirilməlidir.

**Məsələ:** ٧٥٧. Namazı vaxtın əvvəlində qılmaq müstəhəbbdir. Buna dair çoxlu tövsiyələr vardır. Namaz nə qədər vaxtın əvvəlində qılınsa, bir o qədər yaxşıdır. Lakin camaat namazı ilə birgə qılınması kimi bə'zi cəhətlərdən yaxşı olsa, onda gecikdirmək yaxşıdır.

**Məsələ:** ٧٥٨. Əgər insanın müəyyən bir üzrü olsa və namazı vaxtın əvvəlində qılmaq istəsə, həmin üzr nəticəsində təyəmmümlə qılmağa məcbur olacaqsa, bu halda vaxtın axırına kimi üzrünün qalacağını bilirsə, vaxtın əvvəlində (təyəmmümlə) namaz qıla bilər. Lakin üzrünün aradan qalxacağına ehtimal verirsə, üzrü aradan gedənə qədər gözləməlidir; Əgər üzrü aradan getməsə, namazı axır vaxtında qılacaq. Bu zaman namazın ancaq vacib hissələrini yerinə yetirmək qədəri vaxt qalmasını gözləmək lazım deyil. Hətta azan, iqamə, qunut kimi müstəhəbb olan əməlləri də yerinə yetirmək üçün vaxt varsa, təyəmmüm edib namazı müstəhəbbləri ilə yerinə yetirə bilər.

Təyəmmümə səbəb olan yerlərdən başqa üzrlərdə isə, əgər o üzr təqiyyədirsə, namazı əvvəl vaxtında qılması caizdir və hətta üzrü vaxt əsnasında aradan getsə də belə, namazı təzələməsi lazım deyil. Amma təqiyyədən başqa üzrlərdə, əgər üzrünün davam edəcəyinə ehtimal versə, əvvəl vaxtda namaz qılması caizdir. Lakin vaxt əsnasında üzrü aradan qalxarsa, namazı təzələməlidir.

**Məsələ:** ٧٥٩. Namazın məsələlərini, şəkkiyyat və səhviyyatını bilməsə və namaz əsnasında bunların qarşıya çıxacağını və nəticədə ilzami (vacib) təkliflə müxalifətə, ya lazım ehtiyata düçar olacağına ehtimal edirsə, ehtiyata əsasən, bu məsələləri öyrənmək üçün namazı vaxtın əvvəlindən tə'xirə salmalıdır. Lakin namazı düzgün şəkildə tamamlayacağına arxayındırsa, vaxtın əvvəlində namaza başlaya bilər.

Bu halda əgər namaz əsnasında hökmünü bilmədiyi bir məsələ qarşıya çıxmazsa, namazı düzgündür. Yox əgər qarşıya çıxsa, ehtimal verdiyi iki tərəfdən biri ilə əməl edib namazı tamamlamalıdır. Lakin namazdan sonra məsələsini soruşmalıdır: əgər batil olubsa, namazı təzələməlidir, yox əgər düzgündürsə, yenidən qılması lazım deyildir.

**Məsələ:** ٧٦٠. Namazın vaxtı geniş olduğu təqdirdə borc sahibi öz borcunu istəyərsə, mümkün surətdə əvvəl borcu ödəməli, sonra namaz qılmalıdır. Həmçinin, dərhal əncam verilməli olan digər bir vacib iş qarşıya çıxdıqda hökm eynidir. Məsələn, məscidin nəcis olduğunu görən şəxs əvvəlcə onu pak etməli, sonra namaz qılmalıdır. Hər iki surətdə, əvvəlcə namazı qılsa, günah etmişdir, amma namazı səhihdir.

## TƏRTİBLƏ QILINMALI OLAN NAMAZLAR

**Məsələ:** ٧٦١. Şəxs əsr namazını zöhr namazından, işa namazını məğrib namazından sonra qılmalıdır. Əgər bilərəkdən əsr namazını zöhrdən və işa namazını məğribdən əvvəl qılsa, namazı batildir.

**Məsələ:** ٧٦٢. Əgər şəxs zöhr niyyəti ilə namaza başlasa və namaz əsnasında zöhr namazını qılmış olduğu yadına düşsə, niyyətini əsr namazına çevirə bilməz: namazı pozub əsr namazını qılmalıdır. Məğrib və işa namazları da bu qayda ilədir.

**Məsələ:** ٧٦٣. Şəxs əsr namazı əsnasında zöhr namazını qılıb-qılmadığında şəkk etsə, niyyətini zöhr namazına çevirməlidir. Lakin vaxt o qədər az olsa, ki, namazı tamamlayana kimi gün batacaq və bir rükət namaz qılınması qədər də vaxt olmayacaq, namazı əsr namazı niyyəti ilə tamamlamalı və zöhr namazını qılmış hesab etməlidir.

**Məsələ:** ٧٦٤. Əgər əsr namazı əsnasında zöhr namazını qılmadığına əmin, ya xatircəm olsa və niyyətini zöhr namazına döndərsə bu halda hər hansı bir əməli yerinə yetirməzdən qabaq zöhr namazını qıldığı yadına düşərsə namazın qalanını əsr namazı niyyəti ilə qılmalıdır və namazı səhihdir. Həmçinin, yerinə yetirdiyi əməl rükn olmadığı təqdirdə də belədir, lakin bu surətdə zöhr namazı qəsdi ilə etdiyi qiraət və zikri yenidən əsr namazı niyyəti ilə yerinə yetirməlidir. Müstəhəbb ehtiyat budur ki, bu iki surətdə namazı əsr namazı niyyəti ilə tamamlasın və yenidən qılsın. Əgər (zöhr niyyəti ilə) yerinə yetirdiyi o əməl rükət, ya rüku, ya iki səcdə olsa, əsr namazını yenidən qılmalıdır.

**Məsələ:** ٧٦٥. Əgər işa namazının dördüncü rükətinin rükusundan öncə məğrib namazını qılıb-qılmadığında şəkk etsə, bu halda namazı tamamlayacağı təqdirdə vaxt işa namazı üçün bir rükət qədərində də vaxt qalmayacağı dərəcədə dar olarsa, namazı işa namazı niyyəti ilə tamamlamalı və məğrib namazını qılmış olduğunu hesab etməlidir. Əgər bir rükət, ya ondan artıq miqdarda namaz qılmaq üçün vaxt varsa,

niyyəti məğrib namazına döndərməli və üçüncü rükətdə namazı tamamlayıb sonra işa namazını qılmalıdır.

**Məsələ:** ٧٦٦. Əgər şəxs işa namazının dördüncü rükətində rükuya getdikdən sonra məğrib namazını qılıb-qılmadığında şəkk etsə, vaxtın genişliyində namaz batildir, məğrib və işa namazını qılmalıdır. Həmçinin, əgər beş rükət namaz qılmaq qədərdə vaxt olsa da hökm eynidir. Əgər bundan az vaxt olsa, işa namazı düzgündür və onu tamamlamalı və məğrib namazını qılmış hesab etməlidir.

**Məsələ:** ٧٦٧. Əgər şəxs qıldığı namazı ehtiyatən yenidən qılarsa və namaz əsnasında bundan əvvəl qılmalı olduğu namazı qılmadığı yadına düşərsə, niyyətini həmin namaza döndərə bilməz. Məsələn, əsr namazını ehtiyatən qılarkən zöhr namazını qılmadığı yadına düşsə, niyyətini zöhr namazına çevirə bilməz.

**Məsələ:** ٧٦٨. Niyyəti qəza namazından əda namazına və müstəhəbbdən vacib namaza döndərmək caiz deyildir.

**Məsələ:** ٧٦٩. Əgər namazın əda vaxtı geniş olarsa, şəxs namaz əsnasında niyyətini qəza namazına döndərə bilər. Lakin niyyəti qəza namazına döndərmək mümkün olmalıdır. Məsələn, zöhr namazını qılırsa, niyyətini sübh namazının qəzasına o zaman döndərə bilər ki, üçüncü rükətin rükusuna daxil olmamış olsun.

## MÜSTƏHƏB NAMAZLAR

**Məsələ:** ٧٧٠. Müstəhəb namazlar çoxdur. Onlara "nafilə" deyilir. Bu namazlar içərisində gecə-gündüzün nafilələrini qılmağa daha çox tövsiyə olunmuşdur. Onlar, cümə günündən başqa, otuz dörd rükətdir: Səkkiz rükəti zöhrün, səkkiz rükəti əsrin, dörd rükəti məğribin, iki rükət işanın və on bir rükət gecənin, iki rükət isə sübhün nafiləsidir. İşa namazının iki rükət nafiləsi vacib ehtiyata əsasən, oturan halda qılınmalı olduğu üçün bir rükət hesablanır.

Cümə günündə zöhr və əsrin on altı rükət nafiləsinə dörd rükət də əlavə olunur. Məşhur nəzərə görə, yaxşı olar ki, onun altı rükəti günəş yayılmamış, altı rükəti günəş qalxanda, altı rükət gün ortaya çatmazdan öncə, iki rükəti isə gün günortaya çatan vaxt zəvalda qılınsın.

**Məsələ:** ٧٧١. On bir rükət gecə nafiləsinin səkkiz rükəti «gecə nafiləsi» niyyəti ilə, iki rükəti «şəf'» namazı niyyətilə və bir rükəti «vətr» namazı niyyətilə qılınmalıdır. Gecə nafiləsinin mükəmməl qaydası dua kitablarında zikr edilmişdir.

**Məsələ:** ٧٧٢. Nafilə namazlarını oturan halda qılmaq olar. Lakin oturan halda qılınan iki rükət nafilə namazının bir rükət hesablanması daha yaxşıdır. Məsələn, zöhr namazının səkkiz rükət nafiləsini oturan halda qılmaq istəyən kəsin on altı rükət qılması daha yaxşıdır. Əgər vətr namazını oturan qılmaq istəsə, iki dənə bir rükətli namaz qılsın.

**Məsələ:** ٧٧٣. Səfərdə zöhr və əsrin nafilələri qılınmamalıdır, amma işa namazının nafiləsi rəca qəsdi ilə qılınsa, maneəsi yoxdur.

## GÜNDƏLİK NAMAZLARIN NAFİLƏSİNİN VAXTI

**Məsələ:** ٧٧٤. Zöhr namazının nafiləsi zöhr namazından əvvəl qılınır və onun vaxtı zöhrün əvvəlidir. Vacib ehtiyata əsasən, zöhr namazı nafiləsinin son vaxtı şaxisin zöhrdən sonra görünən kölgəsinin şaxisin boyunun yeddidə ikisinə çatdığı vaxt qədərdir. Məsələn, əgər şaxisin hündürlüyü yeddi qarışdırsa, zöhrdən sonra yaranan kölgənin uzunluğu iki qarışa çatsa, ehtiyata əsasən, bu, zöhr namazının nafiləsinin axır vaxtıdır.

**Məsələ:** ٧٧٥. Əsr namazının nafiləsi əsr namazından əvvəl qılınır və onun vaxtı vacib ehtiyata əsasən, şaxisin zöhrdən sonra görünən kölgəsinin boyunun yeddidə dördünə çatdığı vaxta qədərdir. Əgər zöhr və əsrin nafiləsini, onların vaxtından sonra qılmaq istəsələr, vacib ehtiyat budur ki, zöhrün nafiləsini zöhrdən sonra, əsrin nafiləsini isə əsrdən sonra qılsınlar və bu zaman əda və qəza niyyəti etməsinlər.

**Məsələ:** ٧٧٦. Məğrib namazının nafiləsinin vaxtı məğrib namazı tamam olandan sonradır və məğrib namazının axır vaxtına kimi davam edir. Müstəhəbb ehtiyat budur ki, günəş batandan sonra məğrib tərəfdə görünən qırmızılıq itməmiş qılınsın, əgər qırmızılıq itdikdən sonra qılınarsa, əda və qəza niyyəti etməsin.

**Məsələ:** ٧٧٧. İşa namazının nafiləsinin vaxtı, işa namazı tamam olandan sonra gecə yarısına kimidir. İşa namazından dərhal sonra, fasiləsiz olaraq qılınması daha yaxşıdır.

**Məsələ:** ٧٧٨. Sübh namazının nafiləsinin vaxtı, vacib ehtiyata əsasən, birinci fəcrdən sonra (sübh namazından əvvəl) başlayır və məşriq tərəfdən qırmızılıq görünənə qədər davam edir. Əgər məşriq tərəfdə qırmızılıq görünəndən sonra qılmaq istəyən kəs sübh namazından sonra, əda və qəza niyyəti etmədən qılmalıdır. Gecə namazı qılan şəxs gecə nafiləsindən sonra fasiləsiz olaraq sübhün nafiləsini qıla bilər.

**Məsələ:** ٧٧٩. Məşhur nəzəriyyəyə əsasən, gecə namazının vaxtı gecə yarısından sübh azanına qədərdir. Lakin onun vaxtının gecənin əvvəlindən sübh azanına qədər olması da uzaq görüş deyil və gecə yarısından sonra sübh azanınadək onun fəzilətli vaxtıdır. Bundan da fəzilətlisi odur ki, gecənin axırıncı üçdə birində qılınsın.

**Məsələ:** ٧٨٠. Məşhur nəzəriyyəyə əsasən – yə'ni gecə nafiləsinin vaxtının gecə yarısındandır – müsafir olan, yaxud gecə nafiləsini gecə yarısından sonra qılmaqda çətinlik çəkən kəs onu gecənin əvvəlində qıla bilər. Baxmayaraq ki, deyilən iki şəxsdən başqaları üçün də (qabaqkı

məsələdə deyildiyi kimi) gecə nafiləsini gecənin əvvəlində qılmasının caiz olması uzaq görüş deyildir.

## ĞUFEYLƏ NAMAZI

**Məsələ:** ٧٨١. Ğufeylə namazı məğrib və işa namazları arasında qılınan məşhur müstəhəb namazlardan biridir. Onun birinci rükətində Həmddən sonra surə əvəzinə bu ayə oxunur:

**وَذَاالنُّونِ اِذْ ذَهَبَ مُغَاضِبًا فَظَنَّ اَنْ لَنْ نَقدِرَعَلَيْهِ فَنَادَى فِى الظُّلُمَاتِ اَنْ لاَ اِلٰهَ اِلاَّ اَنْتَ سُبْحَانَكَ اِنّي كُنْتُ مِنَ الظَّالِمِينَ فَاسْتَجَبْنَا لَهُ وَنَجَّيْنَاهُ مِنَ الغَمِّ وَكَذاَلِكَ نُنْجِي الْمُؤْمِنِينَ**

«Və zənnuni iz-zəhəbə muğazibən fəzənnə ən lən nəqdirə ələyhi fənada fiz-zulumati ən la ilahə illa ənt, Subhanəkə inni kuntu minəz-zalimin, fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmmi və kəzalikə nuncil-mu'minin».

İkinci rükətdə isə Həmddən sonra surə əvəzinə bu ayə oxunur:

**وَعِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لاَيَعْلَمُهَا اِلاَّ هُوَ وَيَعْلَمُ مَا فِى الْبَرِّ وَ الْبَحْرِ وَمَا تَسْقُطُ مِنْ وَرَقَةٍ اِلاَّ يَعْلَمُهَا وَلاَ حَبَّةٍ فِى ظُلُمَاتِ اْلاَرْضِ وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ اِلاَّ فِى كِتَابٍ مُبِينٍ**

«Və indəhu məfatihul-ğəybi la yə'ləmuha illa hu və yə'ləmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa yə'ləmuha və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin mubin».

Namazın qunutunda isə belə deyilir:

**اَللّٰهُمَّ اِنِّى اَسْأَلُكَ بِمَفَاتِحِ الْغَيبِ الَّتِى لاَيَعْلَمُهَا اِلاَّ اَنْتَ اَنْ تُصَلِّىَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاَنْ تَفْعَلَ بِى كَذا وَ كَذا**

"Əllahummə inni əs'ələukə bi məfatihil-ğəybil-ləti la yə'ləmuha illa ənt, ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən təf'ələ bi kəza və kəza."

«Kəza və kəza» kəlmələrinin əvəzində hacətlərini istəyib sonra desin:

اَللّٰهُمَّ اَنْتَ وَلِيُّ نِعْمَتِى وَالْقَادِرُ عَلَى طَلِبَتِى تَعْلَمُ حَاجَتِى فَاسْأَلُكَ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ عَلَيْهِ وَعَلَيْهِمُ السَّلاَمُ لَمَّا قَضَيْتَهَا لِى

«Əllahummə əntə vəliyyu ni'məti vəl-qadiru əla təlibəti tə'ləmu hacəti fə əs'ələkə bi həqqi Muhəmmədin və ali Muhəmməd, ələyhi və ələyhimus-səlamu ləmma qəzəytəha li».

## QİBLƏNİN HÖKMLƏRİ

**Məsələ:** ٧٨٢. Kə`bə Evi yerləşən məkan qiblədir və namaz ona tərəf qılınmalıdır. Lakin uzaqda olan şəxs «üzü qibləyə namaz qılır» - deyiləcək tərzdə dayanarsa, kifayətdir. Həmçinin, heyvanın başını kəsmək kimi, üzü qibləyə yerinə yetirilməli olan digər işlər də bu cürdür.

**Məsələ:** ٧٨٣. Vacib namazı ayaq üstə qılan şəxsin üzü, sinəsi və qarnı qibləyə tərəf olmalıdır. Müstəhəbb ehtiyata əsasən, ayaq barmaqları da qibləyə tərəf olmalıdır.

**Məsələ:** ٧٨٤. Oturan halda namaz qılmalı olan şəxsin üzü, sinəsi və qarnı qibləyə tərəf olmalıdır.

**Məsələ:** ٧٨٥. Oturan halda namaz qıla bilməyən şəxs namazda sağ böyrü üstə elə tərzdə uzanmalıdır ki, bədəninin qabaq tərəfi qibləyə tərəf olsun. Əgər mümkün olmasa, sol böyrü üstə elə uzanmalıdır ki, bədəninin ön tərəfi üzü qibləyə düşsün. Bu da mümkün olmasa, arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf olsun.

**Məsələ:** ٧٨٦. Ehtiyat namazı, yaddan çıxmış səcdə və təşəhhüd, eləcə də yaddan çıxmış təşəhhüd üçün edilən səhv səcdəsi üzü qibləyə yerinə yetirilməlidir. Müstəhəbb ehtiyata əsasən, bu deyilən yerlərdən başqa da yerinə yetirilən səhv səcdəsi də üzü qibləyə olmalıdır.

**Məsələ:** ٧٨٧. Yerdə qərarlaşan halda müstəhəbb namazı üzü qibləyə qılmaq lazımdır. Amma yol gedərkən, ya minik halında nəzr etməklə vacib olsa da müstəhəbb namazı qılmaq üçün üzü qibləyə dayanmaq lazım (vacib) deyil.

**Məsələ:** ٧٨٨. Namaz qılmaq istəyən şəxs qiblənin hansı tərəfdə olduğuna əmin, ya xatircəm olana qədər çalışmalıdır, yaxud da iki adil şəxs, yaxud sözünün əksi güman olunmayan e`timadlı şəxs, qiblənin yerini xəbər verməlidir. Həmçinin, abadlığın müsəlmanlarının namazları və qəbirləri ilə qibləni tə'yin edib əməl edə bilər. Əgər bunlar olmasa, qibləni öyrənməyə çalışmalıdır və başqa yollarla əldə olunan gümana hətta kafirin, ya bir fasiqin elmi qaydalar əsasında qibləni tanıması vasitəsilə olsa da belə, əməl etməlidir.

**Məsələ:** ٧٨٩. Qiblənin hansı istiqamətdə olmasına gümanı olan şəxs daha güclü güman tapa bilərsə, öz (əvvəlki) gümanına əməl edə bilməz. Məsələn, qonağın ev sahibinin deməyi ilə qibləyə gümanı varsa və başqa yolla bundan da güclü güman əldə edə bilərsə, ev sahibinin sözünə əməl etməməlidir.

**Məsələ:** ٧٩٠. Əgər qibləni tapmaq üçün bir vasitə yoxdursa, ya çalışmağına baxmayaraq iki tərəfdən birinə güman etmirsə, bir səmtə tərəf namaz qılması kifayət edər. Müstəhəbb ehtiyat budur ki, vaxt genişliyi olduğu təqdirdə dörd səmtə dörd namaz qılsın.

**Məsələ:** ۷۹۱. Əgər qiblənin iki səmtdən birində olduğuna əmindirsə, ya əminlik hökmündə olan bir dəlili, yaxud gümanı varsa, hər iki tərəfə namaz qılınmalıdır.

**Məsələ:** ۷۹۲. Bir neçə tərəfə namaz qılmaq istəyən şəxs zöhr və əsr namazı kimi iki namaz qılmaq istəsə, birini o birisindən sonra qılmalıdır. Müstəhəbb ehtiyat budur ki, birinci namazı bir neçə səmtə qıldıqdan sonra ikinci namaza başlasın.

**Məsələ:** ۷۹۳. Qiblənin hansı tərəfdə olmasına yəqinliyi, ya yəqinlik hökmündə olan bir dələli olmayan bir şəxs namazdan başqa, üzü qibləyə görülməli olan bir iş görmək istəsə, məsələn, heyvanın başını kəsmək istəsə, bu iş qibləni tapa biləcəyi vaxta qədər tə'xirə sala bilərsə, vacib ehtiyata əsasən, tə'xirə salmalıdır. Əgər tə'xirə sala bilmirsə, ya bu iş ona çətindirsə, öz gümanına əməl edə bilər. Əgər güman mümkün olmasa, bu halda onu kəsməyin zərurəti varsa, məsələn, kəsməsə öləcəksə, hər hansı səmtə kəssə, səhihdir.

## NAMAZDA BƏDƏNİ ÖRTMƏK

**Məsələ:** ۷۹٤. Kişi namaz halında, heç kimin onu görməyəcəyi halda da belə, övrəteynini (eyibli yerlərini) örtməlidir. Müstəhəbb ehtiyat budur ki, göbəkdən dizə qədər də örtsün.

**Məsələ:** ۷۹٥. Qadın namaz halında bütün bədənini, hətta başını və saçını da örtməlidir. Müstəhəbb ehtiyat budur ki, ayağının altını da örtsün. Lakin üzünün dəstəmazda yuyulan hissəsini, əllərini biləyə qədər və ayaqlarının üstünü bükülən yerə qədər örtməsi lazım (vacib) deyildir. Ancaq vacib olan qədəri örtdüyünə xatircəm olması üçün, üzünün ətrafından bir qədəri, biləkdən və ayağının bükülən yerindən bir qədər aşağını da örtməlidir.

**Məsələ:** ۷۹٦. İnsan yaddan çıxmış səcdə və təşəhhüdün qəzası, eləcə də yaddan çıxmış təşəhhüdün qəzası üçün yerinə yetirilməli olan səhv səcdəsi üçün özünü namazdakı kimi örtməlidir. Müstəhəbb ehtiyat budur ki, deyilən yerlərdən başqaları üçün də səhv səcdəsi yerinə yetirəndə bədən örtülsün.

**Məsələ:** ۷۹۷. Əgər şəxs bilərəkdən, ya bilməməzlik ucbatından – məsələni öyrənməkdə süstlük etdiyi halda – övrətini örtməzsə, namazı batildir.

**Məsələ:** ۷۹۸. Əgər şəxs namaz əsnasında övrətinin açıq olduğunu anlasa, onu dərhal örtməlidir. Vacib ehtiyata əsasən, bu halda namazı tamamlayıb, yenidən qılmalıdır. Lakin əgər namazda övrətinin açıq olduğunu namazdan sonra başa düşsə, namazı düzdür. Həmçinin, namaz əsnasında əvvəlcə övrətin açıq olub hal-hazırda örtülü olduğunu anladıqda, namaz düzgündür.

**Məsələ:** ٧٩٩. Əgər paltar ayaq üstə dayanan halda övrəti örtürsə, lakin başqa hallarda məsələn, rükü, ya səcdə halında örtməməsi mümkündürsə, bu halda övrəti göründükdə, onu bir şeylə örtsə, namazı səhihdir. Lakin müstəhəbb ehtiyat budur ki, o paltarla namaz qılmasın.

**Məsələ:** ٨٠٠. İnsan namaz halında özünü ot-ələf və ağac yarpağı ilə örtə bilər. Lakin müstəhəbb ehtiyat budur ki, örtməyə başqa şey tapmadıqda bunlarla örtsün.

**Məsələ:** ٨٠١. Əgər öz övrətini örtmək üçün palçıqdan başqa bir şeyi olmasa, vacib ehtiyata əsasən, ixtiyari halda övrətini palçıqla örtüb namaz qılmaqla zərurət halında çılpaq halda namaz qılanın hər ikisinin vəzifəsinə əməl etməlidir.

**Məsələ:** ٨٠٢. Əgər namazda özünü örtməyə bir şeyi olmasa, namazın axır vaxtına qədər bir şey tapacağını ehtimal etsə, ehtiyat müstəhəbb budur ki, namazı tə'xirə salsın: əgər bir şey tapmasa axır vaxtda öz vəzifəsinə uyğun olaraq namaz qılsın. Həm də namazı vaxtın əvvəlində də qıla bilər: bu halda əgər vaxtın axırına kimi bir şey tapmasa, namazı səhihdir, yox əgər bir şey tapsa, namazı təzələməlidir.

**Məsələ:** ٨٠٣. Namaz qılmaq istəyən şəxsin övrətini örtmək üçün hətta palçıq və lehmə də olmasa, övrətini naziri-möhtərəm görməyəcəyi təqdirdə ayaq üstə namaz qılsın və vacib ehtiyata əsasən, əlini övrətinin üstünə qoymalı, səcdə və rükunu işarə ilə yerinə yetirməlidir. Vacib ehtiyata əsasən, gərək səcdələrin işarəsini daha artıq etsin. Naziri-möhtərəm onu görəcəyi halda isə oturan halda namaz qılmalı və rüku, səcdəni işarə ilə yerinə yetirməlidir. Vacib ehtiyata əsasən, (yenə də) səcdələrin işarəsini (rükudan) çox etməlidir.

## NAMAZ QILANIN PALTARININ ŞƏRTLƏRİ

**Məsələ:** ٨٠٤. Namaz qılanın libasının altı şərti vardır:

١. Pak olmalıdır;

٢. Mübah olmalıdır;

٣. Murdarın hissələrindən olmamalıdır;

٤. Əti haram olan heyvandan olmamalıdır;

٥ və ٦. Əgər namaz qılan kişidirsə, libası xalis ipək və qızıldan toxunmuş parçadan olmamalıdır.

***Birinci şərt***

**Məsələ:** ٨٠٥. Namaz qılanın paltarı pak olmalıdır. İxtiyari halda nəcis bədən, ya libasla namaz qılan şəxsin namazı batildir.

**Məsələ:** ٨٠٦. Əgər təqsir ucbatından nəcis bədən, ya libasda qılınan namazın batil olduğunu bilməyən şəxs, həmin paltarda qılsa, namazı batildir.

**Məsələ:** ۸۰۷. Əgər məsələni bilməməzlik ucbatından bir şeyin nəcis olduğunu bilməsə, məsələn, əhli kitab olmayan kafirin tərinin nəcis olmasını bilməsə və onunla namaz qılsa, bu halda müqəssir cahildirsə, (yə'ni məsələni öyrənə biləcəyi surətdə öyrənməyərək təqsirkardırsa) onun namazı batildir.

**Məsələ:** ۸۰۸. Əgər bir şəxs bədən, ya libasının nəcis olduğunu bilmədən namaz qılsa və namazdan sonra başa düşsə, namazı düzgündür. Müstəhəbb ehtiyata əsasən, vaxtı keçməmiş başa düşsə, namazı təzələsin.

**Məsələ:** ۸۰۹. Əgər bədən, ya libasının nəcis olduğunu yaddan çıxarsa və namaz əsnasında, ya ondan sonra yadına düşsə, namazı təzələməli, əgər vaxtı keçibsə qəzasını qılmalıdır.

**Məsələ:** ۸۱۰. Vaxtın geniş olduğu zaman namaza məşğul olan şəxsin bədəni, ya libası namaz əsnasında nəcis olsa və nəcasətli halda namazdan bir şeyi davam etdirmədən bunu başa düşsə, yaxud bədən və libasının nəcis olduğunu başa düşsə və həmin vaxt, yoxsa ondan əvvəl nəcis olmasında şəkk etsə, bu halda bədəni, ya libası suya çəkmək, ya libası dəyişmək, ya onu çıxarmaq kimi işlər namazı pozmazsa, namaz əsnasında libası suya çəkməli, ya dəyişməlidir. Yaxud da övrətini başqa bir şey örtübsə, libası çıxarmalıdır. Lakin libası, ya bədəni suya çəkmək, ya libası dəyişmək, ya çıxarmaq namazı pozacaq dərəcədə olsa, ya libası çıxardıqda övrəti açıq qalacaqsa, bu halda namazı batildir və namazı pak bədən və libasla yenidən qılmalıdır.

**Məsələ:** ۸۱۱. Vaxtın dar olduğu zaman namaza məşğul olan şəxsin libası namaz əsnasında nəcis olarsa və namazdan bir hissəni nəcasətli halda yerinə yetirməmiş onun nəcis olduğunu başa düşsə; yaxud libasının nəcis olduğunu anlasa və həmin vaxt, yoxsa əvvəldən nəcis olmağında şəkk etsə, bu halda namazı pozmadan onu suya çəkməyə, ya dəyişməyə, ya çıxarmağa qadir olduğu təqdirdə libası suya çəkməli ya dəyişməli, yaxud da övrətini başqa bir şey örtdüyü halda onu çıxarmalı və namazı tamamlamalıdır. Əgər övrətini başqa bir şey örtməsə və libasını da suya çəkə, ya dəyişə bilməsə, vacib ehtiyat budur ki, namazını həmin nəcis libasla tamamlasın.

**Məsələ:** ۸۱۲. Vaxtın darlığında namaza məşğul olan şəxsin bədəni namaz əsnasında nəcis olsa və namazdan bir qədəri nəcasətli halda yerinə yetirmədən nəcis olduğunu bilsəsə, yaxud bədəninin nəcis olduğunu başa düşsə, amma həmin vaxt, yaxud əvvəldən nəcis olduğunda şəkk etsə, bu halda bədəni suya çəkməklə namazı pozmayacaqsa bədəni suya çəkməli və əgər namazı pozulacaqsa, həmin halda namazı tamamlamalıdır və namazı da düzgündür.

**Məsələ:** ۸۱۳. Öz bədən, ya libasının pak olub-olmamasında şəkk edən, bədəndə, ya libasda keçmişdən nəcisin olmasına yəqinliyi, yaxud

yəqin hökmündə olan dəlili olmayan bir şəxs namazı qılıb qurtarandan sonra bədən, ya libasının nəcis olduğunu başa düşərsə, onun namazı səhihdir.

**Məsələ:** ٨١٤. Əgər libasını suya çəkərək onun paklığına yəqin, ya onun hökmündə olan dəlil (güman) hasil edərək bu halda namaz qılsa və namazdan sonra pak olmadığını başa düşsə, namazı səhihdir.

**Məsələ:** ٨١٥. Əgər bədənində, ya libasında bir qan görüb nəcis olan qanlardan olmadığına əmin olsa, məsələn, ağcaqanad qanı olduğunu yəqin etsə, bu halda namazdan sonra onun o qanlardan olduğunu başa düşsə ki, onunla namaz qılmaq olmaz, namazı səhihdir.

**Məsələ:** ٨١٦. Əgər bədənində, ya libasında olan qanın onunla birlikdə namaz qılınması səhih olan qanlardan olduğunu yəqin etsə, məsələn, yara, ya çiban qanı olduğunu yəqin etsə, bu halda namazdan sonra namazı batil edən qanlardan olduğunu anlasa, namazı səhihdir.

**Məsələ:** ٨١٧. Əgər bir şeyin nəcis olduğunu unudub paltarı, ya bədəni yaş halda həmin nəcisə dəysə və bunu unudan halda namaz qılıb, namazdan sonra yadına düşərsə, namazı səhihdir. Lakin əgər bədəni yaş halda nəcis olduğunu yaddan çıxardığı bir şeyə dəysə və özünü suya çəkməmiş qüsl edib namaz qılsa, qüslü və namazı batildir. Amma qüsl almaqla bədən də paklanan tərzdə, məsələn, mö'təsim-yə'ni axar, ya kürr suyu kimi nəcis sirayət etdikdə nəcis olmayan su ilə qüsl etsə (həm qüslü, həm də namazı səhihdir).

Həmçinin, əgər dəstəmaz üzvlərindən biri yaş halda nəcis olduğunu unutmuş bir şeyə dəysə və nəcis yeri suya çəkməmiş dəstəmaz alıb namaz qılsa, dəstəmazı və namazı batildir. Lakin dəstəmaz almaqla üzvlər də pak olacağı şəkildə, məsələn, mö'təsim su ilə dəstəmaz aldıqda, hər ikisi səhihdir.

**Məsələ:** ٨١٨. Bir ədəd libası olan şəxsin bədəni və libası nəcis olsa, onlardan yalnız birini suya çəkmək qədərində suya malikdirsə, ehtiyatən bədəni suya çəkib nəcis paltarla namaz qılmalıdır. Lakin bədənin nəcisi paltarın nəcisindən az olsa, yaxud bədənin nəcasətini bir dəfə, paltarı iki dəfə yumaq lazım olsa, bu surətdə paltarın paklanmasını qabağa salmalıdır.

**Məsələ:** ٨١٩. Nəcis paltardan başqa bir libası olmayan şəxs nəcis libasla namaz qılmalıdır və namazı da səhihdir.

**Məsələ:** ٨٢٠. İki libası olub, onlardan birinin nəcis olduğunu bilən, amma hansının nəcis olmasını bilməyən şəxs vaxt olduğu surətdə hər iki paltarla namaz qılmalıdır. Məsələn, əgər zöhr və əsr namazını qılmaq istəsə, hər bir paltar ilə bir zöhr və bir əsr namazı qılmalıdır. Lakin vaxt dar olduğu təqdirdə iki paltardan biri ilə namaz qılmalıdır və vaxt ötdükdən sonra o biri paltarla, yaxud pak bir libasla namazı qılmalıdır.

***İkinci şərt***

**Məsələ:** ٨٢١. Namaz qılanın övrətini örtəcək paltar mübah olmalıdır. Qəsbi paltar geyinməyin haram olduğunu bilən, yaxud qəsbi paltarın geyilməsinin haram olduğunu öyrənməkdə səhlənkarlıq edən şəxs bilərəkdən onunla övrətini örtüb namaz qılsa, namazı batildir. Lakin təklikdə övrəti örtə bilməyən şeylərin, həmçinin, namaz qılanın cibinə qoyduğu long (qədimdə kişilərin hamamda istifadə etdikləri və beldən dizə qədər örtən parça) və şal kimi hal-hazırda geymədiyi şeylərin təklikdə övrəti örtməsi mümkün olsa belə və həmçinin, namaz qılanın geymiş olduğu, amma onlarla övrətini örtmədiyi şeylər bütün bu hallarda onların qəsbi olması namazın batil olmasına səbəb olmaz, lakin ehtiyat onları tərk etməkdir – əgər namaz qılanın hərəkəti ilə hərəkət etməsə (onların qəsbi olması namazı batil etmir). Amma əgər namaz qılanın hərəkəti ilə hərəkət etsə onunla namaz məhəlli-işkaldır. Həmçinin namaz qılan şəxsin geydiyi, lakin onlarla övrəti örtmədiyi şeylər də həmin hökmdədir.

**Məsələ:** ٨٢٢. Qəsbi libas geyməyin haram olduğunu bilən, lakin onunla övrəti örtməyin namazı batil etdiyini bilməyən şəxs qəsdən övrətini onunla örtüb namaz qılarsa, namazı batildir.

**Məsələ:** ٨٢٣. Libasın qəsbi olduğunu bilməyib onunla övrətini örtərək namaz qılsa, namazı səhihdir. Həmçinin, bunu unutsa və özü qəsbkar olmasa da hökm belədir. Amma qəsbkar qəsb etdiyini yaddan çıxararsa və qəsbi libasla övrətini örtüb namaz qılarsa, qəsbkarlıqdan tövbə etmədiyi surətdə namazı batildir. Əgər tövbə etsə, namazın batil olması məhəlli-işkaldır.

**Məsələ:** ٨٢٤. Libasının qəsbi olduğunu bilməyən, yaxud unudan şəxs namaz əsnasında başa düşsə, bu halda övrətini başqa bir şey örtübsə dərhal və ya namazın fasiləsiz qılınmasını-ardıcıllığını pozmadan qəsbi libası çıxara bilərsə, onu çıxarmalıdır. Əgər övrətini örtən başqa bir şeyi yoxdursa, yaxud çıxartsa muvalat pozulacaqsa, ya da dərhal çıxara bilmirsə, bu halda bir rükət namaz qılmaq qədərində vaxtı varsa, namazı pozub qəsbi olmayan libasda namaz qılmalıdır. Əgər bu miqdar da vaxt olmasa, namaz halında libası çıxarıb ٨٠٣-cü məsələdə deyilmiş qayda ilə çılpaq halda namaz qılanın hökmünə uyğun olaraq namazını tamamlayacaq.

**Məsələ:** ٨٢٥. Əgər bir şəxs canını qorumaq üçün hətta övrətini örtən qədər olsa belə, qəsbi libasla namaz qılsa, yaxud məsələn, oğrunun qəsbi libası aparmaması üçün onunla namaz qılsa, namazı səhihdir.

**Məsələ:** ٨٢٦. Bir şəxs xümsü verilməmiş pulun eyni ilə libas alsa, onun hökmü qəsbi libasda namaz qılmağın hökmü kimidir.

***Üçüncü şərt***

**Məsələ:** ٨٢٧. Namaz qılanın paltarı sıçrayıcı qanı olan – (yə'ni damarını kəsərkən qanı təzyiqlə atan) ölü heyvanın hissələrindən olmamalıdır. Hətta əgər ilan və balıq kimi, sıçrayıcı qanı olmayan ölmüş heyvanın ölüsündən libas düzəldilərsə, vacib ehtiyata əsasən, onunla namaz qılınmamalıdır.

**Məsələ:** ٨٢٨. Əgər murdarın əti və dərisi kimi, ruhu olan hissələr namaz qılanın üstündə olsa, hətta əgər onun libası deyilsə də, ehtiyata əsasən, namazı batildir.

**Məsələ:** ٨٢٩. Əgər əti halal olan heyvanın murdarının tük və yunu kimi ruhu olmayan hissəsi namaz qılanın üstündə olsa, yaxud ondan düzəldilmiş libasla namaz qılsa, namazı düzdür.

***Dördüncü şərt***

**Məsələ:** ٨٣٠. Namaz qılanın libası əti haram olan heyvanın hissələrindən olmamalıdır. Əgər onun tükü belə, namaz qılanın bədəndə, ya libasda olmuş olsa, namazı batildir.

**Məsələ:** ٨٣١. Əgər pişik kimi əti haram olan heyvanın ağzının və ya burnunun suyu, yaxud başqa bir rütubəti namaz qılanın paltarında, ya bədənində olarsa, yaş olduğu halda namaz batildir. Amma qurumuş və eyni aradan getmiş olarsa, namaz düzdür.

**Məsələ:** ٨٣٢. Bir şəxsin tükü, təri, ağzının, ya burnunun suyu namaz qılanın bədənində, ya libasında olarsa, eybi yoxdur. Həmçinin, namaz qılan şəxsin üstündə mirvarid, mum və bal olduqda eyni hökmdədir.

**Məsələ:** ٨٣٣. Əgər bir şəxs paltarının əti halal, yoxsa haram olan heyvandan olmasında şəkk etsə, istər o paltar müsəlman ölkəsində, istərsə də qeyri-müsəlman ölkəsində hazırlanmış olsun, onunla namaz qılmaq caizdir.

**Məsələ:** ٨٣٤. Sədəf və ondan düzəldilmiş düymə kimi şeylərin namaz qılanın üstündə olduğu halda namaz qılması caizdir.

**Məsələ:** ٨٣٥. Namazda xalis xəz[1] geyinməyin eybi yoxdur. Vacib ehtiyat budur ki, sincab (dələ) dərisi ilə namaz qılınmasın.

**Məsələ:** ٨٣٦. Əgər şəxs paltarının əti haram olan heyvandan hazırlandığını bilməsə, yaxud unudub onunla namaz qılarsa, yenidən qılması lazım deyil. Amma müstəhəbb ehtiyat budur ki, namazı təzələsin. Həmçinin, şəxs hökmlə əlaqədar qasir cahil olduğuna (hökmü öyrənməyə imkanı olmadığına) görə bilməsə, də belədir.

---

[1] Suda yaşayan xəz dərili bir heyvanın adıdır.

***Beşinci şərt***

**Məsələ:** ٨٣٧. Kişinin qızıldan toxunmuş paltar geyməsi haram və onunla namaz qılmaq da batildir. Lakin qadın üçün həm namazda, həm də namazdan qeyri hallarda eybi yoxdur.

**Məsələ:** ٨٣٨. Kişi üçün qızıl taxmaq; məsələn, boynuna qızıl sep (zəncir) asmaq, qızıldan olan saat, eynək, üzük və bu kimi şeylər taxmaq haram, onunla qılınan namaz da batildir. Lakin bu bəzək əşyalarının namaz və başqa hallarda qadın üçün eybi yoxdur.

**Məsələ:** ٨٣٩. Əgər kişi, barmağındakı üzüyün, ya əynindəki paltarın qızıldan olduğunu bilməsə, ya unutsa, yaxud qızıldan olub-olmamasında şəkk etsə qalsa və namaz qılsa, namazı düzgündür.

***Altıncı şərt***

**Məsələ:** ٨٤٠. Namaz qılan kişinin paltarı xalis ipəkdən olmamalıdır. Həmçinin, vacib ehtiyata əsasən, araqçın və şalvarının kəməri (bağı, qayış) də ipəkdən olmamalıdır. Namazdan qeyri vaxtlarda da xalis ipəkdən olan paltar geyinmək kişiyə haramdır.

**Məsələ:** ٨٤١. Əgər paltarın astarının hamısı, ya bir qədəri xalis ipəkdən olsa, kişinin onu geyinməsi haram və onunla qıldığı namaz da batildir.

**Məsələ:** ٨٤٢. Xalis ipəkdən, yoxsa başqa bir şeydən olduğunu bilmədiyi paltarı geyinmək caiz və onunla namaz qılmağın da eybi yoxdur.

**Məsələ:** ٨٤٣. İpəkdən olan dəsmal və bu kimi şeylərin kişinin cibində olmasının eybi yoxdur və namazı da batil etməz.

**Məsələ:** ٨٤٤. Qadın üçün namazda və başqa hallarda ipək paltar geyinməyin eybi yoxdur.

**Məsələ:** ٨٤٥. Əlacsız (çıxılmaz) halda qəsbi, xalis ipək və ya qızıldan toxunmuş paltar geyinməyin eybi yoxdur. Həmçinin, paltar geyməyə məcbur olan və namazın axır vaxtına qədər bunlardan başqa paltarı olmayan şəxs, bu paltarla namaz qıla bilər.

**Məsələ:** ٨٤٦. Bir kəsin namaz vaxtının axırına qədər qəsbi və murdarın hissələrindən hazırlanmış paltardan başqa paltarı yoxdursa və libas geyinməyə məcbur deyilsə, üryan namaz qılanların ٨٠٣-cü məsələdə deyilmiş qaydasına əməl etməlidir.

**Məsələ:** ٨٤٧. Əgər şəxs namaz vaxtının axırına kimi paltar geyinməyə məcburdursa və əti haram olan heyvanın hisələrindən hazırlanmış paltardan başqa paltarı yoxdursa, bu halda paltar geyməyə məcburdursa həmin paltarla namaz qıla bilər. Əgər paltar geyməyə məcbur deyilsə, üryan halda namaz qılanın qaydalarına əməl edəcək.

**Məsələ:** ٨٤٨. Əgər kişi namaz vaxtının axırına kimi paltar geyinməyə məcbur deyilsə və xalis ipək, ya qızıldan toxunmuş

paltardan savayı paltarı da yoxdursa, üryan halda namaz qılanın deyilmiş qaydalarına əməl edəcək.

**Məsələ:** ٨٤٩. Əgər namazda övrətini örtmək üçün bir şeyi yoxdursa, onu kirayəyə götürmək, ya pulla almaqla da olsa, hazırlaması vacibdir. Lakin paltar almaq onun var-dövləti ilə müqayisədə daha çox pul tələb edirsə, ya pulu paltara xərcləmək onun halına zərər yetirəcəksə, onu hazırlamaq vacib deyil: ya üryan namaz qılanın qaydalarına əməl etsin, yaxud zərərə qatlaşsın və örtüklə namaz qılsın.

**Məsələ:** ٨٥٠. Başqa birisi libası olmayan şəxsə libas bağışlasa, ya ariyə[١] versə, bu halda onu qəbul etməyin çətinliyi olmasa, qəbul etməlidir. Hətta ariyə libas götürmək, ya kiminsə ona libas bağışlamasını dilə gətirmək onun üçün çətin deyilsə, libası olan şəxsdən onu (əvəzsiz) istəməli, ya ariyə etməlidir.

**Məsələ:** ٨٥١. Libasın parçası, rəngi, yaxud tikilişi onu geyinmək istəyən şəxs üçün adət deyilsə, onu geyindiyi təqdirdə hörmətsizliyinə, yaxud şan-şöhrətinə, yaxud barmaqla göstərilməsinə səbəb olacaqsa, onu geyinməsi haramdır. Əgər onu namazda övrəti örtmə vasitəsi kimi istifadə etsə, onun qəsb edilmiş libas hökmü daşıması uzaq deyil (ki, ٨٢١-ci məsələdə keçdi).

**Məsələ:** ٨٥٢. Əgər kişi qadın libası, qadın kişi libası geyinsə, onu adətən geyim qərar verdiyi təqdirdə ehtiyata əsasən, haramdır. Namazda övrəti onunla örtmək ehtiyata əsasən, namazın batil olmasına səbəbdir.

**Məsələ:** ٨٥٣. Uzanan halda namaz qılmalı olan şəxsin yorğanı əti haram olan heyvanın hissələrindən olsa, o yorğanda namaz qılması caiz deyil. Həmçinin, əgər döşəyi də əti haram olan heyvanın hissələrindən olsa və onun bir qədərini özünə büksə, eyni hökmü daşıyır. Əgər nəcis olsa, yaxud ipək və ya qızıldan toxunmuş olsa, namaz qılan şəxs də kişi olsa, vacib ehtiyata əsasən, onda namaz qılmasın.

### *Namaz qılanın bədən, ya paltarının pak olması lazım olmayan yerlər*

**Məsələ:** ٨٥٤. Təfsilatı ilə deyiləcək üç halda namaz qılanın bədən, ya paltarı nəcis olsa, namazı düzgündür:

١. Bədəndə olan yara, kəsik, ya çibanın qanı ilə bədən, ya libası qana bulaşdıqda;

٢. Bədən, yaxud libas dirhəm ölçüsündən az miqdarda qana bulaşdıqda; Dirhəm ölçüsü – ondan az miqdarda qanın güzəştə gedilməsi cəhətindən – təqribən şəhadət barmağın bəndi boydadır.

٣. Nəcisli bədən, ya libasla namaz qılmağa məcbur olduqda.

---

[١] Pulsuz istifadə məqsədi ilə bir şeyi müvəqqəti almaq, bax: Məs. ٢٣٧٩

Həmçinin, bir surətdə əgər namaz qılanın libası nəcis olsa, namazı düzgündür. O, surət budur ki, həmin nəcisli libas corab, araqçın kimi kiçik libaslardan olsun.

**Məsələ:** ٨٥٥. Əgər namaz qılanın bədənində, ya libasında yara, kəsik, yaxud çiban qanı olsa və bədən, ya libası suya çəkmək, ya libası dəyişmək əksər insanlar üçün çətin sayılarsa, həmin yara, kəsik, ya çiban sağalana qədər o qanla namaz qıla bilər. Həmçinin, qanla birgə çıxan çirk, ya yaranın üstünə qoyulmuş dərman nəcis olduğu halda şəxsin bədəni, ya libasında olsa, hökm eynidir.

**Məsələ:** ٨٥٦. Əgər namaz qılanın bədənində, ya libasında yuyulması asan olan kəsik yerin qanı, ya tez sağalan yaranın qanı olsa, dirhəmdən az olmasa və onunla namaz qılsa, namazı batildir.

**Məsələ:** ٨٥٧. Əgər bədənin, ya libasın yaraya yaxın olmayan bir yeri yaranın nəmliyi ilə nəcis olsa, onunla namaz qılmaq caiz deyildir. Lakin bədən, ya libasın adətən yaranın nəmliyi ilə bulaşdığı qədər də, onun nəmliyi ilə nəcis olsa, onunla namaz qılmağın maneəsi yoxdur.

**Məsələ:** ٨٥٨. Əgər gözü bayırda olmayan babasil yarasından, yaxud ağız, burun və bu kimi yerlərin içərisində olan yaradan bədən, ya libasa qan dəymiş olsa, zahir (nəzər) budur ki, onunla namaz qıla bilər. Amma gözü bayırda olan babasilin qanı ilə namaz qılmaq eybsiz olaraq caizdir.

**Məsələ:** ٨٥٩. Bədəni yara olan şəxs əgər bədənində dirhəm ölçüsü, ya ondan artıq qan görüb yara qanı, yoxsa başqa bir qan olmasını bilməsə, onunla namaz qılması caiz deyildir.

**Məsələ:** ٨٦٠. Əgər bədəndə bir neçə yara olub və bir yara hesab olunacaq dərəcədə bir-birinə yaxın olsalar, bu yaralar sağalana qədər onun qanı ilə namaz qılmağın eybi yoxdur. Lakin əgər hər biri ayrılıqda bir yara hesab olunacaq dərəcədə bir-birindən uzaqda olsa, hər biri sağaldıqda, namaz üçün bədən və libas onun qanından – dirhəmdən az olmazsa, suya çəkməklə təmizlənməlidir.

**Məsələ:** ٨٦١. Əgər itin, donuzun, kitab əhli olmayan kafirin, murdarın, əti haram olan heyvanın qanı və heyz qanından iynə ucu qədər namaz qılanın bədənində, ya libasında olsa, namazı batildir. Vacib ehtiyata əsasən, nifas və istihazə qanı da eynilə belədir. Lakin nəcisul-eyn olmayan insanın bədəninin qanı, ya əti halal olan heyvanın qanı kimi digər qanlar üst-üstə dirhəmdən az olduğu halda bədən, ya libasın bir neçə yerində olarsa, onunla namaz qılmağın eybi yoxdur.

**Məsələ:** ٨٦٢. Astarı olmayan paltarın bir üzündən tökülüb o biri üzünə keçən qan bir qan hesab olunur. Lakin onun o biri üzü də ayrılıqda qanlı olsa, hər biri ayrıca hesab olunmalıdır. Deməli, paltarın həm üzündə, həm də arxasında olan qan üst-üstə dirhəmdən az olsa, onunla

namaz düzgündür. Əgər dirhəm qədər, ya ondan çox olarsa, onunla namaz batildir.

**Məsələ:** ٨٦٣. Əgər qan astarı olan libasa dəyib onun astarına da keçmiş olsa, yaxud astarına qan dəyib üzünə keçsə, hər biri ayrıca hesablanmalıdır. Əgər üzündəki və astardakı qan dirhəmdən az olarsa, onunla namaz düzgündür, dirhəm qədər, yaxud dirhəmdən çox olduqda isə namaz batildir.

**Məsələ:** ٨٦٤. Əgər bədən, ya libasdakı qan dirhəmdən az olsa və ona bir yaşlıq dəyib ətrafını bulasa, ətrafa dəymiş qan və yaşlıq birlikdə dirhəmdən az olsa da belə, onunla namaz batildir. Lakin yaşlıq yalnız qana dəymiş olsa və onun ətrafını bulamasa, onunla namaz qılmağın eybi yoxdur.

**Məsələ:** ٨٦٥. Əgər bədən, ya libas qanla deyil, qana dəymiş yaşlığın vasitəsilə nəcis olsa və nəcis olan yer dirhəm ölçüsündən az olmuş olsa belə, onunla namaz qılmaq olmaz.

**Məsələ:** ٨٦٦. Əgər bədəndə, ya libasda olan qan dirhəmdən az olsa və başqa bir nəcis də ona əlavə olsa, məsələn, bir damcı bövl o qanın üzərinə düşsə, bu halda bədən, ya libasa keçmiş olsa, onunla namaz qılınması caiz deyildir.

**Məsələ:** ٨٦٧. Araqçın və corab kimi, övrəti örtmə vasitəsi ola bilməyən xırda libaslar nəcis olsa, bu halda libasda murdar, nəcisin eyni, ya əti haram olan heyvan kimi, maneə ola biləcək şeylərdən hazırlanmış olsa – onunla namaz səhihdir. Həmçinin, nəcis üzüklə namaz qılmağın eybi yoxdur.

**Məsələ:** ٨٦٨. Namaz qılanın üstündə nəcis olmuş dəsmal, açar, bıçaq və bu kimi əşyaların olması caizdir.

**Məsələ:** ٨٦٩. Əgər bədəndə, ya libasda olan qanın dirhəmdən az olduğunu bilsə, lakin onun namazda icazə verilməyən qanlardan olduğunu ehtimal edərsə, şəxsin onunla namaz qılması caizdir və onu yumaq da lazım (vacib) deyil.

**Məsələ:** ٨٧٠. Əgər bədəndə, ya libasda olan qan dirhəmdən az olsa və namazda icazə verilməyən qanlardan olmasını bilmədən namaz qılsa və sonra onlardan olduğunu bilsə, namazı təzələməsi lazım (vacib) deyil. Həmçinin, dirhəmdən az olması əqidəsi ilə namaz qılsa və sonra dirhəm qədər, ya dirhəmdən çox olması mə'lum olsa, bu surətdə də namazı təzələmək lazım deyildir.

## NAMAZ QILANIN LİBASINDA MÜSTƏHƏB OLANLAR

**Məsələ:** ٨٧١. Namaz qılanın libasında bir neçə şey müstəhəbbdir. O cümlədən: təhtül-hənəkli əmmamə qoymaq, əba və ağ paltar geymək, paltarların ən pak-pakizəsini geymək, xoş ətir vurmaq və əqiq üzük taxmaq müstəhəbbdir.

## NAMAZ QILANIN LİBASINDA MƏKRUH OLANLAR

**Məsələ:** ٨٧٢. Namaz qılanın libasında bir neçə şey məkruhdur. O cümlədən qara, çirkli, dar paltar geymək, şərab içən və nəcislərdən çəkinməyən şəxsin paltarını geyinmək, libasın düymələrini açıq saxlamaq. Vacib ehtiyata əsasən, üzərində şəkil olan libas və üzüklə namaz qılınmasın.

## NAMAZ QILANIN MƏKANI

Namaz qılanın məkanında yeddi şərt vardır:

***Birinci şərt: Mübah olmalıdır.***

**Məsələ:** ٨٧٣. Qəsbi məkanda namaz qılan şəxsin namazı xalça, ədyal və bu kimi şeylərin üzərində olsa da belə, səcdə etdiyi yer qəsbi olduğu surətdə batildir. Vacib ehtiyata əsasən, taxt və bu kimi şeylər də qəsbi olsa, eyni hökmü daşıyır. Lakin qəsbi tavanın və qəsbi çadırın altında namaz qılmağın maneəsi yoxdur.

**Məsələ:** ٨٧٤. Mənfəəti başqasının olan bir mülkdə, mənfəət sahibinin icazəsi olmadan namaz qılmaq batildir. Məsələn, icarə olunan evdə ev sahibi, ya başqası evi kirayə edənin razılığı olmadan namaz qılsa, namazı batildir. Həmçinin, əgər meyyit, öz sağlığında malının üçdə birinin müəyyən bir yerə xərcləməsini vəsiyyət etsə, malının üçdə biri ayrılmayıncaya qədər onun mülkündə namaz qılmaq olmaz. Amma başqasının da haqqı olan bir yerdə namaz qılmaq haqq sahibinin haqqına mane olarsa, məsələn, bir şəxsin ətrafına daş düzdüyü yerdə, onun razılığı olmadan namaz qılınsa, batildir. Bu surətdən başqasında, məsələn, bir şəxsin girova götürdüyü mülkdə, girova götürən şəxs razı olmasa da, girova qoyanın razılığı ilə namaz qılmağın eybi yoxdur.

**Məsələ:** ٨٧٥. Bir kəs məsciddə oturan başqa bir şəxsin yerini qəsb etsə və orada namaz qılsa, namazı batildir.

**Məsələ:** ٨٧٦. Namaz qıldığı bir yerin qəsbi olduğunu bilməyən şəxs namazdan sonra səcdə etdiyi yerin qəsbi olduğunu anlasa, namazı batildir. Amma qəsbi olduğunu unudub orada namaz qılsa və namazdan sonra yadına düşsə, namazı səhihdir. Lakin əgər bir şəxs özü qəsb etdiyini unudub həmin yerdə namaz qılsa, qəsbkarlıqdan tövbə etməmiş olduğu təqdirdə namazı batildir, amma tövbə etmiş olduğu halda namazının batil olması məhəlli-işkaldır.

**Məsələ:** ٨٧٧. Səcdə yerləri qəsbi olan və qəsbi olduğunu bildiyi bir yerdə namaz qılanın namazı batildir, hətta namazın batil olmasını bilməsə, də.

**Məsələ:** ٨٧٨. Vacib namazını minik üstə qılmaq məcburiyyətində qalan şəxsin mindiyi heyvan, ya onun yəhəri qəsbi olsa və o heyvanın, yaxud yəhərinin üstünə səcdə etmiş olsa, namazı batildir. Eləcə də

həmin heyvanın üstündə müstəhəbb namaz qılmaq istəsə də, eyni hökmdədir. Lakin o miniyin nalı qəsbi olarsa, namazın batil olması məhəlli-işkaldır.

**Məsələ:** ٨٧٩. Bir mülkdə başqa birisi ilə şərik olan şəxs ortağının hissəsi ayrılmayınca, şərikinin icazəsi olmadan həmin mülkdən istifadə edə və orada namaz qıla bilməz.

**Məsələ:** ٨٨٠. Əgər bir şəxs xümsü verilməmiş pulun eyni ilə mülk alsa, onun həmin mülkdən istifadəsi haram və orada qıldığı namaz də batildir.

**Məsələ:** ٨٨١. Əgər mülk sahibi namaz qılmaq üçün icazə versə və şəxs qəlbən razı olmadığını bilib orada namaz qılsa, namazı batildir. Əgər icazə verməsə, lakin şəxs onun razı olduğuna əmin olsa, namazı düzgündür.

**Məsələ:** ٨٨٢. Xüms, ya zəkata borclu olan meyyitin mülkündən istifadə etmək – tərəkəsi xüms və zəkatdan artıq olmadığı surətdə haram və o mülkdə namaz batildir. Lakin onun borcunu ödəsələr, ya şəriət hakimin qəbul etməsi ilə ödəməyə zamin olsalar, vərəsəsinin icazəsilə onun mülkündə namaz qılmaq və istifadə etməyin eybi yoxdur.

**Məsələ:** ٨٨٣. Camaata borclu olan meyyitin mülkündən istifadə etmək – onun mülkünün dəyəri borcundan artıq olmadığı surətdə, borc sahibinin razılığı olmadan haramdır və orada namaz batildir. Lakin onun borcunu qaytarmağa zamin olsalar, borc sahibi də bunu qəbul etsə, meyyitin vərəsələrinin icazəsi ilə o mülkdə namaz düzgün və ondan istifadə etmək caizdir.

**Məsələ:** ٨٨٤. Əgər meyyitin borcu olmasa, lakin onun vərəsələrinin bə'zisi uşaq, yaxud dəli, ya hal-hazırda orada olmasalar, onların vəlilərinin (qəyyumlarının) icazəsi olmadan o mülkdən istifadə etmək haram və orada namaz qılmaq da batildir.

**Məsələ:** ٨٨٥. Başqasının mülkündə namaz qılmaq, mülk sahibinin razılığına əminlik, ya şər'i dəlil olduğu surətdə caizdir. Həmçinin, mülk sahibi mülkdən istifadəyə elə tərzdə icazə verərsə ki, onun icazəsindən adətən, namaz qılmağa da icazə verməsi anlaşılsa, hökm eynidir. Məsələn, bir şəxsə öz mülkündə oturmağa və yatmağa icazə versə, bundan namaz qılmağa da icazə verdiyi mə'lum olur.

**Məsələ:** ٨٨٦. Ərazisi həddən çox geniş olan yerlərdə, ٢٧٧-ci məsələdə deyildiyi kimi, namaz qılmaq üçün mülk sahibinin icazəsi lazım (vacib) deyil.

***İkinci şərt***

**Məsələ:** ٨٨٧. Vacib namazlarda namaz qılanın yeri elə hərəkətli olmamalıdır ki, ixtiyari halda qılınan namazın vaciblərini yerinə yetirmək və bədənin müvazinətini saxlamağa mane olsun. Əgər vaxtın

darlığı, ya başqa bir cəhətdən, məsələn, maşın, gəmi, qatar və s. hərəkət edən yerlərdə namaz qılmaq məcburiyyətində qalsa, mümkün qədər bədənin aramlığına (müvazinətinə) və qibləyə riayət etməlidir. Əgər həmin nəqliyyat vasitələri qiblədən başqa bir istiqamətə hərəkət etsələr, üzünü qibləyə yönəltməlidir.

**Məsələ:** ٨٨٨. Dayanmış halda olan maşın, gəmi, qatar və s. yerlərdə namaz qılmağın maneəsi yoxdur.

**Məsələ:** ٨٨٩. Üzərində bədənin hərəkətsiz dayanması mümkün olmayan buğda, arpa xırmanları və bu kimi yerlərdə namaz batildir.

***Üçüncü şərt***

**Məsələ:** ٨٩٠. Namazı bitirməyə ehimal verdiyi yerdə namaz qılmalıdır. Külək, yağış, camaatın izdihamı və s. maneələrin namazı bitirməyə imkan verməyəcəyinə əmin olduğu yerlərdə namaz qılmaq, təsadüfən namazı orada tamamlaya bilsə də, batildir.

**Məsələ:** ٨٩١. Əgər bir şəxs qalmağı haram olan yerdə, məsələn, uçma ərəfəsində olan bir tavanın altında namaz qılsa, günah etmiş olsa da, namazı səhihdir.

**Məsələ:** ٨٩٢. Üzərində oturub-durmaq hörmətsizliyinə səbəb olan və ona hörmətsizliyin haram olduğu şeylərin üzərində, məsələn, xalçanın Allahın adı yazılmış hissəsinin üzərində namaz qılmaq caiz deyil və ehtiyata əsasən, batildir.

***Dördüncü şərt***

Namaz qılanın başı üstündəki tavan düz dura bilməyəcəyi qədər alçaq olmamalıdır. Həmçinin, rüku və səcdələri yerinə yetirməyə mane olacaq qədər də kiçik olmamalıdır.

**Məsələ:** ٨٩٣. Əgər əlacsızlıqdan, ayaq üstə dayanmaq ümumiyyətlə mümkün olmayan bir yerdə namaz qılmağa məcbur olsa, oturan halda namaz qılmalıdır və bu halda əgər rüku, səcdə üçün imkan olmasa, başı ilə onlara işarə etməlidir.

**Məsələ:** ٨٩٤. Peyğəmbər (səlləllahu əleyhi və alih) və mə'sum imamların (əleyhimussalam) qəbirləri önündə namaz qılmaq (arxası qəbrə tərəf durmaqla namaz qılmaq) onlara hörmətsizlik gətirdiyi surətdə haram və batildir. Bundan başqa hallarda da vacib ehtiyat (haram və batil olmasıdır). Lakin namaz qılarkən qəbirlə namaz qılanın arasında divar və onun kimi bir şey olsa, eybi yoxdur. Zərih, qəbirin üzərinə salınmış parça və qəbirüstü daş deyilən şərafətli sandığın fasilə yaratması kifayət etməz.

***Beşinci şərt***

**Məsələ:** ٨٩٥. Əgər namaz qılanın yeri nəcisdirsə, o qədər yaş olmamalıdır ki, namazı batil edən nəcasət onun bədən və paltarına

yetişsin. Lakin səcdə üçün alnını qoyduğu yer pak olmalıdır. Əgər nəcis olsa, quru olsa da belə, namaz batildir. Müstəhəbb ehtiyat budur ki, namaz qılanın məkanı ümumiyyətlə nəcis olmasın.

***Altıncı şərt***

Namaz halında kişi ilə qadın arasında ən azı bir qarış həddində fasilə olmalıdır. Lakin Məkkə şəhərindən qeyri yerlərdə (kişi ilə qadının arasında) on ziradan az fasilədə namaz qılmaq məkruhdur.

**Məsələ:** ٨٩٦. Əgər qadın kişi ilə yan-yanaşı, yaxud öncə qeyd olunan fasilədən (bir qarışdan) az miqdarda irəlidə dursa və eyni zamanda namaza başlasalar, gərək namazlarını yenidən qılsınlar. Həmçinin ehtiyat vacibə görə biri digərindən tez namaza başlasa da hökm eynidir.

**Məsələ:** ٨٩٧. Əgər bir cərgədə namaz qılsalar, yaxud qadın qabaqda dayanıb namaz qıldığı vaxt kişi ilə qadının arasında bir-birini görmələrinə mane olacaq şey, məsələn, divar, pərdə olarsa, hətta aralarındakı fasilə bir qarış olmasa da belə, hər ikisinin namazı düzdür.

***Yeddinci şərt***

Namaz qılanın alnını qoyduğu yer ayaq barmaqlarını qoyduğu yerdən və ehtiyat vacibə görə, dizlərini qoyduğu yerdən dörd bağlı barmaq qədərindən alçaq, ya hündür olmamalıdır. Bu məsələ səcdə məsələlərində təfsilatı ilə deyiləcək.

**Məsələ:** ٨٩٨. Naməhrəm kişi və qadının bir kəsin olmadığı və bir kəsin də daxil ola bilmədiyi bir yerdə olmaları, günaha düçar olacağına ehtimal verilən təqdirdə caiz deyil. Müstəhəbb ehtiyat budur ki, o yerdə namaz qılmasınlar.

**Məsələ:** ٨٩٩. Tar çalınan və bu kimi musiqi alətləri istifədə edilən yerdə namaz qılmaq batil deyildir, lakin onlara qulaq asmaq haramdır. Həmçinin, orada olmaq da eyni hökmü daşıyır, yalnız orada olması bu əməlin qarşısının alınmasına səbəb olan şəxsin orada olması halı istisnadır.

**Məsələ:** ٩٠٠. İxtiyari halda vacib namazı Kə'bə evinin damında qılmaq caiz deyil. Həmçinin, müstəhəbb ehtiyat budur ki, Evin daxilində də qılınmasın. Lakin çarəsizlik (zərurət) halında olsa, eybi yoxdur.

**Məsələ:** ٩٠١. Kəbə evində müstəhəbb namaz qılmağın eybi yoxdur. Üstəlik Kə'bə evinin daxilində olan hər rüknün müqabilində iki rükət namaz qılmaq müstəhəbbdir.

## NAMAZ QILMAĞIN MÜSTƏHƏBB OLDUĞU YERLƏR

**Məsələ:** ٩٠٢. Müqəddəs İslam şəriətində namazı məsciddə qılmağa çox tövsiyə olunub. Bütün məscidlərdən daha üstünü Məscidül-

Həram, ondan sonra Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidi, ondan sonra "Kufə" məscidi, ondan sonra Beytül-Müqəddəs (Məscidul-Əqsa), ondan sonra hər şəhərin came məscidi, ondan sonra məhəllə məscidi və daha sonra bazar məscididir.

**Məsələ:** ٩٠٣. Qadınlar üçün evdə, hətta evin içindəki otuqcıqda və arxa otaqda namaz qılmaq daha yaxşıdır.

**Məsələ:** ٩٠٤. İmamların (əleyhimussalam) hərəmlərində namaz qılmaq müstəhəbbdir. Hətta bə'zi rəvayətlərə əsasən həzrət Əmirəl-mu'minin Əlinin (əleyhissalam) və Seyyiduş-şühədanın (əleyhissalam) pak hərəmlərində namaz qılmaq məsciddə namaz qılmaqdan fəzilətlidir.

**Məsələ:** ٩٠٥. Məscidə çox getmək, eləcə də namaz qılanı olmayan məscidə getmək müstəhəbbdir. Məscidin qonşusunun heç bir üzrü olmadan məsciddən başqa bir yerdə namaz qılması məkruhdur.

**Məsələ:** ٩٠٦. Məscidə getməyən şəxslə çörək yeməmək, işlərində onunla məşvərət etməmək, onunla qonşu olmamaq, qız alıb-verməmək müstəhəbbdir.

## NAMAZ QILMAĞI MƏKRUH OLAN YERLƏR

**Məsələ:** ٩٠٧. Bir neçə yerdə namaz qılmaq məkruhdur.

O cümlədən:

١. Hamamda;

٢. Şoran yerdə;

٣. İnsan müqabilində;

٤. Açıq olan qapı qarşısında;

٥. Yollarda, xiyabanlarda və küçələrdə, bu şərtlə ki, oradan keçənlərə əziyyət olmasın; əgər əziyyət olsa, bu iş özü (əziyyət vermək) haramdır;

٦. Od və çıraq qarşısında;

٧. Aşpazxanada və od kürəsi olan hər yerdə;

٨. Bövl yeri olan quyu və çala qarşısında;

٩. Ruhu olan şeyin şəkli və heykəli qarşısında; lakin üstünə pərdə çəkilərsə, eybi yoxdur;

١٠. Cünub şəxs olan otaqda;

١١. Canlı bir şeyin şəkli olan yerdə, namaz qılanla üzbəüz olmasa da;

١٢. Qəbrin qarşısında;

١٣. Qəbrin üstündə.

١٤. İki qəbrin arasında;

١٥. Qəbristanda.

**Məsələ:** ٩٠٨. Camaatın gediş-gəliş etdiyi yerdə namaz qılan və ya qarşısında bir kəs olduğu halda namaz qılan şəxsin öz qarşısına bir şey

qoyması müstəhəbbdir. Bunun üçün bir çubuq və ya bir ip də olsa kifayətdir.

## MƏSCİDİN HÖKMLƏRİ

**Məsələ:** ٩٠٩. Məscidin döşəmə, tavan, dam və divarının içəri tərəfini nəcis etmək haramdır. Onun nəcis olduğunu bilən hər bir şəxs dərhal onu pak etməlidir. Vacib ehtiyat budur ki, məscidin divarının çöl tərəfini də nəcis etməsinlər və əgər nəcis olmuşdursa, onu təmizləmək lazımdır.

**Məsələ:** ٩١٠. Əgər bir şəxs məscidi pak edə bilmirsə, ya köməkçi lazım olduğu halda onu tapa bilmirsə, məscidi pak etmək ona vacib olmaz. Lakin onu təmizləyə biləcək və məscidi paklayacağına ehtimal verdiyi bir şəxsə xəbər verməlidir.

**Məsələ:** ٩١١. Əgər məscidin bir yeri nəcis olsa və onu qazmadan və ya uçurmadan paklamaq mümkün deyilsə, o yeri qazmaq, ya sökmək lazımdır. Bu, o surətdədir ki, tamamilə sökülmədən və vəqfə zərər dəymədən olsun. Qazılmış yeri doldurmaq, ya sökülmüş yeri düzəltmək vacib deyil. Lakin məscidin kərpici və bu kimi şeylər nəcis olsa, mümkün olan surətdə onu suya çəkdikdən sonra əvvəlki yerinə qoymaq lazımdır.

**Məsələ:** ٩١٢. Əgər məscidi qəsb edib yerində ev və bu kimi şeylər tiksələr, ehtiyata əsasən, onu nəcis etmək haramdır və pak edilməsi vacib deyildir. Lakin uçmuş məscidi nəcis etmək, orada namaz qılınmasa da belə, caiz deyildir və onu paklamaq lazımdır.

**Məsələ:** ٩١٣. İmamların (əleyhimussalam) hərəmlərini nəcis etmək haramdır. Əgər nəcis olsa və nəcisli qalması onlara hörmətsizliyə səbəb olarsa, onu təmizləmək vacibdir. Hətta hörmətsizliyə səbəb olmasa da, müstəhəbb ehtiyat budur ki, paklansın.

**Məsələ:** ٩١٤. Məscidin həsirini nəcis etmək haramdır. Onu nəcis edən kəs, ehtiyata əsasən, onu pak etməlidir. Başqalarına isə, onu pak etmək onun nəcasəti məscidə hörmətsizlik sayılmayan surətdə müstəhəbb ehtiyatdır. Əgər hörmətsizlik gətirərsə, pak etmək lazımdır.

**Məsələ:** ٩١٥. Nəcisin eynini və nəcisə bulaşmış bir şeyi məscidə aparmaq ehtiramsızlıq olarsa, haramdır. Üstəlik məscidə ehtiramsızlıq olmasa da, nəcisin eynini məscidə aparılmaması müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٩١٦. Rovzə oxunması üçün məsciddə çadır qurulsa, palaz-xalça döşənilsə, qara çəkilsə, çay ləvazimatı aparılsa və bu cür işlər əgər məscidə zərər yetirməsə və namaz qılmağa mane olmasa, eybi yoxdur.

**Məsələ:** ٩١٧. Vacib ehtiyata əsasən, məscidə qızıldan zinət vermək, insan və heyvan kimi ruhu olan şeylərin timsal (şəkli) ilə

bəzəmək caiz deyildir. Gül və buta kimi ruhu olmayan naxışların vurulması isə məkruhdur.

**Məsələ:** ٩١٨. Əgər məscid uçub-dağılsa belə, onu sata, yaxud mülkə daxil edə və yola qata bilməzlər.

**Məsələ:** ٩١٩. Məscidin qapı-pəncərə və başqa şeylərini satmaq haramdır. Əgər məscid xarab olarsa, deyilən şeylər həmin məscidin tə'mirinə sərf olunmalıdır. Əgər o məscidin istifadəsinə yaramazsa, başqa bir məscidə sərf olunmalıdır. Buna da yaramazsa, şəri qəyyumunun icazəsilə satılmalı və pulu həmin məscidin tə'miri mümkündürsə, ona sərf olunmalıdır, əgər mümkün deyilsə, başqa məscidin tə'miri üçün istifadə olunmalıdır. Bu da mümkün olmasa, sair xeyir işlərə sərf olunmalıdır.

**Məsələ:** ٩٢٠. Məscidi tikmək və tə'mir etmək müstəhəbbdir. Əgər bir məscid, tə'miri mümkün olmayacaq dərəcədə xarab olsa, onu söküb yenidən tikmək olar. Hətta xarab olmamış məscidi, camaatın namaza olan ehtiyaclarını nəzərə alaraq söküb, ondan da geniş tikmək olar.

**Məsələ:** ٩٢١. Məscidi (süpürüb) təmizləmək, işıqlarını yandırmaq müstəhəbbdir. Məscidə getmək istəyən şəxsin ətir vurması müstəhəbbdir. Eləcə də təmiz və qiymətli paltarını geyinməsi, məscid nəcis olmasın deyə, ayaqqabılarının altını yoxlaması, məscidə sağ ayaqla daxil olması, çıxarkən əvvəlcə sol ayağını atması müstəhəbdir, həmçinin, hamıdan tez məscidə gəlmək, hamıdan gec məsciddən çıxmaq müstəhəbbdir.

**Məsələ:** ٩٢٢. Müstəhəbbdir ki, insan məscidə daxil olduqda hörmət və təhiyyət (məscidi canlı saxlamaq) qəsdilə iki rükət namaz qılsın. Əgər vacib, ya başqa bir müstəhəbb namaz qılsa da kifayət edər.

**Məsələ:** ٩٢٣. Çarəsiz olmasa, şəxsin məsciddə yatması, dünya işlərinə dair söhbət etməsi, bir şey düzəltməklə məşğul olması, nəsihət və bu kimi məqsədi olmayan şe'rlər oxuması məkruhdur. Həmçinin, ağız, burun suyu və sinədən gələn bəlğəmi məscidə atmaq, itmiş bir şeyi soraqlaşmaq, uca səslə danışmaq məkruhdur. Lakin azanı uca səslə deməyin maneəsi yoxdur, hətta bu iş müstəhəbbdir.

**Məsələ:** ٩٢٤. Dəlini və uşağı məscidə buraxmaq məkruhdur. Qoxusu camaatı narahat edən soğan, sarımsaq və bu kimi şeyləri yeyib məscidə getmək də məkruhdur.

## AZAN VƏ İQAMƏ

**Məsələ:** ٩٢٥. Gündəlik vacib namazlardan qabaq kişi və qadına azan demək müstəhəbbdir. Digər vacib və müstəhəbb namazlar üçün azan demək şəriət qanunu deyil. Lakin fitr və qurban bayramının namazı camaatla qılındığı surətdə üç dəfə «əs-səlah» deyilməsi müstəhəbbdir.

Bu ikisindən başqa, camaatla qılınan ayət namazı kimi, (əssəlatı) rəca qəsdilə demək olar.

**Məsələ:** ٩٢٦. Təzə doğulan körpənin sağ qulağına azan, sol qulağına iqamə deyilməsi müstəhəbbdir. Daha yaxşı olar ki, dünyaya gəldiyi birinci gün deyilsin.

**Məsələ:** ٩٢٧. Azan on səkkiz cümlədir:

| | |
|---|---|
| اَللَّهُ اَكْبَرُ | «Allahu Əkbər»-٤ dəfə |
| اَشْهَدُ اَنْ لا اِلهَ اِلاَّ اللَّهُ | «Əşhədu ənla ilahə illəllah»-٢ dəfə |
| اَشْهَدُ اَنَّ مُحَمَّداً رَسُولُ اللَّهِ | «Əşhədu ənnə Muhəmmədən Rəsulullah»-٢ dəfə |
| حَيَّ عَلَى الصَّلاةِ | «Həyyə ələs-səlah»-٢ dəfə |
| حَيَّ عَلَى الْفَلاحِ | «Həyyə ələl-fəlah»-٢ dəfə |
| حَيَّ عَلَى خَيْرِ العَمَلِ | «Həyyə əla xəyril-əməl»-٢ dəfə |
| اَللَّهُ اَكْبَرُ ، | «Allahu Əkbər»-٢ dəfə |
| لا اِلهَ اِلاَّ اللَّهُ | «La ilahə illəllah» -٢ dəfə |

İqamə on yeddi cümlədir. Yə'ni azanın əvvəlindən iki dəfə «Allahu Əkbər», axırından isə bir «La ilahə illəllah» cümləsi azaldılır. «Həyyə əla xəyril-əməl» dedikdən sonra iki dəfə «Qəd qamətis-səlah» cümləsi əlavə edilir.

**Məsələ:** ٩٢٨. اَشْهَدُ اَنَّ عَلِيًّا وَلِيُّ اللَّهِ «Əşhədu ənnə Əliyyən vəliyyullah» azan və iqamənin tərkib hissəsi deyildir. Amma o həzrətin vilayəti dinin təkmilləşdiricisi olduğu üçün, hər bir halda «Əşhədu ənnə Muhəmmədən Rəsulullah» cümləsindən sonra deyilməsi insanı Allah dərgahına yaxınlaşdıran ən fəzilətli əməllərdəndir.

## AZAN VƏ İQAMƏNİN TƏRCÜMƏSİ

«Allahu Əkbər» – yə'ni Allah vəsf olunduğundan daha böyükdür.

«Əşhədu ənla ilahə illəllah» – Şəhadət verirəm ki, tək və bərabəri olmayan Allahdan başqa ibadətə layiq olacaq heç bir mə'bud yoxdur.

«Əşhədu ənnə Muhəmmədən Rəsulullah» – Şəhadət verirəm ki, həzrət Muhəmməd ibni Əbdillah (səlləllahu əleyhi və alih) Allahın peyğəmbəri və elçisidir.

«Həyyə ələs-səlah» – Namaza tələsin!

«Həyyə ələl-fəlah» – Nicata, qurtuluşa tələsin!

«Həyyə əla xəyril-əməl» – Əməllərin ən yaxşısına (namaza) tələsin!

«Qəd qamətis-səlah» – Həqiqətən namaz bərpa olundu.

«La ilahə illəllah» – Allahdan başqa, ibadətə layiq olacaq heç bir mə'bud yoxdur.

**Məsələ:** ٩٢٩. Azan və iqamənin cümlələri arasında çox fasilə olmamalıdır. Əgər fasilə adi miqdardan çox olarsa, onu yenidən başlamaq lazımdır.

**Məsələ:** ٩٣٠. Azan və iqaməni deyərkən səsi boğaza salmaq əgər ğinaya çevrilərsə, yə'ni azan və iqamə kef və əyləncə məclislərindəki mahnı oxuyanlar kimi oxunarsa, haram, əgər ğina olmasa, məkruhdur.

**Məsələ:** ٩٣١. İki namazda azan şər'i qanun deyil:

١. Ərəfatda Ərəfə gününün (zilhiccə ayının doqquzu) əsr namazında.

٢. Məş'ərul-həramda olan şəxsin qurban bayramı axşamı (sabahı qurban bayramı olan gecənin) işa namazında. Bu iki namazda azan o zaman şər'i olmur ki, ondan əvvəlki namazla onun arasında, ya fasilə salınmasın, ya da «iki namazı bir yerdə qıldı» deyiləcək qədər az fasilə salınmış olsun.

**Məsələ:** ٩٣٢. Əgər bir camaat namazı üçün azan və iqamə demiş olsalar, həmin camaatla namaz qılan şəxs öz namazı üçün azan və iqamə deməməlidir.

**Məsələ:** ٩٣٣. Əgər bir şəxs camaat namazı qılmaq üçün məscidə gəlsə və camaat namazının qurtardığını görsə, bu halda camaatın sıraları pozulmayıbsa və camaat dağılmayıbsa, sonrakı məsələdə deyiləcək şərtlər daxilində öz namazı üçün azan və iqamə deyə bilməz.

**Məsələ:** ٩٣٤. Bir yerdə bir dəstə adam camaat namazına məşğuldursa, yaxud onların namazı yenicə başa çatıb və sıralar dağılmayıbsa və şəxs namazını fərdi və ya başqa camaat namazı ilə qılmaq istəyirsə, altı şərtlə azan və iqamə ondan saqit olur: (Və bu saqit olma əzimət şəklindədir, yə'ni o şəxs azan və iqamə deməməlidir.)

١. Əgər camaat namazı məsciddədirsə; Əgər məsciddə deyilsə, deməli, azan və iqamə saqit deyildir.

٢. O (əvvəlki) namaz üçün azan və iqamə oxunmuşsa;

٣. Camaat namazı batil olmamışsa;

٤. Şəxsin namazı ilə camaat namazı bir yerdə olarsa;

Deməli, əgər camaat namazı məscidin daxilində olsa və şəxs məscidin damında namaz qılmaq istəsə, azan və iqamə ondan saqit deyildir.

٥. Şəxsin namazı ilə camaat namazının hər ikisi əda olarsa;

٦. Onun namazının vaxtı ilə camaat namazının vaxtı müştərək olarsa, məsələn, hər ikisi zöhrü, ya da hər ikisi əsr namazını qıldıqda, yaxud da camaat namazı zöhr, şəxsin namazı isə əsr, yaxud şəxs zöhr namazını, camaat isə əsr namazını qılırsa.

**Məsələ:** ٩٣٥. Əgər şəxs əvvəlki məsələdə deyilmiş şərtlərdən üçüncüsündə şəkk etsə, yə'ni camaat namazının səhih olub-olmadığında şəkk etsə, azan və iqamə ondan saqitdir. Lakin əgər sıraların pozulması,

yaxud başqa şərtlərin mövcud olub-olmamasında şəkk edərsə, bu halda əvvəlki hal (vəziyyət) mə'lum olarsa, ona uyğun olaraq əməl edəcək. Məsələn, qaranlıq nəticəsində sıraları görməyərək onun pozulub-pozulmamasında şəkk edərsə, sıranın qalmasını əsas tutacaq-azan və iqamə deməyəcək. Əgər o camaat namazı üçün azan, iqamə deyilib-deyilmədiyində şəkk etsə, deyilmədiyini əsas tutub azan və iqaməni istehbab (müstəhəbb olma) ünvanı ilə deyəcək. Əvvəlki hal (vəziyyət) mə'lum olmayan surətdə isə azan və iqaməni rəca qəsdi ilə deyəcək.

**Məsələ:** ٩٣٦. Başqasının dediyi azanı eşidən şəxs üçün müstəhəbbdir ki, ondan eşitdiyi hər hissəni təkrar etsin. Amma iqaməni eşitdikdə isə «həyyə ələs-səlah»-dan «qəd qamətis-səlah» cümləsinə qədər rəca qəsdilə təkrar etsin. Qalanını isə zikr qəsdilə deməsi müstəhəbbdir.

**Məsələ:** ٩٣٧. Başqasının dediyi azan və iqaməni eşidən şəxs onunla birgə deyib-deməməsindən asılı olmayaraq, o azan və iqamə ilə qılacağı namaz arasında çox fasilə olmazsa, öz namazı üçün azan və iqamə deməyə bilər.

**Məsələ:** ٩٣٨. Əgər kişi qadının dediyi azanı eşidərsə, ləzzət qəsdilə olub-olmamasından asılı olmayaraq, azan ondan saqit olmur.

**Məsələ:** ٩٣٩. Camaat namazının azan və iqaməsini kişi deməlidir. Lakin qadınların camaat namazında əgər qadın azan və iqamə desə, kifayətdir.

**Məsələ:** ٩٤٠. İqamə azandan sonra deyilməlidir. Əgər azandan öncə deyilərsə, səhih deyildir. Həmçinin, iqamənin ayaq üstə deyilməsi və şəxsin təharətli olması (qüsl, dəstəmaz, ya da təyəmmümlə-vəzifəsinə uyğun olaraq) şərtdir.

**Məsələ:** ٩٤١. Əgər azan və iqamənin cümlələrini ardıcıl (tərtiblə) deməsə, məsələn, «həyyə ələl-fəlah» cümləsini «həyyə ələs-səlah»-dan əvvəl desə, tərtibi pozduğu yerdən başlayaraq yenidən deməlidir.

**Məsələ:** ٩٤٢. Azan və iqamə arasında fasilə olmamalıdır. Əgər azanla iqamə arasında, o iqamənin azanı hesab olunmayacaq dərəcədə fasilə olarsa, yenidən azan və iqamə deyilməsi müstəhəbbdir. Həmçinin, azan-iqamə ilə namazın arasındakı fasilə, o namazın azan və iqaməsi hesab olunmayacaq qədər olsa, yenidən azan-iqamə deyilməsi müstəhəbbdir.

**Məsələ:** ٩٤٣. Azan və iqamə ərəbcə düzgün deyilməlidir. Deməli, əgər ərəbcə yanlış oxunsa, yaxud bir hərfin əvəzinə başqa hərf deyilsə, yaxud məsələn, onların başqa dildəki tərcüməsi deyilsə, düzgün deyildir.

**Məsələ:** ٩٤٤. Azan və iqamə namazın vaxtı daxil olduqdan sonra deyilməlidir. Əgər bilərəkdən, ya unudaraq vaxtından əvvəl deyilmiş olsa, batildir.

**Məsələ:** ٩٤٥. Əgər iqamə deməzdən əvvəl azanı deyib-demədiyində şəkk etsə, azanı deməlidir. Lakin iqamə deməyə məşğuldursa və bu halda azan deyib-demədiyində şəkk etsə, azan deməsi lazım deyil.

**Məsələ:** ٩٤٦. Əgər azan, ya iqamə əsnasında onun hər hansı bir hissəsini deməmişdən əvvəl, ondan qabaqkı hissəni deyib-deməməsində şəkk etsə, şəkk etdiyi hissəni deməlidir. Lakin azan və iqamənin bir hissəsini deyən halda ondan əvvəlki hissəni deyib-deməməsində şəkk etsə, o hissəni deməsi lazım deyildir.

**Məsələ:** ٩٤٧. Azan deyərkən şəxsin üzü qibləyə dayanması müstəhəbdir (bu müstəhəb azanın şəhadətlərində tə'kidlidir). Eləcə də müstəhəbdir dəstəmazlı və qüsllü olsun, iki barmağını iki qulağına qoysun, səsini ucaltsın və uzatsın, azanın cümlələri arasında azacıq fasilə versin və cümlələrin arasında danışmasın.

**Məsələ:** ٩٤٨. İqamə deyərkən şəxsin bədəninin aram olması, onu azandan bir az ahəstə deməsi və cümlələrini bir-birinə yapışdırmaması müstəhəbbdir. Lakin azanın cümlələri arasında fasilə qədər iqamənin cümlələri arasında fasilə verməsin.

**Məsələ:** ٩٤٩. Azan və iqamə arasında oturmaqla, ya iki rükət namaz qılmaqla, ya danışmaqla, ya zikr etməklə fasilə salmaq müstəhəbbdir. Lakin sübh namazının azan və iqaməsi arasında fasilə salmaq məkruhdur.

**Məsələ:** ٩٥٠. Vaxtın daxil olmasını e`lan etmək üçün verilən azanı oxumağa tə'yin edilən şəxsin adil, vaxtı bilən, uca səsli olması və azanı uca bir yerdə deməsi müstəhəbbdir.

## NAMAZIN VACİBATI

Namazın vacib hissələri on birdir:

١. Niyyət;

٢. Qiyam, yə'ni ayaq üstə durmaq;

٣. Təkbirətul-ehram, yə'ni namazın əvvəlində «Allahu Əkbər» demək;

٤. Rüku;

٥. Səcdələr;

٦. Qiraət;

٧. Zikr;

٨. Təşəhhüd;

٩. Salam;

١٠. Tərtib;

١١. Muvalat, yə'ni namazın hissələrinin ardıcıl, fasiləsiz olmasını qorumaq.

**Məsələ:** ٩٥١. Namazın vacib hissələrinin bə'zisi rükndür, yə'ni istər qəsdən, istər də səhvən onun yerinə yetirilməməsi namazı batil edər. Namazın vacibatının bə'zisi isə rükn deyildir, yə'ni səhvən yerinə yetirilməzsə namazı batil etməz.

Namazın beş rüknü vardır:

١. Niyyət;

٢. Təkbirətul-ehram;

٣. Rükuya bitişik qiyam, yə'ni rükudan əvvəl ayaq üstə durmaq;

٤. Rüku;

٥. Bir rükətdə iki səcdə.

Rüknün artırılmasına gəldikdə isə, qəsdən artırılarsa namaz mütləq şəkildə batil olar. Cahil qasirin təkbirətul-ehramı qəsdən artırması ilə namazının batil olması məhəlli-işkaldır. Əgər səhvən olarsa, bu halda artıqlıq rüku və bir rükətin iki səcdəsi olarsa, namaz batildir, əks halda isə batil deyildir.

***Niyyət***

**Məsələ:** ٩٥٢. Şəxs namazı (dəstəmaz məsələlərində deyildiyi kimi) qürbət qəsdilə, yə'ni Allahın əmrini yerinə yetirmək qəsdilə və ixlasla qılmalıdır. Bu zaman niyyəti qəlbindən keçirməsi, ya dilə gətirməsi, məsələn, «Allahın əmrini yerinə yetirmək üçün dörd rükət zöhr namazı qılıram» deməsi lazım (vacib) deyildir; hətta ehtiyat namazında dildə deməsi caiz deyildir.

**Məsələ:** ٩٥٣. Əgər zöhr, ya əsr namazını qılarkən «dörd rükət namaz qılıram» -deyə niyyət etsə, amma namazın zöhr, yoxsa əsr olduğunu nə icmalən, nə də təfsilən müəyyən etməsə, şəxsin namazı batildir. İcmali niyyətdən məqsəd budur ki, məsələn, zöhr namazı barədə niyyət edə ki, mənə əvvəl vacib olanı yerinə yetirirəm. Həmçinin, məsələn, bir şəxsə zöhr namazının qəzası vacibdirsə, zöhr namazı vaxtında o qəza namazını, ya zöhr namazını qılmaq istəyirsə, qılmaq istədiyi namazı,- hətta icmali şəkildə olsa belə-niyyət etməlidir, məsələn, zöhr namazının qəzasına nisbətdə niyyət etsin ki, qılınması mənə əvvəldə vacib olanı yerinə yetirirəm.

**Məsələ:** ٩٥٤. Şəxs namazın əvvəlindən axırına qədər öz niyyətində qalmalıdır. Deməli, əgər namaz əsnasında ondan «nə edirsən?» -deyə soruşduqda, nə cavab verəcəyini bilməyəcəyi qədər qafil olsa, namazı batildir.

**Məsələ:** ٩٥٥. Şəxs ancaq Allahın əmrini yerinə yetirmək üçün namaz qılmalıdır. Deməli, riya edən, yə'ni özünü camaata göstərmək üçün namaz qılan şəxsin namazı batildir. İstər təkcə camaatı nəzərində tutub namaz qılsın, istərsə də həm Allah və camaatı-hər ikisini nəzərdə tutmuş olsun.

**Məsələ:** ٩٥٦. Əgər namazın bir hissəsini də Allahdan başqası üçün qılarsa, şəxsin namazı batildir. Hətta əgər şəxs namazı Allah üçün qılsa, lakin özünü camaata göstərmək üçün məscid kimi məxsus bir yerdə, yaxud məxsus bir vaxtda, məsələn, namazın əvvəl vaxtında, yaxud da camaat namazı kimi məxsus tərzdə yerinə yetirsə, namazı batildir. Vacib ehtiyata əsasən, yerinə yetirilməsi namaz daxilində olan qunut kimi müstəhəbb hissələri də Allahdan başqası üçün yerinə yetirsə, namazı batil edər.

***Təkbirətul-ehram***

**Məsələ:** ٩٥٧. Hər bir namazın əvvəlində «Allahu Əkbər» demək vacib və rükndür. «Allahu Əkbər» sözlərinin hərfləri, eləcə də «Allahu» və «Əkbər» sözləri bir-birinin ardınca deyilməlidir. Həmçinin, bu iki kəlmə ərəbcə düzgün deyilməlidir. Əgər ərəbcə səhv deyilsə, yaxud onun tərcüməsi deyilsə, batildir.

**Məsələ:** ٩٥٨. Vacib ehtiyat budur ki, namazın təkbirətul-ehramı ondan əvvəldəki şeylərə, məsələn, iqaməyə, yaxud ondan əvvəl oxunan duaya birləşdirilməsin.

**Məsələ:** ٩٥٩. Müstəhəbb ehtiyat budur ki, «Allahu Əkbər» kəlməsi ondan sonra oxunanlara, məsələn, «Bismillahir-Rəhmanir-Rəhim» kəlməsinə birləşdirilməsin. Əgər bir şəxs birləşdirmək istəsə, gərək «Əkbər» kəlməsinin «r» hərfini zəmməli oxusun (əkbəru kimi desin).

**Məsələ:** ٩٦٠. Təkbirətul-ehram deyərkən bədən hərəkətsiz, aram olmalıdır. Əgər təkbirətul-ehramı qəsdən bədən hərəkətdə olan zaman deyilsə, batildir.

**Məsələ:** ٩٦١. Şəxs təkbiri, Həmdi, suräni, zikri və duanı elə oxumalıdır ki, özü eşitsin. Əgər qulağın ağır eşitməsi, ya kar olması, yaxud səs-küyün çoxluğundan öz səsini eşitmirsə, elə tərzdə deməlidir ki, belə bir maneə olmasaydı eşidilə bilərdi.

**Məsələ:** ٩٦٢. Lal olan, yaxud dilində xəstəlik olduğu üçün «Allahu Əkbər» kəlməsini düzgün deyə bilməyən şəxs bacardığı şəkildə deməlidir. Əgər heç cür deyə bilmirsə, qəlbindən keçirməli və təkbir üçün dilini hərəkət etdirməli və barmaqla da ona işarə etməlidir.

**Məsələ:** ٩٦٣. Təkbirətul-ehramdan əvvəl bu kəlmələri demək müstəhəbbdir.

**يَا مُحْسِنُ قَدْ اَتَاكَ الْمُسِيئُ وَقَدْ اَمَرْتَ الْمُحْسِنَ اَنْ يَتَجَاوَزَ عَنِ الْمُسِيئِ، اَنْتَ الْمُحْسِنُ وَ اَنَا الْمُسِيئُ فَبِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ تَجَاوَزْ عَنْ قَبِيحِ مَا تَعْلَمُ مِنِّي**

***«Ya muhsinu qəd ətakəl-musiu və qəd əmərtəl-muhsinə ən yətəcavəzə ənil-musii, əntəl-muhsinu və ənəl-musiu fəbihəqqi Muhəmmədin və ali-Muhəmməd səlli əla Muhəmmədin və ali-Muhəmməd, və təcavəz ən qəbihi ma tə'ləmu minni».***

Tərcüməsi: Ey bəndələrinə yaxşılıq, ehsan edən Allah! Günahkar bəndən Sənin dərgahına gəlib, Sən də əmr etmisən ki, yaxşı iş görən, günah edəni bağışlasın. Sən ehsançı, xeyirxahsan, mən isə günahkaram. Muhəmməd və ali-Muhəmməd xatirinə Öz rəhmətini Muhəmməd və ali-Muhəmmədə göndər və mənim barəmdə bildiyin, məndən baş verən pislikləri bağışla!

**Məsələ:** ٩٦٤. Namazın əvvəlində və namaz əsnasında deyilən təkbirlərdə əlləri qulaq bərabərinə qədər qaldırmaq müstəhəbbdir.

**Məsələ:** ٩٦٥. Əgər bir şəxs təkbirətul-ehramı deyib-deməməsində şəkk etsə, qiraətdən bir şey oxumağa məşğuldursa, öz şəkkinə etina etməməlidir. Yox əgər bir şey oxumağa başlamayıbsa, təkbiri deməlidir.

**Məsələ:** ٩٦٦. Əgər təkbirətul-ehramı deyəndən sonra onu düz deyib-deməməsində şəkk etsə, öz şəkkinə e'tina etməsin: istər qiraətdən bir şey oxumağa məşğul olub, istərsə də olmayıb. Müstəhəbb ehtiyat budur ki, namazı tamamlasın və sonra onu yenidən qılsın.

***Qiyam (ayaq üstə durmaq)***

**Məsələ:** ٩٦٧. Təkbirətul-ehram deyilən andakı qiyam və "rükuya bitişik qiyam" adlanan rükudan əvvəlki qiyam rükndür. Lakin bu iki qiyamdan başqaları, məsələn Həmd və surə oxunan andakı qiyam və rükudan sonrakı qiyam kimi qiyamlar rükn deyildir. (Yə'ni) əgər bir şəxs onu unutmaq üzündən tərk etsə, namazı səhihdir.

**Məsələ:** ٩٦٨. Təkbirətul-ehram deməzdən əvvəl və sonra onu ayaq üstə dediyinə əmin olmaq üçün şəxsin bir qədər dayanması vacibdir.

**Məsələ:** ٩٦٩. Əgər bir şəxs rükuya getməyi unudub, Həmd və surə oxuyandan sonra otursa və sonra rüku etmədiyi yadına düşərsə, qalxıb rükuya getməsi lazımdır. Əgər tam ayağa qalxmayıb elə əyilən halda rükuya getsə, «rükuya bitişik qiyamı» yerinə yetirmədiyi üçün, namazı batildir.

**Məsələ:** ٩٧٠. Təkbirətul-ehram, ya qiraət üçün ayaq üstə dayanarkən bədən hərəkətsiz olmalı, hər hansı bir tərəfə əyilməməlidir. Vacib ehtiyata əsasən, ixtiyari halda bir yerə söykənməməlidir. Lakin əlacsızlıq üzündən olsa, yaxud rükuya gedən halda ayaqlara hərəkət etsə, eybi yoxdur.

**Məsələ:** ٩٧١. Əgər şəxs təkbirətul-ehram, ya qiraət üçün vacib olan qiyam halında unudaraq bədənini hərəkət etdirsə, ya bir tərəfə əyilsə, yaxud bir yerə söykənsə, eybi yoxdur.

**Məsələ:** ٩٧٢. Vacib ehtiyata əsasən, ayaq üstə durarkən hər iki ayaq yerdə olmalıdır. Lakin bədənin ağırlığının hər iki ayağın üzərinə salması lazım (vacib) deyildir. Əgər ağırlıq bir ayağın da üzərinə düşsə, eybi yoxdur.

**Məsələ:** ٩٧٣. Ayaq üstə düz dayana bilən şəxs ayaqlarını, ona "dayanmaq" deyilməyəcək dərəcədə aralı qoyarsa, namazı batildir. Həmçinin, vacib ehtiyata əsasən, adi dayanmaq surətində olmasa da eyni hökmü daşıyır.

**Məsələ:** ٩٧٤. İnsan namazda vacib zikrlərdən bir şeyi deyərkən bədənini hərəkətsiz saxlamalıdır. Əgər azacıq qabağa, ya arxa tərəfə və sağa, ya sola hərəkət etmək istəsə, heç bir şey oxumadan hərəkət etməlidir.

**Məsələ:** ٩٧٥. Əgər bədəni hərəkətdə olarkən müstəhəb zikrləri desə, zikrin və namazın hər ikisi düzdür. Lakin namazın müstəhəb zikrlərini "namazda varid olub" niyyəti ilə desə (bu zikrləri deyən zaman) ehtiyata əsasən, bədən hərəkətsiz olmalıdır, hərçənd bədən aram olmasa da namaz səhihdir. Lakin

بِحَوْلِ اللَّهِ وَ قُوَّتِهِ اَقُومُ وَ اَقْعُدُ

***«Bihəvlillahi və qüvvətihi əqumu və əq'ud»*** zikrini ayağa qalxarkən deməlidir.

**Məsələ:** ٩٧٦. Vacib zikrlər və Həmd-surə oxuyarkən əli və barmaqları tərpətməyin eybi yoxdur. Amma müstəhəbb ehtiyat budur ki, hətta onları da hərəkət etdirməsin.

**Məsələ:** ٩٧٧. Əgər şəxs Həmd-surəni, ya təsbihati-ərbəəni oxuyarkən bədənin sakit, aram dayanmayacağı şəkildə ixtiyarsız olaraq hərəkət edərsə, müstəhəbb ehtiyata əsasən, bədən aram olduqdan sonra bədənin hərəkət halında oxuduqlarını yenidən oxusun.

**Məsələ:** ٩٧٨. Bir şəxs namaz əsnasında ayaq üstə dayanmadan aciz olsa və onun üzrü vaxtın axırına qədər davam etməsə, namazı qüdrəti olduğu halda ayaq üstə qılmalıdır. Acizliyi vaxtın axırına qədər davam edəcəyi təqdirdə isə namazın qalanını oturan halda qılmalıdır. Həmçinin, əgər oturmaqdan da aciz olsa, uzanmış halda qılmalıdır. Lakin bədəni hərəkətsiz olmayınca Həmd-surə və vacib zikrləri deməməlidir. Bu və sonrakı məsələdəki müstəhəbb zikrlərin hökmü ٩٧٥-ci məsələdə deyildi.

**Məsələ:** ٩٧٩. İnsan ayaq üstə namaz qılmağa qadir olan vaxta qədər oturan halda namaz qılmamalıdır. Məsələn, ayaq üstə durarkən bədəni hərəkət edən, ya bir şeyə söykənmək və ya bədənini sağa-sola əymək, ya bir az əyilmək, yaxud da ayaqlarını adi qədərdən çox aralı qoymaq məcburiyyətində qalan şəxs deyilən bu üç surətin üçünə də "ayaq üstə dayanmaq" deyilərsə, hər nə cür bacarırsa, ayaq üstə dayanıb

namaz qılmalıdır. Lakin bu deyilən surətlərin heç birində ayaq üstə dura bilmirsə, düz oturaraq (sağa, sola əyilmədən oturan halda) namaz qılmalıdır.

**Məsələ:** ٩٨٠. İnsan otura bildiyi vaxta qədər uzanaraq namaz qılmamalıdır. Əgər düz (sağa, sola əyilmədən) otura bilmirsə, necə bacarırsa, elə də oturmalıdır. Əgər heç cür otura bilmirsə, qiblənin hökmündə deyilən kimi sağ böyrü üstə uzanmalı, bunu da edə bilmirsə, sol böyrü üstə uzanmalı və əgər bu da mümkün deyilsə, arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf düşsün (və bu halda namaz qılsın).

**Məsələ:** ٩٨١. Oturan vəziyyətdə namaz qılan şəxs, əgər Həmd və surəni, ya təsbihati-ərbəəni oxuduqdan sonra ayaq üstə dura bilsə və rükunu ayaq üstə yerinə yetirə bilsə, ayağa qalxmalı və ayaq üstə olarkən rükuya enməlidir. Yox əgər bacarmasa rükunu oturan halda icra etməlidir.

**Məsələ:** ٩٨٢. Uzanan halda namaz qılan şəxs əgər namaz əsnasında otura bilərsə, bacardığı miqdarı oturan halda qılmalıdır. Həmçinin, əgər (namaz əsnasında) ayağa qalxa bilsə, bacardığı qədəri ayaq üstə qılmalıdır. Lakin bədəni aram (hərəkətsiz) olmayınca qiraət və vacib zikrləri deməməlidir.

**Məsələ:** ٩٨٣. Oturan halda namaz qılan şəxs namaz əsnasında ayağa qalxa bilərsə, bacardığı miqdarı ayaq üstə qılmalıdır. Lakin bədəni hərəkətsiz olmayınca, qiraət və vacib zikrləri deməməlidir.

**Məsələ:** ٩٨٤. Ayaq üstə dura bilən şəxs, ayağa qalxmaqla xəstələnəcəyindən və ya ona bir zərər dəyəcəyindən qorxsa, oturan halda namaz qıla bilər. Əgər oturmaqdan da qorxsa, uzanan halda namaz qıla bilər.

**Məsələ:** ٩٨٥. Namaz vaxtının axırına kimi qalxıb ayaq üstə namaz qıla biləcəyini ehtimal edən şəxs yaxşı olar ki, onu (o vaxta qədər) tə'xirə salsın. Əgər qalxa bilməsə, vaxtın axırında vəzifəsinə uyğun namaz qılacaq. Həmçinin, namazın əvvəl vaxtında böyrü üstə, ya uzanan halda namaz qıla bilən bir şəxs də, yaxşı olar ki, namazı tə'xirə salsın və vaxtın axırında vəzifəsinə uyğun əməl etsin. Amma vaxtın əvvəlində namaz qılsa və vaxtın axırında qalxmaq, ya oturub namaz qılmağa qüdrət tapsa, namazı yenidən qüdrət tapdığı halda – oturaq, ya ayaq üstə qılmalıdır.

**Məsələ:** ٩٨٦. İnsanın ayaq üstə (qiyamda) durduğu zaman boynunu və fəqərə sütununu düz saxlaması, çiyinlərini aşağı salması, əllərini budlarının üzərinə qoyması, barmaqlarını bir-birilə birləşdirməsi, səcdə yerinə baxması, bədənin ağırlığını bərabər şəkildə hər iki ayağı üstünə salması, xüzu və xuşu içərisində olması, ayaqlarını biri-digərindən önə və arxaya qoymaması, əgər kişidirsə ayaqlarını üç

barmaqdan bir qarışa qədər aralı qoyması və əgər qadındırsa ayaqlarını bir-birinə bitişdirməsi müstəhəbbdir.

***Qiraət***

**Məsələ:** ٩٨٧. Gündəlik vacib namazların birinci və ikinci rükətində şəxs əvvəlcə Həmd surəsini, sonra isə tam bir surəni oxumalıdır. Namazda «Əz-züha» ilə «Ələm nəşrəh», həmçinin, «Fil» ilə «Li ilaf» surələri bir surə hesab olunub.

**Məsələ:** ٩٨٨. Əgər namazın vaxtı dar olarsa, yaxud şəxs surəni oxumamağa məcbur olsa, məsələn surəni oxuduğu təqdirdə oğru, yırtıcı heyvan və ya başqa bir şeydən ona zərər yetişərsə, bu surətdə surəni oxumamalıdır. Xəstə və bir işə tə`cili ehtiyacı olan şəxsdən surə saqitdir. Əgər oxusa da, namazın tərkib hissəsi qəsdilə oxumamalıdır, əksinə Qur'an qiraəti niyyəti ilə oxuya bilər.

**Məsələ:** ٩٨٩. Əgər bilərəkdən surəni Həmddən əvvəl və namazın tərkib hissəsi qəsdilə oxusa, namazı batildir. Əgər səhvən oxusa və onu oxuyarkən yadına düşsə, surəni saxlamalı və Həmdi oxuduqdan sonra surəni əvvəldən oxumalıdır.

**Məsələ:** ٩٩٠. Əgər bir şəxs Həmd-surəni, ya onlardan birini yaddan çıxarsa və rükuya getdikdən sonra başa düşsə, namazı düzgündür.

**Məsələ:** ٩٩١. Əgər şəxs rükuya əyilməmişdən öncə Həmd və surəni oxumadığını başa düşsə, oxumalıdır. Əgər təkcə surəni oxumadığını başa düşsə, yalnız surəni oxumalıdır. Lakin əgər təkcə Həmdi oxumadığını başa düşsə, əvvəlcə Həmdi və ondan sonra yenidən surəni oxumalıdır. Həmçinin, əgər rükuya çatmayacaq dərəcədə əyilərsə və bu halda Həmd-surəni və ya təkcə surə, yaxud təkcə Həmdi oxumadığını başa düşsə, qalxıb düzəlməli və həmin göstərişə əməl etməlidir.

**Məsələ:** ٩٩٢. Əgər bir şəxs vacib namazda qəsdən vacib səcdəsi olan dörd surəni (onlar ٣٦١-ci məsələdə deyildi) oxusa, səcdə ayəsini oxuduqdan sonra tilavət səcdəsini yerinə yetirməsi vacibdir. Bu surətdə vacib ehtiyata əsasən, namazı bitirib sonra yenidən (vacib səcdəsi olmayan surə ilə) qılmalıdır. Həmçinin, əgər səcdəni yerinə yetirməyərək günah etsə də belə, namazı təzələməlidir.

**Məsələ:** ٩٩٣. Əgər şəxs səhv olaraq vacib səcdəsi olan bir surəni oxuyarsa, səcdə ayəsinə çatmazdan əvvəl başa düşsə, o surəni yarımçıq saxlayıb, başqa bar surə oxumalıdır. Əgər səcdə ayəsini oxuduqdan sonra başa düşərsə, ehtiyatən səcdəyə işarə edib surəni tamamlamalı və başqa bir surəni də mütləq qürbət qəsdi ilə oxumuladır, yə'ni əgər vəzifəsi başqa bir surə oxumaqdırsa bu həmin surə olsun, əks halda

Qur’an qiraəti ünvanı ilə olsun. Namazı qurtardıqdan sonra isə (yerinə yetirmədiyi) vacib səcdəni icra etməlidir.

**Məsələ:** ٩٩٤. Əgər namazda vacib səcdəsi olan ayəni dinləsə, namazı səhihdir və tilavət səcdəsi qəsdilə işarə etməlidir. Müstəhəbb ehtiyata əsasən, namazdan sonra da adi qaydada onun səcdəsini yerinə yetirməlidir.

**Məsələ:** ٩٩٥. Müstəhəbb namazlarda surə oxunması lazım deyildir, hətta o namaz nəzir etmək və bu kimi vasitələrlə vacib olsa da belə. Lakin vəhşət namazı kimi, məxsus bir surəsi olan bə’zi müstəhəbb olan namazlarda əgər şəxs o namazın göstərişə uyğun əməl etmək istəyirsə, həmin surəni oxumalıdır.

**Məsələ:** ٩٩٦. Cümə namazının və cümə gününün zöhr namazının birinci rükətində Həmd surəsindən sonra «Cümə», ikinci rükətdə isə Həmddən sonra «Münafiqun» surəsini oxumaq müstəhəbbdir. Əgər bir şəxs bu iki surədən birini oxumağa məşğul olsa, müstəhəbb ehtiyata əsasən, onu yarıda saxlayıb başqa bir surə oxuya bilməz.

**Məsələ:** ٩٩٧. Əgər bir şəxs Həmddən sonra «Qul huvəllahu əhəd», ya «Qul ya əyyuhəl-kafirun» surələrindən birini oxumağa məşğuldursa, onu saxlayıb başqa bir surə oxuya bilməz. Lakin cümə namazı və cümə gününün zöhr namazında unudaraq «Cümə» və «Münafiqun» surələrinin əvəzinə (yuxarıda deyilən) o iki surədən birini oxusa, onu saxlayıb, “Cümə” və “Münafiqun” surəsini oxuya bilər. Müstəhəbb ehtiyata əsasən, surənin yarısını oxumuşdursa, onu tərk etməsin.

**Məsələ:** ٩٩٨. Əgər cümə, yaxud cümə gününün zöhr namazında qəsdən «Qul huvəllahu əhəd», ya «Qul ya əyyuhəl-kafirun» surəsini oxusa, vacib ehtiyata əsasən, yarıya çatmamış olsa belə, onu tərk edib «Cümə» və «Münafiqun» surəsini oxuya bilməz.

**Məsələ:** ٩٩٩. Əgər namazda «Qul huvəllahu əhəd» və «Qul ya əyyuhəl-kafirun» surələrindən başqa bir surə oxusa, yarıdan ötməmişsə, onu tərk edib başqa surə oxuya bilər. Vacib ehtiyata əsasən, yarıdan üçdə ikisini ötənə qədər onu tərk etməsin. Üçdə ikisinə çatandan sonra onu tərk edib başqa bir surəyə keçmək caiz deyildir.

**Məsələ:** ١٠٠٠. Əgər bir şəxs surənin bir qədərini yaddan çıxarsa və ya çarəsizlikdən, məsələn, vaxtın darlığı və yaxud başqa bir səbəbdən onu tamamlaya bilməsə, surənin üçdə iki hissəsini keçmiş olsa da, hətta «Qul huvəllahu əhəd», ya «Qul ya əyyuhəl-kafirun» surəsi olsa da onu tərk edib başqa birisini oxuya bilər.

**Məsələ:** ١٠٠١. Kişiyə sübh, məğrib və işa namazlarında (birinci və ikinci rükətlərdə) Həmd və surəni ucadan (cəhr ilə) oxumaq vacibdir. Zöhr və əsr namazlarında isə Həmd və surəni asta (ixfatla) oxumaq həm kişiyə həm də qadına vacibdir.

**Məsələ:** ١٠٠٢. Kişi sübh, məğrib və işa namazlarında Həmd və surənin bütün kəlmələrini, hətta onların son hərflərini belə ucadan (cəhr ilə) oxumağa diqqət etməlidir.

**Məsələ:** ١٠٠٣. Qadın sübh, məğrib və işa namazlarının Həmd və surəsini həm ucadan (cəhr ilə), həm də astadan (ixfatla) oxuya bilər. Naməhrəm onun səsini eşidəcəyi təqdirdə, vacib ehtiyata əsasən, astadan (ixfatla) oxumalıdır. Lakin səsini naməhrəmə eşitdirməyin qadına haram olduğu surətdə, məsələn, qiraəti sözdə xüzu ilə və zəif səslə oxusa və naməhrəm onu eşitsə, ucadan oxuması caiz deyildir. Əgər (belə) oxusa, namazı batildir.

**Məsələ:** ١٠٠٤. Əgər ucadan oxumalı olduğu yerdə qəsdən astadan oxusa və ya astadan oxumalı olduğu yerdə qəsdən ucadan oxusa, namazı batildir. Lakin (hökmü) unudaraq, yaxud məsələni bilməyərək (belə) oxusa, namazı səhihdir. Əgər Həmd və surə əsnasında səhv etdiyini başa düşsə, oxumuş olduğu miqdarı yenidən oxuması lazım deyil.

**Məsələ:** ١٠٠٥. Əgər bir şəxs Həmd və surəni adi qaydadan artıq səslə, məsələn qışqıra-qışqıra oxusa, namazı batildir.

**Məsələ:** ١٠٠٦. İnsan namazı səhih qılmaq üçün onu öyrənməlidir. Əgər bir şəxs onu heç cür düzgün öyrənə bilmirsə, necə bacarırsa elə də qılmalıdır. Müstəhəbb ehtiyat budur ki, imamın mə'mumun əvəzindən deməyi öhdəsinə aldığı şeylərdə namazı öyrənə bilməyən şəxs namazı camaatla qılsın.

**Məsələ:** ١٠٠٧. Həmd, surə və namazın digər hissələrini yaxşı bilməyən və öyrənə bilən şəxs namazın vaxtı geniş olduğu təqdirdə onu öyrənməlidir. Əgər vaxt dardırsa, mümkün olan surətdə namazını camaatla qılmalıdır.

**Məsələ:** ١٠٠٨. Namazın müstəhəbb hissələrini öyrətmək üçün haqq almaq caizdir. Amma onun vacib hissələrini öyrətmək üçün haqq almamaq ehtiyat vacibdir.

**Məsələ:** ١٠٠٩. Əgər bir şəxs Həmd, ya surənin kəlmələrindən birini bilməsə və müqəssir olsa, ya qəsdən onu deməsə, yaxud bir hərfin əvəzinə başqa birisini desə, məsələn, ض «zad» hərfinin əvəzinə ظ «za» hərfini desə, yaxud zir-zəbərsiz (fəthə-kəsrəsiz) oxunmalı olduğu yeri zir-zəbərlə oxusa, yaxud təşdidi deməsə, namazı batildir.

**Məsələ:** ١٠١٠. Əgər şəxs bir kəlməni düzgün hesab edib namazda da həmin qaydada oxusa və sonra səhv oxuduğunu başa düşsə, kəlmənin düzgün hesab olunmasına etiqadda qasir olduğu təqdirdə namazı səhihdir. Müstəhəb ehtiyat budur ki, namazı (səhih şəkildə) yenidən qılsın, əgər vaxtı ötübsə, qəza etsin. Müqəssir olduğu surətdə namazı yenidən qılmalı və əgər vaxtı ötübsə, qəza etməlidir.

**Məsələ:** ١٠١١. Əgər bir şəxs kəlmənin س «sin» yoxsa ص «sad» hərfi ilə olmasını bilməsə, onu öyrənməlidir. Əgər onu iki cür, yaxud

daha artıq şəkildə oxusa, bu halda səhih olanın namazın bir hissəsi olduğunu qəsd etsə, ondan qeyrisinə də camaat arasında səhv zikr və ya səhv Qur'an oxumaq deyilsə, məsələn, «İhdinəs-siratəl-mustəqim»də «mustəqim» kəlməsini bir dəfə س «sin», bir dəfə ص «sad» hərfi ilə oxusa, namazı səhihdir. Amma ona adi insan danışığı deyiləcək tərzdə oxusa, həmçinin, məsələn, kəlmənin zir-zəbərini bilməsə, namaz batildir. Lakin bir kəlmənin axırında olsa ki, orada vəqf edilməsi caizdir, həmişə vəqf etsə, ya sukunla vəsl etsə, o kəlmənin axırıncı hərəkəsini öyrənmək vacib deyildir və namazı səhihdir.

**Məsələ:** ١٠١٢. Əgər bir kəlmədə, سوء «su`ə» kəlməsi kimi, əvvəlki hərf zəmməli, sonrakı hərf isə həmzəli olan و «vav» hərfi olsa, həmçinin, جاء «ca`ə» kəlməsi kimi əvvəlində fəthəli bir hərf, sonrası isə həmzəli olan bir əlif olsa, eləcə də جيء «ci`ə» kəlməsi kimi, özündən əvvəl kəsrəli hərf, sonra isə həmzəli bir ى "ya" hərfi olsa, müstəhəb ehtiyata əsasən, bu üç hərf məddlə (yə`ni uzatmaqla) oxunmalıdır.

Əgər bu hərflərdən (vav, əlif, ya) sonra həmzənin əvəzində sakin olan (fəthə, kəsrə, zəmməsi olmayan) başqa bir hərf olarsa, bu üç hərf məddlə oxunmalıdır. Məsələn, «vələzzallin»də əlifdən (a) sonrakı hərf (ل -birinci «l») sakindir. Buna görə də o kəlmənin əlifi məddlə oxunmalıdır. Əgər şəxs (namazda) deyilən bu qaydaya əməl etməzsə, namazı batildir.

**Məsələ:** ١٠١٣. Vacib ehtiyat budur ki, vəqf be hərəkə (hərəkə ilə vəqf) edilməsin. Vəqf be hərəkə budur ki, bir kəlmənin axırındakı zir, zəbər, ya zəmmə deyilib həmin kəlmə ilə sonrakı kəlmə arasında fasilə salınsın. Məsələn, «Ər-Rahmənir-Rahim»də «Rahim» kəlməsinin axırını «zir»lə oxuyub bir qədər fasilədən sonra «Maliki yəvmiddin» kimi deyilməsin.

Müstəhəb ehtiyat budur ki, vəsl be sukun (sukun ilə vəsl) edilməsin. Onun mə'nası budur ki, bir kəlmənin axırındakı «zir», «zəbər» ya «zəmmə» deyilmədən kəlməni sonrakı kəlməyə birləşdirsin. Məsələn, «Ər-Rahmənir-Rahim»də «Rahim» kəlməsinin axırındakı «zir» deyilmədən fasiləsiz olaraq «Maliki yəvmiddin» kimi deyilsin.

**Məsələ:** ١٠١٤. Namazın üçüncü və dördüncü rükətlərində yalnız bir Həmd və ya bir dəfə təsbihati-ərbəə, yə`ni

سُبْحَانَ اللَّهِ وَ الْحَمْدُ لِلَّهِ وَ لاَ اِلهَ اِلاَّ اللَّهُ وَ اللَّهُ اَكْبَرُ

***«Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər»*** demək olar, bunu üç dəfə demək daha yaxşıdır. Həmçinin, bir rükətdə həmd, digərində isə təsbihati-ərbəəni demək olar, amma hər iki rükətdə təsbihatı demək daha yaxşıdır.

**Məsələ:** ١٠١٥. Namazın vaxtı dar olduğu təqdirdə təsbihati-ərbəəni bir dəfə demək lazımdır.

**Məsələ:** ١٠١٦. Kişiyə və qadına namazın üçüncü və dördüncü rükətlərində Həmd, ya təsbihati-ərbəəni asta (ixfatla) oxumaq vacibdir.

**Məsələ:** ١٠١٧. Əgər bir şəxs üçüncü və dördüncü rəkərlərdə Həmdi oxuyarsa, vacib ehtiyata əsasən, onun «bismillahını» da astadan (ixfatla) deməlidir.

**Məsələ:** ١٠١٨. Bir şəxs təsbihatı öyrənə bilmirsə, yaxud düzgün deyə bilmirsə, lakin Həmdi düzgün oxuya bilirsə, üçüncü və dördüncü rükətlərdə Həmdi oxumalıdır.

**Məsələ:** ١٠١٩. Əgər bir şəxs namazın ilk iki rükətinin axırıncı iki rükət olduğunu xəyal edib təsbihatı demiş olsa və rükuya enməmiş başa düşsə, Həmd və surəni oxumalıdır. Əgər rüku halında, ya ondan sonra başa düşsə, namazı düzgündür.

**Məsələ:** ١٠٢٠. Əgər namazın axırıncı iki rükətinin əvvəlinci iki rükət olduğun xəyal edib Həmdi oxusa, ya əvvəlinci iki rükətin axırıncı iki rükət olduğun güman edib Həmd oxuyarsa, istər rükudan əvvəl, istərsə də sonra başa düşərsə namazı düzdür.

**Məsələ:** ١٠٢١. Əgər üçüncü, ya dördüncü rükətdə Həmdi oxumaq istərkən təsbihat dilinə gəlsə, yaxud təsbihatı oxumaq istərkən Həmd dilinə gəlsə, onu saxlayıb yenidən Həmdi, ya təsbihatı oxumalıdır. Lakin adətən oxuduğu dilinə gəlsə, onunla namazını tamamlayar və namazı səhihdir.

**Məsələ:** ١٠٢٢. Namazın üçüncü və dördüncü rükətlərində təsbihatı oxumaq bir nəfərin adəti olsa, əgər qəsdi olmadan, hətta ona vacib olanı yerinə yetirməyi qəsd etmədən Həmdi oxumağa məşğul olsa, onu yarıda saxlayıb yenidən Həmdi, ya təsbihatı oxumalıdır.

**Məsələ:** ١٠٢٣. Üçüncü və dördüncü rükətlərdə təsbihatdan sonra istiğfar etmək, məsələn,

اَسْتَغْفِرُ اللَّهَ رَبِّی وَ اَتُوبُ اِلَیْهِ

*«əstəğfirullahə Rəbbi və ətubu iləyh»*, yaxud

اَللّٰهُمَّ اغْفِرْ لِی *«Əllahummməğfir li»* demək müstəhəbbdir. Namaz qılan əgər rükuya əyilməmişdən öncə hətta istiğfar deməklə məşğul olarsa, yaxud onu deyəndən sonra Həmdi, ya təsbihatı oxuyub-oxumadığında şəkk edərsə, Həmdi, ya təsbihatı oxumalıdır.

**Məsələ:** ١٠٢٤. Əgər üçüncü və ya dördüncü rükətlərin rükusunda Həmdi və ya təsbihatı oxuyub-oxumadığında şəkk edərsə, öz şəkkinə e'tina etməməlidir. Əgər rüku həddinə çatmazdan öncə şəkk etsə, qalxıb Həmdi, ya təsbihatı deməlidir.

**Məsələ:** ١٠٢٥. Bir ayəni oxuyandan sonra o ayənin özünü, yaxud bir kəlməsini düzgün oxuyub-oxumadığında şəkk etsə, istər ondan sonrakına daxil olsun, istərsə də olmasın, öz şəkkinə e'tina etməməlidir.

Əgər ayəni oxuyub qurtarmamışdan qabaq ayənin bir kəlməsini düzgün oxuyub-oxumadığında şəkk etsə, burada öz şəkkinə e'tina etməli və o kəlmə və ondan sonra oxumalı olduğunu, ondan əvvəlkini yenidən təkrar etməklə də olsa, düzgün tərzdə oxumalıdır. Hər iki surətdə o ayəni, ya kəlməni və ondan sonra oxunmalı olanı, onun düzgünlüyünə əmin olmaq naminə təkrar etməsinin eybi yoxdur, vəsvaslıq həddinə çatmayınca; əks halda yenidən demək haramdır, lakin namazı batil etməsi məhəlli-işkaldır. Vacib ehtiyat budur ki, hər halda namazı tamamlayıb sonra yenidən qılsın.

**Məsələ:** ١٠٢٦. Namazın birinci rükətində Həmdi oxumazdan öncə «Əuzu billahi minəş-şəytanir-rəcim» demək, zöhr və əsr namazlarının birinci və ikinci rükətlərində «Bismillahı» ucadan demək, Həmd-surəni tələsmədən, kəlmələri tam əda etməklə oxumaq, hər ayənin sonunda vəqf etmək, yə'ni onu sonrakı ayəyə bitişdirməmək və Həmd-surəni oxuyarkən mə'nasına diqqət yetirmək, əgər namazı camaatla qılırsa, İmam Həmdi tamamlayandan sonra, fərdi şəkildə qılırsa, özünün oxuduğu Həmdi bitirdikdən sonra «Əlhəmdu lillahi Rəbbil-aləmin» demək, surəni (yalnız Qul huvəllahı) oxuyandan sonra bir, iki, yaxud üç dəfə «kəzalikəllahu Rəbbi», yaxud üç dəfə «kəzalikəllahu Rəbbuna» demək və surəni oxuyandan sonra bir neçə anlığa gözləyib rükudan əvvəlki təkbiri demək, yaxud qunut tutmaq müstəhəbbdir.

**Məsələ:** ١٠٢٧. Bütün namazların birinci rükətində Həmddən sonra «inna ənzəlnahu» surəsini, ikinci rükətində isə «Qul huvəllah»ı oxumaq müstəhəbbdir.

**Məsələ:** ١٠٢٨. Şəxsin bir gecə-gündüz ərzində gündəlik namazlarında Həmddən sonra «Qul huvəllah»ı oxumaması məkruhdur.

**Məsələ:** ١٠٢٩. «Qul huvəllah» surəsini birnəfəsə oxumaq məkruhdur.

**Məsələ:** ١٠٣٠. Birinci rükətdə oxunan surəni ikinci rükətdə yenidən oxumaq məkruhdur. Lakin "Qul huvəllah» surəsini hər iki rükətdə oxumaq məkruh deyildir.

***Rüku***

**Məsələ:** ١٠٣١. Hər rükətdə namazın qiraətindən sonra barmaqların ucunun dizlərə çatacağı qədər əyilmək lazımdır və bu əmələ rüku deyilir. Əhvət nəzər, əlləri dizlərin üzərinə qoyacaq qədər əyilməkdir.

**Məsələ:** ١٠٣٢. Əgər rüku qədər əyilsə, lakin barmaqların ucunu dizlərin üzərinə qoymasa, eybi yoxdur.

**Məsələ:** ١٠٣٣. Əgər rükunu adi qaydada deyil, başqa cür yerinə yetirsə, məsələn, sola, ya sağa tərəf əyilsə, əllər dizlərə çatsa da düzgün deyildir.

**Məsələ:** ١٠٣٤. Əyilmək, rüku məqsədilə olmalıdır. Deməli, əgər başqa bir şey üçün, məsələn, bir həşəratı öldürmək üçün əyilsə, onu rüku hesab edə bilməz: qalxıb yenidən rüku üçün əyilməlidir. Bu əməl vasitəsilə rükn artmaz və namaz da batil olmaz.

**Məsələ:** ١٠٣٥. Bir kəsin əli və dizi başqalarının əli və dizindən fərqli olsa, məsələn, qolu çox uzun olarsa və bir az əyildikdə əlləri dizlərinə çatarsa; yaxud dizi başqalarının dizindən fərqli olaraq çox aşağıdırsa və əllərinin dizlərə çatması üçün çox əyilməsi lazım gələrsə, (camaat arasında) adi olan həddə əyilməlidir.

**Məsələ:** ١٠٣٦. Oturan halda rüku edən şəxs üzü dizlərinin müqabilində olacaq qədər əyilməlidir. Əhvət nəzər budur ki, ayaq üstə rükuya gedəndə nə qədər əyiləcəkdirsə, elə o qədər əyilsin.

**Məsələ:** ١٠٣٧. İxtiyar halında rükuya endikdə, ya üç dəfə «Subhanəllah», ya bir dəfə «Subhanə Rəbbiyəl-əzimi və bihəmdih», yaxud bu miqdarda olan hər hansı bir zikri demək vacibdir. Müstəhəbb ehtiyat budur ki, (bu zikrlərdən hər ikisini demək istədikdə) təsbihi (yə`ni Subhanəllahı) bəyan olunan surətdə digər zikrdən – Subhanə Rəbbiyəl-əzimi və bihəmdihdən – qabağa salsın. Vaxt dar olduğu təqdirdə və çarəsizlik halında bir dəfə «Sübhanallah» demək kifayətdir.

**Məsələ:** ١٠٣٨. Rükunun zikri ardıcıl (fasiləsiz) və ərəbcə düzgün deyilməlidir. Onu (Subhanə Rəbbiyəl-əzimi və bihəmdih) üç, beş, yeddi dəfə, hətta daha çox demək müstəhəbbdir.

**Məsələ:** ١٠٣٩. Rükuda vacib zikrlər deyilən vaxt ərzində bədən hərəkətsiz, aram olmalıdır. Müstəhəbbb zikrləri də deyərkən, həmin zikrlərin rüku üçün göstəriş verilməsi məqsədilə yerinə yetirərsə, vacib ehtiyata əsasən, bədənin hərəkətsiz, aram olması lazımdır. Lakin rüku üçün məxsus olan zikr deyil, mütləq zikr niyyəti ilə deyərsə, (yə'ni Allahı hər bir halda zikr etməyin caiz olması məqsədi ilə) bədənin aram olması lazım deyildir.

**Məsələ:** ١٠٤٠. Əgər rükunun vacib zikrini deyərkən qeyri-ixtiyari olaraq bir qədər hərəkət etməklə bədənin hərəkətsizliyi pozularsa, bədən aram olandan sonra zikir yenidən deməlidir. Lakin bədən aramlığını itirməycək dərəcədə, çox az hərəkət edərsə, yaxud barmaqlarını hərəkət etdirərsə, eybi yoxdur.

**Məsələ:** ١٠٤١. Əgər bir şəxs rüku qədərində əyilmədən və bədəni aram olmazdan öncə qəsdən rükunun zikrini deyərsə, namazı batildir. Amma cahili-qasir olarsa, bu artıqlıq səbəbilə namazı batil olmaz.

**Məsələ:** ١٠٤٢. Əgər rükunun vacib zikrini qurtarmamış qəsdən başını rükudan qaldırsa, şəxsin namazı batildir. Amma əgər cahili-qasir olsa, namazı bu səbəbdən batil olmaz. Əgər səhvən başını qaldırsa və rüku halından çıxmamış zikri tamamlamadığını başa düşsə, bədən

hərəkətsiz olan halda zikri deməlidir, əgər rüku halından xaric olduqdan sonra başa düşsə, namazı səhihdir.

**Məsələ:** ١٠٤٣. Zərurət hallarında rükunun zikrini bir dəfə «Subhanəllah» deməklə kifayətlənmək olar, müstəhəbb ehtiyat budur ki, qalan iki «Subhanəllah»ı da qalxan halda desin.

**Məsələ:** ١٠٤٤. Xəstəlik və bu kimi səbəbdən rüku halında bədəni aram olmayan şəxsin namazı düzgündür, lakin rüku halından xaric olmamış vacib zikri deməlidir.

**Məsələ:** ١٠٤٥. Hökmü ١٠٣١-ci məsələdə deyilmiş şər'i rüku qədərində əyilə bilməyən şəxs bir şeyə söykənib şər'i rükunu yerinə yetirməlidir. Əgər söykənən halda da şər'i rükunu yerinə yetirə bilmirsə, camaatın nəzərində adi sayılan rüku etməyə imkanı olduğu təqdirdə vacib ehtiyata əsasən, adi (ürfi) rüku yerinə yetirməli və həmçinin, qiyam halında başı ilə rükuya işarə etməlidir. Əgər ürfi rüku miqdarında da əyilə bilməsə, yaxud ümumiyyətlə əyilə bilməsə, vacib ehtiyata əsasən, rüku vaxtı oturaraq rükunu oturan halda yerinə yetirməli və əlavə olaraq bir namaz da qılıb onun rükusuna ayaq üstə başı ilə işarə etməlidir.

**Məsələ:** ١٠٤٦. Vəzifəsi rükuya başı ilə işarə etmək olan şəxs, əgər başı ilə işarə edə bilməsə, rüku niyyətilə gözlərini yumub zikri deməli və rükudan qalxmaq niyyətilə gözlərini açmalıdır. Əgər bundan da aciz olsa, qəlbində rüku niyyəti edərək zikri deməlidir.

**Məsələ:** ١٠٤٧. Bir kəs hətta ürfi qədərdə belə, ayaq üstə ya oturan halda rüku edə bilməsə və yalnız oturan halda az açıq miqdarda əyilə bilirsə, ayaq üstə namazını qılıb, rükuya başı ilə işarə etməlidir. Oturan halda əyilməsi elə bir həddə olsa ki, oturan şəxsə "ürfi rüku edib" deyilə bilsə, vacib ehtiyat budur ki, digər bir namaz qılsın və onun rükusu vaxtı oturaraq həmin adi qədərdə əyiləcək.

**Məsələ:** ١٠٤٨. Əgər bir şəxs rüku həddində əyildikdən sonra başını qaldırsa və yenidən rüku qədərində əyilsə, namazı batildir. Əgər rüku qədərində əyildikdən sonra rüku həddindən ötənə qədər bir az da əyilsə və yenidən rüku halına qayıtsa, əyildiyi həmin halda qayıdaraq rüku həddinə çatsa, namazı batil deyildir.

**Məsələ:** ١٠٤٩. Rükunun zikri tamamlandıqdan sonra (qalxıb) düz dayanmalı və bədən aram (hərəkətsiz) olduqdan sonra səcdəyə getməlidir. Əgər rükudan qalxmadan, yaxud bədəni aram (hərəkətsiz) olmadan qəsdən səcdəyə getsə, namazı batildir.

**Məsələ:** ١٠٥٠. Əgər rükunu unutsa və səcdəyə çatmamış yadına düşərsə, ayağa qalxıb sonra rükuya getməlidir. Əgər elə həmin əyilmiş halda rükuya qayıtsa, namazı batildir.

**Məsələ:** ١٠٥١. Əgər alnı yerə çatandan sonra rüku etmədiyi yadına düşsə, ayağa qalxmalı və ayağa qalxandan sonra rükuya getməlidir və

namazı da düzdür. Vacib ehtiyata əsasən, səcdə artıqlığı üçün iki səhv səcdəsi yerinə yetirməlidir. Müstəhəbb ehtiyat budur ki, namazı yenidən qılsın. Əgər (rüku etmədiyi) ikinci səcdədə yadına düşərsə, namazı batildir.

**Məsələ:** ١٠٥٢. Rükuya getməzdən əvvəl, ayaq üstə olan halda təkbir demək müstəhəbbdir. Həmçinin, rükuda dizləri geri verib, kürəyi düz (yerə paralel) saxlamaq, boyunu uzadıb kürəklə bir səviyyədə saxlamaq, iki ayağın arasına baxmaq, zikrdən əvvəl, ya sonra salavat demək və rükudan qalxıb düz dayandıqdan sonra bədən aram olan halda «Səmiəallahu limən həmidəh» demək də müstəhəbbdir.

**Məsələ:** ١٠٥٣. Qadınların rükuda əllərini dizlərindən yuxarı qoyması və dizlərini geriyə verməməsi müstəhəbbdir.

***Səcdələr***

**Məsələ:** ١٠٥٤. Namaz qılan vacib və müstəhəbb namazların hər bir rükətində rükudan sonra iki səcdə yerinə yetirməlidir. Yə'ni alnını xüzu (Allah dərgahında bəndəçiliyin son həddini göstərmək) qəsdilə yerə qoymalıdır. Səcdədə (alından əlavə) iki əlin içini, iki dizi, iki ayağın baş barmaqlarını (da) yerə qoymaq vacibdir.

**Məsələ:** ١٠٥٥. İki səcdə birlikdə bir rükndür. Əgər bir şəxs qəsdən, ya unudaraq bir rükətdə hər iki səcdəni tərk etsə, yaxud onlara iki səcdə də artırsa namazı batildir.

**Məsələ:** ١٠٥٦. Əgər bir səcdəni qəsdən azaldıb ya artırsa namazı batildir. Əgər səhvən bir səcdəni artıq ya əskik olsa, onun hökmü sonradan deyiləcək.

**Məsələ:** ١٠٥٧. Əgər alnını qəsdən, ya səhvən yerə qoymasa, digər səcdə üzvləri yerə dəysə də belə, səcdə etməmişdir. Lakin alnını yerə qoysa və digər üzvlər səhvən yerə dəyməsə, yaxud səhvən zikri deməsə, səcdə düzgündür.

**Məsələ:** ١٠٥٨. İxtiyari halda səcdədə üç dəfə «Subhanəllah», yaxud bir dəfə «Subhanə Rəbbiyəl-ə'la və bihəmdih», yaxud bu qədərdə olan hər hansı bir zikrin deyilməsi vacibdir. Müstəhəbb ehtiyat budur ki, təsbihi mütləq zikrdən[1] öncə desin. Bu kəlmələr ardıcıl və ərəbcə düzgün tələffüz olunmalıdır. «Subhanə Rəbbiyəl-ə'la və bihəmdih» cümləsini üç, beş, yeddi və ya daha çox demək müstəhəbdir.

**Məsələ:** ١٠٥٩. Səcdə edərkən vacib zikrin deyildiyi vaxtda bədən aram (hərəkətsiz) olmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, müstəhəbb zikrlər deyiləndə, həmin zikrlər səcdə məqsədilə olsa, bədənin aram olması lazımdır.

---

[1] Allahın zikri sayılan hər hansı bir söz, cümlə və ifadə.

**Məsələ:** ١٠٦٠. Əgər alın yerə dəyməzdən və bədən aram olmazdan öncə qəsdən səcdənin zikrini desə, yaxud zikr tamam olmazdan qabaq başını səcdədən qaldırsa, cahili-qasir olmadığı surətdə namazı batildir. Cahili-qasir olduğu təqdirdə isə hər iki surətdə namazı səhihdir.

**Məsələ:** ١٠٦١. Əgər şəxs alnını yerə qoymazdan əvvəl səhvən səcdənin zikrini desə və başını səcdədən qaldırmamış səhv etdiyini başa düşsə, bədən aram halda olan halda zikri yenidən deməlidir.

**Məsələ:** ١٠٦٢. Əgər başını səcdədən qaldırandan sonra səcdə zikrini tamamlamamış başını qaldırdığını başa düşsə, namazı səhihdir.

**Məsələ:** ١٠٦٣. Əgər səcdənin zikrini deyərkən qəsdən yeddi səcdə üzvündən birini yerdən qaldırsa, cahili-qasir olmadığı surətdə namazı batildir. Lakin zikr deməyə məşğul olmadığı zaman, alından başqa digər üzvləri yerdən qaldırıb ikinci dəfə yerə qoysa eybi yoxdur.

**Məsələ:** ١٠٦٤. Əgər səcdənin zikrini bitirməmiş səhvən alnını səcdədən qaldırsa, ikinci dəfə yerə qoya bilməz və onu bir səcdə hesab etməlidir. Lakin digər üzvləri səhvən yerdən qaldırmış olsa, ikinci dəfə yerə qoymalı və zikri deməlidir.

**Məsələ:** ١٠٦٥. Birinci səcdənin zikrini deyib qurtardıqdan sonra qalxıb oturmalı və bədən aram olandan sonra yenidən ikinci səcdəyə getməlidir.

**Məsələ:** ١٠٦٦. Namaz qılanın alnının yeri ayağının baş barmağının yerindən dörd bağlı barmaqdan hündür ya alçaq olmamalıdır. Vacib ehtiyata əsasən, dizlərinin yerindən də bu qədər hündür ya alçaq olmamalıdır.

**Məsələ:** ١٠٦٧. Enişli (üzü aşağı) yerdə, enişliyi dəqiq mə'lum olmadığı halda əgər alnının yeri ayağın baş barmağını və dizlərini qoyduğu yerdən dörd bağlı barmaq qədərindən uca, ya alçaq olsa, ehtiyata əsasən, onun namazı batildir.

**Məsələ:** ١٠٦٨. Əgər alnını səhvən ayağının baş barmağının yerindən dörd bağlı barmaqdan hündür olan bir şeyin üzərinə qoysa, bu halda onun hündürlüyü «səcdə halında deyil» deyiləcək qədər olsa, başını qaldırmalı və ondan hündür olmayan, ya hündürlüyü dörd bağlı barmaq və ya ondan az olan şeyin üzərinə qoymalıdır. Əgər onun hündürlüyü «səcdə halındadır» deyiləcək qədərdə olan bir şey olsa, alnını (yerdən qaldırmadan) onun üzərindən çəkib hündürlüyü dörd bağlı barmaq, ya ondan da az olan şeyin üzərinə qoymalıdır. Əgər alnını çəkmək mümkün deyildirsə, vacib ehtiyata əsasən, namazını tamamlamalı və yenidən qılmalıdır.

**Məsələ:** ١٠٦٩. Alın ilə səcdə etdiyi şeyin arasında başqa bir şey fasilə salmamalıdır. Əgər möhür alnın möhürə dəyməyəcəyi qədər çirk

bağlamış olarsa, səcdə batildir. Lakin, məsələn, möhürün (səcdə) rəngi dəyişmiş olsa, eybi yoxdur.

**Məsələ:** ١٠٧٠. Səcdədə əllərin içi yerə qoyulmalıdır. Ancaq əlacsızlıq və çarəsizlik halında əllərin arxasını yerə qoymaq olar. Əgər əllərin arxasını da yerə qoymaq mümkün olmasa, vacib ehtiyata əsasən, biləklərini yerə qoymalıdır. Əgər bu da mümkün olmazsa dirsəyə qədər haranı bacarırsa, onu da yerə qoymalıdır. Əgər bu da heç cür mümkün olmasa, qolu yerə qoymalıdır.

**Məsələ:** ١٠٧١. Səcdədə ayaqların iki baş barmağı yerə qoyulmalıdır. Baxmayaraq ki, müstəhəbb ehtiyat iki baş barmağın ucunun yerə qoyulmasıdır. Əgər ayağın digər barmaqları, ya ayağın üzəri yerə qoyularsa, yaxud dırnağın uzun olmasına görə baş barmağı yerə çatmasa, namaz batildir. Əgər bir şəxs məsələni bilmədiyi üçün bu tərzdə namaz qılmışdırsa müqəssirdirsə, (öyrənə bildiyi surətdə öyrənməyib təqsirkardırsa), o namazlarını yenidən qılmalıdır. Yox əgər qasirdirsə (öyrənməməkdə üzrü olan şəxsdirsə və öz təqsiri ucbatından olmasa), namazı səhihdir.

**Məsələ:** ١٠٧٢. Ayağının baş barmağından bir qədəri kəsilmiş olan şəxs onun qalanını yerə qoymalıdır. Əgər o barmaqdan ümumiyyətlə bir şey qalmayıbsa, yaxud qalan hissə çox qısadırsa vacib ehtiyat budur ki, qalan barmaqları yerə qoysun. Əgər ümumiyyətlə barmağı yoxdursa, ayağından qalan hissəni yerə qoysun.

**Məsələ:** ١٠٧٣. Əgər bir şəxs qeyri-adi qaydada səcdə etsə, məsələn, sinəsini və qarnını yerə yapışdırsa, ya ayaqlarını uzatsa, (əvvəldə) deyilən yeddi üzvü yerə çatdırsa da, vacib ehtiyata əsasən, namazı yenidən qılmalıdır.

**Məsələ:** ١٠٧٤. Möhür və ya üzərinə səcdə etdiyi başqa şey pak olmalıdır. Lakin, məsələn, möhürü nəcis palaz-xalçanın üstünə qoysa, yaxud da möhürü bir tərəfi nəcis olduğu halda alnını onun pak olan tərəfinə qoysa eybi yoxdur.

**Məsələ:** ١٠٧٥. Əgər bir şəxsin alnında çiban və bu kimi bir şey olarsa, mümkün qədər alnının salamat yeri ilə səcdə etməlidir. Əgər mümkün olmasa, səcdə edilməsi səhih olan şeyi qazıb çala düzəltdikdən sonra çibanı çalaya salaraq səcdə üçün kifayət qədər olan sağlam hissə ilə səcdə etməlidir. Müstəhəbb ehtiyat budur ki, həmin çala yerdə olsun.

**Məsələ:** ١٠٧٦. Əgər çiban, ya yara bütünlükdə alını əhatə edibsə vacib ehtiyata əsasən, namazın təkrarına səbəb olsa da belə, alnın iki tərəfdən biri və çənə ilə səcdə etsin (yə`ni əgər hər ikisi ilə birlikdə əmələ gətirə bilməsə hər biri ilə bir dəfə əmələ gətirsin). Əgər mümkün olmasa, təkcə çənə ilə; bu da mümkün olmasa səcdə üçün işarə etsin.

**Məsələ:** ١٠٧٧. Alnını səcdə üçün yerə çatdıra bilməyən şəxs bacardığı qədər əyilməli və möhürü, ya üzərinə səcdə edilməsi səhih

olan digər bir şeyi, hündür bir yerə qoyub «səcdə etdi» deyiləcək şəkildə alnını onun üstünə qoymalıdır. Lakin əllərin içini, dizlərini və ayaq barmaqlarını adi qaydada yerə qoymalıdır.

**Məsələ:** ١٠٧٨. Əgər möhür və ya üzərinə səcdə edilməsi səhih olan digər bir şeyi qoymaq üçün hündür bir şey tapmasa, möhür və ya səcdə edilməsi səhih olan digər şeyi əli ilə qaldırıb ona səcdə etməlidir. Özü bunu edə bilmədikdə isə başqası onu qaldırmalı və o da ona səcdə etməlidir.

**Məsələ:** ١٠٧٩. Heç bir vəchlə səcdə edə bilməyən şəxs səcdə üçün başı ilə işarə etməlidir. Əgər bunu edə bilməsə, gözləri ilə işarə etməli, bunu da edə bilməsə, qəlbində səcdə niyyəti edib zirki deməlidir.

**Məsələ:** ١٠٨٠. Əgər ixtiyarsız olaraq alnı səcdə yeindən qalxarsa, mümkün olduğu surətdə ikinci dəfə alnının səcdəyə çatmasının qarşısını almalıdır və bu, bir səcdə hesab olunur – istər zikrini demiş olsun, istərsə də yox. Əgər başını saxlaya bilməsə və başı qeyri-ixtiyari olaraq ikinci dəfə səcdəyə getsə, ikisinin bir yerdə bir səcdə hesab edilməsi məhəlli-işkaldır, baxmayaraq ki, səcdənin birini yerinə yetirməsi qətidir. Əgər zikri deməmişdirsə, vacib ehtiyata əsasən, vacib və müstəhəbb olmasını nəzərə almadan ona əmr olunanı yerinə yetirmək məqsədilə zikri deməlidir.

**Məsələ:** ١٠٨١. Şəxs təqiyyə etməli olduğu yerlərdə palaz, xalça və bu kimi şeylərə səcdə edə bilər və namaz qılmaq üçün başqa yerə getməsi lazım deyildir. Lakin üzərində səcdə edilməsi səhih olan həsir və ya bu kimi şeylərin üzərinə səcdə etməsi onun zəhmətə (əzab-əziyyətə) düşməsinə səbəb olmasa, xalça və bu kimi şeylərə səcdə etməməlidir.

**Məsələ:** ١٠٨٢. Əgər üzərində bədəni sabit, hərəkətsiz olmayan quş tükündən olan döşək və bu kimi şeylərin üzərinə səcdə edilsə, batildir.

**Məsələ:** ١٠٨٣. Əgər şəxs palçıq yerdə namaz qılmağa məcbur olsa, bədən və paltarının bulaşması ona əziyyət olmazsa, səcdə və təşəhhüdü adi qaydada yerinə yetirməlidir. Əgər əziyyət olacaqsa, səcdəyə ayaq üstə başı ilə işarə etməli və təşəhhüdü də ayaq üstə oxumalıdır və namazı da səhihdir.

**Məsələ:** ١٠٨٤. Təşəhhüdü olmayan birinci və üçüncü rükətlərdə, məsələn, zöhr, əsr və işa namazlarının üçüncü rükətində ikinci səcdədən sonra bir neçə anlığa hərəkətsiz oturduqdan sonra qalxmaq müstəhəbb ehtiyatdır.

## ÜZƏRİNƏ SƏCDƏ OLUNMASI SƏHİH OLAN ŞEYLƏR

**Məsələ:** ١٠٨٥. Səcdə yerə, yeyilən və geyilən şeylərdən başqa yerdə bitən şeylərə, məsələn, taxta və ağac yarpağının üzərinə edilməlidir. Buğda, arpa kimi yeyilən və pambıq kimi geyilən şeylərə,

eləcə də, qızıl, gümüş, qır, qətran və bu kimi yer və yerdən cücərib çıxan hesab olunmayan şeylərin üzərinə səcdə səhih deyildir. Vacib ehtiyata əsasən, qiymətli daş-qaşlar, məsələn, zümrüd, firuzə və s. də eyni hökmü daşıyır.

**Məsələ:** ١٠٨٦. Adətən, yeyilən olan vaxta qədər üzüm yarpağına səcdə etmək caiz deyildir.

**Məsələ:** ١٠٨٧. Yerdən cücərən və heyvanların yemi olan ot-ələf və saman kimi şeylərin üzərinə səcdə etmək düzgündür.

**Məsələ:** ١٠٨٨. Yeməli olmayan güllərin üzərində səcdə etmək səhihdir. Amma yeyilən dərman bitkilərinə gəldikdə isə, əgər onların özləri yeyilirsə, onlara səcdə səhih deyildir. Müstəhəbb ehtiyat budur ki, qaynadılan, dəmlənən və onların suyundan dərman kimi istifadə olunan bitkilərə də səcdə olunmasın.

**Məsələ:** ١٠٨٩. Bə'zi məntəqələrdə yeyilməsi adi olan, bə'zi məntəqələrdə isə yeyilməsi adət olmayan bitkilərə və həmçinin, kal meyvə üzərinə səcdə səhih deyildir.

**Məsələ:** ١٠٩٠. Əhəng daşı və gəc (təbaşir) daşının üzərinə səcdə etmək səhihdir. Müstəhəbb ehtiyat budur ki, ixtiyari halda bişmiş olan təbaşir, kərpic, əhəng, palçıqdan hazırlanmış kuzəyə və bu qismdən olan (bişirilməklə hazırlanan) şeylərə də səcdə olunmasın.

**Məsələ:** ١٠٩١. Əgər kağız, saman kimi, üzərinə səcdə etmək səhih olan şeylərdən düzəldilmiş olsa, ona səcdə etmək olar. Lakin pambıq və bu kimi şeylərdən hazırlanmış kağıza səcdə etmək məhəlli-işkaldır.

**Məsələ:** ١٠٩٢. Səcdə üçün hər şeydən yaxşı həzrət Seyyidüş-şühəda İmam Hüseyn (əleyhissalam)-ın türbətidir, ondan sonra torpaq, sonra daş və ondan sonra bitkidir.

**Məsələ:** ١٠٩٣. Əgər üzərinə səcdə etməyin səhih olduğu bir şeyi olmasa, yaxud olsa da şiddətli soyuq, ya isti və bu kimi şeylər səbəbilə ona səcdə etmək olmursa, şəxs öz paltarına səcdə etməlidir, bu şərtlə ki, ipəkdən olmasın. Əhvət (ehtiyat) budur ki, kətan və pambıq paltar ondan qeyrisindən, məsələn, yun və kürk kimi paltardan irəli sayılsın.

Əgər paltara səcdə etmək müyəssər olmasa, vacib ehtiyata əsasən, firuzə, əqiq və bu kimi daşlara və pambıqdan hazırlanmış kağıza səcdə olunsun. Əgər bu da tapılmasa, ipəkdən hazırlanmış kağıza, bu da tapılmasa, ixtiyari halda səcdə caiz olmayan hər hansı başqa şey varsa, ona səcdə edilsin. Lakin müstəhəb ehtiyat budur ki, əlin arxasına səcdə etmək mümkün olduğu təqdirdə ixtiyari halda səcdə edilməsi caiz olmayan başqa şeylərə səcdə edilməsin. Əgər əlin arxasına da səcdə mümkün olmasa, pambıq, kətan, qır, qətran oluncaya qədər başqa bir şeyə səcdə edilməsin.

**Məsələ:** ١٠٩٤. Üstündə alnın aram dayanmadığı palçıq və yumşaq torpağa səcdə batildir.

**Məsələ:** ١٠٩٥. Əgər birinci səcdədə möhür alına yapışıb qalarsa, ikinci səcdə üçün o alından götürülməlidir.

**Məsələ:** ١٠٩٦. Əgər namaz əsnasında səcdə etdiyi şey itərsə və səcdə edilməsi səhih olan başqa bir şey tapılmasa, vaxtın geniş olduğu surətdə namazı pozmalı və əgər vaxt dardırsa, ١٠٩٣-cü məsələdə deyilmiş tərtibə əməl etməlidir.

**Məsələ:** ١٠٩٧. Əgər bir şəxs səcdədə ikən alnını qoyduğu şeyin səcdə edilməsi batil olan şeylərdən olduğunu başa düşsə, bu halda vaxt genişdirsə və səcdə edilməsi səhih olan bir şeyin üzərinə alnını qoyub səcdə etməyi mümkündürsə, alnını o şeyin üzərindən qaldırıb həmin şeyi üzərinə qoymalı və səcdə etməlidir. Vacib ehtiyata əsasən, iki səhv səcdəsi də yerinə yetirməlidir. Əgər mümkün olmasa, namazı əvvəldən başlamalıdır. Amma vaxt dar olduqda ١٠٩٣-cü məsələdə deyilmiş tərtibə əməl edəcək.

**Məsələ:** ١٠٩٨. Əgər səcdəni yerinə yetirdikdən sonra, alnını qoyduğu şeyin səcdə edilməsi batil olan şeylərdən olduğunu başa düşərsə, üzərinə səcdə səhih olan bir şeyə səcdə etməli və vacib ehtiyata əsasən, iki səhv səcdəsi də yerinə yetirməlidir. Əgər bu iş bir rükətin iki səcdəsində baş verərsə namaz batildir.

**Məsələ:** ١٠٩٩. Mütəal Allahdan başqası üçün səcdə etmək haramdır. Bə'zi adamların imamların (əleyhimussalam) məzarları qarşısında alınlarını yerə qoymaları Allaha şükr etmək üçün olsa, eybi yoxdur, əks təqdirdə isə haramdır.

## SƏCDƏDƏ MÜSTƏHƏBB VƏ MƏKRUH OLAN ŞEYLƏR

**Məsələ:** ١١٠٠. Səcdədə bir neçə şey müstəhəbbdir:

١. Ayaq üstə namaz qılan şəxs rükudan qalxıb düz dayanandan sonra, oturan halda namaz qılan şəxs isə kamil surətdə oturduqdan sonra səcdəyə getmək üçün təkbir deməsi.

٢. Səcdəyə getmək istərkən kişinin əvvəlcə əllərini, qadının isə əvvəlcə dizlərini yerə qoyması.

٣. Burnu da möhür, yaxud üzərinə səcdə etmək səhih olan şeyin üzərinə qoymaq.

٤. Səcdə halında əlin barmaqlarını bir-birinə yapışdırıb, ucları qibləyə tərəf olmaqla qulaqların bərabərində yerə qoymaq.

٥. Səcdədə dua etmək, Allahdan öz hacətlərini diləmək və bu duanı oxumaq:

**يا خَيْرَ الْمَسْؤُلِينَ وَ يا خَيْرَ الْمُعْطِينَ اُرْزُقْنِي وَ ارْزُقْ عِيالِي مِنْ فَضْلِكَ الْواسِعِ فَاِنَّكَ ذُو الْفَضْلِ الْعَظِيمِ**

*«Ya xəyrəl-məs'ulinə və ya xəyrəl-mu'tin, urzuqni vərzuq iyali min fəzlikəl-vasi' fəinnəkə zul-fəzlil-əzim»*. Yə'ni "Ey ehtiyacların istənildiyi kəslərin ən yaxşısı və əta edənlərin ən yaxşısı, mənə və ailəmə Öz fəzl və rəhmətindən ruzi ver! Çünki Sən böyük fəzl (mərhəmət) sahibisən."

٦. Səcdədən sonra sol budun üstündə oturmaq və sağ ayağın üstünü sol ayağın altına qoymaq.

٧. Hər bir səcdədən qalxıb oturduqdan və bədən aram olandan sonra təkbir demək.

٨. Birinci səcdədən sonra bədən aram ikən «əstəğfirullahə Rəbbi və ətubu iləyh» demək.

٩. Səcdəni uzatmaq və oturan vaxt əlləri budların üzərinə qoymaq.

١٠. İkinci səcdəyə getmək üçün bədən aram olan halda «Allahu Əkbər» demək.

١١. Səcdələrdə salavat göndərmək.

١٢. Ayağa qalxarkən əlləri dizlərdən sonra yerdən qaldırmaq.

١٣. Kişilərin dirsək və qarınlarını yerə yapışdırmaması, qollarını böyürlərindən aralı saxlaması, qadınların isə dirsək və qarınlarını yerə yapışıq və bədən üzvlərinin bir-birinə yapışıq şəkildə saxlaması.

Səcdənin digər müstəhəbb əməlləri müfəssəl kitablarda deyilmişdir.

**Məsələ:** ١١٠١. Səcdədə Qur'an oxumaq məkruhdur. Həmçinin, səcdə yerindən toz-torpağı aradan aparmaq üçün üfürmək məkruhdur. Əgər üfürərkən qəsdən ağızdan bir hərf çıxsa, onun hökmü namazı batil edənlərin altıncısında qeyd olunub.

Başqa məkruh əməllər də müfəssəl kitablarda deyilmişdir.

## QUR'ANIN VACİB SƏCDƏSİ

**Məsələ:** ١١٠٢. Qur'anın bu dörd surəsinin "Ən-nəcm", "İqrə", "Səcdə" və "Fussilət" hər birində bir səcdə ayəsi vardır ki, əgər bir şəxs həmin ayəyə qulaq assa, ya oxusa, ayə tamam olandan sonra dərhal səcdə etməlidir. Əgər səcdə etməyi unutsa, yadına düşdüyü hər vaxt səcdəni etməlidir. Amma namaz halında olsa, onda ٩٩٢, ٩٩٣, ٩٩٤-cü məsələlərdə deyilmiş qaydaya əməl etməlidir. Lakin qeyri-ixtiyari olaraq səcdə ayəsini eşitmiş olsa, müstəhəbb ehtiyata əsasən, səcdə etməlidir.

**Məsələ:** ١١٠٣. Əgər şəxs səcdə ayəsini dinləyərkən özü də oxusa, iki səcdə yerinə yetirməlidir.

**Məsələ:** ١١٠٤. Əgər şəxs namazdan qeyri hallarda səcdə halında ikən səcdə ayəsi oxusa, ya dinləsə, səcdədən baş qaldırıb yenidən səcdə etməlidir.

**Məsələ:** ١١٠٥. Əgər şəxs, yaxşını-pisi anlamayan qeyri-müməyyiz uşaqdan, ya Qur'an oxumaq qəsdi olmayan bir kəsdən, ya qramafondan, ya maqnitofondan səcdə ayəsinə qulaq asarsa, səcdə etmək ona vacib deyildir. Lakin bir şəxs radio studiyasında canlı olaraq səcdə ayəsini Qur'an qəsdilə oxusa və insan radio vasitəsilə ona qulaq assa, ona səcdə etmək vacib olar.

**Məsələ:** ١١٠٦. Qur'anın vacib səcdəsini yerinə yetirərkən şəxsin yeri qəsbi olmamalı və vacib ehtiyata əsasən, alnın yeri onun (ayaq) baş barmaqlarının yerindən dörd bağlı barmaqdan hündür olmamalıdır. Ancaq dəstəmaz ya qüsl etməklə təharətli olmaq, övrəti örtmək, bədən və alnın pak olması lazım (vacib) deyildir. Həmçinin, namaz qılanın paltarında şərt olanlar onun paltarında şərt deyildir.

**Məsələ:** ١١٠٧. Qur'anın vacib səcdəsini yerinə yetirərkən alnı üzərinə səcdə edilməsi səhih olan bir şeyin üzərinə qoymaq lazımdır. Vacib ehtiyata əsasən, bədənin digər üzvlərini də namazın səcdəsində deyilmiş qaydada yerə qoymaq lazımdır.

**Məsələ:** ١١٠٨. Qur'anın vacib səcdəsində əgər bir şəxs alnını səcdə niyyəti ilə yerə qoysa, zikr deməsə də, kifayətdir, zikri demək isə müstəhəbbdir. Yaxşı olar ki, belə desin:

**لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ حَقّاً حَقّاً لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ اِيْمَاناً وَ تَصدِيْقاً، لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ عُبُودِيَّةً وَ رِقّاً، سَجَدْتُ لَكَ يَا رَبِّ تَعَبُّداً وَ رِقّاً لاَ مُسْتَنْكِفاً وَ لاَ مُسْتَكْبِراً بَلْ اَنَا عَبْدٌ ذَلِيلٌ ضَعِيفٌ خائِفٌ مُسْتَجِيرٌ**

***«La ilahə illəllahu həqqən həqqa, la ilahə illəllahu imanən və təsdiqa, la ilahə illəllahu ubudiyyətən və riqqa, səcdədtu ləkə ya Rəbbi təəbbudən və riqa, la mustənkifən və la mustəkbirən, bəl ənə əbdun zəlilun zəifun xaifun müstəcir».***

***Təşəhhüd***

**Məsələ:** ١١٠٩. Bütün vacib və müstəhəbb namazların ikinci, məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının dördüncü rükətində şəxs ikinci səcdədən sonra təşəhhüd deməlidir. Yə'ni:

**اَشْهَدُ اَنْ لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، وَ اَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَ رَسُولُهُ، اَللّٰهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ**

***«Əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, Əllahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd»*** kəlmələrini deməlidir. Vacib ehtiyat budur ki, deyilmiş bu tərzdən qeyrisi ilə deyilməsin. Təşəhhüd vətr namazında da lazımdır. Vacib namazların ikinci rükətinin ikinci səcdəsindən sonra oturaraq bədən aram, hərəkətsiz olandan sonra

təşəhhüd oxunmalıdır. Ancaq müstəhəbb namazlarda oturmaq və bədənin aramlığı vacib deyildir.

**Məsələ:** ١١١٠. Təşəhhüdün kəlmələri ərəbcə düzgün və adi qaydada ardıcıl deyilməlidir.

**Məsələ:** ١١١١. Əgər təşəhhüd bir kəsin yadından çıxsa və ayağa qalxsa, rükuya getməmiş yadına düşsə, oturmalı və təşəhhüdü deməlidir. Sonra yenidən qalxıb həmin rükətdə oxunmalı olanları oxuyub, namazı tamamlamalıdır. Namazdan sonra müstəhəbb ehtiyata əsasən, yersiz ayağa qalxdığı üçün iki səhv səcdəsi yerinə yetirməlidir. Əgər rükuda ikən, yaxud rükudan sonra yadına düşərsə, bu halda namazı tamamlamalı və namazın salamından sonra müstəhəbb ehtiyata əsasən, təşəhhüdün qəzasını yerinə yetirməlidir. Yaddan çıxmış təşəhhüd üçün iki səhv səcdəsi də yerinə yetirməlidir.

**Məsələ:** ١١١٢. Təşəhhüd halında sol budun üzərində oturmaq müstəhəbbdir. Həmçinin, sağ ayağın üstünü sol ayağın altına qoymaq, təşəhhüddən əvvəl اَلْحَمْدُ لِلَّهِ ***«Əl-həmdu lillah»,*** ya

بِسْمِ اللَّهِ وَ بِاللَّهِ وَ الْحَمْدُ لِلَّهِ وَ خَيْرُ الْأَسْماءِ لِلَّهِ

***«Bismillahi və billah, vəl-həmdu lillah və xəyrul-əsmai lillah»*** demək; eləcə də əli budların üzərinə qoymaq, barmaqlarını bir-birinə yapışdırmaq və şəxsin öz ətəyinə baxması və birinci təşəhhüdün salavatından sonra

وَ تَقَبَّلْ شَفاعَتَهُ وَ ارْفَعْ دَرَجَتَهُ

***«vətəqəbbəl şəfaətəhu vərfə' dərəcətəh»*** cümləsini demək müstəhəbbdir.

**Məsələ:** ١١١٣. Təşəhhüd oxuyarkən qadınların budlarını bir-birinə yapışdırması müstəhəbbdir.

***Namazın salamı***

**Məsələ:** ١١١٤. Namazın axırıncı rükətinin təşəhhüdündən sonra oturan halda və bədən aram olandan sonra

اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا النَبِيُّ وَ رَحْمَةُ اللَّهِ وَ بَرَكاتُهُ

***«Əssəlamu ələykə əyyuhən-Nəbiyyu vərəhmətullahi və bərəkatuh»*** demək müstəhəbdir. Ondan sonra

اَلسَّلامُ عَلَيْنا وَ عَلى عِبادِ اللَّهِ الصالِحِينَ

***«Əs-səlamu ələyna və əla ibadillahis-salihin»,*** yaxud

اَلسَّلامُ عَلَيْكُمْ

***«Əs-səlamu ələykum»*** demək lazımdır. ***«Əs-səlamu ələykum»*** cümləsinə وَ رَحْمَةُ اللَّهِ وَ بَرَكاتُهُ ***«Və-rəhmətullahi və bərəkatuh»*** kəlməsini

əlavə etmək müstəhəbdir. Əgər ***«Əs-səlamu ələyna və əla ibadillahis-salihin»*** cümləsini əvvəl desə, ondan sonra ***«əs-səlamu ələykum və rəhmətullahi və bərəkatuh»*** cümləsini də demək müstəhəbbdir.

**Məsələ:** ١١١٥. Əgər bir şəxs namazın salamını unutsa, namaz halından çıxmamış və qiblədən dönmək kimi qəsdən, ya səhvən baş verməsi namazı batil edən bir iş baş verməmiş yadına düşərsə, namazın salamını deməlidir və namazı səhihdir.

**Məsələ:** ١١١٦. Əgər namazın salamını unutsa və qiblədən dönmək kimi istər qəsdən, istərsə də səhvən baş verdikdə namazı batil edən bir iş gördükdən sonra yadına düşsə, namazı batildir. Amma əgər namaz halından çıxdıqdan sonra yadına düşsə, lakin istər qəsdən, istərsə də səhvən baş verdikdə namazı batil edən bir iş görməmiş olsa, bu surətdə ehtiyata əsasən, namazı batildir.

***Tərtib***

**Məsələ:** ١١١٧. Namazın tərtibini qəsdən pozsa, məsələn, surəni Həmddən əvvəl surə oxuduqda namaz batil olar. Amma şəxs cahili-qasir olduqda və pozduğu tərtib iki rükndən (məsələn, iki səcdə və rükudan) qeyrisi olsa, namazı səhihdir.

**Məsələ:** ١١١٨. Əgər şəxs namazın rüknündən birini unudub sonrakı rüknü yerinə yetirsə, məsələn, əvvəl rüku etməzdən qabaq iki səcdəni yerinə yetirsə, namazı batildir.

**Məsələ:** ١١١٩. Əgər rüknü unudub, ondan sonra rükn olmayan bir əməli yerinə yetirsə, məsələn, iki səcdəni yerinə yetirmədən təşəhhüdü oxusa, rüknü yerinə yetirməlidir və ondan əvvəl səhvən yerinə yetirdiyini yenidən deməlidir.

**Məsələ:** ١١٢٠. Əgər rükn olmayan bir şeyi unutsa və ondan sonra rükn olan bir əməli yerinə yetirsə, məsələn, Həmdi unudub, rükuya getsə namazı səhihdir.

**Məsələ:** ١١٢١. Əgər rükn olmayan bir şeyi unutsa və ondan sonrakı rükn olmayan bir əməli yerinə yetirsə, məsələn, Həmdi unudub, surəni oxusa, unutduğunu yerinə yetirib ondan sonra səhvən əvvəlcə yerinə yetirdiyi ikinci dəfə yerinə yetirməlidir.

**Məsələ:** ١١٢٢. Əgər birinci səcdənin, ikinci səcdə olduğunu, ya ikinci səcdənin birinci səcdə olduğunu güman edib yerinə yetirsə, namazı səhihdir və onun birinci səcdəsi birinci, ikinci səcdəsi isə ikinci hesab olunur.

***Muvalat (ardıcıllıq)***

**Məsələ:** ١١٢٣. Şəxs namazı muvalatla – ardıcıllıqla qılmalıdır. yə`ni, namazın rüku, səcdə, təşəhhüd kimi əməllərini ardıcıl olaraq yerinə yetirməli və onların arasında, namaz halı pozulacaq qədər fasilə salmamalıdır. Həmçinin, namazda oxuduğu şeyləri də adi qaydada, bir-

birinin ardınca oxumalıdır. Əgər onların arasında «namaz qılır» deyilməyəcək dərəcədə fasilə salsa, namazı batildir.

**Məsələ:** ١١٢٤. Əgər bir şəxs namazda qəsdən onun hərfləri, ya kəlmələri arasında, kəlmənin forması (quruluşu), yaxud kəlmələrin tərkibinin dəyişəcəyi qədər fasilə versə, namaz batildir. Amma şəxs cahili-qasir olsa və həmçinin, bu fasilə namazın surətini pozmayacaq qədər olsa və təkbirətul-ehramda da olmasa, namaz batil olmaz. Əgər səhvən kəlmələrin və hərflərin arasında fasilə versə və bu fasilə namazı pozacaq qədər olmasa və təkbirətul-ehramda da olmasa, bu halda sonrakı rüknə başlamayıbsa, həmin kəlmə və hərfləri yenidən, adi qaydada oxumalıdır və fasilə verdiyi şeydən sonra bir şey oxumuşdursa, onu təkrar yerinə yetirməlidir. Əgər sonrakı rüknə başlayıbsa, namazı səhihdir. Əgər ondan sonrakı əməl, axırıncı təşəhhüd kimi, namazın rüknü olmayan bir əməldirsə, bu halda salamdan qabaq yadına düşsə, o hissəni və ondan sonrakını yenidən oxumalıdır. Əgər namazın salamından sonra başa düşsə, namazı səhihdir. Amma salamın hərf və kəlmələri arasında muvalatı pozacaq dərəcədə fasilə versə, vəzifəsi ١١١٥ və ١١١٦-cı məsələlərdə deyildiyi kimi, yaddan çıxmış salamın hökmüdür.

**Məsələ:** ١١٢٥. Rüku və səcdələri uzatmaq, böyük surələri oxumaq muvalata xələl gətirməz.

***Qunut***

**Məsələ:** ١١٢٦. Bütün vacib və müstəhəbb namazların ikinci rükətin qiraətindən sonra və rükudan əvvəl qunut oxumaq müstəhəbbdir. Şəf' namazında əhvət budur ki, mətlubiyyət-rəca qəsdilə qunut oxunar. Vətr namazının bir rükətli olmasına baxmayaraq, rükudan öncə qunut oxumaq müstəhəbbdir. Cümə namazının hər rükətində bir, ayət namazlarında beş, fitr və qurban bayramı namazında birinci rükətdə beş, ikincidə dörd qunut vardır. Vacib ehtiyat budur ki, fitr və qurban bayramı namazlarında qunut tərk olunmasın.

**Məsələ:** ١١٢٧. Qunutda əlləri üzün müqabilində tutmaq, onların içini səmaya tərəf tutmaq və bir-birinin yanında saxlamaq, baş barmaqdan savayı digər barmaqları bir-birinə yapışdırmaq və əllərin içinə baxmaq müstəhəbbdir.

**Məsələ:** ١١٢٨. Qunutda hər hansı bir zikr, dua, münacat dilə gəlsə, hətta bir dəfə «Subhanəllah» kəlməsi də deyilmiş olsa, kifayətdir. Yaxşı olar ki, bu zikr deyilsin:

لاَ اِلٰهَ اِلاَّ اللَّهُ الْحَلِيمُ الْكَرِيمُ، لاَ اِلٰهَ اِلاَّ اللَّهُ العَلِيُّ الْعَظِيمُ، سُبْحَانَ اللَّهِ رَبِّ السَّمَوَاتِ السَّبْعِ وَ رَبِّ الْأَرَضِينَ السَّبْعِ وَ مَا فِيْهِنَّ وَ مَا بَيْنَهُنَّ وَ رَبِّ الْعَرشِ الْعَظِيْمِ وَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

***«La ilahə illəllahul-həlimul-kərim, la ilahə illəllahul-əliyyul-əzim. Subhanəllahi Rəbbis-səmavatis-səb'i və Rəbbil-ərəzinəs-səb'i və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim. Vəl-həmdu lillahi Rəbbil-aləmin».***

**Məsələ:** ١١٢٩. Qunutu ucadan oxumaq müstəhəbbdir. Lakin şəxs namazı camaatla qılsa və İmam camaat onun səsini eşidərsə ucadan qunut oxuması, məkruhdur.

**Məsələ:** ١١٣٠. Əgər bir şəxs qəsdən qunutu oxumasa qəzası yoxdur. Lakin yaddan çıxarsa və rüku qədərində əyilməmiş yadına düşərsə, qalxıb qunut oxumağı müstəhəbbdir. Əgər rükuda yadına düşərsə, bu surətdə rükudan sonra onu qəza etməsi müstəhəbbdir. Əgər səcdədə yadına düşərsə, müstəhəbbdir ki, namazın salamından sonra onu qəza etsin.

## NAMAZIN TƏRCÜMƏSİ

***١ – «Həmd» surəsinin tərcüməsi:***

"Bismillahir-Rəhmanir-Rəhim, «Bismillah» – yə'ni, bütün kamal sifətlərini özündə cəmləşdirən, hər bir eyb və nöqsandan pak-pakizə olan və ağlın (Onun həqiqətini dərk etməkdə) heyrətdə qaldığı bir Zatın adı ilə başlayıram.

«Ər-Rəhman» – yə'ni, rəhməti geniş və sonsuzdur və dünyada həm mö'minə, həm də kafirə şamildir.

«Ər-Rəhim»- yə'ni Onun rəhməti zati, əzəli və əbədidir, axirətdə yalnız mö'minlərə məxsusdur.

«Əl-həmdu lillahi Rəbbil-aləmin» – yə'ni həmd, tə'rif yalnız bütün yaradılmışları kamala çatdıran Allaha məxsusdur.

«Ər-Rəhmanir-Rəhim»-mə'nası yuxarıda deyildi.

«Maliki yəvmiddin» – yə'ni, qiyamət gününün maliki, sahibidir.

«İyyakə nə'budu və iyyakə nəstəin» – yə'ni yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.

«İhdinəs-siratəl-mustəqim» – yə'ni, bizi düz yola hidayət et!

«Siratəlləzinə ən'əmtə ələyhim»-yə'ni, ne'mət verdiyin kəslərin yoluna ki, onlar payğəmbərlər, onların canişinləri, şəhidlər, siddiqlər və Allahın ləyaqətli bəndələridirlər.

«Ğəyril-məğzubi ələyhim vələzzallin» – yə'ni, nəinki yolunu azmışların və qəzəbə düçar olmuşların yoluna!

**٢ – *«Qul huvəllahu əhəd» surəsinin tərcüməsi:***

«Bismillahir-Rəhmanir-Rəhim» – mə'nası yuxarıda deyildi.

«Qul huvəllahu əhəd» – yə'ni de; Ey Muhəmməd! O, tək (yeganə) Allahdır.

«Əllahus-səməd» – yə'ni, O Allah ki, bütün varlıqlardan ehtiyacsızdır və bütün varlıqlar Ona ehtiyaclıdır.

«Ləm yəlid vələm yuləd» – yə'ni, (Onun) övladı yoxdur və O da kiminsə övladı deyildir.

«Vələm yəkun ləhu kufuvən əhəd» – yə'ni, Ona tay, bərabər olacaq bir kəs (bir şey) yoxdur.

**٣ – *Rükunun, səcdənin və onlardan sonra müstəhəbb olan zikrlərin tərcüməsi:***

«Subhanə Rəbbiyəl-əzimi və bi həmdih» – yə'ni: Mənim böyük, əzəmətli, uca Pərvərdigarım hər bir eyb və nöqsandan pak-pakizə, münəzzəh və qüsursuzdur, Mən Onu tə'rif etməklə məşğulam.

«Subhanə Rəbbiyəl-ə'la və bi həmdih» – yə'ni: Mənim Rəbbim bütün varlıqlardan uca, hər bir eyb və nöqsandan pakdır və mən Ona sitayiş, həmd edirəm.

«Səmiəllahu limən həmidəh» – yə'ni: Allah, Ona sitayiş, həmd edənin duasını eşitsin və Onu qəbul etsin!

«Əstəğfirullahə Rəbbi və ətubu iləyh» – yə'ni: Mən, məni tərbiyə edib kamala yetirən Rəbbimdən bağışlanmaq diləyir və Ona tərəf qayıdıram».

«Bihovlillahi və quvvətihi əqumu və əq'ud» – yə'ni: Yalnız Allahın köməyi ilə qalxır və otururam.

**٤ – *Qunutun tərcüməsi:***

«La ilahə illəllahul-həlimul-kərim» – yə'ni: Kərəm və helm sahibi olan uca Allahdan başqa, (ibadətə layiq) heç bir mə'bud yoxdur.

«La ilahə illəllahul-əliyyul-əzim»-yə'ni: Böyük və uca məqamlı Allahdan başqa heç bir mə'bud yoxdur.

«Subhanəllahi Rəbbis-səmavatis-səb'i və Rəbbil-ərəzinəs-səb'i»-yə'ni: Yeddi qat göyün və yeddi qat yerin rəbbi olan Allah pak-pakizə və qüsursuzdur.

«Vəma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim»-yə'ni: Göylərin və yerlərin özündə, onların arasında olanların və böyük ərşin Rəbbidir O!

«Vəl-həmdu lillahi Rəbbil-aləmin» – yə'ni: Həmd, tə'rif yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur!

***٥ – Təsbihati-ərbəanin tərcüməsi:***

«Subhanəllahi vəl-həmdu lillahi vəla ilahə illəllahu vəllahu əkbər»-yə`ni: Allah pak, hər növ eyb və nöqsandan pakizə və qüsursuzdur. Həmd və səna ancaq Ona məxsusdur. Allahdan başqa heç bir mə'bud yoxdur. Vəsf edilə bilməyəcək dərəcədə böyükdür.

***٦ – Təşəhhüd və salamın tərcüməsi***

«Əl-həmdu lillah, əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh»- yə'ni, həmd-səna və tə'rif yalnız Allaha məxsusdur. Şəhadət verirəm ki, yeganə Allahdan başqa heç bir mə'bud yoxdur və Onun heç bir şəriki yoxdur.

«Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh»- yə'ni: Şəhadət verirəm ki, həzrət Muhəmməd (səlləllahu əleyhi və alih) Onun bəndəsi və elçisidir.

«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd»- yə'ni: Ey Allahım! Muhəmməd və ali-Muhəmmədə salavat (rəhmət) göndər!

«Vətəqəbbəl şəfaətəhu vərfə' dərəcətəh» – yə'ni: Peyğəmbərin şəfaətini qəbul et və onun dərəcəsini (Öz yanında) uca et!

«Əs-səlamu ələykə əyyuhən-Nəbiyyu vərəhmətullahi və bərəkatuh» – yə'ni: Ey Peyğəmbər! Allahın salamı, rəhmət və bərəkəti sənə olsun!

«Əs-səlamu ələyna və əla ibadillahis-salihin» – yə'ni: Allahın salamı biz namaz qılanlara və saleh, ləyaqətli bəndələrinə olsun!

«Əs-səlamu ələykum və rəhmətullahi və bərəkatuh» –yə'ni: Allahın salamı, rəhmət və bərəkəti siz mö'minlərə olsun! («Siz» kəlməsindən məqsəd, bu kəlmənin həqiqi və gerçək mə'nası olmalıdır, onun bə'zi rəvayətlərdən mə'lum olduğu kimi, sağ və sol çiyinlərdəki mələklər və mö'minlərdir.)

## NAMAZIN TƏ'QİBATI

**Məsələ:** ١١٣١. İnsanın namazdan sonra bir qədər tə'qibatla məşğul olması müstəhəbbdir. Yə'ni zikr, dua və Qur'an oxumaqla məşğul olsun. Daha yaxşı olar ki, öz yerindən hərəkət etməmiş, dəstəmazı, qüslü və ya təyəmmümü batil olmamış üzü qibləyə olduğu halda tə'qibatla məşğul olsun. Tə'qibatın ərəbcə oxunması lazım (vacib) deyil. Lakin yaxşı olar ki, dua kitablarında göstərmiş verilmiş şeyləri yerinə yetirsin. Daha çox tövsiyə edilən tə'qibatlardan biri də Həzrət Zəhra (əleyha ssalam)-ın təsbihidir. O, bu qayda ilədir: ٣٤ dəfə «Allahu Əkbər», sonra ٣٣ dəfə «Əlhəmdu lillah» və sonra ٣٣ dəfə «Subhanəllah».

**Məsələ:** ١١٣٢. Namazdan sonra şükür səcdəsi yerinə yetirmək müstəhəbbdir və alnı şükr səcdəsi qəsdilə yerə qoymaq kifayət edər.

Lakin yaxşı olar ki, yüz, ya üç, ya da bir dəfə «Şukrən lillah», yaxud «Əfvən» deyilsin. Həmçinin, hər vaxt insana bir ne'mət yetişdisə, ya bir bəla ondan uzaqlaşdısa, şükür səcdəsi yerinə yetirmək müstəhəbbdir.

## PEYĞƏMBƏRƏ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) SALAVAT GÖNDƏRMƏK

**Məsələ:** ۱۱۳۳. İnsan hər vaxt Həzrət Rəsuli Əkrəmin (səlləllahu əleyhi və alih) mübarək adını (məsələn, Muhəmməd, Əhməd), yaxud ləqəb və künyəsini (məsələn, Mustəfa, Əbul-Qasim) desə, yaxud eşitsə, hətta namaz halında olsa da belə, salavat göndərməsi müstəhəbbdir.

**Məsələ:** ۱۱۳٤. Həzrət Rəsuli Əkrəmin (səlləllahu əleyhi və alih) mübarək adını yazarkən salavatı da yazmaq müstəhəbbdir. Həmçinin, o Həzrəti yad etdiyi hər zaman ona salavat göndərmək müstəhəbbdir.

## NAMAZI BATİL EDƏN ŞEYLƏR

**Məsələ:** ۱۱۳٥. On iki şey namazı batil edər və onlara «mubtilat» deyilir.

۱. Namaz əsnasında onun şərtlərindən biri pozulduqda, məsələn, satirin (övrətini örtdüyü şeyin) qəsbi olduğunu başa düşərsə.

۲. Namaz əsnasında qəsdən, ya səhvən və yaxud çarəsizlikdən dəstəmazı, ya qüslü batil edən işlərdən biri baş versə, məsələn, bövl xaric olarsa. Lakin bövl və ğaitin xaric olmasını saxlaya bilməyən şəxsdən namaz əsnasında bunlardan biri xaric olarsa, bu halda dəstəmazın hökmlərində deyildiyi kimi əməl etsə, namazı batil olmaz. Həmçinin, istihazəli qadından namaz əsnasında qan xaric olarsa, istihazənin qaydalarına riayət etdiyi surətdə namazı səhihdir.

**Məsələ:** ۱۱۳٦. Qeyri-ixtiyari olaraq yuxlayan şəxs, əgər namaz əsnasındamı, yoxsa ondan sonra yuxladığını bilməsə, vacib ehtiyata əsasən, namazını (dəstəmaz alıb) yenidən qılmalıdır.

**Məsələ:** ۱۱۳۷. Əgər öz ixtiyarı ilə yuxladığını bilsə, amma namazdan sonramı, yoxsa namaz əsnasında və namazda olduğunu unudaraq yatdığı barədə şəkk etsə, namazı səhihdir.

**Məsələ:** ۱۱۳۸. Əgər səcdə halında yuxudan oyansa və namazın axırıncı səcdəsindəmi, yoxsa şükür səcdəsində olması barədə şəkk etsə, namazı yenidən qılmalıdır.

۳. Namazın mübtilatından üçüncüsü: əllərini namazın bir hissəsi olması qəsdilə bir-birinin üstünə qoymaq.

Əgər şəxs qasir cahil olsa, namazı batil olmaz. Həmçinin, vacib ehtiyata əsasən, qasir cahil olmayıb əlləri (namazın hissəsi olması niyyəti ilə deyil), ibadət qəsdilə bir-birinin üstünə qoyduğu surətdə də namazı batildir. Əgər şəxs qasir cahil olsa, namazı batil olmaz.

**Məsələ:** ١١٣٩. Əgər unutqanlıq, ya çarəsizlik üzündən, ya təqiyyə səbəbindən və ya başqa işlər üçün, məsələn, qaşımaq üçün əllərini biri-birinin üstünə qoysa, eybi yoxdur.

٤. Namazı batil edənlərdən dördüncüsü, Həmdi oxuyandan sonra dua qəsdi etmədən və ya namazın bir hissəsi olması qəsdilə «amin» demək. Hətta Həmdi oxuduqdan sonra, dua qəsdilə olsa da məhəlli-işkaldır. Lakin cahili-qasir olsa, yaxud səhvən və ya təqiyyə edərək desə, namazına eyb gətirməz.

٥. Namazı batil edənlərdən beşincisi qəsdən qiblədən arxaya yaxud sağa-sola dönmək. Hətta qəsdən «üzü qibləyədir» deyilməyəcək qədər sağa, ya sola tərəf dönsə, sağ ya sol tərəfə çatmasa da, namazı batildir. Amma səhv olaraq sağ və ya sol tərəfə çatmayacaq dərəcədə bir az dönsə, namazı səhihdir. Əgər sağ, ya sola çatsa və özü də bunu anlasa, vaxt olduğu surətdə, hətta bir rükət belə namaz qılmaq qədər də olsa, yenidən qılmalı, əgər bu qədər vaxt yoxdursa, ya vaxt ötdükdən sonra başa düşsə, qəzası yoxdur. Lakin qiblədən arxaya dönmüş olsa, vacib ehtiyata əsasən, qəza etməlidir.

**Məsələ:** ١١٤٠. Əgər bir şəxs qəsdən başını qiblənin sağ və sol tərəfi ilə müqabil olan (qiblədən ٩٠ dərəcə), ya ondan artıq dərəcədə döndərsə, namazı batildir. Amma "qiblədən dönmək" deyilməyəcək dərəcədə azacıq döndərsə, lakin qiblənin sağ və ya sol tərəf həddinə çatmasa, bu surətdə üzü döndərmək qəsdən olsa, namaz batildir, əgər səhvən olsa, namaz səhihdir. Əgər səhvən başını qiblənin sağ, ya sol tərəfi sayılan miqdarda döndərsə və sonra yadına düşsə, bu halda hətta bir rükət olsa belə namaz qılmaq qədərində vaxt olan təqdirdə vacib ehtiyata əsasən, namazı təzələməlidir. Əgər bu qədər vaxt qalmamışdırsa, yaxud vaxt ötdükdən sonra xatırlasa, qəzası yoxdur. Lakin əgər səhvən qiblədən arxaya çevrildiyi surətdə vacib ehtiyata əsasən, namazı qəza etməlidir.

٦. Namazı batil edənlərin altıncısı iki hərfdən az olmayan və mə'na ifadə edən bir söz danışmaqdır – istər həmin mə'nanı ifadə etməyi qəsd etsin, istərsə etməsin. Amma əgər cahili-qasir olsa, batil olmaz. Həmçinin, vacib ehtiyata əsasən, əgər iki hərf, ya daha artıq olsa, mə'nası olmasa da, eynilə. Hər halda əgər səhvən olsa, namaza bir eybi yoxdur və səhv səcdəsi yerinə yetirmək lazımdır.

**Məsələ:** ١١٤١. Əgər bir hərfi olan və mə'nası olan bir söz desə, məsələn, ərəb dilində «qoru» mə'nasını verən قِ «qi» sözünü desə və həmin mə'nanı qəsd etsə, namazı batil olar. Həmçinin, vacib ehtiyata əsasən, onun mə'nasını bilsə, amma həmin mə'nanı qəsd etməsə də, yaxud mə'nanı çatdırmasa belə, hökm eynidir.

**Məsələ:** ١١٤٢. Namazda öskürməyin, gəyirməyin eybi yoxdur və qəsdən ah-nalə etmək namazı batil edər. Amma cahili-qasir olsa, batil etməz.

**Məsələ:** ١١٤٣. Əgər bir kəlməni zikr qəsdilə, məsələn, zikr qəsdilə «Allahu Əkbər» desə və bu zaman başqasına bir şeyi anlatmaq üçün onu ucadan desə, eybi yoxdur. Lakin başqasına bir şeyi anlatmaq üçün desə, yaxud həm zikr, həm də başa salmanı hər ikisini qəsd edib desə, namaz batil olar. Amma təkbirətul-ehramdan başqasında və cahili-qasir olsa, (batil olmaz). Əgər zikr qəsdilə desə, amma onu bu işə vadar edən şey başqasına bir şeyi anlatmaq olsa, namaz batil olmaz.

**Məsələ:** ١١٤٤. Dörd vacib səcdə ayəsindən başqa namazın bir hissəsi olmaq qəsdilə deyil, təkcə Qur'an oxumaq qəsdilə, namazda Qur'an oxumaq və həmçinin, dua etməyin eybi yoxdur. Lakin müstəhəbb ehtiyat budur ki, ərəb dilindən qeyri dildə dua etməsin.

**Məsələ:** ١١٤٥. Əgər Həmd, surə və namazın zikrlərindən bir şeyi qəsdən və namazın bir hissəsi olmağını qəsd etmədən, yaxud ehtiyat üzündən bir neçə dəfə desə, eybi yoxdur. Lakin vasvasılıq ucbatından bir neçə dəfə desə, haramdır, amma namazın batil olması məhəlli-işkaldır.

**Məsələ:** ١١٤٦. İnsan namaz halında başqasına salam verməməlidir. Amma başqası ona salam versə, cavabını salam verilən tərzdə qaytarmaq lazımdır. Məsələn, əgər «səlamun əleykum» desələr, cavabında eynilə «səlamun əleykum» deməlidir. Lakin «əleykum əs-səlam» desə, bu surətdə vacib ehtiyata əsasən, cavabda «səlamun əleykum» deməlidir.

**Məsələ:** ١١٤٧. İnsan istər namazda, istərsə də ondan qeyri hallarda salamın cavabını dərhal və elə tərzdə almalıdır ki, camaat arasında salamın cavabı hesab olunsun. Əgər qəsdən, ya unudaraq salamın cavabını, o salamın cavabı hesab edilməyəcək dərəcədə gecikdirsə, bu halda namaz əsnasındadırsa, cavab verməməlidir. Əgər namazdan qeyri halda olsa, cavab vermək vacib deyildir.

**Məsələ:** ١١٤٨. Salamın cavabı, salam verənin eşidə biləcəyi tərzdə qaytarılmalıdır. Lakin salam verən kar olsa və ya salam verib sür'ətlə ötüb getsə, ona adi qaydada cavab verilməsi kifayətdir.

**Məsələ:** ١١٤٩. Namaz qılan salamın cavabını təhiyyət, yə'ni salamlamaq qəsdilə verməlidir, baxmayaraq ki, dua qəsdilə cavab verməyin maneəsi yoxdur.

**Məsələ:** ١١٥٠. Əgər qadın, ya kişi və ya müməyyiz – yaxşı-pisi ayırd edə bilən uşaq – namaz qılan şəxsə salam versə, namaz halında olan şəxs onun cavabını verməlidir. Lakin əgər qadın salamı «səlamun əleyk» kimi desə, vacib ehtiyata əsasən, onun cavabını da eyni olaraq

«səlamun əleyk» deyib «kaf» hərfinə zir və ya zəbər vermədən cavab verməlidir.

**Məsələ:** ١١٥١. Əgər namaz qılan şəxs salamın cavabını qaytarmasa, günah etməsinə baxmayaraq, namazı səhihdir.

**Məsələ:** ١١٥٢. Əgər bir şəxs namaz qılana, salam hesab olunan, amma səhv tərzdə salam versə, onun cavabı vacib və ehtiyata əsasən, səhih şəkildə qaytarılmalıdır. Amma salam hesab edilməyəcək dərəcədə səhv olsa, onun cavabını qaytarmaq caiz deyildir.

**Məsələ:** ١١٥٣. Məsxərə üzündən və ya zarafat üçün salam verənin cavabını almaq vacib deyildir. Qeyri-müsəlman kişi və qadının salamının cavabını almaq ehtiyat vacibə görədir və «salam», ya «əleyk» kəlməsilə kifayətlənməkdir. Baxmayaraq ki, əhvət nəzər «əleyk» kəlməsilə cavab verməsidir.

**Məsələ:** ١١٥٤. Əgər bir şəxs bir dəstə adama salam versə salamın cavabını qaytarmaq hamısına vacibdir, ancaq onlardan biri cavab versə kifayətdir.

**Məsələ:** ١١٥٥. Əgər bir şəxs bir dəstə adama salam versə və salam verənin nəzərdə tutmadığı bir şəxs ona cavab versə, salamın cavabı qalanlarının öhdəsindən düşmür.

**Məsələ:** ١١٥٦. Əgər bir şəxs bir dəstə adama salam versə və onların arasında namaza məşğul olan şəxs salam verənin onu da qəsd edib-etmədiyində şəkk etsə, tərəddüd etsə, cavab verməməlidir. Həmçinin, salam verənin onu da qəsd etdiyini bilsə və başqası onun cavabını versə, (cavab verməməlidir). Ancaq salam verənin məqsədinin ona da salam vermək olduğunu bilsə və başqası onun cavabını qaytarmasa, o, salam verənin cavabını verməlidir.

**Məsələ:** ١١٥٧. Salam vermək müstəhəbbdir. Süvarinin piyadaya, ayaq üstə olanın oturana və kiçiyin böyüyə salam verməsinə çoxlu tövsiyə olunmuşdur.

**Məsələ:** ١١٥٨. Əgər iki şəxs biri-birinə eyni zamanda salam versə ehtiyata əsasən, hər biri digərinin cavabını verməlidir.

**Məsələ:** ١١٥٩. Namazdan başqa hallarda salamın cavabını onun verildiyindən daha gözəl surətdə qaytarmaq müstəhəbbdir. Məsələn, əgər bir şəxs «səlamun ələykum» desə, cavabında «səlamun ələykum və rəhmətullah» demək müstəhəbbdir.

٧. Namazı batil edənlərin yeddincisi qəsdən və uca səslə gülməkdir. Cahili-qasir olsa, batil olmaz. Əgər qəsdən səssiz və ya səhvən uca səslə gülsə namazın eybi yoxdur.

**Məsələ:** ١١٦٠. Əgər ucadan gülməyin qarşısını almaq səbəbilə halı dəyişsə, məsələn, rəngi qızarsa, namazı yenidən qılması lazım deyil. Əgər başqa bir maneə, məsələn, namaz halından çıxmaq kimi bir iş baş versə, namazı yenidən qılmalıdır.

٨. Namazı batil edənlərin səkkizincisi vacib ehtiyata əsasən, dünya işləri üçün qəsdən ağlamaqdır. Cahili-qasir olsa, eybi yoxdur. Əgər Allahdan qorxmaq və ya axirət üçün ağlamış olsa onda, bu, əməllərin ən yaxşılarındandır.

٩. Camaat arasında «namaz qılır» deyilməyəcək şəkildə namazın surətinin pozulmasıdır. Məsələn, havaya tullanmaq və bu kimi işlər istər qəsdən, istərsə unutqanlıqdan baş versə. Lakin namazın surətini pozmayan işin, məsələn, əl ilə işarə etməyin eybi yoxdur.

**Məsələ:** ١١٦١. Əgər namaz əsnasında «namaz qılır» deyilə bilməyəcək qədər sakit dayansa, namazı batildir.

**Məsələ:** ١١٦٢. Əgər namaz əsnasında müəyyən bir iş görsə, yaxud bir müddət sakit qalsa və bunun nəticəsində namazın surətinin pozulub-pozulmadığında şəkk etsə namazı yenidən qılmalıdır, baxmayaraq ki, müstəhəbb ehtiyat namazı tamamlayıb yenidən qılsın.

١٠-cusu yemək və içməkdir. Əgər namazda istər qəsdən, istərsə də unutqanlıqdan «namaz qılır» deyilməyəcək şəkildə bir şey yeyib-içsə namazı batil olar. Amma əgər «namaz qılır» deyiləcək şəkildə olsa, bu halda qəsdən olsa, namazı ehtiyata əsasən, batildir. Əgər cahili-qasir olsa, ya unutqanlıq ucbatından olsa, namazın eybi yoxdur. Oruc tutmaq istəyən bir şəxs sübh azanından öncə vətr namazını qılsa və susuzluğa düçar olsa, namazı tamamlayacağı surətdə sübhün açılacağından qorxsa bu halda su onunla qarşı-qarşıya və onun bir neçə addımlığında olsa, namaz əsnasında su içə bilər. Amma üzü qiblədən çevirmək kimi namazı batil edən bir iş görməməlidir.

**Məsələ:** ١١٦٣. Əgər namaz əsnasında dişlərinin dibində qalmış yemək qalığını udsa, namaz batil olmaz. Həmçinin, ağızda qalan qənd, şəkər və bu kimi şeylər tədricən əriyib suya çevrilsə və namaz əsnasında udsa, eybi yoxdur.

١١. İki rükətli namazların, məsələn, sübh və müsafirin namazı kimi, ya üç rükətli, ya da dörd rükətli namazların əvvəldəki iki rükətlərinin sayında şəkk etdikdə; bu, o surətdədir ki, namaz qılan şəxs şəkk halında qalsın.

١٢. Namazın rüknünü qəsdən və ya səhvən azaltmaq, yaxud rükn olmayan bir şeyi qəsdən azaldıb çoxaltmaqdır. Bu da cahili-qasir olmayana aiddir. Amma əgər bir şəxs rükunu və yaxud bir rükətdə iki səcdəni qəsdən ya səhvən artırarsa, namazı batil olar. Lakin təkbirətul-ehramın səhvən artırılması namazı batil edənlərdən deyil və cahili-qasirin onu qəsdən artırdığı halda namazın batil olması məhəlli-işkaldır.

**Məsələ:** ١١٦٤. Əgər bir şəxs, namazdan sonra, namaz əsnasında namazı batil edən bir iş yerinə yetirib-yetirmədiyində şəkk edərsə, namazı səhidir.

## NAMAZDA MƏKRUH OLAN ŞEYLƏR

**Məsələ:** ١١٦٥. Namazda üzü sağ və ya sol tərəfə «üzünü qiblədən döndərdi» deyilməyəcək dərəcədə azacıq döndərmək məkruhdur, əks halda isə (sağa-sola döndərdi deyilərsə) batildir. Necə ki, deyildi. Həmçinin, namazda gözləri yummaq, gözü sağ-sola döndərmək, əli və saqqalı ilə oynamaq, barmaqlarını bir-birinə keçirmək, ağız suyunu atmaq, Qur'anın ya kitabın, ya da üzüyün yazılarına baxmaq məkruhdur. Eləcə də Həmd və surə oxuyarkən, zikr deyərkən başqasının sözünü eşitmək üçün sakit olmaq, ümumiyyətlə xüzu-xüşunu aradan aparacaq hər bir iş məkruhdur.

**Məsələ:** ١١٦٦. İnsanın yuxusu gəldiyi zaman, həmçinin bövl və qaitin qarşısını aldığı zaman namaz qılması məkruhdur. Həmçinin namazda ayağı sıxacaq dərəcədə dar corab geymək məkruhdur. Bundan əlavə sair məkruh əməllər də vardır ki, müfəssəl kitablarda qeyd olunmuşdur.

## VACİB NAMAZI POZMAĞIN CAİZ OLDUĞU HALLAR

**Məsələ:** ١١٦٧. İxtiyar üzündən vacib namazı pozmaq haramdır. Lakin malı qorumaq, mala ya bədənə dəyəcək zərərin qarşısını almaq üçün namazı pozmağın maneəsi yoxdur.

**Məsələ:** ١١٦٨. Əgər şəxsin öz canını, ya canının qorunması vacib olan bir kəsi, ya qorunması vacib olan malı qoruması namazı pozmadan mümkün deyilsə, namazı pozmalıdır.

**Məsələ:** ١١٦٩. Əgər namazın vaxtı geniş olan halda namaz qılsa və tələbkar öz haqqını ondan tələb etsə, bu halda onun tələbini namaz əsnasında verə bilərsə, həmin halda ödəməlidir. Əgər namazı pozmadan tələbi ödəmək mümkün deyilsə, namazı sındırıb borcunu ödəməli və sonra namaz qılmalıdır.

**Məsələ:** ١١٧٠. Əgər bir şəxs namaz əsnasında məscidin nəcis olduğunu başa düşsə, vaxt dar olduğu surətdə namazı tamamlamalıdır. Əgər vaxt genişdirsə və məscidi pak etmək namazın surətini pozmursa, elə namaz əsnasında məscidi pak etməli, sonra namazın ardını qılmalıdır. Əgər məscidi təmizləmək namazın surətini pozursa bu halda namazdan sonra məscidi pak etmək mümkündürsə, namazı pozmaq caiz deyildir. Amma məscidin nəcis olması məscidə ehtiramsızlığa səbəb olarsa bu surətdə namazı pozmalı, məscidi pak etməli və sonra namaz qılmalıdır. Həmçinin, namazdan sonra pak etmək mümkün olmadıqda da hökm eynidir.

**Məsələ:** ١١٧١. Namazını sındırmalı olan şəxs əgər namazı (pozmayıb) bitirərsə günah etməsinə baxmayaraq, namazı səhihdir. Baxmayaraq ki, müstəhəbb ehtiyat budur ki, onu yenidən qılsın.

**Məsələ:** ١١٧٢. Əgər şəxs rüku həddində əyilməmiş azan və iqaməni unutduğu xatırlayarsa, vaxtın geniş olduğu surətdə onları yerinə yetirmək üçün namazı sındırması müstəhəbbdir. Həmçinin, qiraətdən qabaq iqaməni unutduğunu xatırlayarsa da eyni hökmü daşıyır.

## ŞƏKKİYYAT

Namazın şəkkiyyatı ٢٣ qismdir. Onlardan səkkizi namazı batil edir, baxmayaraq ki, onların bə'zisində batil olmaq ehtiyata əsasəndir; altısına e'tina etmək lazım deyildir. Qalan doqquz qism isə səhih şəklərdir.

***Batil edən şəklər***

**Məsələ:** ١١٧٣. Namazı batil edən şəklər bunlardır:

١. Sübh və müsafirin namazları kimi iki rükətli vacib namazların rükətlərinin sayındakı şəkk; lakin müstəhəbb və ehtiyat namazlarının rükətlərinin sayında şəkk etmək namazı batil etməz.

٢. Üç rükətli namazın rükətlərinin sayında şəkk edildikdə.

٣. Dörd rükətli namazda bir rükət, yoxsa ondan çox qıldığında şəkk etdikdə.

٤. Dörd rükətli namazda ikinci səcdənin zikri tamam olmamış iki rükət, yoxsa daha çox qıldığında şəkk etdikdə.

٥. Neçə rükət qıldığını bilmədiyi namazın rükətlərinin sayında şəkk etdikdə.

٦. İki ilə beş, yaxud iki ilə beşdən artıq rükət arasında şəkk etdikdə; lakin bu şəkdə vacib ehtiyata əsasən, ikinci rükətdə olduğunu hesab edib, namazı tamalamalı və sonra yenidən qılmalıdır.

٧. Üç ilə altı rükət arasında, yaxud üç ilə altıdan çox rükət arasında şəkk etdikdə; lakin bu şəkdə vacib ehtiyata əsasən, üç rükət qıldığını hesab etməli və namazı tamamlayıb, sonra yenidən qılmalıdır.

٨. Dörd ilə altı arasında, yaxud dörd ilə altıdan çox rükət arasında şəkk etdikdə; bu surətdə vacib ehtiyata əsasən, dördüncü rükətdə olduğunu hesab edib namazı sona çatdırmalı və yenidən qılmalıdır.

**Məsələ:** ١١٧٤. Əgər batil edən şəklərdən biri insanın qarşısına çıxsa, şəkkin sabitləşməsi üçün bir az fikirləşməli və sonra (şəkdən çıxmazsa) namazı poza bilər. Daha yaxşı olar ki, namazın surəti pozulana qədər fikirləşsin.

***E'tina olunmayan şəklər***

**Məsələ:** ١١٧٥. E'tina olunmayacaq şəklər bunlardır:

١. Yerinə yetirilməsi məhəlli ötüb keçmiş şeylərdə şəkk etdikdə, məsələn, rükuda olduğu halda Həmdi oxuyub-oxumadığında şəkk etsə.

٢. Namazın salamından sonra şəkk etdikdə.

٣. Namazın vaxtı ötüb keçdikdən sonra şəkk etdikdə.

٤. Kəsiruş-şəkkin – yə'ni çox şəkk edən şəxsin şəkk etməsi.

٥. İmamın namazın rükətlərinin sayında şəkk etməsi, mə'mumun rükətlərin sayını bildiyi surətdə. Həmçinin, İmam rükətlərin sayını bildiyi halda mə'mumun rükətlərin sayında şəkk etməsi.

٦. Müstəhəbb və ehtiyat namazlarında şəkk edildikdə.

### ١. *Məhəlli keçmiş şeylərdə şəkk etmək*

**Məsələ:** ١١٧٦. Əgər bir şəxs namaz əsnasında, namazın vacib işlərindən hər hansı birini yerinə yetirib-yetirmədiyində şəkk etsə, məsələn, Həmdi oxuyub-oxumadığında şəkk etsə, bu halda ondan sonra yerinə yetirməsi vacib olan bir işlə məşğul deyilsə, şəkk etdiyini yerinə yetirməlidir. Əgər ondan sonrakı işə məşğuldursa, məsələn, surə oxuyarkən Həmdi oxuyub-oxumadığında şəkk etdikdə, öz şəkkində e'tina etməməlidir.

**Məsələ:** ١١٧٧. Əgər bir ayəni oxuyarkən ondan əvvəlki ayəni oxuyub-oxumadığında şəkk edərsə və yaxud ayənin axırını oxuyarkən əvvəlini oxuyub-oxumadığında şəkk edərsə, öz şəkkinə etina etməməlidir.

**Məsələ:** ١١٧٨. Əgər rüku və səcdələrdən sonra, onların vacib işlərində, məsələn, zikri və bədənin aram olmasını yerinə yetirib-yetirmədiyində şəkk etsə, öz şəkkinə etina etməməlidir.

**Məsələ:** ١١٧٩. Əgər səcdəyə gedərkən rüku edib-etmədiyində şəkk edərsə, vacib ehtiyata əsasən, qalxıb rüku etməlidir və namazı tamamladıqdan sonra yenidən qılmalıdır. Əgər rükudan sonra ayağa qalxıb-qalxmadığında şəkk edərsə, qalxmalı və sonra səcdəyə gedib namazı tamamlamalıdır.

**Məsələ:** ١١٨٠. Əgər ayağa qalxarkən səcdəni, yaxud təşəhhüdü yerinə yetirib-yetirmədiyində şəkk edərsə, qayıdıb onu yerinə yetirməlidir.

**Məsələ:** ١١٨١. Oturan, yaxud uzanan halda namaz qılan şəxs Həmdi, yaxud təsbihatı oxuyan zaman səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirmədiyində şəkk etsə, öz şəkkinə e'tina etməməlidir. Əgər Həmdi, ya təsbihatı oxumağa başlamamış səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda o halətin məsələn, oturduğu halın qiyam əvəzi olub-olmamasını bilməsə, qayıdıb şəkk etdiyi əməli yerinə yetirməlidir. Əgər qiyam əvəzində oturduğunu bilsə bu halda təşəhhüdü yerinə yetirib-yetirmədiyində şəkk etsə, vacib ehtiyata əsasən, onu mütləq qürbət qəsdilə-vacib, ya müstəhəbb qəsdi etmədən yerinə yetirməlidir və namazı səhihdir. Əgər şəkki səcdəni yerinə yetirib-yetirmədiyində olsa, vacib ehtiyata əsasən, namazı tamamlayıb yenidən qılmalıdır.

**Məsələ:** ١١٨٢. Əgər namazın rüknlərindən hər hansı birini yerinə yetirib-yetirmədiyində şəkk edərsə, bu halda həmin (şəkk etdiyi) rükndən sonrakı bir əmələ başlamayıbsa, onu yerinə yetirməlidir. Məsələn, əgər təşəhhüdü oxumazdan öncə iki səcdəni edib-etmədiyində şəkk etsə, səcdələri yerinə yetirməlidir. Əgər sonradan həmin rüknü yerinə yetirdiyi yadına düşsə, bu halda həmin rükn rüku, ya iki səcdə olmuş olsa, namaz batildir (rükn artıqlığı əmələ gəldiyi üçün).

**Məsələ:** ١١٨٣. Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda ondan sonrakı əmələ başlamayıbsa, həmin əməli yerinə yetirməlidir. Məsələn, surə oxumamış Həmdi oxuyub-oxumadığında şəkk edərsə, Həmdi oxumalı (və sonra surəni) oxumalıdır. Əgər onu yerinə yetirdikdən sonra şəkk etdiyini yerinə yetirmiş oxuduğu yadına düşsə, namazı səhihidir.

**Məsələ:** ١١٨٤. Əgər hər hansı bir rüknü yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda ondan sonrakı əmələ başlayıbsa, öz şəkkinə e'tina etməməlidir. Məsələn, təşəhhüdü oxumaqla məşğul ikən ondan əvvəl iki səcdəni yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu şəkkə e'tina etməməlidir. Əgər (sonradan) o rüknü yerinə yetirməmiş olduğu yadına düşsə və o rükn təkbirətul-ehram olsa, namaz batildir. İstər sonrakı rüknə daxil olsun, istərsə də olmasın. Ondan başqa hallarda isə sonrakı rüknə başlamamış yadına düşsə, həmin rüknü yerinə yetirməlidir. Əgər sonrakı rüknə daxil olmuşsa, namazı batildir. Məsələn, sonrakı rükətin rükusundan qabaq iki səcdəni yerinə yetirmədiyi yadına düşsə, qayıdıb əvvəlki rükətin səcdələrini yerinə yetirməlidir. Əgər rükuda, yaxud rükudan sonra yadına düşsə, namazı batildir.

**Məsələ:** ١١٨٥. Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda ondan sonrakı əmələ başlayıbsa, öz şəkkinə e'tina etməməlidir. Məsələn, surə oxumaqla məşğul ikən Həmdi oxuyub-oxumadığında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir. Əgər onu yerinə yetirmədiyi yadına düşsə, bu halda sonrakı rüknə məşğul olmayıbsa, onu yerinə yetirməlidir. Əgər sonrakı rüknə məşğuldursa, namazı səhihdir. Deməli, məsələn, əgər qunutda olarkən surəni oxumadığı yadına düşsə, surəni oxumalıdır, əgər bu, rükuda yadına düşərsə, namazı səhihdir.

**Məsələ:** ١١٨٦. Əgər namazın salamını deyib-demədiyində şəkk etsə, bu halda başqa bir namaza məşğuldursa, yaxud namazın surətini pozan bir iş baş verdiyinə görə namaz qılma halından çıxıbsa, öz şəkkinə e'tina etməməlidir. Əgər bu deyilənlərdən əvvəl şəkk etsə, namazın tə'qibatına məşğul olmuş olsa da belə, namazın salamını deməlidir. Əgər salamı düzgün deyib-demədiyində şəkk etsə, hər bir surətdə öz şəkkinə e'tina etməməlidir.

**٢ – *Salamdan sonrakı şəkk***

**Məsələ:** ١١٨٧. Namazın salamından sonra namazın səhih olub-olmadığında şəkk etsə, məsələn, rüku edib-etmədiyində şəkk etsə, yaxud dörd rükətli namazın salamından sonra dörd, yoxsa beş rükət qıldığında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir. Məhşur hökm budur ki, «əgər onun şəkkinin hər iki tərəfi batil olsa, məsələn, dörd rükətli namazın salamından sonra üç, yoxsa beş rükət qıldığında şəkk etsə, namazı batildir». Lakin bu hökm məhəlli-işkaldır. Vacib ehtiyat budur ki, (bu halda) əlavə bir rükət də namaz qılsın, salamı dedikdən sonra iki səhv səcdəsi yerinə yetirsin və namazı yenidən qılsın.

**٣ – *Vaxt ötdükdən sonra edilən şəkk***

**Məsələ:** ١١٨٨. Əgər namazın vaxtı keçdikdən sonra namazı qılıb-qılmadığında şəkk etsə, yaxud qılmadığını güman etsə, onu qılmaq lazım deyildir. Lakin vaxt keçməmiş namazı qılıb-qılmadığında şəkk etsə, qıldığını güman etsə də belə, o namazı qılmalıdır.

**Məsələ:** ١١٨٩. Əgər namazın vaxtı keçdikdən sonra onu düzgün qılıb-qılmadığında şəkk etsə, öz şəkkinə etina etməməlidir.

**Məsələ:** ١١٩٠. Əgər zöhr və əsr namazının vaxtı ötdükdən sonra dörd rükətli bir namaz qıldığını bilsə, amma zöhr niyyətilə, yoxsa əsr niyyətilə qıldığını bilməsə, bu surətdə ona vacib olan qəza namazı niyyətilə dörd rükətli bir namaz qılmalıdır.

**Məsələ:** ١١٩١. Əgər məğrib və işa namazının vaxtı ötdükdən sonra bir namaz qıldığını bilsə, lakin bilməsə ki, üç, yoxsa dörd rükətli namaz qılıb, məğrib və işa namazlarının (hər ikisinin) qəzasını qılmalıdır.

**٤. *Kəsiruş-şəkkin (çox şəkk edən şəxsin) şəkk etməsi***

**Məsələ:** ١١٩٢. Camaat arasında «çox şəkk edir» deyilən şəxsə «kəsiruş-şəkk» deyilir. Bir şəxsin vəziyyəti elə olsa ki, hər üç namazda ardıcıl olaraq azı bir dəfə şəkk etsə, o, kəsiruş-şəkkin nümunəsidir. Əgər şəkkin çoxluğu qəzəb, qorxu və pərişanlıq kimi səbəblərdən olmasa, öz şəkkinə e'tina etməməlidir.

**Məsələ:** ١١٩٣. Çox şəkk edən şəxs, əgər namazın hissələrindən və şərtlərindən birini yerinə yetirib-yetirməməsində şəkk etsə, məsələn, rükunu yerinə yetirib-yetirmədiyində şəkk etsə, rükunu yerinə yetirmiş hesab etməlidir. Əgər namazı batil edən bir şeyi yerinə yetirib-yetirmədiyində şəkk etsə, məsələn, sübh namazını iki, yoxsa üç rükətli qıldığında şəkk etsə, səhih qıldığını əsas götürməlidir.

**Məsələ:** ١١٩٤. Namazın bir şeyində çox şəkk edən şəxs, namazın başqa hissələrində şəkk etsə, onun göstərişinə əməl etməlidir. Məsələn, bir şəxs səcdəni edib-etməməsində çox şəkk edirsə, rükunu yerinə yetirib-yetirmədiyində şəkk etsə, onun göstərişinə əməl etməlidir, yə'ni

əgər hələ səcdəyə getməyibsə, rükunu yerinə yetirsin, əgər səcdədədirsə öz şəkkinə e'tina etməsin.

**Məsələ:** ١١٩٥. Məxsus bir namazda, məsələn, zöhr namazında çox şəkk edən şəxs, əgər başqa bir namazda əsr namazı kimi şəkk etsə, şəkk göstərişlərinə əməl etməlidir.

**Məsələ:** ١١٩٦. Əgər bir şəxs məxsus bir yerdə namaz qılanda çox şəkk edirsə, əgər o yerdən başqa bir yerdə namaz qılsa və qarşısına şəkk çıxsa, şəkkin göstərişlərinə əməl etməlidir.

**Məsələ:** ١١٩٧. Əgər insan kəsiruş-şəkk olub-olmadığında şəkk etsə, şəkkin göstərişlərinə əməl etməlidir. Kəsiruş-şəkk, camaatda olan adi, normal vəziyyətə qayıtdığına əmin olmayınca öz şəkkinə etina etməməlidir.

**Məsələ:** ١١٩٨. Çox şəkk edən şəxs, bir rüknü yerinə yetirib-yetirmədiyində şəkk edərsə və öz şəkkinə e'tina etməsə, sonradan onu yerinə yetirmədiyi yadına düşsə, həmin rükn təkbirətul-ehram olsa, namazı batildir, istər sonrakı rüknə daxil olsun, istərsə də olmasın, fərqi yoxdur. Amma bundan başqasında isə, əgər sonrakı rüknə məşğul deyilsə, onu yerinə yetirməlidir. Əgər sonrakı rüknə məşğuldursa, namazı batildir. Məsələn, əgər rüku edib-etmədiyində şəkk etsə və ona, e'tina etməsə, bu halda ikinci səcdədən qabaq rüku etmədiyi yadına düşsə, qayıdıb rüku etməlidir. Əgər ikinci səcdədə yadına düşsə, namazı batildir.

**Məsələ:** ١١٩٩. Çox şəkk edən şəxs, rükn olmayan bir şeyi yerinə yetirib-yetirmədiyində şəkk etsə və buna e'tina etməsə, sonra onu yerinə yetirmədiyini xatırlasa, bu halda onun məhəlli keçməmiş yadına düşsə, onu yerinə yetirməlidir. Əgər məhəlli keçmişdirsə, namazı səhihidir. Məsələn, Həmdi oxuyub-oxumadığında şəkk etsə və buna e'tina etməsə, qunutda Həmdi oxumadığı yadına düşsə, Həmdi oxumalıdır. Əgər rükuda olarkən yadına düşsə, namazı səhihdir.

***٥ – İmam və mə'mumun şəkk etməsi***

**Məsələ:** ١٢٠٠. Əgər camaat namazında İmam namazın rükətlərinin sayında şəkk etsə, məsələn, üç, yoxsa dörd rükət qıldığında şəkk etsə, bu halda mə'mum onun dörd rükət qıldığını güman etsə, ya əmin olsa və İmama başa salsa ki, dörd rükət qılmışdır, İmam namazı tamamlamalıdır və ehtiyat namazı yoxdur. Həmçinin, İmam neçə rükət qıldığı barədə yəqin ya güman edərsə və mə'mum rükətlərin sayında şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

***٦ – Müstəhəbb namazlarda şəkk etmək***

**Məsələ:** ١٢٠١. Əgər bir şəxs müstəhəbb namazın rükətlərinin sayında şəkk etsə, bu halda şəkkinin çox tərəfi namazı batil edərsə, az tərəfi əsas götürməlidir. Məsələn, əgər sübh namazının nafiləsini iki,

yoxsa üç rükət qıldığında şəkk etsə, iki rükət qılmış olduğunu hesab etməlidir. Əgər çox tərəf namazı batil etməzsə, məsələn, iki rükət, yoxsa bir rükət qıldığında şəkk etsə, şəkkin hansı tərəfinə əməl etsə, namazı səhihdir.

**Məsələ:** ١٢٠٢. Rüknün azaldılması nafilə namazını batil edir. Lakin rüknün artıqlığı onu batil etməz. Deməli, əgər nafilə namazının işlərindən birini unutsa və o işdən sonrakı rüknə məşğul ikən yadına düşsə, əvvəlcə onu, sonra isə o rüknü ikinci dəfə yerinə yetirməlidir. Məsələn, rüku əsnasında Həmd surəsini oxumadığı yadına düşsə, qalxıb Həmdi oxuduqdan sonra ikinci dəfə rükuya getməlidir.

**Məsələ:** ١٢٠٣. Əgər nafilə namazının işlərinin birində şəkk etsə, istər şəkk etdiyi rükn olsun, istərsə olmasın, əgər yerinə yetirmə məhəlli keçməmişdirsə, onu yerinə yetirməlidir, əgər məhəlli keçmişdirsə, öz şəkkinə etina etməməlidir.

**Məsələ:** ١٢٠٤. Əgər iki rükətli müstəhəbb namazda gümanı üç və ya çox rükətə getsə, namazı səhihdir. Əgər gümanı iki, ya ondan az rükətə getsə, gərək həmin gümana əməl etsin. Məsələn, əgər bir rükət qıldığını güman edirsə, gərək bir rükət də qılsın.

**Məsələ:** ١٢٠٥. Əgər nafilə namazında, vacib namazda yerinə yetirildiyi halda səhv səcdəsini vacib edəcək bir iş görsə, yaxud bir səcdə, yaxud təşəhhüdü unutsa və namazın salamından sonra yadına düşsə, ona səhv səcdəsi və qəza vacib deyildir.

**Məsələ:** ١٢٠٦. Əgər müstəhəbb bir namazı qılıb-qılmadığında şəkk etsə, bu halda o namaz Cə'fər-Təyyar (əleyhissalam) namazı kimi müəyyən vaxtı olmayan namazdırsa, onu qılmamış olduğunu hesab etməlidir. Həmçinin, əgər gündəlik namazların nafiləsi kimi, müəyyən vaxtda qılınmalı olan namazın vaxtı keçməmiş qılıb-qılmadığında şəkk etsə, onu qılmamış hesab etməlidir. Lakin vaxtı keçəndən sonra qılıb-qılmadığında şəkk etsə, öz şəkkinə etina etməməlidir.

***Səhih şəklər***

**Məsələ:** ١٢٠٧. Doqquz halda, əgər dörd rükətli namazların rükətlərinin sayında şəkk etsə, fikirləşməli və vacib ehtiyata əsasən, gecikdirməməlidir. Əgər şəkkin iki tərəfindən birinə yəqin etsə, ya gümanı gəlsə, həmin tərəfi əsas götürüb namazı tamamlamalıdır. Əgər bu cür olmasa, deyiləcək göstərişlərə əməl etməlidir. Həmin doqquz hal bunlardan ibarətdir:

١. İkinci səcdənin vacib zikri qurtardıqdan sonra iki, yoxsa üç rükət qıldığında şəkk etsə, üç rükət qılmış olduğunu hesab edərək əlavə bir rükət namaz qılıb namazı tamamlamalı və namazdan sonra ayaq üstə bir rükət ehtiyat namazı qılmalıdır.

٢. İkinci səcdənin vacib zikri tamamlandıqdan sonra iki ilə dörd rükət arasında şəkk etdikdə; Bu halda namazı əvvəldən (yenidən) başlamaqla dördüncü rükət hesab edib (namazı tamamladıqdan sonra) ehtiyat namazı yerinə yetirməkdə ixtiyarlı olduğuna üstünlük verilməsinə baxmayaraq, lakin vacib ehtiyat budur ki, dördüncü rükət hesab edib, namazı tamamlasın və namazdan sonra ayaq üstə iki rükət ehtiyat namazı qılsın.

٣. İkinci səcdənin vacib zikri başa çatdıqdan sonra iki, üç, yoxsa dörd rükət qıldığında şəkk etdikdə; bu halda onu dördüncü rükət hesab edib namazı tamamlamalı və namazdan sonra ayaq üstə iki rükət və sonra oturan halda da iki rükət ehtiyat namazı qılmalıdır.

٤. İkinci səcdənin vacib zikri başa çatdıqdan sonra dörd ilə beş rükət qıldığında şəkk etsə; dördüncü rükətdə olduğunu hesab edib, namazı tamamlamalı və namazdan sonra iki səhv səcdəsi yerinə yetirməlidir. Lakin əgər birinci səcdədən sonra, yaxud ikinci səcdənin vacib zikri başa çatmazdan öncə bu dörd şəkdən biri qarşıya çıxsa, namazı batildir.

٥. Namazın hansı yerində olmasından asılı olmayaraq üçlə dörd rükət qıldığında şəkk etsə, onu dördüncü rükət hesab edib, namazı tamamlamalıdır və məhşur nəzərə görə, namazdan sonra bir rükət ayaq üstündə və ya iki rükət oturan halda ehtiyat namazı qılmalıdır. Lakin vacib ehtiyat budur ki, oturan halda iki rükət qılmağa üstünlük versin.

٦. Ayaq üstə olduğu halda dördlə beşinci rükət arasında şəkk etsə, oturub təşəhhüdü oxumalı və namazın salamını verməlidir. Məhşur nəzərə əsasən, namazdan sonra ayaq üstə bir, yaxud oturan halda iki rükət ehtiyat namazı yerinə yetirməlidir. Lakin vacib ehtiyat budur ki, oturan halda iki rükət qılmağı seçsin.

٧. Ayaq üstə olan halda üçlə beş rükət arasında şəkk etsə, oturub təşəhhud oxumalı və salamı deyəndən sonra ayaq üstə iki rükət ehtiyat namazı qılmalıdır. (Necə ki, ikinci fərzdə qeyd olundu.)

٨. Ayaq üstə olan halda üçlə dörd və beş rükət qıldığında şəkk etsə, oturub təşəhhüdü oxumalı və namazın salamından sonra iki rükət ayaq üstə və ondan sonra iki rükət də oturan halda ehtiyat namazı qılmalıdır.

٩. Ayaq üstə olan halda beşlə altı rükət arasında şəkk etsə, oturub təşəhhüd oxumalı və namazın salamından sonra iki səhv səcdəsi yerinə yetirməlidir. Həmçinin, müstəhəbb ehtiyata əsasən, bu dörd halda yersiz ayağa qalxdığı üçün iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٠٨. Əgər səhih şəklərdən biri şəxsin qarşısına çıxarsa, namazı pozmamalı və şəkkə dair göstərişlərə əməl etməlidir. Belə ki, əgər şəkkin göstərişlərinə əməl etməsə və bu halda qiblədən üz çevirmək kimi namazı batil edən işlərdən birini yerinə yetirmədən namazı başdan

başlasa, ikinci namazı da batildir. Əgər namazı batil edən işlərdən birini edəndən sonra namaza başlasa, ikinci namazı səhihdir.

**Məsələ:** ١٢٠٩. Əgər ehtiyat namazı qılınması vacib olan şəklərdən biri qarşıya çıxsa və o, namazı tamamlasa, ehtiyat namazı qılmalıdır və namazı əvvəldən başlamamalıdır. Əgər ehtiyat namazı qılmasa və namazı batil edən şeylərdən birini yerinə yetirmədən namazı əvvəldən başlasa, ikinci namazı da batildir. Əgər namazı batil edən bir iş görüb sonra namazı əvvəldən başlasa, ikinci namazı səhihdir.

**Məsələ:** ١٢١٠. İnsan namazı batil edən şəklərdən biri ilə qarşılaşsa və bilsə ki, sonrakı hala keçdiyi surətdə yəqin, ya güman gətirəcəkdir, namazı şəkli halda davam etdirməsi caiz deyildir. Məsələn, əgər ayaq üstə olan halda bir, yoxsa ondan artıq rükət namaz qılıb-qılmadığında şəkk etsə və rükuya getməklə yəqin, ya güman gətirəcəyini bilsə, onda bu halda rükuya getməsi caiz deyil.

**Məsələ:** ١٢١١. Əgər insan səhih şəklərdən biri ilə qarşılaşarsa, əvvəlki məsələlərdə deyildiyi kimi, vacib ehtiyata əsasən, dərhal fikirləşməlidir. Əgər o işlər ki, onların vasitəsilə iki tərəfdən birinə yəqin, ya güman əldə etmək mümkün olur, o işlər aradan getməsə, bu halda fikirləşməni bir az tə'xirə salmağın eybi yoxdur. Məsələn, əgər səcdədə şəkk etsə, fikirləşməyi səcdədən sonraya qədər tə'xirə sala bilər.

**Məsələ:** ١٢١٢. Əgər əvvəlcə bir tərəfə gümanı olub, sonra onun nəzərində hər iki tərəf eyni səviyyədə olsa, şəkkin göstərişlərinə əməl etməlidir. Əgər əvvəldə hər iki tərəf onun nəzərində eyni səviyyədə olsa və vəzifəsi olduğu tərəfi əsas götürsə, sonra gümanı digər tərəfə getsə, həmin tərəfi əsas götürüb öz vəzifəsinə əməl etməlidir.

**Məsələ:** ١٢١٣. Gümanın bir tərəfə olduğunu, yoxsa hər iki tərəfə bərabər olduğunu bilməyən şəxs şəkkin göstərişlərinə əməl etməlidir. Müstəhəbb ehtiyat budur ki, əgər etdiyi şəkk səhih şəklərdəndirsə və ehtiyat namazı qılmalı olacaqsa, həmçinin, çox tərəfə ehtimal etdiyini güman edirsə, namazı həmin ehtimala əsasən tamamlayıb, ehtiyat namazı qılmalıdır. Əgər gümanı öz tərəfə getsə və ya şəkk səhih şəklərdən deyilsə, namazı güman etdiyi əsasda tamamlayıb, sonra yenidən qılmalıdır.

**Məsələ:** ١٢١٤. Əgər namazdan sonra, namazda olduğu zaman şəkk halında olduğunu bilsə, məsələn, iki, yoxsa üç rükət namaz qıldığında şəkk edərək üç rükət qılmış olduğunu hesab edirsə lakin bilməsə ki, üç rükətdə güman edib, yoxsa hər iki tərəf onun nəzərində bərabər olmuşdur, ehtiyat namazı qılmalıdır.

**Məsələ:** ١٢١٥. Əgər təşəhhüd oxuyarkən, yaxud ayağa qalxandan sonra iki səcdəni yerinə yetirib-yetirmədiyində şəkk edərsə və elə həmin anda iki səcdələr qurtarandan sonra baş verdikdə səhih olan şəkklərdən

biri qarşıya çıxsa, məsələn, iki, yoxsa üç rükət qıldığında şəkk etsə, bu halda şəkkin göstərişlərinə əsasən əməl etsə, namazı səhihdir.

**Məsələ:** ١٢١٦. Əgər təşəhhüdə başlamazdan və ya təşəhhüd olmayan rükətdə ayağa qalxmazdan əvvəl bir və ya iki səcdəni yerinə yetirib-yetirmədiyində şəkk etsə və həmin anda iki səcdəni yerinə yetirdikdən sonra baş verdikdə səhih olan şəklərdən biri ilə qarşılaşsa, namazı batildir.

**Məsələ:** ١٢١٧. Əgər qiyamda olduğu zaman üçlə dörd arasında, yaxud üç-dörd-beş arasında şəkk edərsə və eyni zamanda əvvəlki rükətin bir, ya iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə, namazı batildir.

**Məsələ:** ١٢١٨. Əgər bir şəkk aradan getsə və başqa bir şəkk qarşıya çıxsa, məsələn, əvvəlcə iki, yoxsa üç rükət namaz qıldığında şəkk edən şəxs, sonra üç, yoxsa dörd rükət qıldığında şəkk edərsə, ikinci şəkkin göstərişinə əməl etməlidir.

**Məsələ:** ١٢١٩. Əgər namazdan sonra, namaz əsnasında, məsələn, iki ilə dörd arasında, yoxsa üçlə dörd arasında şəkk etdiyini bilməsə, namazı sındıra bilər və qiblədən üz çevirmək və qəsdən danışmaq kimi, namazı batil edən bir iş gördükdən sonra namazı ikinci dəfə, yenidən qıla bilər. Baxmayaraq ki, müstəhəbb ehtiyat budur ki, hər iki şəkkin göstərişinə əməl etsin və sonra namazı da yenidən qılsın.

**Məsələ:** ١٢٢٠. Əgər namazdan sonra, namaz halında olarkən bir şəkk ilə qarşılaşdığı yadına düşsə, lakin səhih, yoxsa namazı batil edən şəklərdən olduğunu bilməsə və ya səhih şəklərdən olduğunu bilsə, amma hansı qismdən olduğunu bilməsə, namazı sındıra bilər və namazı batil edən bir iş görüb, namazı yenidən qılar. Müstəhəbb ehtiyat budur ki, səhih şəkdə deyilən göstərişlərə uyğun öz vəzifəsinə əməl etsin və sonra namazı təzələsin.

**Məsələ:** ١٢٢١. Oturan halda namaz qılan şəxs, bir rükət ayaq üstə, yaxud iki rükət oturan halda ehtiyat namazı qılmasını lazım edən bir şəklə qarşılaşdıqda bir rükət oturan halda namaz qılmalıdır. Ayaq üstə iki rükət ehtiyat namazı qılmasını lazım edən bir şəklə qarşılaşdıqda isə, iki rükət oturan halda ehtiyat namazı qılmalıdır.

**Məsələ:** ١٢٢٢. Ayaq üstə namaz qılan şəxs ehtiyat namazını qılarkən ayaq üstə dayanmaqdan aciz olsa, əvvəlki məsələlərdə deyilmiş hökmə əsasən, ehtiyat namazını oturan halda namaz qılan şəxs kimi qılmalıdır.

**Məsələ:** ١٢٢٣. Oturan halda namaz qılan şəxs ehtiyat namazı qılarkən ayaq üstə dura bilərsə, ayaq üstə namaz qılanın vəzifəsinə uyğun əməl etməlidir.

## EHTİYAT NAMAZI

**Məsələ:** ١٢٢٤. Ehtiyat namazı vacib olan şəxs, namazın salamından dərhal sonra ehtiyat namazı niyyəti edib təkbir deməli, Həmd surəsini oxuyandan sonra rükuya gedib sonra iki səcdə etməlidir. Əgər ona bir rükət ehtiyat namazı vacibdirsə iki səcdədən sonra təşəhhüd oxuyub salam verməlidir. Əgər ona iki rükət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra birinci rükət kimi, bir rükət də namaz qılıb, təşəhhüd oxuyandan sonra salam verəcək.

**Məsələ:** ١٢٢٥. Ehtiyat namazında qunut və surə yoxdur, onu asta (ixfatla) qılmaq və niyyətini də dillə deməmək lazımdır. Vacib ehtiyata əsasən, onun «Bismillah»ı da astadan (ixfatla) deyilməlidir.

**Məsələ:** ١٢٢٦. Əgər ehtiyat namazı qılmazdan öncə, qıldığı namazın səhih olduğunu başa düşsə, ehtiyat namazı üçün bir əsas qalmır. Əgər bunu ehtiyat namazı əsnasında başa düşsə, onu tamamlaması lazım deyil və onu iki rükətli nafilə namazı qəsdilə də tamamlaya bilər.

**Məsələ:** ١٢٢٧. Ehtiyat namazı qılmazdan öncə, qıldığı namazın rükətlərinin sayının az olduğunu başa düşsə, bu halda namazı batil edən bir iş görməmiş olsa, namazdan qılmadığı hissəni qılıb, yersiz salam verdiyi üçün, vacib ehtiyata əsasən, iki səhv səcdəsi yerinə yetirməlidir. Həmçinin, qarşıya çıxan və səhv səcdəsinə səbəb olacaq digər hallar üçün də səhv səcdəsi yerinə yetirməlidir. Əgər namazı batil edən bir iş görmüş olsa, məsələn arxasını qibləyə çeviribsə, namazı yenidən qılmalıdır.

**Məsələ:** ١٢٢٨. Əgər ehtiyat namazı qılandan sonra namazın çatışmayan rükətlərinin sayının ehtiyat namazı qədər olduğunu başa düşsə, məsələn, iki ilə dörd arasında şəkk edib iki rükət ehtiyat namazı qılsa və sonra namazı iki rükət qılmış olduğunu başa düşsə, namazı səhihdir.

**Məsələ:** ١٢٢٩. Əgər ehtiyat namazı qılandan sonra namazının çatışmayan rükətlərinin sayının ehtiyat namazının rükətinin sayından az olduğunu bilsə, məsələn, iki ilə dörd arasında şəkk edib iki rükət ehtiyat namazı qılsa və sonra namazı üç rükət qılmış olduğunu başa düşsə, namazını yenidən qılmalıdır.

**Məsələ:** ١٢٣٠. Ehtiyat namazını qılandan sonra namazının çatışmayan rükətlərinin sayının ehtiyat namazının rükətinin sayından çox olduğunu başa düşsə, bu halda əgər ehtiyat namazından sonra namazı batil edən bir iş görmüşsə, məsələn, qiblədən dönmüşsə, namazı yenidən qılmalıdır. Əgər namazı batil edən bir iş baş verməmişdirsə, vacib ehtiyata əasən namazının çatışmayan hissəsini ona əlavə edib namazı tamamlayacaq, namazın əslində və ehtiyat namazında hər bir

artıq salam üçün, eləcə də irəli gələn hər bir başqa səbəbə görə, iki səhv səcdəsi yerinə yetirəcək, namazı da yenidən qılacaq.

**Məsələ:** ١٢٣١. Əgər iki-üç-ya dörd rükət arasında şəkk edib, ayaq üstə iki rükət ehtiyat namazı qılandan sonra namazı iki rükət qılmış olduğu yadına düşərsə, oturan halda iki rükət ehtiyat namazını qılmaq lazım deyildir.

**Məsələ:** ١٢٣٢. Əgər üç ilə dörd rükət arasında şəkk edib oturan halda iki rükət ehtiyat namazı qılarkən onun birinci rükətinin rükusundan öncə, namazı üç rükət qılmış olduğu yadına düşsə, bura qədər yerinə yetirdiklərini nəzərə almamalı və vacib ehtiyata əsasən, ayağa qalxıb, (əsl) namazın çatışmayan hissəsini tamamlamalı və iki səhv səcdəsi artıq salam üçün və digər bir səhv səcdəsi də əgər təşəhhüd oxuyubsa artıq təşəhhüd üçün yerinə yetirəcəkdir, namazı da yenidən qılacaqdır. Əgər bu deyilənlər rükudan sonra yadına düşsə, namazı batildir.

**Məsələ:** ١٢٣٣. Əgər iki, üç və dörd rükət arasında şəkk etsə və iki rükət ayaq üstə ehtiyat namazı qılarkən ikinci rükətin rükusundan qabaq namazı üç rükət qıldığı yadına düşsə, vacib ehtiyat olaraq oturub ehtiyat namazını bir rükətlə tamamlamalı, iki səhv səcdəsi artıq salam üçün və əgər təşəhhüd oxumuşdursa iki səhv səcdəsi də artıq təşəhhüd üçün yerinə yetirməli, sonra da namazı təzələməlidir.

**Məsələ:** ١٢٣٤. Əgər ehtiyat namazı əsnasında əsl namazın çatışmayan rükətinin sayının ehtiyat namazının rükətinin sayından az və ya çox olmasını başa düşsə, bu halda ehtiyat namazını əsl namazından qalan çatışmayan hissəyə uyğun şəkildə tamamlaya bilməsə, məsələn, üç ilə dörd rükət arasında şəkk edib iki rükət oturan halda ehtiyat namazı qılırsa və bu zaman namazı iki rükət qılmış olduğunu başa düşsə, oturan halda qıldığı iki rükət namazı ayaq üstə qılınan iki rükət hesab edilə bilmədiyi üçün, ehtiyat namazını pozmalıdır və vacib ehtiyata əsasən, əsl namazın əskikliyini tamamlayıb iki səhv səcdəsi artıq salam üçün və əgər təşəhhüd də oxumuşdursa, iki səhv səcdəsi də artıq təşəhhüd üçün yerinə yetirib sonra namazı da təzələməlidir. Bu o haldadır ki, birinci rükudan əvvəl yadına düşmüş olsun, bundan qeyri hallarda namazı batildir.

**Məsələ:** ١٢٣٥. Əgər ona vacib olan ehtiyat namazını yerinə yetirib-yetirmədiyində şəkk etsə, bu halda namazın vaxtı keçmişdirsə, öz şəkkinə e'tina etməyəcək. Yox, əgər vaxt hələ varsa, bu halda namazla şəkkinin arasında uzun fasilə olmasa və qiblədən üz çevirmək kimi, namaza zidd bir iş baş vermədiyi təqdirdə ehtiyat namazını qılmalıdır. Əgər namazı batil edən bir iş baş vermiş olsa, yaxud onun şəkki ilə namazı arasında uzun fasilə yaranmışdırsa, vacib ehtiyata əsasən, namazını təzədən qılmalıdır.

**Məsələ:** ١٢٣٦. Əgər ehtiyat namazını bir rükət əvəzinə iki rükət qılsa, yaxud bir rükn artırsa ehtiyat namazı batil olar və əsl namazı yenidən qılmalıdır.

**Məsələ:** ١٢٣٧. Ehtiyat namazını qılmağa məşğul ikən onun işlərinin birində şəkk etsə, onun yerinə yetirilmə məhəlli keçməmişdirsə, gərək yerinə yetirsin. Yox, əgər məhəlli keçmişdirsə, öz şəkkinə e'tina etməməlidir. Məsələn, ehtiyat namazı qılarkən Həmdi oxuyub-oxumadığında şəkk etsə, bu zaman rükuya getməmişdirsə, Həmdi oxumalıdır. Əgər rükuya getmişdirsə şəkkinə e'tina etməməlidir.

**Məsələ:** ١٢٣٨. Əgər ehtiyat namazının rükətlərinin sayında şəkk etsə, bu halda şəkkinin çox tərəfi namazı batil edirsə, az tərəfi əsas götürməlidir. Əgər çox tərəf namazı batil etmirsə, onda çox tərəfi əsas götürməlidir. Məsələn, iki rükət ehtiyat namazı qılmaqla məşğul olarkən iki, yoxsa üç rükət qıldığında şəkk etsə, şəkkin çox tərəfi namazı batil etdiyi üçün iki rükət qıldığını əsas götürməlidir. Əgər bir, yoxsa iki rükət qıldığında şəkk etsə, bu surətdə çox tərəf namazı batil etmədiyi üçün, iki rükət qıldığını əsas götürməlidir.

**Məsələ:** ١٢٣٩. Əgər ehtiyat namazında rükn olmayan bir hissəni səhvən artırıb-azaltsa, (١٢٤١-ci məsələdə deyiləcək hallar istisna olmaqla) səhv səcdəsi yoxdur.

**Məsələ:** ١٢٤٠. Əgər ehtiyat namazının salamından sonra, onun hissə və şərtlərindən hər hansı birini yerinə yetirib-yetirmədiyində şəkk etsə, öz şəkkinə e'tina etməməlidir.

**Məsələ:** ١٢٤١. Əgər ehtiyat namazında təşəhhüd və ya səcdənin birini unutsa və onu öz yerində cübran etmək mümkün olmasa, namazın salamından sonra, yaddan çıxan əməl təşəhhüddürsə, müstəhəbb ehtiyata əsasən, onun qəzasını yerinə yetirəcək, iki səhv səcdəsi də edəcək; əgər yaddan çıxan əməl səcdədirsə, (namazın salamından sonra) onun qəzasını yerinə yetirəcək.

**Məsələ:** ١٢٤٢. Əgər bir şəxsə ehtiyat namazı, bir səcdənin qəzası, yaxud bir təşəhhüdün qəzası, yaxud iki səhv səcdəsi yerinə yetirmək vacib olsa, əvvəlcə ehtiyat namazını yerinə yetirməlidir.

**Məsələ:** ١٢٤٣. Namazda rükətlərə nisbətdə güman etməyin hökmü, yəqin (əminlik) hökmü kimidir. Məsələn, bir, yoxsa iki rükət qıldığını bilməsə və bu halda iki rükət qılmış olduğunu güman edərsə, iki rükət qıldığını əsas götürməlidir. Əgər dörd rükətli namazda dörd rükət qıldığını güman edərsə, ehtiyat namazı qılmamalıdır. Ancaq əmələ nisbətdə güman, şəkk hökmündədir. Deməli, əgər səcdəyə getməmiş rükunu yerinə yetirdiyinə güman etsə, nə qədər ki, səcdəyə getməyib rükunu yerinə yetirməlidir. Əgər surə oxuduğu zaman Həmdi oxumadığını güman edərsə, gümanına e'tina etməməlidir və namazı səhihdir.

**Məsələ:** ١٢٤٤. Gündəlik vacib olan (yovmiyyə) və başqa vacib namazlarda şəkk, səhv və gümanın hökmü arasında fərq yoxdur. Məsələn, ayət namazında bir, yoxsa iki rükət qıldığı barədə şəkk edərsə, namazı iki rükətli olduğu üçün batildir. Əgər bir və ya iki olduğunu güman edərsə, o gümana əsasən namazını tamamlamalıdır.

## SƏHV SƏCDƏSİ

**Məsələ:** ١٢٤٥. Beş şey üçün namazın salamından sonra (qaydası deyiləcək) iki səhv səcdəsi yerinə yetirilməlidir:

١. Namaz əsnasında səhvən danışdıqda;

٢. Təşəhhüd yaddan çıxdıqda;

٣. Dörd rükətli namazlarda ikinci səcdənin vacib zikri başa çatdıqdan sonra dörd, yoxsa beş rükət qıldığı barədə şəkk etdikdə, eləcə də ayaq üstə olarkən beşlə altı arasında şəkk etdikdə; belə ki, ١٢٠٧-ci məsələnin ٤ və ٩- cu qismində deyildi.

٤. Vacib ehtiyata əsasən, yersiz, məsələn, birinci rükətdə səhvən namazın salamını verdikdə.

٥. Vacib ehtiyata əsasən, səcdənin birini unutduqda, eləcə də səhv olaraq namazda bir şeyi artırıb, əskiltdikdə. Müstəhəbb ehtiyat budur ki, oturmalı olduğu yerdə ayağa dursa və həmçinin, qalxmalı olduğu halda otursa iki səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٤٦. Əgər bir şəxs səhvən, yaxud namazın qurtardığını güman edib, danışsa, iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٤٧. Ah çəkmək və öskürməkdən irəli gələn səs üçün səhv səcdəsi vacib deyildir. Lakin, məsələn, səhv olaraq «ax», yaxud «ah» desə, səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٤٨. Əgər namazda səhv oxuduğu bir şeyi ikinci dəfə düz oxusa, onun üçün səhv səcdəsi vacib deyildir.

**Məsələ:** ١٢٤٩. Əgər bir şəxs namazda səhvən bir qədər danışsa və onun danışığının hamısı camaat arasında «bir dəfə danışmaq» hesab olunsa, namazın salamından sonra iki səhv səcdəsi etmək kifayətdir.

**Məsələ:** ١٢٥٠. Əgər təsbihati-ərbəəni səhvən deməsə, vacib ehtiyat budur ki, namazdan sonra iki səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٥١. Əgər namazın salamını deməməli olduğu yerdə səhvən «əs-səlamu ələyna və əla ibadillahis-salihin» və ya «əs-səlamu ələykum və rəhmətullahi və bərakatuh» desə, vacib ehtiyat olaraq iki səhv səcdəsi yerinə yetirməlidir. Həmçinin, əgər səhvən bu iki salamın bir qədərini də belə desə, səhv səcdəsi etməlidir. Amma səhvən «əs-səlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərakatuh» desə, müstəhəbb ehtiyat budur ki, iki səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٥٢. Əgər salamı deməməli olduğu yerdə namazın hər üç salamını desə, iki səhv səcdəsi kifayət edər.

**Məsələ:** ١٢٥٣. Əgər bir səcdəni, yaxud təşəhhüdü yaddan çıxarsa və sonrakı rükətin rükusundan öncə yadına düşsə, qayıdıb onu yerinə yetirməlidir və namazdan sonra müstəhəbbb ehtiyat olaraq yersiz qalxdığı üçün iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٥٤. Əgər rükuda və ya rükudan sonra əvvəlki rükətin bir səcdəsini unutmuş olduğu yadına düşərsə, namazın salamından sonra səcdənin qəzasını yerinə yetirmək lazımdır, vacib ehtiyat olaraq iki səhv səcdəsi də etməlidir. Əgər rükuda və ya ondan sonra əvvəlki rükətin təşəhhüdünü unutduğu yadına düşsə, müstəhəbb ehtiyat olaraq təşəhhüdün qəzasını və iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٥٥. Əgər bir şəxs namazın salamından sonra səhv səcdəsini qəsdən yerinə yetirməsə günah etmişdir və onu mümkün olan tez bir zamanda yerinə yetirməlidir. Əgər səhvən yerinə yetirməsə yadına düşən kimi dərhal yerinə yetirməlidir və namazı yenidən qılması lazım (vacib) deyildir.

**Məsələ:** ١٢٥٦. Əgər səhv səcdəsinin ona vacib olub-olmamasında şəkk etsə, onu yerinə yetirmək lazım (vacib) deyildir.

**Məsələ:** ١٢٥٧. Əgər bir şəxs iki, yoxsa dörd səhv səcdəsinin ona vacib olmasında şəkk etsə, iki səhv səcdəsi etməsi kifayətdir.

**Məsələ:** ١٢٥٨. Əgər iki səhv səcdəsindən birini yerinə yetirmədiyini bilsə və onu bərpa etmək mümkün olmasa, iki səhv səcdəsi etməlidir. Əgər səhv olaraq üç səcdə etdiyini bilsə, vacib ehtiyat olaraq yenidən iki səhv səcdəsi etməlidir.

## SƏHV SƏCDƏSİNİN QAYDASI

**Məsələ:** ١٢٥٩. Səhv səcdəsinin qaydası budur ki, namazın salamından dərhal sonra səhv səcdəsi niyyəti edib, alnını üzərinə səcdə səhih olan bir şeyin üstünə qoysun. Eləcə də vacib ehtiyatdır ki, digər səcdə üzvləri də yerə qoysun və bu zikri desin: «Bismillahi və billahi əs-səlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh». Sonra oturaraq, ikinci dəfə səcdəyə gedib, birinci səcdədə deyilən zikri yenidən desin və sonra oturub təşəhhüd oxuduqdan sonra salamı versin. Vacib ehtiyat budur ki, təşəhhüdü adi qaydada oxusun, salamı isə bu cür desin: «Əs-səlamu ələykum».

## YADDAN ÇIXMIŞ SƏCDƏ VƏ TƏŞƏHHÜDÜN QƏZASI

**Məsələ:** ١٢٦٠. Şəxsin yaddan çıxarmış olduğu və namazdan sonra yerinə yetirilməli olan səcdə və təşəhhüdün qəzasında, həmçinin, yaddan çıxmış təşəhhüd üçün edilən iki səhv səcdəsində namazın bütün şərtləri, o cümlədən bədən və libasın paklığı, üzü qibləyə olmaq və namazda şərt olan digər şeylərə riayət etməlidir.

**Məsələ:** ١٢٦١. Əgər səcdəni bir neçə dəfə unutsa, məsələn, birinci rükətdə bir səcdəni və ikinci rükətdə də bir səcdəni unutsa, namazdan sonra hər iki səcdəni qəza etməlidir. Vacib ehtiyat budur ki, hər iki səcdənin qəzasını yerinə yetirdikdən sonra hər biri üçün iki səhv səcdəsi yerinə yetirsin. Bu zaman hansının qəzasını etdiyini, ya hansının səhv səcdəsini yerinə yetirdiyini tə'yin etməsi lazım (vacib) deyildir.

**Məsələ:** ١٢٦٢. Əgər bir səcdə və bir təhəşşüdü yaddan çıxarsa, səcdənin qəzasını etməsi vacibdir və təşəhhüdün qəzasını yerinə yetirmək müstəhəbb ehtiyatdır. Vacib ehtiyat budur ki, səcdənin qəzasını təşəhhüdün qəzasından əvvəl yerinə yetirsin və yaddan çıxmış təşəhhüd üçün və həmçinin, vacib ehtiyata əsasən, yaddan çıxmış səcdə üçün də iki səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٦٣. Əgər iki rükətdən iki səcdə unutsa, qəza edərkən tərtibə riayət etmək lazım (vacib) deyildir.

**Məsələ:** ١٢٦٤. Namazın salamı ilə səcdənin qəzası arasında, namazda qəsdən və ya səhvən edildikdə namazı batil edən bir iş görərsə, məsələn, arxasını qibləyə çevirərsə, vacib ehtiyata əsasən, səcdənin qəzasından sonra namazı yenidən qılsın. Həmçinin, təşəhhüdün qəzası üçün edilən iki səhv səcdəsində eynilə.

**Məsələ:** ١٢٦٥. Əgər namazın salamından sonra axırıncı rükətin bir səcdəsini, ya təşəhhüdünü unutması yadına düşsə, bu halda üzü qiblədən çevirmək kimi, qəsdən ya səhvən olmasından asılı olmayaraq namazı batil edən bir iş görməyibsə, qayıdıb (onu yerinə yetirdikdən sonra) namazı tamamlamalıdır. Vacib ehtiyata əsasən, iki səhv səcdəsi yersiz salam verdiyi üçün etməli və həmçinin, digər iki səhv səcdəsi də – əgər səcdənin birini unutmuş olsa və namazın salamından qabaq təşəhhüdü dediyi üçün etməlidir.

**Məsələ:** ١٢٦٦. Əgər namazın salamı ilə səcdənin qəzası arasında səhv səcdəsini gərəkli edən bir iş görsə, məsələn, səhv olaraq danışsa, (əvvəlcə) səcdənin qəzasını edib, sonra səhvən danışdığı üçün vacib ehtiyat olaraq iki səhv səcdəsi və yaddan çıxmış səcdə üçün də əlavə iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٦٧. Əgər namazda səcdəni, yoxsa ikinci rükətin təşəhhüdünü unutduğunu bilməzsə, bu halda səcdənin qəzasını etməli və iki səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٦٨. Səcdə və ya təşəhhüdü unudub-unutmadığı barədə şəkk etdikdə, qəza etməsi və ya səhv səcdəsi vacib deyildir.

**Məsələ:** ١٢٦٩. Əgər bir şəxs səcdəni, ya təşəhhüdü unutduğunu bilsə, amma şəkk etsə ki, sonrakı rükətin rükusundan qabaq yadına düşüb və onu yerinə yetirib, ya yox, onda əgər unutduğu şey səcdə idisə, onu qəza etməli və vacib ehtiyat olaraq bir cüt səhv səcdəsi də yerinə

yetirməlidir. Əgər təşəhhüd olmuşsa, bir cüt səhv səcdəsi yerinə yetirməlidir.

**Məsələ:** ١٢٧٠. Səcdənin qəzasını yerinə yetirməli olan şəxs üçün, başqa bir işə görə də səhv səcdəsi yerinə yetirmək vacib olarsa, vacib ehtiyata əsasən, əvvəlcə səcdənin qəzasını edib, sonra səhv səcdəsini yerinə yetirməlidir.

**Məsələ:** ١٢٧١. Əgər namazdan sonra səcdənin qəzasını yerinə yetirib-yetirmədiyində şəkk edərəsə və şəkk namazın vaxtından sonra olarsa vacib ehtiyata əsasən, səcdənin qəzasını etməlidir, amma şəkk namaz vaxtında baş verərsə, onu yerinə yetirməlidir.

## NAMAZIN HİSSƏ VƏ ŞƏRTLƏRİNİN AZALDILIB-ÇOXALDILMASI

**Məsələ:** ١٢٧٢. Əgər bir hərf də olsa belə, namazın vacibatından bir şeyi qəsdən artırıb-azaltsa namazı batildir.

**Məsələ:** ١٢٧٣. Təqsir ucbatından məsələni bilməməzliyə görə bir şəxs namazın vacibatından bir şeyi azaldıb-çoxaltsa, namazı batildir. Lakin cahili-qasir, yaxud yaddan çıxarmaq üzündən bir kəs namazın rüknü olmayan vacibatından bir şey azaldıb-çoxaltsa namazı səhihdir. (Namazın rüknü olan vacibatın hökmü ٩٥١-ci məsələdə deyilmişdir).

Əgər məsələni bilmədiyi üçün sübh, məğrib və işa namazlarının Həmd və surəsini astadan (ixfatla) oxusa, yaxud zöhr və əsr namazının Həmd və surəsini ucadan (cəhrlə) oxusa; və ya səfərdə olarkən zöhr, əsr və işa namazlarını dörd rükət qılarsa, məsələni bilməməsi təqsir üzündən olsa da belə, namazı səhihdir.

**Məsələ:** ١٢٧٤. Əgər namaz əsnasında, yaxud namazdan sonra qüslünün və ya dəstəmazının batil olmasını başa düşsə, yaxud dəstəmazsız və qüsl almamış namaza məşğul olduğunu başa düşsə, namazı batildir. Gərək yenidən dəstəmaz, yaxud qüsl alıb namazı qılsın. Əgər vaxt keçibsə, qəzasını yerinə yetirsin.

**Məsələ:** ١٢٧٥. Əgər rükuya gedəndən sonra əvvəlki rükətin iki səcdəsini unutduğu yadına düşərsə, namazı batildir. Əgər rükuya çatmamış yadına düşsə, gərək oturub iki səcdəni yerinə yetirsin və sonra ayağa durub Həmd-surəni, yaxud təsbihati-ərbəəni oxuyub namazı tamamlasın. Namazdan sonra vacib ehtiyat olaraq artıq qiraət, ya təsbihat üçün bir cüt səhv səcdəsi və müstəhəbb ehtiyat olaraq yersiz qalxdığı üçün də bir cüt əlavə səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٧٦. Əgər «Əs-səlamu əleyna», yaxud «Əs-səlamu əleykum» deməzdən öncə, axırıncı rükətin iki səcdəsini etmədiyi yadına düşsə, onları yerinə yetirməlidir və sonra yenidən təşəhhüdü oxuyub namazın salamını deməlidir. Sonra artıq təşəhhüd üçün vacib ehtiyat olaraq bir cüt səhv səcdəsi etməlidir.

**Məsələ:** ١٢٧٧. Namazın salamından qabaq namazın bir və ya daha artıq rükətini yerinə yetirmədiyini xatırlasa, unutduğu qədəri yerinə yetirməlidir.

**Məsələ:** ١٢٧٨. Əgər namazın salamından sonra, namazın bir və ya daha artıq rükətini qılmadığı yadına düşsə, bu halda qibləyə arxa çevirmək kimi, namazda qəsdən və ya səhvən edildikdə namazı batil edən bir iş yerinə yetirmişsə, namazı batildir. Əgər belə bir iş baş verməyibsə, gərək yaddan çıxan miqdarı dərhal yerinə yetirsin və vacib ehtiyata əsasən, artıq salam dediyi üçün bir cüt səhv səcdəsi, eləcə də əgər artıq təşəhhüd demişdirsə, onun üçün də bir cüt səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** ١٢٧٩. Namazdan sonra, qibləyə arxa çevirmək kimi namazda qəsdən, ya səhvən edildikdə namazı batil edən bir iş baş versə və bu zaman namazın axırıncı iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə, namazı batildir. Əgər namazı batil edəcək bir iş baş verməmiş yadına düşsə, gərək unutmuş olduğu iki səcdəni yerinə yetirsin və ikinci dəfə təşəhhüd oxuyub salamı desin, vacib ehtiyat olaraq yersiz salam üçün bir cüt səhv səcdəsi və həmçinin, əgər artıq təşəhhüd oxumuşdursa, digər bir cüt səhv səcdəsi artıq təşəhhüd üçün yerinə yetirilməlidir.

**Məsələ:** ١٢٨٠. Əgər namazın hamısını onun vaxtından əvvəl qıldığını başa düşsə, gərək namazı yenidən qılsın, vaxtı keçdiyi təqdirdə isə onu qəza etsin. Əgər namazın bə'zi hissəsini vaxtından öncə qılmışdırsa onun hökmü ٧٥١-ci məsələdə deyilmişdir. Əgər namazı dəqiq olaraq üzü qibləyə qılmadığını başa düşsə, bu halda qiblənin sağla sol istiqaməti arasında əyri (٩٠ dərəcədən az) dayanmış olduğu təqdirdə namazı səhihdir. Bu surətdən qeyrisində, əgər namazın vaxtı ötüb keçməmiş başa düşərsə, namazı təzələməlidir, vaxt keçdikdən sonra başa düşdükdə isə qəzası yoxdur. Lakin, əgər arxası qibləyə qılmışsa, vacib ehtiyat olaraq qəzasını yerinə yetirməlidir. Hər halda şər'i hökmü bilmədiyi üçün, qiblədən başqa istiqamətə namaz qılsa, namazı batildir.

## MÜSAFİRİN NAMAZI

Müsafir səkkiz şərt daxilində zöhr, əsr və işa namazlarını şikəstə, yə'ni iki rükət qılmalıdır.

**١-ci şərt**. Onun səfəri səkkiz şər'i fərsəxdən az olmamalıdır. Şər'i fərsəx təqribən ٥،٥ km-dən azdır.

**Məsələ:** ١٢٨١. Gedib-qayıtmağı səkkiz fərsəx qədərində olan şəxsin getməsi, həmçinin, qayıtması dörd fərsəxdən az olmasa, namazını şikəstə qılmalıdır. Deməli, əgər, misal üçün, getməyi üç, qayıtmağı isə beş fərsəx və yaxud əksinə olsa, namazını bütöv qılmalıdır.

**Məsələ:** ١٢٨٢. Əgər getməyi də dörd, qayıtmağı da dörd fərsəx olsa, getdiyi gün, yaxud o günün gecəsi qayıtmasa da belə, namazını şikəstə qılmalı və oruc da tutmamalıdır. Müstəhəbb ehtiyat budur ki, namazı bütöv də qılsın.

**Məsələ:** ١٢٨٣. Əgər şəxs səfərin səkkiz fərsəx olub-olmamasını bilməsə və ya səfərin səkkiz fərsəxdən bir qədər az olsa, namazını tamam qılmalıdır. Səfərinin səkkiz fərsəx olub-olmadığında şəkk etdiyi surətdə bu barədə təhqiqat aparması lazım deyildir və namazı bütöv qılmalıdır.

**Məsələ:** ١٢٨٤. Əgər adil bir şəxs xəbər versə, yaxud e'timadlı olan və sözünün əksinə zənn olunmayan bir şəxs səfərin səkkiz fərsəx olduğunu desə, gərək namaz şikəst qılınsın.

**Məsələ:** ١٢٨٥. Səfərinin səkkiz fərsəx olduğuna yəqin edən (qəti olaraq bilən) şəxs, namazını şikəstə qılandan sonra səfərin səkkiz fərsəx olmadığını anlasa, gərək onu dörd rükət qılsın və vaxt ötmüş olsa, qəzasını etsin.

**Məsələ:** ١٢٨٦. Səfərinin səkkiz fərsəx olmadığına yəqin edən (qəti olaraq bilən), ya səkkiz fərsəx olub-olmadığında şəkk edən şəxs, yol əsnasında səfərinin səkkiz fərsəx olmuş olduğunu başa düşsə, yolun az bir qədəri qalmış olsa da belə, namazını şikəstə qılmalıdır. Əgər tamam qılmış olsa, bu halda vaxt əsnasında başa düşsə ki, səkkiz fərsəxdir, gərək yenidən iki rükət olaraq qılsın; əgər vaxt ötdükdən sonra başa düşsə, yenidən qılması lazım deyildir.

**Məsələ:** ١٢٨٧. Aralarındakı fasilə dörd fərsəxdən az olan iki məhəllə arasında bir neçə dəfə gedib-gələn şəxs, hətta üst-üstə səkkiz fərsəx də olsa belə, namazı tamam qılmalıdır.

**Məsələ:** ١٢٨٨. Əgər bir yerin iki yolu olsa və o yollardan biri səkkiz fərsəxdən az, digəri isə səkkiz fərsəx və ya çox olarsa, bu halda şəxs səkkiz fərsəx olan yolla getsə, namazını şikəstə qılmalıdır; əgər səkkiz fərsəx olmayan yolla getsə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٢٨٩. Əgər şəhərin divarı varsa, səkkiz fərsəxin başlanğıcı şəhərin divarından hesablanmalıdır. Əgər divarı yoxdursa, şəhərin axırıncı evlərindən hesablanmalıdır.

**٢-ci şərt** budur ki, səfərin əvvəlindən qəsdi səkkiz fərsəx olsun. Deməli, əgər səkkiz fərsəxdən az olan bir yerə getsə və oraya çatdıqdan sonra gəldiyi miqdarla birlikdə səkkiz fərsəx qədərində olan bir yerə getməyi qəsd etsə, əvvəldən niyyəti səkkiz fərsəx olmadığı üçün namazını tamam qılmalıdır. Lakin həmin yerdən səkkiz fərsəx qədər də getmək istərsə, ya qateus-səfər ünvanı gerçəkləşməyən yerə ٤ fərsəx getsə – məsələn, on gün qalmaq qəsdi olmadığı bir yerə getmək istəsə – başqa dörd fərsəx də vətəninə, ya on gün qalmaq istədiyi bir yerə qayıtmaq istəyərsə, namazı qəsr qılmalıdır.

**Məsələ:** ١٢٩٠. Səfərinin neçə fərsəx olduğunu bilməyən şəxs, məsələn, bir şeyi tapmaq üçün səfərə çıxıb, onu tapmaq üçün nə qədər yol getməli olduğunu bilməyən şəxs, namazını tamam qılmalıdır. Lakin qayıdarkən vətəninə, yaxud on gün qalmalı olacaq bir yerə qədər səkkiz fərsəx, ya ondan çox olarsa, namazını qəsr qılmalıdır. Həmçinin, səfər əsnasında səfəri kəsmək aid edilə bilməyən, məsələn, on gün qalmaq qəsdi olmadığı bir yerə dörd fərsəx getsə və dörd fərsəx qayıtsa, namazı qəsr qılmalıdır.

**Məsələ:** ١٢٩١. Müsafir səkkiz fərsəx yol gedəcəyinə qəti olaraq qərarlı olduğu halda namazını qəsr qılmalıdır. Deməli, şəhərdən çıxan şəxs, məsələn, yol yoldaşı tapacağı təqdirdə səkkiz fərsəxlik yol gedəcəyini qəsd edərsə, bu halda yol yoldaşını tapacağına əmin olduğu halda namazı qəsr qılmalıdır. Buna əmin olmadığı halda isə namazı tamam qılmalıdır.

**Məsələ:** ١٢٩٢. Səkkiz fərsəx səfər qəsdi olan şəxs, hər gün az miqdarda yol getsə də, «tərəxxüs həddinə» (mə'nası ٨-ci şərtdə açıqlanan) yetişdikdə namazını qəsr qılmalıdır. Lakin hər gün camaat arasında «müsafir» deyilməyəcək qədər az miqdar yol getsə, məsələn, ١٠, ٢٠ metr yol getsə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٢٩٣. Səfərdə başqasının ixtiyarında olan şəxs, məsələn, öz ağası ilə səfər edən xidmətçi kimi, səfərinin səkkiz fərsəx olduğunu bilərsə, namazını qəsr, əgər bilməsə, namazı tamam qılacaq və ondan (ağasından) soruşması lazım deyildir və əgər soruşsa da, onun ağasının cavab verməsi (vacib) lazım deyildir.

**Məsələ:** ١٢٩٤. Səfərdə başqasının ixtiyarında olan şəxs, əgər dörd fərsəxə çatmamışdan əvvəl, ondan ayrılacağını (yəqin) bilərsə, ya güman edərsə, hətta dörd fərsəxə çatmamışdan əvvəl ayrılacağında tərəddüd etsə də belə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٢٩٥. Səfərdə başqasının ixtiyarında olan şəxs, dörd fərsəxə çatmazdan əvvəl ondan ayrılmayacağına əmin deyilsə, hətta əmin olmaması onun səfər etməsi üçün bir maneənin yaranması ehtimalından irəli gəlsə də, namazı tamam qılmalıdır. Lakin ondan ayrılmayacağına əmin olsa, bu halda gözlənilməyən maneənin ehtimalının tə'siri yoxdur və namazı qəsr qılmalıdır.

**٣-cü şərt** budur ki, səfər əsnasında öz qəsdindən daşınmasın. Deməli, əgər dörd fərsəxə çatmamış öz qəsdindən daşınsa, ya tərəddüd etsə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٢٩٦. Əgər dörd fərsəxə çatandan sonra səfərdən danışsa, bu halda orada qalmasını, ya on gündən sonra qayıtmasını qərara alsa, yaxud qayıtmaqla qalmaq arasında tərəddüd etsə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٢٩٧. Əgər dörd fərsəxə çatandan sonra səfərdən danışsa və qayıtmağı qərara alsa, bu halda səfəri pozan bir şey, məsələn, həmin yerdə on gün qalmaq kimi, bir iş qarşıya çıxmasa, namazı qəsr qılmalıdır, bu şərtlə ki, qayıtmağı da dörd fərsəxdən az olmasın.

**Məsələ:** ١٢٩٨. Əgər səkkiz fərsəx olan məsafəti qət etmək üçün hərəkət etsə və bir qədər yol getdikdən sonra başqa bir yerə getmək istəsə, bu halda əvvəlcə hərəkət etdiyi yerdən, getmək istədiyi (ikinci) yerə qədər səkkiz fərsəx olsa, namazı qəsr qılmalıdır.

**Məsələ:** ١٢٩٩. Əgər bir şəxs getməyi səkkiz fərsəx olan bir yerə səfərə çıxsa və dörd fərsəx gedəndən sonra səkkiz fərsəxin qalanını getmək barədə tərəddüd etsə, ya bir yerdə on gün qalmadan öz yerinə qayıtsa, namazı qəsr qılmalıdır, istər tərəddüd edərkən yol getsin, istərsə getməsin; həmçinin, istər sonra yolun qalanını getməyi qərara alsın, istərsə də qayıtmağı.

**Məsələ:** ١٣٠٠. Əgər dörd fərsəx gedəndən sonra səkkiz fərsəxin qalan hissəsini getmək, yaxud öz yerinə qayıtmağa dair tərəddüd etsə, amma tərəddüd etdiyi yerdə, ya başqa bir yerdə on gün qalacağına ehtimal versə, hətta on gün qalmadan yolun qalanını gedəcəyinə dair qərara gəlsə də, bu halda namazı tamam qılmalıdır. Əgər tərəddüddən sonra qərarı yenidən səkkiz fərsəx getmək, yaxud dörd fərsəx gedib dörd fərsəx qayıtmaq olsa, hərəkətə başlayan vaxtdan namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٠١. Əgər dörd fərsəx getməmişdən öncə yolun qalan hissəsini də gedib-getməməsində tərəddüd etsə və sonra yolun qalan hissəsini getmək qərarına gəlsə, bu halda yolun qalan hissəsi səkkiz fərsəx olsa və yaxud dörd fərsəx getmək dörd fərsəx qayıtmaq istəsə, yola düşən vaxtdan namazını qəsr qılmalıdır.

**٤-cü şərt** budur ki, səkkiz fərsəxə çatmazdan qabaq öz vətənindən keçmək, ya bir yerdə on gün, ya daha çox qalmaq istəməsin. Deməli, əgər bir şəxs səkkiz fərsəxə çatmazdan öncə öz vətənindən keçmək, bir yerdə on gün qalmaq istəsə, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٠٢. Səkkiz fərsəxə çatmamış vətənindən keçib-keçməyəcəyini və ya başqa bir yerdə on gün qalıb-qalmayacağını bilməyən şəxs namazını tam qılmalıdır.

**Məsələ:** ١٣٠٣. Səkkiz fərsəxə çatmamış öz vətənindən keçmək, ya bir yerdə on gün qalmaq istəyən şəxs, həmçinin, bir yerdə on gün qalmaq, ya vətənindən keçmək haqda tərəddüddə qalan şəxs, əgər bir yerdə on gün qalmaq və ya vətənindən keçmək fikrindən daşınarsa yenə də namazını tamam qılmalıdır. Lakin yolun qalan hissəsi səkkiz fərsəx olarsa, ya dörd fərsəx olarsa və gedib dörd fərsəxin tamamında səfəri kəsən bir iş qarşıya çıxmadan qayıtmaq istərsə və qayıtmağı da dörd fərsəx olarsa, namazı qəsr qılmalıdır.

**۵-ci şərt** budur ki, səfəri haram bir iş üçün olmasın. Əgər haram bir iş üçün, məsələn, oğurluq, ya bir müsəlmana zərər vurmaq, ya zalım bir şəxsin zülmünə kömək etmək kimi səfər etsə, yaxud səfərin özü haram olarsa, məsələn, səfərə getməyəcəyi barədə şər'ən and içsə və ya (səfər etməklə) dözüləsi haram olan zərərin yetişməsi kimi, bu halda namazını tamam qılmalıdır.

**Məsələ:** ۱۳۰٤. Vacib olmayan səfər əgər ata və ananın əziyyətə düşməsinə səbəb olarsa, haramdır. Şəxs belə səfərlərdə namazını tamam qılmalı və orucunu da tutmalıdır.

**Məsələ:** ۱۳۰٥. Səfəri haram olmayan və haram iş üçün də səfər etməyən şəxs, səfərdə bir günah işlətsə də, məsələn, qeybət etsə, ya şərab içsə də, namazını qəsr qılmalıdır.

**Məsələ:** ۱۳۰٦. Əgər vacib bir işi tərk etmək üçün səfər etsə, namazını tamam qılmalıdır. Deməli, borclu olan şəxs öz borcunu verə bilərsə və borc sahibi də öz haqqını istəyərsə, bu halda o şəxs səfərdə öz borcunu verə bilməyib, borcu qaytarmaqdan boyun qaçırmaq üçün səfərə çıxarsa, namazını tamam qılmalıdır. Lakin əgər səfəri, vacibi tərk etmək üçün olmazsa, səfərdə vacibi tərk etsə də belə, namazı qəsrdir.

**Məsələ:** ۱۳۰۷. Əgər səfəri haram olmasa, amma qəsbi bir yerdə səfər etsə və yaxud mindiyi heyvan və ya başqa bir miniyi qəsbi olarsa, vacib ehtiyat olaraq namazı həm qəsr, həm də tamam qılmalıdır. Ancaq həmin minikdə səfər etməkdə qəsdi onu öz sahibinə qaytarmaqdan qaçmaq olsa, bu surətdə namazı tamam qılmalıdır.

**Məsələ:** ۱۳۰۸. Zalım şəxslə birgə səfərə çıxan şəxs əgər çarəsiz olmasa və onun səfəri zalıma, onun zülmünə kömək etmək olsa, ya zalımın əzəmət, böyüklük, şan-şöhrətini artırmağa, hökmünü gücləndirməyə səbəb olarsa, namazı tamam qılmalıdır. Əgər əlacsız olsa, yaxud məsələn, məzluma nicat vermək üçün onunla səfər etsə, namazını qəsr qılmalıdır.

**Məsələ:** ۱۳۰۹. Əgər əylənmək və gəzinti məqsədilə səfər etsə, onun səfəri haram deyil və namazını qəsr qılmalıdır.

**Məsələ:** ۱۳۱۰. Əgər əyləncə və xoş güzərançılıq üçün şikara gedərsə, getməkdə səfəri haramdır və namazını da tamam qılmalıdır. Əgər qayıtmağı səkkiz fərsəx olsa və ovu əyləncə xatirinə olmasa, namazı qəsrdir. Belə ki, məişətini tə'min etmək üçün ova getsə, namazı qəsrdir. Həmçinin, ticarət məqsədilə ova getsə, namazı qəsrdir və müstəhəbb ehtiyat budur ki, namazı həm qəsr, həm də tamam qılsın, orucunu da tutsun və (sonra) qəza etsin.

**Məsələ:** ۱۳۱۱. Günah üçün səfərə çıxan şəxs səfərdən qayıdarkən, qayıtmağı təklikdə səkkiz fərsəx olsa, namazını qəsr qılmalıdır. Müstəhəbb ehtiyat budur ki, günahdan tövbə etmədiyi surətdə həm qəsr, həm də tamam qılsın.

**Məsələ:** ١٣١٢. Səfəri günah olan bir şəxs, səfər əsnasında günah məqsədindən daşınsa, bu halda yolun qalan hissəsi səkkiz fərsəx olsa, ya dörd fərsəx olsa və həmin yolu gedib dörd fərsəx qayıtmaq istəsə, yola düşdüyü vaxtdan namazı qəsrdir.

**Məsələ:** ١٣١٣. Günah üçün səfər etməyən şəxs, səfər əsnasında yolun qalanın günah məqsədilə getməyi qəsd etsə, getməyə başladığı andan namazı tamam qılmalıdır. Qəsr qılmış olduğu namazları da məsafənin keçmiş miqdarı olduğu surətdə səhihdir. Əks təqdirdə vacib ehtiyata əsasən, vaxtında onları təzələməli, əgər vaxtı ötübsə, qəzasını qılmalıdır.

**٦-cı şərt** budur ki, çöldə səhralıqda gəzib özləri və heyvanları üçün su və yemək tapdıqları yerdə qalaraq, bir müddətdən sonra başqa bir yerə gedən köçərilər kimi müəyyən bir məkanları olmayan şəxslərdən olmasın. Evləri və yaşayış üçün lazım olan vəsaitləri, məişət avadanlıqlarını özlərilə apardıqları belə şəxslər namazlarını tamam qılmalıdırlar.

**Məsələ:** ١٣١٤. Köçərilərdən biri, mənzil və heyvanları üçün otlaq yeri tapmaq üçün səfər edərsə və bu zaman çadır və digər ləvazimatları özləri ilə olsa, namazı tamam qılmalı, əks təqdirdə isə qəsr qılmalıdır.

**Məsələ:** ١٣١٥. Köçəri şəxs ziyarət, həcc, ticarət və bu kimi işlər üçün səfərə çıxarsa, namazını qəsr qılmalıdır.

**٧-ci şərt** budur ki, işi, peşəsi səfər olmasın. Buna əsasən sariban, sürücü, gəmiçi və bu kimi şəxslər hətta öz ev əşyalarını aparmaq üçün də səfər etsələr, namazlarını tamam qılmalıdırlar. Bunun me'yarı isə camaat arasında «məşğuliyyəti, işi-peşəsi səfərdir, saribandır və ya sürücüdür» - deyilməsidir.

Həmçinin, onun işi-peşəsi səfərdə olmamalıdır, məsələn, yaşadığı yer bir məkanda, iş yeri isə başqa bir məkanda olanlar; ticarət, tədris və təbabət kimi (səfər etsələr). Belə ki, əksər günlərdə, ya bir gündən bir, məsələn iş görmək üçün oraya səfər edib-qayıdarsa.

**Məsələ:** ١٣١٦. Peşəsi səfər olan şəxs ziyarət və ya həcc kimi başqa bir iş üçün səfər etsə, namazını qəsr qılmalıdır. Lakin misal üçün əgər sürücü maşınını ziyarət üçün kirayə versə və özü də onunla ziyarətə getsə, namazını tam qılmalıdır.

**Məsələ:** ١٣١٧. Həmlədar, yə'ni hacıları aparmaq üçün Məkkəyə səfər edən şəxsin məşğuliyyəti, işi səfərdirsə, namazını tamam qılmalıdır. Əgər peşəsi səfər deyilsə və səfərinin müddəti də azdırsa, məsələn, təyyarə ilə səfər edirsə, namazı qəsr qılmalıdır. Lakin səfər müddəti çoxdursa vacib ehtiyata əsasən, namazı həm qəsr, həm də tamam qılmalıdır.

**Məsələ:** ١٣١٨. Peşəsi məsələn, uzaq yerlərdən hacıları Məkkəyə aparmaq kimi bələdçilik olan şəxs ilin əsas hissəsini və yaxud hamısını yolda olarsa, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣١٩. Peşəsi ilin müəyyən bir vaxtında səfər olan şəxs, məsələn, yalnız yayda ya qışda öz maşınını kirayə verən sürücü kimi, o səfər ki, onun işidir, səfər ilinin həmin hissəsində namazını tamam qılmalıdır. Müstəhəbb ehtiyat budur ki, həm qəsr, həm də tamam qılsın.

**Məsələ:** ١٣٢٠. Şəhərin ətrafına iki, üç fərsəxlik yol gedib-gələn sürücü və alverçilər təsadüfən şər'i səfər edərsə, namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٢١. Peşəsi səfər olan (miniyini kirayə verən və özü də miniklə gedən) kirayəçi əgər öz vətənində on gün və ya daha artıq qalsa, istər əvvəlcədən on gün qalmaq qəsdi etsin, istərsə də etməsin, həmin on gündən sonra edəcəyi ilk səfərində namazını qəsr qılmalıdır, lakin peşəsi səfər olan və yaxud işi-peşəsi səfərdə olan digər şəxslər vacib ehtiyata əsasən, namazlarını həm qəsr, həm də tamam qılmalıdırlar.

**Məsələ:** ١٣٢٢. Peşəsi səfər olan kirayəçi (miniyini kirayə verən və özü də miniklə gedən) vətənindən qeyri-yerdə on gün, ya daha artıq qalsa, bu halda əvvəldən on gün qalmaq qəsdi olarsa, həmin on gündən sonra etdiyi ilk səfərdə namazını qəsr qılmalıdır. Lakin peşəsi səfər etmək olan, ya məşğuliyyətləri səfərdə olan digər şəxslər vacib ehtiyat olaraq həmin səfər zamanı namazlarını həm qəsr, həm də tamam qılmalıdırlar.

**Məsələ:** ١٣٢٣. Peşəsi səfər etmək olan şəxs, şəkk etsə ki, öz vətənində ya başqa bir yerdə on gün qalıb, ya yox, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٢٤. Şəhərlərdə səyahətə çıxan şəxs özü üçün bir yeri vətən seçməyibsə namazlarını tamam qılmalıdır.

**Məsələ:** ١٣٢٥. Peşəsi səfər olmayan şəxsin, məsələn, hansısa bir şəhərdə, ya kənddə malı varsa və onu daşımaq üçün ardıcıl səfərlər edirsə, namazını qəsr qılmalıdır. Əgər onun səfəri öz vətənində qalmağından çox olarsa, namazını tamam qılacaq.

**Məsələ:** ١٣٢٦. Vətənindən üz döndərib başqa bir yeri özünə vətən seçmək istəyən şəxsin peşəsi səfər deyilsə, səfərdə olarkən namazını qəsr qılmalıdır.

**٨-ci şərt** budur ki, müsafir tərəxxüs həddinə çatsın. Yə'ni öz vətənindən azan səsini eşitməyəcək dərəcədə aralansın. Şəhər əhalisini görmürsə, qəti olaraq tərəxxüs həddinə çatmış olur. Lakin (əhalinin görünməsinə) bir manea olmamalıdır. Amma vətənindən qeyri bir yerdə elə ki, iqamət seçdiyi, yaxud otuz gün tərəddüdlə qaldığı yerdən xaric oldu, namazı qəsrdir.

**Məsələ:** ١٣٢٧. Vətəninə qayıdan müsafir oranın azanını eşidən zaman namazı tamam qılmalıdır. Lakin bir məntəqədə on gün qalmaq istəyən müsafir, həmin yerə çatmayınca namazı qəsrdir.

**Məsələ:** ١٣٢٨. Əgər şəhər, onun əhalisi görünəcək dərəcədə yüksəklikdə olsa, ya bir az aralanmaqla əhali görünməyəcək qədər çuxur yerdə olsa, həmin şəhərin əhalisindən olan şəxs səfər etsə, tərəxxüs həddinə (onun mə'nası səkkizinci şərtdə deyildi) yetişdiyinə əmin olması üçün, o qədər aralanmalıdır ki, şəhərin düz yerdə olduğu təqdirdə ondan əhalisi görünməyəcəkdi. Həmçinin, yolun hündürlüyü və alçaqlığı adi haldan çox olsa, tərəxxüs həddinə çatmağı bilmək üçün adi qaydanı nəzərə almaq lazımdır.

**Məsələ:** ١٣٢٩. Əhalisi olmayan bir məntəqədən səfər edən şəxs, elə bir yerə çatsa ki, əhalisi olsaydı həmin məsafədən görünməyəcəkdi, qəti olaraq tərəxxüs həddinə çatmışdır və namazı qəsr qılması işkalsızdır.

**Məsələ:** ١٣٣٠. Əgər şəhərdən eşitdiyi səsin azan, yoxsa başqa səs olduğunu müəyyən edə bilmədiyi qədər uzaqlaşsa, namazını qəsr qılmalıdır. Lakin azan olduğunu başa düşüb, amma kəlmələrini aydınlaşdıra bilməsə, namazı tamam qılmalıdır.

**Məsələ:** ١٣٣١. Əgər evlərin azan səsini eşitməyəcək qədər uzaqlaşarsa, lakin şəhərin adətən hündür yerdən deyilən azanını eşitsə, namazını qəsr qılmamalıdır.

**Məsələ:** ١٣٣٢. Əgər şəhərin, adətən hündür yerindən deyilən azanını eşitməyəcək bir yerə çatsa, lakin çox hündür yerdən deyilən azanı eşidərsə, namazı qəsr qılmalıdır.

**Məsələ:** ١٣٣٣. Əgər insanın qulağı, yaxud azanın səsi qeyri-adi olsa, namazını o yerdə qəsr qılmalıdır ki, normal qulaq adi azan səsini eşidə bilməsin.

**Məsələ:** ١٣٣٤. Səfərə çıxarkən tərəxxüs həddinə çatıb-çatmağında şəkk etsə, namazı tamam qılmalıdır. Səfərdən qayıdan müsafir tərəxxüs həddinə çatıb-çatmadığında şəkk etsə, namazı qəsr qılmalıdır. Amma gedəndə bilsə ki, qayıdarkən yenə də həmin şəkkə düşəcək, ya qayıdarkən həmin yerdə həmin şəkkə düşəcək, bu surətdə ehtiyat etməli və gedərkən və gələrkən namazını həmin yerdən tə'xirə salmalıdır ki, tərəxxüs həddini keçməsin əmin olsun; və yaxud namazı həm qəsr, həm də tamam qılsın. Bu zaman istər gedib-qayıtmağın hər ikisi namaz vaxtında olsun, istərsə qayıdanda namazın əvvəl vaxtı keçmiş olsun.

**Məsələ:** ١٣٣٥. Səfər əsnasında öz vətənindən keçən müsafir tərəxxüs həddinə çatdıqda namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٣٦. Səfər əsnasında vətəninə çatan müsafir vətənində olduğu vaxta qədər namazı tamam qılmalıdır. Lakin həmin yerdən səkkiz fərsəxlik məsafəyə getmək istəsə, ya dörd fərsəx gedib, dörd

fərsəx qayıtmaq istəsə, tərəxxüs həddinə çatdıqda namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٣٧. Şəxsin yaşamaq və iqamət salmaq üçün seçdiyi yer onun vətənidir. Lakin həmin yerdə dünyaya gəlibsə və ata-anasının vətənidirsə, yaşayış üçün həmin yeri seçməsi mö'təbər (şərt) deyildir; əksinə, nə qədər ki, oradan üz döndərməyib onun vətənidir.

**Məsələ:** ١٣٣٨. Əsl vətəni olmayan bir yerdə bir müddət qalmağı qəsd edib, sonra başqa bir yerə getsə, həmin yer o şəxsin vətəni hesab olunmaz.

**Məsələ:** ١٣٣٩. Əgər insan bir yeri yaşayış üçün seçsə və orada vətəni olan şəxs kimi yaşayırsa, belə ki, onun üçün bir səfər qarşıya çıxdıqda yenidən həmin yerə qayıdırsa, orada həmişəlik qalmaq qəsdi olmasa, o yer onun vətəni deyil, amma vətən hökmləri o yerə aid edilir.

**Məsələ:** ١٣٤٠. İki yerdə, məsələn, altı ay bir şəhərdə, altı ay isə başqa bir şəhərdə yaşayan şəxs üçün hər iki yer vətən sayılır. Həmçinin, ikidən artıq yeri özü üçün yaşayış yeri seçdikdə, belə ki, camaat arasında «onun daimi yaşayış yeridir» deyiləcək tərzdə olsa (yenə də onun vətənidir).

**Məsələ:** ١٣٤١. Bir yerdə yaşayış mənzilinə malik olan şəxs ardıcıl olaraq altı ay orada qalmağı qəsd etmiş və həmin müddəti orada qalmış, lakin hazırda oradan üz döndərmişsə, oraya vətən hökmü aid olmur, hərçənd tə'kidli ehtiyat budur ki, ora gəldiyi hər vaxtda namazını həm qəsr, həm də tamam qılsın.

**Məsələ:** ١٣٤٢. Əgər vaxtilə vətəni olmuş və sonradan oradan üz döndərdiyi bir yerə gəlsə, oraya vətən hökmü aid deyildir.

**Məsələ:** ١٣٤٣. Bir yerdə ardıcıl olaraq on gün qalmağı qəsd edən müsafir, yaxud ixtiyarsız olaraq bir yerdə on gün qalacağını bilən şəxs həmin yerdə namazı tamam qılmalıdır.

**Məsələ:** ١٣٤٤. Bir yerdə on gün qalmaq istəyən müsafirin birinci, ya on birinci gecəni də qalmağı qəsd etməsi lazım deyil. Vacib ehtiyata əsasən, sadiq fəcrin açılışından başlayan birinci günün əvvəlindən onuncu günün qürubuna qədər qalmağı qəsd etsə, namazını tamam qılmalıdır. Həmçinin, məsələn, birinci günün zöhründən on birinci günün zöhrünə qədər qalmağı qəsd etsə də, hökm eynidir.

**Məsələ:** ١٣٤٥. Bir yerdə on gün qalmaq istəyən müsafir, yalnız on günü həmin yerdə qalmaq istədiyi surətdə namazını tamam qılmalıdır. Deməli, əgər on günü Nəcəflə Kufədə və ya Tehranla Şəmiranda qalmaq istəsə, camaat onları iki yer hesab etdiyi surətdə namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٤٦. Bir yerdə on gün qalmaq istəyən bir müsafir, əvvəldən on gün əsnasında həmin yerin tərəxxüs həddində, yaxud ٤ fərsəxdən az olan ətraf yerlərinə getməyi qəsd etsə, bu halda onun

gedib-qayıtma müddəti camaatın nəzərində on günlük iqamətlə ziddiyyəti olmayacaq tərzdə az olsa, məsələn, bir-iki saatlıq gedib-gəlmək, namazını tamam qılmalıdır. Əgər müddət bundan çox olsa; bütün gün, ya gecə olan surətdə namazı qəsrdir. Digər surətdə vacib ehtiyata əsasən, namazı həm tamam, həm də qəsr qılmalıdır.

**Məsələ:** ١٣٤٧. Bir yerdə on gün qalmağı qərara almayan müsafir, məsələn, dostunun gələcəyi təqdirdə, yaxud yaxşı mənzil tapacağı təqdirdə on gün qalacağını qərara alsa, namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٤٨. Bir yerdə on gün qalmaq qərarında olan şəxs, qalmağı üçün bir maneənin qarşıya çıxacağına ehtimal versə və onun ehtimalı əql sahibləri nəzərində yerli ehtimal olsa, namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٤٩. Əgər müsafir ayın axırına on gün, ya daha artıq qaldığını bilsə və ayın axırına qədər bir yerdə qalmağı qəsd etsə, namazını tamam qılmalıdır. Hətta ayın axırına neçə gün qaldığını bilməsə və ayın axırına qədər qalmağı qəsd etsə, bu zaman ayın axırının nə vaxt olması, məsələn, cümə günü olması mə'lum olsa, amma müsafir bilməsə ki, qəsdinin ilk gününün cümə axşamıdır, nəticədə iqamət müddəti doqquz gün olsun, ya çərşənbədir ki, nəticədə on gün olsun, bu halda da sonradan qəsdinin əvvəli çərşənbə günü olduğu mə'lum olsa namazı tamamdır. Bu surətdən başqasında, namazı qəsr qılmalıdır, baxmayaraq ki, qəsd etdiyi gündən ayın axırına on gün, ya daha artıq qalmış olsa belə.

**Məsələ:** ١٣٥٠. Bir yerdə on gün qalacağını qəsd edən müsafir dörd rükətli bir namaz qılmazdan öncə öz qəsdindən dönsə, yaxud həmin yerdə qalmaq, yoxsa başqa bir yerə getməkdə tərəddüd etsə, namazı qəsr qılmalıdır. Lakin dörd rükətli bir namaz qılandan sonra öz qəsdindən daşınsa, ya getmək və qalmaqda tərəddüd etsə, orada olduğu vaxta qədər namazı tamam qılmalıdır. Bu və sonrakı məsələlərdə "dörd rükətli namaz" dedikdə, məqsəd dörd rükət olan əda namazıdır.

**Məsələ:** ١٣٥١. Bir yerdə on gün qalmaq qəsdi olan müsafir əgər oruc tutsa və zöhrdən sonra orada qalmaq fikrindən dönsə, bu halda dörd rükətli bir namaz qılıbsa, orada olduğu müddətdə tutduğu oruclar səhihdir və öz namazlarını da tamam qılmalıdır. Əgər dörd rükətli bir namaz qılmamışdırsa vacib ehtiyata əsasən, həmin günün orucunu tamam edib, qəzasını da tutmalı, namazlarını da qəsr qılmalıdır. Sonrakı günləri də oruc tuta bilməz. Əgər gün batandan sonra və dörd rükətli bir namaz qılmamışdan öncə öz qəsdindən daşınsa həmin gün tutmuş olduğu oruc səhihdir.

**Məsələ:** ١٣٥٢. Bir yerdə on gün qalmağı qəsd edən müsafir əgər qalmaq qəsdindən daşınsa və bu fikrindən daşınmamış, yaxud fikrindən

daşınandan sonra dörd rükətli bir namaz qılıb-qılmadığında şəkk etsə, öz namazlarını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٥٣. Əgər müsafir namazını qəsr qılmaq niyyətilə namaza başlasa və namaz əsnasında on gün, ya daha artıq qalmağı qərara alsa, namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٥٤. Bir yerdə on gün qalmağı qəsd edən müsafir əgər birinci dörd rükətli namazın əsnasında öz fikrindən dönsə, bu halda hələ üçüncü rükətə daxil olmayıbsa, namazı iki rükətdə tamamlamalı və qalan namazlarını da qəsr qılmalıdır. Həmçinin, əgər üçüncü rükətə başlayıb hələ rükuya getməmişdirsə, oturub namazı qəsr şəklində sona çatdırmalıdır. Əgər artıq qiraət, ya təsbihati-ərbəə demişdirsə, vacib ehtiyata əsasən, bir cüt səhv səcdəsi yerinə yetirməlidir. Əgər rükuya getmişdirsə namazı batildir və həmin namazı qəsr olaraq yenidən qılmalıdır. Orada qaldığı müddətdə namazını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٥٥. Bir yerdə on gün qalmağı qəsd edən müsafir əgər həmin yerdə on gündən çox qalsa, səfər etmədiyi müddətdə namazı tamam qılmalıdır və yenidən on gün qalmaq qəsdini etməsi lazım deyildir.

**Məsələ:** ١٣٥٦. Bir yerdə on gün qalmağı qəsd edən müsafir vacib oruclarını tutmalıdır, eləcə də müstəhəbb oruc da tuta, həmçinin, zöhr, əsr və işa namazlarının nafilələrini də qıla bilər.

**Məsələ:** ١٣٥٧. On gün bir yerdə qalmağı qəsd edən müsafir əgər dörd rükətli bir namaz qılandan sonra, yaxud on gün qaldıqdan sonra, bir namazı tamam qılmamış olsa da belə, dörd fərsəxdən az bir məsafədə olan bir yerə gedib-qayıtmaq istəsə və bir daha əvvəlki yerində on gün və ya ondan az qalmaq istəsə, getdiyi vaxtdan qayıtdığı vaxta qədər və qayıdandan sonrakı müddətdə namazını tamam qılmalıdır. Lakin iqamət etdiyi yerə qayıtması yalnız səfər yolunun üstündə olduğuna görə baş verərsə və səfəri şər'i məsafə qədər olsa, qayıtdığı zaman namazı qəsr qılması lazımdır.

**Məsələ:** ١٣٥٨. Bir yerdə on gün qalmağı qəsd edən müsafir dörd rükətli bir namaz qıldıqdan sonra səkkiz fərsəxdən az olan bir yerə getmək və orada on gün qalmaq istəsə, yolda və on gün qalmağı qəsd etdiyi yerdə namazlarını tamam qılmalıdır. Lakin getmək istədiyi yer səkkiz fərsəx, ya daha çox olsa yol getdiyi zaman namazlarını qəsr qılmalıdır və orada on gün qalmaq istəməsə, orada qaldığı müddətdə də namazlarını qəsr qılmalıdır.

**Məsələ:** ١٣٥٩. Bir yerdə on gün qalmağı qəsd edən müsafir əgər dörd rükətli bir namaz qılandan sonra dörd fərsəxdən az olan bir yerə getmək istəsə, bu halda əvvəlki yerinə qayıdıb-qayıtmamaq barədə tərəddüd etsə, ya ümumiyyətlə ora qayıtmaqdan qəflətdə olsa, ya qayıtmaq istəsə də, on gün qalıb-qalmayacağında tərəddüd etsə, ya

orada on gün qalıb, oradan səfərə çıxmaqdan qəflətdə olsa, getdiyi vaxtdan qayıtdığı vaxta qədər və qayıdandan sonrakı müddətdə namazlarını tamam qılmalıdır.

**Məsələ:** ١٣٦٠. Əgər yoldaşlarının bir yerdə on gün qalmaq istəmələrini güman edərək həmin yerdə on gün qalmağı qəsd etsə və orada dörd rükətli bir namaz qıldıqdan sonra yoldaşlarının qəsd etmədiklərini başa düşsə, hətta özü də orada qalmaq fikrindən dönsə belə, orada olduğu müddətdə namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٦١. Əgər müsafir təsadüfən bir yerdə otuz gün qalsa və bütün bu otuz gün ərzində qalıb-qalmamaqda tərəddüd etsə, otuz gün keçəndən sonra orada az vaxtda qalmalı olsa da, namazı tamam qılmalıdır.

**Məsələ:** ١٣٦٢. Bir yerdə doqquz gün, ya ondan da az bir müddətdə qalmaq istəyən müsafir, əgər həmin yerdə doqquz gün, ya ondan az bir müddətdə qaldıqdan sonra əlavə olaraq doqquz gün, ya ondan az bir müddət orada qalmaq istəsə və bu yolla otuz gün keçsə, otuz birinci gün namazını tamam qılmalıdır.

**Məsələ:** ١٣٦٣. Müsafir bir yerdə otuz gün qaldığı surətdə o halda namazını tamam qılmalıdır ki, otuz günü bir yerdə qalmış olsun. Deməli, əgər onun bir qədərini isə bir yerdə, bir qədərini başqa bir yerdə qalsa, otuz gün keçəndən sonra da namazını qəsr qılmalıdır.

## MÜSAFİRİN NAMAZININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ١٣٦٤. Müsafir qədim Məkkə şəhərində – Əqəbeyi Mədəniyyindən Zi-Tuvaya qədərdir – həzrət Rəsulun (səlləllahu əleyhi və alih) zamanındakı Mədinə şəhərində, Kufə şəhərində və həzrət Seyyidüş-şühədanın (əleyhissalam) hərəmində namazı tamam və ya qəsr qılmaqda ixtiyarlıdır. Tamam qılmaq əfzəldir, baxmayaraq ki, Məscidül-həramın və Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidinin çölündə, hətta bu iki məscidə imamların (əleyhimussalam) zamanından sonra birləşdirilən yerlərdə, Kufə məscidinin çölü və müqəddəs zərihin ətrafından uzaqda namazı tamam qılmamaq əhvətdir (və ehtiyata əsaslanır).

**Məsələ:** ١٣٦٥. Müsafir olduğunu və namazının qəsr qılınmalı olduğunu bilən şəxs, əgər yuxarıdakı məsələdə deyilmiş dörd yerdən başqa yerlərdə qəsdən namazını tamam qılsa, batildir. Əgər müsafirin namazının qəsr olduğunu unudub, namazı tamam qılsa bu halda namazın vaxtı keçməmiş yadına düşsə, onu yenidən qılmalıdır, əgər namaz vaxtından sonra yadına düşsə, ona qəza yoxdur.

**Məsələ:** ١٣٦٦. Müsafir olduğunu və namazının qəsr qılmalı olduğunu bilən şəxs, əgər səhvən tamam qılsa, bu halda namaz vaxtı

ərzində bunu bilsə, namazı batildir. Yox əgər namazın vaxtı keçdikdən sonra bilsə, onun qəzası yoxdur.

**Məsələ:** ١٣٦٧. Namazını qəsr qılmalı olduğunu bilməyən müsafir əgər tamam qılsa, namazı səhihdir.

**Məsələ:** ١٣٦٨. Namazını qəsr qılmalı olduğunu bilən müsafir onun bə'zi xüsusiyyətlərini bilməsə, məsələn, səkkiz fərsəxlik səfərdə qəsr qılacağını bilməsə və namazı tamam qılsa və vaxt keçməmiş başa düşsə, onu təzələməlidir. Əgər yenidən qılmasa, vaxtı keçəndən sonra gərək qəza etsin. Əgər vaxt keçəndən sonra başa düşsə, qəzası yoxdur.

**Məsələ:** ١٣٦٩. Namazı qəsr qılmalı olduğunu bilən müsafir, səfərinin səkkiz fərsəxdən az olduğunu güman edib namazını tamam qılsa, bu halda namaz vaxtı ərzində səfərin səkkiz fərsəx olduğunu başa düşsə, tamam qıldığı namazı yenidən qəsr qılmalıdır. Əgər yenidən qılmasa qəza etməlidir. Amma vaxt keçdikdən sonra başa düşsə, qəzası yoxdur.

**Məsələ:** ١٣٧٠. Əgər müsafir olduğunu unudub, namazı tamam qılsa, bu halda vaxt daxilində başa düşsə, onu qəsr olaraq yenidən qılmalı, əgər yenidən qılmasa, qəza etməlidir. Əgər namazın vaxtı ötdükdən sonra başa düşsə, qəzası yoxdur.

**Məsələ:** ١٣٧١. Namazı tamam qılmalı olan şəxs, əgər qəsr qılsa namazı batildir. Lakin bir yerdə on gün qalmağı qəsd edən müsafir məsələnin hökmünü bilmədiyi üçün namazı qəsr qılarsa, vacib ehtiyat budur ki, namazı yenidən tamam olaraq qılsın.

**Məsələ:** ١٣٧٢. Əgər dörd rükətli namaza başlayıb, namaz əsnasında müsafir olduğunu xatırlasa, ya səfərinin səkkiz fərsəxlik olduğunu bilsə, bu halda üçüncü rükətin rükusuna getməmişdirsə, oturub namazı iki rükətli olaraq tamamlamalıdır. Əgər artıq qiraət ya təsbihati–ərbəə oxumuşdursa, vacib ehtiyata əsasən, bir cüt səhv səcdəsi yerinə yetirməlidir. Əgər üçüncü rükətin rükusuna getmiş olsa, namazı batildir. Bu zaman bir rükət namaz qılmaq qədərində belə vaxt varsa namazı əvvəldən, qəsr olaraq qılmalıdır. Əgər bir rükət namaz qılmaq qədərində vaxt qalmamışsa, namazı qəsr olaraq qəza etməlidir.

**Məsələ:** ١٣٧٣. Əgər səfərdə olan şəxs, müsafir namazının bə'zi xüsusiyyətlərini bilməsə, məsələn, əgər dörd fərsəxlik gedib, dörd fərsəxlik qayıtdığı namazın qəsr olduğunu bilməsə, bu halda dörd rükətlik namaz niyyəti ilə namaz qılmağa məşğul olsa və üçüncü rükətli rükusundan əvvəl başa düşsə, namazını iki rükətli olaraq tamamlamalıdır. Əgər artıq qiraət, ya təsbihat oxumuşdursa vacib ehtiyat olaraq bir cüt səhv səcdəsi etməlidir. Əgər rükuda başa düşsə namazı batildir. Bu zaman hətta bir rükət namaz qılmaq qədərində vaxt qaldığı halda belə, namazı qəsr olaraq yenidən qılmalı və əgər bu qədər vaxt qalmamışdırsa namazı qəsr olaraq qəza etməlidir.

**Məsələ:** ١٣٧٤. Namazı tamam qılmalı olan müsafir məsələni bilməməzlik ucbatından iki rükətli namaz qılmaq niyyətilə namaza başlasa və namaz əsnasında məsələni başa düşsə, namazı gərək dörd rükətli olaraq tamamlasın.

**Məsələ:** ١٣٧٥. Namazını qılmamış olan müsafir namaz vaxtı ötməmiş vətəninə, ya on gün qalmaq istədiyi bir yerə çatsa, namazı tamam qılmalıdır. Müsafir olmayan bir şəxs əgər namazı əvvəl vaxtda qılmayıb, səfərə çıxsa, səfərdə namazı qəsr qılmalıdır.

**Məsələ:** ١٣٧٦. Namazını qəsr qılmalı olan müsafirin zöhr, əsr, ya işa namazı qəzaya getmiş olsa, onların qəzasını qəsr olaraq qılmalıdır, hətta onların qəzasını səfərdə olmadığı vaxt qılmaq istəsə belə. Əgər müsafir olmayan bir şəxsin bu üç namazından biri qəzaya getmiş olsa, onu tamam olaraq qəza etməlidir, hətta səfərdə belə onun qəzasını qılmaq istəsə belə.

**Məsələ:** ١٣٧٧. Namaz qılan şəxsin hər namazdan sonra otuz dəfə ***«Subhanəllahi vəl-həmdu lillahi vəla ilahə illəllahu vəllahu əkbər»*** deməsi müstəhəbbdir, həmçinin, müsafirin qəsr olaraq qıldığı namazlardan sonra bu cümləni deməsi tə'kidli müstəhəbdir.

## QƏZA NAMAZI

**Məsələ:** ١٣٧٨. Öz vacib namazını vaxtında qılmayan şəxs onun qəzasını yerinə yetirməlidir, hətta bütün vaxt ərzində yuxulu olsa, ya məst olmaq səbəbinə, ya öz ixtiyarı ilə bihuş olduğu üçün namaz qılmayıbsa belə. Amma qadının heyz, ya nifas halında qılmadığı namazlarının – istər gündəlik namazlar olsun, istərsə qeyrisi, qəzası yoxdur. Lakin ildırım, göy gurultusu və zəlzələyə görə olan ayət namazlarını, vacib ehtiyata əsasən, əda və ya qəza niyyəti etmədən qılmalıdır.

**Məsələ:** ١٣٧٩. Əgər namazın vaxtından sonra, qılmış olduğu namazların batil olduğunu başa düşsə, gərək onun qəzasını yerinə yetirsin.

**Məsələ:** ١٣٨٠. Öhdəsində qəza namazları olan şəxs, onları qılmaqda səhlənkarlıq etməməlidir, lakin onları dərhal yerinə yetirməsi vacib deyilidir.

**Məsələ:** ١٣٨١. Qəza namazı olan şəxs müstəhəbb namaz qıla bilər.

**Məsələ:** ١٣٨٢. Əgər bir şəxs (öhdəsində) qəza namazı olduğunu ehtimal edərsə, ya qıldığı namazların səhih olmadığına ehtimal verərsə, onların qəzasını yerinə yetirməsi müstəhəbb ehtiyatdır.

**Məsələ:** ١٣٨٣. Gündəlik namazların qəzasında tərtib lazım (vacib) deyil, amma bir günün zöhrlə əsr, ya məğriblə işa namazları kimi tərtiblə qılınmalı olan namazlarından başqa. Ehtiyat müstəhəbb budur ki, adı çəkilən namazlardan qeyrilərində də tərtibə riayət olunsun.

**Məsələ:** ١٣٨٤. Əgər bir şəxs gündəlik namazlardan başqa bir neçə namazın, məsələn, ayət namazının qəzasını, ya məsələn, bir gündəlik namazın və bir neçə gündəlik olmayan namazın qəzasını qılmaq istəsə, onları tərtiblə qılması lazım (vacib) deyildir.

**Məsələ:** ١٣٨٥. Əgər qılmadığı namazların tərtibini unutsa, müsəhəbb ehtiyat budur ki, onları qəzaya verdiyi tərtiblə yerinə yetirdiyinə əmin olacağı bir tərzdə qılsın. Məsələn, əgər ona bir zöhr və bir məğrib namazının qəzası vacibdirsə və hansının əvvəlcə qəzaya getdiyini bilmirsə, əvvəlcə bir məğrib, sonra bir zöhr; və sonra yenidən bir məğrib namazı qılsın; yaxud da əvvəl bir zöhr, sonra bir məğrib və sonra yenidən bir zöhr namazı qılsın ki, hansı əvvəl qəzaya ketmişdirsə, onu əvvəl qıldığına əmin olsun.

**Məsələ:** ١٣٨٦. Əgər bir günün zöhr namazı və başqa bir günün əsr namazı, ya iki zöhr, ya iki əsr namazını qəzaya vermişdirsə və hansının əvvəl qəzaya getdiyini bilmirsə, bu halda birinci namazın birinci günün, ikincinin isə ikinci günün qəzası olması niyyəti ilə iki dörd rükətli namaz qılarsa, bu, tərtibin hasil olması üçün kifayətdir.

**Məsələ:** ١٣٨٧. Əgər bir zöhr və bir işa, ya bir əsr və bir işa namazı qəzaya getmişdirsə və hansının əvvəl olduğunu bilmirsə, müstəhəbb ehtiyat budur ki, onları elə qılsın ki, tərtiblə yerinə yetirdiyinə əmin olsun. Tərtibin hasil olmasına yəqin etmək üçün, məsələn, əgər bir zöhr və bir işa namazı qəzaya getmişdirsə və hansının əvvəl olduğunu bilmirsə, əvvəlcə bir zöhr, sonra bir işa, sonra da bir zöhr namazı qıla bilər; yaxud da əvvəlcə bir işa, sonra bir zöhr, sonra yenə bir işa namazı qıla bilər.

**Məsələ:** ١٣٨٨. Dörd rükətli bir namaz qılmadığını bilib amma onun zöhr, ya əsr namazı olduğunu bilməyən şəxs, əgər qılmadığı namazın qəzası niyyətilə dörd rükətli bir namaz qılsa kifayətdir. Həmçinin, əgər qılmadığı namazın zöhr yaxud işa olduğunu bilmədikdə də hökm eynidir və bu surətdə həmin namazın qiraətini ucadan (cəhrlə), ya ahəstə (ixfatla) oxumaqda ixtiyar sahibidir.

**Məsələ:** ١٣٨٩. Ardıcıl olaraq beş namazı qəzaya gedən şəxs onların hansının əvvəl olduğunu bilmədikdə, tərtiblə doqquz namaz qılsa; məsələn, sübh namazından başlayıb ondan sonra zöhr, əsr, məğrib və işa namazı qılsa və yenidən sübh, zöhr, əsr və məğrib namazı qılsa, tərtibin hasil olmasına əmin olar. Əgər altı namaz ardıcıl olaraq qəzaya getmiş olsa və onlardan hansının əvvəl olduğunu bilməsə, tərtibin hasil olmasına əminlik tapmaq üçün tərtiblə on qəza namazı qılsın. Qəza namazlarına əlavə olunan hər bir namaz üçün də, ardıcıl qəzaya getdiyi təqdirdə, deyilən miqdara bir namaz əlavə etsin ki, tərtibin hasil olmasına əmin olsun.

**Məsələ:** ١٣٩٠. Bir şəxsin beş namazının və hər gündə birinin qəza olduğunu bilib, amma tərtibini bilməsə yaxşı olar ki, beş günlük namaz qılsın. Həmçinin, əgər altı gündən altı namazı qəzaya getmişdirsə, altı günlük namazı qılsın. Onun qəza namazlarına əlavə olunan hər bir namaz üçün, bir günlük artıq namaz qılsın ki, qəzaya getmiş namazları tərtiblə yerinə yetirdiyinə əmin olsun. Məsələn, əgər yeddi gün ərzində yeddi namazı qəzaya getmişdirsə, yeddi günlük namazı qılsın və bu, hər bir gün üçün kifayət edər. Əgər səfərdə olmadığı və bu hökmdə olan bir vaxtda namazları qəzaya getsə, bir ədəd iki rükətli, bir ədəd üç rükətli və bir ədəd zöhr, işa və əsr namazı arasında tərəddüddə olan dörd rükətli bir namaz qılmalıdır. Əgər səfərdə olarkən qəzaya getmişdirsə sübh, zöhr, əsr və işa namazları arasında tərəddüddə olan bir iki rükətli və bir üç rükətli namaz qılmalıdır.

**Məsələ:** ١٣٩١. Əgər bir şəxsin bir neçə sübh, ya bir neçə zöhr namazı qəzaya getmişdirsə və onların sayını bilmirsə və ya unudubsa, məsələn, bilmirsə ki, qəzaya gedən üç, dörd ya beş namazdır, bu surətdə az miqdarı qılsa kifayətdir. Lakin müstəhəbb ehtiyat budur ki, qəzaya getmiş namazların hamısını qıldığına əmin olana qədər (artıqlaması ilə) namaz qılmalıdır, məxsusən onların sayını bilib, sonra unutduğu surətdə.

**Məsələ:** ١٣٩٢. Əvvəlki günlərdən yalnız bir namazı qəzaya vermiş şəxs üçün müstəhəbb ehtiyatdır ki, – mümkün olan surətdə – əvvəlcə onun qəzasını qılsın, sonra həmin günün namazını qılsın. Həmçinin, əgər qabaqkı günlərdən qəza namazı olmasa, lakin həmin günün bir və ya daha artıq namazı qəza olmuşdursa, müstəhəbbdir ki, – mümkün olan surətdə – həmin günün qəza namazını əda namazından əvvəl qılsın. Hər iki surətdə əgər həmin günün namazının fəzilətli vaxtı ötəcəksə, yaxşı olar ki, həmin günün namazını qəzadan əvvəl qılsın.

**Məsələ:** ١٣٩٣. Əgər namaz əsnasında həmin günün bir və ya bir neçə namazının qəzaya getdiyi yadına düşərsə, ya qabaqkı günlərdən yalnız bir dənə qəza namazı varsa, namaz vaxtı genişdirsə və niyyətini qəza namazına döndərməsi mümkündürsə, müstəhəb ehtiyat budur ki, qəza namazının niyyətini etsin. Məsələn, əgər zöhr namazının üçüncü rükətinin rükusundan əvvəl həmin günün sübh namazının qəzaya getmiş olduğu yadına düşsə, bu halda zöhr namazının vaxtı dar deyilsə, niyyəti sübhün qəzasına döndərib namazı iki rükətli olaraq tamamlamalı və sonra zöhr namazını qılmalıdır. Lakin vaxt dardırsa və ya niyyətini qəza namazına döndərə bilmirsə, məsələn, zöhr namazının üçüncü rükətinin rükusunda olarkən sübh namazını qəzaya vermiş olduğu yadına düşsə və niyyətini sübhün qəzasına döndərmək istəsə, bir rüku rükn olduğu üçün artıq rüknə səbəb olduğundan, niyyəti sübh namazının qəzasına döndərməməlidir.

**Məsələ:** ١٣٩٤. Keçən günlərin qəza namazları ola-ola həmin günün bir və ya bir neçə namazı da qəzaya getsə, bu halda onların hamısının qəzasını yerinə yetirmək üçün vaxt yoxdursa və ya onların hamısını həmin gün qılmaq istəmirsə, müstəhəbbdir ki, həmin günün qəza namazlarını əda namazından əvvəl qılsın. Müstəhəbb ehtiyat budur ki, əvvəlki qəza namazlarını qıldıqdan sonra həmin günün əda namazlarından əvvəl qılmış olduğu qəza namazlarını ikinci dəfə yerinə yetirsin.

**Məsələ:** ١٣٩٥. İnsan diri olduğu vaxta qədər öz qəza namazlarını qılmaq üçün aciz olsa da belə, başqası onun qəza namazlarını qıla bilməz.

**Məsələ:** ١٣٩٦. Qəza namazını camaatla qılmaq olar, bu halda istər imam-camaat əda, istərsə qəza namazı qılmış olsun, eləcə də hər ikisinin eyni bir namazı qılması da lazım (vacib) deyildir. Məsələn, sübh namazının qəzasını imam-camaatın zöhr, ya əsr namazı ilə qılmağının eybi yoxdur.

**Məsələ:** ١٣٩٧. Müməyyiz – yə'ni yaxşını-pisi anlayan uşağı namaz qılmağa və digər ibadətlərə adət etdirmək, hətta onu qəza namazlarını qılmağa vadar etmək belə, müstəhəbbdir.

## ATANIN, BÖYÜK OĞULA VACİB OLAN QƏZA NAMAZLARI

**Məsələ:** ١٣٩٨. Əgər ata öz vacib namazlarını qılmayıbsa və onların qəzasını qıla bilərdisə, ehtiyata əsasən, hətta itaətsizlik ucbatından tərk etmiş olsa da, yaxud səhih şəkildə qılmayıbsa ölümündən sonra böyük oğula, onları qılması ya qılınması üçün əcir (muzdla təyin olunmuş şəxs) tutması vacibdir. Ananın qəza namazlarını yerinə yetirmək isə vacib olmasa da, əhvətdir.

**Məsələ:** ١٣٩٩. Əgər böyük oğul atasının qəza namazı olub-olmadığında şəkk etsə, ona bir şey vacib deyildir.

**Məsələ:** ١٤٠٠. Əgər böyük oğul atasının qəza namazı olduğunu bilib, amma onu yerinə yetirib-yetirmədiyində şəkk etsə, vacib ehtiyata əsasən, qəzasını qılmalıdır.

**Məsələ:** ١٤٠١. Əgər böyük oğulun hansı olması mə'lum olmasa, atanın qəza namazlarını qılmaq oğullardan heç birinə vacib deyildir. Lakin müstəhəbb ehtiyat budur ki, vacibi-kifayi tərzdə yerinə yetirsinlər, yaxud qəza namazlarını öz aralarında bölsünlər, ya da onu yerinə yetirmək üçün püşk atsınlar.

**Məsələ:** ١٤٠٢. Əgər meyyit, sağlığında qəza namazlarını qılmaq üçün əcir (yə'ni muzdla bir işi yerinə yetirən şəxs) tutulmasını vəsiyyət etsə, əcir tutulan şəxs, onun namazlarını səhih tərzdə yerinə yetirsə, böyük oğuldan saqit olar.

**Məsələ:** ١٤٠٣. Əgər böyük oğul ata-anasının qəza namazlarını qılmaq istəsə, öz vəzifəsinə uyğun əməl etməlidir. Məsələn, anasının sübh, məğrib və işa namazlarının qəzasını ucadan (cəhr ilə) qılmalıdır.

**Məsələ:** ١٤٠٤. Özünün qəza namazı olan şəxs, əgər ata-anasının da qəza namazlarını qılmaq istəsə, hansını əvvəl yerinə yetirsə, səhihdir.

**Məsələ:** ١٤٠٥. Əgər böyük oğul, ata ölən zaman həddi-buluğa çatmamış, ya dəli olsa, həddi-buluğa çatdıqda, ya ağıllandıqda atanın qəza namazlarını qılmalıdır.

**Məsələ:** ١٤٠٦. Əgər böyük oğul atanın qəza namazını qılmamış ölsə, ikinci oğula bir şey vacib deyildir.

## CAMAAT NAMAZI

**Məsələ:** ١٤٠٧. Vacib namazları, məxsusən, gündəlik namazları camaatla qılmaq müstəhəbbdir. Sübh və işa namazlarının, məscidin qonşusu olan şəxsin və azan səsini eşidənlərin namazı (camaatla qılmasına) çox tə'kid olunmuşdur. Həmçinin, bə`zi rəvayətlərdə məğrib namazı da həmin namazlar sırasındadır.

**Məsələ:** ١٤٠٨. Camaatla qılınan namaz, fərdi şəkildə qılınan namazdan iyimi dörd dərəcə fəzilətlidir və iyirmi beş namaza bərabərdir. Bə'zi rəvayətlərdə bu məzmunda deyilir ki, Allahın Rəsulu (səlləllahu əleyhi və alih) buyurmuşdur: «Hər kəs camaat namazı qılmaq üçün məscidə gedərsə, onun hər addımı üçün yetmiş min həsənə yazılar və həmin qədər də dərəcəsi yüksələr. Həmin şəxs o halda ölsə, Allah-Taala onun üçün yetmiş min mələk vəkil edər ki, onun qəbrinə gedib ona müjdə versinlər, qəbrin tənhalığında ona munis olsunlar və qiyamətə qədər onun üçün istiğfar etsinlər (günahlarının bağışlanmasını Allahdan diləsinlər).

**Məsələ:** ١٤٠٩. E'tinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir və insanın üzrsüz səbəbə görə camaat namazını tərk etməsi layiq deyildir.

**Məsələ:** ١٤١٠. Şəxsin namazı camaatla qılması üçün gözləməsi müstəhəbbdir. Fəzilət vaxtı keçməmiş qılınan camaat namazı, namazın əvvəl vaxtında qılınan fərdi namazdan daha yaxşıdır. Həmçinin qısa qılınan camaat namazı, uzun-uzadı qılınan fərdi namazdan əfzəldir.

**Məsələ:** ١٤١١. Camaat namazı təşkil olunarkən, namazını fərdi qılan şəxsin yenidən camaatla namaz qılması müstəhəbbdir. Əgər sonradan əvvəlki (fərdi qıldığı) namazın batil olduğunu başa düşsə, ikinci namaz kifayətdir.

**Məsələ:** ١٤١٢. Əgər İmam camaat, ya mə'mum (yə`ni iqtida edən) camaatla qıldıqları namazı yenidən (başqa bir) camaatla qılmaq istəsələr, bu halda əvvəlki namazın fasid olmasına ehtimal verməsə, caiz deyildir. Lakin ikinci camaat namazında İmam olsa, mə'mumlar

arasında da vacib namazlarını qılmamış bir şəxs olsa, bu hal istisnadır və bu surətdə yenidən qılmaq müstəhəbbdir.

**Məsələ:** ١٤١٣. Namazın batil olması ilə nəticələnəcək dərəcədə vasvası olan şəxs namazı yalnız camaatla qıldığı təqdirdə vasvaslıqdan rahat olursa, namazını camaatla qılmalıdır. Həmçinin vacib ehtiyata əsasən, namazının batil olmasına bais olmayacaq dərəcədə də vasvas olan şəxsin də hökmü eynidir.

**Məsələ:** ١٤١٤. Əgər ata, ya ana öz övladına namazı camaatla qılmağı əmr etsə, bu işi tərk etmək onların inciyib əziyyətə düşməsinə səbəb olarsa, onlarla müxalifət etməsi haramdır.

**Məsələ:** ١٤١٥. İstisqa (yə'ni yağış yağmağı istəmək) namazından başqa, digər müstəhəbb namazları camaatla qılmaq olmaz. Əvvəlcə vacib olub sonradan müəyyən səbəbə görə müstəhəbb olan namazlar da, məsələn, İmam (əleyhissalam)-ın hüzuru zamanında vacib olan, onun qeybə çəkilməsi vasitəsilə (indiki dövrdə) müstəhəbb olan fitr və qurban bayramlarının namazı kimi, istisqa namazı hökmündədir (yə`ni camaatla qılmaq olar).

**Məsələ:** ١٤١٦. İmam-camaat gündəlik namazı qılarkən gündəlik namazlardan hər hansı birini qılmaq üçün ona iqtida etmək olar.

**Məsələ:** ١٤١٧. Əgər imam-camaat özünün, ya başqa bir kəsin qəza namazını qılarsa bu halda əgər namazın qəzaya getməsinə yəqinlik olsa, ona iqtida etmək olar. Lakin əgər ehtiyatən qəza edirsə, ona iqtida etmək caiz deyildir. Yalnız mə'mumun da namazı ehtiyat olduğu və hər ikisinin ehtiyatının mənşəyi eyni olduğu surət istisnadır.

**Məsələ:** ١٤١٨. Əgər insan, bir şəxsin gündəlik vacib namazı, yoxsa müstəhəbb namaz qıldığını bilməsə, ona iqtida edə bilməz.

**Məsələ:** ١٤١٩. Camaat namazının səhihliyində imamla mə'mumun, həmçinin, mə'mumla imamın arasında vasitə olan digər mə'mumun İmamı görməsinə mane ola biləcək pərdə, ya divar və bu kimi şeylər olmaması şərtdir. Əgər namazın hamısının, ya bə'zi hallarında imamla mə'mum, ya imamla mə'mumun müttəsilliyinə vasitə olan mə'mumlar arasında bir "hail" olarsa, camaat namazı batil olar. Qadın belə bir hökmdən istisnadır və onun hökmü sonradan deyiləcək.

**Məsələ:** ١٤٢٠. Əgər birinci cərgənin uzunluğuna görə onun iki tərəfində dayanan mə'mumlar İmamı görməsələr də, iqtida edə bilərlər. Həmçinin, sonrakı cərgələrin birinin uzunluğuna görə, onun iki tərəfində dayanan mə'mumlar qarşıdakı cərgəni görə bilməsələr, iqtida edə bilərlər.

**Məsələ:** ١٤٢١. Əgər camaatın cərgələri məscidin qapısına qədər gəlsə, qapının müqabilində cərgənin arxasında dayanan şəxsin namazı səhihdir. Həmçinin, onun arxasında dayanıb iqtida edənlərin də namazı

səhih olar. Hətta, iki tərəfdə dayanan və başqa mə'mumların vasitəsilə camaata bağlı olanların namazı da səhihdir.

**Məsələ:** ١٤٢٢. Sütunun arxasında dayanan şəxs əgər sağ, ya sol tərəfdən başqa mə'mumların vasitəsilə İmama bağlanmasa iqtida edə bilməz.

**Məsələ:** ١٤٢٣. İmamın dayandığı yer, mə'mumun dayandığı yerdən hündür olmamalıdır. Lakin az bir miqdar, məsələn bir qarışdan az hündür olsa, eybi yoxdur. Həmçinin, əgər yer üzü aşağı olsa və İmam da uca olan tərəfdə dayansa, bu halda onun yoxuşluğu çox olmasa və ona «düz yerdir» deyilsə, eybi yoxdur.

**Məsələ:** ١٤٢٤. Əgər mə'mumun dayandığı yer, imamın yerindən hündür olarsa, eybi yoxdur. Lakin "camaat namazı" deyilməsi şəkli olacaq qədər hündür olarsa, camaat namazı qəsd edə bilməz.

**Məsələ:** ١٤٢٥. Bir cərgədə dayanan şəxslərin arasında namazı batil olan bir nəfər, ya namazının səhih olub-olmadığını bilməyən müməyyiz bir uşaq fasilə yaratsa, bu halda digər mə'mumun vasitəsilə camaata bağlanmasa, vacib ehtiyata əsasən, iqtida etmək olmaz.

**Məsələ:** ١٤٢٦. İmamın təkbirindən sonra əgər qarşıdakı cərgə namaza və təkbir deməyə hazır olsalar, sonrakı cərgədə dayanan şəxs təkbir deyə bilər. Lakin müstəhəbb ehtiyat budur ki, gözləsin, onun qarşısında olub onun müttəsil olmasına səbəb olan bir kəs və ya bir neçə nəfər təkbir desin.

**Məsələ:** ١٤٢٧. Əgər qarşıdakı cərgələrdən birinin batil olduğunu bilsə, sonrakı cərgələrdə dayananlar iqtida edə bilməzlər. Lakin onların namazının səhih olub-olmadığını bilməsələr iqtida edə bilərlər.

**Məsələ:** ١٤٢٨. Əgər imamın namazının batil olduğunu bilsə, məsələn: bilsə ki, İmam dəstəmazsızdır, imamın özü xatırlamış olmasa da, ona iqtida edə bilməz.

**Məsələ:** ١٤٢٩. Əgər mə'mum namazdan sonra başa düşsə ki, İmam adil deyilmiş, yaxud kafir imiş, ya başqa səbəbə görə, misal üçün, dəstəmazsız namaz qıldığına, ya bir səbəbə görə namazının batil olduğunu bilsə, bu halda fərdi qılınan namazda səhvən də olsa, namazı batil edən bir iş görməyibsə; məsələn: artıq rüku yerinə yetirməyibsə, namazı səhihdir.

**Məsələ:** ١٤٣٠. Əgər namaz əsnasında, iqtida edib-etmədiyində şəkk edərsə, namazı fərdi olaraq tamamlamalıdır. Camaat namazı niyyəti etdiyinə dair bir əlamətlə xatircəm olduğu hal istisnadır.

**Məsələ:** ١٤٣١. Namazın əvvəlindən furada qəsdi olmadığı təqdirdə, imamın salamından qabaq təşəhhüd halında niyyəti camaat namazından fərdi namaza döndərməyin eybi yoxdur. Həmçinin, üzrlü səbəbə görə, təşəhhüddən qabaq da niyyəti fərdi etsə, eybi yoxdur. Bu iki surətdən başqa hallarda niyyəti camaat namazından fərdi namaza

döndərmək məhəlli-işkaldır, istər dönmə niyyəti əvvəldən olsun, istərsə də namaz əsnasında qəsd edilsin, lakin fərdi vəzifəsinə əməl etsə, namazı səhihdir. Həmçinin, qiraətin məhəlli keçəndən sonra, niyyətini camaat namazından fərdi namaza döndərsə, əvvəldən fərdi namaz qılmaq qəsdi olmasa, qiraəti tərk etmək cəhətindən namazı səhihdir.

**Məsələ:** ١٤٣٢. Əgər mə'mum, imamın Həmd-surəsi qurtarmamış fərdi niyyət etsə, Həmd-surəni oxuması vacibdir, hətta İmam Həmd-surədən bir miqdarını oxumuş olsa da; həmçinin, vacib ehtiyata əsasən, əgər imamın Həmd-surəsindən sonra və rükudan əvvəl fərdi niyyət etsə də, hökm eynidir.

**Məsələ:** ١٤٣٣. Əgər camaat namazı əsnasında fərdi niyyət etsə, ikinci dəfə camaat namazı niyyəti edə bilməz. Lakin fərdi niyyət edib-etməməsində tərəddüd etsə, hətta sonradan namazı camaatla tamamlamaq qərarına gəlsə də, onun camaatla qıldığı namaz məhəlli-işkaldır.

**Məsələ:** ١٤٣٤. Əgər namaz əsnasında fərdi niyyət edib-etməməsində şəkk etsə, fərdi niyyət etmədiyini əsas tutmalıdır.

**Məsələ:** ١٤٣٥. Əgər İmam rükuda olarkən iqtida etsə və imamın rükusuna çatsa, imamın zikri qurtarmış olsa da, onun namazı və camaatla qılması səhihdir və bir rükət hesab olunacaqdır. Amma əgər rüku qədərində əyilsə və imamın rükusuna çatmasa, namazı batildir.

**Məsələ:** ١٤٣٦. Əgər İmam rükuda olarkən iqtida edib, rüku miqdarında əyilsə və imamın rükusuna çatıb-çatmadığında şəkk etsə, namazı batildir.

**Məsələ:** ١٤٣٧. Əgər İmam rükuda olarkən iqtida etsə və rüku miqdarında əyilməmişdən əvvəl İmam rükudan qalxsa, imamla birlikdə səcdəyə getməli və imamın sonrakı rükətini özünün birinci rükəti hesab etməlidir. Vacib ehtiyata əsasən, İmama tabe olduqdan sonra qalxıb təkbiri, mütləq qürbət qəsdi ilə – yə'ni təkbirətul-ehram və zikrdən ümumi olan bir təkbir deməlidir.

**Məsələ:** ١٤٣٨. Əgər namazın əvvəlində, ya Həmd-surə oxunan əsnada iqtida etsə və rükuya getməmişdən əvvəl, İmam rükudan qalxsa, bu halda gecikməsi üzürlü səbəbdən olsa onun namazı və camaatla qılması səhihdir.

**Məsələ:** ١٤٣٩. İmam namazın axırıncı təşəhhüdünü deyən zaman camaat namazına çatsa və camaat namazının savabını qazanmaq istəsə, iqtida niyyəti edib, təkbirətul-ehram dedikdən sonra oturmalı və vacib ehtiyata əsasən, təşəhhüdü vacib, ya müstəhəbb niyyəti etmədən mütləq qürbət qəsdi edərək imamla birgə oxumalıdır, lakin namazın salamını deməyib imamın salamının qurtarmasını gözləməlidir, sonra qalxıb niyyət etmədən və təkbir demədən Həmd-surəni oxumalı və onu öz namazının ١-ci rükəti hesab etməlidir.

**Məsələ:** ١٤٤٠. Mə'mum imamdan qabaqda dayanmamalıdır və vacib ehtiyata əsasən, əgər mə'mum bir kişidirsə, imamın sağ tərəfində dayanmalıdır və imamdan arxada dayanması lazım (vacib) deyil, yalnız o, surət istisnadır ki, onun boyu imamdan hündür olsun. Bu surətdə vacib ehtiyata əsasən, elə dayanmalıdır ki, rüku və səcdədə imamdan qabaqda olmasın. Əgər mə'mumlar bir neçə nəfər olsalar, bunun hökmü ١٤٨٨-ci məsələdə deyilibdir.

**Məsələ:** ١٤٤١. Əgər İmam kişi və mə'mum qadın olsa, bu halda o qadınla imamın, yaxud o qadınla, onun İmama müttəsillik vasitəsi olan digər kişi mə'mum arasında pərdə və bu kimi fasilə yaradan bir şey olsa, eybi yoxdur.

**Məsələ:** ١٤٤٢. Əgər camaat namazına başlayandan sonra imamla mə'mumun, ya mə'muma İmama müttəsillik vasitəsi olan başqa bir mə'mumun arasında pərdə, ya başqa bir şey hail olsa, camaat namazı batil və onun namazı fərdi olar, gərək öz fərdi vəzifəsinə əməl etsin.

**Məsələ:** ١٤٤٣. Əqva nəzər budur ki, mə'mumun səcdə etdiyi yer ilə imamın dayandığı yerin arası uzun addımla qət olunan bir addım məsafədən çox olmasın. Həmçinin, əgər şəxs qarşısında dayanan mə'mumun vasitəsilə İmama bağlıdırsa, eyni məsafə (bir addım) gözlənilməlidir. Müstəhəbb ehtiyat budur ki, mə'mumun səcdə etdiyi yerlə, onun qarşısındakı şəxsin dayandığı yer arasında fasilə olmasın.

**Məsələ:** ١٤٤٤. Əgər mə'mum, onun sağ və ya sol tərəfindən iqtida edən şəxslərin vasitəsilə İmama bağlıdırsa və qarşıdan İmama bağlı deyilsə, vacib ehtiyata əsasən, onun sağ, ya sol tərəfindəki iqtida edən kəslə bir uzun addımla qət olunan məsafədən çox fasilə olmasın.

**Məsələ:** ١٤٤٥. Əgər namazda imamla mə'mumun, ya mə'mumla onun qarşısında dayanmış başqa bir mə'mumun arasında uzun bir addımla qət olunan məsafədən çox fasilə yaranarsa, onun camaat namazı batil olar. Bu halda o, namazını fərdi qılmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, bir mə'mumla onun sağ və ya sol tərəfindən İmama bağlılıq vasitəsi olan digər bir mə'mum arasında bu fasilə olsa, hökm eynidir.

**Məsələ:** ١٤٤٦. Əgər qarşıdakı cərgədə dayananların hamısının namazı tamam olarsa, bu halda sonrakı cərgədə dayananlarla qarşıdakı, namazı tamamlanmış kəslər arasında fasilə uzun bir addımla qət olunan fasilə qədər, ya ondan az olduqda və namazları sona çatan cərgə dərhal başqa bir namaz üçün İmama iqtida etsələr, sonrakı cərgənin namazı camaatla səhih olar və əgər fasilə bundan artıq olsa, sonrakı cərgənin camaat namazı batil və namazı fərdi olar.

**Məsələ:** ١٤٤٧. Əgər ٢-ci rükətdə iqtida etsə, Həmd və surə ondan saqit olur və imamdan əvvəl rükuya getməməlidir və həmçinin, imamın təşəhhüdündən qabaq qalxmamalıdır, qunutu və təşəhhüdü imamla

bərabər oxuya bilər. Vacib ehtiyat budur ki, İmam təşəhhud oxuyarkən əl barmaqlarını və ayağın pəncəsini yerə qoyub dizlərini qaldırsın. (Təşəhhüddən sonra) imamla qalxıb Həmd və surəni oxusun, əgər surə üçün vaxt yoxdursa, Həmdi tamamlayıb rükuda özünü İmama çatdırsın. Əgər rükuda İmama çatmasa, vacib ehtiyat olaraq namazı fürada qəsd etsin.

**Məsələ:** ١٤٤٨. Əgər İmam ٤ rükətli namazın ٢-ci rükətində olarkən mə'mum ona iqtida etsə, imamın ٣-cü rükətində özünün ikinci rükəti olduğu üçün ٢ səcdədən sonra oturub təşəhhüdü vacib miqdarında oxuyaraq qalxmalıdır. Əgər təsbihati-ərbəəni ٣ dəfə demək üçün vaxt yoxdursa bir dəfə deyib rükuda özünü İmama çatdırmalıdır. Əgər rükuda İmama çatmasa vacib ehtiyata əsasən, fürada qəsdi etməlidir.

**Məsələ:** ١٤٤٩. İmam ٣-cü, ya ٤-cü rükətdə olanda mə'mum iqtida edib, Həmdi oxuyaraq rükuda İmama çata bilməyəcəyini bilsə, ya hətta ehtimal da versə, vacib ehtiyata əsasən, İmam rükuya gedənə qədər gözləyib sonra iqtida etməlidir.

**Məsələ:** ١٤٥٠. Əgər imamın ٣, ya ٤-cü rükətin qiyamında iqtida etsə, Həmd-surəni oxumalıdır və əgər surə oxumaq üçün vaxt yoxdursa, Həmdi oxuyub rükuda özünü İmama çatdırmalıdır. Əgər rükuda İmama çatmasa vacib-ehtiyata əsasən, fürada qəsdi etməlidir.

**Məsələ:** ١٤٥١. Əgər bir şəxs surəni, ya qunutu tamamlayacağı təqdirdə imamın rükusuna çata bilməyəcəyini bilsə, bu halda qəsdən surəni, ya qunutu oxusa və rükuya çatmasa namazı səhihdir və gərək öz fərdi vəzifəsinə əməl etsin.

**Məsələ:** ١٤٥٢. Surəni başlayacağı, ya tamam edəcəyi surətdə rükuda İmama çatacağına arxayın olan şəxs, vacib ehtiyata əsasən, surəni başlamalı, ya əgər başlayıbsa tamamlamalıdır. Lakin bu, rükuda İmama çatmayacağına səbəb olsa, başlayıbsa onu tamamlamamalıdır.

**Məsələ:** ١٤٥٣. Əgər bir şəxs surəni oxuyacağı təqdirdə rükuda İmama çatacağına əmin olsa və surəni oxuyub rükuda İmama çatmasa, namazı camaatla səhihdir.

**Məsələ:** ١٤٥٤. Əgər İmam ayaq üstə olsa və mə'mum onun hansı rükətdə olduğunu bilməsə, iqtida edə bilər. Lakin vacib ehtiyta əsasən ümumi şəkildə – Həmd-surəni namazın bir hissəsi və Qur'an oxumaq niyyəti etmədən – qəsd etməlidir, hətta sonradan imamın ١-ci, ya ٢-ci rükətdə olduğunu başa düşsə də (fərqi yoxdur).

**Məsələ:** ١٤٥٥. Əgər imamın ١-ci, ya ٢-ci rükətdə olduğunu güman edib Həmd və surəni oxumasa və rükudan sonra ٣-cü, ya ٤-cü rükətdə olduğunu başa düşsə, namazı səhihdir. Lakin əgər rükudan əvvəl başa düşsə, Həmd surəni oxumalıdır və əgər vaxt yoxdursa, təkcə Həmdi oxuyub rükuda İmama çatmalıdır. Əgər Həmdi oxumaq miqdarında da vaxt olmasa, vacib-ehtiyata əsasən, fürada qəsdi etməlidir.

**Məsələ:** ١٤٥٦. Əgər imamın ٣-cü, ya ٤-cü rükətdə olduğunu güman edib Həmd-surəni oxusa və rükudan əvvəl, ya sonra onun ١-ci, ya ٢-ci rükətdə olduğunu başa düşsə, namazı səhihdir. Əgər Həmd-surə oxuyan əsnada başa düşsə, qalanını davam etdirməməlidir.

**Məsələ:** ١٤٥٧. Əgər müstəhəbb bir namaz qılarkən camaat namazı təşkil olunsa, onu tamamlayacağı təqdirdə camaat namazına çata biləcəyinə xatircəm olmasa, müstəhəbbdir ki, o namazı kəsib camaat namazına qoşulsun. Hətta ١-ci rükətə çatacağına belə xatircəm olmasa da, həmin qayda ilə əməl etməsi müstəhəbbdir.

**Məsələ:** ١٤٥٨. Əgər ٣, ya ٤ rükətli bir namaz qılarkən camaat namazı təşkil olunsa, bu halda ٣-cü rükətin rükusuna getməyibsə və namazı tamamlayacağı təqdirdə camaat namazına çata biləcəyinə xatircəm deyilsə, müstəhəbbdir ki, həmin namazı müstəhəbb namaz niyyətilə ٢ rükətli olaraq başa çatdırıb, özünü camaat namazına çatdırsın.

**Məsələ:** ١٤٥٩. Əgər imamın namazı qurtardığı halda mə'mum təşəhhüd, ya birinci salamı deməyə məşğuldursa fürada niyyəti etməsi lazım deyildir.

**Məsələ:** ١٤٦٠. İmamdan bir rükət geri qalan şəxs, əgər İmam axırıncı rükətin təşəhhüdünü oxuyarkən, fərdi qəsd etməmişsə, vacib ehtiyat olaraq əl barmaqlarını və ayağının pəncəsini yerə qoyub, dizlərini yuxarıda saxlayaraq imamın salamları deməsini gözləsin, sonra ayağa qalxsın. Əgər həmin halda fərdi qəsdi etmək istəsə, maneəsi yoxdur, lakin əvvəldən fərdi qəsdi olubsa məhəlli-işkaldır.

## CAMAAT NAMAZINDA PİŞNAMAZIN ŞƏRTLƏRİ

**Məsələ:** ١٤٦١. Camaat namazının İmamı həddi-buluğa çatmış, ağıllı, on iki İmam şiəsi, adil və halalzadə olmalı, ١-ci və ٢-ci rükətdə iqtida olunduğu surətdə həm onun qiraəti düzgün olmalıdır, həm də mə'mumun qiraəti; həmçinin, vacib ehtiyata əsasən, bundan qeyri hallarda da; həmçinin, əgər mə'mum kişidirsə onun İmamı da kişi olmalıdır. Meyyit namazından qeyri hallarda qadının qadına İmam olması məkruhdur, meyyit namazında da, əgər meyyitə qadından daha yaxını olmadığı surətdə, kərahəti yoxdur. Müməyyiz uşağın, yə'ni pisi-yaxşını başa düşən bir uşağın başqa bir müməyyiz uşağa iqtida etməsinin bir maneəsi yoxdur və bu halda camaat namazının əsərinin ona aid olmasına üstünlük verilsə də, lakin əhvət, bu əsərin olmamasıdır.

**Məsələ:** ١٤٦٢. Əvvəlcə adil bildiyi imamın öz ədalətində qalıb-qalmamasında şəkk etdikdə ona iqtida edə bilər.

**Məsələ:** ١٤٦٣. Ayaq üstə namaz qılan şəxs, oturan, ya uzanan halda namaz qılan bir şəxsə iqtida edə bilməz. Oturan halda namaz qılan şəxs də uzanan halda namaz qılana iqtida edə bilməz.

**Məsələ:** ١٤٦٤. Oturan halda namaz qılan şəxs, başqa bir oturan halda namaz qılana, həmçinin, uzanan halda namaz qılan şəxs başqa bir uzanan halda namaz qılana iqtida edə bilər. Oturan halda namaz qılan şəxs, ayaq üstə namaz qılana iqtida edə bilər, lakin uzanan halda namaz qılan, oturan halda namaz qılan bir şəxsə iqtida edə bilməz.

**Məsələ:** ١٤٦٥. Əgər camaat namazının İmamı üzürlü bir səbəbə görə nəcis libasla, ya təyəmmümlə, yaxud cəbirə dəstəmazı ilə namaz qılarsa ona iqtida etmək olar.

**Məsələ:** ١٤٦٦. Əgər imamın bövl və ğaitin ifraz olunmasından özünü saxlaya bilməyəcəyi bir xəstəliyi olarsa, ona iqtida etmək olar. Həmçinin, istihazəli olmayan qadın da istihazəli qadına iqtida edə bilər.

**Məsələ:** ١٤٦٧. Cüzam və alalıq xəstəliyi olan imamla camaat namazı qılmaq məkruhdur. Şər'i həd vurulmuş bir kəsə iqtida etmək caiz deyildir.

## CAMAAT NAMAZININ HÖKMLƏRİ

**Məsələ:** ١٤٦٨. Mə'mum niyyət edərkən İmamı müəyyən etməlidir, lakin onun adını bilmək lazım deyildir. Məsələn, əgər «hazırkı İmama iqtida edirəm» deyə niyyət etsə, namazı səhihdir.

**Məsələ:** ١٤٦٩. Mə'mum Həmd-surədən başqa, namazın bütün şeylərini özü oxumalıdır. Lakin mə'mumun birinci, ya ikinci rükəti, imamın ٣-cü, ya ٤-cü rükəti olsa, mə'mum Həmd-surəni oxumalıdır.

**Məsələ:** ١٤٧٠. Əgər mə'mum sübh, məğrib və işa namazlarının ١-ci və ٢-ci rükətlərində imamın Həmd-surəsinin səsini eşitsə, kəlmələri ayırd edə bilməsə də, gərək Həmd-surəni oxumasın. Əgər imamın səsini eşitməsə Həmd-surəni oxuması müstəhəbbdir, lakin onu namazın bir hissəsi kimi qəsd etməsin və astaca oxusun. Səhv olaraq ucadan oxumuş olsa, eybi yoxdur.

**Məsələ:** ١٤٧١. Əgər mə'mum imamın oxuduğu Həmd-surənin bə`zi kəlmələrini eşitsə, eşitmədiyini oxuya bilər, lakin müstəhəbb ehtiyat budur ki, Həmd-surəni oxumasın.

**Məsələ:** ١٤٧٢. Əgər mə'mum səhvən Həmd-surəni oxusa, ya eşitdiyi səsin, imamın səsi olmadığını güman edib Həmd-surəni oxusa və sonra eşitdiyi səsin imamın səsi olduğunu başa düşsə, namazı səhihdir.

**Məsələ:** ١٤٧٣. Əgər imamın səsini eşidib-eşitmədiyində şəkk etsə, ya bir səs eşidib, onun imamın səsi, yoxsa başqa birinin səsi olduğunu bilməsə, Həmd-surəni oxuya bilər.

**Məsələ:** ١٤٧٤. Mə'mum zöhr və əsr namazının ١-ci və ٢-ci rükətlərində Həmd-surəni oxumamalıdır və onun əvəzində zikr etməsi müstəhəbbdir.

**Məsələ:** ١٤٧٥. Mə'mum təkbirətul-ehramı imamdan əvvəl deməməlidir. Hətta vacib ehtiyat budur ki, imamın təkbiri tamam olmamış təkbir deməməlidir.

**Məsələ:** ١٤٧٦. Əgər mə'mum səhvən imamdan qabaq salamı desə, namazı səhihdir. Hətta əgər qəsdən imamdan qabaq salam desə də (amma) əvvəldən fürada qəsdi etməyibsə, namazının eybi yoxdur.

**Məsələ:** ١٤٧٧. Əgər mə'mum təkbirətul-ehramdan başqa, namazın digər şeylərini imamdan əvvəl demiş olsa, eybi yoxdur. Lakin əgər eşitsə, ya imamın nə vaxt dediyini bilsə, müstəhəbb ehtiyat budur ki, imamdan əvvəl deməsin.

**Məsələ:** ١٤٧٨. Mə'mum gərək namazda oxuduğu şeylərdən başqa, onun digər işlərini, məsələn, rüku və səcdələri imamla birlikdə, ya ondan bir az sonra yerinə yetirsin. Əgər qəsdən imamdan qabaq, ya ondan bir müddət sonra yerinə yetirərsə onun camaat namazı batildir, lakin fərdi vəzifəsinə əməl etsə, namazı səhihdir.

**Məsələ:** ١٤٧٩. Əgər səhvən imamdan qabaq başını rükudan qaldırsa, bu halda İmam rükudadırsa gərək rükuya qayıtsın və imamla birgə qalxsın. Bu halda rükunun artıq olması namazı batil etməz. Lakin, əgər rükuya getsə və imamın rükusuna çatmamış İmam rükudan qalxsa, onun namazı batildir.

**Məsələ:** ١٤٨٠. Əgər səhvən başını qaldırıb imamın səcdədə olduğunu görsə, gərək səcdəyə getsin. Əgər bu vəziyyət hər iki səcdədə baş versə, iki səcdənin artıq olması namazı batil etməz.

**Məsələ:** ١٤٨١. Bir şəxs səhvən imamdan əvvəl səcdədən baş qaldırsa və səcdəyə qayıtsa və səcdəyə çatmamış İmam səcdədən qalxsa, namazı səhihdir. Lakin bu iş hər iki səcdədə baş versə, namazı batildir.

**Məsələ:** ١٤٨٢. Əgər səhvən rüku, ya səcdədən başını qaldırsa və səhvən, yaxud İmama çatmayacağını güman edərək rükuya, ya səcdəyə qayıtmasa, onun namazı camaatla qılması səhihdir.

**Məsələ:** ١٤٨٣. Əgər səcdədən qalxıb, imamın səcdədə olduğunu görsə, bu halda imamın birinci səcdədə olduğunu güman edib, imamla birgə səcdə etmək qəsdilə səcdəyə getsə və sonra imamın ٢-ci səcdəsi olduğunu başa düşsə, onun ٢-ci səcdəsi hesab olunar. Əgər imamın ٢-ci səcdədə olmasını güman edib, səcdəyə getsə və imamın ١-ci səcdəsi olduğunu başa düşsə, gərək imamla birgə səcdə etməyi qəsd edib səcdəni tamamlasın və yenidən imamla birgə səcdəyə getsin, hər iki halda da ehtiyat müstəhəbb budur ki, namazı camaatla qurtardıqdan sonra yenidən namaz qılsın.

**Məsələ:** ١٤٨٤. Əgər səhvən imamdan qabaq rükuya getsə və qalxacağı təqdirdə onun qiraətindən bir miqdarına çatacaqsa, bu halda

qalxıb, imamla birgə rükuya getsə, namazı və camaat namazı səhihdir. Əgər qəsdən qayıtmasa namazının səhihliyi məhəlli-işkaldır.

**Məsələ:** ١٤٨٥. Əgər səhvən imamdan qabaq rükuya gedərsə, qalxacağı təqdirdə imamın qiraətindən heç bir hissəyə çatmayacaqsa, bu halda İmama tabe olmaq qəsdilə qalxıb imamla birgə rükuya gedərsə, həm namazı, həm də camaatla qılması səhihdir. Əgər imamın ona çatması üçün rükuda gözləsə, namazı səhih, onun camaat namazı isə məhəlli-işkaldır.

**Məsələ:** ١٤٨٦. Əgər səhvən imamdan qabaq səcdəyə getsə və İmama tabe olmaq qəsdilə başını səcdədən qaldırsa və yenidən imamla birgə səcdəyə getsə, namazı və camaatla qılması səhihdir. Əgər imamın ona çatması üçün (səcdədə qalıb) gözləsə namazı səhihdir, amma camaat namazı məhəlli-işkaldır.

**Məsələ:** ١٤٨٧. Əgər İmam qunutu olmayan rükətdə səhvən qunut oxusa, ya təşəhhüdü olmayan rükətdə, səhvən təşəhhüd oxusa, mə'mum qunutu, ya təşəhhüd oxumamalıdır, lakin imamdan əvvəl rükuya gedə, ya imamdan əvvəl ayağa qalxa bilməz; əksinə, imamın qunut, ya təşəhhüdü oxuyub qurtarmasını gözləməli və namazın qalanını onunla qılmalıdır.

## CAMAAT NAMAZINDA İMAMIN VƏ MƏ'MUMUN VƏZİFƏLƏRİ

**Məsələ:** ١٤٨٨. Vacib ehtiyata görə, əgər mə'mum bir kişidirsə, imamın sağ tərəfində dayanmalı, əgər bir kişi və bir qadındırsa, ya bir kişi və bir neçə qadındırsa, kişi imamın sağ tərəfində, qalanları isə arxasında dayanmalıdır. Əgər bir neçə kişi və bir, ya bir neçə qadın olsa, kişilər imamın arxasında, qadınlarsa kişilərin arxasında dayanmalıdırlar. Əgər bir, ya bir neçə qadın olsa, imamın arxasında dayanmalıdır. Mə'mum bir nəfər qadın olduğu surətdə müstəhəbbdir ki, imamın sağ tərəfdən arxasında elə dayansın ki, onun səcdə yeri imamın dizinin, ya ayağının bərabərinə düşsün.

**Məsələ:** ١٤٨٩. Əgər İmam və mə'mum hər ikisi qadın olsa, vacib ehtiyata əsasən, hamısı bir xətt boyunca dayansınlar və imam digərlərindən irəlidə dayanmasın.

## CAMAAT NAMAZINDA MÜSTƏHƏBB OLAN ƏMƏLLƏR

**Məsələ:** ١٤٩٠. İmamın cərgənin ortasında dayanması, eləcə də kəmal və təqva sahiblərinin birinci cərgədə dayanmaları müstəhəbbdir.

**Məsələ:** ١٤٩١. Camaatın cərgələrinin müntəzəm olması, bir cərgədə dayananların arasında fasilənin olmaması və onların çiyinlərinin bir səviyyədə (bir xətt boyunca) olması müstəhəbbdir.

**Məsələ:** ١٤٩٢. Müstəhəbdir ki, "qəd qamətis-səlah" deyiləndən sonra mə'mumlar ayağa qalxsınlar.

**Məsələ:** ١٤٩٣. İmamın, halı başqalarından zəif olan mə'mumları nəzərə alması, qunut, rüku və səcdələri uzatmaması müstəhəbbdir. Lakin imam, iqtida edənlərin hamısının namazı uzatmağa meylli olduğunu bilsə, onda başqa məsələ.

**Məsələ:** ١٤٩٤. İmamın, Həmd-surə və ucadan oxumalı olan başqa zikrləri, başqalarının eşidəcəyi dərəcədə ucadan oxuması müstəhəbdir, lakin səsini həddindən artıq ucaltmamalıdır.

**Məsələ:** ١٤٩٥. Əgər İmam rükuda olarkən təzə gələn bir şəxsin iqtida etmək istədiyini başa düşsə, rükunu həmişəkindən iki dəfə çox uzatması və sonra qalxması müsəhəbbdir, hətta bundan sonra yenə bir şəxsin iqtida etmək istədiyini bilsə də daha uzatmamalıdır.

## CAMAAT NAMAZINDA MƏKRUH OLAN İŞLƏR

**Məsələ:** ١٤٩٦. Əgər camaatın cərgələrində yer olarsa, insanın tək halda dayanması məkruhdur.

**Məsələ:** ١٤٩٧. Mə'mumun, namazın zikrlərini imamın eşidəcəyi tərzdə deməsi məkruhdur.

**Məsələ:** ١٤٩٨. Zöhr, əsr və işa namazlarını iki rükət qılan müsafirin bu namazlarda müsafir olmayan şəxsə iqtida etməsi və müsafir olmayanın bu namazlarda müsafirə iqtida etməsi məkruhdur (yəni savabı əsl camaat namazının savabından az olur).

## AYƏT NAMAZI

**Məsələ:** ١٤٩٩. Qaydası sonradan deyiləcək ayət namazı ٤ şey üçün vasitəsilə vacib olur:

-Günəşin tutulması.

-Ayın tutulması; onlardan az bir miqdar tutulsa və heç kim qorxmasa da.

-Zəlzələ; heç kim qorxmasa da.

-Göy gurultusu, ildırım, qara-qırmızı küləklər və bu kimi səma hadisələri, camaatın əksərinin qorxduğu surətdə. Amma dəniz suyunun batması, dağların uçması kimi yerdə baş verən və əksər camaatın qorxusuna səbəb olan hadisələrdə müstəhəbb ehtiyata əsasən, ayət namazı qılınar.

**Məsələ:** ١٥٠٠. Əgər ayət namazını gərəkli edən şeylərdən bir neçəsi baş versə, insan onların hər biri üçün bir ayət namazı qılmalıdır. Məsələn: əgər günəş tutulsa və zəlzələ də olsa, iki ayət namazı: biri günəşin tutulması, digəri isə zəlzələ üçün qılınmalıdır.

**Məsələ:** ١٥٠١. Bir neçə ayət namazının qəzası vacib olan şəxs, istər onların hamısı eyni səbəbdən vacib olsun, məsələn: üç dəfə günəş

tutulmasından, istərsə də ayrı-ayrı səbəblərdən vacib olsun, məsələn: günəşin və ayın tutulmasına görə vacib olsun, onların namazını qılmayıbsa, onların qəzasını qılarkən səbəbini tə'yin etməsi lazım (vacib) deyil, amma müstəhəbb ehtiyat budur ki, ümumi (icmali) şəkildə olsa da belə, hansı biri üçün qəza qıldığını tə'yin etsin, məsələn, niyyət etsin ki, qəzası mənə vacib olan ١-ci, ya ٢-ci ayət namazını qılıram.

**Məsələ:** ١٥٠٢. Ayət namazı vacib olan hadisə bir məntəqədə baş versə, yalnız həmin yerin camaatı ayət namazı qılmalıdır, başqa yerlərin camaatına isə vacib deyildir.

**Məsələ:** ١٥٠٣. Günəş və ay tutulmasına görə ayət namazının vaxtı onlar tutulmağa başlayandan günəş, ya ayın dairəsinin hamısı açılmayan vaxta qədərdir. Müstəhəbb ehtiyat budur ki, açılmağa başlayana qədər tə'xirə salınmasın, hətta müstəhəbbdir ki, tutulmağa başlayarkən ayət namazı qılınsın.

**Məsələ:** ١٥٠٤. Əgər ayət namazı günəş, ya ay açılmağa başlayana qədər gecikdirilsə namaz ədadır, lakin əgər tamam açıldıqdan sonra namaz qılınsa, artıq qəzadır.

**Məsələ:** ١٥٠٥. Əgər günəşin, ya ayın tutulma müddəti bir rükət namaz qılmaq qədər, ya ondan da az olsa, ayət namazı əda və vacibdir. Həmçinin, onların tutulma müddəti çox olsa da, onu vaxtın axırına bir rükət namaz qılmaq qədər vaxt qalana kimi gecikdirilsə, bu surətdə də ayət namazı vacib və ədadır.

**Məsələ:** ١٥٠٦. Zəlzələ, göy gurultusu, ildırım və bu kimi hadisələr baş verdikdə ayət namazını qılmaq lazımdır və camaat arasında "gecikdirmək" sayılacaq qədər tə'xirə salınmamalıdır. Əgər gecikdirilsə, onu qılmalıdır və ehtiyata əsasən, əda və qəza niyyəti edilməməlidir.

**Məsələ:** ١٥٠٧. Əgər günəş, ya ayın tutulmasını bilməsə və açılandan sonra onun hamısının tutulduğunu başa düşsə, gərək ayət namazının qəzasını qılsın. Lakin əgər onun bir miqdarının tutulmuş olduğunu başa düşsə, qəzası ona vacib deyildir.

**Məsələ:** ١٥٠٨. Əgər bir dəstə adam günəşin, ya ayın tutulduğunu desələr və insan onların sözündən xatircəmlik əldə etməsə, o şəxslərin içərisində sözü şər'ən mö'təbər olacaq bir şəxs olmasa və buna əsasən ayət namazını qılmasa, sonradan düz demələri mə'lum olsa, bu halda günəşin, ya ayın hər yeri tutulmuşdursa, ayət namazını qılmalıdır. Lakin onun bir hissəsi tutulmuşdursa, ona ayət namazı qılmaq vacib deyildir. Həmçinin, əgər adil olduqları bilinməyən iki nəfər, yaxud e'timadlı olması mə`lum olmayan bir nəfər günəşin, ya ayın tutulduğunu desələr və sonradan o iki şəxsin adil olduğu, ya o bir şəxsin sözünün əksi güman olunmayan inanılmış adam olduğu mə`lum olsa da hökm eynidir.

**Məsələ:** ١٥٠٩. Əgər insan elmi qaydalar üzrə günəşin, ya ayın tutulacağını xəbər verən şəxslərin sözündən, onların tutulmasına xatircəmlik əldə etsə, ayət namazını qılmalıdır. Eləcə də əgər "filan vaxt günəş, ya ay tutulacaq və filan qədər çəkəcək" desələr və insan onların sözündən xatircəmlik əldə etsə, öz xatircəmliyinə əməl etməlidir.

**Məsələ:** ١٥١٠. Əgər qılmış oldığı ayət namazının batil olmasını başa düşsə, yenidən qılması vacibdir. Əgər vaxtı ötmüş olsa, qəzasını qılmalıdır.

**Məsələ:** ١٥١١. Əgər gündəlik namazın vaxtında ayət namazı da vacib olsa, bu halda hər ikisini qılmaq üçün vaxt varsa, hansını əvvəl qılsa eybi yoxdur. Əgər onlardan birinin vaxtı dar olsa, əvvəl onu qılmalıdır. Əgər hər ikisinin vaxtı dar olsa, əvvəlcə gündəlik namazı qılmalıdır.

**Məsələ:** ١٥١٢. Əgər gündəlik namaz əsnasında ayət namazının vaxtının dar olduğunu başa düşsə, bu zaman gündəlik namazın da vaxtı dar olsa, onu tamamlamalı və sonra ayət namazını qılmalıdır. Əgər gündəlik namazın vaxtı dar deyilsə, onu yarıda saxlayıb, əvvəl ayət, sonra gündəlik namazı qılmalıdır.

**Məsələ:** ١٥١٣. Əgər ayət namazı əsnasında gündəlik namazın vaxtının dar olduğunu başa düşsə, ayat namazını saxlayıb, gündəlik namazı qılmalıdır və onu qurtardıqdan sonra, namazı batil edən bir iş baş verməmişdən əvvəl, ayət namazını saxladığı yerdən başlayıb davam etməlidir.

**Məsələ:** ١٥١٤. Əgər qadın heyz, ya nifas halında olarkən günəş, ya ay tutularsa, ona ayət namazı qılmaq vacib deyildir və qəzası da yoxdur. Lakin zəlzələ, göy gurultusu, ildırım və bu kimi vaxtı müəyyən olmayan hadisələr baş versə, vacib ehtiyata əsasən, pak olandan sonra əda və ya qəza niyyəti etmədən qılmalıdır.

## AYƏT NAMAZININ QILINMA QAYDASI

**Məsələ:** ١٥١٥. Ayət namazı ٢ rükətdir və hər rükətdə beş rüku vardır. Onun qaydası budur ki, insan niyyət etdikdən sonra təkbir deyib bir Həmd və tam bir surə oxuyaraq rükuya getsin, rükudan qalxıb yenə Həmd və bir surə oxuyub rükuya getsin. Bunu beş dəfə təkrar etdikdən sonra ٥-ci rükudan qalxıb iki səcdə etsin, ikinci rükəti də eynilə birinci rükət kimi qılsın, sonra təşəhhüd oxusun və salam versin.

**Məsələ:** ١٥١٦. Ayət namazında niyyət, təkbir və Həmddən sonra mümkündür ki, insan bir surəni beş yerə bölüb bir ayə, ya ondan çox, ya ondan az ayə oxuyaraq rükuya getsin, qalxıb Həmdi oxumadan surənin ٢-ci bölümünü oxuyub yenə rükuya getsin və bu qayda ilə beşinci rükudan qabaq surəni tamamlasın. Məsələn: "Qul huvəllah" surəsini oxumaq qəsdilə, "Bismillahir-Rəhmanir-Rəhim" deyib rükuya getsin,

sonra qalxıb "Qul huvəllahu əhəd" deyərək ikinci dəfə rükuya getsin, sonra qalxıb "Əllahus-səməd" deyib yenidən rükuya getsin, qalxıb "Ləm yəlid vələm yuləd" deyib rükuya getsin, sonra rükudan qalxıb növbəti dəfə "Vələm yəkun ləhu kufuvən əhəd" deyib rükuya getsin, sonra rükudan qalxıb ٢ səcdə etsin. ٢-ci rükəti də eynilə birinci rükət kimi yerinə yetirsin, ٥-ci rükudan sonra ٢ səcdə yerinə yetirsin və səcdədən sonra təşəhhüd oxuyub salam versin. Həmçinin, surəni ٥-dən az hissəyə də bölmək olar, amma onu hər vaxt tamamlasa, sonrakı rükudan qabaq Həmd oxuması lazımdır və ondan sonra gərək bir surə, ya bir surənin bə`zi hissəsini oxusun.

**Məsələ:** ١٥١٧. Əgər ayət namazının bir rükətində beş dəfə Həmd və surə oxusa, o biri rükətdə isə Həmd və surəni beş yerə bölüb oxusa eybi yoxdur.

**Məsələ:** ١٥١٨. Gündəlik namazlarda vacib və müstəhəbb olan şeylər ayət namazında da vacib və müstəhəbbdir. Lakin ayət namazında, camaatla qılınan surətdə azan və iqamə əvəzinə rəca qəsdilə ٣ dəfə "əs-səlah" deyilir.

**Məsələ:** ١٥١٩. Beşinci və onuncu rükudan qalxdıqdan sonra "səmiəllahu limən həmidəh" demək müstəhəbbdir. Lakin beşinci və onuncu rükudan sonra təkbir demək müstəhəbb deyildir.

**Məsələ:** ١٥٢٠. İkinci, dördüncü, altıncı, səkkizinci və onuncu rükudan əvvəl qunut tutmaq müstəhəbbdir. Əgər yalnız onuncu rükudan qabaq tutsa da kifayətdir.

**Məsələ:** ١٥٢١. Əgər ayət namazında neçə rükət qıldığında şəkk etsə və sabit bir fikrə gələ bilməsə, namazı batildir.

**Məsələ:** ١٥٢٢. Əgər birinci rükətin axırıncı rükusunda, yoxsa ikinci rükətin birinci rükusunda olduğu barədə şəkk etsə və fikirləşib bir nəticəyə gələ bilməsə, namazı batildir. Əgər rükunun sayında şəkk etsə, az tərəfi əsas götürməlidir. Amma ٤, yoxsa ٥ rüku yerinə yetirdiyi barədə şəkk etdiyi surətdə, əgər səcdə üçün əyilməmişdirsə, şəkk etdiyi rükunu yerinə yetirməlidir. Əgər səcdə üçün əyildikdən sonra və səcdəyə çatmamış şəkk etsə, vacib ehtiyat olaraq qayıdıb, rükunu yerinə yetirməlidir. Namazı tamamladıqdan sonra, onu yenidən qılmalıdır. Lakin əgər səcdəyə çatmışdırsa, öz şəkkinə məhəl qoymamalıdır.

**Məsələ:** ١٥٢٣. Ayət namazının hər bir rükusu rükndür; əgər qəsdən, ya səhvən artırılıb – azaldılsa, namaz batildir.

## FİTR VƏ QURBAN BAYRAMLARININ NAMAZI

**Məsələ:** ١٥٢٤. Fitr və qurban bayramlarının namazı İmam (əleyhissalam)-ın hazır olduğu dövrdə vacibdir və camaatla qılınmalıdır. İmam (əleyhissalam)-ın qeybdə olduğu indiki dövrümüzdə isə, bu namazlar müstəhəbbdir və onu həm fərdi, həm də camaatla

qılmaq olar. Vacib ehtiyata əsasən, camaatla qılındıqda camaatın sayı beş nəfərdən az olmamalıdır.

**Məsələ:** ١٥٢٥. Fitr və qurban bayramı namazının vaxtı, bayram günü günəş çıxandan zöhrə qədərdir.

**Məsələ:** ١٥٢٦. Qurban bayramı namazını günəş qalxandan sonra qılmaq müstəhəbbdir. Fitr bayramında isə, günəş qalxandan sonra iftar etmək müstəhəbbdir. Vacib ehtiyata əsasən, fitrə zəkatı verib sonra bayram namazı qılmaq lazımdır.

**Məsələ:** ١٥٢٧. Fitr və qurban bayramlarının namazı ٢ rükətdir. Birinci rükətdə Həmd və surəni oxuduqdan sonra beş təkbir deyilməlidir. Vacib ehtiyata əsasən, hər təkbirdən sonra bir qunut tutulmalıdır və beşinci qunutdan sonra daha bir təkbir deyib rüku və iki səcdə yerinə yetirmək, sonra qalxıb ٢-ci rükətdə ٤ təkbir demək və hər təkbirdən sonra qunut oxumaq lazımdır. Beşinci təkbirdən sonra (qunut tutmadan) rüku və sonra ٢ səcdə edib təşəhhüd oxumaq, sonra namazın salamını demək lazımdır.

**Məsələ:** ١٥٢٨. Fitr və qurban bayramlarının namazının qunutunda hər hansı zikr və dua oxunsa, kifayətdir, lakin mərhum Şeyx Tusinin "Misbahul-mutəhəccid" kitabında nəql etdiyi bu duanı oxumaq daha yaxşıdır:

**اَللَّهُمَّ اَهْلَ الْكِبْرِياءِ وَ الْعَظَمَةِ وَ اَهْلَ الْجُودِ وَ الْجَبَرُوتِ وَ اَهْلَ الْعَفْوِ وَ الرَّحْمَةِ وَ اَهْلَ التَّقْوى وَ الْمَغْفِرَةِ اَسْأَلُكَ بِحَقِّ هذَا الْيَوْمِ الَّذِي جَعَلْتَهُ لِلْمُسْلِمِينَ عِيْداً وَ لِمحَمَّدٍ صلى الله عليه وآله وسلم ذُخْراً وَ مَزِيداً اَنْ تُصَلِّيَ عَلى مُحَمَّدٍ وَ الِ مُحَمَّدٍ وَ اَنْ تُدْخِلَنِي فِي كُلِّ خَيْرٍ اَدْخَلْتَ فِيهِ مُحَمَّداً وَ الَ مُحَمَّدٍ وَ اَنْ تُخْرِجَنِي مِنْ كُلِّ سُوءٍ اَخْرَجْتَ مِنْهُ مُحَمَّداً وَ الَ مُحَمَّدٍ صَلَواتُكَ عَلَيْهِ وَ عَلَيْهِمْ، اَللَّهُمَّ اِنِّي اَسْأَلُكَ خَيْرَ ما سَأَلَكَ بِهِ عِبادُكَ الصَّالِحُونَ وَ اَعُوذُ بِكَ مِمَّا اسْتَعاذَ مِنْهُ عِبادُكَ الصَّالِحُونَ (الْمُخْلَصُونَ، الْمُخْلِصُونَ .**

***"Əllahummə əhləl-kibriyai vəl-əzəməh və əhləl-cudi vəl-cəbərut və əhləl-əfvi vər-rəhməh və əhlət-təqva vəl-məğfirəh. Əs'əlukə bihəqqi hazəl-yəvm əlləzi cəəltəhu lil-muslimina iydən və li-Muhəmmədin (səlləllahu ələyhi və alihi və səlləm) zuxrən və məziyda, ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi Muhəmmədən və alə Muhəmməd və ən tuxricəni min kulli suin əxrəctə minhu Muhəmmədən və alə Muhəmməd, sələvatukə ələyhi və ələyhim. Əllahummə inni əs'əlukə xəyrə ma səələkə bihi ibadukəs-***

***salihunə və əuzu bikə mimməs-təazə minhu ibadukəs-salihun (əl-muxləsunə, əl-muxlisun).”***

Bundan da yaxşısı “Təhzib” kitabında mö’təbər sənədlə nəql olunmuş bu duanı oxumaq:

اَشْهَدُ اَنْ لا اِلهَ اِلاَّ اللّٰهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ وَ اَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَ رَسُولُهُ، اَللّٰهُمَّ اَنْتَ اَهْلُ الْكِبْرِياءِ وَ الْعَظَمَةِ وَ اَهْلُ الْجُودِ وَ الْجَبَرُوتِ وَ الْقُدْرَةِ وَ السُّلْطانِ وَ الْعِزَّةِ، اَسْأَلُكَ فِي هذَا الْيَوْمِ الَّذِي جَعَلْتَهُ لِلْمُسْلِمِينَ عِيْداً وَ لِمُحَمَّدٍ صلى الله عليه وآله وسلم ذُخْراً وَ مَزِيداً، اَسْأَلُكَ اَنْ تُصَلِّيَ عَلى مُحَمَّدٍ وَ الِ مُحَمَّدٍ وَ اَنْ تُصَلِّيَ عَلى مَلائِكَتِكَ الْمُقَرَّبِينَ وَ اَنْبِيائِكَ الْمُرْسَلِينَ وَ اَنْ تَغْفِرَ لَنا وَ لِجَمِيعِ الْمُؤْمِنِينَ وَ الْمُؤْمِناتِ وَ الْمُسْلِمِينَ وَ الْمُسْلِماتِ اَلْاَحْياءِ مِنْهُمْ وَ الْاَمْواتِ، اَللّٰهُمَّ اِنِّي اَسْأَلُكَ مِنْ خَيْرِ ما سَأَلَكَ عِبادُكَ الْمُرْسَلُونَ وَ اَعُوذُ بِكَ مِنْ شَرِّ ما عاذَ بِهِ عِبادُكَ الْمُخْلَصُونَ، اَللّٰهُ اَكْبَرُ اَوَّلُ كُلِّ شَيْءٍ وَ آخِرُهُ وَ بَدِيعُ كُلِّ شَيْءٍ وَ مُنْتَهاهُ وَ عالِمُ كُلِّ شَيْءٍ وَ مَعادُهُ وَ مَصِيرُ كُلِّ شَيْءٍ اِلَيْهِ وَ مَرَدُّهُ وَ مُدَبِّرُ الْاُمُورِ وَ باعِثُ مَنْ فِي الْقُبُورِ، قابِلُ الْاَعْمالِ مُبْدِى الْخَفِيَّاتِ مُعْلِنُ السَّرائِرِ، اَللّٰهُ اَكْبَرُ عَظِيمُ الْمَلَكُوتِ شَدِيدُ الْجَبَرُوتِ حَيٌّ لا يَمُوتُ دائِمٌ لا يَزُولُ اِذا قَضى اَمْراً فَاِنَّما يَقُولُ لَهُ كُنْ فَيَكُونُ، اَللّٰهُ اَكْبَرُ خَشَعَتْ لَكَ الْاَصْواتُ وَ عَنَتْ لَكَ الْوُجُوهُ وَ حارَتْ دُونَكَ الْاَبْصارُ وَكَلَّتِ الْاَلْسُنُ عَنْ عَظَمَتِكَ وَ النَّواصِي كُلُّها بِيَدِكَ وَ مَقادِيْرُ الْاُمُورِ كُلُّها اِلَيْكَ، لا يَقْضِي فِيها غَيْرُكَ وَ لا يَتِمُّ مِنْها شَيْئٌ دُونَكَ، اَللّٰهُ اَكْبَرُ اَحاطَ بِكُلِّ شَيْءٍ حِفْظُكَ وَ قَهَرَ كُلَّ شَيْءٍ عِزُّكَ وَ نَفَذَ كُلَّ شَيْءٍ اَمْرُكَ وَ قامَ كُلُّ شَيْءٍ بِكَ وَ تَواضَعَ كُلُّ شَيْءٍ لِعَظَمَتِكَ وَ ذَلَّ كُلُّ شَيْءٍ لِعِزَّتِكَ وَ اسْتَسْلَمَ كُلُّ شَيْءٍ لِقُدْرَتِكَ وَ خَضَعَ كُلُّ شَيْءٍ لِمُلْكِكَ، اَللّٰهُ اَكْبَرُ.

***“Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Əllahummə əntə əhlul-cudi vəl-cəbəruti, vəl-qudrəti vəs-sultani vəl-izzəh. Əs’əlukə fi hazəl-yəvm əlləzi cəəltəhu lil-musliminə iydən və li-Muhəmmədin səlləllahu əleyhi və alih, zuxrən və məziyda. Əs’əlukə ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən tusəlliyə əla məlaikətikəl-muqərrəbinə və ənbiyaikəl-mursəlinə və ən təğfirə ləna və li cəmiil-mu’mininə vəl-mu’minati, vəl-musliminə vəl-muslimati əl-əhyai minhum vəl-əmvat. Əllahummə inni əs’əlukə min xəyri ma səələkə***

***ibadukəl-mursəlunə və əuzu bikə min şərri ma əazə bihi ibadukəl-muxləsun. Əllahu Əkbəru əvvəlu kulli şəy'in və axiruhu və bədiu kulli şəy'in və muntəhahu və alimu kulli şəy'in və məaduhu və məsiyru kulli şəy'in iləyhi və mərədduhu və mudəbbirul-umuri və baisu mən fil-quburi qabilul-ə'mali mubdil-xəfiyyati mu'linus-sərair, Əllahu Əkbəru əzimul-məlakuti şədidul-cəbəruti həyyu la yəmutu daimu la yəzalu, iza qəza əmrən fəinnəma yəqulu ləhu kun fə yəkun, Əllahu Əkbəru xəşəət ləkəl-əsvatu və ənət ləkəl-vucuhu və harət dunəkəl-əbsaru və kəllətil-əlsunu ən əzəmətikə vən-nəvasi kulluha biyədikə və məqadirul-umuri kulluha iləykə, la yəzqi fiha ğəyrukə və la yətimmu minha şəy'un dunək, Əllahu Əkbəru əhatə bikulli şəy'in hifzukə və qəhərə kullə şəy'in izzukə və nəfəzə kullə şəy'in əmruk və qamə kullu şəy'in bikə və təvazəə kullu şəy'in liəzəmətikə və zəllə kullu şəy'in liizzətikə vəstəsləmə kulu şəy`in liqudrətikə və xəzəə kullu şəy`in limulkikə, Əllahu Əkbər."***

**Məsələ:** ١٥٢٩. Müstəhəbb ehtiyata əsasən, İmam (əleyhissalam)-ın qeybdə olduğu dövrdə camaatla qılınan fitr və qurban bayramları namazından sonra iki xütbə oxunmalıdır. Yaxşı olar ki, fitr bayramı xütbəsində fitrə zəkatının hökmlərini, qurban bayramı xütbəsində isə qurbanlığın hökmlərini desinlər.

**Məsələ:** ١٥٣٠. Bayram namazının xüsusi bir surəsi yoxdur. Lakin yaxşı olar ki, onun birinci rükətində "Səbbihismə Rəbbikəl-ə'la" (٨٧-ci surə) və ٢-ci rükətində "Şəms" (٩١-ci surə) surəsini oxusunlar. Hamısından da fəzilətlisi budur ki, ١-ci rükətdə "Şəms" və ٢-ci rükətdə "Ğaşiyə" surəsini (٩٩-cu surə) oxusunlar.

**Məsələ:** ١٥٣١. Bayram namazını səhrada qılmaq müstəhəbbdir. Lakin Məkkədə Məscidul-həramda qılmaq müstəhəbbdir.

**Məsələ:** ١٥٣٢. Camaatın İmamı və mə'mumun namazdan əvvəl qüsl alması, başlarına pambıqdan hazırlanmış ağ əmmamə qoyaraq, onun bir ucunu sinələrinə, digər ucunu isə iki çiyinin arasından (kürəyinə) atmaları, ayaqyalın, piyada və vüqarla bayram namazına getmələri müstəhəbbdir.

**Məsələ:** ١٥٣٣. Bayram namazında yerə səcdə etmək, təkbir deyərkən əlləri qaldırmaq və imamın qiraəti ucadan deməsi müstəhəbbdir.

**Məsələ:** ١٥٣٤. Fitr bayramı axşamı (sabahı bayram olan gecə) məğrib və işa namazından sonra, bayram günü sübh namazından və bayram namazından sonra bu təkbirləri demək müstəhəbbdir:

اَللّٰهُ اَكْبَرُ، اَللّٰهُ اَكْبَرُ، لا اِلٰهَ اِلاَّ اللّٰهُ وَ اللّٰهُ اَكْبَرُ، اَللّٰهُ اَكْبَرُ وَ لِلّٰهِ الْحَمْدُ، اَللّٰهُ اَكْبَرُ عَلى ما هَدانا

***"Əllahu Əkbər, Əllahu Əkbər. La ilahə illəllahu vəllahu əkbər, Əllahu Əkbər və lillahil-həmd, Əllahu Əkbəru əla ma hədana".***

**Məsələ:** ١٥٣٥. Qurban bayramında, əvvəli bayram gününün zöhr namazı, sonu isə (zil-hiccənin) on ikinci günün sübh namazı olmaqla on namazdan sonra yuxarıdakı məsələdə deyilmiş təkbirləri demək, habelə ondan sonra bunları demək müstəhəbbdir:

اَللّٰهُ اَكْبَرُ عَلى ما رَزَقَنا مِنْ بَهِيمَةِ الْأَنْعامِ وَ الْحَمْدُ لِلّٰهِ عَلى ما اَبْلانا

***"Əllahu əkbəru əla ma rəzəqəna min bəhiymətil-ən'ami vəl-həmdu lillahi əla ma əblana".*** Lakin şəxs qurban bayramında Minada olsa, əvvəli bayram gününün zöhr namazı, sonu isə zil-hiccə ayının on üçüncü gününün sübh namazı olmaqla on beş namazdan sonra bu təkbirləri deməsi müstəhəbbdir.

**Məsələ:** ١٥٣٦. Qadınların bayram namazına getməkdən çəkinmələri müstəhəbb ehtiyatdır. Lakin bu ehtiyat qoca qadınlar üçün deyildir.

**Məsələ:** ١٥٣٧. Başqa namazlarda olduğu kimi, bayram namazında da mə'mum Həmd və surədən başqa namazın digər şeylərini özü oxumalıdır.

**Məsələ:** ١٥٣٨. Əgər İmam təkbirlərdən bir qədərini dedikdən sonra mə'mum gəlib çatsa, İmam rükuya gedəndən sonra onunla birlikdə deyə bilmədiyi təkbir və qunutları özü (sürətlə) deməli və özünü imamın rükusuna çatdırmalıdır. Əgər hər qunutda bir dəfə "Subhanəllah", ya bir dəfə "əlhəmdu lillah" desə, kifayət edər.

**Məsələ:** ١٥٣٩. Əgər bayram namazında, İmam rükuda ikən mə'mum gəlib çatsa, niyyət edib, namazın ١-ci təkbirini dedikdən sonra rükuya gedə bilər, baxmayaraq ki, ehtiyat namazı rəca qəsdilə yerinə yetirməkdir.

**Məsələ:** ١٥٤٠. Əgər bayram namazının axırıncı rükətində bir səcdə, ya təşəhhüd yaddan çıxsa, bu halda namazı batil edən işlərdən birini görməmiş olsa, qayıdıb onu yerinə yetirməlidir. Əgər səcdə, əvvəlki rükətdən olsa, vacib ehtiyata əsasən, gərək onu qəza etsin. Hər halda gündəlik namazlarda, hətta ehtiyata görə də belə, səhv səcdəsinə səbəb olan bir iş görsə, vacib ehtiyata əsasən, iki səhv səcdəsi etməlidir.

## NAMAZ ÜÇÜN ƏCİR TUTMAQ

**Məsələ:** ١٥٤١. İnsan öləndən sonra, onun sağlığında yerinə yetirmədiyi namaz və digər ibadətlər üçün başqasını əcir tuta bilərlər; yə'ni onları yerinə yetirmək üçün bir şəxsə zəhmət haqqı verərlər. Əgər bir şəxs o ibadətləri təmənnasız da yerinə yetirsə, səhihdir.

**Məsələ:** ١٥٤٢. İnsan Peyğəmbər (səlləllahu əleyhi və alih) və imamlar (əleyhissalam)-ın qəbrini ziyarət etmək kimi, bə'zi müstəhəbb işlər üçün diri şəxslər tərəfindən əcir oluna bilər, yə'ni icarənin aid olduğu şeylərdə, o işi yerinə yetirməkdə onların tərəfindən naib olur.

Həmçinin, əcir həmin əməli diri şəxslər tərəfində muzd almadan da yerinə yetirə bilər. Həmçinin, əcir hər hansı bir vacib, ya müstəhəb əməli yerinə yetirib savabını ölü, ya diri şəxsə hədiyyə də edə bilər.

**Məsələ:** ١٥٤٣. Meyyitin qəza namazlarını qılmaq üçün əcir tutulmuş şəxs namaz məsələlərində ya müctəhid olmalı, ya da namazı təqlid üzündən səhih tərzdə yerinə yetirməlidir, ya da ehtiyata əməl etməlidir.

**Məsələ:** ١٥٤٤. Əcir niyyət edərkən meyyiti tə'yin etməlidir, meyyitin adını bilməsi lazım deyildir. Deməli, əgər əcir olduğu şəxsin tərəfindən namaz qıldığını niyyət etsə, kifayət edər.

**Məsələ:** ١٥٤٥. Əcir əməli, meyyitin öhdəsində olan (yerinə yetirməli olduğu) əməl qəsdilə yerinə yetirməlidir; və əgər bir əməli əncam verib savabını ona hədiyyə etsə, kifayət etməz.

**Məsələ:** ١٥٤٦. Elə bir şəxs əcir tutulmalıdır ki, onun həmin əməli yerinə yetirəcəyini bilsinlər, ya buna dair şər'i dəlil olsun, məsələn: arxayınlıq, ya ٢ adil şəxsin, ya dediyinin əksi güman olunmayacaq inanılmış bir şəxs əcirin xəbər verməsi kimi.

**Məsələ:** ١٥٤٧. Meyyitin namazları üçün əcir edilmiş şəxsin onu batil şəkildə yerinə yetirdiyi, ya yerinə yetirmədiyi sübut olunsa, gərək yenidən əcir tutulsun.

**Məsələ:** ١٥٤٨. Əgər əcirin əməli yerinə yetirib-yetirmədiyində şəkk etsələr, əcir e'timadlı şəxs olsa və "yerinə yetirmişəm" -desə, ya əməli yerinə yetirdiyinə şahid olsa, ya sözünün əksi güman olunmayan şəxs onu təsdiq etsələr, kifayətdir. Əgər əməli səhih yerinə yetirib-yetirmədiyi barədə şəkk etsələr, səhih olduğunu əsas götürməlidirlər.

**Məsələ:** ١٥٤٩. Üzürlü şəxsi, məsələn, təyəmmümlə, ya oturan halda namaz qılanı meyyitin namazları üçün əcir tutmaq olmaz, hətta meyyitdən həmin tərzdə qəzaya getmiş olsa da belə.

**Məsələ:** ١٥٥٠. Kişi qadın üçün, qadın da kişi üçün əcir ola bilər. Namazı astadan, ya ucadan qılmaqda əcir öz vəzifəsinə uyğun əməl etməlidir.

**Məsələ:** ١٥٥١. Meyyitin qəza namazlarının, tərtiblə qılınması vacib deyil, baxmayaraq ki, ehtiyat müstəhəb tərtibə riayət etməkdir. Amma bir gündə qılınası zöhr və əsr, ya məğrib və işa namazları kimi tərtiblə qılınmalı olan namazlar istisnadır.

**Məsələ:** ١٥٥٢. Əgər əcirlə əməli xüsusi bir tərzdə yerinə yetirməsini şərt etsələr, həmin qaydaya əməl etməlidir. Amma əməlin fasid olduğunu bilsələr, bu halda o əmələ əcir oluna bilməz. Əgər onunla heç bir şərt etməsələr, o əməldə öz vəzifəsinə uyğun əməl etməlidir və müstəhəbb ehtiyat budur ki, öz vəzifəsi ilə meyyitin vəzifəsindən hansı biri ehtiyata yaxındırsa, ona əməl etsin, məsələn: əgər meyyitin vəzifəsi

təsbihati-ərbəəni ٣ dəfə demək və öz vəzifəsi isə bir dəfə deməkdirsə, ٣ dəfə desin.

**Məsələ:** ١٥٥٣. Əgər əcirlə namazın müstəhəbb işlərindən nə qədərini yerinə yetirəcəyini şərt etməsələr, adət olan qədər müstəhəbb işlərlə yerinə yetirməlidir.

**Məsələ:** ١٥٥٤. Əgər insan meyyitin qəza namazları üçün bir neçə nəfəri əcir tutmuş olsa, ١٥٥١-ci məsələdə deyilənlərə əsasən, onların hər biri üçün müəyyən vaxt tə'yin etməsi lazım deyildir.

**Məsələ:** ١٥٥٥. Əgər bir şəxs misal üçün, bir il müddətində meyyitin qəza namazlarını qılmaq üçün əcir tutularsa və bir il tamam olmazdan öncə ölərsə, onun yerinə yetirmədiyini bildikləri namazlar üçün gərək başqa bir şəxsi əcir tutsunlar. Əgər yerinə yetirmədiyinə ehtimal verilsə, vacib ehtiyata əsasən, yenə də əcir tutulmalıdır.

**Məsələ:** ١٥٥٦. Meyyitin namazları üçün əcir tutulmuş şəxs namazları qılıb qurtarmazdan öncə ölərsə və zəhmət haqqının hamısını almış olarsa, bu halda namazlarının hamısını şəxsən özü qılacağını şərt etmişlərsə, bu halda əgər o əməli yerinə yetirməyə qadir imişsə, icarə səhihdir və icarə edən şəxs qılınmamış namazların ucrətul-mislini geri ala bilər, yaxud icarəni fəsx edərək (pozaraq) yerinə yetirilən miqdarın ucrətul-mislini çıxıb qalanını geri ala bilər. Əgər əməli yerinə yetirməyə qadir deyilmişsə, əcir öləndən sonrakı vaxta nisbətdə icarə batildir və (icarə edən, qılınmamış namazların) ucrətul-musəmmasını geri ala bilər, yaxud keçən vaxtın icarəsini pozub onun ücrətül-mislini ödəyər. Əgər özü qılacağını şərt etməmişlərsə, vərəsələri onun malından bir kəsi əcir tutmalıdırlar. Əgər malı olmasa, vərəsəyə heç bir şey vacib deyildir.

**Məsələ:** ١٥٥٧. Əgər əcir meyyitin namazlarını axıra qədər qılmamış ölərsə və özünün də qəza namazı varsa, yuxarıdakı məsələdə deyilən qaydaya əməl edəndən sonra, onun malından bir şey artıq qalsa, vəsiyyət etmiş olsa və onun namazlarının ücrəti malın üçdə birindən artıq olsa, varisləri də icazə versələr, onun namazlarının hamısı üçün əcir tutmalıdırlar. Əgər icazə verməsələr, onun malının ١/٣-ni onun üçün namaz qıldırmağa sərf etməlidirlər.

# ORUCUN HÖKMLƏRİ

Oruc budur ki, insan qürbət qəsdi ilə – dəstəmazda deyildiyi kimi – və xalis niyyətlə sübh azanından məğrib azanına qədər sonradan deyiləcək şeylərdən çəkinsin. Bu və sonrakı məsələlərdə məğrib – vacib ehtiyata əsasən, günəş batandan sonra məşriq tərəfdə yaranan qırmızılığın insanın başı üstündən keçməsidir.

***Niyyət***

**Məsələ:** ١٥٥٨. İnsanın orucun niyyətini qəlbindən keçirməsi, ya məsələn: "sabah oruc tutacağam" deməsi lazım (vacib) deyildir; əksinə qürbət qəsdi ilə və ixlasla sübh azanından məğrib azanına kimi orucu batil edən işlərdən özünü qorumaq qəsdində olması kifayət edər. Bu müddətin hamısını oruc olduğuna əmin olması üçün sübh azanından bir qədər əvvəl və həmçinin, məğribdən bir qədər sonra özünü orucu batil edən işlərdən saxlamalıdır.

**Məsələ:** ١٥٥٩. İnsan Ramazan ayının hər gecəsi, onun sabahının orucunu tutacağını niyyət edə bilər, həmçinin, Ramazan ayının birinci gecəsi bütün Ramazan ayının orucunun niyyətini edə bilər və hər gecə niyyəti təzələmək lazım deyildir və həmin niyyətin qalması kifayətdir.

**Məsələ:** ١٥٦٠. Ramazan ayının birinci gecəsində oruc niyyətinin vaxtı, gecənin əvvəlindən sübh azanına qədərdir və birinci gecədən başqalarında gecənin əvvəlindən qabaqda niyyət etmək olar, məsələn: əvvəlki günün əsr vaxtı (axşam çağı) "sabah oruc tutacam qürbətən iləllah" niyyətində olsa və bu niyyətdə qalsa, sübh azanından sonra onu yuxu tutsa da belə, niyyət edə bilər.

**Məsələ:** ١٥٦١. Müstəhəbb orucun niyyətinin vaxtı gecənin əvvəlindən (sabahkı günün) günəşin dairəsinin batmasına niyyət etmək miqdarında vaxt qalana qədərdir. Əgər insan bu vaxta qədər orucu batil edən işlər görməsə və müstəhəbb oruc niyyəti etsə, səhihdir. Əgər günəşin dairəsini batmasından oyana keçsə, orucun səhihliyi məhəlli-işkaldır.

**Məsələ:** ١٥٦٢. Əgər insan sübh azanından əvvəl oruc niyyəti etmədən yatıb zöhrdən qabaq oyansa və oruc niyyəti etsə, bu halda vaxtı müəyyən olan vacib orucdursa – istər Ramazan ayının orucu, istərsə də ondan qeyrisi, məsələn, müəyyən bir günü oruc tutacağını nəzr etmiş olsa, onda bu orucun səhihliyi məhəlli-işkaldır. Əgər vaxtı müəyyən olmayan vacib oruc olsa, səhihdir. Əgər zöhrdən sonra oyansa vacib

oruc niyyəti edə bilməz, hətta vaxtı qeyri-müəyyən olan oruc olsa da. Lakin Ramazan ayının orucunun qəzasında zöhrdən əsrə qədər caiz olmaması ehtiyata əsasəndir.

**Məsələ:** ١٥٦٣. Əgər Ramazan ayının orucundan başqa bir oruc tutmaq istəsə, onu müəyyən etməlidir. Məsələn: qəza, ya nəzir, ya da kəfarə orucunu tutduğunu niyyət etməlidir. Lakin Ramazan ayında «Ramazan ayının orucunu tuturam» -deyə niyyət etməsi lazım (vacib) deyildir; hətta əgər Ramazan ayı olduğunu bilməsə və ya yaddan çıxarıb başqa bir orucun niyyətini etsə də belə, həmin oruc Ramazan ayının orucu hesab olunar.

**Məsələ:** ١٥٦٤. Əgər Ramazan ayı olduğunu bilib, qəsdən Ramazan ayının orucu olmayan başqa bir oruc niyyəti etsə, Ramazan ayının orucu hesab olunmaz və həmçinin, vacib-ehtiyata görə qəsd etdiyi oruc da sayılmaz.

**Məsələ:** ١٥٦٥. Əgər, məsələn; Ramazan ayının birinci gününün orucu niyyətilə oruc tutsa və sonra Ramazan ayının ٢-ci, ya ٣-cü olduğunu başa düşsə, orucu səhihdir.

**Məsələ:** ١٥٦٦. Əgər sübh azanından qabaq niyyət etsə və huşdan getsə və gün ərzində huşa gəlsə, vacib ehtiyata əsasən, həmin günün orucunu tamamlamalı və qəzasını da yerinə yetirməlidir.

**Məsələ:** ١٥٦٧. Əgər sübh azanından qabaq niyyət edib, məst olsa və gün ərzində huşa gəlsə, vacib ehtiyata əsasən, həmin günün orucunu tamamlamalı və qəzasını da yerinə yetirməlidir.

**Məsələ:** ١٥٦٨. Əgər sübh azanından qabaq niyyət edib, yatsa və məğribdən sonra oyansa orucu səhihdir.

**Məsələ:** ١٥٦٩. Əgər Ramazan ayı olduğunu bilməsə, yaxud unutsa və zöhrdən qabaq xatırlasa, bu halda orucu batil edən iş görübsə, yaxud zöhrdən sonra Ramazan ayı olduğunu xatırlasa, onun orucu batildir. Lakin məğribə qədər orucu batil edən bir iş görməməli və Ramazan ayından sonra da həmin orucun qəzasını tutmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, əgər zöhrdən qabaq xatırlasa və orucu batil edən bir iş görməsə də hökm eynidir.

**Məsələ:** ١٥٧٠. Əgər uşaq sübh azanından qabaq həddi-buluğa çatsa, oruc tutmalıdır, əgər sübh azanından sonra həddi-buluğa çatsa, həmin günün orucu ona vcib deyildir. Müstəhəbb ehtiyat budur ki, əgər sübh azanından sonra həddi-buluğa çatsa və oruc niyyəti etmiş olsa, həmin günün orucunu tamamlasın; və əgər niyyət etməmiş olsa və orucu batil edən işlərdən görməmiş olsa, niyyət edib, oruc tutsun.

**Məsələ:** ١٥٧١. Meyyitin qəza orucunu tutmaq üçün əcir tutulmuş olan şəxsin müstəhəbb oruc tutmağının eybi yoxdur. Lakin Ramazan ayının qəza orucu olan kəs müstəhəbb oruc tuta bilməz. Həmçinin, vacib ehtiyata görə, başqa bir vacib orucun qəzası vacib olan şəxs də eynilə.

Əgər o, unudaraq müstəhəbb oruc tutsa, bu halda zöhrdən əvvəl yadına düşsə, onun müstəhəbb orucu batildir və öz niyyətini (vaxtı) qeyri-müəyyən olan vacib oruca döndərə bilər. Lakin müəyyən vacib oruca döndərməsi məhəlli-işkaldır. Əgər zöhrdən sonra yadına düşsə, qeyri-müəyyən də olsa, niyyətini vacib oruca döndərə bilməz. Bu hökm, Ramazan ayının orucunun qəzasında zəvaldan əsrə (gün batana) qədər ehtiyat əsasındadır və əgər məğribdən sonra yadına düşsə, orucu səhihdir.

**Məsələ:** ١٥٧٢. Əgər insana Ramazan ayının orucundan başqa, digər bir müəyyən oruc vacib olsa, məsələn: müəyyən bir günü oruc tutacağını nəzir etsə, bu halda qəsdən sübh azanına qədər niyyət etməsə, orucu batildir. Həmçinin, ehtiyata görə əgər həmin günün orucunun ona vacib olduğunu bilməsə, ya unutsa, zöhrdən qabaq yadına düşsə də və orucu batil edən bir iş görməsə də, hökm eynidir.

**Məsələ:** ١٥٧٣. Əgər kəffarə orucu kimi, vaxtı müəyyən olmayan bir oruc üçün qəsdən zöhrə qədər niyyət etməsə, işkalı yoxdur. Hətta niyyətdən əvvəl oruc tutmamağı qərara alsa, yaxud oruc tutub-tutmamaq barədə tərəddüddə olsa, bu halda orucu batil edən bir iş etməsə və zöhrdən əvvəl niyyət edərsə, orucu səhihdir.

**Məsələ:** ١٥٧٤. Əgər kafir şəxs Ramazan ayında zöhrdən əvvəl müsəlman olsa, sübh azanından müsəlman olduğu vaxta qədər orucu batil edən bir iş görməsə də, onun (həmin günkü) orucu səhih deyildir.

**Məsələ:** ١٥٧٥. Əgər Ramazan ayının günü əsnasında-zöhrdən qabaq, ya ondan sonra xəstə sağalarsa, bu vaxta qədər orucu batil edən bir iş görməsə də belə, o günün orucu ona vacib deyildir.

**Məsələ:** ١٥٧٦. İnsanın, şə'banın axırı, yoxsa Ramazanın əvvəli olması barədə şəkk etdiyi gün oruc tutması vacib deyildir. Əgər oruc tutmaq istəsə, Ramazan ayının orucunu niyyət edə bilməz və yaxud "əgər Ramazan ayıdırsa, Ramazan ayının, yox əgər Ramazan ayı deyilsə, qəza və ya bu kimi oruc tuturam" deyə niyyət edə bilməz. Əksinə, vacib qəza orucu kimi və ya müstəhəbbi bir oruc niyyəti etsə, bu halda sonradan Ramazan ayı olduğu mə'lum olsa, Ramazan ayından hesab olunacaq. Əgər ona əmr olunan orucu yerinə yetirməyi niyyət etsə, sonra da Ramazan ayı olduğu mə`lum olsa, kifayət edər.

**Məsələ:** ١٥٧٧. Əgər şə'banın axırı, yoxsa Ramazanın ١-ci günü olması şübhəli olan gün, qəza orucu və bu kimi niyyətlə, yaxud müstəhəbb bir oruc niyyətilə oruc tutsa və gün ərzində Ramazan ayı olduğu mə'lum olsa, gərək Ramazan ayının orucunu niyyət etsin.

**Məsələ:** ١٥٧٨. Əgər Ramazan ayının orucu kimi, müəyyən olan bir orucda Allah üçün imsak etmək (özünü orucu batil edən işlərdən saxlamaq) niyyətindən dönsə, orucunu batil edib-etməməsində tərəddüd etsə, ya orucu batil edən işlərdən hər hansı birini görmək istəsə,

ya onda tərəddüd etsə, etdiyi qəsdindən tövbə etsə də və orucu batil edən bir iş görməsə də orucu batil olar.

**Məsələ:** ١٥٧٩. Əvvəlki məsələdə deyilən və vaxtı müəyyən olan vacib orucu batil edən şey, kəffarə və nəzir kimi vaxtı müəyyən olmayan vacib orucu batil etməz; bu halda zöhrdən qabaq orucu batil etmək barədəki niyyətindən dönsə, orucu səhihdir.

## ORUCU BATİL EDƏN ŞEYLƏR

**Məsələ:** ١٥٨٠. ٩ şey orucu batil edir, baxmayaraq ki, onlardan bə'zisində batil olmaq ehtiyata əsasəndir:

١- Yemək və içmək;

٢- Cima etmək;

٣- İstimna: yə'ni insanın özü-özü ilə, ya başqası ilə cimadan başqa, sperma xaric olmasına səbəb olan bir iş görməsi;

٤- Allahın, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və mə'sum imamların (əleyhimussalam) adından yalan söyləmək;

٥- Vacib ehtiyata əsasən, tozu boğaza yetişdirmək;

٦- Başı tamamilə suya batırmaq;

٧- Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq;

٨- Axıcı (maye) maddələrlə imalə etmək (klizma);

٩- Qusmaq.

Bunların hökmləri gələcək məsələlərdə deyiləcəkdir.

### ١- *Yemək və içmək*

**Məsələ:** ١٥٨١. Əgər oruc tutan şəxs oruc olduğunu bildiyi (unutmadığı) halda qəsdən bir şey yeyib-içsə, onun orucu batil olar. Bu hökmdə istər su və çörək kimi yeyilməsi adət olsun, istərsə də torpaq və ağac şirəsi kimi yeyilməsi adət olmasın; istər az, istərsə çox olsun, hətta əgər ağızın suyunu çölə çıxarıb, yenidən ağıza daxil edərək udsa orucu batil olar. Amma həmin ağız suyu ağızda- kənardan daxil olmuş su deyilməyəcək tərzdə- ağız suyuna qarışarsa, bu istisnadır.

**Məsələ:** ١٥٨٢. Əgər yeməyə məşğul ikən sübh olduğunu başa düşsə, ağzındakı tikəni çıxarmalıdır; əgər qəsdən onu udarsa orucu batildir və qaydası sonradan deyiləcək kəffarə də ona vacib olar.

**Məsələ:** ١٥٨٣. Əgər oruc tutan şəxs səhv olaraq bir şey yeyib-içsə orucu batil olmaz.

**Məsələ:** ١٥٨٤. Bədəni keyitmək, ya müalicə məqsədilə vurulan iynələrin oruc tutan şəxs üçün eybi yoxdur. Ehtiyat müstəhəbbdir ki, oruc tutan şəxs su və yemək əvəzinə vurulan iynələrdən çəkinsin.

**Məsələ:** ١٥٨٥. Əgər oruc tutan şəxs oruc olduğunu xatırladığı bir halda dişinin dibində qalan bir şeyi qəsdən udsa, orucu batil olar.

**Məsələ:** ١٥٨٦. Oruc tutmaq istəyən şəxsin azandan qabaq dişlərini təmizləməsi lazım (vacib) deyil, lakin dişlərinin dibində qalan şeyin gündüz boğazına yetişəcəyini bilsə, bu halda onu təmizləməsə və ondan bir şey boğazına getsə, orucu batil olar.

**Məsələ:** ١٥٨٧. Turş və bu kimi şeyləri fikirləşməklə də olsa, ağıza yığılan ağız suyunu udmaq orucu batil etməz.

**Məsələ:** ١٥٨٨. Baş və sinədən gələn bəlğəmin ağız boşluğuna yetişmədiyi təqdirdə udmağın eybi yoxdur. Lakin əgər ağız boşluğuna daxil olsa, vacib ehtiyata əsasən, onu udmamalıdır.

**Məsələ:** ١٥٨٩. Əgər oruc tutan şəxs, o qədər susuz olsa ki, su içmədiyi halda öləcəyindən qorxsa, ölümdən nicat tapmaq miqdarında su içməsi vacibdir. Lakin bu halda onun orucu batil olur. Əgər Ramazan ayıdırsa günün qalan hissəsində özünü orucu batil edən işlərdən saxlamalıdır. Həmçinin, su içməməklə ona e'tina olunası bir zərər dəyəcəyindən qorxsa, yaxud su içməmək adətən dözüləsi mümkün olmayan bir çətinliyə səbəb olsa, bu iki halda zərəri və çətinliyi aradan qaldırmaq miqdarında su içə bilər.

**Məsələ:** ١٥٩٠. Uşaq və quş üçün yeməyi çeynəmək, ya xörəyi dadmaq və adətən boğaza yetişməyən bu kimi başqa işlərdə bir şey təsadüfən boğaza yetişsə belə, orucu batil etməz. Ancaq insan əvvəlcədən onun boğaza yetişəcəyini bilsə, ya buna xatircəm olsa, oruc batil olar və onun qəzasını da tutmalıdır, boğaza yetişdiyi surətdə kəffarə vermək də vacib olar.

**Məsələ:** ١٥٩١. Zəifliyə görə orucu yemək olmaz, ancaq zəiflik oruc tutan şəxs üçün adətən dözülməyəcək dərəcədə olarsa, orucu yeməyin eybi yoxdur.

**٢- *Cima***

**Məsələ:** ١٥٩٢. Cima orucu batil edər, hətta yalnız xütnəgah (dəllək kəsən yerə) qədər daxil olsa və sperma gəlməsə də belə. Bu hökm qadından qeyrisi ilə cima olunan surətdə sperma xaric olmadıqda ehtiyat əsasındadır.

**Məsələ:** ١٥٩٣. Əgər xütnəgah miqdarından az daxil olsa və sperma da xaric olmasa, oruc batil olmaz.

**Məsələ:** ١٥٩٤. Əgər qəsdən cima edib, xütnəgah miqdarında daxil etmək məqsədi olsa və həmin miqdarın da daxil olub-olmadığında şəkk etsə, onun orucu batildir və qəzasını da tutmalıdır. Vacib ehtiyata əsasən, günün qalan hissəsində imsak etməlidir, lakin kəffarəsi yoxdur.

**Məsələ:** ١٥٩٥. Əgər oruc olduğunu unudub, cima etsə, yaxud cimada ixtiyarsız olsa, orucu batil olmaz. Lakin cima əsnasında oruc olduğu yadına düşsə, ya özündə ixtiyar hasil olsa, dərhal cima halından xaric olmalıdır, əgər xaric olmasa, orucu batildir.

***٣- İstimna***

**Məsələ:** ١٥٩٦. Əgər oruc tutan şəxs, istimna etsə, -yə'ni cimadan başqa bir iş görüb sperma xaric etsə, orucu batil olar.

**Məsələ:** ١٥٩٧. Əgər bir kəsdən qeyri-ixtiyari olaraq sperma xaric olsa, orucu batil olmaz.

**Məsələ:** ١٥٩٨. Əgər oruc tutan şəxs gündüz yatacağı halda möhtəlim olacağını (yə'ni yuxuda ondan sperma xaric olacağını) bilirsə, yatması caizdir və əgər möhtəlim olsa, orucu batil olmaz. Müstəhəbb ehtiyat budur ki, xüsusilə yatmamaqla zəhmətə (çətinliyə) düşməyəcəyi təqdirdə yatmaqdan çəkinsin.

**Məsələ:** ١٥٩٩. Əgər oruc tutan şəxs sperma xaric olarkən yuxudan oyansa, onun qarşısını alması vacib deyildir.

**Məsələ:** ١٦٠٠. Oruc tutub sonra möhtəlim olmuş şəxs bövl, ya istibra etmək vasitəsilə spermanın qalanının məcradan xaric olacağını bilsə də bövl və istibra edə bilər.

**Məsələ:** ١٦٠١. Möhtəlim olmuş oruc tutan şəxs məcrada sperma qaldığını və qüsldən əvvəl bövl etmədiyi surətdə qüsldən sonra spermanın xaric olacağını bilirsə, vacib ehtiyata əsasən, qüsldən əvvəl bövl etməlidir.

**Məsələ:** ١٦٠٢. Qəsdən sperma xaric etdiyi halda orucunun batil olacağını bilən şəxs, sperma xaric etmək məqsədilə, məsələn öz həyat yaldaşı ilə mazaqlaşıb və zarafat etsə, məni xaric olmasa da orucu batil olar və onun qəzasını tutmalıdır. Vacib ehtiyata əsasən, günün qalan hissəsində özünü orucu batil edən işlərdən də saxlamalıdır.

**Məsələ:** ١٦٠٣. Əgər oruc tutan şəxs sperma xaric etmək məqsədi olmadan, məsələn: öz həyat yoldaşı ilə mazaqlaşıb və zarafat etsə, bu halda məni xaric olmayacığına arxayın olduğu surətdə, təsadüfən məni xaric olsa da, orucu səhihdir. Lakin arxayın olmasa, məni xaric olduğu surətdə orucu batildir.

***٤- Allahın və Peyğəmbərin (səlləllahu əleyhi və alih) adından yalan söyləmək***

**Məsələ:** ١٦٠٤. Əgər oruc tutan şəxs danışmaq, yazmaq, işarə etmək və bu kimi yollarla Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və mə'sum imamlara (əleyhimussalam) qəsdən yalan bir xəbəri nisbət versə, hətta dərhal "yalan dedim" -desə, ya tövbə etsə belə, orucu batildir. Digər peyğəmbərlərə və onların canişinlərinə (əleyhimussalam) yalan nisbəti vermək vacib ehtiyata əsasən, orucu batil edər. Əgər o nisbət Allaha qayıdarsa, bu halda orucu batildir. Həmçinin, həzrət Fatimeyi-Zəhraya (əleyhəssalam) yalan nisbəti vermək də eynilədir; əgər o nisbət Allaha, Peyğəmbəri Əkrəmə (səlləllahu əleyhi və alih) və mə'sum imamlara qayıtsa, bu halda orucu batildir.

**Məsələ:** ١٦٠٥. Əgər yalan, yoxsa doğru olduğunu bilmədiyi və mö'təbər olmasına dəlil-sübutu olmadığı bir hədisi nəql etmək istəsə, vacib ehtiyata əsasən, o xəbəri söyləyəndən və ya məsələn: xəbərin (rəvayətin) yazıldığı kitabdan nəql etməlidir.

**Məsələ:** ١٦٠٦. Əgər doğru olduğuna e'tiqadlı olduğu bir hədisi Allaha, ya Peyğəmbərə (səlləllahu əleyhi və alih), ya imamlar (əleyhimussalam)-a nisbət versə və sonra onun yalan olduğunu başa düşsə, orucu batil olmaz.

**Məsələ:** ١٦٠٧. Əgər Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və imamlara (əleyhimussalam) yalan nisbəti verməyin orucu batil etdiyini bilə-bilə, yalan olduğunu bildiyi bir şeyi onlara nisbət versə və sonra dediyinin doğru olduğunu başa düşsə, orucu batildir. Vacib ehtiyata əsasən, günün qalan hissəsində imsak etməlidir.

**Məsələ:** ١٦٠٨. Əgər başqasının uydurduğu yalanı qəsdən Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və imamlara (əleyhimussalam) nisbət versə, orucu batil olar. Lakin o yalanı düzəldənin dilindən nəql edərsə, orucu batil olmaz.

**Məsələ:** ١٦٠٩. Əgər oruc tutan şəxsdən "Peyğəmbər (səlləllahu əleyhi və alih) və ya imamlardan (əleyhimussalam) biri belə bir söz buyurmuşdurmu?" - deyə, soruşsalar və o da cavabında "yox" deməli olduğu yerdə qəsdən "bəli", ya "bəli" deməli olduğu yerdə qəsdən "yox" desə, orucu batildir.

**Məsələ:** ١٦١٠. Əgər Allahın, Peyğəmbərin (səlləllahu əleyhi və alih), ya imamların (əleyhimussalam) adından düz bir söz desə və sonradan "yalan demişəm" -desə, ya gecə onlara yalan nisbəti verib, sabahı gün oruc halda «dünən gecə dediklərim düzdür» -desə, orucu batil olar.

***٥. Tozu boğaza çatdırmaq***

**Məsələ:** ١٦١١. Oruc tutan şəxsin tozu boğazına yetişdirməsi, ehtiyata əsasən, orucu batil edər; istər un kimi yeyilməsi halal olan bir şeyin tozu olsun, istərsə də torpaq kimi yeyilməsi haram olan şeyin tozu.

**Məsələ:** ١٦١٢. Əgər külək vasitəsilə toz qalxsa və insan bunun hökmünü bildiyi halda qorunmasa və toz onun boğazına çatsa, ehtiyata əsasən, orucu batil olar.

**Məsələ:** ١٦١٣. Vacib ehtiyat budur ki, oruc tutan şəxs qatı buxarı, siqaret və tənbəki tüstüsü və bu kimi şeyləri boğazına çatdırmasın.

**Məsələ:** ١٦١٤. Əgər qorunmasa və toz, tüstü, qatı buxar və bu kimi şeylər onun boğazına yetişsə, bu halda boğazına yetişməyəcinə əmin, ya arxayınlığı olmuşdursa, orucunun işkalı yoxdur. Əgər tozun boğaza yetişməyəcinə gümanı vardısa, müstəhəbb ehtiyata əsasən, həmin orucu qəza etsin.

**Məsələ:** ١٦١٥. Əgər oruc olduğunu unudub, qorunmasa, ya özündən asılı olmayaraq toz və bu kimi şeylər onun boğazına yetişsə, orucu batil olmaz.

**٦- *Başı suya batırmaq***

**Məsələ:** ١٦١٦. Əgər oruc tutan şəxs başını tamamilə suya batırsa, bədəninin qalan yerləri sudan kənarda qalsa da, orucu batil olar. Lakin əgər bütün bədənini suya batırsa və başdan bir miqdar sudan kənarda qalsa, orucu batil olmaz.

**Məsələ:** ١٦١٧. Əgər başının yarısını bir dəfə, o biri yarısını isə növbəti dəfə suya batırsa orucu batil olmaz.

**Məsələ:** ١٦١٨. Əgər başını tamamilə suya batırıb-batırmasında şəkk etsə, orucu səhihdir, amma əgər başını, tamamilə suya batırmaq qəsdilə suya batırsa və başının tamamilə suya batıb-batmadığında şəkk etsə, orucu batildir, ancaq kəffarəsi yoxdur.

**Məsələ:** ١٦١٩. Əgər başını tamamilə suya batırsa, amma saçlarının bir hissəsi bayırda qalsa, orucu batil olar.

**Məsələ:** ١٦٢٠. Başı sudan başqa mayelərin içinə, məsələn: südə, ya muzaf suya batırmaq orucu batil etmir. Vacib ehtiyata əsasən, başı gülaba batırmaqdan çəkinsin.

**Məsələ:** ١٦٢١. Əgər oruc tutan şəxs qeyri-ixtiyari olaraq suya düşərsə və su onun başını tamamilə əhatə edərsə, yaxud oruc olduğunu unudaraq başını tamamilə suya batırarsa onun orucu batil olmaz.

**Məsələ:** ١٦٢٢. Əgər suyun tamamilə başını əhatə etməyəcəyini güman edərək özünü suya atarsa və su tamamilə başını əhatə edərsə orucu batil olmaz.

**Məsələ:** ١٦٢٣. Əgər oruc olduğunu unudub, başını suya batırarsa, ya başqası zorla onun başını suya batırarsa, bu halda suyun altında olarkən oruc olduğu yadına düşsə, ya zorla onun başını suya batıran şəxs əlini çəkərsə, bu halda başını dərhal sudan çıxarmalıdır və belə etmədiyi təqdirdə orucu batil olar.

**Məsələ:** ١٦٢٤. Əgər oruc olduğunu unudub, qüsl niyyətilə başını suya batırsa onun qüslü və orucu – hər ikisi səhihdir.

**Məsələ:** ١٦٢٥. Əgər oruc olduğunu bilə-bilə qəsdən başını suya batırsa, bu halda onun orucu Ramazan ayının orucudursa, həm qüslü, həm də orucu batildir. Həmçinin, özü üçün Ramazan ayı orucunun qəzasını tutan şəxsin də hökmü zəvaldan sonra ehtiyata görə belədir. Lakin tutduğu oruc müstəhəbb oruc olsa, ya başqa bir vacib oruc olsa, istər müəyyən bir gündə oruc tutmasını nəzr etmək kimi vaxtı müəyyən olan oruc olsun, istərsə də kəffarə orucu kimi vaxtı müəyyən olmayan oruc olsun, bu surətdə qüslü səhih, orucu isə batildir.

**Məsələ:** ١٦٢٦. Əgər bir kəsi qərq olmaqdan xilas etmək üçün başını suya batırsa, həmin şəxsi xilas etmək vacib olsa da, onun orucu batil olar.

**٧- *Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq***

**Məsələ:** ١٦٢٧. Əgər cünub olan şəxs Ramazan ayında sübh azanına qədər qəsdən qüsl almasa, ya vəzifəsi təyəmmüm etmək olduğu halda qəsdən təyəmmüm etməsə, orucu batildir və Ramazan ayının orucunun qəzasının hökmü sonradan deyiləcəkdir.

**Məsələ:** ١٦٢٨. Əgər cünub olan şəxs Ramazan ayı və onun qəzasından başqa vaxtı müəyyən olan digər vacib və müstəhəbb oruclardan bir orucda, qəsdən sübh azanına qədər qüsl etməzsə, orucu səhihdir və vacib orucda müstəhəbb ehtiyat budur ki, şəxs qəsdən cənabət halında qalmasın.

**Məsələ:** ١٦٢٩. Ramazan ayının gecələrində cünub olan şəxs, vaxt daralana qədər qəsdən qüsl almasa, ehtiyata əsasən, təyəmmüm edib orucunu tutmalı, həmçinin, onun qəzasını da yerinə yetirməlidir.

**Məsələ:** ١٦٣٠. Əgər cünub olan şəxs Ramazan ayında qüsl etməyi unutsa və bir gündən sonra yadına düşsə, həmin bir günün orucunu qəza etməlidir. Əgər bir neçə gündən sonra yadına düşsə, cünub olmasına yəqin olan günlərin qəzasını yerinə yetirməlidir. Məsələn: əgər ٣, yoxsa ٤ gün cünub qaldığını bilməsə, bu halda ٣ günün orucunu qəza etsin.

**Məsələ:** ١٦٣١. Ramazan ayının gecələrində nə qüsl, nə də təyəmmüm almağa vaxtı olmayan şəxs, əgər özünü cünub etsə, orucu batildir, qəza və kəffarə də ona vacib olur. Lakin vəzifəsi qüsl almaq olan şəxsin təyəmmum etmək üçün vaxtı varsa, bu halda özünü cünub etsə, vacib ehtiyata görə təyəmmüm edib oruc tutmalı və həmçinin, qəzasını da yerinə yetirməlidir.

**Məsələ:** ١٦٣٢. Əgər vaxt qalıb-qalmadığını bilmək üçün axtarış aparsa və nəticədə qüsl almaq miqdarında vaxt qaldığına güman edib özünü cünub etsə və sonra vaxtın dar olduğunu başa düşərək təyəmmüm etsə, orucu səhihdir. Əgər axtarış aparmadan vaxtın olduğunu güman edərək özünü cünub etsə və sonra vaxtın dar olduğunu başa düşərək təyəmmüm edib, oruc tutsa, vacib ehiyata əsasən, həmin günün orucunu qəza etməlidir.

**Məsələ:** ١٦٣٣. Ramazan ayının gecəsində cünub olan şəxs yatacağı təqdirdə sübh azanına qədər oyanmayacağını bilirsə, qüsl almamış yatmamalıdır. Əgər qüsldən qabaq yatsa və sübh azanına kimi oyanmasa, orucu batildir, qəza və kəffarə də ona vacib olar.

**Məsələ:** ١٦٣٤. Əgər cünub şəxs Ramazan ayının gecəsi yuxudan oyansa, bu halda qüsl almaq üçün sübh azanından əvvəl oyana bilməsinə

arxayın olmadığı surətdə müstəhəbb ehtiyat budur ki, qüsldən qabaq yatmasın.

**Məsələ:** ١٦٣٥. Ramazan ayının gecəsində cünub olan şəxs yatdığı təqdirdə sübh azanından əvvəl oyanacağına əmin, ya arxayın olsa, bu halda oyandıqdan sonra qüsl alacağını qərara alsa, bu qərarla yatsa və sübh azanına kimi yuxuya qalsa orucu səhihdir.

**Məsələ:** ١٦٣٦. Ramazan ayının gecəsində cünub olan şəxs yatdığı təqdirdə sübh azanından əvvəl oyanacağını bilsə, ya ona arxayın olsa, bu halda oyandıqdan sonra qüsl almalı olduğundan qəflətdə olsa və sübh azanına qədər yatıb qalsa, ehtiyata əsasən, həmin günün qəzasını yerinə yetirməlidir.

**Məsələ:** ١٦٣٧. Ramazan ayının gecəsində cünub olan şəxs yatdığı təqdirdə sübh azanından əvvəl oyanacağına yəqin etsə, yaxud ehtimal versə, əgər istəməsə ki, oyandıqdan sonra qüsl alsın, ya qüsl alıb-almamaq barəsində tərəddüd etsə, bu halda yatıb oyanmasa, orucu batil, qəza və kəffarə də ona vacib olar.

**Məsələ:** ١٦٣٨. Əgər cünub olan şəxs Ramazan ayının gecəsində yatıb oyansa və yenidən yatdığı təqdirdə sübh azanına kimi oyanacağına yəqin etsə, yaxud ehtimal versə və oyandıqdan da sonra qüsl almaq qərarında olsa, amma ikinci dəfə yatıb sübh azanına kimi oyanmasa, həmin günün qəzasını tutmalıdır. Əgər ٢-ci yuxudan oyanıb ٣-cü dəfə yatsa və sübh azanına kimi oyanmasa, həmin günün orucunun qəzasını tutmalıdır və müstəhəbb ehtiyata əsasən, kəffarə də verməlidir.

**Məsələ:** ١٦٣٩. İnsanın yuxuda möhtəlim olduğu surətdə birinci yuxusu dedikdə, məqsəd oyandıqdan sonra yenidən yatdığı yuxusudur, möhtəlim olduğu yuxu isə birinci yuxu hesab olunmur.

**Məsələ:** ١٦٤٠. Əgər oruc tutan şəxs gündüz möhtəlim olsa, dərhal qüsl alması vacib deyildir.

**Məsələ:** ١٦٤١. Əgər Ramazan ayında sübh azanından sonra yuxudan ayılıb, möhtəlim olmuş olduğunu görsə, azandan əvvəl möhtəlim olduğunu bilsə də, orucu səhihdir.

**Məsələ:** ١٦٤٢. Ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs, sübh azanına qədər cünub halında qalsa, qəsdən olmasa da, orucu batildir.

**Məsələ:** ١٦٤٣. Ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs əgər sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə və sübh azanından əvvəl möhtəlim olmuş olduğunu bilsə, orucu ehtiyata əsasən, batildir. Lakin növbəti Ramazan ayına qədər, tutmalı olduğu qəza orucunun vaxtı az olsa, məsələn, keçən Ramazan ayının orucundan beş gün qəzası olduğu halda növbəti Ramazan ayına da beş gün qalıbsa, vacib ehtiyata əsasən, gərək həmin günü oruc tutsun və Ramazan ayından sonra, bir gün də oruc tutsun.

**Məsələ:** ١٦٤٤. Ramazan ayının orucunun qəzasından başqa, vaxtı müəyyən olmayan vacib oruclarda, kəffarə orucu kimi sübh azanına qədər qəsdən cünub halında qalsa, orucu səhihdir və müstəhəbb ehtiyat budur ki, həmin gündən başqa bir gün də oruc tutsun.

**Məsələ:** ١٦٤٥. Əgər qadın Ramazan ayında sübh azanından əvvəl heyz, ya nifasdan pak olub qəsdən qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda təyəmmüm etməsə, orucu batildir və Ramazan ayının orucundan başqası olduqda batil deyildir, baxmayaraq ki, müstəhəbb ehtiyat qüsl etməkdir.

**Məsələ:** ١٦٤٦. Əgər qadın Ramazan ayında sübh azanından əvvəl heyz, ya nifas qanından pak olsa və qüsl etmək üçün vaxt olmasa, təyəmmüm etməlidir və vacib ehtiyata əsasən, sübh azanına qədər oyaq qalmalıdır. Həmçinin, vəzifəsi təyəmmüm etməli olan cünub şəxsin də hökmü belədir.

**Məsələ:** ١٦٤٧. Əgər qadın Ramazan ayında sübh azanına yaxın heyz, ya nifas qanından pak olsa, qüsl və təyəmmümdən heç birinə vaxt olmasa, orucu səhihdir.

**Məsələ:** ١٦٤٨. Əgər qadın sübh azanından sonra heyz, ya nifas qanından pak olsa, ya gün əsnasında -məğribə yaxın olsa da belə – heyz, ya nifas qanı görsə, orucu batildir.

**Məsələ:** ١٦٤٩. Əgər qadın heyz, ya nifas qüslünü unutsa və bir, ya bir neçə gündən sonra yadına düşsə, tutmuş olduğu oruclar səhihdir və onların qəzasını tutması ehtiyat müstəhəbbdir.

**Məsələ:** ١٦٥٠. Əgər qadın Ramazan ayı sübh azanından qabaq heyz, ya nifas qanından pak olub qüsl etməkdə səhlənkarlıq etsə və sübh azanına qədər qusl etməsə, orucu batildir. Lakin səhlənkarlıq etməsə, məsələn: qadın hamamının açılmasını gözləsə, hətta ٣ dəfə yatıb sübh azanına qədər qüsl etməsə də belə, təyəmmüm etdiyi təqdirdə orucu səhihdir. Əgər təyəmmüm etməyə də imkanı olmasa, onun orucu səhihdir.

**Məsələ:** ١٦٥١. Kəsirə istihazəsi olan qadın qüsllərini istihazənin hökmlərində ətraflı deyilmiş kimi yerinə yetirsə, orucu səhihdir. Mütəvəssitə istihazəsi olan qadın qüsl etməsə də, orucu səhihdir.

**Məsələ:** ١٦٥٢. Məss-meyyit edən – yə'ni bədəninin hər hansı bir yerini meyyitin bədəninə toxunduran şəxs, məssi-meyyit qüslü etmədən oruc tuta bilər və əgər oruc olduğu halda meyyitə toxunsa da orucu batil olmaz.

***İmalə etmək***

**Məsələ:** ١٦٥٣. Müalicə məqsədilə və çarəsizlikdən olsa da belə, maye halında olan bir şeylə, imalə etmək orucu batil edər.

***Qusmaq***

**Məsələ:** ١٦٥٤. Oruc tutan şəxs qəsdən qusarsa, xəstəlik və əlacsızlıqdan olsa da belə, orucu batil olar. Lakin əgər səhvən, ya qeyri-ixtiyari qusarsa işkalı yoxdur.

**Məsələ:** ١٦٥٥. Əgər gecə bir şey yesə və onun səbəbilə gündüz ixtiyarsız olaraq qusacağını bilsə orucu batil olmaz. Ehtiyat müstəhəbb budur ki, həmin günün orucunu qəza etsin.

**Məsələ:** ١٦٥٦. Əgər oruc tutan özünü qusmaqdan saxlaya bilərsə, bu halda ona zərəri və çətinliyi olmasa, gərək özünü saxlasın.

**Məsələ:** ١٦٥٧. Əgər, misal üçün, oruc tutan şəxsin boğazına milçək getsə, bu halda onu qusmadan çıxarmaq mümkün olarsa, gərək onu çıxarsın və orucu səhihdir. Lakin əgər mümkün olmasa, bu halda onun udulması yemək sayılsa, bu halda qusmaq vasitəsilə də olsa onu çıxarmalıdır və orucu batildir. Əgər yemək sayılmasa çıxarmamalıdır və orucu səhihdir.

**Məsələ:** ١٦٥٨. Əgər səhvən bir şeyi udarsa və boğazından aşağı keçsə, amma mə`dəsinə çatmazdan öncə oruc olduğu yadına düşsə, onu onu bayıra çıxarmaq lazım deyildir və onun orucu səhihdir.

**Məsələ:** ١٦٥٩. Əgər gəyirməklə bir şeyin boğazından çıxacağına əmin olarsa, vacib ehtiyata əsasən, qəsdən gəyirməməlidir. Lakin əmin olmasa, eybi yoxdur.

**Məsələ:** ١٦٦٠. Əgər gəyirsə və ağız boşluğuna bir şey gəlsə, onu ağzından xaric etməlidir. Əgər qeyri-ixtiyari udsa, orucu səhihdir.

## ORUCU BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ

**Məsələ:** ١٦٦١. Əgər insan qəsdən və ixtiyari olaraq orucu batil edən bir iş görərsə, orucu batil olar. Əgər qəsdən olmasa, işkalı yoxdur. Lakin əgər cünub şəxs ١٦٣٦-cı məsələdə ətraflı olaraq deyildiyi kimi sübh azanına qədər qüsl etməsə, orucu batildir.

**Məsələ:** ١٦٦٢. Əgər oruc tutan şəxs səhvən orucu batil edən bir iş görsə və orucununu batil olduğunu güman edib yenidən o işlərdən birini yerinə yetirərsə, orucu batil olar.

**Məsələ:** ١٦٦٣. Əgər bir şeyi oruc olan şəxsin boğazına zorla təksələr, onun orucu batil olmaz. Lakin onu orucunu batil etməyə məcbur etsələr, məsələn yemək yemədiyi təqdirdə canına, ya malına zərər vuracaqlarını desələr və özü zərərin qarşısını almaq üçün bir şey yeyərsə, orucu batil olar.

**Məsələ:** ١٦٦٤. Oruc tutan, onu orucunu batil edəcəyinə məcbur ediləcəyi, ya boğazına bir şey tökəcəklərinə arxayın olduğu, yaxud bunu bildiyi yerlərə getməməlidir. Əgər gedərsə və boğazına bir şey tökərlərsə, ya əlacsızlıqdan özü orucu batil edən bir iş görərsə, orucu

batil olar. Hətta getmək qəsdi etsə, amma getməsə də belə, orucu batil olar.

## ORUC TUTANA MƏKRUH OLAN ŞEYLƏR

**Məsələ:** ١٦٦٥. Oruc tutan şəxsə bir neçə şey məkruhdur, o cümlədən;

-Gözə dərman tökmək və dadı, ya qorxusu boğaza yetişəcəyi surətdə sürmə çəkmək;

-Qan almaq və hamama getmək kimi, zəifliyə səbəb olacaq hər hansı bir işi görmək;

-Burun otu çəkmək, əgər boğazına çatmasını bilməsə; əgər bilsə ki, boğazına çatacaq, caiz deyildir.

-Ətirli bitgiləri iyləmək;

-Qadının suda oturması;

-Şam işlətmək;

-Bədəndəki libası islatmaq;

-Diş çəkdirmək və bu kimi ağızdan qan gəlməsinə səbəb olan hər bir iş;

-Dişləri yaş çöplə təmizləmək;

-Lüzumsuz olaraq ağıza su, ya bu kimi maye bir şey salmaq və həmçinin, insanın məni gətirmək məqsədi olmadan arvadını öpməsi, ya şəhvəti təhrik edən bir şey etməsi də məkruhdur. Əgər məni gəlməsi məqsədilə olsa, orucu batildir.

## QƏZA VƏ KƏFFARƏ VACİB OLAN YERLƏR

**Məsələ:** ١٦٦٦. Əgər bir şəxs Ramazan ayının orucunda gecə cünub olsa və ١٦٣٨-ci məsələdə təfsilatı ilə deyilmiş qaydada oyanıb yenidən yatsa və sübh azanına qədər oyanmasa, yalnız orucun qəzasını tutmalıdır. Lakin orucu batil edən digər bir işi qəsdən yerinə yetirsə, həmin işin orucu batil etdiyini bildiyi surətdə, ona qəza və kəffarə vacib olar. Həmçinin, o işin haram olduğunu bildiyi surətdə- hətta orucu batil etdiyini bilməsə belə, Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və mə`sum İmamlara (əleyhimussalam) yalan nisbəti vermək kimi- eyni hökm sabitdir.

**Məsələ:** ١٦٦٧. Əgər məsələni bilməməzlikdən orucu batil edən bir işi, onu batil etməməsi əqidəsilə yerinə yetirsə (qəza etməlidir amma), ona kəffarə yoxdur.

## ORUCUN KƏFFARƏSİ

**Məsələ:** ١٦٦٨. Ramazan ayı orucunu yeməyin kəffarəsi budur ki, şəxs bir qul azad etməli, ya sonrakı məsələdə deyiləcək qayda ilə iki ay oruc tutmalı, ya da ٦٠ fəqiri doyurmalı, ya onların hər birinə təqribən ١٠

sir (١sir=٧٥ qr) olan bir müdd təam, yə`ni buğda, un, çörək, xurma və ya bu kimi şeylər verməlidir. Əgər bunlar onun üçün mümkün olmasa vacib ehtiyata əsasən, imkanı olan miqdarda sədəqə verməklə istiğfar etməyin hər ikisini əncam verməlidir. Əgər sədəqə vermək imkanı olmasa, bir dəfə "Əstəğfirullah" deməklə olsa belə, istiğfar etməlidir. Vacib ehtiyat budur ki, imkanı olduğu vaxt kəffarəni versin.

**Məsələ:** ١٦٦٩. Ramazan ayının orucunun kəffarəsi olaraq iki ay oruc tutmaq istəyən şəxs, onun bir ayını və ikinci ayın bir gününü bir yerdə, ardıcıl tutmalıdır, qalanı əgər ardıcıl olmasa, işkalı yoxdur.

**Məsələ:** ١٦٧٠. Ramazan ayının kəffarəsi olaraq ٢ ay oruc tutmaq istəyən şəxs, ardıcıl oruc tutmalı olduğu ٣١ gün ərzində qurban bayramı kimi oruc tutmağın haram olduğu bir günə təsadüf edəcəyi təqdirdə kəffarə orucu tutmağa başlamamalıdır.

**Məsələ:** ١٦٧١. Ardıcıl olaraq oruc tutmalı olan şəxs əgər arada üzürsüz olaraq bir gün oruc tutmasa, ya oruc tutmağa başladığı vaxt, arada oruc tutmağı vacib olan bir günə təsadüf edəcəyi halda başlasa, məsələn, oruc tutmağını nəzr etdiyi bir günə təsadüf edəcəksə, bu halda kəffarə orucunu əvvəldən tutmağa başlamalıdır.

**Məsələ:** ١٦٧٢. Əgər ardıcıl oruc tutmalı olduğu günlər əsnasında heyz, nifas, ya bir xəstəlik kimi qeyri-ixtiyari bir üzrlə qarşılaşsa, üzr aradan qalxdıqdan sonra orucları əvvəldən başlaması vacib deyil. Əksinə üzr aradan qalxdıqdan sonra qalanını davam etməlidir.

**Məsələ:** ١٦٧٣. Əgər öz orucunu haram bir şeylə batil etsə, istər həmin şey şərab və zina kimi əslən haram olsun, istərsə, ya öz əyalı ilə heyz halında yaxınlıq etmək kimi müəyyən bir səbəbdən haram olsun, bu halda ehtiyata əsasən, cəm kəffarəsi ona vacib olar; yə`ni bir qul azad etməli, ٢ ay oruc tutmalı və ٦٠ fəqiri doyurmalı, ya onların hər birinə bir müdd təam verməlidir. Əgər hər üç kəffarəni əncam vermək mümkün omasa, onlardan hər hansı biri müküdürsə onu yerinə yetirmək vacibdir. Vacib ehtiyata əsasən, istiğfar da etməlidir.

**Məsələ:** ١٦٧٤. Əgər oruc tutan şəxs qəsdən Allaha, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və mə`sum İmamlara (əleyhimussalam) bir yalan nisbəti versə, ehtiyat olaraq qabaqkı məsələdə deyilmiş cəm kəffarəsi ona vacib olar.

**Məsələ:** ١٦٧٥. Əgər oruc tutan şəxs, Ramazan ayında bir gün ərzində bir neçə dəfə cima, ya istimna etsə, ehtiyata əsasən, hər dəfəsi üçün bir kəffarə ona vacib olar. Əgər onun cima, ya istimnası haramdırsa, ehtiyata əsasən, hər dəfəsi üçün bir cəm kəffarəsi ona vacib olar.

**Məsələ:** ١٦٧٦. Əgər oruc tutan şəxs Ramazan ayında bir gündə cima və istimnadan başqa orucu batil edən işlərdən birini bir neçə dəfə yerinə yetirsə, onların hamısı üçün bir kəffarə kifayətdir.

**Məsələ:** ١٦٧٧. Əgər oruc tutan şəxs cima və istimnadan başqa, orucu batil edən başqa bir iş görsə və sonra öz halalı ilə cima, ya istimna etsə, əvvəlki iş üçün bir kəffarə və cima, ya istimna üçün ehtiyata əsasən, digər bir kəffarə də vacib olar.

**Məsələ:** ١٦٧٨. Əgər oruc tutan şəxs cima və istimnadan başqa, orucu batil edən başqa halal bir iş görsə, məsələn: su içsə və sonra cima və istimnadan başqa, orucu batil edən haram bir iş görsə, məsələn, haram bir şeyi yesə, bir kəffarə kifayətdir.

**Məsələ:** ١٦٧٩. Əgər oruc tutan şəxs gəyirsə və ağzına yemək gəlsə, bu halda o şeyi qəsdən udsa, orucu batildir və vacib ehtiyata əsasən, kəffarə də ona vacib olar. Həmçinin, əgər gəyirməklə yemək surətindən xaric olmuş bir şey ağzına gəldiyi təqdirdə onu qəsdən udsa da, eyni hökmü daşıyır. Baxmayaraq ki, bu surətdə ehtiyat müstəhəbb budur ki, cəm kəffarəsi versin. Əgər gəyirməklə yeyilməsi haram olan qan kimi bir şey ağız boşluğuna gəlsə və qəsdən onu udsa, orucu batildir və onun qəzasını tutmalı və vacib ehtiyata əsasən, cəm kəffarəsi də verməlidir.

**Məsələ:** ١٦٨٠. Əgər şəxs müəyyən bir günü oruc tutacağını nəzr etsə və həmin gün öz orucunu qəsdən batil etsə, kəffarə verməlidir. Nəzr ilə müxalifətin kəffarəsi and ilə müxalifət etmək kəffarəsi kimidir ki, ٢٧٣٤-cı məsələdə deyiləcək.

**Məsələ:** ١٦٨١. Əgər oruc tutan şəxs "məğrib olub" deyən və sözü şər`ən mö`təbər olmayan bir kəsin sözü ilə iftar etsə, sonra hələ məğrib olmadığını başa düşsə, ya məğrib olub-olmadığı barədə şəkk etsə, ona qəza və kəffarə vacib olar.

**Məsələ:** ١٦٨٢. Öz orucunu qəsdən batil edən bir şəxs, əgər zöhrdən sonra səfərə getsə, ya kəffarədən boyun qaçırtmaq üçün zöhrdən əvvəl səfərə çıxsa, kəffarə ondan götürülməz. Həmçinin, əqva nəzər budur ki, səfər onun üçün zöhrdən qabaq qarşıya çıxmış olsa da belə, (kəffarədən azad deyil).

**Məsələ:** ١٦٨٣. Əgər öz orucunu qəsdən batil etsə və sonra heyz, nifas, ya bir xəstəlik qarşıya çıxsa, ehtiyata əsasən, kəffarə ona vacibdir.

**Məsələ:** ١٦٨٤. Əgər Ramazan ayının əvvəli olduğuna əmin olsa, ya bu barədə arxayınlıq gəlsə, ya şahid mövcud olsa və öz orucunu qəsdən batil etsə, sonra şə`ban ayının axırı olduğu mə`lum olsa, ona kəffarə vacib deyildir.

**Məsələ:** ١٦٨٥. Əgər insan Ramazan ayının axırı, yoxsa şəvval ayının əvvəli olduğunda şəkk etsə və qəsdən orucunu batil etsə, sonra şəvvalın biri olduğu mə`lum olsa, ona kəffarə vacib deyildir.

**Məsələ:** ١٦٨٦. Əgər oruc tutan şəxs Ramazan ayının gündüzü öz arvadı ilə cima etsə, bu halda arvadını cimaya məcbur etsə, öz orucunun və ehtiyata əsasən, arvadının orucunun kəffarəsini verməlidir. Əgər

qadın cimaya razı imişsə, hər birinə bir kəffarə vacib olar.

**Məsələ:** ١٦٨٧. Əgər arvad öz oruc tutan ərini cimaya məcbur edərsə, ərinin orucunun kəffarəsini vermək ona vacib deyildir.

**Məsələ:** ١٦٨٨. Əgər oruc tutan şəxs, Ramazan ayında öz arvadını cimaya məcbur edərsə və cima əsnasında qadın razı olarsa, vacib ehtiyata əsasən, kişi ٢, qadın bir kəffarə verməlidir.

**Məsələ:** ١٦٨٩. Əgər oruc tutan şəxs Ramazan ayında özünün yatmış halında olan və oruc tutan qadını ilə cima etsə, ona bir kəffarə vacib olar; arvadın isə orucu səhihdir və ona kəffarə də vacib deyildir.

**Məsələ:** ١٦٩٠. Əgər kişi öz arvadını, ya arvad öz ərini cimadan başqa orucu batil edən bir iş görməyə vadar etsə, heç birinə kəffarə vacib deyildir.

**Məsələ:** ١٦٩١. Səfər, ya xəstəlik vasitəsilə oruc tutmayan şəxs, özünün oruc tutan arvadını cimaya vadar edə bilməz. Lakin vadar edərsə, kişiyə kəffarə vacib deyildir.

**Məsələ:** ١٦٩٢. İnsan kəffarəni yerinə yetirməkdə səhlənkar olmamalıdır. Lakin onu dərhal icra etməsi də lazım (vacib) deyildir.

**Məsələ:** ١٦٩٣. Əgər bir şəxsə kəffarə vacib olsa və onu yerinə yetirməsə, üstündən bir neçə il keçsə də ona bir şey əlavə olunmaz.

**Məsələ:** ١٦٩٤. Bir günün kəffarəsi olaraq ٦٠ fəqirə təam verməli olan şəxs, onlardan bir nəfərinə ٢ dəfə, ya artıq təam verib doyuzdura bilməz, yaxud onların hər birinə ١ müddən artıq təam verib artıq miqdarı kəffarədən hesab edə bilməz. Lakin fəqiri, onun öz ailəsi ilə kiçik də (səğir) olsalar belə, doyura bilər, bu şərtlə ki, onlar yaş cəhətdən o həddə olmalıdırlar ki, onların barəsində "təam vemək" deyilə bilsin, yaxud uşaq üçün o səğir uşağın vəlisinə bir müdd təam verə bilər.

**Məsələ:** ١٦٩٥. Ramazan ayı orucunun qəzasını tutmuş olan şəxs, əgər zöhrdən sonra, qəsdən orucu batil edən bir iş görsə, hər birinə bir müdd olmaqla, ١٠ fəqirə təam verməlidir və əgər bunu edə bilməsə, ٣ gün oruc tutmalıdır. Əhvət budur ki, bu ٣ gün ardıcıl olmalıdır.

## ORUCUN YALNIZ QƏZASI VACİB OLAN YERLƏR

**Məsələ:** ١٦٩٦. Bir neçə surətdə insana kəffarə deyil, yalnız orucun qəzası vacib olur:

١-Ramazan ayının gecəsində cünub olub, ١٦٣٨-ci məsələdə təfsilatı ilə deyildiyi kimi, sübh azanına qədər ٢-ci və ٣-cü yuxudan ayılmadıqda.

٢-Orucu batil edən bir iş görməyib, oruc niyyəti etmədikdə; ya riya etsə, ya oruc olmamasını qəsd etdikdə, ya orucu batil edəcək bir iş görməsini qəsd etdikdə.

٣-Ramazan ayında cənabət qüslü almağı unudaraq cənabətli halda bir və ya bir neçə gün oruc tutduqda.

٤-Ramazan ayında sübh olub-olmaması barədə axtarış aparmadan orucu batil edən bir iş yerinə yetirsə və sonra sübh olması mə`lum olsa. Həmçinin, axtarış apardıqdan sonra sübh olduğuna güman etdikdə, yaxud sübhün olub-olmamasında şəkk etsə və orucu batil edən bir iş görüb sonra sübh olduğu mə`lum olduqda həmin orucun qəzası ona vacibdir.

٥-Bir şəxs "sübh olmayıb" desə və insan onun sözünə əsasən orucu batil edən bir iş görsə və sonra sübh olduğu mə`lum olduqda.

٦-Bir şəxs "sübh olub" desə və insan onun sözünə əmin olmayıb, ya zarafat etdiyini güman edərək orucu batil edən bir iş yerinə yetirsə və sübh olduğu mə`lum olduqda.

٧-Kor və bu kimi bir şəxs, başqasının sözü ilə iftar etsə və sonra məğrib olmadığı mə`lum olduqda.

٨-Buludsuz hava şəraitində qaranlıq səbəbilə məğrib olduğunu yəqin edərək iftar edib, sonra hələ məğrib olmadığı mə`lum olduqda, qəza vacibdir. Lakin buludlu havada məğrib olduğunu güman edərək iftar edərsə və sonradan hələ məğrib olmadığı mə`lum olsa, qəza lazım deyildir.

٩-Sərinləmək, ya səbəbsiz olaraq məzməzə edərək – yə`ni ağzına su alıb, ağzında dolandırarkən, qeyri-ixtiyari halda udarsa qəza vacib olar. Lakin oruc olduğunu unudub suyu udsa, ya vacib namaz üçün (dəstəmaz alarkən) məzməzə etdikdə qeyri-ixtiyari halda suyu udarsa qəza vacib deyildir.

١٠-Məcburiyyət, zərurət və ya təqiyyə üzündən bir şəxs iftar etdikdə.

**Məsələ:** ١٦٩٧. Əgər sudan başqa, bir şeyi ağzına alıb onu qeyri-ixtiyari olaraq udarsa, ya suyu burnuna çəkər qeyri-ixtiyari halda udsa, ona qəza vacib deyildir.

**Məsələ:** ١٦٩٨. Oruc tutan şəxs üçün ağıza və buruna çox su çəkmək məkruhdur və istinşaq, məzməzə etdikdən sonra ağız suyunu udmaq istəsə, yaxşı olar ki, ağzının suyunu ٣ dəfə bayıra atsın.

**Məsələ:** ١٦٩٩. Əgər bir şəxs məzməzə, ya istinşaq etmək vasitəsilə qeyri-ixtiyari, ya unudaraq suyun boğazına gedəcəyini bilsə, məzməzə ya istinşaq etməməlidir.

**Məsələ:** ١٧٠٠. Əgər Ramazan ayında təhqiqat apardıqdan sonra, sübh olmadığına əmin olaraq orucu batil edən bir iş görsə və sonradan artıq sübh olduğu mə`lum olsa, qəza lazım deyildir.

**Məsələ:** ١٧٠١. Əgər bir şəxs məğrib olub-olmadığında şəkk etsə, iftar edə bilməz. Lakin sübh olub-olmamasında şəkk etdikdə, axtarışdan qabaq da orucu batil edən işlərdən yerinə yetirə bilər.

## QƏZA ORUCUNUN HÖKMLƏRİ

**Məsələ:** ١٧٠٢. Əgər dəli ağıllanarsa, dəli olduğu vaxtlardakı orucların qəzasını tutması vacib deyildir.

**Məsələ:** ١٧٠٣. Əgər kafir müsəlman olarsa, kafir olduğu vaxtlardakı orucunun qəzası ona vacib deyildir. Lakin əgər bir müsəlman kafir olarsa, kafirlik dövründə qəzaya verdiyi orucların qəzasını tutmalıdır və əgər müsəlman olsa, islam səbəbilə (qəzaları) onun boynundan düşməz.

**Məsələ:** ١٧٠٤. Məstlik vasitəsilə şəxsin tutmadığı orucları qəza etməlidir, məstliyinə səbəb olan şeyi müalicə məqsədilə istifadə etsə də belə.

**Məsələ:** ١٧٠٥. Əgər bir üzr səbəbindən bir neçə gün oruc tutmasa və sonra üzrünün nə vaxt aradan qalxdığı barədə şəkk etsə, vacib ehtiyata əsasən, oruc tutmadığını ehtimal etdiyi günlərin çox tərəfini əsas götürüb qəza etməlidir. Məsələn, Ramazan ayından qabaq səfərə gedən bir şəxs, ayın beşi, yoxsa altısı səfərdən qayıtdığını bilməsə, vacib ehtiyata əsasən, altı gün oruc tutmalıdır. Lakin üzrünün nə vaxt baş verdiyini bilməyən şəxs az tərəfi əsas götürüb onları qəza edə bilər. Məsələn, əgər Ramazan ayının sonunda səfərə gedib Ramazan ayından sonra qayıtsa və Ramazan ayının iyirmi beşi, yoxsa iyirmi altısı səfər etdiyini bilməsə, müstəhəbb ehtiyat çox tərəfi qəza etmək olsa da, az tərəfin, yə`ni beş günün qəzasını yerinə yetirə bilər.

**Məsələ:** ١٧٠٦. Əgər bir neçə Ramazan ayından qəzası qalıbsa, hansının qəzasını əvvəl tutsa maneəsi yoxdur. Ancaq sonuncu Ramazanın qəzasının vaxtı dar olsa, məsələn, sonuncu Ramazan ayından beş gün qəzası varsa və növbəti Ramazan ayına da beş gün qalıbsa, əvvəlcə sonuncu Ramazanın qəzasını tutmağı vacib ehtiyatdır.

**Məsələ:** ١٧٠٧. Əgər bir neçə Ramazan ayının qəza orucu bir şəxsə vacib olsa, (qəzasını yerinə yetirərkən) tutduğu orucun hansı Ramazan ayının orucu olduğunu müəyyən etməsi vacib deyildir – yalnız əsərdə bu ikisinin arasında ixtilaf olduğu halda tə`yin etməlidir.

**Məsələ:** ١٧٠٨. Ramazan ayının qəza orucunu tutan şəxs zöhrdən qabaq orucunu batil edə bilər. Lakin qəzanın vaxtı dar olduqda vacib-ehtiyat olaraq batil edə bilməz.

**Məsələ:** ١٧٠٩. Əgər meyyitin qəza orucunu tutmuş olsa, müstəhəbb ehtiyat budur ki, zöhrdən sonra orucu batil etməsin.

**Məsələ:** ١٧١٠. Əgər xəstəlik, heyz, ya nifas səbəbindən Ramazan ayının orucunu tutmasa və Ramazan ayı tamamlanmamış, ya tamamlanandan sonra, amma qəzanı yerinə yetirməyə imkanlı olmadan ölərsə, tutmadığı orucların qəzası yoxdur.

**Məsələ:** ١٧١١. Əgər xəstəlik səbəbinə Ramazan ayının orucunu

tutmasa və xəstəliyi sonrakı ilin Ramazan ayına qədər davam etsə, tutmadığı günlərin orucunun qəzası ona vacib deyildir və hər günün müqabilində bir müdd təam fəqirə verməlidir. Ancaq başqa bir üzrə görə, məsələn, səfərə getdiyi üçün oruc tutmazsa və növbəti Ramazan ayına qədər üzrü davam etsə, tutmadığı orucların qəzasını yerinə yetirməlidir. Vacib ehtiyat budur ki, hər bir gün üçün fəqirə bir müdd təam da versin.

**Məsələ:** ١٧١٢. Əgər bir xəstəliyə görə Ramazan ayının orucunu tutmasa və Ramazandan sonra onun xəstəliyi aradan getsə, lakin başqa bir üzr ortaya çıxsa və növbəti Ramazana qədər onun qəzasını tuta bilməsə, tutmadığı orucları qəza etməlidir. Həmçinin, əgər Ramazan ayında xəstəlikdən qeyri bir üzrü olmuş olsa və Ramazandan sonra o üzrü aradan getsə və sonrakı ilin Ramazanına kimi xəstəlik səbəbinə oruc tuta bilməsə, tutmadığı orucları qəza etməlidir. Hər iki surətdə vacib ehtiyat budur ki, (qəzaları yerinə yetirməklə yanaşı) hər gün üçün, fəqirə bir müdd təam da versin.

**Məsələ:** ١٧١٣. Əgər Ramazan ayında bir üzrə görə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan getsə və gələn Ramazana qədər qəsdən onun qəzasını tutmasa, onları qəza etməli və hər gün üçün fəqirə bir müdd təam verməlidir.

**Məsələ:** ١٧١٤. Əgər qəza orucunu tutmaqda səhlənkarlıq etsə və vaxt darlaşsa və vaxtın darlığında bir üzr ortaya çıxsa, qəzaları yerinə yetirib, hər bir gün üçün də fəqirə bir müdd təam verməlidir. Həmçinin, əgər üzrlü olduğu vaxt, üzrü aradan qalxandan sonra qəzasını tutacağını qərara alsa, lakin onları qəza etməmiş vaxtın darlığına bir üzr ortaya çıxarsa, orucları qəza etməli və hər gün üçün vacib ehtiyata əsasən, fəqirə bir müdd təam da verməlidir.

**Məsələ:** ١٧١٥. Əgər insanın xəstəliyi bir neçə il uzansa, sağalandan sonra, sonuncu Ramazan ayının qəzasını tutmalıdır, əvvəlki illərin (Ramazanın) hər günü üçün fəqirə bir müdd təam verməlidir.

**Məsələ:** ١٧١٦. Hər gün üçün fəqirə bir müdd təam verməli olan şəxs, bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.

**Məsələ:** ١٧١٧. Əgər Ramazan ayının orucunun qəzasını tutmağı bir neçə il tə`xirə salsa, qəzaları tutmalı və birinci ildə (qəzanı) tutmağı gecikdirdiyi üçün hər gün üçün fəqirə bir müdd təam verməlidir. Amma sonrakı illəri tə`xirə saldığı üçün ona heç bir şey vacib deyildir.

**Məsələ:** ١٧١٨. Əgər Ramazan ayının orucunu qəsdən tutmasa, onun qəzasını yerinə yetirməli və hər gün müqabilində ya bir qul azad etməli, ya altımış fəqirə təam verməli (doyuzdurmalı), ya da iki ay oruc tutmalıdır. Əgər gələn Ramazana qədər tutmadığı günlərin qəzasını yerinə yetirməsə, hər bir gün üçün fəqirə bir müdd təam verməlidir.

**Məsələ:** ١٧١٩. Əgər Ramazan ayının orucunu qəsdən tutmasa və

gün ərzində təkrar olaraq cima ya istimna etsə, vacib ehtiyata əsasən, kəffarə də təkrar olar. Lakin əgər orucu batil edən başqa bir işi gün ərzində bir neçə dəfə yerinə yetirsə, məsələn, bir neçə dəfə yemək yesə, bir kəffarə kifayətdir.

**Məsələ:** ١٧٢٠. Ata öldükdən sonra, böyük oğul onun qəza oruclarını ١٣٩٨-ci məsələdə təfsilatı ilə deyilmiş qayda üzrə yerinə yetirlməlidir.

**Məsələ:** ١٧٢١. Əgər atanın Ramazan ayından başqa, tutmadığı vacib olan digər bir orucu – nəzr orucu kimi – qalmış olsa, böyük oğulun onu qəza etməsi vacibdir. Ancaq ata oruc tutmaq üçün əcir olmuş və onu yerinə yetirməmişdirsə onun qəzası böyük oğula lazım deyil.

## MÜSAFİRİN ORUCUNUN HÖKMLƏRİ

**Məsələ:** ١٧٢٢. Dörd rükətli namazlarını səfərdə olarkən iki rükət qılmalı olan müsafir, oruc tutmamalıdır. Amma məşğuliyyəti, işi – peşəsi səfər olan, ya səfəri günah səfəri olan şəxs kimi, namazlarını tamam qılmalı olan müsafir, səfərdə oruc tutmalıdır.

**Məsələ:** ١٧٢٣. Ramazan ayında səfərə çıxmağın eybi yoxdur. Ancaq oruc tutmaqdan boyun qaçırmaq üçün olmasa da, məkruhdur. Zərurət səbəbinə səfərə çıxmaq və ya bə`zi rəvayətlərə əsasən, həcc ya ümrə səbəbinə səfər etmək istisnadır.

**Məsələ:** ١٧٢٤. Əgər Ramazan ayından başqa, vaxtı müəyyən olan digər bir oruc insana vacib olsa, bu halda həmin vaciblik «həqqunnas» səbəbindən olsa, məsələn, müəyyən olunmuş bir günü oruc tutmağa əcir olmuş olsa, həmin gün səfərə çıxa bilməz. Həmçinin, vacib ehtiyata əsasən, nəzirdən başqa səbəblə müəyyən bir günü oruc tutmalı olan şəxs də məsələn, e`tikafın üçüncü günü kimi, həmin gün səfərə çıxa bilməz. Ancaq nəzir etmək səbəbinə müəyyən bir gün oruc tutması vacib olduğu surətdə əqva budur ki, səfər edə bilər və başqa bir günü onun yerinə oruc tuta bilər.

**Məsələ:** ١٧٢٥. Əgər oruc tutacağını nəzir edib onun gününü tə`yin etməsə, onu səfərdə tuta bilməz. Amma səfərdə müəyyən bir günü oruc tutacağını nəzir etmiş olsa, onu səfərdə olarkən yerinə yetirməlidir. Eləcə də müsafir olub-olmamasından asılı olmayaraq müəyyən bir günü oruc tutacağını nəzir etsə, həmin günü səfərdə olmuş olsa da belə, oruc tutmalıdır.

**Məsələ:** ١٧٢٦. Müsafir hacət istəmək üçün Mədineyi-Təyyibədə üç gün müstəhəbb oruc tuta bilər və ehtiyat vacib budur ki, o günlər çərşənbə, cümə axşamı və cümə günündən ibarət olsun.

**Məsələ:** ١٧٢٧. Müsafirin orucunun batil olduğunu bilməyən şəxs, əgər səfərdə oruc tutsa və gün ərzində bunu başa düşsə, orucu batil olar. Əgər məğribə kimi məsələsini başa düşməsə, orucu səhihdir.

**Məsələ:** ١٧٢٨. Əgər müsafir olduğunu, ya müsafirin orucunun batil olduğunu unudub səfərdə oruc tutsa onun orucu batildir.

**Məsələ:** ١٧٢٩. Əgər oruc tutan şəxs zöhrdən sonra səfərə çıxsa, orucunu tamamlamalıdır. Əgər zöhrdən əvvəl səfərə çıxsa, həddi-tərəxxüsə yetişdikdən sonra orucu batil olur və əgər bu həddə çatmazdan öncə orucu batil edən bir iş yerinə yetirsə, ona kəffarə vacib olar.

**Məsələ:** ١٧٣٠. Əgər müsafir Ramazan ayında – istər sübhdən qabaq səfərdə olsun, istərsə oruc olan halda səfərə çıxsın – zöhrdən qabaq öz vətəninə, ya on gün qalmaq istədiyi bir yerə çatsa və orucu batil edən bir iş yerinə yetirməmiş olsa, həmin günü oruc tutmalıdır. Əgər bu işləri yerinə yetirmiş olsa həmin günün orucu batil olar.

**Məsələ:** ١٧٣١. Əgər müsafir zöhrdən sonra vətəninə, ya on gün qalmaq istədiyi bir yerə çatsa, həmin günün orucu səhih deyildir.

**Məsələ:** ١٧٣٢. Müsafirin və oruc tutmaqda üzrü olan bir şəxsin Ramazan ayının günlərində cima etməsi və yemək-içməklə özünü tam doydurması məkruhdur.

## ORUC TUTMAQ VACİB OLMAYAN ŞƏXSLƏR

**Məsələ:** ١٧٣٣. Qocalıq səbəbinə oruc tuta bilməyən və ya oruc tutmağın məşəqqəti olan şəxsdən oruc götürülür. İkinci surətdə hər gün üçün (fəqirə) fidyə verməlidir və fidyə bir müdd təamdır. Müstəhəbb ehtiyat budur ki, fidyə məxsusən buğdadan olsun.

**Məsələ:** ١٧٣٤. Qocalığa görə oruc tutmayan şəxs, əgər Ramazan ayından sonra oruc tuta bilərsə, tutmadığı orucların qəzası yoxdur.

**Məsələ:** ١٧٣٥. Əgər bir şəxsdə susuzluq xəstəliyi olsa və susuzluğa dözə bilmirsə və ya ona məşəqqəti varsa oruc ondan götürülüb. Lakin ikinci surətdə (məşəqqətə görə) hər gün üçün fəqirə bir müdd təam verməlidir və müstəhəbb ehtiyat budur ki, məcbur olduğu qədərdən artıq su içməsin. Əgər Ramazandan sonra oruc tuta bilsə, tutmadığı orucların qəzası yoxdur.

**Məsələ:** ١٧٣٦. Doğum vaxtı yaxınlaşan qadının oruc tutması hamilə olduğu uşağa və ya özünə zərəri olarsa, onun oruc tutması səhih deyildir. Birinci (uşağa zərəri olan) surətdə hər gün üçün fəqirə bir müdd təam verməlidir. Həmçinin, müstəhəb ehtiyata görə, ikinci surətdə də eynilə; və tutmadığı orucların qəzasını tutmalıdır.

**Məsələ:** ١٧٣٧. Uşağa süd verən və südü az olan qadın, istər uşağın öz anası olsun, istərsə də anasından qeyrisi, istər muzdla süd versin, istərsə də muzdsuz süd versin, əgər oruc tutmaq süd verdiyi uşağa, yaxud onun özünə zərər vuracaqsa, onun orucu səhih deyildir. Birinci surətdə hər gün üçün fəqirə bir müdd təam verməlidir, həmçinin, müstəhəbb ehtiyata əsasən, ikinci surətdə də (yalnız özünə zərər olacağı təqdirdə) hər günün müqabilində bir müdd təam fəqirə verməli və

tutmadığı orucların qəzasını da tutmalıdır. Bu hökm o surətə şamil olar ki, o uşağın bundan başqa süd yemək vasitəsi olmasın, əgər başqa yolla uşağın süd yeməsi mümkün olarsa, o qadının oruc tutması vacibdir.

## AYIN ƏVVƏLİNİN SABİT OLMA YOLU

**Məsələ:** ١٣٧٨. Ayın əvvəli bir neçə şeylə sabit olar:

١-İnsanın özünün ayı görməsilə.

٢-Sözlərindən əminlik, ya arxayınlıq hasil olan bir dəstə şəxsin «ayı gördük» deməsilə; və həmçinin, əminlik ya arxayınlıq gətirən hər bir şeylə də sabit olur.

٣-İki nəfər adil kişinin bir gecədə «ayı gördük» deməsilə. Lakin ayın xüsusiyyətini biri-digərindən fərqli olaraq söyləsələr, ayın əvvəli sabit olmaz. Həmçinin, həmin iki nəfərin sözü təsdiq ediləsi olmasa, məsələn, ayı görmək üçün axtarış aparanlar çox və hava saf, açıq olsa və bu iki nəfərdən başqaları diqqətlə axtararaq ayı görməsələr ayın əvvəli sabit olmaz.

٤-Şə`ban ayının əvvəlindən otuz günün keçməsilə Ramazan ayının əvvəli və Ramazan ayının əvvəlindən otuz gün keçməklə şəvval ayının əvvəli sabit olur.

**Məsələ:** ١٧٣٩. Ayın əvvəlinin şəriət hakiminin hökmü ilə sabit olması məhəlli-işkaldır.

**Məsələ:** ١٧٤٠. Ayın əvvəli münəccimlərin (astronomun) sözü ilə sabit olmaz. Lakin insan onun sözündən əminlik, ya arxayınlıq əldə etsə, ona əməl etməlidir.

**Məsələ:** ١٧٤١. Ayın (günün batdığı yerə nisbətən) hündürdə olması, ya gec batması ötən gecənin ayın birinci gecəsi olmasına dəlil ola bilməz. Lakin ay zöhrdən qabaq görünmüş olsa, həmin gün ayın birinci günü hesab olunar. Ayın qövsünün ətrafında dairəvi şəkildə işıqlı kölgənin olması ilə ayın əvvəlinin sübuta yetməsi məhəlli-işkaldır.

**Məsələ:** ١٧٤٢. Əgər bir şəxs üçün Ramazan ayının əvvəli sabit olmasa və oruc tutmasa, bu halda sonradan ötən gecə ayın birinci gecəsi olduğu sabit olsa, həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ:** ١٧٤٣. Əgər bir şəhərdə ayın əvvəli sübuta yetsə, onunla gecənin çox miqdarında müştərək olan digər şəhərlərdə də – istər uzaq olsunlar, istərsə də yaxın; istər (şər`i) üfüqdə müştərək olsunlar, istərsə də yox – sübuta yetir. Bundan qeyri hallarda (gecənin çox miqdarında müştərək olmasalar) orada (digər şəhərlərdə) ayın əvvəlinin sübuta yetməsi məhəlli-işkaldır.

**Məsələ:** ١٧٤٤. Teleqraf vasitəsilə ayın əvvəli sabit olmaz. Ancaq insan teleqrafın höccət əsasında olduğunu bilsə (olar).

**Məsələ:** ١٧٤٥. Ramazan ayının axırı, yoxsa şəvvalın əvvəli olduğunu bilməyən şəxs həmin gün oruc tutmalıdır. Ancaq məğribdən

qabaq şəvvalın əvvəli olduğunu başa düşsə, iftar etməlidir (orucu açmalıdır).

**Məsələ:** ١٧٤٦. Zindanda olan şəxsin Ramazan ayının olmasını öyrənməyə yolu olmasa, müyəssər olan hər hansı yolla gümana əməl etməlidir. Əgər bu da mümkün olmasa, hansı ayın Ramazan ayı olduğunu ehtimal edib oruc tutsa orucu səhihdir, ancaq oruc tutduğu aydan on bir ay keçəndən sonra yenidən bir ay oruc tutmalıdır. Əgər bundan sonra güman etdiyi, ya seçdiyi ayın Ramazan ayı olmadığı aşkar olsa, bu halda oruc tutduğu aydan əvvəlki ayın Ramazan olduğu mə`lum olsa, bu kifayətdir. Əgər oruc tutduğu aydan sonrakının Ramazan olduğu mə`lum olsa, qəzasını tutmalıdır.

## HARAM VƏ MƏKRUH OLAN ORUCLAR

**Məsələ:** ١٧٤٧. Fitr və qurban bayramlarında oruc tutmaq haramdır. Həmçinin, insan şə`ban ayının axırı, yoxsa Ramazanın əvvəli olduğunu bilmədikdə, əgər Ramazan ayının əvvəli niyyətilə oruc tutsa, haramdır.

**Məsələ:** ١٧٤٨. Əgər qadının müstəhəbb oruc tutması ərinin haqqına xələl gətirəcəksə, oruc tutmamalıdır. Müstəhəbb ehtiyata əsasən, əgər ərinin haqqı aradan getməsə də, onun icazəsi olmadan müstəhəbb oruc tutmasın.

**Məsələ:** ١٧٤٩. Övladın müstəhəbb oruc tutması ata-anasına əziyyətə səbəb olacaqsa, haramdır.

**Məsələ:** ١٧٥٠. Əgər övlad atasının icazəsi olmadan müstəhəbb oruc tutsa və gün əsnasında atası ona oruc tutmağı qadağan etsə, bu halda onun müxalifət etməsi ataya əziyyətə səbəb olacaqsa, gərək orucu açsın. Həmçinin, əgər anası da qadağan etsə və onunla müxalifət ananın əziyyətinə səbəb olacaqsa, eyni hökmü daşıyır.

**Məsələ:** ١٧٥١. Orucun ona zərəri olmadığını bilən şəxsə əgər həkim «zərəri var» desə də, oruc tutmalıdır. Oruc tutmağın nəzərə çarpacaq dərəcədə zərər verəcəyini yəqin ya güman edən, yaxud mənşəyi aqil insanların nəzərində yetərli zərər qorxusu olduğu halda həkim «zərərli deyil» desə də, oruc tutmamalıdır. Əgər oruc tutsa səhih deyildir. Ancaq orucun ona zərəri olmasa və qürbət (Allahın əmrini yerinə yetirmək) qəsdilə oruc tutduğu təqdirdə orucu səhihdir.

**Məsələ:** ١٧٥٢. Əgər insan orucun ona nəzərə çarpacaq bir zərər verəcəyini ehtimal etsə və o ehtimaldan qorxu hasil olsa, bu halda onun ehtimalı əql sahiblərinin nəzərində yetərli ehtimal olsa, oruc tutmamalıdır və əgər oruc tutsa batildir. Amma əgər zərəri olmasa və qürbət qəsdilə oruc tutsa, səhihdir.

**Məsələ:** ١٧٥٣. Əgər bir şəxs orucun ona nəzərə çarpacaq dərəcədə zərər verməyəcəyinə e`timad bəsləyərək oruc tutsa və məğribdən sonra

orucun ona nəzərə çarpacaq dərəcədə zərər verdiyini bilsə, (sonradan) onun qəzasını yerinə yetirməlidir.

**Məsələ:** ١٧٥٤. Deyilmiş oruclardan başqa, digər haram oruclar da vardır ki, müfəssəl kitablarda qeyd olunmuşdur.

**Məsələ:** ١٧٥٥. Vacib ehtiyata əsasən, Aşura günü oruc tutmaq caiz deyildir. Həmçinin, Ərəfə, yoxsa qurban bayramı günü olmasında şəkk olunan gün oruc tutmaq məkruhdur.

## MÜSTƏHƏB ORUCLAR

**Məsələ:** ١٧٥٦. Qeyd olunmuş haram və məkruh oruclardan başqa, ilin bütün günlərində oruc tutmaq müstəhəbbdir. Bə`zi günlərdə oruc tutmaq haqqında çoxlu tövsiyələr olunmuşdur, o cümlədən:

١ – Hər (qəməri) ayın birinci və sonuncu cümə axşamı günü və ayın onundan sonra birinci çərşənbə günü. Əgər bir şəxs onları yerinə yetirməsə, qəza etməsi müstəhəbbdir. Əgər ümumiyyətlə oruc tuta bilməsə, oruc tutmadığı hər günün müqabilində fəqirə bir müdd təam, ya ١٢,٦ noxud qədəri sikkəli gümüş verməsi müstəhəbbdir.

٢ – Hər (qəməri) ayın on üçüncü, on dördüncü, on beşinci günləri;

٣ – Rəcəb və şə`ban ayının hamısını, yaxud bu iki ayın bir qismini, hətta bir gününü də olsa belə;

٤ – Novruz bayramı günü;

٥ – Şəvval ayının dördündən doqquzuna qədər;

٦ – Zilqə`də ayının iyirmi beşinci və iyirmi doqquzuncu günləri;

٧ – Zilhiccə ayının birindən doqquzuna (Ərəfə gününə) qədər. Amma əgər orucluqdan yaranan zəifliyə görə Ərəfə gününün dualarını oxuya bilməsə, o günün orucu məkruhdur;

٨ – Qədir-Xum bayramı günü (١٨-i zilhiccə);

٩ – Mübahilə günü (٢٤-ü zilhiccə);

١٠ – Məhərrəm ayının bir, üç və yeddinci günləri;

١١ – Peyğəmbərin (səlləllahu əleyhi və alih) mübarək mövlud günü (١٧ rəbiul-əvvəl)

١٢ – Cəmadiəl-əvvəl ayının ١٥-i

١٣ – Həzrəti Rəsuli Əkrəmin (səlləllahu əleyhi və alih) məb`əs günü (٢٧ rəcəb).

Əgər bir şəxs müstəhəbb oruc tutsa, onu tamamlaması vacib deyildir. Hətta mö`min qardaşı onu yeməyə də`vət etsə, onun də`vətini qəbul etməsi və zöhrdən sonra olsa da gün əsnasında orucunu açması müstəhəbbdir.

## ORUCU BATİL EDƏN İŞLƏRDƏN ÇƏKİNMƏYİN MÜSTƏHƏBB OLAN YERLƏRİ

**Məsələ:** ١٧٥٧. Oruc olmasalar da belə, bir neçə nəfərin özlərini

Ramazan ayında orucu batil edən işlərdən saxlamaları müstəhəbbdir:

١ – Səfərdə olarkən orucu batil edən bir işi yerinə yetirən və zöhrdən qabaq vətəninə, ya on gün qalmaq istədiyi bir yerə çatan müsafir.

٢ – Zöhrdən sonra öz vətəninə, ya on gün qalmaq istədiyi bir yerə çatan müsafir.

٣ – Zöhrdən sonra sağalan, həmçinin, zöhrdən qabaq sağalan və orucu batil edən bir işi görmüş olan xəstə şəxs.

٤ – Gün əsnasında heyz və ya nifas qanından pak olan qadın.

**Məsələ:** ١٧٥٨. Müstəhəbbdir ki, oruc tutan şəxs məğrib və işa namazlarını iftardan əvvəl qılsın. Lakin əgər bir kəs onu gözləyirsə və ya yeməyə çox meylli olduğu üçün hüzuri-qəlblə namaz qıla bilmirsə, əvvəlcə iftar etməsi daha yaxşıdır, ancaq namazı mümkün qədər fəzilətli vaxtında qılsın.

# E`TİKAFIN HÖKMLƏRİ

E`tirkaf ibadətlərdəndir, şər`ən e`tikaf buna deyilir ki, qürbət qəsdi ilə məsciddə qalsınlar. Ehtiyat müstəhəb budur ki, məsciddə iqamət seçmək namaz kimi bir ibadətin yerinə yetirilməsi qəsdi ilə olsun. Onun üçün hər hansı bir vaxt tə`yin olunmamışdır, oruc tutmaq səhih olan hər bir zamanda e`tikaf da səhihdir.

**Məsələ:** ١٧٥٩. E`tikafda aşağıdakı işlər və əməllər şərtdir:

١-E`tikaf edən şəxs aqil olsun; müməyyiz uşağın e`tikaf etməsi də səhihdir.

٢-Dəstəmazda deyilən qürbət qəsdi ilə olsun;

٣-Oruc tutmaq; deməli, orucu batil olan şəxs, misal üçün, on gün qalmaq qəsdi etməyən müsafir kimi, e`tikaf bağlaya bilməz.

٤-E`tikaf Məscidul-Həram, Məscidun-Nəbi (səlləllahu əleyhi və alih), Kufə məscidi, yaxud Bəsrə məscidi, yaxud Came məscidində olmalıdır.

٥-İzni mö`təbər (şərt) sayılan şəxsin izni ilə olsun. Deməli, ərinin izni olmadan qadının e`tikaf bağlaması, ərinin haqqı ilə ziddiyyətli olduğu tərzdə, səhih deyildir.

٦-E`tikaf bağladığı məsciddə arasında iki gecə vasitə olmaqla üç gün müddətində qalmış olsun. Bu müddət ərzində yalnız zəruri işlər üçün məsciddən çıxmalı və başqa işlər üçün çıxmamalıdır. E`tikaf bağlayan şəxs xəstənin görüşünə getmək, cənazənin dəfn mərasimində iştirak etmək, meyyitin qüsl, namaz və dəfn kimi işləri üçün məsciddən çıxa bilər. Məsciddən çıxmağın caiz olduğu hallarda o işin yerinə yetirilməsi üçün lazım olan vaxtdan artıq məsciddən kənarda qalmamalıdır. Vacib ehtiyata görə, məscidə ən yaxın yolla qayıtmalı və məsciddən kənarda oturmamalıdır; əgər oturmaq üçün çarəsiz olsa, imkan daxilində kölgədə oturmasın.

**Məsələ:** ١٧٦٠. E`tikafa başlayandan sonra, o e`tikaf müəyyən olunan vacib etikafdan, misal üçün, müəyyən zamanda nəzir edilən vacib e`tikafdan olmazsa, iki gün keçməyənə qədər e`tikafdan dönə və onu poza bilər. Lakin niyyət edən zaman şərt etmiş olsa ki, əgər onun üçün hər hansı bir hadisə baş verəcəyi surətdə e`tikafdan dönsün, onda iki gün keçəndən sonra da e`tikafdan dönə bilər.

**Məsələ:** ١٧٦١. E`tikaf edən şəxs müəyyən işlərdən çəkinməlidir ki, həmin işlərin görülməsi e`tikafı batil edir. Lakin – cimadan başqa –

onlardan çəkinmək müəyyən vacib olmayan e`tikafda ehtiyata əsasəndir:

١-Cima; vacib ehtiyata əsasən istimna, qadına şəhvətlə əl vurub toxunmaq və öpməkdən də çəkinsin;

٢-Ətirli şeyləri iyləmək;

٣-Alver; belə ki, e`tikafı batil edir, lakin müamilənin özü batil olmaz. Vacib ehtiyata əsasən müsalihə, müzaribə, icarə və s. yolu ilə olan hər növ ticarətdən də çəkinməlidir. Əgər hər hansı bir şeyin alverinə məcbur olsa və vəkil tuta bilməsə, onda caizdir.

٤- İstər din, istərsə də dünya işlərindən olan hər hansı bir işdə qarşı tərəfə qələbə çalmaq və fəzilət izhar etmək məqsədi ilə bəhs və mücadilə etmək.

**Məsələ:** ١٧٦٢. Əgər vacib e`tikaf halında qəsdən cima etsə, istər gündüz olsun, istərsə də gecə, ona kəffarə vacib olar. Kəffarəsi də budur ki, ya bir qul azad etsin, ya iki ay ardıcıl oruc tutsun, yaxud da altmış miskinə təam verib doyuzdursun.

Cimadan başqa çəkinməsi vacib olan işlərdən hər hansı birinə mürtəkib olsa kəffarə vacib deyildir.

**Məsələ:** ١٧٦٣. Əgər e`tikaf edən şəxs e`tikafı batil edən işlərdən birini səhvən yerinə yetirsə, e`tikafın səhih olması məhəlli-işkaldır.

**Məsələ:** ١٧٦٤. Əgər e`tikafı yuxarıda qeyd edilən işlərdən biri ilə batil etsə, bu halda e`tikaf, vaxtı müəyyən olunmayan vacib e`tikafdırsa, misal üçün, e`tikafı müəyyən vaxtı təyin etmədən nəzir etmiş ola – yenidən yerinə yetirməlidir. Əgər vaxtı müəyyən olan vacib etikafdırsa, misal üçün, müəyyən bir gündə və vaxtda e`tikaf edəcəyini nəzr etmişdirsə, yaxud da e`tikaf müstəhəb olsa və o batil edən əməlin yerinə yetirilməsi iki gündən sonra olarsa, vacib ehtiyata görə e`tikafın qəzasını etməlidir. Əgər müstəhəbb e`tikafda, iki gündən qabaq batil edərsə, qəzası yoxdur.

**Məsələ:** ١٧٦٥. Bir e`tikafdan digər e`tikafa keçmək caiz deyildir; istər hər ikisi vacib olsun, misal üçün, birini nəzr etməklə, digərini isə and içməklə özünə vacib etmiş olsun; istərsə də hər ikisi müstəhəb, yaxud biri vacib, digəri isə müstəhəb; yaxud, birini özü üçün, digərini isə başqasına niyabətən və ya icarə olaraq; yaxud hər ikisini başqası tərəfindən niyabət olaraq öhdəsinə götürmüş olsun.

**Məsələ:** ١٧٦٦. Əgər e`tikaf edən şəxs qəsbi xalça-palazın üstündə otursa, günah etmişdir; amma e`tikafı batil olmur. Amma bir şəxs tez gəlib özünə bir yerdə yer tutsa və e`tikaf edən şəxs o yeri ondan razılığı olmadan alarsa, onun həmin yerdəki e`tikafı batildir.

**Məsələ:** ١٧٦٧. Əgər e`tikaf edən şəxsə qüsl vacib olarsa, bu halda məsciddə qüsl etməsinə bir maneçilik olmazsa, misal üçün, məssi-meyyit qüslü kimi, onda məsciddən xaric olması caiz deyildir. Maneəsi

olarsa, misal üçün, cənabətli halda məsciddə qalmağı lazım tutan cənabət qüslü kimi; onda oradan xaric olmalıdır, əks halda e`tikafı batil olur.

## XÜMSÜN HÖKMLƏRİ

**Məsələ:** ١٧٦٨. Xüms yeddi şeydə vacibdir:
١. Kəsb qazancı;
٢. Mə`dən;
٣. Xəzinə;
٤. Harama qarışmış olan halal mal;
٥. Suya baş vurmaqla çıxarılan cəvahirat;
٦. Müharibə qəniməti;
٧. Zimmi kafirin müsəlmandan aldığı yer.
Bunların hökmləri sonrakı məsələlərdə deyiləcək.

***١-Kəsb qazancı***

**Məsələ:** ١٧٦٩. Əgər insan ticarətdən, sənətkarlıqdan, ya digər əmək sahələrindən qazanc əldə etsə, hətta məsələn, meyyitin namaz və orucunu tutaraq zəhmət haqqı almaqla olsa belə, bu qazanc özünün və ailəsinin illik xərcindən artıq qalsa onun xümsünü – yə`ni beşdə bir hissəsini sonradan deyiləcək qaydaya əsasən verməlidir.

**Məsələ:** ١٧٧٠. Əgər kəsb-ticarət qazancdan başqa bir mal əldə etmiş olsa, məsələn, ona bir şey bağışlasalar, bu halda həmin hədiyyənin camaat arasında nəzərə çarpacaq dərəcədə qiyməti olsa və illik xərcindən artıq gəlsə, onun xümsünü verməlidir.

**Məsələ:** ١٧٧١. Qadının mehriyyəsi və kişinin xül` talaqının əvəzi olaraq aldığı malın xümsü yoxdur. Həmçinin, insana çatan irsin də xümsü yoxdur. Amma, məsələn, bir kəslə qohum olduğu halda ondan irs aparmaq gümanı yox imişsə, illik xərcindən artıq qaldığı təqdirdə irsin xümsünü verməlidir.

**Məsələ:** ١٧٧٢. Əgər xümsə əqidəsi olan bir şəxsdən ona bir şey irs yetişsə və irs qoyanın həmin malın xümsünü vermədiyini bilsə, gərək şəriət hakiminin icazəsilə o malın xümsünü versin. Əgər o malın özündə xüms olmasa, lakin varis, irs qoyan şəxsin xüms borcu olduğunu bilsə, həmin xüms irs qoyanın digər borcları kimi, o mala əlaqələnir və nə qədər ki, ödənməyib, (varisin) o maldan istifadə etmək haqqı yoxdur. Xümsü o maldan götürmək istəsə, gərək şəriət hakimindən icazə alsın.

**Məsələ:** ١٧٧٣. Əgər qənaət etməklə insanın illik xərcindən bir şey artıq qalsa gərək onun xümsünü versin.

**Məsələ:** ١٧٧٤. Xərclərinin hamısını başqası tə`min edən şəxs,

əlinə gələn bütün malın xümsünü verməldir.

**Məsələ:** ١٧٧٥. Əgər bir mülkü müəyyən şəxslərə, məsələn, öz övladına vəqf etsə, onlar da o mülkdə əkinçilik və ağac əkib bir şey əldə etsələr, illik xərclərindən artıq qalan surətdə onun xümsünü verməlidirlər. Həmçinin, o mülkdən başqa bir yolla mənfəət əldə etsələr, məsələn, icarəyə versələr, illik xərclərindən artıq qalanının xümsünü verməlidirlər.

**Məsələ:** ١٧٧٦. Əgər fəqirin xüms, zəkat ünvanı ilə əldə etdiyi mal illik xərcindən artıq qalsa, vacib ehtiyata əsasən, onun xümsünü verməlidir. Əgər ona verilmiş maldan mənfəət əldə etsə, məsələn, xüms ünvanı ilə ona verilmiş ağacdan meyvə əldə etsə və illik xərcindən artıq qalsa onun xümsünü verməlidir. Eləcə də bir kəsə sədəqə ünvanı ilə bir mal versələr, onun illik xərcindən artıq qalsa (artığın) xümsünü verməlidir.

**Məsələ:** ١٧٧٧. Əgər xümsü verilməmiş pulun eyni ilə bir şey alsa, yə`ni satıcıya «bu malı bu pul ilə alıram» desə, bu halda əgər şəriət hakimi onun ١/٥- nin alverinə icazə versə, alver səhihdir və alıcı həmin şeyin ١/٥-ni şəriət hakiminə verməlidir. Əgər şəriət hakimi icazə verməsə alverin o miqdarı (١/٥-i) batildir. Bu halda əgər satıcının aldığı pul aradan getməmişdirsə, şəriət hakimi həmin pulun xümsünü götürməli; yox əgər pul aradan getmiş olsa, şəriət hakimi onun əvəzini alıcıdan, ya satıcıdan almalıdır.

**Məsələ:** ١٧٧٨. Əgər bir şəxs bir malı zimməsində alıb və müamilədən sonra onun qiymətini xümsü verilməmiş puldan verərsə, etdiyi alver səhihdir və o pulun ١/٥-ni satıcıya borclu qalır. Satıcıya verdiyi pul əgər aradan getməmişdirsə, şəriət hakimi onun ١/٥-ni götürər və əgər aradan getmiş olsa, onun əvəzini alıcıdan, ya satıcıdan tələb edər.

**Məsələ:** ١٧٧٩. Əgər xümsü verilməmiş bir mal alsa, bu halda şəriət hakimi onun ١/٥-nin alverinə icazə verməsə, o miqdarın alveri batildir və şəriət hakimi o malın ١/٥-ni götürə bilər. Əgər icazə versə, alver səhihdir və alıcı onun ١/٥-nin əvəzini şəriət hakiminə verməlidir. Əgər satıcıya vermiş olsa, ondan geri ala bilər.

**Məsələ:** ١٧٨٠. Əgər xümsü verilməmiş bir şeyi başqasına bağışlasa, onun ١/٥-i ona nəql olunmur.

**Məsələ:** ١٧٨١. Əgər kafirdən, ya xüms verməyə əqidəsi olmayan bir kəsdən on iki İmam şiəsi olan bir şəxsin əlinə bir mal gəlsə, onun xümsünü vermək vacib deyildir.

**Məsələ:** ١٧٨٢. Tacir, işçi, sənətkar və bu kimi işlərlə məşğul olub mənfəət əldə etdikləri vaxtdan – bu, onların xüms ilinin əvvəlidir – bir il keçdikdən sonra, illik xərclərindən artıq qalanının xümsünü verməlidirlər. İşi kəsb-ticarət olmayan bir şəxs əgər təsadüfən bir

mənfəət əldə etsə, fayda götürdüyü vaxtdan bir il keçdikdən sonra, illik xərcindən artıq qalan miqdarın xümsünü verməlidir.

**Məsələ:** ١٧٨٣. İnsan il ərzində hər vaxt mənfəət əldə etsə və o, illik xərcindən artıq qalsa, elə həmin vaxtda onun xümsünü verə bilər. Həmçinin, onu ilin axırına kimi tə`xirə salması da caizdir. Vacib ehtiyata əsasən, xüms ili qəməri il ilə tə`yin olunmalıdır.

**Məsələ:** ١٧٨٤. Xüms ili tə`yin etmiş olan tacir kimi bir şəxs əgər mənfəət əldə edərək (xüms ili tamam olmamış) il əsnasında ölsə ölənə qədərki xərclərini həmin mənfəətdən çıxıb, qalanının xümsünü verməlidirlər.

**Məsələ:** ١٧٨٥. Əgər ticarət üçün aldığı malın qiyməti il ərzində qalxarsa və onu satmasa, ili tamam olmamış qiyməti aşağı düşsə, qiyməti qalxan vaxtdakı xümsü ona vacib deyildir.

**Məsələ:** ١٧٨٦. Əgər ticarət üçün aldığı malın qiyməti artmış olsa və qiymətin daha da artması ümidilə onu ili tamam olandan sonraya qədər satmazsa və qiyməti düşərsə, bu halda ticarətçilər arasında adətən olan qədərdə onu saxlamış olsa, qalxan qədərin xümsü ona vacib deyildir. Amma üzrsüz olaraq adətən saxlanılan qədərdən artıq saxlasa vacib ehtiyata əsasən, o qədərin (artan miqdarın) xümsünü verməlidir.

**Məsələ:** ١٧٨٧. Əgər ticarət malından başqa, bir malı olsa ki, onun xümsü olmasa, irs yolu ilə ona yetişdiyi surətdə qiyməti qalxsa, onu satsa da belə, qiymətinə əlavə olunan qədərin xümsü yoxdur. Həmçinin, əgər heç bir alver olmadan (əvəz ödəmədən) bir şeyə malik olsa, istər həmin şeyin əvvəlcədən xümsü olmasın, məsələn, ehtiyacı olduğu halda ona məskən bağışlasalar və illik xərcini tə`min etmək üçün sərf olunsun, istərsə də xümsü olan şey olsun və onun xümsünü həmin maldan vermiş olsun, məsələn, hiyazət yolu ilə (sahibi olmayan yerə, ov heyvanını və s.yə sahib olmaq) malik olub onun xümsünü vermiş olsun. Lakin, əgər alqı-satqı yolu ilə bir şeyə malik olsa, bu halda onun qiyməti bahalaşsa nə qədər ki, satmayıb xümsü yoxdur. Əgər satsa, xərci olmadığı surətdə qiymətin artan hissəsinin xümsünü verməlidir. Hər iki halda, əgər illik xərclərə sərf olunsa, xümsü yoxdur.

**Məsələ:** ١٧٨٨. Əgər qiyməti qalxandan sonra satmaq məqsədilə bir bağ salsa, ağacların meyvə və artımının və ehtiyata əsasən, bağın qiymət artımının xümsünü verməlidir. Əgər onun meyvəsi ilə ticarət etmək qəsdi olsa, meyvə və ağacların artımının xümsünü verməlidir. Ancaq onun meyvəsindən şəxsi istifadə etmək məqsədində olsa, yalnız istifadəsindən artıq qalan halda ağacların meyvəsinin xümsünü verməlidir.

**Məsələ:** ١٧٨٩. Əgər bir şəxs söyüd, çinar və bu kimi ağaclar əkərsə, ağacların xümsünü verdiyi surətdə, hər il onların artımının xümsünü də verməlidir. Həmçinin əgər, məsələn, adətən hər il ağacın

kəsilən budaqlarından mənfəət kəsb etsə və bu mənfəətindən, ya başqa qazanclarlı ilə birlikdə illik xərcindən artıq qalsa, hər ilin axırında onların xümsünü verməlidir. Amma həmin ağacın xümsü verilməmişsə və ağacın artımı olmuşsa, gərək həm ağacın özünün xümsünü, həm (ödəməli olduğu) xümsün artımının xümsünü və həm də öz hissəsinin (ağacın onun özünə məxsus olan) artımının xümsünü versin.

**Məsələ:** ١٧٩٠. Bir neçə yerdən kəsb-qazancı olan, məsələn, mülkünü icarəyə verən, alver edən və əkin əkərək qazanc əldə edən şəxs, ilin axırında illik xərcindən artıq qalanının xümsünü verməlidir. Əgər bir sahədən qazanc əldə edib, digər sahədən ziyana düşərsə, müstəhəbb ehtiyata əsasən, götürdüyü qazancın xümsünü versin.

**Məsələ:** ١٧٩١. İnsanın mənfəət əldə etmək üçün çəkdiyi xərcləri, məsələn, dəllallıq və yük daşıma kimi, mənfəət əldə etmək xərcləri sayılanları qazancdan çıxa bilər və o miqdarın xümsü yoxdur.

**Məsələ:** ١٧٩٢. İl ərzində kəsbkarlıqdan əldə edilən mənfəətdən həmin ilin xərcləri hesab edilən sahələrdə, məsələn, qazancından yeməyə, geyimə, mənzil avadanlığına, ev almağa, övladını evləndirməyə, qızının cehizinə, ziyarətə getməyə və s. sərf olunsa və öz şə`nindən (layiqindən) artıq həddə olmasa, xümsü yoxdur.

**Məsələ:** ١٧٩٣. İnsanın nəzir və kəffarəyə xərclədiyi mal illik xərcindən sayılır. Həmçinin, bir kəsə bağışladığı, ya mükafat verdiyi mal, onun şə`nindən artıq olmadığı surətdə illik xərclərdən hesab olunur.

**Məsələ:** ١٧٩٤. Əgər insan adətən hər il qızının cehizinin bir hissəsinin hazırlandığı bir şəhərdə olsa və şəxs bundan qeyri yolla cehiz hazırlaya bilməsə, habelə cehiz verməmək onun şə`ninə xələl gətirirsə, bu halda il ərzində həmin ilin mənfəətindən cehiz alsa, xümsü yoxdur. Əgər o ilin mənfəətindən sonrakı il cehizlik hazırlasa, onun xümsünü verməlidir.

**Məsələ:** ١٧٩٥. Həcc və digər ziyarət səfərləri üçün xərc etdiyi mal, hansı ildə xərclənibsə, o ilin illik xərcindən hesablanır. Əgər onun səfəri sonrakı ilin bir hissəsinə qədər uzansa əvvəlki ilin qazancından sonrakı ildə xərcdədiyi qədərin xümsünü verməlidir.

**Məsələ:** ١٧٩٦. Kəsb-ticarətdən fayda götürən şəxs, xümsü vacib olmayan bir mala da sahib olsa, öz illik xərcini yalnız qazancından əldə etdiyi mənfəətdən hesab edə bilər.

**Məsələ:** ١٧٩٧. İllik məsrəfi üçün qazanc mənfəətindən aldığı yeyinti məhsulları ilin sonunda artıq qalarsa onun xümsünü verməlidir. Əgər onun qiymətini vermək istəsə və onun qiyməti aldığı vaxtdan ilin sonuna nisbətdə artmış olarsa, ilin sonundakı qiymətlə hesablanmalıdır.

**Məsələ:** ١٧٩٨. Əgər qazancının xümsünü verməmiş ev üçün avadanlıq alarsa, hansı vaxt ona ehtiyac duymazsa onun xümsü yoxdur.

Həmçinin, qadının zinət və bəzək əşyalarının da, qadının onların zinət olaraq istifadə etmə zamanı keçdiyi təqdirdə, xümsü yoxdur.

**Məsələ:** ١٧٩٩. Əgər bir il mənfəət götürməsə, o ilin xərclərini gələn ilin qazancından çıxa bilməz.

**Məsələ:** ١٨٠٠. Əgər ilin əvvəlində mənfəət əldə etməsə və sərmayədən xərcləsə, il tamam olmamış bir qazanc əldə etsə, sərmayədən xərclədiyini qazancdan çıxa bilməz.

**Məsələ:** ١٨٠١. Əgər sərmayənin bir qədəri ticarət və bu kimi şeylərdə aradan getsə, sərmayədən azalan qədəri, o miqdarın tələf olmazdan qabaqkı mənfəətindən çıxa bilər.

**Məsələ:** ١٨٠٢. Əgər sərmayədən başqa sair malından bir şey aradan getsə, onu əldə etdiyi qazancdan çıxa bilməz. Amma əgər o şeyə həmin ildə ehtiyacı olsa, bu surətdə il əsnasında onu mənfəətdən çıxa bilər.

**Məsələ:** ١٨٠٣. Əgər ilin əvvəlində öz xərcləri üçün borc etsə və il tamam olmamış mənfəət əldə etsə, borc götürdüyü məbləği həmin mənfəətdən çıxa bilməz. Amma əgər borcu mənfəət hasil olduqdan sonra etmiş olsa, (onu mənfəətdən çıxa bilər). Lakin öz borcunu il əsnasında hasil olan mənfəətdən qaytara bilər.

**Məsələ:** ١٨٠٤. Əgər il boyu mənfəət əldə etməsə və öz xərcləri üçün borc etsə, borcu sonrakı illərin mənfəətindən çıxa bilməz. Lakin öz borcunu onlardan ödəyə bilər.

**Məsələ:** ١٨٠٥. Əgər malı, sərmayəni artırmaq, ya ehtiyacı olmayan bir mülkü almaq üçün borc etsə, mənfəət gəlirindən borcun miqdarını ödəyə bilməz. Lakin borc etdiyi mal, ya borcla aldığı şey aradan gedərsə, bu surətdə öz borcunu həmin ilin mənfəətindən ödəyə bilər.

**Məsələ:** ١٨٠٦. İnsan hər bir şeyin xümsünü həmin şeydən, ya borclu olduğu xümsün qiymətinin miqdarını rəvacda (tədavüldə) olan puldan verə bilər. Vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsi olmadan başqa bir şeydən versin.

**Məsələ:** ١٨٠٧. Malına xüms gələn şəxs, onun ili keçdikdə xümsünü verməyincə o maldan istifadə edə bilməz, hətta xümsünü vermək qəsdi də olsa belə; yalnız şəriət hakiminin icazəsi olduqda o maldan istifadə edə bilər. Amma özünə aid olan hissəsində satqı və sülh kimi e`tibari (şərti) istifadə etməsinin maneəsi yoxdur.

**Məsələ:** ١٨٠٨. Xüms borcu olan bir şəxs onu öz zimməsinə (öhdəsinə) götürə, yə`ni özünü xüms sahiblərinə borclu bilərək əvvəlki məsələdə deyilən kimi o maldan istifadə edə bilməz. Əgər istifadə etsə və o mal tələf olsa, onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٠٩. Xüms borcu olan bir şəxs, əgər şəriət hakimi ilə sülh etsə və xümsü öz zimməsinə (öhdəsinə) götürsə, malında təsərrüf

edə bilər və sülhdən sonra əldə etdiyi mənfəət onun özününküdür.

**Məsələ:** ١٨١٠. Başqası ilə şərik olan kəs əgər öz mənfəətinin xümsünü versə və onun şəriki öz xümsünü verməsə, sonrakı ildə xümsü verilməmiş maldan müştərək sərmayəyə qoysa, şəriklərin heç biri onda təsərrüf edə bilməzlər, ancaq xümsü verməyən şərikin xümsə əqidəsi olmadığı surətdə o biri şərik təsərrüf edə bilər.

**Məsələ:** ١٨١١. Əgər səğir uşağın sərmayəsi olsa və ondan mənfəət ələ gəlsə, həmin mənfəətə xüms gəlir və onun xümsünü uşağın qəyyumu verməlidir. Əgər qəyyumu verməzsə, uşaq həddi-buluğa çatdıqdan sonra onun xümsünü verməlidir.

**Məsələ:** ١٨١٢. Bir kəsə başqası tərəfindən bir mal gəlsə və o malın xümsünü vermədiyini qəti olaraq bilsə, o malda təsərrüf edə bilməz. Amma malı verən şəxsin xümsə əqidəsi olmasa və həmçinin, vacib ehtiyata əsasən, malın xümsünü verib-vermədiyi barədə şəkk etdikdə, bu hal istisnadır (bu halda təsərrüf edə bilər).

**Məsələ:** ١٨١٣. Əgər bir kəs il ərzindəki qazancından bir mülk alsa və onu illik xərcindən hesab olunmasa, ili tamam olandan sonra onun xümsünü verməsi vacibdir. Əgər onun xümsünü verməsə və o mülkün qiyməti qalxsa, həmin mülkün hazırkı dəyərinin xümsünü verməsi lazımdır. Mülkdən başqa xalça və bu kimi şeylər də eyni hökmdədir.

**Məsələ:** ١٨١٤. Əgər xümsü verilməmiş pulla məsələn, bir mülk alsa və onun qiyməti qalxsa, bu halda o mülkü, qiyməti qalxandan sonra satmaq qəsdilə almamışdırsa, məsələn, əkin əkmək üçün bir yer alıbsa, bu halda o mülkü zimməsinə alıb pulunu xümsü verilməmiş maldan versə, aldığı qiymətin xümsünü verməlidir. Əgər xümsü verilməmiş pulu satıcıya verib «bu mülkü bu pul ilə alıram»-desə, bu halda şəriət hakimi alverin ١/٥-nə icazə versə, alıcı o mülkün hazırkı dəyərinin xümsünü verməlidir.

**Məsələ:** ١٨١٥. Mükəlləf olduğu vaxtdan xüms verməyən şəxs, əgər qazanc mənfəətindən, ehtiyacı olmayan bir şey alsa və qazanc əldə etdiyi müddətdən bir il keçsə, onun xümsünü verməlidir. Əgər avadanlığı və öz şə`ninə uyğun olan, ehtiyacı olduğu başqa şeylər alıbsa, bu halda əgər onları, qazanc əldə etdiyi ilin içində aldığını bilsə, onların xümsünü vermək lazım deyildir. Əgər il ərzində, yoxsa il tamam olandan sonra aldığını bilməsə, ehtiyat vacibə əsasən şəriət hakimi ilə sülh etməlidir (razılaşmalıdır).

**٢. *Mə`dən***

**Məsələ:** ١٨١٦. Əgər mə`dəndən qızıl, gümüş, qurğuşun, mis, dəmir, neft, daş kömür, firuzə, əqiq, zac (sarı rəngli, nabat rəngli bir mineral maddədir ki, yaranın üstünə qoyulur), duz və başqa mə`dən məhsulları çıxarılıb, əldə edilərsə nisab həddində (məxsus ölçü vahidi)

olduğu surətdə xümsü verilməlidir.

**Məsələ:** ١٨١٧. Mə`dənin nisabı – ١٥ adi misqal sikkəli qızıldır. Yə`ni əgər mə`dəndən çıxarılan şeyin dəyəri ١٥ misqal sikkəli qızıla bərabər olsa, çəkilən xərclər çıxılandan sonra, qalanın xümsü verilməlidir.

**Məsələ:** ١٨١٨. Əgər mə`dəndən çıxarılan şeyin qiyməti ١٥ misqal sikkəli qızıla çatmasa, o zaman ona xüms düşür ki, təklikdə, ya başqa gəlirlərlə birlikdə illik xərcindən artıq qalmış olsun.

**Məsələ:** ١٨١٩. Təbaşir, əhəng, baş yumaq üçün olan gil və qırmızı gilə mə`dən hökmü aid deyildir və onları çıxarıb əldə edən şəxs, o zaman xüms verməlidir ki, çıxardığı şey təklikdə və ya başqa qazancları ilə birgə illik xərcindən artıq qalmış olsun.

**Məsələ:** ١٨٢٠. Mə`dəndən bir şey əldə edən kəs, istər mə`dən yerin altında, istər üstündə olsun; istər mülkiyyətdə olan yerdə olsun, istər də maliki olmayan yerdə; onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٢١. Əgər mə`dəndən çıxardığı şeyin qiymətinin ١٥ misqal sikkəli qızıla çatıb-çatmamasını bilməsə, ehtiyata əsasən, mümkün olan yolla, onu çəkmək və ya başqa yolla qiymətini öyrənməlidir. Mümkün olmadığı surətdə isə xümsü yoxdur.

**Məsələ:** ١٨٢٢. Əgər bir neçə nəfər mə`dəndən bir şey çıxarsalar, bu halda onun qiyməti ١٥ sikkəli qızıla bərabər olsa, hər birinin payı bu miqdara çatmasa da, çıxarılan şeyə çəkilən xərc çıxıldıqdan sonra, ehtiyata əsasən, onun xümsünü verməlidirlər.

**Məsələ:** ١٨٢٣. Əgər bir kəs başqasının mülkündə olan mə`dəni, sahibinin icazəsi olmadan istismar etsə, ondan əldə olunan hər nə varsa mülk sahibinin malıdır və nisab həddinə yetişdikdə mülk sahibi mə`dəndən əldə olunan bütün şeylərin xümsünü verməlidir.

### ٣. *Xəzinə*

**Məsələ:** ١٨٢٤. Yerdə, ağacda, dağda, ya divarda gizlədilmiş malı bir kəs tapsa və camaat arasında ona xəzinə deyilərsə və tapılan mal nisab həddində olsa, onun xümsünü (tapan şəxs) verməlidir.

**Məsələ:** ١٨٢٥. Əgər insan bir kəsin mülkü olmayan bir yerdən xəzinə tapsa, öz malıdır və onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٢٦. Xəzinə, əgər gümüşdürsə, onun nisabı ١٠٥ misqal sikkəli gümüş, əgər qızıldırsa ١٥ misqal sikkəli qızıldır. Yə`ni bu iki şeydən əldə olunan qiymət nisab həddinə yetişsə, ona çəkilən xərci çıxdıqdan sonra onun xümsünü verməlidir. Əgər xəzinə qızıl, ya gümüşdən başqa bir şey olsa, vacib ehtiyata əsasən, bu ikisinin (qızıl, ya gümüşdən) birinin nisab həddində olmasa da, çəkilən xərci çıxdıqdan sonra onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٢٧. Əgər insan, başqasından aldığı bir yerdən xəzinə

tapsa və əvvəlki mülkün sahiblərinin malı olmadığını bilsə, onun (mülkü alanın) malıdır və onun xümsünü verməlidir. Lakin xəzinənin əvvəlki mülk sahiblərindən birinin olmasını ehtimal etsə, ehtiyata əsasən, onu xəbərdar etməlidir; əgər onun malı olmadığı mə`lum olsa, ondan əvvəl həmin mülkün sahibi olmuş kəsə xəbər verməlidir. Bu qayda ilə mülkün əvvəlki sahiblərinin hamısını xəbərdar etməli və onların heç birinin malı olmadığı mə`lum olsa, xəzinəni tapanın malı hesab olunur və o da onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٢٨. Əgər bir yerdə basdırılmış bir neçə qabda qiyməti üst-üstə ١٠٥ misqal sikkəli gümüş, ya ١٥ misqal sikkəli qızıl olan bir mal tapsa, onun xümsünü verməlidir. Əgər bir neçə yerdə xəzinə tapsa, onların hər birinin qiyməti deyilmiş qədərə çatsa, onun xümsünü verməlidir. Qiyməti deyilmiş qədərə çatmayan şeyin isə xümsü yoxdur. Lakin tapılan xəzinə qızıl, ya gümüşdən başqa bir şey olsa, hər iki surətdə vacib ehtiyata əsasən, onun nisabı mülahizə olunmadan xümsü verilməlidir.

**Məsələ:** ١٨٢٩. Əgər iki nəfər qızıl, ya gümüşdən ibarət olan bir xəzinə tapsalar və onun qiyməti gümüşdə ١٠٥ misqal sikkəli gümüş, ya qızılda ١٥ misqal sikkəli qızıla çatsa o iki nəfərin payları ayrı-ayrılıqda deyilən qədərdə olmasa da belə, vacib ehtiyata əsasən, onun xümsünü verməlidirlər. Həmçinin, gümüş və ya qızıldan başqa bir şey tapmış olsalar, nisab həddinə yetişməsə də, eyni hökmdədir.

**Məsələ:** ١٨٣٠. Əgər insan bir heyvan alsa və onun qarnında bir mal tapılsa bu halda həmin heyvan bəslənən balıq və ya evdə ot verilən heyvanlardan olsa, satıcıya xəbər verməsi vacibdir. Əgər onun malı olmadığı mə`lum olsa, tapılan şey heyvanı alanındır və illik xərcinə sərf edilmədikdə onun xümsünü verməlidir. Bundan başqa hallarda, məsələn, balıqçının dəryadan tutduğu balıq, ya səhradan ovladığı bir heyvan olsa, bu halda satıcının malı olması ehtimalı əql sahibləri nəzərində yerli ehtimal olarsa, vacib ehtiyata əsasən, ona xəbər verməlidir. Əgər onun malı olmalığı mə`lum olsa, alıcının malıdır və illik xərclərinə sərf etmədikdə xümsünü verməlidir.

### ٤. *Harama qarışmış halal mal*

**Məsələ:** ١٨٣١. Əgər halal və haram mal, insanın onları bir-birindən seçib ayırd edə bilməyəcəyi tərzdə bir-birinə qarışarsa və haram malın qədəri və sahibi mə`lum olmazsa, eləcə də, haram malın miqdarının onun xümsündən az, ya çox olduğu bilinməzsə, bütün malın xümsünü vermək lazımdır. Vacib ehtiyata əsasən, onun xümsü, xüms və sədəqənin sərf olunduğu yerdə, xüms və sədəqədən daha ümumi olan bir vəzifəni yerinə yetirmək qəsdilə sərf edilməlidir. Xümsü verildikdən sonra malın qalanı halal olur.

**Məsələ:** ١٨٣٢. Əgər halal mal haramla qarışsa və insan haram malın qədərini bilib, ancaq axtarış aparsa da sahibini tanıya bilməsə, (haram mal olduğu bilinən) o miqdarı sahibinin niyyəti ilə sədəqə verməlidir. Vacib ehtiyata əsasən, bunun üçün şəriət hakimindən icazə də almaq lazımdır.

**Məsələ:** ١٨٣٣. Əgər halal mal haramla qarışsa və insan haramın qədərini bilməyib, ancaq sahibini tanısa, bu halda halal yağın haramla qarışması kimi müştərəkliyə bais olsa, əgər bir-biriləri ilə razılaşsalar, razılıq əldə etdikləri şey müəyyən (qəti) olar. Əgər razılıq hasil olmasa, başqasının malı olduğu bilinən qədər onun sahibinə verilməlidir. Amma halal malın haramla qarışması onların müştərək olmasına bais olmasa; məsələn, malın hissələri biri-digərindən ayrı olsa, miqdar baxımından yəqini olduğu miqdarı sahibinə verməlidir və nişanələr püşk atmaqla müəyyən olunar. Hər iki surətdə müstəhəbb ehtiyat budur ki, onun malı olduğu ehtimal edilən çox hissə sahibinə verilsin.

**Məsələ:** ١٨٣٤. Əgər halal mal ilə qarışmış haram malın xümsünü verdikdən sonra haramın miqdarının xümsdən çox olduğunu başa düşərsə, bu halda çox hissənin müəyyən olduğu surətdə, malın sahibi tərəfindən və vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsilə həmin qədər sədəqə verilməlidir. Onun miqdarı müəyyən olunmadığı təqdirdə birinci (xümsü verildikdən sonra) malın qalan hissəsində ١٨٣١-ci məsələdə deyilmiş qaydaya əsasən əməl edilməlidir.

**Məsələ:** ١٨٣٥. Əgər haramla qarışmış halal malın xümsü verilsə, ya sahibini tanımadığı surətdə mal sahibinin niyyətilə sədəqə versə və sonra sahibi tapılsa ona bir şey vermək lazım deyildir.

**Məsələ:** ١٨٣٦. Əgər halal mal haramla qarışsa və haramın miqdarı mə`lum olsa, insan da onun sahibinin bir neçə müəyyən nəfərdən kənarda olmadığını bilib, lakin dəqiq şəkildə hansı olduğunu başa düşə bilməsə, mümkün olan surətdə vacib ehtiyata əsasən, onların hamısını razı salmalıdır. Əgər (razı salmaq) mümkün olmasa, malik püşk vasitəsilə müəyyən olunmalıdır.

### ***٥. Dənizə baş vurmaqla əldə edilən cavahirat***

**Məsələ:** ١٨٣٧. Əgər dənizə baş vurmaqla lə`l, mərcan, ya digər cavahirlər əldə olunarsa, istər bitki olsun, istərsə də mə`dən məhsulu, onun qiyməti ١٨ noxud qədəri sikkəli qızıla bərabər olarsa, ona xüms düşür, hərçənd xümsü ayırmaq onu çıxarmaq üçün çəkilən xərclər çıxıldıqdan sonradır, istər bir dəfə, istərsə bir neçə dəfə dənizə baş vurmaqla əldə edilmiş olsun, amma camaat arasında adətən bir dəfə sayılsın; həmçinin, çıxarılan şey istər bir növdən olsun, istərsə başqa-başqa növlərdən; eləcə də, istər bir, istərsə vacib ehtiyata əsasən, bir neçə nəfər onu çıxarmış olsun; xümsü verilməlidir.

**Məsələ:** ١٨٣٨. Əgər dənizə baş vurmadan, müəyyən bir vasitə ilə cəvahir çıxarılarsa ehtiyata əsasən, əvvəlki məsələdə deyilmiş qayda ilə onun xümsünün verilməsi vacibdir. Lakin əgər cəvahir suyun üzərində, ya dənizin kənarından əldə edilərsə, əldə edilən şey təklikdə, yaxud digər mənfəətlərlə birlikdə illik xərcindən artıq olduğu təqdirdə onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٣٩. İnsanın dənizdən tutduğu balıq və digər heyvanların xümsü o surətdə vacib olur ki, təklikdə, ya digər gəlirlərlə birlikdə illik xərcindən artıq olsun.

**Məsələ:** ١٨٤٠. Əgər insan dənizdən bir şey əldə etdikdə qəsdi olmadan dənizə baş vurub təsadüfən cəvahir əldə etsə, ona malik olmağı qəsd etdikdə, gərək onun xümsünü versin, həmçinin, bundan başqa hallarda da vacib ehtiyata əsasən, xümsünü verməlidir.

**Məsələ:** ١٨٤١. Əgər insan dənizə baş vuraraq bir heyvan çıxarıb onun qarnından cəvahir tapsa və onun qiyməti ١٨ noxud sikkəli qızıla bərabər, ya ondan çox olsa, bu halda həmin heyvan sədəf kimi, adətən qarnında cəvahir olan heyvan olsa, onun xümsünü verməlidir. Əgər heyvan təsadüfən cəvahir udmuş heyvan olsa, onun xümsü o surətdə vacib olar ki,təklikdə, ya digər gəlirlərlə birgə illik xərcindən çox olsun.

**Məsələ:** ١٨٤٢. Əgər böyük çaylara baş vurmaqla cəvahir çıxarsa, həmin çaylarda cəvahir əmələ gəlirsə, onun xümsünü verməlidir.

**Məsələ:** ١٨٤٣. Əgər suya baş vurub qiyməti ١٨ noxud sikkəli qızıla bərabər, ya ondan artıq olan bir qədər ənbər əldə etsə, gərək onun xümsünü versin. Əgər suyun üzərindən, ya dəryanın kənarından əldə etsə, qiyməti ١٨ noxud sikkəli qızıla çatmasa da belə, ehtiyatən onun xümsünü vermək vacibdir.

**Məsələ:** ١٨٤٤. Əgər bir şəxsin qazanc yolu dənizə baş vurmaq, ya xəzinə çıxarmaq, yaxud mə`dəndə işləməkdirsə, onun xümsünü verdikdən sonra qalanı illik xərcindən artıq olsa, ikinci dəfə xüms verməsi lazım deyildir.

**Məsələ:** ١٨٤٥. Əgər bir uşaq mə`dən çıxarsa, ya harama qarışan halal malı olsa, ya xəzinə tapsa, ya dənizə baş vuraraq cəvahir əldə etsə, onun vəlisi gərək onun xümsünü versin. Əgər o verməsə, uşağın özü həddi-buluğa yetişdikdən sonra xümsü verməlidir.

### ٦. *Qənimət*

**Məsələ:** ١٨٤٦. Əgər müsəlmanlar İmam (əleyhissalam)-ın izni ilə kafirlərlə müharibə edərək bir şey əldə etsələr, əldə olunan o şeylərə "qənimət" deyilir. Qənimətin daşınmağa qabil olanları ilə əlaqədar saxlamaq, daşımaq, yükləmək kimi xərclər, eləcə də, İmamın (əleyhissalam) müəyyən yerə sərf etməyi məsləhət gördüyü miqdar və İmama (əleyhissalam) məxsus olan şeylər qənimətdən çıxılmalı,

qalanının xümsü verilməlidir. Əgər İmamın (əleyhissalam) izni olmadan müharibə edib, qənimət ələ keçirərlərsə, bu halda İmamın hazır olduğu dövrdə olarsa, o malın hamısı İmamın (əleyhissalam) malıdır. Əgər qeybət dövründə olarsa, bütün xərclər çıxıldıqdan sonra ehtiyata əsasən, onun xümsü verilməlidir.

***٧. Zimmi kafirin müsəlmandan aldığı yer***

**Məsələ:** ١٨٤٧. Əgər zimmi kafir müsəlmandan bir yer alsa onun xümsünü ١٨٠٦-cı məsələdə deyilmiş qayda ilə həmin yerdən, ya onun başqa malından verməlidir, baxmayaraq ki, onun aldığı yer evin və ya dükanın və s. yeri kimi, tikilişə, abadlığa başlanmış olsa və həmçinin, alarkən ev, dükan və bu kimi al-ver məqamında olsa da belə. Xümsü verərkən qürbət qəsdi etməsi lazım deyildir. Hətta xümsü ondan alan şəriət hakiminin də qürbət qəsdi etməsi lazım deyildir.

**Məsələ:** ١٨٤٨. Əgər zimmi kafir bir müsəlmandan aldığı yeri digər bir müsəlmana satsa, xüms ondan (kafirdən) götürülmür və həmçinin, əgər ölərsə və bir müsəlman yeri ondan irs aparsa da hökm eynidir.

**Məsələ:** ١٨٤٩. Əgər zimmi kafir yeri alanda xüms verməyəcəyini şərt edərsə, ya xümsün satıcının öhdəsinə olmasını şərt edərsə, onun şərti düzgün deyildir və onun xümsünü verməlidir. Lakin xümsün miqdarını onun tərəfindən xüms sahibinə verilməsini satıcıya şərt etsə, satıcıya vacibdir ki, o şərtə əməl eləsin və satıcı şərtə əməl etməyincə xüms zimmi kafir olan alıcının öhdəsindən düşmür.

**Məsələ:** ١٨٥٠. Əgər müsəlman bir yeri alqı-satqısız zimmi bir kafirin mülkiyyətinə keçirsə və onunla məsələn, sülh edərək, əvəzini alsa, zimmi kafir o yerin xümsünü verməlidir.

**Məsələ:** ١٨٥١. Əgər zimmi kafir səğir olsa və onun vəlisi onun üçün bir yer alsa, o yerə də xüms gəlir.

***Xümsün sərf olunan yerləri***

**Məsələ:** ١٨٥٢. Xüms iki yerə bölünməlidir; onun bir hissəsi seyyidlərin payıdır. Onu yetim və fəqir olan seyyidin vəlisinə vermək lazımdır ki, onun işlərinə xərcləsin; yaxud fəqir seyyidə, yaxud səfər zamanı yolda qalan seyyidə verilməlidir. Vacib ehtiyata əsasən, seyyidlərin payını ədalətli fəqihin icazəsi ilə versinlər. Xümsün digər hissəsi isə İmamın (əleyhissalam) malıdır ki, indiki dövrdə onu adil olan və onun xərcləmə yerlərini bilən fəqihə verməli və ya onun icazə verdiyi yerlərə sərf etməlidirlər. Ehtiyata əsasən, həmin adil fəqih ə`ləm olmalıdır.

**Məsələ:** ١٨٥٣. Xüms verilən yetim seyyid, fəqir olmalıdır. Ancaq səfər zamanı (pulu qurtarıb) yolda qalan seyyid, öz vətənində fəqir olmasa da, ona xüms vermək olar.

**Məsələ:** ١٨٥٤. Səfər zamanı (pulu qurtarıb) yolda qalan seyyidin səfəri günah səfəri olsa, ona xüms verilməməlidir.

**Məsələ:** ١٨٥٥. Ədalətli olmayan seyyidə xüms vermək olar, ancaq on iki imamçı olmayan seyyidə xüms vermək olmaz.

**Məsələ:** ١٨٥٦. Əgər günah edən bir seyyidə xüms vermək onun günahına kömək etməyə səbəb olarsa, ona xüms vermək olmaz. Eləcə də aşkarda günah edən bir seyyidə xüms vermək onun günahına kömək etməyə səbəb olmasa da, vacib ehtiyata əsasən, ona xüms verilməməlidir.

**Məsələ:** ١٨٥٧. Əgər bir şəxs «seyyidəm» desə, ona xüms vermək olmaz, yalnız o vaxt xüms vermək olar ki, onun seyyidliyini iki adil şəxs təsdiq etsin, yaxud onun seyyid olması camaat arasında insana əminlik, yaxud xatircəmlik gətirəcək dərəcədə məşhur olsun. E`timadlı (siqə) bir şəxsin kimsənin seyyid olduğunu deməsi ilə onun seyyidliyin sübut olunması, sözünün əksinə güman olunmayan halda uzaq görüş deyil.

**Məsələ:** ١٨٥٨. Əgər bir şəxs öz şəhərində seyyid kimi tanınmış olsa, hətta insanın onun seyyid olmasına yəqini, ya xatircəmliyi olmasa da, ona xüms vermək olar, ancaq bu şərtlə ki, bunun (seyyid olmasının) əksi güman olunmasın.

**Məsələ:** ١٨٥٩. Arvadı seyyidə olan kəs, öz xərclərinə sərf etməsi üçün ona xüms verə bilməz. Lakin başqalarının xərci o qadının boynunda vacib olsa və o xərcləri ödəyə bilməsə, həmin şəxslərin xərclərinə sərf etmək üçün o qadına (öz arvadına) xüms verməsi caizdir. Həmçinin, onun məxsus vacib xərclərindən əlavə nəfəqələrində (xərclərində) məsrəf etmək üçün də ona xüms verilməsi eyni hökmü daşıyır.

**Məsələ:** ١٨٦٠. Əgər insana bir seyyidin, ya öz arvadı olmadığı bir seyyidə qadının xərci vacib olsa, onun yemək, geyim və başqa vacib xərclərini xümsdən verə bilməz. Lakin vacib olmayan xərclərdə-onun öz xərcləri olan halda-sərf etmək üçün xümsdən bir qədər ona verməyin maneəsi yoxdur.

**Məsələ:** ١٨٦١. Bir fəqir seyyidin xərci başqasına vacib olsa və o şəxs seyyidin xərclərini ödəyə bilməsə, yaxud ödəyə bildiyi halda ödəməsə, həmin fəqir seyyidə xüms vermək olar.

**Məsələ:** ١٨٦٢. Vacib ehtiyata əsasən, fəqir seyyidə bir illik xərcindən artıq qədərdə xüms verilməsin.

**Məsələ:** ١٨٦٣. Əgər insanın özü yaşadığı yerdə xümsə müstəhəqq olan seyyid olmasa və insan sonradan tapılacağına da əminliyi, ya arxayınlığı olmasa, yaxud müstəhəqq seyyid tapılacağına kimi xümsü saxlamaq mümkün olmasa, onu digər şəhərə aparıb müstəhəqqə çatdırmaq lazımdır və bu onu apararkən çəkilən xərci xümsdən çıxmaq olar. Vacib ehtiyat budur ki, aparılmağa çəkilən xərc götürülərkən şəriət

hakiminin icazəsi olsun. Əgər xüms aradan getsə, bu halda onu saxlamaqda səhlənkarlığa yol veribsə şəxs zamindir. Əgər səhlənkarlıq etməyibsə zamin deyildir.

**Məsələ:** ١٨٦٤. Əgər yaşadığı şəhərdə müstəhəqq olmasa, hətta tapacağına əmin, ya xatircəm olsa da belə və xümsü müstəhəqq tapana qədər saxlamaq mümkün olsa da, xümsü başqa şəhərə apara bilər. Əgər onu saxlamaqda səhlənkarlığa yol verməsə və xüms tələf olsa, şəxs zamin deyildir, lakin yola çəkdiyi xərci xümsdən götürə bilməz.

**Məsələ:** ١٨٦٥. Əgər öz şəhərində müstəhəqq tapılsa bu halda xümsü verməkdə səhlənkarlıq olmadığı təqdirdə yenə də xümsü başqa şəhərə apara və müstəhəqqə çatdıra bilər. Lakin yol xərcini öz hesabına ödəməlidir. Xüms tələf olub aradan getdiyi təqdirdə, onu saxlamaqda səhlənkarlıq etməsə də belə, zamindir.

**Məsələ:** ١٨٦٦. Əgər şəriət hakiminin izni ilə xümsü başqa bir şəhərə aparsa və (tələf olub) aradan getsə, xümsə zamin deyildir. Həmçinin, əgər şəriət hakimi tərəfindən xümsü almağa vəkil ya icazəsi olan bir kəsə versə ki, həmin şəhərdən başqa bir şəhərə aparsın, eyni hökmü daşıyır.

**Məsələ:** ١٨٦٧. ١٨٠٦-cı məsələdə deyildi ki, xüms əvəzinə rəvac tapmış puldan başqa bir mal vermək vacib ehtiyata görə caiz deyildir, yalnız şəriət sahibinin icazəsi ilə caiz olar. Caiz olan halda da, məsələn, şəriət hökminin icazə verdiyi halda, bir malı öz real qiymətindən baha hesablayıb xüms ünvanı ilə vermək, müstəhəqq o qiymətə razı olsa da belə, caiz deyildir.

**Məsələ:** ١٨٦٨. Müstəhəqqə borc vermiş olan kəs ehtiyata əsasən, öz borcunu xümsdən hesablaya bilməz. Lakin xümsü ona verə bilər ki, müstəhəqq öz borcunu (həmin puldan) ona qaytarsın. Eləcə də müstəhəqdən vəkillik alıb, özü onun tərəfindən (xümsü) əxz edə bilər və alacağı borcu babətində onu götürə bilər.

**Məsələ:** ١٨٦٩. Müstəhəq olan şəxs xümsü alıb, onu sahibinə bağışlaya bilməz, o halda ki, bu bəxşiş İmam (əleyhissalam) və seyyidlərin haqqını zay etmiş olsun. Bu surətdən başqasında eybi yoxdur. Məsələn, çox miqdarda xüms borcu olan şəxs fəqir olarsa və xüms əhlinə borclu qalmaq istəmirsə müstəhəq olan şəxs öz haqqını ondan alıb həmin şəxsə bağışlamağa razı olarsa, eybi yoxdur.

## ZƏKATIN HÖKMLƏRİ

**Məsələ:** ١٨٧٠. Doqquz şeydə zəkat vacibdir:
١-Buğda;
٢-Arpa;
٣-Xurma;
٤-Kişmiş;
٥-Qızıl;
٦-Gümüş;
٧-Dəvə;
٨-İnək;
٩-Qoyun.

Əgər bir şəxs bu doqquz şeydən (ən aşağısı) birinə malik olsa, sonradan gələcək şərtlərlə müəyyən olunmuş miqdarı deyiləcək yerlərdən birinə sərf etməlidir.

**Məsələ:** ١٨٧١. Dənəsi buğda kimi yumşaq, lakin arpanın xüsusiyyətlərinə malik olan «səlt»dən və buğdaya bənzər «ələs»dən zəkat verilməsi müstəhəbb ehtiyatdır.

## ZƏKATIN VACİB OLMA ŞƏRTLƏRİ

**Məsələ:** ١٨٧٢. Zəkat – malın (sonradan deyiləcək) nisab həddinə çatmasından sonra vacib olur. Həmçinin, o surətdə vacib olur ki, mal sahibi baliğ, ağıllı, azad olub öz malından istifadə edə bilsin.

**Məsələ:** ١٨٧٣. Əgər insan on bir ay ərzində inək, qoyun, dəvə, gümüş və qızıla malik olarsa, on ikinci ayın əvvəlində onun zəkatını verməlidir. Lakin sonrakı ilin əvvəlini on ikinci ay tamam olandan sonra hesablayacaq.

**Məsələ:** ١٨٧٤. Əgər inək, qoyun, dəvə, gümüş və qızılın maliki il əsnasında baliğ olsa, məsələn, uşaq məhərrəm ayının əvvəlində qırx baş qoyuna malik olsa və iki ay ötdükdən sonra baliğ olsa, məhərrəm ayının əvvəlindən e`tibarən on bir ay keçdikdə ona zəkat düşmür, əksinə həddi-buluğa çatandan sonra on bir ay keçdikdə ona zəkat vermək vacib olar. Ancaq müstəhəbb ehtiyat budur ki, məhərrəm ayının əvvəlindən on bir ay keçsə və zəkatın digər şərtləri də mövcud olmuş olsa, onun zəkatını versin.

**Məsələ:** ١٨٧٥. Buğda və arpaya o vaxt zəkat gəlir ki, adətən ona «buğda» və «arpa» deyilsin. Kişmişin zəkatı, "üzüm" deyilən vaxtdan sonra vacib olur, xurmanın zəkatı, ərəblər arasında "təmr" adlanan

vaxtdan vacib olur. Lakin buğda və arpanın zəkatının verilməsi vaxtı onların dənələrinin samandan ayrılan vaxtı, xurma və kişmişdə isə quruduqları vaxtdır. Əgər zəkatın verilməsini həmin vaxt müstəhəq mövcud ola-ola, üzürsüz olaraq gecikdirsə, (zəkata) zamindir.

**Məsələ:** ١٨٧٦. Əvvəlki məsələdə deyildiyi kimi, buğda, arpa, kişmiş və xurmanın zəkatı vacib olan vaxt onların sahibi baliğ, ağıllı, azad və malından istifadə etmə imkanına malik olduğu surətdə, hətta ondan qabaq şərtlərin hamısı, ya bəzisi hələ mövcud olmamış olsa da, zəkatını verməlidir. Əgər bu şərtlərdən biri mövcud olmasa, ona zəkat vacib deyildir.

**Məsələ:** ١٨٧٧. Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi bütün il boyu, ya ilin bir qədərində dəli olsa, ona zəka vacib deyildir.

**Məsələ:** ١٨٧٨. Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi ilin bir hissəsində məst, ya bihuş olsa, zəkat ondan saqit olmaz. Həmçinin, buğda, arpa, xurma və kişmişin zəkatı vacib olan vaxt məst və ya bihuş olsa, eyni hökmü daşıyır.

**Məsələ:** ١٨٧٩. İnsandan qəsb edilmiş və onun istifadə edə bilmədiyi malının zəkatı yoxdur. Lakin qəsb edilən buğda və arpa əkin sahəsi, xurma ağacı, ya üzüm kolu kimi şeylər olsa və onların zəkatı vacib olan vaxt qəsbkarın əlində olsa sonradan hər vaxt sahibinin ixtiyarına keçsə, vacib ehtiyata əsasən, onun zəkatını verməlidir.

**Məsələ:** ١٨٨٠. Əgər qızıl və gümüş, ya zəkatı vacib olan digər bir şeyi borc etsə və bir il öz ixtiyarında saxlasa, onun zəkatını verməlidir. Borc verənə isə heç bir şey vacib deyildir.

## BUĞDA, ARPA, KİŞMİŞ VƏ XURMANIN ZƏKATI

**Məsələ:** ١٨٨١. Buğda, arpa, kişmiş və xurmanın zəkatı, nisab həddinə yetişən zaman vacib olar. Onların nisabı ٣٠٠ "sa"-dır və hər bir "sa" ٦١٤, ٢٥ seyrəfi misqal qədərdir ki, təqribən ٨٤٧ kq-dır.

**Məsələ:** ١٨٨٢. Əgər zəkat verilməmişdən qabaq zəkatı vacib olan üzüm, xurma, buğda və arpadan özü və ailəsi yesə, ya zəkat qəsdi etmədən bir fəqirə versə, istifadə etdiyi miqdarın zəkatını verməlidir.

**Məsələ:** ١٨٨٣. Əgər buğda, arpa, xurma və üzümə zəkat vacib olandan sonra maliki ölsə zəkatın miqdarını onun malından verməlidirlər. Lakin zəkat vacib olmamış ölsə vərəsələrdən hər hansı birinin payı nisab həddinə çatırsa öz payının zəkatını verməlidir.

**Məsələ:** ١٨٨٤. Şəriət hakimi tərəfindən zəkatı toplamağa mə`mur olmuş kəs, xərmən vaxtı, yə`ni buğda və arpanı samandan ayıran vaxt, eləcə də üzüm kişmiş olandan və təzə xurma quruyandan sonra zəkatı tələb edə bilər. Əgər sahibi verməsə və zəkatı vacib olan şey tələf olub aradan getsə, gərək əvəzini versin.

**Məsələ:** ١٨٨٥. Əgər üzüm və xurma ağacına, buğda və arpa

zəmisinə malik olduqdan sonra onlara zəkatı vacib olsa, zəkatını verməlidir.

**Məsələ:** ١٨٨٦. Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olandan sonra zəmini və ağacları satsa, satan şəxs onların zəkatını verməlidir.

**Məsələ:** ١٨٨٧. Əgər insan buğda, arpa, xurma ya üzümün hamısını alıb satıcının onların zəkatını verdiyini bilsə, ona (alıcıya) heç bir şey vacib deyil. Yox əgər (satıcının) zəkatı vermədiyini bilsə, satıcı zəkatı verdiyi surətdə alver səhihdir, həmçinin, əgər müştəri zəkatı versə də hökm eynidir; bu halda satıcıya müraciət edə (və haqqını ala) bilər. Bu iki surətdən başqa hallarda əgər şəriət hakimi zəkatı verilməli olan miqdarın alverinə icazə verməsə, o miqdarın alveri batildir və şəriət hakimi zəkatın miqdarını alıcıdan ala bilər. Əgər (şəriət hakimi) zəkat miqdarının alverinə icazə versə, alver səhihdir və alıcı həmin miqdarın qiymətini gərək şəriət hakiminə versin. Əgər həmin miqdarın qiymətini satıcıya vermişdirsə, ondan geri ala bilər. Əgər satıcı zəkatı verib-verməməsi barədə şəkk etsə, o malda zəkatın olmamasına hökm etmək məhəlli-işkaldır.

**Məsələ:** ١٨٨٨. Əgər yaş halda olan buğda, arpa, xurma və üzümün çəkisi nisab həddinə çatmış olsa, amma quruyandan sonra o miqdardan az olsa, ona zəkat düşmür.

**Məsələ:** ١٨٨٩. Əgər buğda, arpa, xurma və üzüm qurumazdan öncə istifadə olunsa, bu halda onların qurusu nisab həddində olsa, onların zəkatını verməlidir.

**Məsələ:** ١٨٩٠. Xurma üç qismdir:

١-Qurudulmuş xurma (onun hökmü deyilmiş oldu);

٢-Rütəb (təzə, yaş) halda yeyilən xurma;

٣-Kal halda yeyilən xurma.

İkinci qism xurma o miqdarda olsa ki, quruyandan sonra nisab həddinə çatarsa, vacib ehtiyata əsasən, ona zəkat vacib olur, amma üçüncü qism xurmaya zəkat düşmür.

**Məsələ:** ١٨٩١. Buğda, arpa, xurma və üzümün zəkatı verilərsə bir neçə il sahibinin ixtiyarında qalsa da, zəkatı yoxdur.

**Məsələ:** ١٨٩٢. Əgər buğda, arpa, xurma və üzüm yağışın, ya çayın suyu ilə suvarılsa, ya yerin rütubətindən faydalansa, onun zəkatı onda birdir. Əgər dolça və bu kimi şeylərlə suvarılsa onun zəkatı ١/٢٠-dir.

**Məsələ:** ١٨٩٣. Əgər buğda, arpa, xurma və üzüm həm yağış suyu və bu kimi vasitələrlə, həm də dolça və bu kimi avadanlıqla suvarılsa, bu halda "dolça və bu kimi əşyalarla sulvarılıbdır"-deyiləcək şəkildə olsa, onun zəkatı ١/٢٠, əgər "yağış və s.-in suyu ilə suvarılmışdır"-deyiləcək tərzdə suvarılsa onun zəkatı ١/١٠-dir. Əgər "hər iki tərzdə suvarılmışdır" deyiləcək tərzdə suvarılsa onun zəkatı ٣/٤٠-dur.

**Məsələ:** ١٨٩٤. Əgər camaatın bu barədə nə deməsində şəkk etsə və suvarılmanın camaat arasında hər iki vasitə ilə, yoxsa məsələn, yağış suyu ilə suvarılmasını dediklərini bilməsə, ٣/٤٠ hissəsini zəkat versə kifayətdir.

**Məsələ:** ١٨٩٥. Əgər şəkk etsə və camaat arasında hər iki vasitə ilə, yoxsa dolça ilə suvarılmasını demələrini bilməsə, ١/٢٠-ni zəkat versə kifayətdir. Həmçinin, camaat arasında «yağış suyu ilə suvarılıb»-deyə, üçüncü ehtimal da əlavə olunduqda hökm eynidir.

**Məsələ:** ١٨٩٦. Əgər buğda, arpa, xurma və üzüm yağış və s.-lə suvarılsa və dolça və bu kimi əşyalarla suvarılmağa ehtiyac olmasa, amma dolça ilə suvarılsa da məhsulun daha artıq olmasına kömək etməsə, onun zəkatı ١/١٠-dir. Əgər dolça və bu kimi avadanlıqla suvarılsa və yağış suyu və s. ehtiyac olmasa, lakin eyni zamanda yağış suyu ilə də suvarılsa və bunlar məhsulun artmasına kömək etməsə, onun zəkatı ١/٢٠-dir.

**Məsələ:** ١٨٩٧. Əgər bir əkin sahəsini dolça və bu kimi əşyalarla suvarsa və onun qonşuluğundakı əkin sahəsi onun rütubətindən istifadə edərək suvarılmağa ehtiyacı olmasa, dolça ilə suvarılan əkinin zəkatı ١/٢٠, onun yanındakı əkinin zəkatı isə, o əkin sahəsinin malikindən qeyri bir şəxsin əkini olduqda ١/١٠-dir, həmçinin, vacib ehtiyata əsasən, o yerin sahibinin öz əkini olduqda da hökm eynidir.

**Məsələ:** ١٨٩٨. Buğda, arpa, xurma və üzüm üçün çəkilən xərcləri hasildən çıxıb, sonra onun nisabını hesablaya bilməz. Buna görə də onlardan birinin çəkisi xərcləri çıxmamış nisab həddinə çatsa, zəkatını verməlidir.

**Məsələ:** ١٨٩٩. Əkinə sərf etdiyi toxum istər şəxsin özünün olsun, istərsə də almış olsun, onu hasildən çıxıb sonra nisabı hesablaya bilməz; əksinə nisabı hasilin məcmusuna (hamısına) nisbətdə hesablayacaq.

**Məsələ:** ١٩٠٠. Dövlətin malın eynindən aldığı tutduğu vergiyə zəkat vacib deyildir və ondan artığına zəkat düşə bilər. Məsələn, əgər əkin məhsulu ٨٥٠ kq olduğu halda dövlət ٥٠ kq-ı vergi ünvanı ilə alsa, yalnız ٨٠٠ kq-ın zəkatı vacib olar.

**Məsələ:** ١٩٠١. İnsanın zəkat gəlməmişdən əvvəl çəkilən xərcləri ehtiyat vacibə əsasən, hasildən çıxa bilməz ki, yalnız qalanının zəkatını vermiş olsun.

**Məsələ:** ١٩٠٢. Zəkat vacib olandan sonra çəkilən xərclərdə, şəriət hakimindən icazə ala bilər və zəkatın miqdarına nisbətən xərclənən qədər götürə bilər.

**Məsələ:** ١٩٠٣. Zəkat vacib olmazdan əvvəl zəkat verilməsi caiz deyildir. Zəkat vacib olandan sonra da buğda və arpanın biçilib, samandan ayrılmasını və xurma ilə üzümün qurumasını gözləmək vacib deyildir, hətta, elə ki, zəkat vacib oldu, zəkatın miqdarını qiymət edib, o

qiyməti zəkat qəsdilə vermək olar.

**Məsələ:** ١٩٠٤. Zəkat vacib olandan sonra zəmi biçilməmişdən, ya xurma və üzüm dərilməmişdən öncə onun zəkatını müstəhəqqə, ya şəriət hakiminə, ya bu ikisinin vəkilinə müşa olaraq təhvil verə bilər, bundan sonra onun xərclərində ortaqdırlar.

**Məsələ:** ١٩٠٥. Mal sahibi əkinin və ya xurma və üzümün (qiymətini yox) eynini şəriət hakiminə və ya müstəhəqqə, ya onların vəkillərinə təhvil verdikdən sonra biçim və quruma vaxtına qədər onun yerində qalması müqabilində muzd tələb edə bilər.

**Məsələ:** ١٩٠٦. Əgər bir şəxsin əkin və meyvələri eyni vaxta yetişməyən və iqlimləri müxtəlif olan bir neçə şəhərdə buğda, arpa, xurma və üzüm kimi məhsulları olsa və onların hamısı bir ilin məhsulu sayılarsa, bu halda əvvəlcə yetişənin miqdarı nisab həddinə yetişərsə, onun zəkatını yetişdiyi vaxt, qalanların zəkatını da hər vaxt əldə etsə, o vaxt verməlidir. Əgər əvvəlki nisab həddində olmasa, onun qalanlarının yetişməsinə qədər gözləməlidir: əgər hamısı birlikdə nisab həddinə yetişərsə, zəkat vacib olar. Əgər nisab qədərində olmasalar, ona zəkat düşməz.

**Məsələ:** ١٩٠٧. Əgər xurma və üzüm ağacları ildə iki dəfə meyvə verərsə və üst-üstə nisab həddinə yetişərsə, vacib ehtiyata əsasən, ona zəkat düşür.

**Məsələ:** ١٩٠٨. Əgər qurusu nisab həddində olan bir qədər təzə xurma və üzümü varsa bu halda onun təzəsindən, zəkat qəsdilə quruyan zaman ona vacib olacaq zəkat qədərində verərsə, eybi yoxdur.

**Məsələ:** ١٩٠٩. Əgər bir şəxsə quru xurma və kişmişin zəkatı vacib olarsa, ona vacib olan zəkatı təzə xurma, ya üzümü zəkat qəsdilə verə bilməz. Həmçinin, əgər təzə xurma, ya üzümün zəkatı vacib olsa, quru xurma, ya kişmişi vacib zəkat qəsdilə verə bilməz. Eləcə də vacib ehtiyata əsasən, hər birinin təzə məhsulunu onun qurusu əvəzinə, yaxud onun qurusunu, qiyməti ünvanı ilə təzəsinin əvəzinə verə bilməz.

**Məsələ:** ١٩١٠. Borcu olan şəxs, eyni zamanda zəkat gəlmiş bir mala da malik olsa və ölsə, əvvəlcə zəkat gəlmiş malının hamısının zəkatı verilməli, sonra onun borcları ödənməlidir.

**Məsələ:** ١٩١١. Borclu olduğu halda buğda, arpa, xurma ya üzümü də olan şəxs əgər ölsə və onlara zəkat vacib olmamış varislər onun borcunu başqa malından versələr, onların hər birinin payı zəkat həddinə (٨٤٧ kq) çatsa zəkat verməlidir. Əgər mala zəkat gəlməmiş onun borcunu verməsələr, bu halda meyyitin malı ancaq borcu qədərindədirsə, ona zəkat vacib olmur. Əgər meyyitin malı borcundan çox olsa, zəkatı olan malı ümumi mala nisbət mülahizə edərək (yarısı, ١/٣, ١/٤ və s. kimi) həmin nisbətdə zəkatı olan maldan çıxsınlar. Sonra yerdə qalan varislərə keçir. Deməli, vərəsələrdən hər birinin payı nisab

həddinə çatsa, ona zəkat düşür.

**Məsələ:** ١٩١٢. Əgər zəkat gəlmiş buğda, arpa, xurma və kişmişin həm yaxşısı, həm də pisi olsa, vacib ehtiyata əsasən, yaxşı məhsulun zəkatı pis məhsuldan verilməsin.

## QIZIL VƏ GÜMÜŞÜN ZƏKATI

**Məsələ:** ١٩١٣. Qızılın iki nisabı vardır:

Onun birinci nisabı ٢٠ şər`i misqaldır ki, hər misqal ١٨ noxuddur. Məşhur nəzərə əsasən, adi seyrəfi misqalın ٣/٤-ə bərabərdir. Deməli, qızıl ١٥ seyrəfi misqala bərabər olan ٢٠ şər`i misqala çatdıqda, əgər deyiləcək digər şərtlərə də malik olsa, insan onun ٩ noxud olan ١/٤٠-ini zəkat olaraq verməlidir. Əgər bu qədərə çatmasa zəkat vacib deyildir.

Onun ikinci nisabı üç adi seyrəfi misqala bərabər olan dörd şər`i misqaldır. Yə`ni əgər (birinci nisab olan) ١٥ misqala ٣ adi misqal əlavə olunsa bütün ١٨ misqalın zəkatını ١/٤٠ nisbətilə verməlidir. Əgər ٣ misqaldan az əlavə olsa, yalnız ١٥ adi misqalın zəkatını verməlidir, artığının isə zəkatı yoxdur. Həmçinin, nə qədər artsa hökm eynidir. Yə`ni əgər ٣ misqal artsa onun hamısının zəkatını verməlidir, əgər ondan az əlavə olsa, artığın zəkatı yoxdur.

**Məsələ:** ١٩١٤. Gümüşün iki nisabı vardır:

Onun birinci nisabı ١٠٥ adi seyrəfi misqaldır, yə`ni gümüş ١٠٥ seyrəfi misqala çatsa və başqa şərtlərə də malik olsa, insan onun ١/٤٠-ini, yə`ni ٢ misqal ١٥ noxud olan miqdarda zəkat verməlidir. Əgər deyilən miqdarda çatmasa zəkatı vacib deyildir.

Onun ikinci nisabı ٢١ misqaldır, yə`ni ١٠٥ misqala ٢١ misqal əlavə olunsa bütün ١٢٦ misqalın zəkatını, yə`ni ١/٤٠-ini zəkat verməlidir. Əgər ٢١ misqaldan az əlavə olunsa, yalnız ١٠٥ misqalın zəkatını verməlidir və ondan artığının zəkatı yoxdur. Həmçinin, nə qədər əlavə olunsa, yə`ni ٢١ misqal artsa onun hamısının zəkatını verməlidir. Əgər ondan az əlavə olsa, ٢١ misqaldan az olduğu təqdirdə artığın zəkatı yoxdur. Buna əsasən, əgər insan malik olduğu qızıl və gümüşün ١/٤٠- ni zəkat versə ona vacib olan zəkatı vermiş olur, bə`zən vacib qədərdən də artıq vermiş olur, məsələn, ١١٠ misqal gümüşü olan kəs əgər onun ١/٤٠- ni zəkat versə, həm ١٠٥ misqalın vacib olan zəkatını, həm də vacib olmayan ٥ misqalın zəkatını da vermiş olur.

**Məsələ:** ١٩١٥. Qızıl, ya gümüşü nisab həddində olan kəs, onun zəkatını vermiş olsa da, birinci nisabdan azalmayana qədər hər il onun zəkatını verməlidir.

**Məsələ:** ١٩١٦. Qızıl və gümüşün zəkatı o surətdə vacib olur ki, ona sikkə vurulmuş olsun və onunla alver rəvac tapmış olsun. Əgər ona vurulmuş sikkə pozulmuş olsa da zəkatı verilməlidir.

**Məsələ:** ١٩١٧. Qadınların zinət kimi istifadə etdikləri sikkəli qızıl

və ya gümüş ilə alver etmək rəvacdırsa, yə`ni onunla qızıl, ya gümüş pul olaraq müamilə edilərsə, ehtiyata əsasən, onun zəkatı vacibdir. Ancaq onunla müamilə rəvacda olmazsa, zəkatı vacib deyildir.

**Məsələ:** ١٩١٨. Bir şəxsin, heç birinin birinci nisab həddində olmadığı qədər qızıl və gümüşü olarsa, məsələn, ١٠٢ misqal gümüş və ١٤ misqal qızılı olmuş olsa, ona zəkat vacib deyildir.

**Məsələ:** ١٩١٩. Əvvəllər deyildiyi kimi, qızıl və gümüşün zəkatı o surətdə vacib olur ki, insan on bir ay ərzində nisab qədərində qızıl və gümüşə malik olsun. Əgər on bir ay əsnasında onun qızıl, ya gümüşü birinci nisabdan azalsa, ona zəkat vacib deyildir.

**Məsələ:** ١٩٢٠. Əgər on bir ay əsnasında malik olduğu qızıl, ya gümüşü başqa bir qızıl, ya gümüşlə, yaxud digər bir şeylə dəyişsə yaxud onları əritsə, ona zəkat vacib olmaz. Lakin bu işləri zəkat verməkdən boyun qaçırmaq üçün etsə, müstəhəbb ehtiyat budur ki, zəkat versin.

**Məsələ:** ١٩٢١. Əgər on ikinci ay qızıl, ya gümüş pulu əritsə, onların zəkatını verməlidir. Əgər əritmək vasitəsilə onların qiyməti, ya çəkisi azalarsa, əritməmişdən əvvəl ona vacib olan zəkatı verməlidir.

**Məsələ:** ١٩٢٢. Əgər malik olduğu qızıl, ya gümüşün həm pisi, həm də yaxşısı olsa, hər birinin zəkatını onların özündən verə bilər. Ancaq daha yaxşı olar ki, onların hamısının zəkatını yaxşı qızıl və ya gümüşdən versin. Ehtiyat vacib budur ki, onların hamısının zəkatını pis növdən verməsin.

**Məsələ:** ١٩٢٣. Adi qaydadan çox başqa filizlə qarışmış olan qızıl və gümüş pula əgər "qızıl və gümüş pul" deyilsə və xalisi nisab həddinə çatdıqda zəkatı vacib olur. Həmçinin, vacib ehtiyata əsasən, özü nisab həddinə çatsa, amma xalisi çatmasa da eyni hökmdədir. Lakin əgər ona "qızıl, ya gümüş pul" deməsələr, xalisi nisab həddinə çatsa da, əqva nəzər budur ki, ona zəkat düşmür.

**Məsələ:** ١٩٢٤. Əgər malik olduğu qızıl, ya gümüş adi miqdarda başqa filizlə qarışıq olsa, onun zəkatını adi qaydadan artıq başqa filizlə qarışıq olan qızıl, ya gümüşdən verə bilməz. Ancaq ona vacib olan zəkatı tərkibində xalis qızıl, ya gümüş olandan o qədərdə versə ki, ona vacib olan zəkat qədərində olsa, eybi yoxdur. Həmçinin, onun qiyməti ona vacib olan zəkat qədərində olsa və vacib zəkat ünvanı ilə verdikdə də hökm eynidir.

## DƏVƏ, İNƏK VƏ QOYUNUN ZƏKATI

**Məsələ:** ١٩٢٥. Dəvə, inək və qoyunun zəkatında yuxarıda deyilmiş şərtlərdən əlavə, iki şərt də vardır:

١-Heyvan bütün il boyu işləməsin; amma əgər bütün il boyu bir-iki gün işləmiş olsa, əqva budur ki, ona zəkat gələr.

٢-İl boyu çöldə otlamış olsun. Deməli, əgər bütün il boyu, ya ilin

bir qədərin biçilmiş otdan yesə, ya özünün və ya başqasının mülkü olan əkin sahəsindən otlasa, zəkatı yoxdur. Lakin bütün il ərzində bir-iki gün sahibinin verdiyi otdan yesə, əqva budur ki, zəkat vacib olur.

**Məsələ:** ١٩٢٦. Əgər insan öz dəvəsi, inəyi və qoyunu üçün heç kəsin əkmədiyi bir otlaq alsa, ya icarəyə götürsə, ehtiyat vacibə əsasən onun zəkatını verməlidir. Lakin orada otarmaq üçün xərc versə zəkatı vacibdir.

***Dəvənin nisabı***

**Məsələ:** ١٩٢٧. Dəvənin on iki nisabı vardır:

| | |
|---|---|
| ١. ٥ dəvə; | onun zəkatı bir qoyundur. Dəvələrin sayı bu həddə çatmasa zəkam düşmür. |
| ٢. ١٠ dəvə; | onun zəkatı iki qoyundur. |
| ٣. ١٥ dəvə; | onun zəkatı üç qoyundur. |
| ٤. ٢٠ dəvə; | onun zəkatı dörd qoyundur. |
| ٥. ٢٥ dəvə; | onun zəkatı beş qoyundur. |
| ٦. ٢٦ dəvə; | onun zəkatı ikinci ilinə daxil olmuş bir dəvədir. |
| ٧. ٣٦ dəvə; | onun zəkatı üçüncü ilinə daxil olmuş bir dəvədir. |
| ٨. ٤٦ dəvə; | onun zəkatı dörd yaşına daxil olmuş bir dəvədir. |
| ٩. ٦١ dəvə; | onun zəkatı beş yaşına daxil olmuş bir dəvədir. |
| ١٠. ٧٦ dəvə; | onun zəkatı üç yaşına daxil olmuş iki dəvədir. |
| ١١. ٩١ dəvə; | onun zəkatı dörd yaşına daxil olmuş iki dəvədir. |
| ١٢. ١٢١ dəvə və ondan da çox | onun zəkatı ya qırx-qırx hesablanır və hər qırx baş üçün üç yaşına daxil olmuş bir dəvə verilir, ya da əlli-əlli hesablanaraq hər əlli dəvə üçün dörd yaşına daxil olmuş bir dəvə verilir və ya qırx-əlli kimi hesablanmalıdır. Lakin hər bir surətdə elə hesablanmalıdır ki, bir şey artıq qalmasın, yaxud artıq qalsada, doqquzdan artıq olmasın. Məsələn, əgər yüz qırx dəvəsi olsa, yüzü üçün dörd yaşına keçən iki dəvə, qırxı üçün üç yaşına keçən bir dəvə verməlidir. Zəkat olaraq verilən dəvə dişi olmalıdır. |

**Məsələ:** ١٩٢٨. İki nisabın arasında olan saylarda zəkat vacib deyildir. Deməli, əgər malik olduğu dəvələrin sayı birinci nisab sayılan beşdən keçsə və ikinci nisab olan ona çatmasa, yalnız beş dəvənin zəkatını verməlidir. Sonrakı nisabların da hökmü eynilə belədir.

***İnəyin nisabı***

**Məsələ:** ١٩٢٩. İnəyin iki nisabı vardır:

Onun birinci nisabı otuz baş inəkdir. İnəklərin sayı otuza çatdısa,

əgər deyilmiş şərtlərə malik olsa, iki yaşına keçən bir dana zəkat olaraq verilməlidir. Vacib ehtiyata əsasən, həmin dana erkək olmalıdır. Həmçinin, inəklərin sayının doxsana çatdığı hal istisna olmaqla, iki yaşa keçən dana verməli olduğu hər vaxt hökm eynidir. Amma doxsana çatanda vacib ehtiyata əsasən, iki yaşına keçən üç baş dişi dana verməlidir.

Onun ikinci nisabı qırx başdır və onun zəkatı üç yaşına keçən bir dişi danadır. Otuzla qırx arasındakı saylarda zəkat vacib deyildir. Məsələn, bir şəxsin otuz doqquz baş inəyi olsa, yalnız otuzun zəkatı vacibdir. Həmçinin, qırx baş inəyi olsa, nə qədər ki, altmışa çatmayıbdır, yalnız onun qırxının zəkatını verməlidir. Altmışa çatandan sonra isə, birinci nisabın iki bərabəri olduğu üçün, iki yaşına keçən iki dana verməlidir. Həmçinin, nə qədər artsa ٣٠-٣٠, ya ٤٠-٤٠, ya da ٣٠-٤٠ kimi hesablanmalı və onun zəkatı deyilmiş qaydaya əsasən verilməlidir. Lakin bu zaman elə hesablanmalıdır ki, bir şey artıq qalmasın, yaxud qalsa da doqquzdan çox qalmasın. Məsələn, əgər yetmiş inəyi varsa, gərək ٣٠-٤٠ hesabı ilə hesablasın və onun ٣٠ ədədi üçün ٣٠-a aid zəkatını, ٤٠ ədədi üçün isə ٤٠-a aid zəkatını versin. Çünki, əgər ٣٠-٣٠ hesabı ilə hesablasa on baş inəyin zəkatı verilməmiş qalır.

***Qoyunun nisabı***

**Məsələ:** ١٩٣٠. Qoyunun beş nisabı vardır:

١. Qırx baş; onun zəkatı bir qoyundur. Qoyunların sayı ٤٠-a çatmayınca zəkatı yoxdur.

٢. ١٢١ ədəd; onun zəkatı iki qoyundur.

٣. ٢٠١ ədəd; onun zəkatı üç qoyundur.

٤. ٣٠١ ədəd; onun zəkatı dörd qoyundur.

٥. ٤٠٠ və ondan artıq; belə olduqda yüz-yüz hesablayıb, hər yüz baş üçün bir qoyun zəkat olaraq verməlidir.

Zəkatı qoyunların özündən vermək lazım (vacib) deyil. Hətta başqa qoyun, ya qoyunun qiymətinə uyğun olaraq pul versə də kifayətdir.

**Məsələ:** ١٩٣١. İki nisabın arasında olan heyvanların zəkatı vacib deyildir. Deməli, əgər bir kəsin qoyunlarının sayı qırx ədəd olan birinci nisabdan çox olsa, ١٢١ ədəd olan ikinci nisaba çatmayınca yalnız ٤٠ başın zəkatını verməlidir, artığının isə zəkatı yoxdur. Həmçinin, sonrakı nisabların da hökmü eynidir.

**Məsələ:** ١٩٣٢. Hamısının erkək ya dişi, yaxud bəzisinin erkək, bə`zisinin isə dişi olmasından asılı olmayaraq nisab həddinə çatdıqda dəvənin, inəyin və qoyunun zəkatı vacibdir.

**Məsələ:** ١٩٣٣. Zəkatda inək və camış bir cins hesab olunur. Ərəb və qeyri-ərəb dəvəsi də bir cinsdir. Həmçinin, keçi, dişi qoyun və şişək

(bir illik) qoyunun zəkat verilməsində fərqləri yoxdur.

**Məsələ:** ١٩٣٤. Əgər zəkat olaraq qoyun versə, ehtiyata əsasən, ən azı ikinci ilinə keçən olmalıdır. Əgər keçi versə, ehtiyata əsasən, üçüncü ilinə keçən olmalıdır.

**Məsələ:** ١٩٣٥. Zəkat ünvanı ilə verilən qoyunun qiyməti əgər başqa qoyunlardan azacıq aşağı olsa, eybi yoxdur, lakin qiyməti bütün qoyunlardan çox olanı verməsi daha yaxşıdır. İnək və dəvə də bu hökmdədir.

**Məsələ:** ١٩٣٦. Əgər bir neçə nəfər bir-birilə şərik olsalar, hər birinin payı birinci nisaba çatdıqda zəkat verməlidir. Payı birinci nisabdan az olana isə zəkat vacib deyildir.

**Məsələ:** ١٩٣٧. Əgər bir nəfərin bir neçə yerdə dəvəsi, inəyi, ya qoyunu olsa və üst-üstə nisab həddinə çatsa onların zəkatını verməlidir.

**Məsələ:** ١٩٣٨. Əgər malik olduğu dəvə, inək və qoyunları xəstə və eybli olsa, zəkatını verməlidir.

**Məsələ:** ١٩٣٩. Əgər malik olduğu dəvə, inək və qoyunların hamısı xəstə, ya eybli, ya qoca olsalar, zəkatını onların özündən verə bilər. Lakin hamısı sağlam, eybsiz və cavan olsalar, zəkatını xəstə, eybli, ya qocadan verə bilməz. Hətta əgər bə`zisi sağlam, bə`zisi xəstə; ya bir qismi eybsiz, digər bir qismi eybli, ya bir qədəri cavan, bir qədəri ilə qoca olsa, cərək onların zəkatını sağlam, eybsiz və cavan heyvandan versin.

**Məsələ:** ١٩٤٠. Əgər on birinci ay tamam olmamış malik olduğu dəvə, inək və qoyunu başqa şeylə dəyişsə, ya malik olduğu nisab qədərini həmin növdən olan digər nisab qədəriylə dəyişsə, məsələn, ٤٠ qoyun verib başqa ٤٠ qoyun alsa zəkat ona vacib deyildir.

**Məsələ:** ١٩٤١. Dəvə, inək və qoyunun zəkatını verməli olan kəs əgər onun zəkatını başqa malından versə, onların sayı nisab həddindən azalmayınca, hər il onların zəkatını verməlidir. Əgər onların özündən versə və birinci nisabdan azalsa ona zəkat vacib deyildir. Məsələn, ٤٠ qoyunu olan şəxs əgər onların zəkatını başqa malından versə, onun qoyunlarının sayı ٤٠-dan az olmayınca hər il bir qoyun (zəkat) verməlidir. Əgər zəkatı onların özündən versə, ٤٠-a çatmayınca zəkat ona vacib deyildir.

## ZƏKATIN XƏRCLƏNDİYİ YERLƏR

**Məsələ:** ١٩٤٢. Zəkat səkkiz yerdə sərf edilə bilər:

١. Fəqir; və o, özünün və ailəsinin illik xərcini ödəyə bilməyən şəxsdir. Lakin sənəti, (peşəsi) mülkü və ya sərmayəsi olub onunla illik xərcini ödəyə bilən şəxs fəqir deyildir.

٢. Miskin; o, fəqirdən də çətin vəziyyətdə yaşayana deyilir.

٣. İmam (əleyhissalam) ya onun naibi tərəfindən zəkatı toplamağa,

qorumağa, hesabat aparmağa, zəkatı İmama (əleyhissalam), ya naibinə, ya fəqirlərə çatdırmağa mə`mur olan kəsə.

٤. O müsəlmanlar ki, Allahın yeganəliyinə və Həzrət Muhəmmədin (səlləllahu əleyhi və alih) peyğəmbərliyinə şəhadət verib, amma islamda əqidəsi möhkəm, sabit deyillər, belə ki, zəkat veriləcəyi təqdirdə imanlarının güclənsin. Lakin həmin yerdə fəqir varsa və zəkatı ikisindən birinə – fəqirə, yoxsa onlara sərf etməli olduqda, vacib ehtiyata əsasən, fəqirə sərf verilməlidir və zəkatın sərf olunacağı yeddinci yerdə də bu ehtiyata riayət edilməlidir.

٥. Çətinlikdə olan müsəlman bir qulu alıb azad etməyə, həmçinin, zəkat üçün müstəhəqq tapılmadıqda çətinlikdə olmasa da belə, qulu alıb azad etməyə;

٦. Borcunu ödəyə bilməyən borclu kimsəyə, bu şərtlə ki, zəkat veriləcəyi təqdirdə onu günahda istifadə etməmiş olsun.

٧. Allah yolunda, yə`ni qürbət qəsdilə yerinə yetirilə bilən xeyriyyə işləri və vacib ehtiyata görə məscidlər, dini mədrəsələr, xəstəxana, yaşlılar üçün istirahət (qocalar) evinin tikintisi kimi ümumi faydası olan işlərə

٨. İbnüs-səbil – yə`ni səfər zamanı (pulu qurtarıb) yolda qalmış müsafirə.

Bütün bunların hökmləri sonrakı məsələlərdə deyiləcək.

**Məsələ:** ١٩٤٣. Vacib ehtiyat budur ki, fəqir və miskin zəkatdan özü və ailəsinin bir illik xərcindən çox götürməsin. Əgər özünün bir qədər pulu, ya malı varsa, yalnız illik xərcinə çatmayan qədərdə zəkatdan götürsün.

**Məsələ:** ١٩٤٤. İllik xərcinə malik olan şəxs ondan bir az xərcləyib sonra qalanının illik xərcinə çatıb-çatmamasında şəkk etsə, zəkat ala bilməz.

**Məsələ:** ١٩٤٥. Gəliri illik xərcindən az olan sənətkar, malik, ya tacir xərcinin çatmayan miqdarı qədər zəkat ala bilər və əmək alətlərini, mülkünü, ya öz sərmayəsini (satıb) dolanışığına sərf etməyi lazım deyil.

**Məsələ:** ١٩٤٦. Özünün və ailəsinin illik xərci olmayan bir fəqir, özünə məxsus olan və orada yaşadığı evi, ya minik vasitəsi varsa, bunlarsız yaşaya bilməzsə, hətta abır-heysiyyətini qorumaq üçün olsa da, zəkat ala bilər. Eləcə də, ehtiyacı olduğu ev avadanlığı, qab-qaşıq, yay və qış paltarları və başqa şeylərə nisbətdə də hökm eynidir. Bunlara malik olmayan fəqirin əgər həmin şeylərə ehtiyacı varsa, onları zəkat alaraq əldə edə bilər.

**Məsələ:** ١٩٤٧. Sənət, peşə öyrənməkdə çətinlik çəkməyən fəqir sənət öyrənməli və zəkat almaqla yaşamamalıdır. Lakin onları öyrənməklə məşğul olduğu vaxta qədər zəkat ala bilər.

**Məsələ:** ١٩٤٨. Əvvəllər fəqir olan və «fəqirəm» deyən kəsin

fəqirlikdən çıxıb-çıxmaması barədə şəkk olunduqda, onun sözündən arxayınlıq gəlməsə də, ona zəkat vermək olar. Amma əvvəllər fəqir olub-olmaması mə`lum olmayan bir kəs «fəqirəm» desə və onun sözündən arxayınlıq hasil olmasa, vacib ehtiyata əsasən, ona zəkat vermək olmaz.

**Məsələ:** ١٩٤٩. Əvvəllər fəqir olmadığı halda «fəqirəm» deyən kəsin sözündən arxayınlıq hasil olmasa, ona zəkat vermək olmaz.

**Məsələ:** ١٩٥٠. Zəkat verməli olan şəxsin bir fəqirdən alacağı varsa, həmin borcu zəkatdan hesab edə bilər. Lakin o, borclunun həmin malı günahda istifadə etdiyini bilərsə, borcun ödənməsi üçün sərf olunan zəkatdan hesab edə bilməz.

**Məsələ:** ١٩٥١. Əgər bir fəqir ölsə və onun malı borcu qədərində olmazsa, insan ondan almalı olduğu borcu zəkat olaraq hesab edə bilər. Lakin o, fəqirin borclu olduğu malı günaha sərf etdiyini bilsə, onun borcunun ödənməsi üçün onu zəkatdan hesab edə bilməz.

Əgər meyyitin malı onun borcu qədərində olarsa və varisləri onun borcunu qaytarmasalar, başqa bir səbəbə görə insan borcunu geri ala bilməsə, vacib ehtiyata əsasən, ondan alacağını zəkat olaraq hesab etməməlidir.

**Məsələ:** ١٩٥٢. İnsan bir şeyi zəkat olaraq fəqirə verərkən «zəkatdır» deməsi lazım deyildir. Əksinə, əgər fəqir xəcalət çəkərsə, müstəhəbbdir ki, malın zəkat olduğunu demədən ona zəkat qəsdilə versin.

**Məsələ:** ١٩٥٣. Əgər bir kəsin fəqir olduğunu güman edib ona zəkat versə və sonra fəqir olmadığını başa düşsə, ya məsələni bilməməzlikdən fəqir olmadığını bildiyi bir kəsə zəkat versə, bu halda ona verdiyi mal qalırsa, onu geri almalı və müstəhəqqə verməlidir. Əgər onu ala bilməsə, zəkatın əvəzini gərək öz malından versin. Əgər o mal tələf olub aradan gedibsə, bu halda onu alan şəxs aldığı şeyin zəkat olduğunu bilə-bilə alıbsa, insan onun əvəzini ondan ala bilər və müstəhəqqə verər. Əgər zəkat olduğunu bilmədən alıbsa malı verən şəxs ondan bir şey ala bilməz və gərək insan zəkatın əvəzini öz malından müstəhəqqə versin.

**Məsələ:** ١٩٥٤. Borcu olub onu verə bilməyən bir kəs, illik xərcinə malik olsa da belə, öz borcunu qaytarmaq üçün zəkat ala bilər. Lakin borc götürdüyü malı günaha sərf etməmiş olmalıdır.

**Məsələ:** ١٩٥٥. Əgər borcu olub, onu qaytara bilməyən bir kəsə zəkat versələr və sonra borcu günaha sərf etdiyini bilsələr, bu halda borclu şəxs fəqirdirsə, ona verdiyini fəqir verilən zəkatdan hesab edə bilər.

**Məsələ:** ١٩٥٦. Fəqir olmasa da, borclu olub onu qaytara bilməyən kəsdən almalı olduğu borcunu zəkatdan hesab edə bilər. Lakin fəqir

olmasa, bu halda borcu günahda sərf etdiyini bildiyi surətdə onu zəkat hesab edə bilməz.

**Məsələ:** ١٩٥٧. Yol xərci tamam olmuş, ya miniyi işdən düşmüş müsafirin səfəri günah olmasa və borc etməklə, ya bir şeyi satmaqla məqsədə çata bilməsə, vətənində fəqir olmasa da, zəkat ala bilər. Lakin başqa bir yerdə borc etməklə, ya bir şey satmaqla səfər xərcini tə`min edə bilərsə, yalnız ora çatmasına lazım qədər zəkat ala bilər.

**Məsələ:** ١٩٥٨. Səfər zamanı yolda qalan və zəkat almış müsafir vətəninə çatandan sonra əgər aldığı zəkatdan artıq qalmış olsa və onu zəkat verənə qaytara bilməsə, yaxud ona qaytarmağın məşəqqəti, əziyyəti olsa onu şəriət hakiminə verib, onun zəkat olduğunu deməlidir.

## ZƏKAT ALMAĞA HAQQI OLAN KƏSLƏRİN – MÜSTƏHƏQLƏRİN ŞƏRTLƏRİ

**Məsələ:** ١٩٥٩. Zəkat alan kəs on iki İmam şiəsi olmalıdır. Əgər insan bir nəfəri şiə bilib ona zəkat versə və sonradan şiə olmadığı mə`lum olsa, zəkatı yenidən verməlidir.

**Məsələ:** ١٩٦٠. Əgər on iki İmam şiəsindən olan uşaq və ya dəli fəqir olsa, insan o uşağın, ya dəlinin mülkü olması qəsdilə onun vəlisinə zəkat verə bilər, vəlisi də həmin qəsdlə zəkatı ala bilər.

**Məsələ:** ١٩٦١. Əgər uşağın və dəlinin vəlisinə əli çatmasa, özü, ya bir nəfər əmin şəxsin vasitəsilə zəkatı uşaq, ya dəlinin işlərinə sərf edə bilər. Zəkatı onlar üçün sərf edərkən zəkat niyyəti etməlidir. Amma uşağın, ya dəlinin vəlisinə əli çatdığı surətdə vacib ehtiyat budur ki, onun vasitəsi, ya icazəsi ilə onlar üçün sərf etsin.

**Məsələ:** ١٩٦٢. Diləncilik edən bir fəqirə zəkat vermək olar, lakin zəkatı günah işlərdə xərcləyənə zəkat vermək olmaz.

**Məsələ:** ١٩٦٣. Böyük günahları aşkarda yerinə yetirən kəsə və vacib ehtiyata əsasən, namazı tərk edənə və spirtli içki (şərab) içənə zəkat vermək olmaz.

**Məsələ:** ١٩٦٤. Borcu olub borcunu ödəyə bilməyən şəxsin, xərcləri insana vacib olsa da, onun borcunu zəkatdan vermək olar.

**Məsələ:** ١٩٦٥. İnsan, övlad kimi xərci onun öhdəsinə vacib olanların xərclərini özü zəkatdan ödəyə bilməz. Lakin onların xərclərini verməsə başqaları onlara zəkat verə bilərlər.

**Məsələ:** ١٩٦٦. Əgər insan zəkatı öz oğluna versə ki, onu öz arvadı, nökəri və ailəsinə xərcləsin, eybi yoxdur.

**Məsələ:** ١٩٦٧. Əgər oğulun elmi və dini kitablara ehtiyacı olsa, ata onları zəkatdan alıb onları oğlunun istifadəsinə verə bilər. Əgər kitabları "Allah yolunda" qismindən olan zəkatdan almaq istəsə, ehtiyata əsasən, bu işdə (şəxsi deyil) ümumi məsləhət olmalıdır.

**Məsələ:** ١٩٦٨. Oğulun evlənməyə ehtiyacı olduqda, ata öz

zəkatını oğluna verə bilər ki, evlənməyinə sərf etsin. Həmçinin, oğul da ataya nisbətdə bu cür edə bilər.

**Məsələ:** ١٩٦٩. Xərci əri tərəfindən tə`min olunan qadına, eləcə də, əri xərcini verməsə də onun xərci ödəməyə məcbur etmək mümkün olan qadına zəkat vermək olmaz.

**Məsələ:** ١٩٧٠. Sığə olunmuş qadın əgər fəqir olarsa, əri və başqaları ona zəkat verə bilərlər. Lakin əri əqddə onun xərcini verməyi şərt etsə, ya başqa bir səbəbə görə arvadının xərcini vermək ona vacib olarsa, o qadının xərcini ödədiyi surətdə ona zəkat vermək olmaz.

**Məsələ:** ١٩٧١. Qadın öz fəqir ərinə zəkat verə bilər, hətta əri zəkatı o qadının öz xərclərinə sərf etsə belə.

**Məsələ:** ١٩٧٢. Seyyid olan şəxs qeyri-seyyiddən zəkat ala bilməz. Lakin xüms və başqa vücuhat onun illik xərcinə kifayət etməsə və seyyid olmayan kəsdən zəkat almağa məcbur olsa, ondan gündəlik xərci qədərində zəkat ala bilər.

**Məsələ:** ١٩٧٣. Seyyid olub-olmadığı mə`lum olmayan kəsə zəkat vermək olar.

## ZƏKATIN NİYYƏTİ

**Məsələ:** ١٩٧٤. İnsan zəkatı dəstəmazda qeyd olunduğu kimi, qürbət qəsdilə və ixlasla verməli və niyyətdə onun fitrə, yoxsa malın zəkatı olduğunu müəyyən etməlidir.

**Məsələ:** ١٩٧٥. Bir neçə malın zəkatı vacib olan kəs, vacib ehtiyata əsasən, verdiyi zəkatın hansı malın zəkatı olduğunu müəyyən etməlidir. Bu zaman verdiyi zəkatın pul, yaxud o malın biri ilə eyni növdən olmasının fərqi yoxdur.

**Məsələ:** ١٩٧٦. Əgər bir şəxs, malının zəkatını vermək üçün başqasını vəkil etsə, vəkil zəkatı fəqirə verərkən onu malikin tərəfindən verməsini niyyət etməlidir. Malik də ehtiyata əsasən, həmin vaxtda zəkat niyyəti etməlidir. Əgər malik verdiyi zəkatı fəqirə çatdırmaq üçün bir kəsi vəkil etsə, malik zəkatın fəqirə verildiyi vaxt niyyət etməlidir. Müstəhəbb ehtiyat budur ki, zəkatı vəkilə verən vaxtdan e`tibarən niyyəti etsin və onun fəqirə çatacağı ana qədər öz niyyətində qalsın.

**Məsələ:** ١٩٧٧. Əgər qürbət qəsdi etmədən zəkatı fəqirə versə və həmin mal (fəqirin əlində) tələf olmamışdan öncə zəkat niyyəti etsə, zəkat hesab olunar.

## ZƏKATIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ١٩٧٨. Buğda və arpanı samandan ayıran vaxt, eləcə də xurma və üzüm quruduqda insan gərək zəkatı fəqirə versin, ya öz malından ayırsın. Qızıl, gümüş, dəvə, inək və qoyunun zəkatını on birinci ay tamam olandan sonra fəqirə verməli, ya öz malından

ayırmalıdır. Lakin müəyyən bir fəqiri gözləsə, ya hansısa üstün bir cəhəti olar fəqirə vermək istəsə, yazıb, qeyd etmək şərtilə zəkatı hələ ayırmaya bilər. Vacib ehtiyat budur ki, onu üç aydan artıq gecikdirməsin.

**Məsələ:** ١٩٧٩. Malın zəkatını ayırdıqdan sonra onu dərhal müstəhəqqə çatdırmaq lazım (vacib) deyil. Lakin əgər müstəhəqqə əli çatırsa, müstəhəbb ehtiyat budur ki, onu verməyi tə`xirə salmasın.

**Məsələ:** ١٩٨٠. Zəkatı müstəhəqqinə çatdıra bilən şəxs əgər onu çatdırmasa və saxlamaqda səhlənkarlığa yol verdiyinə görə tələf olsa, gərək onun əvəzini versin.

**Məsələ:** ١٩٨١. Zəkatı müstəhəqqə çatdırmaq imkanı olan şəxs onu çatdırmasa və saxlamaqda səhlənkarlıq etməsə, eləcə də onu verməməkdə müəyyən bir fəqirə vermək, ya daha fəzilətli bir yerə sərf etmək kimi, şər`i bir məqsədi olsa (və tələf olsa), zamin deyildir. Amma deyilən surətdən başqa hallarda zamindir.

**Məsələ:** ١٩٨٢. Əgər zəkatı öz malından ayırıb kənara qoysa, o malın yerdə qalanından istifadə (təsərrüf) edə bilər. Əgər zəkatı başqa malından ayırıb kənara qoysa, bütün malından istifadə edə bilər.

**Məsələ:** ١٩٨٣. İnsan zəkat üçün ayırdığı malı özü üçün götürüb, yerinə başqa bir şey qoya bilməz.

**Məsələ:** ١٩٨٤. İnsanın zəkat üçün ayırıb qoyduğu malından mənfəət hasil olsa, məsələn, zəkat üçün ayırdığı qoyun bala versə, fəqirin malıdır.

**Məsələ:** ١٩٨٥. Əgər zəkatı ayıran vaxt müstəhəqq olan bir kəs yanında olsa, zəkatı ona vermək daha yaxşıdır. Lakin zəkat verilməsi müəyyən cəhətdən üstün olan başqa bir kəsi olsa, nəzərdə tutsa, bu istisnadır.

**Məsələ:** ١٩٨٦. Əgər şəriət hakiminin icazəsi olmadan zəkat üçün ayrılmış mal ilə ticarət edib ziyana düşərsə, bu halda alver zimməsində olarsa və alver etdiyi o malı «mafizzimmə»ni ödəmək qəsdi ilə verərsə, ziyanı malikindir və zəkata zamindir. Əgər zəkat olaraq verəcəyi malın eyni ilə alver edərsə, alver batildir və şəriət hakiminin icazəsilə alver səhih olunası deyildir. Əgər mənfəət əldə etsə bu halda zimməsindəki mal ilə alver edib və o malı mafizzimmə qəsdilə versə, malın mənfəəti onundur və zəkata zamindir. Əgər zəkat olaraq veriləsi malın özü ilə alver etsə və şəriət hakimi bu alverə icazə versə, mənfəəti gərək müstəhəqqə versin.

**Məsələ:** ١٩٨٧. Əgər zəkatın verilməsi vacib olmazdan öncə zəkat hesabından fəqirə bir şey versə, bu, zəkat hesab olunmaz. Zəkatı verilməsi vacib olandan sonra, fəqirə verdiyi şey tələf olmayıbsa, fəqir də öz fəqirliyində qalmışsa, ona verdiyi həmin şeyi zəkatdan hesab edə bilər.

**Məsələ:** ١٩٨٨. Bir kəsə zəkatın vacib olmadığını bilən fəqir, zəkat ünvanı ilə həmin kəsdən bir şey alsa və aldığı şey tələf olsa, aldığına zamindir. Deməli, insana zəkat vacib olan vaxt əgər fəqirdə öz fəqirliyində qalmış olsa, ona verdiyi şeyin əvəzini zəkatdan hesab edə bilər.

**Məsələ:** ١٩٨٩. Bir insana zəkatın vacib olmadığını bilməyən fəqir, əgər ondan zəkat ünvanı ilə bir şey alarsa və onun əlində tələf olarsa, aldığına zamin deyildir və insan onun əvəzini zəkatdan hesab edə bilməz.

**Məsələ:** ١٩٩٠. İnək, qoyun və dəvənin zəkatını abır-həyalı fəqirlərə vermək müstəhəbbdir. Habelə, zəkat verərkən öz qohumlarını başqalarından, elm və kamal əhlini qeyrilərindən, bir şey istəməyənləri istəyənlərdən qabağa salmaq müstəhəbbdir. Lakin zəkatı hər hansı bir fəqirə vermək digər bir cəhətdən üstün olsa, zəkatı ona vermək müstəhəbbdir.

**Məsələ:** ١٩٩١. Zəkatı aşkar, müstəhəbbi sədəqəni isə gizli surətdə vermək daha fəzilətlidir.

**Məsələ:** ١٩٩٢. Əgər zəkat vermək istəyən kəsin şəhərində zəkata müstəhəqq olan bir kəs olmasa və zəkatı, onun üçün müəyyən olunmuş digər yerlərdə də istifadə edə bilməsə, bu halda sonradan müstəhəqq tapılacağına ümid yoxdursa, onda onu digər şəhərə aparıb sərf olunası yerlərə çatdırması gərəkdir. Bu halda yol xərcini də zəkatdan götürə bilər və vacib ehtiyat budur ki, bu xərcləri (zəkatdan) götürmək şəriət hakiminin icazəsi ilə olsun. Bu zaman zəkat tələf olsa, onu saxlamaqda səhlənkarlığa yol vermədiyi surətdə o şəxs zəkata zamin deyildir.

**Məsələ:** ١٩٩٣. Öz şəhərində müstəhəqq ola-ola zəkatı digər bir şəhərə apara bilər, lakin (bu halda) yol xərcini özündən verməlidir və əgər zəkat tələf olsa, zəkata zamindir, yalnız şəriət hakiminin göstərişilə apardığı hal istisnadır.

**Məsələ:** ١٩٩٤. Zəkat üçün verməli olduğu buğda, arpa, xurma və kişmişi çəkməyə və qabla ölçməyə görə ödənilən haqq, malikin öz öhdəsindədir.

**Məsələ:** ١٩٩٥. İki misqal və ١٥ noxud gümüş, ya ondan da artıq zəkat borcu olan şəxs üçün müstəhəbb ehtiyat budur ki, bir fəqirə ٢ misqal və ١٥ noxuddan az gümüş verməsin. Həmçinin, gümüşdən başqa, buğda və arpa kimi digər bir şeydən zəkat borcu olarsa və onun qiyməti ٢ misqal və ١٥ noxud gümüşə çatsa, müstəhəbb ehtiyat budur ki, bir fəqirə həmin miqdardan az verməsin.

**Məsələ:** ١٩٩٦. İnsanın müstəhəqq bir kəsdən, verdiyi zəkatı onun özünə satmasını istəməsi məkruhdur. Lakin müstəhəqq özü (zəkat ünvanı ilə) aldığı şeyi satmaq istəsə, qiymətini tə`yin edəndən sonra zəkat verən onu almaqda digərlərindən irəlidir.

**Məsələ:** ١٩٩٧. Bir şəxs ona vacib olan zəkatı verib-vermədiyində şəkk etsə və zəkat gəlmiş malı mövcuddursa, onun şəkki əvvəlki illərin zəkatına nisbətdə olsa da, zəkat verməlidir. Əgər o mal tələf olubsa, (şəkki) hazırkı ildə olsa da, ona zəkat vacib deyildir.

**Məsələ:** ١٩٩٨. Fəqir zəkatı, onun miqdarından az məbləğə sülh edə, ya zəkat olaraq onun qiymətindən bahalı bir şey ala, eləcə də zəkatı malikindən alıb ona bağışlaya bilməz. Lakin zəkat borcu olan bir kəs fəqir olarsa və zəkatı verə bilməsə, tövbə etmək istəyərsə, fəqir zəkatı ondan alıb, yenidən onun özünə bağışlaya bilər.

**Məsələ:** ١٩٩٩. Fiqh alimlərindən bir dəstəsi (Allah onların məqamını ucaltsın!) buyurmuşlar: "İnsan zəkatdan bir yeri vəqf edə, yaxud Qur`an, dini və dua kitabları alıb vəqf edə bilər. Həmçinin, vəqfin sərpərəstliyini özü və övladı üçün qərar verə bilər." Lakin şəriət hakiminə müraciət etmədən malikin vəqfə rəhbərlik etməsi və ya vəqfə mütəvəlli tə`yin etməsi məhəlli-işkaldır.

**Məsələ:** ٢٠٠٠. İnsan zəkatdan bir mülk alıb övlad, yaxud xərcələrini ödəmək ona vacib olan kəslərə vəqf edə bilməz ki, vəqfdən gələn gəliri özləri üçün xərcləsinlər.

**Məsələ:** ٢٠٠١. İnsan həccə, ziyarətə və bu kimi yerlərə getmək üçün fəqir olmasa da belə, «fi səbilillah» qismindən olan zəkatdan götürə bilər; yaxud fəqir olsa və illik xərci qədərində zəkatdan götürmüş olsa da, vacib ehtiyata əsasən, bu kimi işlərdə itaət olmaqdan əlavə, ilahi şüarların tə`zim edilib uca tutulması və dini yaymaq kimi ümumi məsləhətlərin olması da şərtdir.

**Məsələ:** ٢٠٠٢. Əgər malik, bir fəqiri onun malının zəkatını vermək üçün vəkil etsə və fəqir ehtimal versə ki, malikin qəsdi özünün oradan pay götürməyəcəyi imiş, ondan özü üçün bir şey götürə bilməz. Əgər malikin belə bir qəsdi olmadığına əmin, ya arxayın olsa, fəqir özü üçün də götürə bilər.

**Məsələ:** ٢٠٠٣. Əgər fəqir bir kəs zəkatdan dəvə, inək, qoyun, qızıl və gümüş alsa bu halda zəkatın vacib olması üçün deyilmiş şərtlərin hamısı mövcud olduğu surətdə onların zəkatını verməlidir.

**Məsələ:** ٢٠٠٤. Əgər iki nəfər şəxs, zəkatı vacib olan bir malda şərik olsalar və onlardan biri öz payının zəkatını verəndən sonra malı bölsələr, şərikinin öz payının zəkatını vermədiyini bilsə də, onun öz payına düşən malından istifadə (təsərrüf) etməyinin eybi yoxdur.

**Məsələ:** ٢٠٠٥. Bir şəxsin xüms ya zəkat borcu olsa, eləcə də kəffarə, nəzr və bu kimi şeylər də vacib olsa, həmçinin, borcu da olsa bunların hamısını verə bilməsə, əgər xüms, ya zəkat gəlmiş mal aradan getməyibsə xüms və zəkatı verməlidir. Əgər aradan getmiş və tələf olmuşsa malı vacib ehtiyata əsasən, borc, xüms və zəkata mütənasib olaraq bölüb, onları verməyi kəffarə və nəzir etdiyi malı verməkdən

qabağa salmalıdır.

**Məsələ:** ٢٠٠٦. Xüms, ya zəkat borcu olan kəsin boynunda həccətul-islam vacib olsa və bununla yanaşı, borcu da olduğu halda ölsə və malı bunların hamısına kifayət etməsə, xüms və zəkatı vacib olan mal tələf olub aradan getmədiyi surətdə onun xüms və zəkatını verməlidirlər və malının qalanını həcc ilə borcu arasında bölməlidirlər. Əgər xüms və zəkatı vacib olan mal aradan gedibdirsə, "sərurət" olduğu surətdə, yə`ni onun həccə getməsinin birinci dəfəsidirsə və həcc yolunda ehramdan qabaq ölmüşdürsə, onun malını həcci yerinə yetirməyə sərf etsinlər. Əgər onun malından bir şey qalsa, onu xüms, zəkat və borcu arasında (onların miqdarına) nisbi olaraq bölməlidirlər. Deyilən surətdən başqasında həcc, xüms və zəkatdan irəlidir, lakin həccin borcdan irəli olmağı məhəlli-işkaldır.

**Məsələ:** ٢٠٠٧. Elm oxumaqla məşğul olan kəs təhsil almayacağı təqdirdə öz dolanışığı üçün qazanc əldə edə bilərsə bu halda onun təhsil alması onun üçün vacibi eynidirsə, yaxud vacibi-kifai olsa da, başqaları bu işi öhdəsinə almayıbsa, ona fəqirlərin, eləcə də, Allah yolunda xərclənməli olan zəkat qismindən zəkat vermək olar. Lakin bu surətdə vacib ehtiyat budur ki, onun təhsil almasında ümumi məsləhət olsun. Əgər onun elm öyrənib təhsil alması onun üçün müstəhəbb olsa, ona fəqir payından zəkat vermək caiz deyildir, ancaq Allah yolunda xərclənməli olan qismdən zəkat verilməsi caizdir, ehtiyata əsasən, onun təhsil almasında ümumi məsləhət olmalıdır. Əgər nə vacib, nə də müstəhəbb olmasa, ona zəkat vermək caiz deyildir.

## FİTRƏ ZƏKATI

**Məsələ:** ٢٠٠٨. Fitr bayramı axşamı (sabahı bayram olan axşam) günəş batan zaman həddi-büluğa yetən, aqil olan, fəqir və başqasının qulu olmayan kəs, yə`ni Ramazan ayını, hətta günəş batana qədər onun bir anını bu şərtlərlə yaşayan şəxs, özü və onun çörək yeyəni sayılan hər bir nəfər üçün ١ sa (təqribən ٣ kq) buğda, ya arpa, ya xurma, ya kişmiş, ya düyü və bu kimi şeyləri müstəhəqq olan fəqirə verməlidir. Vacib ehtiyata əsasən, (zəkat verilən məhsul) onun yaşadığı yerdə adətən yeyilən məhsuldan olsun və əgər deyilənlərdən birinin əvəzinə pulunu da versə, kifayət edər. Vacib ehtiyata əsasən, fitr bayramı axşamında günəş batan vaxt bihuş olan kəs də fitrə verməlidir.

**Məsələ:** ٢٠٠٩. Özü və ailəsinin illik xərcinə malik olmayan və bunu ödəmək üçün kəsb qazancı olmayan kəs fəqirdir və onun fitrə zəkatı verməsi vacib deyil.

**Məsələ:** ٢٠١٠. İnsan fitr bayramı axşamı günəş batan vaxtı onun çörək yeyənləri hesab olunan kəslərin fitrəsini verməlidir, istər kiçik olsunlar, istərsə böyük; istər müsəlman olsun, istərsə kafir; istər

xərclərini vermək ona vacib olsun, istərsə də olmasın.

**Məsələ:** ٢٠١١. Əgər başqa bir şəhərdə olub, onun çörəyini yeyən sayılan bir kəsi vəkil etsə ki, onun malından öz fitrəsini versin bu halda onun fitrəni verəcəyinə əmin olsa, özü onun üçün fitrə verməsi lazım deyildir.

**Məsələ:** ٢٠١٢. Bayram axşamı günəş batmazdan əvvəl ev sahibinin razılığı ilə gələn və fitrə zəkatı vacib olan zaman onun çörək yeyəni hesab olunan qonağın fitrəsi ev sahibinə vacibdir.

**Məsələ:** ٢٠١٣. Bayram axşamı günəş batmazdan qabaq ev sahibinin razılığı olmadan gəlib bir müddət onun yanında qalan qonağın fitrəsini, vacib ehtiyata əsasən, həm qonağın özü, həm də ev sahibi (qonaq qəbul edən kəs) verməlidir. İnsan, xərclərini verməyə məcbur edildiyi kəs barəsində də bu ehtiyata riayət olunmalıdır.

**Məsələ:** ٢٠١٤. Bayram axşamı günəş batandan sonra gələn qonağın fitrəsi ev sahibinə vacib deyildir, hətta günəş batmazdan öncə də`vət etmiş olsa da və onun evində iftar etsə də belə.

**Məsələ:** ٢٠١٥. Əgər bir kəs bayram axşamı günəş batan zaman dəli olsa, ona fitrə zəkatı vacib deyildir.

**Məsələ:** ٢٠١٦. Əgər günəş batmazdan öncə uşaq həddi-buluğa yetişsə, ya dəli ağıllansa, ya fəqir varlansa, fitrə zəkatının vacib olma şərtlərinə malik olduğu surətdə fitrə zəkatını verməlidir.

**Məsələ:** ٢٠١٧. Bayram axşamı günəş batarkən fitrə zəkatı vermək vacib olmayan şəxs, əgər bayram günü zöhrdən əvvələ qədər fitrə zəkatının vacib olma şərtlərinə malik olsa, fitrə zəkatını verməsi müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٢٠١٨. Bayram axşamı günəş batandan sonra müsəlman olan kafirə fitrə zəkatı vacib deyildir. Lakin şiə olmayan bir müsəlman ayı gördükdən sonra şiə olsa, fitrə zəkatını verməlidir.

**Məsələ:** ٢٠١٩. Yalnız (təqribən ٣ kq olan) ١ sa qədərində buğda və bu kimi şeyləri olan kəsin fitrə zəkatı verməsi müstəhəbbdir. Əgər əhli-əyalı da olsa və onların da fitrəsini vermək istəsə, həmin ١ sa miqdarında olan şeyi fitrə qəsdilə ailə üzvlərindən birinə versin, o da həmin qəsd ilə onu digərinə ötürsün və beləliklə, ailə üzvlərinin axırıncı nəfərinə qədər onu biri digərinə fitrə qəsdilə ötürsünlər. Daha yaxşı olar ki, axırıncı ailə üzvü onu özlərindən olmayan bir kəsə versin. Əgər onlardan biri səğir olsa, onun vəlisi fitrəni özü üçün götürsün və əlindəkini o səğir uşağın fitrəsi qəsdilə versin. Əgər səğir uşaq üçün alıbsa vacib ehtiyata əsasən, onu başqasına verməsin.

**Məsələ:** ٢٠٢٠. Əgər bayram axşamı günəş batandan sonra övladı dünyaya gəlsə, ya bir kəs onun çörək yeyəni hesab olunsa, onun fitrəsini vermək vacib deyildir. Baxmayaraq ki, günəş batandan sonra, bayram günü zöhrdən əvvələ qədər onun çörək yeyəni hesab olunan kəslərin

fitrəsini vermək müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٢٠٢١. Əgər insan bir kəsin çörək yeyəni hesab olunsa və günəş batmazdan öncə başqa bir kəsin çörək yeyəni olarsa, onun fitrəsi (hazırda) çörək yeyəni olduğu şəxsə vacibdir. Məsələn, əgər qız günəş batmazdan öncə ər evinə getsə, onun fitrəsini əri verməlidir.

**Məsələ:** ٢٠٢٢ Fitrəsini başqası verməli olan şəxsə öz fitrəsini vermək vacib deyildir.

**Məsələ:** ٢٠٢٣. Əgər insanın fitrəsini vermək bir kəsə vacib olsa və o da fitrəni verməsə, müstəhəbb ehtiyat budur ki, əgər zəkat fitrəsinin vacib olma şərtləri mövcud olsa, özü fitrə versin.

**Məsələ:** ٢٠٢٤. Əgər fitrəsini vermək başqasına vacib olan bir kəsin özü fitrə versə, onun fitrəsini verməli olan şəxsdən onun fitrəsini verməyin vacibliyi götürülməz.

**Məsələ:** ٢٠٢٥. Xərclərini əri verməyən qadın, əgər başqasının çörək yeyəni olsa, fitrəsi çörəyini yediyi şəxsə vacibdir. Əgər başqasının çörək yeyəni olmasa, fitrəni vacib edən şərtlərə malik olduğu surətdə özü öz fitrəsini verməlidir.

**Məsələ:** ٢٠٢٦. Seyyid olmayan kəs seyyidə fitrə zəkatı verə bilməz, hətta bir seyyid onun çörək yeyəni olsa da belə, onun fitrəsini başqa bir seyyidə verə bilməz.

Msəsələ ٢٠٢٧. Anasını və ya dayəsinin südünü əmən uşağın fitrəsi ananın və ya dayənin xərclərini ödəyənə vacibdir. Lakin əgər ana və ya dayə öz xərclərini uşağın malından götürürsə, uşağın fitrəsi bir kəsə vacib deyildir.

**Məsələ:** ٢٠٢٨. İnsan öz ailəsinin xərclərini hətta haram maldan da versə, onların fitrəsini halal maldan verməlidir.

**Məsələ:** ٢٠٢٩. Əgər insan bir nəfəri əcir tutaraq onun xərclərini verəcəyini şərt etsə və öz şərtinə əməl etsə, gərək onun fitrəsini də versin. Lakin onun xərclərinin bir miqdarını verəcəyini şərt etsə, məsələn, nəfəqə olaraq deyil, yalnız onun xərcləri üçün bir qədər pul versə- istər zəhmət haqqı, istərsə də başqa ünvanla olsun- onun fitrəsini verməsi vacib deyildir.

**Məsələ:** ٢٠٣٠. Əgər bir kəs bayram axşamı günəş batandan sonra ölsə, onun və ailəsinin fitrəsini onun öz malından verməlidirlər. Lakin günəş batmazdan öncə ölərsə onun özünün və ailəsinin fitrəsini onun öz malından vermək vacib deyildir.

## FİTRƏ ZƏKATININ XƏRCLƏNMƏSİ

**Məsələ:** ٢٠٣١. «Məşhur» nəzərə əsasən, fitrə zəkatının sərf olunma yerləri elə malın zəkatının sərf olunma yerləridir. Lakin vacib ehtiyat budur ki, fitrə zəkatını fəqirlərə versinlər və gərək (fəqir) on iki İmam şiəsi olsun. Yalnız mö`min şəxs tapılmayan surətdə, «nasibi»

olmayan şəxsə də fitrə vermək olar.

**Məsələ:** ٢٠٣٢. Əgər on iki İmam şiəsi olan şəxsin uşağı fəqir olsa ١٩٦٠, ١٩٦١-ci məsələlərdə deyildiyi kimi, fitrə zəkatını uşağın xərclərinə istifadə edə bilər.

**Məsələ:** ٢٠٣٣. Fitrə verilən bir fəqirin adil olması lazım (vacib) deyildir. Lakin vacib ehtiyat budur ki, şərab içən, aşkarda günah edən və namazı tərk edənə fitrə verilməsin.

**Məsələ:** ٢٠٣٤. Fitrə zəkatı günah işlərdə istifadə edəcək şəxsə verilməməlidir.

**Məsələ:** ٢٠٣٥. Vacib ehtiyat budur ki, bir fəqirə təqribən ٣ kq olan ١ "sa" qədərindən az fitrə verilməsin. Lakin əgər bir neçə "sa" qədərində versələr, eybi yoxdur.

**Məsələ:** ٢٠٣٦. Əgər qiyməti eyni malın adisinin qiymətindən iki dəfə artıq olan bir maldan, məsələn, qiyməti adi buğdanın qiymətindən iki dəfə baha olan buğdadan yarım sa fitrə versə, kifayət deyildir. Hətta onu fitrənin qiyməti məqsədilə versə də kifayət etməz.

**Məsələ:** ٢٠٣٧. İnsan "sa`"nın yarısını bir növdən, məsələn, buğdadan, digər yarısını isə məsələn, arpadan verə bilməz. Hətta onu fitrənin qiyməti məqsədilə versə də, kifayət etməz.

**Məsələ:** ٢٠٣٨. Fitrə zəkatını verərkən insanın öz fəqir qohum-əqrəbasını başqalarından qabağa salması müstəhəbdir, sonra isə fəqir qonşuları. Fitrə zəkatı verilən fəqirlərin din, fiqh və ağılda irəli olanlarını nəzərə alıb onları qabağa salmaq müstəhəbbdir.

**Məsələ:** ٢٠٣٩. Əgər insan bir şəxsi fəqir hesab edərək ona fitrə zəkatı verib, sonra fəqir olmadığını başa düşsə, bu halda ona verdiyi mal tələf olmayıbsa, onu geri almalı və müstəhəqqə verməlidir. Əgər geri ala bilməsə, gərək öz malından fitrənin əvəzini versin. Əgər tələf olmuşsa bu halda onu alan kəs fitrə olduğunu bilirmişsə onun əvəzini verməlidir. Əgər (aldığının fitrə olduğunu) bilmirmişsə, əvəzini verməsi ona vacib deyildir. Fitrə verməli olan şəxs onun əvəzini verməlidir.

**Məsələ:** ٢٠٤٠. Əgər bir şəxs «fəqirəm» desə, bu halda insan onun əvvəllər fəqir olduğunu bilsə, ona fitrə vermək olar. Fəqir olub-olmadığı mə`lum olmayan bir kəs «fəqirəm» desə, əgər onun sözündən xatircəmlik hasil olmasa, vacib ehtiyata əsasən, ona fitrə vermək olmaz. Əgər əvvəllər fəqir olmadığını bilsə, onun sözündən arxayınlıq gələn hal istisna olmaqla ona fitrə vermək olmaz.

## FİTRƏ ZƏKATININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢٠٤١. İnsan fitrə zəkatını, dəstəmaz məsələlərində deyildiyi kimi, qürbət qəsdilə və ixlasla verməlidir. Zəkatı verərkən onu fitrə olaraq verdiyini niyyət etməlidir.

**Məsələ:** ٢٠٤٢. Əgər Ramazan ayından qabaq fitrə versə səhih

deyildir. Lakin Ramazan ayı daxil olandan sonra verə bilər. Ehtiyata əsasən, Ramazan ayında da verməsin. Ramazan ayından qabaq fəqir bir kəsə borc verib, fitrə zəkatı ona vacib olandan sonra öz alacağını fitrə zəkatı olaraq hesab edə bilər.

**Məsələ:** ٢٠٤٣. Fitrə olaraq verdiyi buğda və yaxud digər bir şey başqa növdən olan şeylə və ya torpaqla qarışıq olmamalıdır. Əgər qarışıq olsa və onun təqribən ٣ kq olan ١ sa qədəri xalis olsa və onu ayırmağın zəhməti və xərci olmasa, yaxud qarışığı camaatın xalis buğda hesab edəcəyi tərzdə az olsa, eybi yoxdur.

**Məsələ:** ٢٠٤٤. Əgər fitrəni eybli bir şeydən versə vacib ehtiyata görə kifayət etməz.

**Məsələ:** ٢٠٤٥. Bir neçə nəfərin fitrəsini verməli olan kəs, onların hamısını eyni növdən olan maldan verməsi lazım (vacib) deyildir. Məsələn, əgər bə`zisinin fitrəsini buğda, bə`zisinin fitrəsini isə arpa olaraq versə, kifayətdir.

**Məsələ:** ٢٠٤٦. Fitr bayramı namazını qılan kəs, vacib ehtiyata əsasən, fitrəni bayram namazından öncə verməlidir. Lakin bayram namazı qılmırsa, fitrəni zöhrə qədər tə`xirə sala bilər.

**Məsələ:** ٢٠٤٧. Əgər malından bir qədərini fitrə niyyətilə ayırıb kənara qoysa və bayram günü zöhrə qədər onu müstəhəqqinə verməsə, hər vaxt onu müstəhəqqinə çatdırsa fitrə niyyəti etməlidir.

**Məsələ:** ٢٠٤٨. Fitrə zəkatını vermək vacib olan vaxt, fitrəni verməsə və kənara da qoymasa, sonradan, vacib ehtiyata əsasən, "müqəddəs şəriət sahibinin ondan tələb etdiyi şey" niyyətilə fitrə verməlidir.

**Məsələ:** ٢٠٤٩. Əgər fitrəni (ayırıb) kənara qoyubsa onu özü üçün götürüb başqa bir malı fitrə üçün onun yerinə qoya bilməz.

**Məsələ:** ٢٠٥٠. Əgər insanın fitrədən artıq qiymətli bir malı olsa və fitrə verməyib niyyət etsə ki, o malın bir qədəri fitrə hesabı ilə özü ilə fitrə arasında müştərək olsun, bu iş işkallıdır. Lakin onun hamısını fəqirə vermək istəsə, eybi yoxdur.

**Məsələ:** ٢٠٥١. Əgər fitrə üçün ayırıb kənara qoyduğu mal tələf olsa, bu halda fəqirə əli çatırdısa və fitrə verməyi gecikdiribsə gərək onun əvəzini versin. Əgər əli fəqirə çatmayıbdısa və onu saxlamaqda səhlənkarlıq etməyibsə ona zamin deyildir.

**Məsələ:** ٢٠٥٢. Əgər öz yaşadığı yerdə müstəhəqq tapılsa vacib ehtiyat budur ki, fitrəni başqa yerə aparmasın; əgər başqa yerə aparsa və tələf olsa, gərək onun əvəzini versin.

## HƏCCİN HÖKMLƏRİ

**Məsələ:** ٢٠٥٣. Həcc – Allah evini ziyarət və orada yerinə yetirilməsi əmr olunan əməlləri etməkdən ibarətdir. Bu əməl aşağıda deyiləcək şərtlərə malik olan kəsə ömründə bir dəfə vacib olur:

١-Həddi-buluğa çatmış olsun;

٢-Aqil olsun;

٣-Azad olsun (qul olmasın);

٤-Həccə getmək vasitəsilə tərk edilməsi həcdən də mühüm olan haram bir işə mürtəkib olmasın, yaxud həccə getməkdən də mühüm olan vacib bir işi tərk etməyə məcbur olmasın;

٥-Müstəti (həccə getmək qabiliyyəti) olsun. Müstəti olmaq bir neçə şeylə hasil olur:

Birincisi budur ki, yol azuqəsi və miniyi olsun, yaxud onları hazırlamaq üçün mala malik olsun.

İkincisi isə budur ki, Məkkəyə gedib həcci yerinə yetirmək üçün qüdrəti və sağlamlığı olsun.

Üçüncüsü, getmək üçün bir maneə olmasın. Əgər yol bağlı olsa, ya insan yolda, yaxud əməlləri yerinə yetirərkən canının, ya abır-heysiyyətinin aradan gedəcəyindən, ya malının zəbt ediləcəyindən qorxsa, həcc ona vacib deyildir. Lakin (bu halda) əgər başqa bir yol ilə gedə bilərsə, uzaq olsa da, o yol ilə getməlidir.

Dördüncüsü, həcc əməllərini yerinə yetirmək qədərində vaxtı olsun.

Beşincisi, arvad, uşaq kimi xərcinin çəkilməsi ona vacib olanların, eləcə də camaatın nəzərində xərci onun tərəfindən verilməli olan kəslərin, məsələn, nökər və ona ehtiyacı olduğu külfətin xərcinə malik olsun.

Altıncısı budur ki, qayıdandan sonra şə`ninə uyğun olaraq özü və ailəsinin yaşayışı üçün çətinliyə düşməməklə iş kəsb, ticarət, əkin yeri, mülkünün mənfəəti, ya digər bir qazanc mənbəyi olsun.

**Məsələ:** ٢٠٥٤. Şəxsi (mülki) evinin olması zəruri olan və olmadıqda əziyyətə düşən kəsə o vaxt həcc vacib olar ki, ev almağa da pulu olsun.

**Məsələ:** ٢٠٥٥. Məkkəyə gedə bilən qadın qayıtdıqdan sonra özünün malı olmasa və əri də onun xərclərini verməsə və yaşayış üçün çətinliklərlə üzləşəcəksə, həcc ona vacib deyildir.

**Məsələ:** ٢٠٥٦. Əgər bir kəsin yol azuqəsi və miniyi olmasa və

başqası ona «sən həccə get, mən sənin həccdə olduğun vaxt özünün və ailənin xərcini verərəm» desə, onun sözündən xərci verəcəyinə arxayınlıq hasil olduğu surətdə həcc ona vacib olar.

**Məsələ:** ٢٠٥٧. Əgər bir kəsin (həccə) gedib-qayıtmaq xərcini və bu müddət ərzində ailəsinin xərcini bir kəsə bağışlayıb həccə getməsini şərt eləsələr, qayıdandan sonra yaşayış üçün malı olmasa da, ya borcu olsa da vacibdir ki, onu qəbul etsin və həcc ona vacib olar. Amma borcun qaytarılma vaxtı yetişmiş olsa və tələbkar öz borcunu tələb etsə, eləcə də borclu şəxsin həccə getməməklə öz borcunu qaytarmaq imkanı olacaqsa, ya borcu müddətlidirsə və əgər həccə getsə, borcunun qaytarılma vaxtı yetişdikdə onu ödəmək imkanı olmayacağını bilsə, bu hal istisnadır.

**Məsələ:** ٢٠٥٨. Əgər (həccə) gedib-qayıtmaq xərcini və bu müddət ərzində ailəsinin xərcini bir kəsə bağışlayıb «həccə get» desələr, lakin onun mülkü etməsələr, onu geri almayacaqlarına əmin olduğu surətdə həcc ona vacib olar.

**Məsələ:** ٢٠٥٩. Əgər həcc üçün kifayət edəcək miqdarda malı bir kəsə verib Məkkə yolunda o malı verənə xidmət etməsini şərt etsələr həcc ona vacib olmaz.

**Məsələ:** ٢٠٦٠. Əgər bir kəsə bir qədər mal versələr və ona həcc vacib olsa, bu halda həcci yerinə yetirdikdən sonra özü mal əldə etsə də, yenidən həcc ona vacib deyil.

**Məsələ:** ٢٠٦١. Əgər ticarət məqsədilə Cəddəyə qədər getsə və oradan Məkkəyə getmək istədiyi halda müstəti olacağına səbəb olacaq miqdarda mal əldə etsə, həccə getməlidir. Oradan həccə getdiyi surətdə, sonradan öz vətənindən Məkkəyə getmək üçün mal əldə etsə də, daha həcc ona vacib deyildir.

**Məsələ:** ٢٠٦٢. Əgər bir şəxs başqasının tərəfindən özü həcc etməyə əcir olsa və özü gedə bilməyib başqasını öz tərəfindən göndərmək istəsə, onu əcir edəndən icazə almalıdır.

**Məsələ:** ٢٠٦٣. Əgər bir kəs müstəti olub Məkkəyə getməsə və (sonradan) fəqir olsa, çətinliklə də olsa, sonradan həccə getməlidir. Əgər heç bir qisimlə həccə gedə bilməsə, bu halda bir kəs onu həcc üçün əcir etsə, Məkkəyə gedib əcir olduğu şəxsin həccini yerinə yetirməli, gələn ilə qədər Məkkədə qalması mümkün olsa, gərək orda qalıb özü üçün həcc etməlidir. Əgər əcir olması mümkün olsa və ücrəti nəqd ala bilsə və onu əcir tutan şəxs də öz həccinin gələn il yerinə yetirilməsinə razı olarsa, birinci il özü üçün, ikinci il isə onu əcir tutan kəs üçün həcc etməlidir.

**Məsələ:** ٢٠٦٤. Əgər müstəti olduğu birinci ildə Məkkəyə gedib göstəriş verilmiş müəyyən vaxtda Ərəfata və Məş`ərul-hərama çatmasa və "tez getsəydi çatardı" kimi olmasa (yəni səhlənkarlıq etməsə), bu

halda sonrakı illərdə müstəti olmasa, həcc ona vacib deyildir. Lakin "tez getsəydi çatardı" kimi olsa, ya əvvəlki illərdən müstəti olub getməyibsə, zəhmətlə olsa da, gərək həccə getsin.

**Məsələ:** ٢٠٦٥. Əgər müstəti olduğu birinci ildə həccə getməsə və sonra qocalıq, xəstəlik və ya zəiflik ucbatından həccə gedə bilməsə və ya onun üçün ağır məşəqqəti olsa və gələcəkdə özünün çətinlik olmadan həccə gedə biləcəyindən naümid olsa, dərhal başqasını öz tərəfindən göndərməlidir. Hətta əgər həccə getməyə lazımi olan qədər malı olduğu birinci ildə qocalıq, xəstəlik ya zəiflik ucbatından həccə gedə bilməsə, ya çox çətin olsa və bundan sonra özünün həccə gedə bilməsindən naümid olsa, ehtiyat vacib budur ki, bir kəsi öz tərəfindən göndərsin ki, onun həccini yerinə yetirsin. Müstəhəbb ehtiyata əsasən, əgər mənubun ənh kişidirsə, nayib birinci dəfə həccə gedən şəxs olmalıdır.

**Məsələ:** ٢٠٦٦. Başqasının tərəfindən həcc yerinə yetirən şəxs «nisa təvafı»nı da onun tərəfindən yerinə yetirməlidir. Əgər yerinə yetirməsə qadın o əcirə haram olar.

**Məsələ:** ٢٠٦٧. Əgər nisa təvafını bilməməzlik ucbatından yerinə yetirməsə, ya düzgün yerinə yetirməsə, ya unutsa ehtiyat vacibə əsasən özü yerinə yetirməlidir. Buna imkanı olmadıqda və ya çox çətinliyi olduqda, nayib tuta bilər. Lakin hökmü bilərək və qəsdən yerinə yetirməmiş olsa, qayıdıb yerinə yetirməlidir. Qayıda bilməsə və yaxud qayıtmağı çox çətin olsa, nayib tuta bilər.

Həcc məsələləri «Mənasik»də təfsilatı ilə deyilmişdir.

# ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN HÖKMLƏRİ

Mükəlləf şəxslərə vacib olan ən böyük əməl yaxşı işlərə də`vət – əmr be mə`ruf və pis işlərdən çəkindirmək – nəhy əz münkərdir.

Allah-təala buyurur:

وَالْمُؤمِنُونَ وَ الْمُؤْمِناتُ بَعْضُهُمْ اَوْلِيَاءُ بَعْض يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَ يَنْهَوْنَ عَنِ الْمُنْكَرِ

*«Mö`min qadınlar və kişilər, onların bə`ziləri digərlərinin dostlarıdırlar, bir-birlərini yaxşılıqlara də`vət edir, çirkin işlərdən çəkindirirlər.»*

Əmr be mə`ruf və nəhy əz münkər ilahi peyğəmbərlərin yoludur, məhz bu ilahi fərizə və vacib əməl vasitəsi ilə sair dini göstərişlər, vacibatlar icra olunar, kəsb-ticarət halal olar, insanların canı, malı, namusunun təhlükəsizliyi qorunar, haqq öz sahibinə çatar, yer üzü yaramaz, çirkin işlərin iyrənc vücudlarından, pisliklərdən paklanar, yaxşı və mə`ruf işlərlə abad olunar.

İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan bir rəvayəti qeyd etməklə kifayətlənirik: Həzrət nəql edir ki, Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alih) buyurdu: – Sizin halınız necə olacaqdır, o zamanda ki, qadınlarınız fasiq, günahkar olar, cavanlarınızın əxlaqı korlanar. Halbuki, əmr be mə`ruf və nəhy əz münkər etməzsiniz?!

Soruşdular: – Belə olacaqdırmı, ya Rəsuləllah?!

Buyurdu: – Ondan da pis, acınacaqlı olacaqdır! Sizin halınız necə olar o zamanda ki, bir-birinizi münkər, pis işlərə əmr edib, yaxşı işlərdən çəkindirərsiniz?!

Dedilər: – Ya Rəsuləllah, belə də olacaqmı?!

Buyurdu: – Bəli, ondan da pis olacaqdır! Sizin vəziyyətiniz necə olacaqdır, o zaman ki, mə`ruf və bəyənilən işləri çirkin, çirkin işləri isə bəyənilən hesab edərsiniz?!

**Məsələ:** ٢٠٦٨. Əmr be mə`ruf və nəhy əz münkər, bəyan ediləcək şərtlərlə vacibi-kifaidir, yə`ni əgər bu vəzifəni yerinə yetirəcək kifayət qədər insan bu işi görsə, başqalarından götürülər, əks halda isə hamı günahkar sayılır.

**Məsələ:** ٢٠٦٩. Əmr be mə`ruf və nəhy əz münkərin vacib olmasının bir neçə şərti vardır:

١-Mə`ruf və yaxşı işə əmr edən, pis və yaramaz işdən çəkindirən şəxs, mə`ruf (yaxşı) və pis işlərin hansı olduğunu bilsin. Deməli, yaxşı

və pis işlərin hansı olduğunu bilməyən şəxs əmr və nəhy işlərini öhdəsinə almamalıdır. Yaxşı və pis işlərin hansı olması barəsində cahil olan, onları bir-birindən seçə bilməyən şəxs üçün əmr və nəhy etməsi özü münkər və bəyənilməz işdir ki, bu işin qabağı alınmalıdır.

۲-Bu işin tə`sir qoymasına ehtimal verilsin. Əgər yaxşı işi tərk edən, pis işi yerinə yetirən şəxsin əmr və nəhy işlərdə reaksiya göstərməyəcəyi bilinsə, şəxsin bu işi görməsi vacib deyildir.

۳-Yaxşı işi görən və pis işi əncam verən şəxsin özü pis işi tərk etmək və yaxşı işi görmək fikrindən dönməmiş olsun; lakin əgər bu işlərdən dönsə, yaxud bu işlərdən dönmə ehtimalı verilsə əmr be mə`ruf və nəhy əz münkər işi və vacib deyildir.

٤-Şəxsin yaxşı işləri tərk etməyə və pis işləri görməkdə üzrlü səbəbi olmasın. Üzrlü səbəb dedikdə məqsəd budur ki, elə bir şəxsə təqlid edir ki, o, həmin işi vacib, yaxud haram bilmir, baxmayaraq ki, əmr, yaxud nəhy edən şəxsin ictihadı, yaxud təqlidi əsasında həmin iş vacib və ya haram olmuş olsun.

٥-Əgər onun əmr və nəhyinin tə`sir edəcəyini bilməsə, onun əmr və nəhyindən bir müsəlmanın canına, namusuna və malına zərər gəlməsin. Əgər tə`sir qoyacağını bilsə, onda tərtiblə daha mühüm olan işləri mülahizə etməlidir. Deməli, əgər əmr be mə`ruf və nəhy əz münkər (yaxşı işin görülməsi, münkər, pis işin tərk edilməsi) baxımından əhəmiyyət dərəcəsi şər`ən ondan da mühüm olan bir zərərə gətirib çıxardarsa, əmr be mə`ruf və nəhy əz münkərin vacib olması götürülür.

**Məsələ:** ۲۰۷۰. Əmr be mə`ruf və nəhy əz münkərin vacib olma şərtləri mükəlləf şəxs üçün yəqin, yaxud xatircəmlik həddində sübuta yetərsə, əmr be mə`ruf və nəhy əz münkər vacib olur. Əgər şərtlərdən hər hansı birinin vücudunda şəkk etsə, vacib deyildir.

**Məsələ** ۲۰۷۱. Əgər yaxşı işləri tərk edən, pis işləri görən şəxs iddia edib desə ki, onun bu işləri tərk və ya əncam verməsində şər`i bir üzrü vardır, ona əmr və nəhy etmək vacib deyildir.

**Məsələ:** ۲۰۷۲. Hər bir müsəlmana vacibdir ki, dində bid`ət qoyan, dində fitnə-fəsada səbəb olan və haqq əqidələrin sarsılmasına səbəb olan şəxslərdən bezarlıq etsin və başqalarını onların fitnə-fəsadından çəkindirsin.

**Məsələ:** ۲۰۷۳. Yaxşı işlərin tərk edilməsi və pis işlərin görülməsindən agah olmaq üçün başqalarının evinə boylanmaq, casusluq və axtarış etmək caiz deyildir.

**Məsələ:** ۲۰۷٤. Əmr be mə`ruf və nəhy əz münkər əməli bu işi yerinə yetirən şəxsin camaat nəzərində dözülməsi qeyri-mümkün olan məşəqqətə (əzab-əziyyətə) düşməsinə səbəb olan hallarda vacib deyildir; yalnız o hallarda vacib olur ki, onların əhəmiyyəti müqəddəs şəriətdə elə bir həddə olsun ki, onlara təklif (şər`i vəzifə) verilməsi

məşəqqət vasitəsi ilə aradan qalxmasın, misal üçün, dinin və müsəlmanların canının qorunması kimi.

**Məsələ:** ٢٠٧٥. Hər bir mükəlləf şəxs üçün Allah-təalanın buyurduğu:

يَأَيّهَا الَّذِينَ ءامَنُوا قُوْا اَنْفُسَكُمْ وَاَهْلِيكُمْ نارًا وَقُودُهَا النّاسُ وَالْحِجَارَةُ

***"Ey iman gətirənlər, özünüzü və əhl-əyalınızı yanacağı insanlar və daşlar olan bir oddan qoruyun."*** ayəsinin tələbinə görə tə`kidli bir vacibdir ki, öz əhl-əyalına əmr be mə`ruf və nəhy əz münkər etsin, özünə əmr etdiyi şeyləri onlara da əmr etsin, özünün çəkinməli olduğu şeylərdən onları da çəkindirsin.

**Məsələ:** ٢٠٧٦. Hər bir mükəlləf şəxsə vacibdir ki, öz qəlbi ilə münkər və bəyənilməz işlərdən ikrahı olsun, onlara nifrət bəsləsin, hətta onun qarşısını ala bilməsə də belə.

Əmr be mə`ruf və nəhy əz münkər məqamında insan əvvəlcə qəlbən xoşagəlməzlikdən ikrahı, nifrətli olmalıdır, hətta yaxşı işi tərk edən və pis işi görən şəxslə oturub-durmağın tərk edilməsi, dildə moizə və öyüd-nəsihət verilməsi, yaxşı işlərin savab və pis işlərin əzabının bəyan edilməsi ilə belə, onu yaxşı işə də`vət etmək və pis işdən çəkindirmək lazımdır.

Əgər bu iki vasitə tə`sir qoymazsa və bu işlərin qarşısı alınması fiziki cəzaya – vurmağa bağlı olarsa, onu diyə və qisasa səbəb olmayacaq şəkildə vurmaq lazımdır; əgər bu da tə`sir etməzsə, belə ki, misal üçün, yaralanmasına səbəb olacaqsa, bu halda qəsdən olarsa yaralanmış şəxs qisas ala bilər, əgər xəta üzündən olarsa diyə ala bilər.

**Məsələ:** ٢٠٧٧. Yaxşılıqlara də`vət və pisliklərdən çəkindirən şəxsin vəzifəsi budur ki, bu əməldə müqəddəs şəriət sahibinin məqsədini – yolunu azmışlara yol göstərmək və pozğunluqları, eybəcərlikləri islah etmək – nəzərə almış olsun. Bu mühüm məsələ də yalnız o zaman hasil ola bilər ki, insan günaha mürtəkib olan şəxsi öz bədənində xarab olmuş, işdən düşmüş bir üzv hesab etsin. O şəxs öz bədən üzvünü müalicə etmək fikrində olduğu kimi, əxlaqi fəsad və pozğunluqlara, ruhi xəstəliklərə düçar olanları da müalicə etsin. Əmr be mə`ruf və nəhy əz münkər edən şəxs bundan qafil olmamalıdır ki, bəlkə o günahkarın əməl dəftərində elə bir gözəl əməl olsun ki, Allah onu bağışlasın; və onun özünün əməl dəftərində elə bir pis iş olsun ki, Allah həmin işə görə onu cəzalandırsın.

**Məsələ:** ٢٠٧٨. Müstəhəb işlərə də`vət etmək müstəhəbdir.

**Yekun söz**

Hər bir günahın böyük olmağına baxmayaraq – çünki o, Allah-təalanın heç bir həddə məhdudlanmayan əzəmət, cəlal və kibriyası müqabilində və Onun əmr və nəhyləri qarşısında itaətsizlik etmək,

əzəmətli və yüksək məqamına qarşı günah və mə`siyyət qəbahətli, bağışlanmaz olduğuna görə – rəvayətdə deyilir ki, *"Etdiyin günahlara baxma; əksinə, bax gör kimin müqabilində günah edirsən!"* Lakin günahların bir-biri ilə müqayisəsi zamanı onların bə`zilərinin daha böyük və əzabının şiddətli olması aydınlaşır; bə`zi günahların sahibi birbaşa, bilavasitə, yaxud kinayəli və örtülü şəkildə təhdid olunub ona ilahi əzab və cəhənnəm və`dəsi verilir; yaxud Əhli-beyt (əleyhimus-salam)-dan nəql olunan rəvayətlərdə "kəbirə günah" ifadəsi ilə deyilən günahlardan,

اِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ

***"Əgər sizin qadağan olunduğunuz böyük günahlardan çəkinsəniz, sizin pis işlərinizi də (səyyiələrinizi) örtərik"*** – ayəsinin tələbinə görə, onlardan çəkinmək digər günahların da bağışlanmasına səbəb olur. Fəqihlərdən bə`ziləri (Allah onların məqamını daha da yüksəltsin!) onları yetmişə qədər, bə`ziləri ondan da artıq saymışlar. Onların daha çox qarşıya çıxanlarını aşağıda qeyd edirik:

١-Allah-təalaya şərik qoşmaq və Ona qarşı kafir olmaq; bunlar heç bir böyük günahla müqayisə olunası deyildir.

٢-Allah-təalanın rəhmət və bağışlamasından ümidsiz, mə`yus olmaq.

٣-Allah-təalanın məkrindən əmin-amanlıq hissi keçirmək.

٤- Allaha yalandan and içmək.

٥-Allahın nazil etdiklərini inkar etmək.

٦-Allah övliyaları ilə müharibə aparmaq.

٧-Allah və Onun Rəsulu ilə yolları kəsmək və yer üzündə fəsad törətməklə müharibə aparmaq.

٨-Allahın nazil etdiklərindən qeyri-əsasda hökm etmək.

٩-Allahın, Onun Rəsulunun və övliyalarının adından yalan danışmaq.

١٠- Məscidlərdə Allah zikrini qadağan etmək və onların xarab olunmasına çalışmaq.

١١-Vacib olan zəkatın verilməsindən imtina etmək.

١٢-Vacib cihaddan imtina etmək.

١٣-Müsəlmanların kafirlərlə aparılan müharibədən fərarilik etmək.

١٤-Bəndələri Allah yolundan azdırıb zəlalətə çəkmək.

١٥-Kiçik günahların əmələ gətirilməsinə israr etmək.

١٦-Namaz və sair ilahi vacibatları qəsdən tərk etmək.

١٧-Riyakarlıq.

١٨-Ğina və tar çalmaq kimi ləhv (əbəs) işlərlə məşğul olmaq.

١٩-Zalımın vilayətini (hökumətini) qəbul etmək.

٢٠-Zalıma kömək etmək.

٢١-Əhd-peymanı və andı pozmaq.

٢٢-Təbzir (malın puça çıxarılması və onun əbəs yerə xərclənməsi).

٢٣-İsrafçılıq.

٢٤-Şərab içmək.

٢٥-Sehr və cadu.

٢٦-Zülm.

٢٧-Ğina.

٢٨-Valideynə ağ olmaq (ata-ana ilə pis rəftar edib, onlara əziyyət vermək.)

٢٩-Qohumluq əlaqələrini kəsmək.

٣٠-Livat.

٣١-Zina .

٣٢-Pak və iffətli qadına zina töhməti vurmaq.

٣٣-Qiyadət (kişi ilə qadının zinaya, yaxud iki kişini livata calaşdırmaq və onların arasını düzəltmək).

٣٤-Oğurluq.

٣٥- Riba (sələmçilik).

٣٦-Haram mal yemək; misal üçün, şərabın pulu, zinakar qadının (zinadan) aldığı pul, qazinin hökm məqamında aldığı rüşvət.

٣٧-Çəkidə aldatmaq.

٣٨-Müsəlmanlara ğəşş etmək (qatqı qatmaq).

٣٩-Yetim malını zülm ilə mənimsəmək.

٤٠-Nahaq yerə şəhadət vermək.

٤١- Şəhadəti gizlətmək.

٤٢- Mö`minlər arasında günah və əxlaqsızlığı yaymaq.

٤٣- Fitnə-fəsad törətmək.

٤٤- Mö`minlərin arasında təfriqəyə səbəb olan söz gəzdirmək.

٤٥- Mö`minə yaramaz sözlər demək, onu təhqir və zəlil etmək.

٤٦- Mö`minə böhtan atmaq (töhmət vurmaq).

٤٧- Qeybət; O da möminin örtülmüş halda olan eybini onun olmadığı bir yerdə xatırlamaqdır; istər bu eybi sözdə desin, istərsə də rəftar və əməli ilə başa salsın, hətta mö`minin eybini izhar (aşkar) etməkdə onun abır-heysiyyətinə hörmətsizlik və onu təhqir etmək qəsdi olmasa da. Əgər təhqir qəsdi ilə olarsa, mö`minin eybini izhar etməklə iki günaha mürtəkib olur.

Qeybət edən şəxs tövbə etməlidir, ehtiyat vacibə görə, qeybətini etdiyi şəxsdən hallalıq da istəməlidir. Amma halallıq almaq fəsada səbəb olarsa, bu hal istisnadır.

Aşağıdakı hallarda qeybət etmək caizdir:

١-Fisq və günah əməlləri aşkarda törədən şəxsin həmin günahlar barəsində qeybətini etmək caizdir.

٢-Zülmə mə`ruz qalan şəxsin, ona zülm edən zalımın həmin zülm ilə əlaqədar qeybətini etməsi.

٣-Məşvərət məqamında; belə ki, məşvərət edənə nəsihət vermək qəsdi ilə eybin izhar edilməsi – artıq yox, yalnız o həddə qədər ki, nəsihət gerçəkləşmiş olsun – caizdir.

٤- Dində bid`ət qoyan və camaatın haqq yoldan azmasına səbəb olan şəxsin qeybətini etmək.

٥-Şahidin fasiqliyini izhar etmək üçün qeybət etmək; yə`ni əgər şəhadət verən şəxs fasiq olsa, onun fisqini izhar etməklə qeybətini etmək caizdir, buna görə ki, onun şəhadət verməsi ilə hər hansı bir haqq zay olub aradan getməsin.

٦-Bir şəxsin can, mal və ya namusuna dəyə biləcək xəsarət və zərəri dəf etmək üçün həmin şəxsin qeybətini etmək.

٧-Günahkarı günah işdən çəkindirmək üçün qeybətini etmək; belə ki, bundan başqa yolla onun qarşısını almaq mümkün olmayacaqsa.

## ALVERİN HÖKMLƏRİ

**Məsələ:** ٢٠٧٩. Alver (kəsb-ticarət) edən şəxs yaxşı olar ki, alverin hökmlərini öyrənsin. Hətta istər xülasə, istərsə təfsilatı ilə, əmin ya arxayın olsa ki, məsələni bilməməzlik ucbatından vacibi tərk edəcək, ya harama düşəcək, qarşılaşacağı məsələni öyrənməsi lazımdır. Həzrət İmam Sadiq (əleyhissalam)-dan belə rəvayət olunmuşdur: *«Alver, ticarət etmək istəyən kəs öz dinində elmli, agah olmalıdır ki, onun üçün nəyin halal, nəyin haram olmasını bilsin. Bir kəs öz dinində elmli, agah olmayıb sonra alver etsə, şübhəli alverlər düçar olar.»*

**Məsələ:** ٢٠٨٠. Əgər insan məsələni bilmədiyi üçün etdiyi alverin səhih, yoxsa batil olduğunu bilməsə, o alverin əsərini icra edə bilməz və o alverdən əldə etdiyi malda təsərrüf (hər növ istifadə) edə bilməz.

**Məsələ:** ٢٠٨١. Malı olmayan bir kəsə, arvad-uşaq kimilərin xərcinin çəkilməsi vacibdirsə, onu kəsb edib qazanmalıdır. Ailənin dolanışığını rövnəqləndirmək, fəqirlərə əl tutmaq kimi müstəhəbb işlər görmək məqsədilə qazanc əldə etmək müstəhəbbdir.

### ALQI-SATQININ MÜSTƏHƏBBLƏRİ

Alqı-satqıda bər neçə şey müstəhəbdir. O cümlədən:

١. Müştərilər arasında malın qiyməti ilə əlaqədar fərq qoymasın. Üstünlük verməsinə səbəb olan iman, fəqirlik və bu kimi hallar istisnadır.

٢. Malın qimətində ciddi tələbkarlıq etməmək. Ciddiyyət və tələbkarlıq etməməklə ziyana uğrayacağı hallar istisnadır.

٣. Satdığı şeyi artıq vemək, aldığını isə az almaq.

٤. Alver etdiyi şəxs (müştəri) əgər peşman olub alveri pozmaq istəsə, onun istəyini qəbul etsin.

### MƏKRUH ALVERLƏR

**Məsələ:** ٢٠٨٢. Məkruh alverlərin ən ümdəsi bunlardır:

١. Yer, ev, bağ, su kimi mülk satmaq; lakin onun puluna başqa bir mülk alsa, eybi yoxdur.

٢. Heyvan başı kəsmək;

٣. Kəfən satmaq;

٤. Alçaq fitrətli insanlarla alver etmək;

٥. Sübh azanından günəş çıxana qədərki vaxt ərzində alver etmək və əmtəəni göstərmək;

٦. Öz iş-peşəsini buğda, arpa və bu kimi şeylərin alveri qərar vermək.

٧. Başqasının almaq istədiyi malı almaq üçün müamiləyə müdaxilə etmək.

## HARAM VƏ BATİL ALVERLƏR

**Məsələ:** ٢٠٨٣. Bə`zi alverlər batildir, haram deyil, bə`zisi haramdır, lakin batil deyildir, bə`ziləri də həm haram, həm də batildir. Bunların ümdəsi aşağıdakılardan ibarətdir:

١. Spirtli içkilər və donuz əti kimi eyni nəcis olan şeylərin alqı-satqısı həm batil, həm də haramdır. Həmçinin, ov itindən başqa itlərin və nəcis murdarın (qeyri-şər`i yolla kəsilən, özü ölən heyvan) hər ikisi batil və ehtiyata əsasən, haramdır.

Bunlardan başqa, əgər halal və əql sahiblərinin qəbul etdiyi mənfəəti olsa, məsələn, ğaiti gübrə etsələr, ya insan qanını xəstəyə keçirsələr, onların alveri səhih və halaldır. Lakin müstəhəbb ehtiyat onun tərk olunmasıdır.

٢. Qəsbi malın alış-verişi malikinin icazəsi olmadan batildir. Lakin təklif baxımından haram deyildir; əksinə xarici təsərrüflər (istifadələr) qəsbi malda haramdır.

٣. Camaat arasında maliyyəti (e`tina olunası dəyəri) olmayan və səfehcəsinə alver kimi qiymətləndirilən alverlər – bəzi həşəratların alveri kimi – batildir, ancaq haram deyildir.

٤. Qumar alətləri kimi, adi mənfəəti yalnız haram iş olan şeylərin alveri batil və haramdır.

٥. Riba olan alverlər haram və batildir.

٦. Başqa bir şeyə qarışmış olan malı satmaq, o halda ki, həmin şey mə`lum olmasın və satıcı da müştəriyə deməsin. Məsələn, piy qarışdırdığı yağı piy ilə qarışdırmasını demədən satması, yaxud «ğəşş» etdiyi (qarışdırdığı) bir malın qiymətini (başqa mal ilə mübadilə etdikdə) qiymət qərar vermək kimi alverlər haram və (sonradan deyiləcək) bə`zi surətlərdə isə batildir.

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alih) buyurmuşdur: *«Alverdə müsəlmanlara ğəşş edən (qatqı qatan) müsəlmanlardan deyildir»*. Və o həzrətdən rəvayət olunmuşdur ki, *hər kəs öz müsəlman qardaşını ğəşş etsə, Allah-təala onun ruzisinin bərəkətini aparar, onun məişətini xarab edər və onu özünə həvalə edər.*

**Məsələ:** ٢٠٨٤. Nəcis olan və suya çəkmək (paklamaq) mümkün olan bir şeyi satmağın eybi yoxdur. Lakin alıcı onu paklığı şərt olan işlərdə istifadə etmək üçün alırsa, məsələn, yemək-içməkdə istifadə edirsə, yaxud bir əməlin səhihliyində zahiri paklığın kafi olmadığı əməl üçün alırsa, məsələn, dəstəmaz və qüsl almaq üçün alırsa, satıcı onun

nəcis olduğunu alıcıya deməlidir. Həmçinin, vacib ehtiyata görə əgər paltardırsa və müştəri də gerçəkdə pak olan paltarda namaz qılmaq istəyirsə (baxmayaraq ki, namazda bilməyən şəxsin – bədən və paltarın zahiri paklığı kifayətdir), nəcis olmasını deməlidir.

**Məsələ:** ٢٠٨٥. Əgər suya çəkilməsi mümkün olmayan pak bir şey nəcis olsa və onun əql sahibləri qəbul edən halal mənfəəti olarsa, onu alıb-satmağın eybi yoxdur. Lakin müştəri onu yeyib-içmək kimi işlər üçün alırsa, ya onun nəcis olması paklıqla şərtləndiyi bir əməlin batil olmasına səbəb olarsa, məsələn, nəcis olmuş nefti yandırmaq istəyir, lakin bu onun yeməyinin nəcis olmasına səbəb olarsa, ya bədəni nəcis olarsa və nəticədə qüsl və dəstəmazı batil olacaqsa, bu halda satıcı onun nəcis olmasını müştəriyə deməsi vacibdir. Həmçinin, vacib ehtiyata əsasən, bədənin nəcis olmasının qüsl və dəstəmazın batil olmasına səbəb olmayan yerlərdə belə, müştəri həqiqətdə pak olan bədən və libasla namaz qılmaq istəyirsə, yenə də hökm eynidir.

**Məsələ:** ٢٠٨٦. Əql sahibləri nəzərində yeyilməkdən başqa halal mənfəəti olmayan nəcis olmuş dərmanların alqı-satqısı batildir. Əgər deyilən mənfəətdən başqa mənfəəti olsa, alveri səhihdir. Lakin onun nəcisliyini müştəriyə deməlidir. Əgər yeyilib-içilən dərman olmasa, alqı-satqısı caizdir. Lakin əvvəlki məsələdə deyildiyi kimi gərək müştəriyə desin.

**Məsələ:** ٢٠٨٧. Qeyri-islami ölkələrdən gətirilən yağların nəcis olması mə`lum olmazsa, alverinin eybi yoxdur. Həmçinin, nəcis olması mə`lum olub, lakin əql sahibləri nəzərində halal olan bir mənfəəti olsa, yenə eyni hökmdədir. Lakin bu surətdə ٢٠٨٥-ci məsələdəki kimi, satıcı bunu müştəriyə bildirməlidir.

Heyvan can verəndən sonra ondan alınan yağın, hərçənd şər`i qayda ilə kəsilməsi ehtimal olunsa da, əgər kafirin əlindən alsalar, bu halda kafirin onu müsəlmandan alması, ya müsəlman bazarından alması sübut olmazsa, ya qeyri-islam ölkələrindən gətirilmiş olarsa, onu yemək haram, alqı-satqısı batildir və nəcis olmasına hökm olunur.

**Məsələ:** ٢٠٨٨. Əgər tülkü və bu kimi heyvanı qeyri-şəri qaydaya əsasən kəssələr, ya özü ölsə, dərisinin alveri batil və ehtiyata əsasən, haramdır.

**Məsələ:** ٢٠٨٩. Qeyri-islami ölkələrdən gətirilən, ya kafirin əlindən alınan dərinin, kafirin onu müsəlman şəxsin əlindən, yaxud müsəlman bazarından alması mə`lum olmasa, hərçənd şər`i qaydaya əsasən kəsilmiş heyvanın dərisi olmasına ehtimal verilsə də alqı-satqısı batildir və onda namaz qılmaq caiz deyildir.

Məslə ٢٠٩٠. Əgər insan heyvan can verdikdən sonra ondan alınan yağın və yaxud müsəlmanın əlindən alınan dərinin, müsəlmanın onu kafir əlindən aldığını bilsə və onun heyvanın şər`i qaydaya əsasən

kəsilib-kəsilməməsi barədə təhqiqat aparmadığını bilsə, onun alqı-satqısı batildir, o dəridə namaz qılmaq və o yağı yemək caiz deyildir.

**Məsələ:** ٢٠٩١. Məstedici içkilərin alveri haram və batildir.

**Məsələ:** ٢٠٩٢. Malikinin icazəsi olmadan qəsbi bir malı satmaq batildir, satıcı alıcıdan aldığı pulu ona (malikə) qaytarmalıdır.

**Məsələ:** ٢٠٩٣. Əgər alıcı alver etmək qəsdində olub, lakin aldığı malın əvəzini verməyəcəyini qəsd etsə, alver səhihdir və onun əvəzini satıcıya verməsi vacibdir.

**Məsələ:** ٢٠٩٤. Əgər alıcı bir malı zimməsində alıb pulunu sonradan haram puldan vermək istəsə, alver səhihdir, lakin borclu olduğu şeyi halal maldan qaytarmayınca zimməsindən götürülmür (borcu ödəmiş hesab olunmur).

**Məsələ:** ٢٠٩٥. Tar və saz kimi ləhv (əyləncə) alətlərinin alqı-satqısı haramdır. Bu hökm uşaq oyuncağı hesab olunan kiçik sazlarda ehtiyata əsasəndir. Lakin məsələn, halal ilə haram istifadədə müştərək olan alətlərin, radio, maqnitofon və s. haramda işlətmək məqsədi olmasa, alqı-satqısının maneəsi yoxdur.

**Məsələ:** ٢٠٩٦. Əgər halal yolda istifadə oluna biləcək bir şeyi haramda işlətmək məqsədilə bir kəsə satsa, məsələn, üzümü şərab çəkmək üçün bir kəsə satsa, bu müamilə batil və haramdır. Lakin bu məqsədlə satmasa sadəcə olaraq alıcının ondan şərab çəkəcəyini bilsə, alverin eybi yoxdur.

**Məsələ:** ٢٠٩٧. Canlıların heykəlini düzəltmək haramdır. Həmçinin, onların şəklini çəkmək ehtiyata əsasən, eyni hökmü daşıyır və onların alveri və saxlanması caizdir, baxmayaraq ki, tərk edilməsi əhvətdir.

**Məsələ:** ٢٠٩٨. Qumardan, oğurluqdan, ya batil alverdən ələ gələn malın alveri füzulidir və onun səhihliyi və qüvvəyə minməsi onun əsl sahibinin, ya onun qəyyumunun icazəsinə bağlıdır, (icazəsiz) istifadəsi haramdır və hər kəsin əlində olsa, gərək əsl sahibinə, ya onun qəyyumuna qaytarsın.

**Məsələ:** ٢٠٩٩. Əgər piy qarışdırdığı yağı satsa bu halda müamilə şəxsi (konkret şəkildə nəzərdə tutulan şey) olsa, məsələn, satıcı «bu bir mən (٣ kq) yağı satıram» desə, bunun iki surəti vardır:

١. Yağa qarışmış piyin miqdarı, camaat arasında ona "١ mən yağdır, ancaq «ğəşş» (qarışığı) vardır" deyiləcək qədər (az) olsa, bu surətdə alver səhihdir və alıcının alveri pozmaq haqqı da vardır.

٢. Yağa qarışmış piyin qədəri o qədər çox olsa ki, camaat arasında "١ mən yağdır" deyilməz, əksinə, "yağ və piydir" deyilsə, müamilə onda olan piy qədərində batildir və satıcının piyə görə müştəridən aldığı pul müştərinin, piy isə satıcının malıdır. Bu zaman alıcı xalis yağa nisbətən olan alveri də poza bilər.

Əgər alver eyni-şəxsi olmasa, əksinə, bir "mən" yağı zimməsində satıb sonra piylə qarışıq olan yağı versə, müştəri onu qaytarıb xalis yağ tələb edə bilər.

**Məsələ:** ٢١٠٠. Əgər çəki, ya peymanə (qab) ilə satılan malın bir qədərini həmin mala, amma artıqlaması ilə satsa, məsələn, bir "mən" buğdanı ١،٥ "mən" buğdaya satsa, riba və haramdır, müamilə də batildir. Həmçinin, onlardan biri sağlam, digəri eybli olsa, ya biri yaxşı, digəri pis olsa və ya biri digəri ilə qiymət fərqi olsa, bu halda müamilə olunan şeyin miqdarında fərq olsa, yenə də riba və haramdır, müamilə də batildır. Buna əsasən, əgər sınıq olmayan misi verib əvəzində ondan artıq miqdarda sınıq mis alsa, ya sədr düyüsü verib ondan artıq yumru düyü alsa, ya (zinət əşyası) düzəlmiş qızılı verib ondan artıq miqdarda düzəlməmiş qızıl alsa, riba və haramdır, müamilə də batildir.

**Məsələ:** ٢١٠١. Əgər artıq aldığı şey satdığı malın növündən olmasa, məsələn, bir "mən" buğdanı bir "mən" buğdaya və üstəlik bir qəpik pula satsa, yenə də riba və haramdır, alver də batildir. Hətta bir şey artıq almasa, amma alıcının onun üçün bir iş görməsini şərt etsə belə, yenə də riba və haramdır, alver də batildir.

**Məsələ:** ٢١٠٢. Əgər ölçü və ya çəki ilə satılan əmtəədə riba olmasını istəməsələr, gərək alverin iki tərəfindən birində artıq və ya artıq hökmündə bir şeyin gerçəkləşməməsini mülahizə etsinlər (necə ki, qabaqkı məsələdə deyildi). Məsələn bir "mən" buğdanı və bir dəstmalı, nəqd olaraq ١،٥ mənin əvəzində satılsa, nəticədə yarım "mən" buğda bir dəstmalın əvəzində olsa; həmçinin, hər iki tərəfdən bir şey əlavə etsələr, məsələn, bir "mən" buğda və bir dəstmalı, ١،٥ "mən" buğda və bir dəstmala yuxarıda deyilənləri mulahizə etməklə satsalar, riba olmaz.

**Məsələ:** ٢١٠٣. Əgər parça kimi, metrlə və zira ilə satılan, ya yumurta və qoz kimi ədədlə satılan şeyi satıb əvəzində (həmin şeydən) artıq alınsa, bu halda iki dənə şəxsi eyn (konkret) şeyin alveri olduğu surətdə eybi yoxdur. Həmçinin, əgər mafizzimməyə satsa və onların arasında fərq olsa, məsələn, on ədəd iri yumurtanı on bir ədəd orta həcmli yumurtaya zimməsində satsa, eyni hökmdədir. Lakin aralarında heç bir fərq olmazsa, alverin səhihliyi məhəlli-işkaldır. Həmçinin, eyni cinsdən olduğu halda əskinasların artığına satışı da – hərçənd sayılan olsa da, istər hər ikisi şəxsi eyn olsun, ya da şəxsi eyn mafizzimmə olsun, məhəlli-işkaldır.

**Məsələ:** ٢١٠٤. Bə`zi şəhərlərdə çəki və ölçü ilə, bə`zilərində isə ədədlə satılan mallar, bu iki üslub arasında (birinin digərinə) qələbə (artıqlığı) olmasa, onun hökmü hər şəhərin özünün adətinə uyğun olar. Həmçinin, şəhərlərin çoxunda çəki, ya ölçü ilə, bə`zi şəhərlərdə isə ədədlə satıldığı surətdə də hökm eynidir; baxmayaraq ki, ehtiyat budur ki, o cinsdən olan malı, ondan artıq mala satmasınlar.

**Məsələ:** ٢١٠٥. Əgər satdığı ilə aldığı şey eyni cinsdən olmasa, artıq almağın eybi yoxdur. Deməli, əgər bir "mən" düyü satıb əvəzində iki "mən" buğda alsa, alver səhihdir.

**Məsələ:** ٢١٠٦. Əgər satdığı ilə aldığı şey eyni bir şeydən hazırlanıbsa alverdə artıq almamalıdır. Deməli, əgər bir "mən" inək yağı satıb əvəzində bir "mən" yarım inək pendiri alsa, riba və haramdır, alver də batildir. Həmçinin, bir cinsdən olan yetişmiş meyvəni, həmin cinsdən olan kal meyvə ilə alveri də eyni hökmdədir.

**Məsələ:** ٢١٠٧. Buğda və arpa ribada eyni cins hesab olunur. Deməli, məsələn, bir "mən" buğda verib, bir "mən" və beş "sir" miqdarında arpa alsa, (yə`ni ٣ kq buğda verib ٣،٣٧٥ kq arpa alsa) riba və haramdır, alver də batildir. Həmçinin, əgər on "mən" arpa alıb, xırman vaxtında on "mən" buğda verəcəyi əsasda müamilə etsə, arpanı nəqd alıb, buğdanı bir müddətdən sonra verdiyi üçün, artıq almaq hökmündədir, bu iş haram və alver batildir.

**Məsələ:** ٢١٠٨. Müsəlman hərbi kafirdən riba (sələm) ala bilər. İslamın pənahında olan kafirlə ribalı alver etmək caiz deyildir, lakin əgər alverdən sonra, riba almaq onların şəriətində caiz olsa, almaq olar. Ata və övlad, ər və daimi arvad biri-digərindən riba ala bilərlər.

## SATICI VƏ ALICININ ŞƏRTLƏRİ

**Məsələ:** ٢١٠٩. Satıcı və alıcının bir neçə şərti vardır:

١. Baliğ olsunlar;

٢. Aqil olsunlar;

٣. Səfeh olmasınlar, yəni mallarını əbəs və lazımsız yerə sərf etməsinlər;

٤. Alver etmək qəsdləri olsun. Deməli, əgər zarafatla «malımı satdım» desə, alver gerçəkləşməz. Həqiqətdə almaq və satmaq qəsdi onun səhihlik şərti deyil, müamilənin gerçəkləşmə səbəbidir.

٥. Başqası onları nahaq yerə alverə məcbur etməsin. Əgər məcbur edilib sonradan razı olsalar, alver nafizdir (qüvvədədir).

٦. Verdikləri mal və onun əvəzinin "maliki" olsunlar, ya malikin qəyyumu və ya vəkili və ya onun tərəfindən icazəli olsunlar. Bunların hökmləri gələcək məsələlərdə deyiləcəkdir.

**Məsələ:** ٢١١٠. Müamilədə müstəqil olan, amma baliğ olmayan uşaqla alver etmək onun öz malında batildir, amma alver onun vəlisi ilə olsa və uşaq yalnız alver əqdini oxusa, alver səhihdir. Əgər pul, ya mal başqasının olsa və o uşaq malın sahibi tərəfindən vəkil olaraq malı satsa, ya o pul ilə bir şey alsa, müamilə səhihdir, baxmayaraq ki, müməyyiz uşaq təsərrüfdə müstəqildir. Eləcə də əgər uşaq pulu satıcıya, malı da alıcıya çatdırmağa, yaxud malı alıcıya verib pulu satıcıya çatdırmağa vasitə olsa, müməyyiz olmasa da, eybi yoxdur, lakin bu zaman satıcı və

alıcı uşağın malı ya pulu sahibinə çatdıracağına əmin və ya xatircəm olmalıdırlar.

**Məsələ:** ٢١١١. Əgər baliğ olmayan uşaqla – halbuki, onunla alver səhih deyildir – müamilə etsə və ondan mal alsa, bu halda mal uşağın özünündürsə, onun vəlisinə, başqasınındırsa həmin şeyin sahibinə verməli, ya sahibindən razılıq almalıdır. Əgər sahibini tanımırsa və onu tanımaq üçün imkanı da yoxdursa, uşaqdan aldığı şeyi, sahibinin tərəfindən məzalim olaraq fəqirlərə verməli və vacib ehtiyata əsasən, bunun üçün şəriət hakimindən icazə almalıdır.

**Məsələ:** ٢١١٢. Əgər bir kəs müməyyiz uşaqla alver etsə – halbuki, onunla müamilə etmək səhih deyildir – və uşağa verdiyi mal, ya pul aradan getsə, uşaq baliğ olandan sonra onu ondan tələb edə bilər. Əgər uşaq müməyyiz olmasa, tələb etmək haqqı yoxdur.

**Məsələ:** ٢١١٣. Əgər alıcını, ya satıcını nahaq yerə alverə məcbur etsələr, bu halda alverdən sonra razı olsa, alver səhihdir, lakin müstəhəbb ehtiyat budur ki, müamiləni yenidən əncam versinlər.

**Məsələ:** ٢١١٤. Əgər insan bər kəsin malını, sahibinin icazəsi olmadan satsa, mal sahibi onun satılmasına razı olmayınca və icazə verməyincə alver hökmü o müamiləyə aid edilmir.

**Məsələ:** ٢١١٥. Uşağın ata və ata tərəfdən olan babası, eləcə də atasının və ata tərəfdən olan babasının vəsisi olan şəxs – belə ki, atası, ya babası onu səğir uşağa qəyyum qərar vermişlər – uşağın malını sata bilərlər. Vacib ehtiyata əsasən, alver uşağın məsləhətinə olmalıdır. Həmçinin, adil müctəhid də yetimin atası, ya ata tərəfdən olan babası və onların vəsisi olmadığı surətdə, yetimin malını onun məsləhəti olduqda sata bilər. Eləcə də dəli və qaib (hazırda olmayan) kəsin malını, zərurət tələb etdikdə sata bilər.

**Məsələ:** ٢١١٦. Əgər bir kəs bir malı qəsb edərək satsa və satdıqdın sonra mal sahibi razı olsa, alver nüfuzludur (qüvvədədir). Qəsb edənin müştəriyə verdiyi şey və alver zamanından e`tibarən hasil olan sonrakı mənfəətlər müştərinindir, müştərinin verdiyi şeylər və müamilə anından e`tibarən hasil olan mənfəətlər malı qəsb olunmuş kəsə məxsusdur.

**Məsələ:** ٢١١٧. Əgər bir kəs bir malı qəsb edib satsa və onun məqsədi əvəzini öz malı etmək olsa, mal sahibi icazə versə alver səhihdir, lakin malın əvəzi qəsb edənin deyil, malikindir.

## MAL VƏ ONUN ƏVƏZİNİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢١١٨. Satılan şey və onun əvəzinə alınan şeyin beş şərti vardır:

١. Onun miqdarı çəki, ölçü, ədəd və bu kimi şeylə mə`lum olmalıdır.

٢. Onu təhvil verə bilsin. Əgər məsələn, satıcı təhvil verə bilmədiyi bir malı satsa, ancaq müştərinin onu almağa qüdrəti olsa, kifayət edər. Buna əsasən, məsələn, qaçmış olan atı, satıcı və alıcının heç biri ixtiyarına keçirə bilməyəcəksə, onu satmaq batildir. Lakin, əgər qaçmış atı, dəyəri olan və təhvil verilməsi mümkün olan başqa bir şeylə birgə satarsa, o at tapılmasa da, alver səhihdir. Əhvət nəzər budur ki, qaçmış qul və kənizdən qeyri, dəyərli olan şeyi (onunla) satsınlar və müamilədə şərt etsinlər ki, əgər qaçmış şey tapılsa, müştərinin olsun.

٣. O xüsusiyyətlər ki, mal və onun əvəzində var və onun vasitəsilə qiymətlər dəyişir, həmin cəhətlər müəyyən edilsin.

٤. Mal (vəqf, rəhn və s.-dən) azad olmalıdır. Çünki insanın vəqf edilən malı satması, deyiləcək bir neçə hal istisna olmaqla, caiz deyildir.

٥. Malın mənfəətini deyil, özünü satmalıdır. Buna əsasən, əgər məsələn, evin bir illik mənfəəti satılarsa səhih deyildir. Lakin əgər alıcı pul əvəzinə mülkünün mənfəətini versə, məsələn, bir kəsdən xalça alıb əvəzini evinin bir illik mənfəəti qərar versə, işkalı yoxdur. (Bunların hökmləri gələcək məsələlərdə deyiləcəkdir.)

**Məsələ:** ٢١١٩. Bir şəhərdə çəki və peymanə (ölçü) ilə satılan malı, həmin şəhərdə ehtiyata əsasən, çəki və peymanə ilə almalıdır. Lakin həmin mal başqa bir şəhərdə baxmaqla alver olunursa, həmin şəhərdə baxmaqla ala bilər.

**Məsələ:** ٢١٢٠. Çəki ilə alver edilən bir şeyi ölçü ilə də alıb-satmaq olar. Belə ki, əgər məsələn, on "mən" buğdanı satmaq istəsə, bir "mən" tutumu olan ölçü qabı ilə on qab buğda verə bilər.

**Məsələ:** ٢١٢١. Əgər alverdə deyilmiş şərtlərdən biri olmasa, alver batildir. Lakin əgər iki malik biri-digərinin malından istifadə etmək üçün razılığa gələrsə, onların istifadəsi mülkə bağlı olmayan hallarda eybi yoxdur.

**Məsələ:** ٢١٢٢. Vəqf olunmuş bir şeyin alveri batildir. Lakin vəqf olunan şey, hansı məqsədlə vəqf olunmuşsa, həmin yerdə istifadə edilə bilinməyəcək dərəcədə xarab olsa, ya xarab olma ərəfəsində olsa, məsələn, məscidin həsiri üzərində namaz qılına bilməyəcək dərəcədə cırılsa, onu satmağın eybi yoxdur. Mümkün olan surətdə onun pulunu, həmin məsciddə elə sərf etsinlər ki, vəqf edənin məqsədinə daha yaxın olsun. Hər bir halda vəqf olunan malın satmaqla istifadəsi və həmçinin, onun pulunun istifadəsi vəqfin mütəvəllisinin və onun olmadığı surətdə şəriət hakiminin icazəsi ilə olmalıdır.

**Məsələ:** ٢١٢٣. Əgər mal kimlər üçün vəqf olunubsa, onların arasında, vəqf olunmuş malın satılmayacağı təqdirdə malın, ya canın tələf olması qorxusu yaranacaq şəkildə ixtilaf olsa, onu sata bilərlər və gərək onun əvəzi (pulu) ilə bir mal alsınlar, onun gəlirini vəqf edənin tə`yin etdiyi yerlərdə sərf etsinlər. Mümkün olmadıqda isə vəqf edənin

məqsədinə daha yaxın olan yerdə xərcləyə bilərlər. Həmçinin, vəqf edən şəxs məsləhət olacağı təqdirdə vəqfin satılmasını şərt etsə, hökm eynidir.

**Məsələ:** ٢١٢٤. Başqasına icarəyə verilmiş mülkün alverinin eybi yoxdur. Lakin icarə müddətində həmin mülkün mənfəəti (istifadəsi) icarəyə götürən şəxsə məxsusdur. Əgər alıcı o mülkün icarəyə verildiyini bilməsə, ya icarə müddətinin az olduğunu güman edib mülkü alsa, vəziyyəti biləndən sonra alveri fəsx edə (poza) bilər.

## ALĞI-SATQININ ƏQD SİĞƏSİ

**Məsələ:** ٢١٢٥. Alğı-satqıda əqdi ərəbcə oxumaq lazım (vacib) deyildir. Buna əsasən, əgər satıcı, məsələn, farsca, ya azəri dilində «bu malı bu pulun əvəzində satdım» - desə və alıcı «qəbul etdim» - desə, alver səhihdir. Lakin alıcı və satıcının «inşa» qəsdi olmalıdır, yə`ni bu iki cümləni deməkdə məqsədləri alqı-satqı (onu icad etmək) olmalıdır.

**Məsələ:** ٢١٢٦. Əgər alver edərkən əqd oxumasalar, lakin satıcı və alıcı malı alıb əvəzini verən zaman alver qəsdi etsələr, alver səhihdir və hər ikisi aldığının maliki olurlar.

## MEYVƏLƏRİN ALĞI-SATQISI

**Məsələ:** ٢١٢٧. Çiçəyi düşüb dənəsi əmələ gəlmiş meyvəni dərməmişdən öncə satmaq səhihdir. Həmçinin, üzüm ağacının üstündə olan qoranı da satmağın eybi yoxdur. Lakin ağacın (üzərindəki) xurmasını qızarmamış, ya saralmamış satmamalıdırlar.

**Məsələ:** ٢١٢٨. Bir ilin meyvəsini, zahir olmamışdan əvvəl, ona bir şey əlavə etmədən satmaq caiz deyildir. Amma bir şey əlavə edərək bir, iki, hətta bir neçə ilin meyvəsini əvvəlcədən satmaq caizdir. Meyvə zahir olandan sonra və dənə bağlamazdan və gülü tökülməmişdən qabaq müstəhəbb ehtiyat budur ki, göyərti və s. kimi yerin məhsulundan bir şeyi onunla birgə satsınlar, ya bir ildən artığın meyvəsini satsınlar.

**Məsələ:** ٢١٢٩. Əgər qızarmış, ya saralmış xurmanı ağacda ikən satsalar, eybi yoxdur, lakin onun əvəzini həmin ağacın xurmasından qərar vermək caiz deyildir. Həmçinin, ehtiyata əsasən, onun əvəzini başqa bir ağacın xurmasından da qərar verməsinlər, istər şəxsi olsun, istərsə də zimmədə.

Amma əgər bir kəsin, başqasının həyətində bir xurma ağacı varsa, bu halda onun miqdarını təxmin etsə və ağacın sahibi də onu evin sahibinə satıb onun əvəzini xurma qərar versə, eybi yoxdur.

**Məsələ:** ٢١٣٠. Xiyar, badımcan və ildə bir neçə dəfə dərilən göyərtiləri, zahir və açıq-aşkar olduğu və alıcının ildə neçə dəfə dərəcəyi tə`yin olunduğu təqdirdə satmaq caizdir.

**Məsələ:** ٢١٣١. Əgər dən bağlayandan sonra buğda və arpanın sünbülünü buğda və arpadan başqa bir şeyə satsalar, eybi yoxdur və onu, həmin sünbüldən əmələ gəlmiş buğda və arpaya satmaq caiz deyildir. Həmçinin, ehtiyat vacibə görə, həmin sünbüldən qeyrisindən hasil olan buğda və arpaya da satmaq caiz deyildir, istər şəxsi olsun, istərsə də zimmədə.

## NAĞD VƏ NİSYƏ

**Məsələ:** ٢١٣٢. Əgər bir malı nəqd olaraq satsalar, alverdən sonra alıcı və satıcı bir-birindən mal və onun əvəzini tələb edib təhvil ala bilərlər. Malın təhvil verilməsi də – istər daşına bilən olsun, istərsə də daşına bilməyən – hər biri, digəri üçün həmin maldan istifadə üçün olan maneəni aradan qaldırması mə`nasındadır.

**Məsələ:** ٢١٣٣. Nisyə alverdə müddət dəqiq şəkildə mə`lum olmalıdır. Deməli, əgər bir malı, əvəzini xırmanda alacaq qəsdilə satsa, müddət dəqiq surətdə müəyyən olmadığı üçün, alver batildir.

**Məsələ:** ٢١٣٤. Əgər bir malı nisyə olaraq satsa, tə`yin edilən vaxt tamam olmazdan əvvəl, satıcı onun pulunu (əvəzini) alıcıdan tələb edə bilməz. Lakin əgər alıcı ölsə və onun özünün malı olsa, satıcı vaxt tamam olmamış öz pulunu (malını) onun vərəsəsindən tələb edə bilər.

**Məsələ:** ٢١٣٥. Əgər bir malı nisyə satsa, tə`yin olunmuş vaxt tamamlandıqdan sonra satıcı onun pulunu (əvəzini) alıcıdan tələb edə bilər, lakin alıcı onu qaytara bilməsə, bu zaman ona möhlət verməli, ya alveri fəsx etməlidir (pozmalıdır) və həmin mal qaldığı surətdə onu geri almalıdır.

**Məsələ:** ٢١٣٦. Əgər malın qiymətini bilməyən bir kəsə nisyə mal verib onun qiymətini də deməsə, alver batildir. Lakin əgər bir kəs malın nəqd qiymətini bildiyi halda ona nisyə mal versə və onu (hazırkı qiymətindən) baha olaraq hesablasa, məsələn, «sənə nisyə verdiyim malın qiymətini nəqd qiymətindən hər tümənə bir riyal baha hesab edirəm» - desə və o da qəbul etsə, eybi yoxdur.

**Məsələ:** ٢١٣٧. Bir malı nisyə satan kəs əgər onun pulunu (əvəzini) almaq üçün müddət qərar versə və məsələn, qərar verilmiş həmin vaxtın yarısı ötdükdən sonra alıcıya «pulun bir qədərini nəqd ver, qalanını isə güzəştə gedirəm (səndən istəmirəm)» - desə, eybi yoxdur.

## SƏLƏF ALVERİ

**Məsələ:** ٢١٣٨. Səlәf alveri budur ki, müştəri nəqd pulu verib zimmədə olan malı alsın ki, bir müddətdən sonra o malı təhvil alsın. Bu alver nisyə alverin əksidir.

Əgər alıcı desə ki, «bu pulu verirəm ki, məsələn, zimmədə olan filan malı altı aydan sonra alıram» və satıcı «qəbul etdim» desə; ya satıcı

pulu alıb «zimmədə olan filan malı satdım ki, altı aydan sonra təhvil verim» - desə, alver səhihdir.

**Məsələ:** ٢١٣٩. Əgər qızıl, ya gümüşü (istər pul olsun, istərsə də qeyri-pul) sələf olaraq satsa və əvəzində qızıl, ya gümüş (istər pul, istərsə qeyri-pul olsun) alsa, alver batildir. Lakin qızıl, ya gümüş növündən olmayan bir malı, ya pulu sələf olaraq satsa və onun əvəzində mal, ya qızıl və ya gümüş alsa, istər (aldığı şey) pul olsun, istərsə də qeyrisi, alver səhihdir.

## SƏLƏF ALVERİNİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢١٤٠. Sələf alverinin ٧ şərti vardır:

١. Malın qiymətinin fərqlənməsinə tə`sir göstərən xüsusiyyətlər müəyyən edilməlidir və onların tə`yin olunması camaat arasında «onun xüsusiyyətləri mə`lum oldu» - deyiləcək tərzdə olsa, kifayətdir. Xüsusiyyətləri və sifətlərini görmədən müəyyən olunmayan, cəvahirat və bu kimi malların, sələf alveri səhih deyildir.

٢. Satıcı və alıcı bir-birindən ayrılmamış alıcı qiymətin hamısını satıcıya versin, ya onun qiyməti miqdarında satıcıdan tələbi (alacağı) olsun və o tələb (alacağı) nağd, yaxud vaxtı çatmış müddətli (borc) olsun və öz tələbini (alacağını) malın qiyməti babətindən hesablasın və o, qəbul etsin. Əgər qiymətin bir qədərini versə, alver həmin miqdarda səhihdir və satıcının alveri fəsx etmək (pozmaq) haqqı vardır.

٣. Müddət tam və dəqiq şəkildə müəyyən olunmalıdır. Əgər «xırmanın əvvəlinə qədər malı təhvil verəcəyəm" - desə, müddət tam və dəqiq şəkildə mə`lum olmadığı üçün, alver batildir.

٤. Malı təhvil vermək üçün elə bir vaxt tə`yin etsinlər ki, satıcı həmin vaxt o malı təhvil verə bilsin.

٥. Məkanların fərqli olduğu halda mala xəsarət gələcəyi, ya onu təhvil vermək çətin olacağı surətdə malın təhvil verilmə yeri tə`yin olunmalıdır. Lakin əgər həmin yer mövcud nişanələrlə mə`lum olsa, yerin adını çəkmək lazım (vacib) deyildir.

٦. Malın miqdarı ölçü, çəki, ədəd və bu kimi vasitələrlə tə`yin olunmalıdır və adətən baxmaqla alver edilən malı sələf olaraq satsalar, eybi yoxdur. Lakin qoz və yumurtanın bə`zi növləri kimi, onların fərdləri arasında fərq o qədər az olmalıdır ki, camaat ona əhəmiyyət verməsin.

٧. Satılan şey ölçü (peymanə) və ya çəki ilə satılanlardan olarsa, onun əvəzi həmin şeydən olmamalıdır. Məsələn, buğdanı sələf olaraq buğdaya satmaq olmaz.

## SƏLƏF ALVERİNİN HÖKMLƏRİ

**Məsələ:** ٢١٤١. İnsan səlәf olaraq aldığı malı, müddəti tamam olmamış onu satandan başqasına sata bilməz. Həmçinin, satıcıya da vacib ehtiyata əsasən, sata bilməz. Müddət tamam olandan sonra, təhvil almasa da, satmağının eybi yoxdur. Lakin satıcının özünə, aldığı növdən olan şeyə satsa, gərək səməndən artığına satmasın. Ölçü və çəki ilə satılan malı, təhvil almamış satmaq caiz deyildir. Lakin sərmayəsindən artığına satmasa, eybi yoxdur.

**Məsələ:** ٢١٤٢. Səlәf alverində əgər satıcı müamilə etdiyi malı qərarlaşdırdıqları vaxtda versə, müştəri qəbul etməlidir, müamilə etdiyindən daha yaxşısını versə də eynilə; və elə olmalıdır ki, həmin cinsdən hesab olunsun (müştəri qəbul etməlidir).

**Məsələ:** ٢١٤٣. Əgər satıcının (təhvil) verdiyi mal, qərar qoyduqları maldan pis olsa, müştəri qəbul etməyə bilər.

**Məsələ:** ٢١٤٤. Əgər satıcı müamilə edilən malın əvəzinə başqa bir mal versə, müştəri razı olan surətdə eybi yoxdur.

**Məsələ:** ٢١٤٥. Əgər səlәf olaraq satmış olduğu mal, təhvil veriləcəyi vaxtda qıtlaşsa və onu tədarük görə bilməsə, onu tapana qədər müştəri gözləyə bilər, ya da alveri pozub (malın müqabilində) verdiyini geri ala bilər.

**Məsələ:** ٢١٤٦. Əgər bir malı satıb bir müddətdən sonra təhvil verəcəyini və pulunu da bir müddətdən sonra alacağını qərara alsalar, alver batildir.

## QIZILI QIZILA VƏ GÜMÜŞÜ GÜMÜŞƏ SATMAQ

**Məsələ:** ٢١٤٧. Sikkəli olub-olmamasından asılı olmayaraq qızılı qızıla və gümüşü gümüşə satmaq birinin çəkisi artıq olan surətdə haram və batildir.

**Məsələ:** ٢١٤٨. Əgər qızılı gümüşə, ya gümüşü qızıla satsa alver səhihdir və çəkilərinin bərabər olması lazım deyildir.

**Məsələ:** ٢١٤٩. Əgər qızıl, ya gümüşü qızıl, ya gümüşə satsalar, satıcı və alıcı bir-birindən ayrılmamış mal və onun əvəzini bir-birinə təhvil verməlidirlər. Əgər müamilə etdiklərinin heç bir miqdarını təhvil verməsələr, alver batildir.

**Məsələ:** ٢١٥٠. Əgər satıcı, ya alıcı müamilə etdiklərinin hamısını, o biri isə bir qədərini təhvil verib bir-birindən ayrılsalar, təhvil verilən həmin miqdara nisbətən alver səhihdir, lakin malın hamısı əlinə gəlməyən tərəf alveri poza bilər.

**Məsələ:** ٢١٥١. Əgər mə`dənin gümüşlü torpağını xalis gümüşə və mə`dənin qızıllı torpağını xalis qızıla satsalar, alver batildir, amma əgər torpaqda olan qızıl, ya gümüşün miqdarının xalis qızıl, ya gümüşlə

bərabər olduğunu bilsələr, eybi yoxdur. Lakin gümüşlü torpağı qızıla, ya qızıllı torpağı gümüşə satmağın eybi yoxdur.

## ALVERİ POZMAĞIN MÜMKÜN OLDUĞU YERLƏR

**Məsələ:** ٢١٥٢. Alveri pozmaq haqqına «xiyar (ixtiyar) haqqı» deyilir. Alıcı və satıcı on bir halda alveri poza bilərlər:

١. Alıcı və satıcı alverdən sonra bir-birindən ayrılmamış olsunlar, hətta əqd məclisindən çıxmış olsalar da; buna «məclisdəki xiyar haqqı» deyilir.

٢. Müamilə edənlər (müştəri, ya satıcı) – alver zamanı, ya ondan qeyri müamilələrdə (iki tərəfdən biri) "məğbun" (aldanmış-zərərçəkmiş) olsa; buna «ğəbn xiyar haqqı» deyilir.

٣. Alverdə hər iki tərəf və ya onlardan biri üçün müəyyən müddətə qədər alveri pozmaq haqqı qərara alsınlar; buna «şərtə əsasən xiyar haqqı» deyilir.

٤. Müamilə edən tərəf öz malını, olduğundan daha yaxşı göstərsin, belə ki, malın qiyməti camaatın nəzərində artmış olsun; buna «tədlisə əsasən xiyar haqqı» deyilir.

٥. Alverdə iki tərəfdən biri, digəri üçün hər hansı bir işi yerinə yetirməyi şərt etsə və o da şərtə əməl etməsə; ya zimmədə deyil, xaricdə olan malda hər hansı bir xüsusiyyət olmasını şərt etsə və həmin mal o xüsusiyyətə malik olmasa; bu iki surətdə şərt edən tərəf alveri poza bilər və buna «şərt pozulduqda xiyar haqqı» deyilir.

٦. Mal, ya onun əvəzində bir eyb, qüsur olduqda; buna «eybə görə xiyar haqqı» deyilir.

٧. Üzərində alver etdikləri malın bir miqdarının başqasının malı olduğu mə`lum olarsa və onun sahibi bu alverə razı olmazsa; bu halda qarşı tərəf həm alveri poza bilər və ya o miqdarın əvəzini əgər vermişdirsə, geri ala bilər. Bunun iki surəti vardır:

Birinci budur ki, həmin miqdar "kəsri-muşa" (malın qeyri-müəyyən hissəsi başqasına aid) olsun və buna «şəriklikdən irəli gələn xiyar haqqı» deyilir.

İkinci isə budur ki, o miqdar ayrı olsun və buna «malın bölünməsinə görə xiyar haqqı (təbə`üzis-səfqə)» deyilir.

٨. Mal sahibi, qarşı tərəfin görmədiyi və zimmədə deyil, xaricdə olan müəyyən bir malın xüsusiyyətlərini ona desin və sonra onun dediyi kimi olmadığı mə`lum olsun. Bu surətdə qarşı tərəf alveri poza bilər və buna «görməkdən irəli gələn xiyar haqqı» deyilir.

٩. Alıcı, aldığı və ödənişi tə`xirə salmağı şərt etmədiyi malın əvəzini (pulunu) ٣ günə qədər satıcıya verməzsə; bu halda satıcı malı təhvil verməmişdirsə, alveri poza bilər. Lakin əgər aldığı şey, bir gün qalmaqla xarab olacaq meyvələr kimi şeylərdən olsa, onun əvəzini

axşama qədər verməsə və onun ödənişini tə`xirə salacağını şərt etməmiş olsa, satıcı alveri poza bilər və buna «tə`xirə görə xiyar haqqı» deyilir.

١٠. Heyvan alan şəxs ٣ günə qədər alveri poza bilər və əgər satıcı satdığı şeyin əvəzində heyvan alıbsa, o da ٣ günə kimi alveri poza bilər və buna «heyvan alqı-satqısına görə xiyar haqqı» deyilir.

١١. Satıcı, satdığını təhvil verə bilmədikdə, məsələn, satdığı at qaçarsa; bu halda alıcı alveri poza bilər və buna «təhvil verə bilməməyə görə xiyar haqqı» deyilir. Bütün bunların hökmləri gələcək məsələlərdə deyiləcəkdir.

**Məsələ:** ٢١٥٣. Əgər alıcı malın qiymətini bilməsə, ya alver vaxtı qəflətdə olaraq malı adi qiymətindən baha qiymətə alsa, bu halda bahalığı camaatın əhəmiyyət verəcəyi və güzəştə getməyəcəyi dərəcədə (çox) olsa, alveri poza bilər. Həmçinin, əgər satıcı malın qiymətini bilmədən, ya alver vaxtı qəflətdə olaraq malı (həqiqi) qiymətindən ucuz satsa, bu halda camaatın nəzərində əhəmiyyət veriləcək və güzəştə gedilməyəcək dərəcədə ucuz satarsa, alveri poza bilər.

**Məsələ:** ٢١٥٤. Şərt əsasında olunan ticarətdə, məsələn, qiyməti yüz min manat olan evi əlli minə sataraq (pulunu nəqd olaraq alsa və) qərara alsalar ki, əgər satıcı vaxt tamam olduqda pulu versə (geri qaytarsa), alveri poza bilsin, bu halda alıcı və satıcının (həqiqətən) alver qəsdi olsa, alver səhihdir.

**Məsələ:** ٢١٥٥. Şərt əsasında olunan ticarətdə satıcı pulu vaxtında qaytara bilməyəcəyi halda belə alıcının mülkü ona verəcəyinə arxayın olduğu surətdə, alver səhihdir. Lakin vaxtın tamamında pulu verməsə, mülkü alıcıdan tələb etməyə haqqı yoxdur. Əgər vaxtın tamamında alıcı ölsə, mülkü onun vərəsələrindən tələb edə bilməz.

**Məsələ:** ٢١٥٦. Əgər misal üçün, ə`la növ çayı aşağı keyfiyyətli çayla qarışdırıb ə`la növ adı ilə satsa və müştəri bunu bilməsə, (biləndən sonra) müamiləni poza bilər.

**Məsələ:** ٢١٥٧. Əgər müamilə zimməsində deyil, xaricdə olan bir malın üzərində baş versə və alıcı həmin malın eybli, qüsurlu olduğunu bilsə, məsələn, bir heyvan alıb onun gözünün kor olduğunu bilsə, bu halda onun eybi alverdən qabaq var imişsə və alıcı bunu bilməyirmişsə, alıcı alveri poza və o malı satıcıya qaytara bilər. Onu geri qaytarmaq mümkün olmasa, məsələn, o malda bir dəyişiklik hasil olsa, ya onu qaytarmağa mane olan bir istifadə etmiş olsa, bu surətdə onun sağlam və eyblisini qiymət fərqi müəyyən edilməli və satıcıya verdiyi sağlamla eyblinin qiymət fərqinin nisbətini alar. Məsələn, ٤ manata aldığı malda eyb, qüsur olduğunu başa düşsə, bu halda onun sağlamının qiyməti ٨ manat, eyblisinin qiyməti isə ٦ manatdırsa, bunların aralarındakı qiymət fərqi dörddə bir olduğu üçün, verdiyi pulun ١/٤-ni, yə`ni bir manatı satıcıdan ala bilər.

**Məsələ:** ٢١٥٨. Əgər satıcı (satdığı şeyin) əvəzi olaraq aldığı xarici, müəyyən şeyin (əvəzin) qüsurlu olduğunu başa düşsə, bu halda eyb, alverdən qabaq həmin şeydə olmuşdursa və o, bunu bilməyibsə, alveri pozub onu sahibinə qaytara bilər. Əgər qaytarmağa mane olan dəyişiklik, ya istifadə ucbatından qaytara bilməsə, əvvəlki məsələdə deyildiyi kimi, sağlam və eyblinin qiymət fərqini ala bilər.

**Məsələ:** ٢١٥٩. Əgər alverdən sonra və malı təhvil verməmiş malda bir eyb əmələ gəlsə, alıcı alveri poza bilər. Eləcə də malın əvəzi olan şeydə alverdən sonra və təhvil verməmiş bir eyb yaransa, satıcı alveri poza bilər. Lakin qiymətlər fərqini almaq istəsələr, bu iş caiz deyildir.

**Məsələ:** ٢١٦٠. Əgər alverdən sonra malda bir eyb olduğunu başa düşsə, alveri dərhal pozmaları lazım (vacib) deyildir və sonradan da onu pozmaq haqqı vardır, baxmayaraq ki, əhvət onu gecikdirməməkdir.

**Məsələ:** ٢١٦١. Əgər malı alandan sonra onun eybli olduğunu başa düşsə, satıcı hazır olmasa da, alveri poza bilər. Həmçinin, fəsxə səbəb olacaq sair hallarda da hökm eynidir.

**Məsələ:** ٢١٦٢. Alıcı dörd halda malda olan eybə görə alveri poza, ya qiymətlər fərqini ala bilməz:

١. Malı alarkən eybli, qüsurlu olduğunu bildikdə;

٢. Malın eybli, qüsurlu olduğuna razı olduqda;

٣. Alver edərkən «əgər malda bir eyb olsa, geri qaytarmayacaq və qiymətlər fərqini almayacağam» - dedikdə.

٤. Satıcı alver vaxtı «bu malı, onda olan hər bir eyib ilə birgə satıram» - desə; amma əgər eybini müəyyən edib «malı bu eyiblə birgə satıram» - desə və sonra başqa bir eyibi də olduğu mə`lum olsa, alıcı, satıcının müəyyən etmədiyi (o biri) eyibə görə alveri poza bilər və malı geri verə bilmədikdə, onun qiymətlər fərqini ala bilər.

**Məsələ:** ٢١٦٣. Əlinə eyibli mal gələn kəs bir neçə halda eybə görə alveri poza bilməz və yalnız qiymətlər fərqini tələb edə bilər:

١. Malın özü tələf olduğu halda;

٢. Başqasına satdığı, ya bağışladığı və s. kimi hallarda onun mülkiyyətindən xaric olduğu halda;

٣. Malda hər hansı bir dəyişiklik baş verdikdə, məsələn, aldığı parçanı kəssə, ya rəngləmiş olsa;

٤. Mal mülkiyyətindən xaric olmasa da, lakin onun üzərində alver baş versə, məsələn, malı icarəyə verdikdə, ya girova qoyduqda.

٥. Təhvil aldıqdan sonra malda bir eyib yaransa; lakin əgər alver eyibli heyvanın üzərində edilsə və ٣ gün keçməzdən qabaq başqa bir eyib əmələ gəlsə, onu təhvil almış olsa da belə, yenə də «heyvan alqı-satqısına görə xiyar» haqqına əsasən, alveri poza bilər. Həmçinin, şərt cəhətindən fəsx etməyə haqqı olduqda belə, alveri pozmaq haqqı vardır.

**Məsələ:** ٢١٦٤. Əgər insanın özünün görmədiyi bir malı olsa və başqası o malın xüsusiyyətlərini ona desə, o da həmin xüsusiyyətləri müştəriyə deyərək satsa, satdıqdan sonra dediyi xüsusiyyətlərdən daha yaxşı olduğunu başa düşərsə, alveri poza bilər.

## ALQI-SATQININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢١٦٥. Əgər satıcı, malın alış qiymətini müştəriyə deyərsə, gərək qiymətin artıb-əskilməsinə səbəb olan bütün xüsusiyyətləri də ona desin, hətta həmin qiymətə, ya ondan aşağı satsa da belə. Məsələn, gərək nəqd, yoxsa nisyə aldığını desin. Əgər bə`zi xüsusiyyətlərini deməsə və müştəri sonradan başa düşsə, alveri poza bilər.

**Məsələ:** ٢١٦٦. Əgər insan bir malı bir kəsə verib qiymətini də müəyyən etsə və «bu malı bu qiymətə sat, nə qədər baha sata bilsən, artığı sənin əmək haqqın olsun» - desə, bu halda o qiymətdən nə qədər baha satsa mal sahibinindir və icarə batildir. Satıcı, məşhur nəzərə əsasən, yalnız öz əməlinin ücrətül-mislini mal sahibindən ala bilər. Lakin ücrətül-misl, satıcının razı olduğundan artıq olsa, vacib ehtiyat budur ki, artıq miqdarda mal sahibi ilə müsalihə etsin (razılaşsın); əgər bu, cüalə şəklində olsa və mal sahibi «bu malı o qiymətdən baha satsan, artığı sənin olsun» - desə, eybi yoxdur.

**Məsələ:** ٢١٦٧. Əgər qəssab erkək heyvan əti satanda onun yerinə dişi heyvan əti versə, günah etmişdir. Əgər o əti müəyyən edib «bu erkək heyvan ətini satıram» - desə, alıcı (dişi heyvan əti aldıqdan sonra) alveri poza bilər. Əgər müəyyən etməyibsə və müştəri də aldığı ətə razı olmasa, qəssab gərək ona erkək heyvan əti versin.

**Məsələ:** ٢١٦٨. Alıcı parça satıcısından rəngi getməyən bir parça istəsə və satıcı rəngi gedən parça versə, müştəri alveri poza bilər.

**Məsələ:** ٢١٦٩. Alverdə and içmək doğru bir şey üçün məkruhdur, əgər yalan yerə and içsə haramdır.

## ŞƏRİK OLMAĞIN HÖKMLƏRİ

**Məsələ:** ٢١٧٠. Şərik olmaq – iki, ya ikidən artıq şəxsin bir mala – istər eyn olsun, istərsə də borc – yarısına və yaxud üçdə birinə bərabər hüquqlu şəkildə (kəsri-müşa) malik olmasıdır. Şəriklik bir neçə səbəblə gerçəkləşir:

a) İrs kimi qeyri-ixtiyari səbəblə,

b) İxtiyari səbəblə. İstər o ixtiyari səbəb xarici bir əməl olsun, məsələn, iki nəfər birlikdə bir malı öz mülkiyyətlərinə keçirsinlər; istərsə də əqdlə olsun, məsələn, iki malın sahibi olan iki nəfərin hər biri öz malının yarısını muşa şəkildə o birinin malının muşa olan yarısına alver, ya sülh (razılaşma) yolu ilə dəyişdirsinlər.

Həmçinin, şəriklik iki malın bir-birindən ayrılmayacaq tərzdə qarışdırmaqla da gerçəkləşər, istər həmin iki mal eyni cinsdən (növdən) olsun, istərsə də ayrı-ayrı iki cinsdən (növdən) olsun.

Hökmləri qeyd olunacaq "əqd ilə olan şirkət" – iki, ya daha çox insanın həm zərərə, həm də fayda və xeyrə şərikliyi əsasında müştərək malda baş verən bir müamilədir.

**Məsələ:** ٢١٧١. Əgər iki nəfər, ya daha çox adam öz işlərindən əldə etdikləri muzda bir-biri ilə şəriklik etsələr, məsələn, bir neçə fəhlə öz aralarında qərar qoysalar ki, nə qədər əmək haqqı alsalar, birgə bölüşəcəklər, onların şərikliyi səhih deyildir. Lakin əgər onların hər biri öz qazancının yarısını, şərikinin qazancının yarısına müəyyən bir müddətdə sülh etsə və şərik də qəbul etsə, zəhmət haqqında şərik olarlar. Əgər lazım əqd əsnasında hər biri öz muzdunun məsələn, yarısını o birisinə verməyi şərt etsə, şərik olmasalar da, şərtə əməl etmələri vacibdir. Həmçinin, əqd pozulmayıbsa, caiz əqd zimnində də şərt etsələr, hökm eynidir.

**Məsələ:** ٢١٧٢. Əgər iki nəfər bir-biri ilə bu əsasda şərik olsalar ki, hər biri öz e`tibarına bir mal alsın və onun qiymətinə özü borclu olsun, lakin hər birinin aldığı maldan istifadə etməkdə biri-digəri ilə şərik olsunlar, bu iş səhih deyildir. Amma onlardan hər hansı biri, digərini vəkil etsə ki, mafizzimmə qəsdilə – nəqd, ya nisyə –aldığı bir malın onun muşa-kəsrini, məsələn yarsını, üçdə birini – onun zimməsinə alsın, sonra hər bir şərik bir malı həm özü, həm də şəriki üçün alsın ki, hər ikisi borclu olsunlar, bu halda şəriklik səhihdir.

**Məsələ:** ٢١٧٣. Şəriklik əqdi ilə bir-biri ilə ortaq olan şəxslərin ağıllı və baliğ olmaları, öz qəsd və ixtiyarı ilə şərik olmaları və

həmçinin, öz malından istifadə haqqına sahib olmaları gərəkdir. Buna əsasən, səfeh (yə`ni öz malını lazımsız işlərə sərf edən şəxs) öz malından istifadə haqqına malik olmadığından, əgər şərik olsa, səhih deyildir.

**Məsələ:** ٢١٧٤. Əgər şəriklik əqdində şərt etsələr ki, işləyən və ya digər şəriklə müqayisədə daha çox işləyən, ya da o birinə nisbətən işinin dəyəri daha çox olan şəxs daha çox qazanc əldə etsin, bu halda şərt etdikləri şeyi ona verməlidirlər. Həmçinin, əgər şərt etsələr ki, işləməyən və ya çox işləməyən, ya da işinin dəyəri o biri ilə müqayisədə çox olmayan şəxs daha çox qazanc alsın, bu şərt batildir. Lakin qazancın artıq miqdarını onun mülkiyyətinə keçirməyi şərt etsələr, şərt səhihdir və ona vəfa (əməl) olunmalıdır.

**Məsələ:** ٢١٧٥. Əgər qazancın hamısının bir nəfərin özünə götürməsini, yaxud zərərin hamısının onlardan birinin ödəməsini qərara alsalar, bu qərar batildir və onların şərik olmaları da məhəlli-işkaldır. Lakin əgər qərara alsalar ki, qazancdan malik olduğunu başqasına versin, ya başqasına dəymiş ziyanın hamısını öz malından onun mülkiyyətinə keçirsə, əqd səhihdir və bu şərtə əməl olunması lazımdır.

**Məsələ:** ٢١٧٦. Əgər şəriklərdən birinin artıq mənfəət götürməsini şərt etməsələr, bu halda sərmayələri eyni miqdarda olsa, mənfəət və zərəri də eyni miqdarda götürməlidirlər. Əgər onların sərmayəsi eyni miqdarda olmasa, zərər və mənfəəti sərmayəyə mütənasib olaraq bölüşmələri gərəkdir. Məsələn, əgər iki nəfər şəriklik etsələr və onlardan birinin sərmayəsi digərinin sərmayəsindən iki dəfə çox olsa, onun mənfəət və zərəri o birinin mənfəət və zərərindən iki qat çox olar, istər hər ikisi eyni səviyyədə işləmiş olsunlar, istər biri az, digəri çox, istərsə də biri ümumiyyətlə işləməmiş olsun.

**Məsələ:** ٢١٧٧. Əgər şəriklik əqdində hər ikisinin birlikdə alış-veriş etmələrini və ya hər birinin təklikdə alver etməsini, yaxud təkcə birinin alver etməsini şərt etsələr, gərək şərtə əməl etsinlər.

**Məsələ:** ٢١٧٨. Əgər hansı birinin sərmayə ilə alış-veriş edəcəyini müəyyən etməsələr, onlardan heç biri digərinin icazəsi olmadan o sərmayə ilə alver edə bilməz.

**Məsələ:** ٢١٧٩. Şirkətin sərmayəsinin ixtiyarı əlində olan kəs, şəriklik müqaviləsinə əməl etməlidir. Məsələn, əgər onunla nisyə alması, yaxud nəqd satması və ya malı məxsus bir yerdən almasını qərara almışlarsa, bu qərara əməl olunmalıdır. Əgər onunla heç bir qərar qoyulmamışdırsa, bu zaman adi qaydada alver etməlidir və əgər şirkətin malı adi mal deyilsə, ya mal üçün təhlükə ehtimalı varsa, səfərdə olduqda onu özü ilə gəzdirməməlidir.

**Məsələ:** ٢١٨٠. Şirkətin sərmayəsi ilə alver edən bir şərik, əgər onunla qoyulmuş şərtin əksinə alış-veriş edərsə, yaxud şərt etməyiblərsə də, adi alver qaydasının əksinə alver edərsə, bu surətdə digər şərikin

payına mütənasib olaraq müamilə füzulidir; belə ki, o şərik icazə verməsə, onun malının özünü və mal tələf olduğu halda isə onun əvəzini ondan ala bilər.

**Məsələ:** ٢١٨١. Şirkətin sərmayəsi ilə alver edən şərik, ifrata varmasa və sərmayəni qorumaqda səhlənkarlıq etməsə, təsadüfən onun bir qədəri, ya hamısı tələf olsa, zamin deyildir.

**Məsələ:** ٢١٨٢. Şirkətin sərmayəsi ilə alver edən şərik, sərmayənin tələf olduğunu desə və şəriət hakiminin yanında and içsə, onun sözü qəbul edilməlidir.

**Məsələ:** ٢١٨٣. Əgər şəriklərin hamısı maldan istifadə etməyə dair biri-digərinə verdikləri icazədən daşınsalar, onların heç biri şirkətin malından istifadə edə bilməz və əgər onlardan biri öz icazəsindən dönsə, digər şəriklərin də istifadə haqqı yoxdur. Lakin icazəsini geri götürən şəxs şirkətin malından istifadə edə bilər.

**Məsələ:** ٢١٨٤. Şəriklərdən biri hər vaxt şirkətin sərmayəsini bölməyi xahiş etsə, şirkət müddətli olsa da belə, digər şəriklər qəbul etməlidirlər. Amma sərmayənin bölünməsi ona, müştərək olmadıqları maldan əlavə edilməsini lazım tutursa (buna, qisməti-rədd deyirlər), ya bu bölünmə şəriklərə etina ediləcək səviyyədə ziyan vurarsa (qəbul etməyə bilərlər).

**Məsələ:** ٢١٨٥. Əgər şəriklərdən biri ölsə, ya dəli, ya da bihuş olsa, digər şəriklər şirkətin malından istifadə edə bilməzlər. Həmçinin, əgər onlardan biri səfeh olsa (yə`ni öz malını əbəs və lazımsız yerlərə xərcləsə) və ya şəriət hakimi tərəfindən iflasa uğradığı üçün istifadədən qadağan olunsa, eyni hökmdədir.

**Məsələ:** ٢١٨٦. Əgər şərik özü üçün nisyə olaraq bir şey alsa, zərər və mənfəəti onun özünündür. Amma əgər şirkət üçün alarsa və şərikliyin mütləq olması nisyə mala da şamil edilərsə, zərər və mənfəəti şəriklərindir. Həmçinin, şirkət əqdi nisyə müamiləyə şamil olmasa və şirkət üçün alsa, digər şəriklər icazə verdikdə də hökm eynidir.

**Məsələ:** ٢١٨٧. Əgər şirkətin sərmayəsi ilə alver etdikdən sonra şirkətin (şərikliyin) batil olduğunu başa düşsələr, bu halda alverə verdikləri icazə şirkətin səhih olması ilə şərtlənməsə, yə`ni əgər şirkətin düzgün olmadığını bilsəydilər, bir-birinin malından istifadə etməyə razı olardılar, alver səhihdir və həmin alverdən gələn gəlir hamısına məxsusdur. Əgər bu cür olmasa, bu halda digərlərinin istifadə etməsinə razı olmayanlar o alverə razı olsalar, alver səhih, əks halda isə batildir. Hər bir halda fəqihlərdən bir qrupu (Allah onların məqamlarını ucaltsın!) buyurmuşlar: «Şəriklərin hər birinin şirkət üçün gördüyü iş təmənnasız deyildirsə, öz işlərinin əmək haqqını adi miqdarda və digər şəriklərinin paylarını qoruyaraq götürə bilər». Lakin zahir budur ki, icazə olmadığı surətdə zəhmət haqqına müstəhəqq olmur və icazə

verildikdə əmək haqqına müstəhəqq olmaq məhəlli-işkaldır. Əhvət – sülh etməkdir (razılaşmadır).

## SÜLHÜN (RAZILAŞMANIN) HÖKMLƏRİ

**Məsələ:** ٢١٨٨. Sülh odur ki, insan başqası ilə saziş edib (razılaşıb) malının, ya malının mənfəətinin bir qədərini onun mülkiyyətinə keçirsin, ya ona mübah etsin, ya öz haqq və tələbindən keçsin ki, bunun müqabilində qarşı tərəf də malından, ya malının mənfəətindən bir qədərini onun ixtiyarında qoysun, ya mübah etsin, ya malını haqq və tələbindən keçsin. Deyilənlərdə sülh etmək, müqabil tərəfdə heç bir əvəz olmadıqda, məhəlli-işkaldır.

**Məsələ:** ٢١٨٩. Sülh əqdi bağlayan hər iki tərəf aqil və baliğ olmalı, sülh etmək qəsdində olmalı və bir kəs nahaq yerə onu məcbur etməməlidir. Əgər məcbur etsələr və sonra hər iki tərəf buna razı olsalar, sülh qüvvədədir. Həmçinin, səfeh və iflasa uğradığına görə şəriət hakimi tərəfindən malından istifadəsi qadağan olunan şəxslərdən olmamalıdırlar.

**Məsələ:** ٢١٩٠. Sülh əqdini ərəbcə oxumaq lazım (vacib) deyildir. Əksinə, sülh və saziş etmələri başa düşülən hər hansı bir dildə səhihdir. Həmçinin, muatatla (danışıqsız) və sülh məqsədilə bir tərəfin malı verməsi və digər tərəfin alması ilə də sülh gerçəkləşir.

**Məsələ:** ٢١٩١. Əgər bir kəs öz qoyunlarını çobana versə ki, məsələn, bir il müddətində saxlayıb südündən istifadə etsin və (sahibinə) bir az yağ versin, bu haqda çobanın zəhmətləri müqabilində qoyunun südünü və (riba olmamaq üçün) qoyunun südündən deyil, başqa şeydən alınan yağın, sülh edilməsinin eybi yoxdur. Hətta əgər qoyunları bir il müddətində çobana icarəyə versə ki, südündən istifadə edib əvəzində qoyunun südündən qeyri bir şeydən alınan yağdan müəyyən qədər versin, yenə də eybi yoxdur.

**Məsələ:** ٢١٩٢. Əgər bir kəs öz tələbini, ya haqqını başqası ilə sülh etmək istəsə, onun qəbul etdiyi təqdirdə səhih olar. Lakin öz tələbindən, ya haqqından keçmək istəsə (qarşı tərəfin) onu qəbul etməsi lazım deyildir.

**Məsələ:** ٢١٩٣. Əgər insan öz borcunun qədərini bilsə, amma borc sahibi onun miqdarını bilməsə və ondan az miqdara sülh etsə, məsələn, ٥٠ manat tələbi (alacağı) olduğu halda ١٠ manata sülh etsə, artıq qalanı borcluya halal deyildir. Lakin borclu olan şəxs onun qədərini borc sahibinə deyib onu razı edərsə; yaxud borc sahibi həmin miqdarı bilsəydi belə, yenə də sülh edəcəkdisə, artıq miqdar borcluya halal olar.

**Məsələ:** ٢١٩٤. Əgər bir cinsdən (növdən) və çəkiləri mə`lum olan iki malı biri-digərinə sülh etmək istəsələr, vacib ehtiyat budur ki, birinin çəkisi digərindən artıq olmasın. Lakin çəkiləri mə`lum olmasa və sülh etsələr, birinin çəkisinin digərindən artıq olduğunu ehtimal etsələr də, sülh səhihdir.

**Məsələ:** ٢١٩٥. Əgər iki nəfərin bir kəsdən alacağı varsa, ya iki nəfərin digər iki nəfərdən alacağı varsa və tələblərini bir-biri ilə sülh etmək istəsələr, bu halda tələbləri bir növdən və eyni çəkidə olsa, məsələn, hər ikisi on "mən" buğda almalı olduqları təqdirdə, sülh etmələri səhihdir. Həmçinin, əgər alacaq olduqları malın cinsi eyni olmasa; məsələn, birinin on "mən" düyü, digərinin isə on iki "mən" buğda alacağı varsa, hökm eynidir. Lakin onların alacaqları mal bir cinsdən və adətən, çəki, ya ölçü ilə müamilə edilən şeylərdən olsa, bu halda onların çəki, ya ölçüləri bərabər olmasa sülh etmələri işkallıdır.

**Məsələ:** ٢١٩٦. Əgər bir kəsdən, bir müddətdən sonra alacağı bir haqqı varsa, onu az miqdarla sülh etmək istəsə və məqsədi də öz haqqından bir qədərini keçib qalanını nəqd almaq olsa, eybi yoxdur.

**Məsələ:** ٢١٩٧. Əgər iki nəfər bir şeyi biri-biri ilə sülh etsələr, öz razılıqları ilə sülhü poza bilərlər. Həmçinin, sülh müamiləsi əsnasında hər ikisi, ya onlardan biri üçün müamiləni pozmaq haqqı qoysalar, bu haqqı olan kəs sülhü poza bilər.

**Məsələ:** ٢١٩٨. Alıcı və satıcı nə qədər ki, bir-birindən ayrılmayıblar, onu poza bilərlər. Eləcə də əgər müştəri bir heyvan alsa, ٣ günə kimi alveri poza bilər. Həmçinin, əgər aldığı malın pulunu ٣ günə kimi verməsə və malı təhvil almasa, satıcı alveri poza bilər. Lakin malı sülh edən kəsin bu ٣ surətdə sülhü pozmağa haqqı yoxdur. Əgər qarşı tərəf üzərində sülh edilmiş malı ödəməyi həddindən artıq gecikdirsə; və həmçinin, alqı-satqı hökmlərində deyilmiş qalan surətlərdə də sülhü poza bilər.

**Məsələ:** ٢١٩٩. Əgər sülh edərək aldığı mal eybli olsa, sülhü poza bilər. Lakin əgər sağlam və eyblinin qiymət fərqini almaq istəsə, işkallıdır.

**Məsələ:** ٢٢٠٠. Əgər öz malını birinə sülh edib şərt etsə ki, ölümündən sonra həmin malı, misal üçün, vəqf etsin və o da bu şərti qəbul etsə, şərtə əməl etməsi gərəkdir.

## İCARƏNİN HÖKMLƏRİ

**Məsələ:** ٢٢٠١. Bir şeyi icarəyə verən və icarəyə götürən şəxs aqil və baliğ olmalı, icarəyə nahaq yerə məcbur edilməməlidirlər. Əgər məcbur edilsələr və sonra icarəyə razı olsalar, icarə nüfuzludur (yetərlidir); və həmçinin, öz malından istifadə haqqına malik olmalıdır. Deməli, səfehin və şəriət hakimi tərəfindən öz malından istifadə etməsi qadağan olunan müflisin icarəsi yetərli (nafiz) deyildir. Lakin onun vəlisinin, ya tələbkarların izn və icazəsi ilə olsa, icarə yetərlidir. Amma müflisin özünün işçi qüvvəsini bir iş, ya bir xidmət üçün icarəyə verməsi nafizdir və icazəyə ehtiyacı yoxdur.

**Məsələ:** ٢٢٠٢. İnsan başqası tərəfindən, onun malını icarəyə vermək, ya onun üçün bir şeyi icarəyə götürmək üçün vəkil ola bilər.

**Məsələ:** ٢٢٠٣. Əgər uşağın vəlisi, ya qəyyumu onun malını icarəyə versə, ya onun özünü başqasına əcir etsə, eybi yoxdur. Əgər onun baliğ olma müddətinin bir hissəsini icarənin müddətindən qərar versə, uşaq baliğ olandan sonra icarənin qalan hissəsini poza bilər. Lakin əgər uşağın baliğ olandan sonraya qədərki icarəsi, şər`ən riayət olunması vacib olan bir səbəbə görə olubsa, icarə buluğdan sonrakı müddət ərzində yetərlidir və vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsi ilə olmalıdır.

**Məsələ:** ٢٢٠٤. Vəlisi olmayan səğir uşağı, adil fəqihin icazəsi olmadan əcir etmək olmaz. Adil bir fəqihə əli çatmayan şəxs bir neçə ədalətli mö`mindən icazə alaraq onu əcir tuta bilər. Bir neçə nəfər ədalətli mö`min tapılmadıqda biri də kifayət edər.

**Məsələ:** ٢٢٠٥. İcarə verənin və icarəyə alanın siğəni (icarə müqaviləsini) ərəbcə oxumaları lazım (vacib) deyildir. Belə ki, əgər malik (mal sahibi) bir kəsə: «öz mülkümü sənə icarəyə verdim» - desə və o da «qəbul etdim» desə, icarə səhihdir. Həmçinin, əgər bir söz danışmasalar və malik öz mülkünü icarəyə vermək məqsədilə icarəyə götürənə həvalə etsə və o da icarəyə götürmək qəsdi ilə alsa, icarə səhihdir.

**Məsələ:** ٢٢٠٦. Əgər insan siğə oxumadan bir əməli yerinə yetirmək üçün əcir olmaq istəsə, həmin əmələ məşğul olması ilə icarə səhih olur.

**Məsələ:** ٢٢٠٧. Danışa bilməyən kəs, əgər işarə ilə öz mülkünü icarəyə verdiyini, ya icarəyə götürdüyünü başa salsa, icarə səhihdir.

**Məsələ:** ٢٢٠٨. Əgər bir şəxs bir mülkü icarə etsə və mülk sahibi mənfəətin onun özünə məxsus olacağını və başqasına verməyəcəyini şərt etsə, icarə edən şəxs onu başqasına icarəyə verə bilməz. Lakin əgər mənfəətindən özü istifadə etməsini şərt etsə, özü mənfəətdən istifadə etdiyi surətdə, başqasına icarəyə verə bilər, məsələn, bir şəxs icarəyə götürdüyü mənzili ona şərt və bu kimi şeylərlə məskən hazırlayacağını söz verdiyi bir kəsə icarəyə verə bilər və həmin şəxs də müstə`ciri söz verdiyi həmin mənzildə sakin etsə; və ya bir qadının bir evi icarəyə götürərək sonra ərini o evdə sakin etməsi kimi ki, o qadının əri, onu həmin evdə məskunlaşdırır. İcarəyə götürən onu başqasına icarəyə verə bildiyi surətdə ev, dükan, gəmi və həmçinin, vacib ehtiyata əsasən, otaq, ya dəyirmanı, icarəyə götürdüyü məbləğdən artıq qiymətə o halda icarəyə verə bilər ki, tə`mir etmə və ağartmaq kimi bir iş də yerinə yetirmiş olsun, yaxud icarə etdiyi cinsdən başqası ilə icarəyə versin, məsələn, əgər pulla icarəyə götürübsə, buğda, ya başqa bir şeylə icarəyə verməlidir.

**Məsələ:** ٢٢٠٩. Əgər əcir, insanla şərt etsə ki, əcir olunduğu o iş həmin insanın özünə məxsus olsun və başqasına verilməsin, onu başqasına icarəyə vermək olmaz. Əgər əvvəlki məsələdə deyildiyi kimi, işi onun özünə məxsus olmasını şərt etsə, onu başqasına icarəyə vermək olar. Onu başqasına icarəyə verə biləcəyi təqdirdə, onu, ücrət qərar verdiyi şeyə icarəyə versə, ondan artıq ala bilməz. Əgər başqa bir şeylə icarəyə versə, daha artıq ala bilər.

Əgər özü bir kəsin əciri olsa, həmin işə görə başqasını, az qiymətə əcir tutması caiz deyildir. Lakin o işin bir qədərini özü yerinə yetirsə, başqasını az bir qiymətə əcir tuta bilər.

**Məsələ:** ٢٢١٠. Əgər evdən, dükandan, gəmidən, əcirdən və həmçinin, vacib ehtiyata əsasən, otaq və dəyirmandan başqa bir şeyi icarə etsə və malik onu, başqasına icarəyə verməməyini şərt etməsə, icarəyə götürdüyü qiymətdən baha qiymətə olsa belə, icarəyə versə, eybi yoxdur.

**Məsələ:** ٢٢١١. Əgər evi, ya bir dükanı, məsələn, bir illik yüz manata icarə etsə və onun yarısından özü istifadə edərsə, digər yarısını yüz manata icarəyə verə bilər. Lakin əgər digər yarısını icarə etdiyindən artıq məbləğə, məsələn, yüz iyirmi manata icarəyə vermək istəsə, tə`mir etmə kimi bir iş etməli, ya icarə etdiyi cinsdən başqa bir şeylə icarəyə verməlidir.

## İCARƏYƏ VERİLƏN MALIN ŞƏRTLƏRİ

**Məsələ:** ٢١١٢. İcarəyə verilən malın bir neçə şərti vardır:

١. Müəyyən olmalıdır. Deməli, əgər «evlərimdən birini sənə icarəyə verdim» - desə, səhih deyildir.

٢. İcarəyə götürən onu görməlidir, ya icarəyə verən şəxs onun xüsusiyyətlərini elə tərzdə deməlidir ki, tam və dəqiq şəkildə mə`lum olsun.

٣. Onu təhvil vermək mümkün olsun. Deməli, qaçmış atı icarəyə vermək batildir. Lakin icarəyə götürən onu əldə edə biləcəyi surətdə səhihdir.

٤. O maldan istifadə olunması onun tələf olub, aradan getməsinə səbəb olmamalıdır. Bu baxımdan çörək, meyvə və bu kimi yeyilən şeylərin – belə ki, onlardan istifadə etmək yeməkdən və tələf olmaqdan başqa bir yolla olmur – icarəsi səhih deyildir.

٥. Mal hansı məqsədə icarəyə verilibsə, həmin məqsədlə istifadə etmək mümkün olmalıdır. Deməli, əkin üçün icarəyə verilmiş yeri suvarmaq üçün yağış suyu kifayət etməzsə və başqa sulardan da suvarıla bilmirsə, icarə batildir.

٦. İcarəyə verdiyi şey onun öz malı olmalıdır. Əgər başqasının malını icarəyə versə, sahibi icazə verdiyi halda yetərlidir.

**Məsələ:** ٢٢١٣. Ağacı, meyvəsindən istifadə etmək üçün icarəyə versələr, bu halda hazırda meyvəsi olmasa, eybi yoxdur. Həmçinin, südünə görə icarəyə verilən heyvan da bu cürdür.

**Məsələ:** ٢٢١٤. Qadın, südündən istifadə edilməsi üçün əcir ola bilər və öz ərindən icazə alması lazım (vacib) deyildir. Lakin əgər süd verməklə ərinin haqqı aradan gedəcəksə, ərinin icazəsi olmadan əcir ola bilməz.

## İCARƏYƏ VERİLƏN MALDAN İSTİFADƏ ETMƏYİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢٢١٥. İcarəyə verilmiş maldan istifadə etməyin dörd şərti vardır:

١. Halal olmalıdır. Buna əsasən dükanı, məsələn, şərab satmaq üçün, ya heyvanı şərab daşımaq üçün icarəyə vermək batildir.

٢. Əql sahibləri nəzərində ondan istifadə üçün pul vermək əbəs, səfehlik sayılmamalıdır. Həmçinin, o əməl şər`i baxımdan pulsuz vacib olan işlərdən olmamalıdır. Deməli, meyyitin dəfn üçün hazırlanması (qüsl, kəfən, namaz, dəfn) işləri üçün əcir olmaq caiz deyildir.

٣. Əgər icarəyə verilən şeyin bir neçə mənfəəti olsa, icarəyə götürən şəxsin, hansı növ istifadə edəcəyi müəyyən edilməlidir. Məsələn, həm minmək, həm də yük daşımaq üçün istifadə olunan bir heyvanı icarəyə versələr, onu minməyini, ya yük daşımasını, ya da hər iki faydanı götürmək üçün istifadə edəcəyini müəyyənləşdirməlidir.

٤. İstifadə müddəti müəyyən olunmalıdır. Əgər müddət mə`lum olmasa, ancaq əməli müəyyən etməklə anlaşılmazlığı aradan qalxsa, məsələn, dərzi ilə müəyyən bir libası məxsusi tərzdə tikməyi

qərarlaşsalar, yaxud məsələn, on gün dərzilik üçün əcir etsələr, kifayətdir.

**Məsələ:** ٢٢١٦. Əgər icarə müddətinin başlanğıcını müəyyən etməsələr, onun başlanğıcı icarə siğəsi oxunandan sonradır.

**Məsələ:** ٢٢١٧. Əgər bir evi, məsələn, bir illik icarəyə verib onun başlanğıcını siğə oxunuşundan bir ay sonra qərar versələr, siğə oxunduğu zaman ev başqası tərəfindən icarə edilmiş olsa da, icarə səhihdir.

**Məsələ:** ٢٢١٨. Əgər icarə müddətini mə`lum etməsələr və «hər vaxt evdə otursan, onun icarəsi ayda on manatdır» - desələr, icarə səhih deyildir.

**Məsələ:** ٢٢١٩. Əgər icarəyə götürənə «evi ayı on manata sənə icarəyə verirəm» - desələr, ya «evi bir aylıq on manata sənə icarəyə verirəm və sonra hər nə qədər otursan, icarəsi ayda on manatdır» - desələr, bu halda icarə müddətinin başlanğıcını müəyyən etsələr, ya başlanğıcı mə`lum olsa, (təkcə) birinci ayın icarəsi səhihdir.

**Məsələ:** ٢٢٢٠. Müsafir və zəvvarların mənzil kimi istifadə etdikləri və nə qədər qalacaqları mə`lum olmayan evdə əgər məsələn, gecəsi on manata qalacaqları tərzdə icarə qərarına gəlsələr, icarə müddəti müəyyən olunmadığı üçün birinci gecədən qeyrilərinə nisbətdə digər gecələrin icarəsi səhih deyildir. Birinci gecədən sonra ev sahibi nə vaxt istəsə, onları evdən çıxara bilər. Lakin birinci gecədən sonra ev sahibinin razılığı ilə mənzildən istifadə etməyin eybi yoxdur.

## İCARƏYƏ AİD OLAN MÜXTƏLİF MƏSƏLƏLƏR

**Məsələ:** ٢٢٢١. İcarə edənin icarə haqqı (əvəzi) olaraq verdiyi şey mə`lum olmalıdır. Buna əsasən, əgər icarə haqqı olaraq verdiyi şey buğda kimi çəki ilə alver olunan bir maldırsa, onun çəkisi mə`lum olmalıdır. Əgər mövcud işlək pullar kimi, sayılaraq alver edilən şeydirsə, onun sayı müəyyən olmalıdır. Əgər at və qoyun kimi heyvandırsa, icarə edən onun xüsusiyyətlərini deməli, ya da icarəyə götürən onu görməlidir.

**Məsələ:** ٢٢٢٢. Əgər yeri əkin üçün icarəyə versə və icarə haqqını həmin yer, ya hazırda mövcud olmayan başqa bir yerin hasilindən qərar versə, icarə səhih deyil. Əgər icarə haqqı hazırda mövcud olsa, ya mafiz-zimmə icarə edərsə, maneəsi yoxdur.

**Məsələ:** ٢٢٢٣. Bir kəs bir şeyi icarəyə versə, onu təhvil vermədiyi müddətə qədər onun icarə haqqını tələb etməyə haqqı yoxdur. Lakin təhvil verməmişdən əvvəl icarə haqqı alacağını şərt etdikdə, ala bilər. Həmçinin, əgər bir əməli yerinə yetirmək üçün əcir olarsa, həmin əməli yerinə yetirməmiş icarə haqqı tələb edə bilməz. Amma haqqını əvvəlcədən verəcəyini şərt etsə və ya həcc, qəza namazı və orucu kimi

işlərdən ötəri əcir olduqda və pulunu əvvəlcədən almaq adi bir işdirsə, ala bilər.

**Məsələ:** ٢٢٢٤. Əgər icarə verdiyini təhvil versə, icarə alan onu təhvil almasa da, yaxud təhvil alıb icarə müddətinin axırına kimi ondan istifadə etməsə də, onun icarə haqqını verməlidir.

**Məsələ:** ٢٢٢٥. Əgər müəyyən bir gündə bir işi görmək üçün əcir olmuş şəxs, həmin işi yerinə yetirmək üçün hazır olsa, onu əcir tutan şəxs o işi ona həvalə etməsə də onun haqqını verməlidir. Məsələn, əgər bir libas tikmək üçün dərzini müəyyən bir günə əcir tutarsa və dərzi həmin gün işə hazır olarsa, tikiş üçün ona parça verməsə də onun haqqını verməlidir; istər dərzi heç iş görməyib bekar qalsın, istərsə də özü və ya başqa bir kəs üçün işləsin.

**Məsələ:** ٢٢٢٦. Əgər icarə müddəti tamam olandan sonra icarənin batil olduğu mə`lum olsa, icarə edən ücrətul-misli verməlidir. Lakin əgər ücrətul-misl icarədə müəyyən edilmiş icarə haqqından artıq olarsa, bu halda icarəyə verən şəxs malın sahibi, ya onun vəkilidirsə, vacib ehtiyata əsasən, müəyyən edilmiş ödənişdən artığı sülh edilməlidir. Həmçinin, icarə müddətindən bir qədər keçdikdən sonra icarənin batil olduğu mə`lum olduqda keçən müddətə nisbətdə icarə haqqı da eyni hökmü daşıyır.

**Məsələ:** ٢٢٢٧. Əgər icarə etdiyi şey tələf olsa, onu qorumaqda səhlənkarlıq etməyibsə və mənfəət götürməkdə ifrata varmayıbsa zamin deyildir. Həmçinin, məsələn, dərziyə verdiyi parça tələf olsa, dərzi ifrata varmadığı surətdə və səhlənkarlıq etmədikdə ona zamin deyildir.

**Məsələ:** ٢٢٢٨. Əgər sənətkar götürdüyü şeyi xarab etsə, ona zamindir.

**Məsələ:** ٢٢٢٩. Əgər qəssab heyvanın başını – istər təmənnasız, istərsə də muzd alaraq – kəsib onu haram etsə, onun qiymətini heyvan sahibinə verməlidir.

**Məsələ:** ٢٢٣٠. Əgər, misal üçün, bir heyvanı icarə etsə və ona nə qədər yükləyəcəyini müəyyən etsə, bu halda tə`yin olunmuş miqdardan artıq yüklədiyi üçün heyvan ölsə, ya ona bir eyb gəlsə, zamindir. Həmçinin, əgər yükün miqdarını müəyyən etməsələr və adi miqdardan çox yükləsə, heyvan tələf olsa, ya onda bir qüsur əmələ gəlsə, zamindir. Hər iki surətdə artıq miqdar istifadə üçün gərək onun ücrətül-misli versin.

**Məsələ:** ٢٢٣١. Əgər bir heyvanı sınan bir şeyi daşımaq üçün icarəyə versə, o heyvan hürkərək, ya (ayağı) sürüşərək yükü sındırsa, heyvanın sahibi zamin deyildir. Lakin əgər malikin tərəfindən icazə verilməmiş bir işi görsə, məsələn, vurmaq və buna bənzər bir hərəkət vasitəsilə heyvanın yerə yıxılıb yükü sındırmağına səbəb olsa, (yükə özü) zamindir.

**Məsələ:** ٢٢٣٢. Əgər bir kəs uşağın vəlisinin icazəsi ilə onu xətnə (sünnət) etsə və uşağa bir zərər yetirsə, ya uşaq ölsə, bu halda adi miqdardan artıq kəsdiyi təqdirdə zamindir. Lakin adi miqdardan artıq kəsmədiyi və zərər dəyib-dəyməməsi vəli tərəfindən ona həvalə edilmədiyi halda, həmin şəxs bu işdə mahirdirsə, eyni zamanda müalicə etməkdə müqəssir deyilsə, zərər dəyəcəyi təqdirdə zamin olmaması məhəlli-işkaldır. Lakin vəlidən bəraət (qol kağızı) alsa, zamin olmaz. Əgər tələflə əlaqədar bəraət almasa, bu surətdə zamindir.

**Məsələ:** ٢٢٣٣. Əgər həkim öz əli ilə xəstəyə dərman versə, bu halda müalicədə xəta etsə və xəstəyə zərər dəysə, ya ölsə, həkim zamindir. Lakin həkim «filan dərman filan xəstəlik üçün faydalıdır» - desə və dərman qəbul etməyi xəstənin öz ixtiyarında qoysa, dərman qəbul etməklə xəstəyə zərər dəyərsə, ya ölərsə, həkim zamin deyildir.

**Məsələ:** ٢٢٣٤. Əgər həkim xəstəyə desə ki, «əgər sənə zərər dəysə, mən zamın deyiləm», bu halda öz ixtisasında məharətli olub diqqətlə, ehtiyatla əməl edərsə, xəstəyə zərər dəysə və ya ölsə, həkim öz əli ilə dərman vermiş olsa da belə, zamin deyildir.

**Məsələ:** ٢٢٣٥. İcarə edən və bir şeyi icarəyə verən şəxs bir-birinin razılığı ilə müamiləni poza bilərlər. Həmçinin, əgər icarə zamanı hər ikisinin, ya birinin müamiləni pozmaq haqqı olmasını şərt etsələr, qərarlarına uyğun olaraq icarəni də poza bilərlər.

**Məsələ:** ٢٢٣٦. Əgər icarəyə verən, ya icarəyə götürən şəxs, icarədən sonra məğbun olduğunu (malını adi qiymətindən nəzərə çarpacaq dərəcədə ucuz icarəyə verən, yaxud adi qiymətindən nəzərə çarpacaq dərəcədə baha qiymətə icarəyə götürən) başa düşsə, icarəni poza bilər. Lakin əgər icarə əqdində məğbun olsa da belə, müamiləni pozmaq haqqı olmamasını şərt etsələr, icarəni də poza bilməzlər.

**Məsələ:** ٢٢٣٧. Əgər bir şeyi icarəyə versə və onu təhvil verməmiş başqa birisi onu qəsb etsə, icarəyə götürən icarəni poza və icarəyə verənə verdiyi şeyi geri ala bilər; yaxud icarəni pozmadan qəsbkarın istifadəsində olduğu icarə müddətinin pulunu adi qaydada ala bilər ki, ücrətul-misldir. Buna əsasən, əgər bir heyvanı bir aylığı on manata icarə edərsə və birisi onu on gün qəsb edərsə və on günün ücrətül-misli on beş manat olarsa, on beş manatı qəsbkardan ala bilər.

**Məsələ:** ٢٢٣٨. Əgər icarə etdiyi şeyi təhvil alsa və sonra başqası onu qəsb edərsə, icarəni poza bilməz; yalnız həmin şeyin ücrətül-misl miqdarında olan kirayə haqqını qəsbkardan ala bilər.

**Məsələ:** ٢٢٣٩. Əgər icarə müddəti başa çatmamış mülkü icarə edənə satsa, icarə pozulmaz və icarəçi icarə haqqını verməlidir. Həmçinin, onu (icarəçiyə deyil) başqasına satdıqda da eyni hökmdədir.

**Məsələ:** ٢٢٤٠. Əgər icarə müddəti başlanmazdan öncə mülk heç cür istifadə edilməyəcək tərzdə xarab olarsa, ya nəzərdə tutduqları

istifadəyə qabil olmazsa, icarə biatil olur və icarə edənin mülk sahibinə verdiyi pul ona qayıdır. Əgər ondan müxtəsər (azacıq) miqdarda istifadə etmək olarsa da, icarəni poza bilər.

**Məsələ:** ٢٢٤١. Əgər bir mülkü icarə etsə və icarə müddətindən bir qədər keçdikdən sonra heç cür istifadə edilməyəcək dərəcədə xarab olarsa, ya icarəyə götürülmüş məqsəd üçün istifadə qabiliyyəti olmazsa, qalan müddətdə icarə batil olar və keçmiş müddətin icarəsini pozub o müddətin «ücrətül-misli»ni verə bilər.

**Məsələ:** ٢٢٤٢. Məsələn, iki otaqlı evi əgər icarəyə versə və otaqlardan biri xarab olsa, bu halda otağın aradan gedən xüsusiyyəti icarənin onun üzərində bağlandığı bir xüsusiyyət olmasa, dərhal onu düzəltsə və onun istifadəsinin heç bir miqdarı aradan getməsə, icarə batil olmaz, icarə edən də icarəni poza bilməz. Lakin onun düzəldilməsi icarə edənin istifadəsinin bir miqdarının aradan gedəcəyi qədər uzun çəksə, icarə həmin miqdara nisbətdə batil olar və icarə edən bütün icarə müddətini pozub istifadə etdiyi müddətin ücrətül-mislini verə bilər.

**Məsələ:** ٢٢٤٣. Əgər icarəyə verən, ya icarəyə götürən ölsə, icarə batil olmaz. Amma əgər ev, icarə verənin malı olmasa, məsələn, başqası «nə qədər ki, o sağdır, evin mənfəəti onun malı olsun» - deyə, vəsiyyət etmiş olsa, o da bu əsasla evi icarəyə versə və icarə müddəti tamam olmamış ölsə, öldüyü vaxtdan etibarən icarə füzulidir; əgər onun hazırkı maliki qalan icarə müddətinə icazə versə, icarə qüvvədə qalır və icarə verən şəxsin ölümündən sonra qalan müddətin icarə malı- icazə verdiyi surətdə- hazırkı malikin malıdır.

**Məsələ:** ٢٢٤٤. Əgər sahibkar bənnanı onun üçün fəhlə tutmağa vəkil edərsə və bənna da sahibkardan aldığı qədərdən az fəhləyə verərsə, onun artığı bənnaya haramdır və onu sahibkara qaytarması gərəkdir. Lakin binanı tikib tamamlamaq üçün əcir olarsa və həmin işi özünün, yaxud başqasının görməsi barədə özünə ixtiyar götürsə, bir qədər özü işlədikdən sonra qalan işi özü əcir olduğu miqdardan az dəyərlə başqasına gördürsə, artığı ona haladır.

**Məsələ:** ٢٢٤٥. Əgər rəngsaz parçanı nil ilə (göy rəngli maddə) rəngləməyi (parça sahibi ilə) qərarlaşıb, amma başqa rənglə rəngləsə, bir şey almağa haqqı yoxdur.

## CÜALƏNİN HÖKMLƏRİ

**Məsələ:** ٢٢٤٦. Cüalə odur ki, insan onun üçün görüləcək işin əvəzində müəyyən bir mal verməyi qərara alsın, məsələn, «hər kəs, ya müəyyən bir şəxs mənim itiyimi tapsa, ona on manat pul və yaxud itiyimin yarısını ona verəcəyəm» - desin. Bu qərarı qoyana «cail», o işi yerinə yetirən kəsə isə «amil» deyilir.

Cüalə və icarə arasında bə`zi fərqlər vardır. O cümlədən, icarədə icarə əqdi bağlandıqdan sonra əcir zamin olur və işi təhvil verməlidir və onu əcir edən şəxs də icarə haqqını ona borclu olur. Lakin cüalədə amil müəyyən bir şəxs olsa da belə, o işi icra etməyə bilər və nə qədər ki, işi yerinə yetirməyib, cail ona borclu deyildir. Həmçinin, icarədə qəbul etmək şərtdir, amma cüalədə şərt deyildir.

**Məsələ:** ٢٢٤٧. Cail aqil və baliğ olmalı, öz qəsdi ilə olmalı, nahaq yerə məcbur edilməməli və şər`ən öz malından istifadə edə bilməlidir. Buna görə də səfehin, yə`ni öz malını lazımsız, əbəs yerlərə sərf edənin, ya şəriət hakimi tərəfindən öz malından istifadə etməsinə qadağa qoyulmuş müflisin cüalə etməsi səhih deyildir.

**Məsələ:** ٢٢٤٨. Cailin təklif etdiyi iş faydasız, ya haram, yaxud şər`ən muzdsuz yerinə yetirilməli olan vacib bir iş kimi olmamalıdır. Buna əsasən, əgər cail «hər kəs gecə qaranlıq bir yerə getsə, ya şərab içsə, ya öz vacib namazını qılsa ona on manat verəcəyəm» - desə, cüalə səhih deyildir.

**Məsələ:** ٢٢٤٩. Əgər cüalədə verəcəyi malı müəyyən etsə, məsələn, «hər kəs mənim atımı tapsa bu buğdanı ona verəcəyəm" - desə, o buğdanın hara buğdası olmasını və qiymətinin nə qədər olmasını da deməsi lazım deyildir. Həmçinin, əgər malı müəyyən etmədən «hər kəs mənim atımı tapsa on «mən» (١ «mən» ≈ ٣ kq) buğda verəcəyəm» - desə, cüalə səhihidir, lakin tə`kidli ehtiyat odur ki, onun xüsusiyyətlərini dəqiq olaraq müəyyən etsin.

**Məsələ:** ٢٢٥٠. Əgər cail ona görüləsi iş üçün müəyyən bir muzd verməsini qərara almasa, məsələn, «hər kəs mənim uşağımı tapsa ona bir qədər pul verəcəyəm» - desə və pulun miqdarını müəyyən etməsə, bu halda o işi yerinə yetirən kəsin haqqını, camaatın nəzərində qiymət verildiyi qədər ödəməsi gərəkdir.

**Məsələ:** ٢٢٥١. Əgər amil bir işi qərar verilməzdən qabaq görsə, ya qərar verildikdən sonra əvəzində pul götürməyəcəyi qəsdi ilə bir iş görsə, muzd almağa haqqı yoxdur.

**Məsələ:** ٢٢٥٢. Amil işə başlamazdan əvvəl cail öz qərarından sərf-nəzər edib dönə bilər.

**Məsələ:** ٢٢٥٣. Amil işə başladıqdan sonra cail öz qərarından daşınmaq istəsə, bu işin işkalı vardır.

**Məsələ:** ٢٢٥٤. Amil işi yarımçıq saxlaya bilər, lakin işi tamamlamamaq cailin zərərə düşməsinə səbəb olarsa, o işi tamamlamalıdır. Məsələn, əgər bir kəs «mənim gözümdə cərrahiyyə əməliyyatı aparacaq kəsə filan qədər pul verəcəyəm» - desə və cərrah əməliyyata başlasa, bu halda onu tamamlamayacağı təqdirdə şəxsin gözündə bir qüsur əmələ gələcəksə, onu tamamlamalıdır. Amma əməliyyatı yarımçıq qoysa, caildən bir şey tələb etməyə haqqı yoxdur, zərər və eybə də zamindir.

**Məsələ:** ٢٢٥٥. Əgər amil (işi yerinə yetirən) işi natamam saxlasa, belə ki, həmin iş atı tapmaq kimi, bir iş olsa ki, tamamlanmadığı halda cail (iş gördürən) üçün faydası yoxdur, amil ondan bir şey tələb edə bilməz. Həmçinin, əgər cail muzdu bir əmələn tamamlanması üçün qərar versə, məsələn, «hər kəs mənim libasımı tiksə, ona on manat verəcəyəm» - desə, amma məqsədi işdən nə qədər görülsə, o qədərin muzdunu vermək olsa, cail amilin gördüyü işin miqdarına nisbət haqqını verməlidir, baxmayaraq ki, ehtiyat sülh yolu ilə bir-birini razı salmaqdır.

## MÜZARİƏNİN HÖKMLƏRİ

**Məsələ:** ٢٢٥٦. Müzariə, mülk (torpaq) sahibi, ya da mülk sahibinin hökmündə olan kəsin – mülk sahibinin vəlisi kimi, yaxud mənfəətin (icarədə), ya intifanın (məsələn ariyədə) malikinin, ya o kəs ki, yer onun haqqına əlaqədardır: "həqqut-təhcir" kimi (sahibsiz torpaqların ətrafına daş düzməklə orada haqqa malik olan kəsin) – əkinçi ilə yeri əkin əkmək üçün onun ixtiyarında qoymaq qərarlaşmasıdır ki, məhsulun bir qədəri malikə, ya malik hökmündə olana verilsin.

**Məsələ:** ٢٢٥٧. Müzariədə bir neçə şey şərtdir:

١. Malik tərəfindən «icab»ın, əkinçi tərəfindən «qəbul»un deyilməsi; belə ki, yerin maliki əkinçiyə «yeri əkin üçün sənin ixtiyarında qoydum» - desin, əkinçi isə «qəbul etdim» - desin, yaxud heç bir danışıq olmadan yer sahibi yeri əkilmək qəsdi ilə əkinçinin ixtiyarına versin və əkinçi də onu əkin əkmək qəsdi ilə təhvil alsın. İcabın əkinçi və qəbulun malik tərəfindən olması da caizdir.

٢. Yer sahibi və əkinçinin hər ikisinin aqil və baliğ olması, bir kəsin onları nahaq yerə müzariəyə məcbur etməməsi və malikin şər`ən öz malından istifadə etməsinə qadağa olmaması, məsələn, səfehlik və müflislik səbəbinə şəriət hakimi tərəfindən öz malından istifadə etməyi qadağan olunduğu şəxslər kimi, həmçinin, müflis olmuş əkinçi, bir halda ki, onun müzariəsi öz malından faydalanmasını tələb etsin. Habelə vəlisinin icazəsi olmadan səfehin müzariəsi caiz deyildir.

٣. Yerin hasili hər ikisi arasında müştərək olsun. Deməli, əgər məhsulun hamısının, yaxud əvvəldə, ya axırda ələ gələnlərin, onlardan birinin olmasını şərt etsələr, müzariə batildir.

٤. Hər birinin səhmi (payı) məhsulun yarısı, ya üçdə biri kimi kəsri-muşa olmalıdır. Deməli, əgər malik «bu yeri ək və mənə istədiyin qədər ver» - desə, ya məhsuldan müəyyən qədər, məsələn, on "mən" əkinçiyə, ya malikə veriləcəyini qərara alsalar, müzariə batildir.

٥. Əkinçinin ixtiyarına verilən yerin hansı müddətə verilməsi müəyyən olunmalı və müddət o qədər olmalıdır ki, həmin müddət ərzində məhsul əldə etmək mümkün olsun. Əgər müddətin başlanğıcını müəyyən bir gün, axırını isə məhsulun yetişməsi qərar versələr kifayətdir.

٦. Yer, əkin üçün yararlı olmalıdır. Əgər orada əkin mümkün olmasa, lakin əkinə yararlı olması üçün bir iş görmək mümkün olsa, müzariə səhihdir.

٧. Əgər onların hər ikisinin məqsədi məxsus bir əkin növüdürsə, əkinçinin əkməli olduğu şeyi müəyyən etməlidirlər. Ancaq müəyyən bir şeyi əkməyi nəzərlərində tutmasalar, ya hər ikisinin nəzərdə tutduğu əkin növü mə`lumdursa, onu müəyyənləşdirmək lazım deyildir.

٨. Malik yeri elə tərzdə müəyyən etməlidir ki, müamilə olunan yerdə tərəddüdd icad olmasın və zahir budur ki, yerin hissələri biri-digəri ilə fərqli olsa da belə, onu müəyyən-kulli şəkildə tə`yin etmək də kifayət edər.

٩. Hər birinin xərcləyəcəkləri şeyləri müəyyən etməlidirlər. Ancaq hər birinin çəkəcəyi xərc (qabaqcadan) müəyyən olarsa, onu müəyyənləşdirmək lazım deyildir.

**Məsələ:** ٢٢٥٨. Əgər malik əkinçi ilə qərara alsa ki, torpaq sahəsini abadlaşdırıb yararlı hala salmaq üçün çəkilən xərclər və xərac – maliyyət ünvanı ilə verilənləri istisna edib qalanını öz aralarında bölsünlər, səhihdir. Həmçinin, malik əkinçi ilə məhsulun bir qədərinin onun üçün olmasını şərt etsə və həmin qədəri götürəndən sonra bir şey qalacağını bilsə, müzariə səhihdir.

**Məsələ:** ٢٢٥٩. Əgər müzariə müddəti başa çatsa və məhsul ələ gəlməsə, bu halda malik razı olsa ki, icarə ilə, ya icarəsiz olaraq əkin onun yerində qalsın, əkinçi də razı olsa, eybi yoxdur. Əgər malik razı olmasa, bu halda əkinin o yerdə qalması ilə zərərə düçar olmasa və onun əlindən nəzərə çatacaq mənfəət getməsə, eləcə də əkinçi məhsulun ələ gəlməməsində səhlənkarlığa yol verməyibsə, əkinçini əkini biçməyə vadar edə bilməz. Əksinə, məhsul ələ gələnə qədər səbr edib gözləməlidir ki, əkinçiyi ziyan dəyməsin. Həmçinin, əkinçi müzariə müddətindən əlavə müddətin ücrətül-mislini malikə verməlidir.

**Məsələ:** ٢٢٦٠. Əgər bir hadisəyə görə o yerdə əkin mümkün olmasa, məsələn, o yerin suyu kəsilərsə, müzariə pozular. Əgər əkinçi heç bir üzrlü səbəb olmadan əkin əkməsə, bu halda yer onun istifadəsində olubsa və yer sahibi ondan istifadə etməyibsə, o müddətin icarə haqqını adi qaydada malikə verməlidir.

**Məsələ:** ٢٢٦١. Əgər malik və əkinçi əqd oxumuş olsalar, bir-birinin razılığı olmadan müzariəni poza bilməzlər. Həmçinin, əgər malik müzariə qəsdilə yeri bir kəsin ixtiyarında qoysa və o da təhvil alsa, bir-birinin razılığı olmadan müzariəni poza bilməzlər. Lakin əgər müzariə edərkən hər ikisinin, ya onlardan birinin müamiləni pozmaq haqqı olduğunu şərt etsələr, etdikləri şərtə uyğun olaraq müzariə müamiləsini poza bilərlər.

**Məsələ:** ٢٢٦٢. Müzariə qərarlaşmasından sonra malik, ya əkinçi ölərsə, müzariə pozulmur və varisləri onların yerinə keçirlər. Lakin əgər əkinçi ölərsə və əkinçinin şəxsən əkini yerinə yetirməsini qərara almışdırlarsa, müzariə pozular və əgər əkin aşkar (zahir) olarsa, onun payı vərəsəsinə verilməlidir. Əkinçinin malik olduğu digər hüquqları irs olaraq vərəsəyə keçir. Məhsul ələ gələnə qədər əkinin o yerdə qalması ilə əlaqədar hökm eynilə ٢٢٥٩-cu məsələdə deyilmiş hökmdür.

**Məsələ:** ٢٢٦٣. Əgər əkindən sonra müzariənin batil olduğunu başa düşsələr, bu halda toxum malikin malı olduğu təqdirdə ələ gələn məhsul da onun malıdır. Malik əkinçinin muzdunu, onun çəkdiyi xərcləri və əkinçinin malı olaraq o əkində işlədilən heyvan və başqa vəsaitlərin kirayə haqqını əkinçiyə verməlidir.

Əgər toxum əkinçinin olubsa, əkin də onun malıdır və o yerin icarə haqqını, malikin çəkdiyi xərcləri və malikin malı olaraq əkində işlədilən heyvanın və digər vəsaitlərin kirayə haqqını malikə verməlidir.

Hər iki halda əgər ücrətül-misl və çəkilən xərclər qərarlaşma miqdarından artıq olarsa, o artığa sahib olmaq məhəlli-işkaldır və əhvət budur ki, sülh etsinlər.

**Məsələ:** ٢٢٦٤. Əgər toxum əkinçinin olsa və əkindən sonra müzariənin batil olduğunu başa düşsələr, bu haqda əkinçi və malik muzdla və ya muzdsuz əkinin yerdə qalmasına razı olsalar, eybi yoxdur. Əgər malik razı olmasa, onun hökmü ٢٢٥٩-cu məsələdə deyilən kimidir.

**Məsələ:** ٢٢٦٥. Əgər məhsul toplandıqdan və müzariə müddəti başa çatandan sonra əkilən şeyin kökləri yerdə qalsa və sonrakı ildə yenidən məhsul versə, malik və əkinçi onun köklərində şərik olmağı şərt etmədikləri surətdə, yerin malikinin ikinci ildəki məhsula nisbətdə malikiyyəti olması (nəzəri) üstünlükdən xali olmasa da, əhvət budur ki, əkinçi toxumun sahibi olduğu halda biri-biri ilə sülh etsinlər.

## MÜZARİBƏNİN HÖKMLƏRİ

Müzaribə bir müqavilədir ki, bir şəxs başqasına bir qədər mal verir ki, o mal ilə ticarət etsin, əldə olunan qazanc onların arasında yarı, üçdə bir və s. kimi kəsri-muşa şəklində bölünsün.

Sərmayənin sahibinə malik, ticarət edən şəxsə isə amil deyilir. Onun gerçəkləşməsində «icab» və «qəbul» şərtdir, istər sözlə olsun, istərsə də əməllə. Misal üçün, malik sərmayəni müzaribə ünvanı ilə amilə versin, amil də malı (təhvil) almaqla qəbul etmiş olsun.

**Məsələ:** ٢٢٦٦. Müzaribənin səhihliyində bir neçə şərt vardır:

١-Malik və amil gərək həddi-buluğa çatmış, aqil, öz işlərində ixtiyarlı olsunlar (bir kəs onları müzaribəyə məcbur etməsin), malik səfehlik, yaxud iflas səbəbi ilə öz malında təsərrüf (istifadə) etməkdən qadağan olunan şəxslərdən olmasın. Vəlisinin icazəsi olmadan səfeh olan amil ilə müzaribə caiz deyildir.

٢-Malik və amildən hər birinin payının, misal üçün, qazancın yarısı, ya üçdə biri və ya dörddə biri və s. kimi tə`yin olunması.

٣-Qazanc mailk və amil arasında olsun. Deməli, əgər onun bir miqdarının şəriklik üçün iş görməyən başqa bir şəxsə verilməsini şərt etsələr, müzaribə batildir.

٤-Amilin başqalarından kömək almaqla olsa da belə, ticarət etməyə imkanı olsun.

**Məsələ:** ٢٢٦٧. Əqva nəzər budur ki, müzaribənin səhihliyində malın, müamilənin rəvac tapdığı sikkə ilə sikkələnmiş qızıl-gümüş olması şərt deyildir. Əksinə, maliyəti xalis olan sair mallarda da – tədavüldə olan əksinaslar kimi – caizdir. Lakin qeyrisinin zimməsində olan mal ilə, misal üçün, insanın başqasından alacağı olduğu mal ilə caiz deyildir. Mal və onun mənfəəti ilə müzaribə, misal üçün, evin məskunlaşmaq haqqı kimi, məhhəlli-işkaldır.

**Məsələ:** ٢٢٦٨. Müzarəbinin səhihliyində malın amilin ixtiyar və təsərrüfündə olması şərt deyildir; əksinə əgər malikin təsərrüfündə olsa və amil yalnız müamiləni yernə yetirsə, müzaribə səhihdir.

**Məsələ:** ٢٢٦٩. Əgər müzaribə səhih olsa, malik və amil qazancda şərik olurlar. Əgər səhihliyində mö`təbər olan işlərin bə`zilərində müzaribə fasid (qeyri-səhih) olarsa, malın qazancının hamısı malikin olur və malik əmələn ücrətül-mislini amilə verməlidir. Əgər ücrətül-misl müqavilədə amil üçün tə`yin olunmuş miqdardan artıq olarsa, ehtiyat vacib budur ki, amil və malik artıq miqdarda bir-biri ilə sülh etsinlər.

**Məsələ:** ٢٢٧٠. Müzaribədə xəsarət və zərər malikin öhdəsinədir. Əgər şərt olunsa ki, xəsarət amilin və ya hər ikisinin tərəfindən ödənilməlidir, bu şərt batildir. Lakin əgər şərt olunsa ki, amil müamilədə malikə dəyən xəsarəti ödəsin və öz malından malikə bağışlasın, onda şərt səhihdir.

**Məsələ:** ٢٢٧١. Müzaribə caiz olan əqdlərdəndir. Malik və amildən hər biri müzaribəni hər bir halda: istər əmələ başlamazdan qabaq, istər ondan sonra; istər qazanc hasil olmazdan qabaq, istərsə də ondan sonra, poza bilərlər.

**Məsələ:** ٢٢٧٢. Amil, malikdən aldığı sərmayəni onun icazəsi və izni olmadan öz malı ilə, yaxud başqa şəxsin malı ilə qarışdıra bilməz. Baxmayaraq ki, bu əməl ilə müzaribə batil olmur, amma əgər malı qatışdırsa və tələf olsa, zamindir.

**Məsələ:** ٢٢٧٣. Amil malikin alverdə tə`yin etdiyi xüsusiyyətlərə, misal üçün, amilin müəyyən bir əmtəəni alması və müyyən bir qiymətə satması kimi – riayət etməlidir, əks halda müamilə füzulidir və onun səhihliyi malikin icazəsinə bağlıdır.

**Məsələ:** ٢٢٧٤. Əgər malik amilə, müamilədə məhdud sərmayə ilə şərt qoyub qeyd vurmasa, amil məsləhət gördüyü hər bir şəkildə müamilə edə bilər.

**Məsələ:** ٢٢٧٥. Əgər amil malikin izni ilə səfər etsə və səfərin xərcinin amilin öhdəsinə olması şərt edilməsə, səfərin və ticarət üçün xərclənən şeylərin xərci sərmayədən götürüləcəkdir. Əgər amil bir neçə malik üçün işləyirsə, səfər xərcləri maliklərdən hər birinin əməlinə mütənasib olaraq bölüşdürülür.

**Məsələ:** ٢٢٧٦. Ticarətin müqəddimati işləri və səfər xərcləri üçün sərmayədən götürdüyü şeylər, qazanc hasil olduqda, qazancdan çıxılacaq və sərmayəyə əlavə olunacaqdır. Qazancın qalan miqdarını da müqaviləyə uyğun şəkildə bölüşdürəcəklər.

**Məsələ:** ٢٢٧٧. Müzaribədə maliknin bir şəxs, amilin də bir şəxs olması şərt deyildir; əksinə, bir neçə malik və bir amil, yaxud bir neçə amil və bir malik ola bilər, istər qazancdan olan pay – müzaribə əqdindəki bir neçə amil üçün nəzərdə tutulmuş olan paylar – bərabər olsun, istərsə də fərqli olmuş olsun.

**Məsələ:** ٢٢٧٨. Əgər iki şəxs bir sərmayədə şərik olsa və amil bir nəfər olsa, həmçinin, şərt etsələr ki, qazancın yarısı amil üçün, digər yarsı isə o iki malikin arasında, sərmayədə bərabər olsalar da, fərqli şəkildə bölüşdürülsün, yə`ni onların birnin payı digərindən çox olsun; yaxud onların birnin sərmayəsi digərindən çox olsa da, qazancın digər yarısı iki şərikin arasında bərabər şəkildə bölüşdürülsün, onda müzaribə batildir. Amma əgər artıq qazanc o iksindən biri üçün ticarət əməli müqabilində olsa, bu surətdə səhihdir.

**Məsələ:** ٢٢٧٩. Əgər malik, yaxud amil ölərsə, müzaribə batil olur.

**Məsələ:** ٢٢٨٠. Amilin malikin icazəsi olmadan ondan aldığı sərmayə ilə başqa şəxslə müzaribə əlaqəsi bağlaması, yaxud sərmayə ilə olan işi başqasına həvalə etməsi, yaxud sərmayə ilə ticarət etməyə başqa bir şəxsi əcir etməsi caiz deyildir. Əgər icazəsiz olaraq bu kimi işləri yerinə yetirsə, malik də icazə verməsə, nəticədə mal tələf olarsa amil zamindir. Lakin əməlin müqəddimatı işləri üçün əcir tutmağın, yaxud onların yerinə yetirilməsi üçün vəkil seçməyinin maneəsi yoxdur.

**Məsələ:** ٢٢٨١. Malik və amildən hər biri, şər`ən caiz olan hər hansı bir şeyi digərinə şərt edə bilər, məsələn, onlardan biri şərt edib desin ki, müəyyən miqdarda malı ona versin, yaxud müəyyən bir işi görsün və bu şərtə əməl etmək vacibdir, hətta amil ticarət və əməli yerinə yetirməsə də, yaxud yerinə yetirib qazanc əldə etməmiş olsa da.

**Məsələ:** ٢٢٨٢. Əgər ticarətdən qazanc hasil olsa, amil onun üçün nəzərdə tutulmuş payın maliki və sahibi olur, hətta qazanc bölüşdürülməmiş olsa belə. Lakin dəyən hər hansı zərər və tələfat bərpa olunmalıdır. Müamilədən qazanc əmələ gəlib hasil olan zaman malik onu bölüşdürməyə razı olmazsa, amilin onu bu bölgünü qəbul etməyə məcbur etmək haqqı yoxdur. Amma əgər amil bölgüyə razı olmazsa, malik onu, bölgünü qəbul etməyə məcbur edə bilər.

**Məsələ:** ٢٢٨٣. Qazancı bölüşdürsələr və bundan sonra sərmayəyə bir xəsarət dəysə, daha sonra müəyyən qədər qazanc hasil olsa və qazancın miqdarı xəsarətdən az olmazsa o xəsarət həmin qazancla bərpa olunur. Əgər xəsarətdən az olarsa, amil o xəsarəti bölgüdən götürdüyü qazancla bərpa etməlidir. Deməli, əgər xəsarət qazancdan az olarsa, xəsarətdən artıq olan miqdar onun üçün qalır; əgər artıq olarsa, qazacdan artıq olan miqdar amilin öhdəsində deyildir.

**Məsələ:** ٢٢٨٤. Müzaribə əqdi davam etdiyi vaxta qədər sərmayəyə dəyən xəsarət əməldən hasil olan qazancdan bərpa olunur, istər qazanc xəsarətdən qabaq, istərsə də sonra olmuş olsun. Əgər xəsarət əmələ başlamazdan qabaq olarsa, bu halda sərmayənin bir hissəsi tələf olsa, o xəsarət qazancın vasitəsi ilə bərpa olunur. Əgər sərmayənin hamısı tələf olarsa və heç kəs onu tələf etməmiş olsa, müzaribə batil olur. Əgər bir şəxs onu tələf edərsə və tələf edən onun əvəzini verərsə müzaribə batil olmur.

**Məsələ:** ٢٢٨٥. Əgər amil, maliklə şərt etsə ki, sərmayəyə dəyən xəsarət qazancdan bərpa olunmasın, bu şərt səhihdir və amilin payından azaldılmır.

**Məsələ:** ٢٢٨٦. Yuxarıda qeyd olunduğu kimi, amil və malik istədikləri vaxt müzaribə əqdini fəsx edib poza bilərlər, hətta əməldən sonra və qazanc hasil olmamışdan qabaq olsa belə. Amil malikin izni ilə

səfərə gedib sərmayənin bir miqdarını səfər xərclərinə xərcləmiş olsa və müzaribəni pozmaq istəsə, ehtiyat vacib odur ki, maliki razı salsın.

**Məsələ:** ٢٢٨٧. Əgər qazanc hasil olduqdan sonra müzaribə fəsx olunsa, onun qazncı müqavilə əsasında malik və amil arasında bölüşdürülməlidir. Əgər tərəflərdən biri bölüşdürməyə razı olmasa, digər tərəfin haqqı vardır ki, onu bölgüyə məcbur etsin.

**Məsələ:** ٢٢٨٨. Əgər müzaribə pozulsa və müzaribə sərmayəsinin hamısı, yaxud bir hissəsi borc verilmiş olarsa, amil onu borclu şəxsdən götürüb malikə qaytarmalıdır.

**Məsələ:** ٢٢٨٩. Əgər amil, müzaribənin sərmayəsi onun yanında olan halda ölsə, bu halda onun eyni mə`lum olsa malikə qaytarılmalıdır, əgər mə`lum olmasa, püşk ilə mqəyyən edilməli, yaxud malik amilin varisləri ilə müsalihə etməlidir.

## MUSAQAT (SUVARMA) VƏ MUĞARİSƏNİN (AĞAC ƏKMƏK) HÖKMLƏRİ

**Məsələ:** ٢٢٩٠. Əgər insan meyvəsi özünün malı olan, ya meyvələri onun ixtiyarında olan ağacları müəyyən bir müddətə qədər bir şəxsə həvalə etməklə becərməyi, suvarmağı və əvəzində meyvələrdən müşa şəkildə qərara aldıqları qədər özü üçün götürməyi şərt etsə, bu qərarlaşmaya musaqat deyərlər.

**Məsələ:** ٢٢٩١. Çinar və söyüd ağacı kimi meyvəsi olmayan ağacların musaqat vasitəsilə müamiləsi səhih deyildir və yarpaqlarından istifadə olunan xına ağacının da bu cür müamiləsi işkallıdır.

**Məsələ:** ٢٢٩٢. Musaqat müamiləsində siğə oxumaq lazım (lazım) deyildir; əksinə, ağacın sahibi musaqat qəsdilə ona həvalə etsə və iş görən kəs də həmin qəsdlə təhvil alsa, müamilə səhihdir.

**Məsələ:** ٢٢٩٣. Malik və ağacları becərməyi öz öhdəsinə götürən kəs ağıllı və baliğ olmalı, bir kəs onları nahaq yerə bu işə məcbur etməməlidir, həmçinin, malik öz malını əbəs işlərə sərf edən səfeh kimi, eləcə də şəriət hakimi tərəfindən öz malından istifadə etməyə qadağa qoyulmuş müflis kimi şəxs olmamalıdır. Həmçinin, amilin əməli və işi, öz malından istifadə etməsini gərəkli edərsə, yenə də hökm eynidir. Vəlisinin izni olmada səfeh ilə müsaqat caiz deyildir.

**Məsələ:** ٢٢٩٤. Musaqatın müddəti müəyyən olmalı və meyvə ələ gələcək müddətdən az olmamalıdır. Əgər onun əvvəlini müəyyənləşdirsələr və axırını o il meyvə yetişən vaxt olaraq qərar versələr, səhihdir.

**Məsələ:** ٢٢٩٥. Hər birinin səhmi məhsulun yarısı, ya üçdə biri və ya bunun kimi müşa şəklində olmalıdır. Əgər məsələn, yüz "mən" (١ "mən" ٣ kq) malikin malı, qalan hissənin isə iş görən şəxsin olmasını qərara alsalar, müamilə batildir.

**Məsələ:** ٢٢٩٦. Musaqat müamiləsinin qərarını meyvə zahir olmazdan qabaq qoymalıdırlar və ya meyvə zahir olandan sonra və yetişməmişdən qabaq, bu şərtlə ki, meyvənin çox olması və ağacın güclənməsi üçün suvarma işləri kimi bir iş qalmış olsun. Bu iki surətdən başqa hallarda, meyvənin yığılması və saxlanılması kimi işlərə ehtiyac olsa da belə, müamilə səhih deyildir; hətta əgər meyvənin artması və daha yaxşı olması üçün suvarmaya ehtiyac olmasa da, ağacların becərilməsi üçün lazımi bir iş qalarsa belə, müamilənin səhih olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٢٩٧. Sabit kökü olmayan xiyar və yemiş kimi şeylərin musaqatla müamiləsi məhəlli-işkaldır.

**Məsələ:** ٢٢٩٨. Yerin rütubəti və ya yağış suyu ilə qidalanan və suvarmaya ehtiyacı olmayan ağacın meyvəsinin artması və ya daha keyfiyyətli olması üçün dibinin yumşaldılması və kübrə verilməsi kimi digər işlərə ehtiyacı olarsa, onlarda musaqat səhihdir.

**Məsələ:** ٢٢٩٩. Musaqat müamiləsi edən iki nəfər, biri-birinin razılığı olduqda müamiləni poza bilərlər. Həmçinin, musaqat əqdi bağlayarkən hər ikisinin və ya birinin müamiləni pozma haqqı olması şərt olunarsa, qəbul etdikləri qərara əsasən müamiləni pozmalarının eybi yoxdur. Əgər musaqat müamiləsinin tərkibində bir şeyi şərt edib ona əməl etməsələr, xeyrinə olaraq şərt qoyulmuş kəs müamiləni poza bilər. Həmçinin, şərtin digər hallarında da, məsələn, qarşı tərəfi şəriət hakiminin vasitəsilə şərtə əməl etməyə məcbur edə bilərlər.

**Məsələ:** ٢٣٠٠. Əgər malik ölsə musaqat müamiləsi pozulmur və vərəsəsi onun yerinə keçir.

**Məsələ:** ٢٣٠١. Əgər ağacları becərməyi ixtiyarına qoyulmuş şəxs ölsə, bu halda əqd zamanı onun şəxsən özünün becərməyi şərt edilməmişsə, vərəsələri onun şəxsin yerinə keçər və vərəsələr özləri o işi yerinə yetirməsələr, əcir də tutmasalar, şəriət hakimi meyyitin malından əcir tutar və məhsulu malik ilə meyyitin vərəsələri arasında bölər. Əgər ağacları onun şəxsən özü becərəcəyini qərara almış olsalar, onun ölümü ilə müamilə də pozular.

**Məsələ:** ٢٣٠٢. Əgər bütün malın malikə məxsus olmasını şərt etsələr, musaqat batildir və meyvə malikin malıdır. İşləyən kəs də muzd tələb edə bilməz. Lakin musaqatın batil olması başqa bir cəhətə görə olsa, malik suvarma və başqa işlər üçün ağacı becərən kəsə adi qaydaya uyğun qədərdə zəhmət haqqı verməlidir. Əgər adi qaydada verilməli olan muzd qərara gəldiklərindən artıq olarsa, artığı verməyin lüzumu məhəlli-işkaldır və sülh etmək əhvətdir.

**Məsələ:** ٢٣٠٣. Əgər bir yeri ağac əkmək və əmələ gələn məhsulun hər ikisinin malı olması üçün başqasına versə, bu müamiləyə «müğarisə» deyilir və batildir. Deməli, əgər ağaclar yer sahibinin malıdırsa, onda qulluq olunandan sonra da onun malıdır və gərək onu becərənin zəhmət haqqını versin. Amma zəhmət haqqı amil (işçi) üçün müəyyən olunmuş səhmdən çox olduğu surətdə artıq hissəni verməyin lazım olması məhəlli-işkaldır və ehtiyat sülh etməkdir. Əgər ağaclar onun becərənin malıdırsa, becərdikdən sonra da onun malıdır və onları qazıb çıxara bilər. Lakin ağacları çıxarmaq üçün qazılan çalaları doldurmalı və ağacları əkdiyi gündən e`tibarən yerin icarəsini yer sahibinə verməlidir. Amma əgər yerin icarə haqqı ağacları malik üçün

becərməyə müəyyən olunmuş səhmdən artıq olarsa, bu surətdə də artığı verməyin lazımlığı məhəlli-işkaldır və sülh etmək əhvətdir.

Malik də onu ağacları çıxarmağa məcbur edə bilər. Əgər ağacları çıxarmaqla onda bir eyb, qüsur əmələ gələrsə, yer sahibinin öhdəsinə bir şey yoxdur. Lakin yer sahibi şəxsən özü ağacları çıxarsa və onlarda eyb əmələ gəlsə, zədələnsə onların qiymətlər fərqini ağac sahibinə verməlidir və ağac sahibi onu icarə, ya qeyri-icarə ilə ağacların həmin yerdə saxlamasına məcbur edə bilməz. Həmçinin, yer sahibi də ağacların icarə, ya qeyri-icarə ilə onun yerində saxlamasına məcbur edə bilməz.

## ÖZ MALINDAN İSTİFADƏ ETMƏSİ QADAĞAN OLUNMUŞ ŞƏXSLƏR

**Məsələ:** ٢٣٠٤. Həddi-buluğa çatmamış (baliğ olmamış) uşaq şər`ən öz malından, ya öz zimməsində olandan – məsələn, zamin olmaq, ya borc etmək və bu kimi məsələlərdən – istifadə edə bilməz. Həmçinin, öz nəfsindən mali istifadə – məsələn, özünün iş qüvvəsini icarəyə vermək, ya müzaribə, ya müzariə və bu kimi işlərdə amil olmaq da – eyni hökmü daşıyır. Onun öz malını vəsiyyət etməsinin hökmü isə ٢٧٦١-ci məsələdə deyiləcəkdir.

Baliğliyin əlaməti bu üç şeydən biri ilədir:

١. Oğlanlarda qarnın altında, övrətin yuxarısında qalın tüklərin çıxması;

٢. Məninin xaric olması;

٣. Oğlanlarda qəməri tarixlə on beş, qızlarda isə ilə doqquz yaşı tamam olması və doqquz yaşı tamam olub-olmaması mə`lum olmayan bir qızının heyz qanı görməsi.

**Məsələ:** ٢٣٠٥. Üzdə, dodaqların üstündə (bığ yerində), sinədə və qoltuğun altında qalın tüklərin çıxması, səsin qalınlaşması və buna bənzər şeylər baliğ olma əlaməti deyildir. Lakin insan bunların vasitəsilə baliğ olmasını yəqin etsə onda həddi-buluğa çatması sabit (mə`lum) olar.

**Məsələ:** ٢٣٠٦. Dəli şəxs öz malında və zimməsində təsərrüf (istifadə) edə bilməz. Həmçinin, öz canında (nəfsində) malı istifadələr edə bilməz. Öz malını əbəs yerlərə sərf edən səfeh də öz malında və zimməsində vəlisinin izni və icazəsi olmadan təsərrüf edə bilməz, məsələn, bir şeyə zamin dura, ya borc ala bilməz. Həmçinin, vəlisinin icazəsi olmadan öz canından mali istifadələr edə bilməz, məsələn, öz işçi qüvvəsini icarəyə verə bilməz, yaxud müzaribə, müzariə və s. kimi maliyyə işlərinin icraçısı ola bilməz. Müflis, yə`ni borclu olduğu şəxslərin tələbinə əsasən şəriət hakiminin vasitəsilə öz malından istifadə etməyi qadağan olunmuş şəxs də borclu olduğu şəxslərin izn və ya icazəsi olmadan öz malından istifadə edə bilməz.

**Məsələ:** ٢٣٠٧. Bə`zən ağıllı, bə`zən dəli olan kəsin dəlilik vaxtında öz malından təsərrüf (istifadə) etməsi səhih deyil.

**Məsələ:** ٢٣٠٨. İnsan ölümünə səbəb olan bir xəstəlik zamanı öz malından istədiyi qədərini özünün, əhl-əyalının, qonağının və israf hesab olunmayan başqa işlərə xərcləyə bilər. Əgər öz malını bir kəsə

bağışlasa, ya real qiymətindən ucuz satsa, üçdə birindən çox olsa da və vərəsələr icazə verməsələr də, onun istifadəsi səhihdir.

## VƏKALƏTİN HÖKMLƏRİ

Vəkalət odur ki, insanın özü dəxalət edə bildiyi və şəxsən əncam verməsi şərt olmayan bir işi onun tərəfindən görmək üçün başqa bir adama tapşırsın. Məsələn, evini satmaq, ya bir qadını ona əqd etmək üçün bir şəxsi vəkil etsin. Deməli, səfeh bir şəxsin öz malından istifadə etmək etmək haqqı olmadığı üçün, vəlisinin icazəsi olmadan malından bir şeyi satmaq üçün başqasını vəkil edə bilməz. Həmçinin, iflasa uğradığına görə şəriət hakimi tərəfindən öz malından istifadə etməsinə qadağa qoyulmuş şəxs tələbkarların (borclu olduğu şəxslərin) icazəsi olmadan öz malından istifadə üçün vəkil tuta bilməz.

**Məsələ:** ٢٣٠٩. Vəkalətdə siğə oxumaq lazım (vacib) deyildir; əgər insan başqasına onu vəkil etməsini başa salsa və o şəxs də qəbul etdiyini anlatsa, məsələn, öz malını bir kəsə, onun üçün satmağa versə və o da malı alsa, vəkalət səhihdir.

**Məsələ:** ٢٣١٠. Əgər insan başqa bir şəhərdə olan şəxsi vəkil etsə və ona vəkalətnamə göndərsə, o da qəbul etsə vəkalətnamə bir müddətdən sonra ona çatsa da, vəkalət səhihdir.

**Məsələ:** ٢٣١١. Müvəkkil – yə`ni başqasını vəkil edən kəs, həmçinin, vəkilliyi qəbul edən (vəkil olan) şəxs, hər ikisi ağıllı olmalı, qəsd və ixtiyar üzündən üzündən işə başlamalı və nahaq yerə bu işə məcbur edilməməlidirlər. Müvəkkildə həddi-buluğa çatması da şərtdir. Lakin həddi-buluğa çatmamış uşaq, məsələn, vəsiyyət etmək haqqı olan on yaşlı uşaq kimi, özü görə bildiyi işdə vəkil tuta bilər.

**Məsələ:** ٢٣١٢. İnsanın özü yerinə yetirə bilmədiyi, ya şər`ən yerinə yetirməməli olduğu bir iş üçün başqası tərəfindən vəkil ola bilməz. Məsələn, həcc ehramında olan şəxs evlənmə əqdi oxuya bilmədiyi üçün, başqası tərəfindən siğə oxumağa vəkil ola bilməz.

**Məsələ:** ٢٣١٣. Əgər insan bir şəxsi, özünün bütün işlərini əncam vermək üçün vəkil etsə, səhihdir. Lakin onu işlərindən biri üçün vəkil edib, o işi müəyyən etməsə, vəkalət səhih deyildir. Amma əgər o işi tə`yin etməyi vəkilin ixtiyarına qoysa və məsələn, «səni evimi satmaqda, yaxud icarəyə verməkdə vəkil edirəm, hənsını seçirsən seç» desə, vəkalət səhihdir.

**Məsələ:** ٢٣١٤. Əgər vəkili işdən kənarlaşdırsa, xəbər vəkilə çatandan sonra o işi yerinə yetirə bilməz. Lakin xəbər ona çatmamış o işi yerinə yetirmiş olsa, səhihdir.

**Məsələ:** ٢٣١٥. Vəkil olan şəxs müvəkkilin qaib olduğu vaxtda da vəkillikdən dönə bilər.

**Məsələ:** ٢٣١٦. Vəkil, yerinə yetirməsi onun ixtiyarında olan bir işi görmək üçün başqasını vəkil edə bilməz. Lakin əgər müvəkkil başqasını vəkil tutmaq üçün ona icazə versə, necə göstəriş veribsə, ona uyğun əməl edə bilər. Deməli, əgər «mənim üçün vəkil tut» desə, gərək vəkili onun tərəfindən tutsun və bir kəsi öz tərəfindən vəkil tuta bilməz.

**Məsələ:** ٢٣١٧. Əgər vəkil, müvəkkilin icazəsi ilə bir şəxsi onun tərəfindən vəkil tutsa, o vəkili işdən kənarlaşdıra bilməz. Əgər birinci vəkil ölsə, ya müvəkkil onu kənarlaşdırsa ikincisinin vəkaləti batil olmaz.

**Məsələ:** ٢٣١٨. Əgər vəkil, müvəkkilin icazəsi ilə bir şəxsi öz tərəfindən vəkil etsə, müvəkkil və birinci vəkil o vəkili işdən kənarlaşdıra bilərlər. Əgər birinci vəkil ölsə, ya işdən kənarlaşdırılsa, ikincinin vəkaləti batil olar.

**Məsələ:** ٢٣١٩. Əgər bir işi yerinə yetirmək üçün bir neçə nəfəri vəkil etsə və onların hər birinə o işə təklikdə başlamağa icazə versə, onlardan hər biri o işi yerinə yetirə bilər. Əgər onlardan biri ölsə, digərlərinin vəkaləti batil olmur. Lakin əgər o işi ayrılıqda, ya birlikdə görmələrini deməmiş olsa, yaxud birlikdə yerinə yetirmələrini demiş olsa, ayrılıqda işə başlaya bilməzlər, onlardan biri öldüyü surətdə də digərlərinin vəkaləti batil olar.

**Məsələ:** ٢٣٢٠. Əgər vəkil, ya müvəkkil ölsə, vəkalət batil olar. Həmçinin, bir şeydən istifadə etmək üçün vəkil olduğu şey aradan getsə – məsələn, satmaq üçün vəkkil olduğu qoyun ölsə – vəkalət batil olar. Əgər onlardan (vəkil və müvəkkil) biri dəli, ya bihuş olsa, dəlilik, ya bihuşluq aradan gedəndən sonra da işi yerinə yetirə bilməyəcəksə və yenidən vəkil tutmağa ehtiyac olacaqsa, bu halda vəkilliyin batil olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٣٢١. Əgər insan bir kəsi hər hansı bir iş üçün vəkil etsə və ona bir şeyi verməyi qərara alsa, o işi yerinə yetirəndən sonra qərara aldığı şeyi ona verməlidir.

**Məsələ:** ٢٣٢٢. Əgər vəkil ixtiyarında olan malı saxlamaqda səhlənkarlığa yol verməsə, ona icazə verilmiş istifadədən başqa, qeyri bir istifadə etməsə və o mal təsadüfən aradan gedərsə, vəkil o malın əvəzinə zamin deyildir.

**Məsələ:** ٢٣٢٣. Əgər vəkil, ixtiyarında olan malı saxlamaqda səhlənkarlıq etsə, ya ona icazə verildiyindən qeyri istifadələr etsə və o mal tələf olsa, zamindir. Deməli, əgər satmaq üçün verilən libası geyinsə və libas tələf olsa, onun əvəzini verməlidir.

**Məsələ:** ٢٣٢٤. Əgər vəkil, ona icazə verilən istifadədən qeyri bir istifadə etsə, məsələn, satmaq üçün verilmiş libası geyinsə və sonra ona icazə verilmiş tərzdə istifadə etsə, o istifadə səhihdir.

## BORCUN HÖKMLƏRİ

Müsəlmana, məxsusən də mö`min şəxsə borc vermək müstəhəbb əməllərdəndir və Qur`ani-məciddə buna əmr olunmuş, mö`minə borc vermək Allaha verilən borc hesab edilmiş, borc verənə isə bağışlanmaq və`dəsi verilmişdir. Hədis və rəvayətlərdə bu barədə çoxlu tövsiyələr olunmuşdur. Peyğəmbər (səlləllahu əleyhi və alih)-dən rəvayət olunmuşdur ki, bir kəs öz müsəlman qardaşına borc versə, borc verdiyi hər dirhəm üçün ona Rəzva və Turi-sina dağından olan Ühüd dağı ağırlığında həsənə verilər. Əgər borc verdiyi şəxs ilə müdara edib xoş rəftar etsə, siratdan hesab və əzabsız olaraq, ildırım sür`əti ilə keçər. Müsəlman bir kəsdən borc istəsə və o şəxs ona borc verməsə, Allah-təala behişti ona haram edər.

İmam Sadiq (əleyhis-salam)-dan rəvayət olunmuşdur ki, "*mənim üçün (bir kəsə) borc vermək, onu sədəqə kimi verməkdən daha sevimlidir.*"

**Məsələ:** ٢٣٢٥. Borcda əqd (ciğə) oxumaq lazım (vacib) deyildir; Hətta əgər borc qəsdilə bir kəsə bir şey versə və o da həmin qəsd ilə alsa, səhihdir.

**Məsələ:** ٢٣٢٦. Borcda müddət şərt edilməsə, ya müddət keçəndən sonra olsa, borclu nə vaxt borcunu qaytarsa, tələbkar (borc verən şəxs) gərək qəbul etsin.

**Məsələ:** ٢٣٢٧. Borc əqdində onun qaytarılması üçün bir müddət (vaxt) tə`yin etsələr, tələbkar, müddət tamam olmamış borcunu tələb edə bilməz. Lakin əgər müddət tə`yin olunmasa, tələbkar istədiyi vaxt borcunu tələb edə bilər.

**Məsələ:** ٢٣٢٨. Əgər tələbkar – haqqını tələb etməyə hüququ olduğu halda – borcunu tələb etsə, bu haqda borclu öz borcunu qaytara bildiyi halda onu dərhal qaytarmalıdır. Əgər gecikdirsə, günahkardır.

**Məsələ:** ٢٣٢٩. Əgər borclu şəxsin, öz şə`ninə layiq olan və içində yaşadığı evdən, ev əşyalarından və ehtiyacı olan digər şeylərdən başqa bir şeyi yoxudursa, tələbkar öz borcunu ondan tələb edə bilməz; əksinə, borclu öz borcunu qaytarana kimi səbir edib gözləməlidir.

**Məsələ:** ٢٣٣٠. Borclu olub, borcunu ödəyə bilməyən kəs, işləyə bilsə və işin ona əziyyət və çətinliyi yoxdursa, qazanc əldə edib borcunu qaytarması vacibdir.

**Məsələ:** ٢٢٣١. Borclu olduğu adamı tapa bilməyən şəxs, onu tapa biləcəyinə ümidi olmadıqda, onun borcunu borc sahibinin tərəfindən

sədəqə qəsdilə fəqirə verməlidir. Vacib ehtiyata əsasən, bunun üçün şəriət hakimindən də icazə almalıdır. Əgər onun tələbkarı (ona borc verən) seyyid deyilsə, müstəhəbb ehtiyat budur ki, onun alacağı olduğu borcunu fəqir seyyidə verməsin.

**Məsələ:** ٢٣٣٢. Əgər meyyitin malı onun kəfən, dəfn və borcunun vacib xərclərindən çox olmasa, malının həmin xərclərinə istifadə etmək lazımdır və onun varisinə heç bir şey yetişmir.

**Məsələ:** ٢٣٣٣. Əgər bir kəs bir qədər qızıl, ya gümüş pul borc etsə və onun qiyməti düşsə, aldığı həmin miqdarı qaytarsa kifayətdir. Əgər onun qiyməti artıq olsa, götürdüyü miqdarı geri qaytarması lazımdır. Lakin hər iki surətdə əgər borclu və tələbkar bundan başqasına razı olsalar, işkalı yoxdur.

**Məsələ:** ٢٣٣٤. Əgər borc götürdüyü mal tələf olmasa və mal sahibi onu tələb etsə, müstəhəbb ehtiyat budur ki, borclu elə həmin malı ona qaytarsın.

**Məsələ:** ٢٣٣٥. Əgər borc verən şəxs verdiyindən bir qədər artıq alacağını şərt etsə, məsələn, ١ mən (٣ kq) buğda verərək ١ mən beş sir (٣, ٣٧٥ kq) alacağını, yaxud on ədəd yumurta verərək on bir yumurta alacağını şərt etsə, riba və haramdır. Hətta əgər borclunun onun üçün bir işi yerinə yetirməsini, ya borc verdiyi şeyi başqa növdən olan bir şeylə birlikdə geri qaytarmasını şərt etsə, məsələn, borc verdiyi bir manatı bir kirbitlə birlikdə geri qaytarmasını şərt etsə, riba və haramdır. Həmçinin, əgər borc olaraq verdiyi bir şeyi məxsusi bir şəkildə qaytarmağı şərt etsə, məsələn, e`mal edilməmiş bir qədər qızıl borc versə və e`mal edilmişini qaytarmağı şərt etsə, yenə də riba və haramdır. Lakin əgər şərt etmədən borclu şəxs borc aldığından artıq qaytarsa, eybi yoxdur, əksinə bu iş müstəhəbbdir.

**Məsələ:** ٢٣٣٦. Riba vermək riba almaq kimi haramdır. Əqva nəzər budur ki, riba ilə borc edən şəxs ona malik olur, baxmayaraq ki, əhvət ondan istifadə olunmamasıdır.

**Məsələ:** ٢٣٣٧. Əgər buğda, ya onun kimi bir şeyi ribalı borca götürsə və onunla əkin əksə, əqva nəzərə görə ondan götürülən məhsula malik olur, lakin əhvət ondan istifadə olunmamasıdır.

**Məsələ:** ٢٣٣٨. Əgər bir libas alsa və onun pulunu ribalı borca götürdüyü bir maldan, ya o mal ilə qarışmış halal bir maldan libas sahibinə versə, o libası geymək və onunla namaz qılmağın eybi yoxdur. Həmçinin, əgər satıcıya «bu libası bu mal ilə alıram» - desə, əhvət budur ki, o paltarı işlətməsin.

**Məsələ:** ٢٣٣٩. Əgər insan bir kəsə bir qədər pul versə ki, başqa şəhərdə onun tərəfindən az alsın, eybi yoxdur və buna «sərfi bərat» deyilir.

**Məsələ:** ٢٣٤٠. Əgər bir kəsə bir qədər pul versə ki, bir neçə gündən sonra başqa şəhərdə verdiyindən artıq alsın, məsələn, ٩٩٠ manat pul versə ki, on gündən sonra başqa şəhərdə ١٠٠٠ manat alsın, bu iş riba və haramdır. Lakin artığı alan şəxs onun əvəzində bir mal versə, ya bir iş görsə, eybi yoxdur.

**Məsələ:** ٢٣٤١. Əgər birinin başqasından qızıl və gümüş cinsindən, eləcə də ölçülən və çəkilən şeylərdən olmayan bir alacağı varsa, onu borclu olana, ya başqa bir şəxsə daha ucuz qiymətə satıb pulunu nəqd ala bilər. Lakin onun tələbi əskinas olsa, onu ucuz olaraq eyni cinsdən olan əskinasa satmaq məhəlli-işkaldır. Həmin cinsdən olmadığı surətdə, məsələn, İran əskinas riyalını dollara satmağın eybi yoxdur. Həmçinin, borcludan alacağı məbləğin bir qədərini kəsr edib, qalanını nəqd ala bilər.

## HƏVALƏ ETMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٢٣٤٢. Əgər insan borclu olduğu şəxsi, alacağı şeyi başqasından almasını həvalə etsə və tələbkar bunu qəbul etsə, həvalə sonradan deyiləcək şərtlərlə gerçəkləşdiyi təqdirdə həvalə kimə olunubsa, o şəxs borclu olur və borc sahibi artıq öz alacağını birinci borcludan tələb edə bilməz.

**Məsələ:** ٢٣٤٣. (Həvalədə) borclu və borc sahibi ağıllı və baliğ olmalıdır, onları heç kim nahaq yerə bu işə məcbur etməməlidir, səfeh – yə`ni öz malını lazımsız, əbəs işlərə xərcləyən olmamalıdır. Lakin onun vəlisinin izn və icazəsi ilə olması halı istisnadır. Amma əgər "bəri" – yə`ni həvalə edənə borcu olmayan bir şəxsə həvalə olunsa və həvalə edən şəxs səfeh olsa, eybi yoxdur. Həmçinin, borc verən və borclu şəxsə, müflis olmaları səbəbilə, şəriət hakiminin hökmü ilə öz mallarından istifadə etmələrinə qadağa qoyulmamalıdır. Ancaq əgər "bəri" şəxsə həvalə olunsa və həvalə edən müflis olsa, işkalı yoxdur.

**Məsələ:** ٢٣٤٤. Borclu olmayan şəxsə həvalə etmək, onun qəbul etdiyi surətdə səhihdir. Həmçinin, əgər insan bir kəsə bir cinsdən olan mal borclu olsa və başqa bir cinsdən olan mal həvalə edərsə, məsələn, arpa borclu olduğu halda buğda həvalə edərsə, o şəxs qəbul etməyincə, səhih deyildir.

**Məsələ:** ٢٣٤٥. İnsan həvalə edən zaman borclu olmalıdır. Deməli, əgər kəsdən borc götürmək istəyirsə, ondan borc götürməyənə qədər o şəxsi başqa birinə həvalə edə bilməz ki, sonradan borc olaraq verəcəyi şeyi ondan çıxsın.

**Məsələ:** ٢٣٤٦. Həvalə edən və tələbkar həvalənin qədərini və cinsini bilməlidirlər. Deməli, misal üçün, bir kəs on mən buğda və on manat pulu bir nəfərə borclu olsa və ona «iki tələbindən birini filankəsdən al» deyib onu müəyyən etməsə həvalə səhih deyildir.

**Məsələ:** ٢٣٤٧. Əgər borc həqiqətdə müəyyən olsa, ancaq borclu və borc sahibi həvalə verən anda onun qədərini, ya cinsini bilməsələr, həvalə səhihdir. Məsələn, əgər bir kəsin tələbi dəftərdə yazılmış olsa və dəftərə baxmazdan əvvəl həvalə edib sonra dəftərə baxsa və borc sahibinə də öz tələbinin qədərini desə, həvalə səhihdir.

**Məsələ:** ٢٣٤٨. Borc sahibi həvaləni qəbul etməyə bilər, hətta həvalə verilən kəs fəqir olmasa və həvaləni qaytarmaqda səhlənkarlıq etməsə də belə.

**Məsələ:** ٢٣٤٩. Həvalə verənə borclu olmayan bir şəxs həvaləni qəbul etsə, həvaləni ödəməzdən əvvəl həvalənin qədərini həvalə verəndən tələb edə bilməz. Əgər tələbkar öz tələbini az miqdarla sülh etsə, həvaləni qəbul edən şəxs yalnız o miqdarı həvalə verəndən tələb edə bilər.

**Məsələ:** ٢٣٥٠. Həvalə gerçəkləşəndən sonra həvalə edən və həvalə olunan şəxs həvaləni poza bilməzlər. Həvalə olunan şəxs həvalə vaxtı fəqir olmasa, sonradan fəqir olsa da tələbkar (borc sahibi) həvaləni poza bilməz. Həmçinin, əgər həvalə vaxtı fəqir olsa və borc sahibi onun fəqir olduğunu bilsə, yenə də həvaləni poza bilməz. Ancaq fəqir olduğunu bilməyib sonradan mal-dövlət sahibi olduğunu başa düşsə, borc sahibi (tələbkar) həvaləni pozub öz tələbini həvalə verəndən ala bilər.

**Məsələ:** ٢٣٥١. Əgər borclu, borc sahibi və həvalə olunmuş şəxs – onun qəbul etməsi həvalənin səhihliyində şərt olsa – məsələn, həvalə verənə borclu olmasa, yaxud onlardan biri üçün həvaləni pozmaq haqqı olmasını qərara alsalar, qərara aldıqlarına uyğun şəkildə həvaləni poza bilərlər.

**Məsələ:** ٢٣٥٢. Əgər həvalə edən özü borc sahibinin (tələbkarın) borcunu versə, bu halda bu iş ona həvalə olunmuş və həvalə edənə borclu olan şəxsin xahişi ilə olsa, verdiyi şeyi ondan ala bilər. Əgər onun xahişi olmadan veribsə, ya həvalə verənə borclu deyilsə, verdiyi şeyi ondan tələb edə bilməz.

## RƏHNİN (GİROV QOYMAĞIN) HÖKMLƏRİ

**Məsələ:** ٢٣٥٣. Rəhn odur ki, öhdəsində başqası üçün mali haqq olan şəxs öz malının bir hissəsini tələbkarın (borc sahibinin) yanında vəsiqə ünvanı ilə qoysun ki, onun borcunu qaytarmadığı surətdə tələbkar öz haqqını o maldan götürə bilsin. Məsələn, borclu olan şəxs öz malının bir miqdarını vəsiqə olaraq tələbkarın yanında qoyur ki, borcunu vermədiyi təqdirdə haqqını o maldan götürsün.

**Məsələ:** ٢٣٥٤. Rəhndə əqd oxunması lazım (vacib) deyildir; Borclu şəxs öz malını girov qoymaq niyyətilə tələbkara versə və borc sahibi də həmin niyyətlə alsa, rəhn səhihdir.

**Məsələ:** ٢٣٥٥. Girova qoyan və girova götürən ağıllı və baliğ olmalı, nahaq yerə bu işə məcbur edilməməlidirlər. Həmçinin, girov qoyan şəxs müflis və səfeh olmamalıdır; yalnız müflisin tələbkarların və səfehin vəlisinin icazə və izni ilə ola bilər. (Səfeh və müflisin mə`nası ٢٣٠٦-cı məsələdə deyilmiş oldu.)

**Məsələ:** ٢٣٥٦. İnsan yalnız şər`ən istifadə (təsərrüf) edə biləcəyi malı girov qoya bilər. Əgər başqasının malını onun izn və icazəsi ilə girov qoysa, səhihdir.

**Məsələ:** ٢٣٥٧. Girov qoyulan şey borcu ödəyə biləcək şeylərdən olmalıdır, hətta həqqüt-təhcirə aid olan torpaq sahəsi kimi (yə`ni bir nəfər sahibi olmayan yerin ətrafına daş düzərək, hasar çəkərək onu öz milkiyyətinə keçirir və ona sahib olur) məmluk (mülkiyyətə keçən) olmasa belə; Deməli, əgər şərab (şər`ən mülkiyyətə qabil olmadığı üçün) və bu kimi şeyləri girov qoysalar, rəhn batildir.

**Məsələ:** ٢٣٥٨. Girov qoyulan şeyin faydaları ona malik olanın malıdır və bu məsələdə malik dedikdə, haqq sahibindən də artıq mə`nanı kəsb edir.

**Məsələ:** ٢٣٥٩. Girov götürən şəxs, malikinin icazəsi olmadan girova götürdüyü maldan istifadələr edə bilməz. Həmçinin, malik də girova götürənin icazəsi olmadan o maldan, onun haqqı ilə zidiyyət təşkil edən istifadələr edə bilməz.

**Məsələ:** ٢٣٦٠. Bir qrup fəqihlər (Allah onların məqamlarını ucaltsın!) buyurmuşlar ki, «əgər tələbkar girov götürdüyü şeyi, borclunun icazəsi ilə satsa, onun əvəzi də, girov malının özü kimi olar. Həmçinin, onun icazəsi olmadan satsa və sonra borclu icazə versə də hökm eynidir». Lakin bu hökm məhəlli-işkaldır. Amma hətta o alverin özü olsa da belə, əqd zamanı borclunun əvəz olan şeyi girov qoymasını

şərt etsələr, bu surətdə öz şərtinə əməl etməsi vacibdir. Yaxud əvəzin girov olmasını şərt etsə, bu surətdə şərtin özü ilə əvəz girov olar.

**Məsələ:** ٢٣٦١. Əgər borcu qaytarmaq lazım olduğu bir vaxtda borc sahibi tələbini istəsə və o verməsə, borc sahibinin o şeyi satmağa və öz borcunu götürməyə aid vəkaləti olduğu surətdə girov götürdüyü malı sataraq borcunu götürə bilər. Vəkaləti olmadığı surətdə gərək borcludan icazə alsın, əgər borcluya əli çatmasa, şəriət hakimindən icazə alsın. Şəriət hakiminə də əli çatmasa, ədalətli mö`minlərdən icazə almalıdır. Hər bir surətdə əgər girovun dəyəri alacağından artıq olsa, artığını borcluya verməlidir.

**Məsələ:** ٢٣٦٢. Əgər borclunun, içində oturduğu, onun şə`ninə uyğun olan evi, mənzil əşyaları və hökmən malik olmalı olduğu digər ləvazimatlarından başqa bir şeyi yoxdursa, tələbkar borcunu ondan tələb edə bilməz. Lakin girova qoyduğu mal, ev və ev əşyaları olsa da belə, tələbkar onu sataraq tələbini haqqını ala bilər.

## ZAMİN OLMAĞIN HÖKMLƏRİ

**Məsələ:** ٢٣٦٣. Əgər insan bir kəsin borcunu vermək üçün zamin olmaq istəsə, onun zamin olması o surətdə səhihdir ki, ərəbcə olmasa da, hər hansı bir dildə olan sözlə, tələbkara «mən sənin borcunu ödəməyə zaminəm» - desin, ya əməllə bu məqsədini tələbkara başa salsın və tələbkar da qəbul etsin. Borclunun razılığı şərt deyildir.

**Məsələ:** ٢٣٦٤. Zamin olan kəs və tələbkar ağıllı və baliğ olmalı, bir kəs onları nahaq yerə bu işə məcbur etməməli və səfeh, müflis olmamalıdır; yalnız səfehin vəlisi və müflisin tələbkarının icazə verdiyi hal istisnadır. Bu şərtlər borcluda mö`təbər deyildir. Buna əsasən, əgər bir kəs uşağın, dəlinin, səfehin və ya müflisin borcunu qaytarmaq üçün zamin olsa, səhihdir.

**Məsələ:** ٢٣٦٥. Əgər bir kəs özünün zamin olması üçün bir şərt qərar versə, məsələn, «əgər borclu sənin borcunu verməsə, onda mən zaminəm» - desə, onun zaminliyinin səhih olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٣٦٦. İnsanın, borcunu ödəməyə zamin olduğu şəxs borclu olmalıdır. Deməli, başqasından borc almaq istəyən bir şəxs, borc almayınca ona zamin olmaq olmaz.

**Məsələ:** ٢٣٦٧. İnsan o halda zamin ola bilər ki, borc sahibi (tələbkar), borclu və borcun cinsi həqiqətdə müəyyən olsunlar. Deməli, əgər iki nəfərin bir şəxsdən alıcıların olsa və insan «mən sizin birinizin tələbini ödəmək üçün zaminəm» - desə, hansı birinin tələbini ödəməyi müəyyən etmədiyi üçün onun zamin olması batildir. Həmçinin, əgər bir kəsin iki nəfərdən alacağı olsa və başqa bir kəs «mən o iki nəfərdən birinin borcunu sənə ödəməyə zaminəm» - desə, onlardan hansı birinin borcunu ödəyəcəyini tə`yin etmədiyi üçün onun zəmanəti batildir. Eləcə də əgər bir kəsin başqasından, məsələn, on mən buğda və on manat alacağı olsa və başqa bir şəxs «sənin iki tələbindən birini ödəməyə zaminəm» - desə və buğda, yoxsa pula zamin olduğunu müəyyənləşdirməsə, səhih deyildir.

**Məsələ:** ٢٣٦٨. Əgər tələbkar öz alacağını, (borcu ödəmək üçün) zamin olana bağışlasa, zamin borclu şəxsdən heç bir şey ala bilməz. Əgər (hamısını deyil,) onun bir miqdarını güzəştə gedib bağışlasa, bağışlanan qədəri ondan tələb edə bilməz.

**Məsələ:** ٢٣٦٩. İnsan bir kəsin borcunu ödəmək üçün zamin olsa, zəmanətdən dönə (imtina edə) bilməz.

**Məsələ:** ٢٣٧٠. Zamin və tələbkar, vacib ehtiyata əsasən, şərt qoya bilməzlər ki, istədikləri vaxt zaminin öz zəmanətini poza bilsinlər.

**Məsələ:** ٢٣٧١. Əgər insan zamin olan vaxt borc sahibinin borcunu verə bilərsə, sonradan fəqir olsa da, borc sahibi onun zaminliyini pozub öz tələbini əvvəlki borcludan istəyə bilməz. Həmçinin, əgər o zaman onun tələbini ödəyə bilməsə, amma borc sahibi bunu bilsə və onun zamin olmasına razı olsa, həmin hökmdədir.

**Məsələ:** ٢٣٧٢. Əgər insan zamin olduğu vaxt borc sahibinin tələbatını (borcunu) ödəməyə qadir olmasa və borc sahibi o vaxt bunu bilməsə və sonradan bilsə, onun zəmanətçiliyini poza bilər. Amma borc sahibi bunu bilməzdən qabaq zamin borcu ödəməyə qüdrət tapsa, bu halda onun zamin olmasını pozmaq istəsə, işkalı vardır.

**Məsələ:** ٢٣٧٣. Əgər bir şəxs borclunun icazəsi olmadan onun borcunu ödəməyə zamin olsa, ondan bir şey tələb edə bilməz.

**Məsələ:** ٢٣٧٤. Əgər bir kəs, borclunun icazəsi ilə onun borcunu ödəməyə zamin olsa, zamin olduğu miqdarı ödədikdən sonra ondan tələb edə bilər. Lakin borclunun borclu olduğu cinsdən (maldan) başqa bir cinsi tələbkara versə, verdiyi şeyi (borcludan) tələb edə bilməz. Məsələn, əgər borclu on mən buğda borclu olsa və zamin on mən düyü versə, düyünü borcludan tələb edə bilməz. Amma düyü verilməsinə borclunun özü razı olsa, (zaminin düyünü tələbkara verdikdən sonra borcludan) onu almasının işkalı yoxdur.

## KƏFALƏTİN (ÖHDƏÇİLİK) HÖKMLƏRİ

**Məsələ:** ٢٣٧٥. Kəfalət budur ki, insan borc sahibinə, borclunu istədiyi hər vaxt borclunu ona təhvil verəcəyi üçün öhdəçilik götürsün. Bu tərzdə öhdəçilik götürənə «kəfil» deyərlər.

**Məsələ:** ٢٣٧٦. Kəfalət o halda səhih olur ki, ərəbcə olmasa da tələbkara, istədiyi vaxt borclunu ona təhvil veryəcəyini öz öhdəsinə götürdüyünü başa salacaq hər hansı bir dildə olan sözlə, ya bir iş görməklə başa salsın. Tələbkar, ya onun vəlisi də bunu qəbul etsin.

**Məsələ:** ٢٣٧٧. Kəfil ağıllı və baliğ olmalı, öz malından istifadə edilməsi lazım gələn hallarda, müflis və səfeh olmamalıdır. Amma səfehdə vəlisinin, müflisdə isə tələbkarlarının icazə və izni ilə olsa, eybi yoxdur. Həmçinin, kəfalətdə nahaq yerə məcbur edilməməli və kəfili olduğu şəxsi istədiyi vaxt hazır edə bilməlidir.

**Məsələ:** ٢٣٧٨. Kəfalət beş şeydən biri ilə pozular:

١. Kəfil, borclunu borc sahibinə təhvil verdikdə, ya borclu özünü ona təslim edərsə; ya başqa bir şəxs onu təslim etsə və tələbkar da bunu qəbul edərsə;

٢. Tələbkarın borcu verilərsə;

٣. Tələbkar öz tələbindən güzəştə gedərsə, ya alver, sülh, həvalə və bu kimi yollarla başqasına nəql edərsə;

٤. Borclu ölərsə;

٥. Tələbkar (borc sahibi) kəfili (borclunu təhvil verməyi öhdəsinə alanı) kəfalətdən (öhdəçilikdən) azad edərsə.

**Məsələ:** ٢٣٧٩. Əgər bir kəs borclunu zor və ya hiylə ilə borc sahibinin əlindən çıxararsa, bu halda tələbkarın əli ona çatmadığı təqdirdə borclunu onun əlindən çıxaran kəs onu tələbkara təhvil verməlidir. Əgər bunu etməsə, tələbkarın borcunu ödəməlidir.

## VƏDİƏNİN (ƏMANƏTİN) HÖKMLƏRİ

**Məsələ:** ٢٣٨٠. Əgər bir şəxs malını başqa bir kəsə verib «səndə əmanət qalsın» - deyərsə və o da qəbul edərsə; ya heç bir danışıq olmadan mal sahibi malı ona əmanət verdiyini bir yolla başa salarsa və o da bu niyyətlə malı alarsa, bu halda vədiənin sonradan deyiləcək hökmlərinə uyğun əməl etməlidirlər.

**Məsələ:** ٢٣٨١. Əmanətdar və malı əmanət qoyan – hər ikisi ağıllı olmalıdır. Deməli, əgər insan bir malı dəli bir şəxsin yanında əmanət qoysa, ya dəli, bir kəsə əmanət olaraq bir mal versə, səhih deyildir. Öz malını əmanət qoyan kəs baliğ olmalıdır. Müməyyiz (yaxşını-pisi dərk edən) uşağın başqasının malını, onun icazəsi ilə bir kəsə əmanət verməsi caizdir. Müməyyiz uşağa bir şey əmanət vermək, əmanəti qorumağa qadir olduğu, əmanəti qoruduğu və uşağın malından istifadə ilə nəticələnmədiyi surətdə, eybi yoxdur. Malını əmanət verən kəsin səfeh və müflis olmaması şərtdir. Amma müflisin tələbkarlarının və səfehin vəlisinin icazə və izni olan hal istisnadır. Lakin səfeh və müflisin yanında əmanət qoymaq, onların öz mallarından istifadə etməsinə səbəb olmazsa, maneəsi yoxdur və istifadəyə səbəb olacağı surətdə əgər tələbkarların və vəlinin icazə və izni ilə olsa, eybi yoxdur.

**Məsələ:** ٢٣٨٢. Əgər uşağın sahibinin icazəsi olmadan uşaqdan bir şeyi əmanət olaraq qəbul edərsə, onu sahibinə verməsi gərəkdir. Əgər həmin şey uşağın özünün malı olsa və vəlisi onun əmanət qoyulmasına icazə verməmiş olsa, o malı onun vəlisinə çatdırmaq lazımdır. Əgər malı onlara çatdırmaqda səhlənkarlıq edilərsə və mal tələf olarsa, o malın əvəzini verməlidir. Həmçinin, əmanət qoyan şəxs dəli olduqda da hökm eynidir.

**Məsələ:** ٢٣٨٣. Əmanəti qoruyub-saxlaya bilməyən kəs, əmanət qoyan onun vəziyyətini bilmədiyi surətdə əmanəti qəbul etməməlidir.

**Məsələ:** ٢٣٨٤. Əgər insan malı saxlamağa hazır olmadığını mal sahibinə başa salsa, bu halda o da malı qoyaraq çıxıb getsə və mal tələf olsa, əmanəti qəbul etməyən şəxs ona zamin deyildir. Lakin müstəhəbb ehtiyat budur ki, mümkün olarsa, onu qorusun.

**Məsələ:** ٢٣٨٥. Bir şeyi əmanət qoyan kəs istədiyi vaxt onu geri ala bilər və əmanəti qəbul edən də istədiyi vaxt onu sahibinə qaytara bilər.

**Məsələ:** ٢٣٨٦. Əgər insan əmanəti saxlamaqdan imtina edib vədiəni pozarsa, bu zaman ən tez bir zamanda onu sahibinə, ya onun vəkilinə, ya mal sahibinin vəlisinə çatdırmalıdır, ya da əmanəti

saxlamaq üçün hazır olmadığını onlara xəbər verməlidir. Əgər üzürlü səbəb olmadan malı onlara çatdırmasa və xəbər də verməsə, bu halda mal tələf olsa, onun əvəzini verməlidir.

**Məsələ:** ٢٣٨٧. Əmanəti qəbul edən kəsin onu saxlaması üçün münasib bir yeri yoxdursa, münasib yer hazırlığı görməlidir və onu elə tərzdə saxlamalıdır ki, camaat «onu saxlamaqda səhlənkarlıq etmişdir» - deməsinlər. Əgər münasib olmayan bir yerə qoysa və mal tələf olsa, onun əvəzini verməlidir.

**Məsələ:** ٢٣٨٨. Əmanəti qəbul edən kəs əgər ifrata varıb həddini aşsa – yə`ni misal üçün, onun yanında əmanət qoyulan miniyi sahibinin icazəsi olmadan minsə və ya təfritə varsa, yə`ni onu saxlamaqda səhlənkarlıq etsə, məsələn, onu elə bir yerə qoysa ki, bir kəsin onun yerini bilib aparacağından əmin olmasa (və onu aparsalar) zamindir və tələf olduğu təqdirdə əgər həmin mal qiymi maldırsa qiymətini, misli maldırsa onun mislini əvəz olaraq verməlidir. Bu deyilən iki surətdən başqa hallarda zamin deyildir.

**Məsələ:** ٢٣٨٩. Əgər mal sahibi, öz malının saxlanması üçün bir yer tə`yin etsə və əmanəti qəbul edənə desə ki, «əmanəti həmin yerdə qoru və əgər aradan gedəcəyini ehtimal versən də belə, onu başqa yerə aparma», onu başqa bir yerə aparması caiz deyildir. Əgər aparsa zamindir.

**Məsələ:** ٢٣٩٠. Əgər mal sahibi öz malının qorunması üçün bir yer tə`yin edərsə və əmanəti qəbul edən şəxs də o yerin mal sahibinin nəzərində xüsusi bir əhəmiyyətə malik olmadığını və sadəcə qoruma yerlərindən biri olduğunu bilirsə, onu daha yaxşı qorunacağı, ya əvvəlki yer kimi olan başqa bir yerə apara bilər. Əgər mal orada tələf olsa, zamin deyildir.

**Məsələ:** ٢٣٩١. Əgər mal sahibi dəli olsa, əmanəti qəbul edən şəxs onu dərhal onun vəlisinə çatdırmalıdır, ya vəlini xəbərdar etməlidir. Əgər şər`i bir üzr olmadan onu dəlinin vəlisinə verməsə və xəbər verməkdə səhlənkarlıq etsə və mal tələf olsa, onun əvəzini verməlidir.

**Məsələ:** ٢٣٩٢. Əgər mal sahibi ölsə, əmanəti saxlayan şəxs onu dərhal onun varislərinə çatdırmalıdır, ya varislərinə xəbər verməlidir. Əgər şər`i bir üzr olmadan onu varisə verməsə və xəbərdar etməkdə səhlənkarlıq etsə və mal təəlf olsa, onun əvəzini verməlidir. Lakin "mən meyyitin varisiyəm" - deyən şəxsin düz deyib-demədiyini, ya meyyitin başqa bir varisi olub-olmadığını bilmək üçün malı verməyib xəbərdar etməkdə səhlənkarlıq etsə və mal da tələf olsa, onun öhdəsində bir şey yoxdur.

**Məsələ:** ٢٣٩٣. Əgər mal sahibi ölsə və onun bir neçə varisi olsa, əmanəti qəbul edən kəs onu varislərin hamısına verməli, ya əmanəti almaq üçün varislərin tə`yin etdiyi birinə verməlidir. Deməli, əgər digər

varislərin icazəsi olmadan bütün əmanəti onlardan birinə verərsə, o birilərin payına zamindar. Əgər (meyyit) mal barəsində vəsi müəyyən etmiş olarsa, onun da icazəsi mö`təbərdir.

**Məsələ:** ٢٣٩٤. Əgər əmanəti qəbul edən kəs ölsə, ya dəli olsa, onun varisi, ya vəlisi tez bir zamanda mal sahibi ilə əlaqə yaratmalı, ya da əmanəti ona çatdırmalıdır.

**Məsələ:** ٢٣٩٥. Əmanəti qəbul edən şəxs hər nə vaxt özündə ölüm əlamətlərini hiss etsə, əgər əmanətin öz sahibinə çatacağına arxayınçılığı olsa, məsələn, onun varisi əmin (əmanətdar) olsa və əmanətdən xəbəri olsa; həmçinin, mal sahibinin onun vərəsəsinin yanında qalmağına razı olduğuna arxayın olsa, bu surətdə əmanəti sahibinə, ya onun vəkilinə və vəlisinə çatdırması və ya vəsiyyət etməsi lazım (vacib) deyildir. Amma buna baxmayaraq, əhvət budur ki, əmanəti öz sahibinə, ya onun vəkilinə, ya vəlisinə çatdırsın. Əgər mümkün olmasa, onu şəriət hakiminə versin.

Deyilən bu surətdən başqa hallarda gərək mümkün olan hər bir yolla əmanəti öz sahibinə, ya vəkilinə, ya vəlisinə çatdırsın. Əgər mümkün olmasa, vəsiyyət edərək şahid tutsun, vəsiyə və şahidə, mal sahibinin adını, malın cinsini, xüsusiyyətlərini və yerini desin.

**Məsələ:** ٢٣٩٦. Əgər əmanətçi özündə ölüm əlamətlərini hiss etsə və əvvəlki məsələdə deyilən vəzifəsinə əməl etməsə, əmanət aradan getdiyi təqdirdə onun əvəzini verməlidir, hətta onu saxlamaqda səhlənkarlıq etməsə də və onun xəstəliyi aradan getsə, ya bir müddətdən sonra peşman olub vəsiyyət etsə və mal vəsiyyət edəndən sonra tələf olsa da belə.

## ARİYƏNİN (MÜVƏQQƏTİ İSTİFADƏ ÜÇÜN ALINAN ŞEYLƏRİN) HÖKMLƏRİ

**Məsələ:** ٢٣٩٧. Ariyə –insanın öz malını əvəzsiz olaraq başqasının istifadə etməsi üçün ona verməsinə deyilir.

**Məsələ:** ٢٣٩٨. Ariyədə siğə oxunması lazım (vacib) deyildir; əgər məsələn, bir şəxs ariyə məqsədi ilə paltarını birinə versə və o da həmin qəsdlə alsa, səhihdir.

**Məsələ:** ٢٣٩٩. Qəsbi bir şeyi, eləcə də insanın malı olub, lakin onun mənfəəti başqasının haqqı, ya mülkü olduğu bir şeyi – məsələn, icarəyə verdiyi bir şeyi – ariyə vermək o halda səhihdir ki, qəsb olunmuş şeyin sahibi, ya o kəs ki, mənfəəti onun mülkü, yaxud onun haqqıdır, o şəxs həmin şeyi ariyə verməyə razı olsun.

**Məsələ:** ٢٤٠٠. Mənfəəti insanın malı olan bir şeyi, məsələn, icarəyə götürdüyü bir şeyi malikin icazəsi ilə, ya mal barəsində arxayın olduğu şəxsə ariyə verə bilər. Ancaq icarədə o maldan şəxsin yalnız özü istifadə edəcəyini şərt etsələr, onu başqasına ariyə verə bilməz.

**Məsələ:** ٢٤٠١. Əgər uşaq, ya dəli öz malını ariyə versə səhih deyildir. Həmçinin, müflis və səfehin öz malını, səfehin vəlisisnin və müflisin tələbkarlarının icazəsi istisna olmaqla, ariyə verməsi səhih deyildir. Ancaq vəli (qəyyum) bir kəsin malını müəyyən bir məsləhətə görə ariyə versə, işkalı yoxdur.

**Məsələ:** ٢٤٠٢. Əgər ariyə etdiyi şeyi saxlamaqda səhlənkarlıq etməsə, habelə ondan istifadə etməkdə həddini aşmasa və həmin şey təsadüfən tələf olsa, zamin deyil. Lakin tələf olacağı surətdə ariyə edənin, zamin olacağını şərt etsələr, ya ariyə etdiyi şey qızıl və gümüş olsa, onun əvəzini verməlidir.

**Məsələ:** ٢٤٠٣. Əgər qızıl və gümüşü ariyə etsə və tələf olacağı təqdirdə zamin olmayacağını şərt etsələr və tələf olsa, zamin deyildir.

**Məsələ:** ٢٤٠٤. Əgər ariyə verən ölsə, ariyə götürənin vəzifəsi ٢٣٩٢-ci məsələdə deyilmiş kimidir.

**Məsələ:** ٢٤٠٥. Əgər ariyə verən, məsələn, dəli olmaq kimi şər`ən öz malından istifadə edə bilməyəcək halda olarsa, ariyə edənin vəzifəsi eynilə ٢٣٩١-ci məsələdə deyilən kimidir.

**Məsələ:** ٢٤٠٦. Ariyə caiz əqdlərdəndir. Ariyə verən və ariyə götürən kəs istədikləri hər vaxt ariyəni poza bilərlər. Buna görə də ariyə verən öz verdiyini geri ala bilər. Amma meyyitin dəfni üçün ariyə

edilmiş yer kimi, dəfn etdikdən sonra qəbri açaraq geri alına bilinməyən yerlər istisnadır.

**Məsələ:** ٢٤٠٧. Halal istifadəsi olmayan şeyi, məsələn, qumar və əyləncə alətləri kimi, ariyə vermək batildir. Həmçinin, qızıl və gümüş qabların yeyib-içməkdə, vacib ehtiyata əsasən, hətta zinət kimi digər işlərdə istifadə etmək üçün ariyəsi, batildir.

**Məsələ:** ٢٤٠٨. Süd və yunundan istifadə etmək üçün qoyunu və dişi heyvanın mayalanması üçün erkək heyvanın ariyəsi səhidir.

**Məsələ:** ٢٤٠٩. Əgər ariyə etdiyi bir şeyi öz malikinə, ya onun vəlisinə, ya vəkilinə verdikdən sonra tələf olsa, ariyə edən zamin deyildir. Amma mal sahibinin, ya onun vəkilinin, ya vəlisinin icazəsi olmadan onu, bir yerə aparsa ki, adətən mal sahibi onu həmin yerə aparardı, məsələn, sahibinin atı üçün düzəltdiyi tövlədə bağlasa, zamindir və tələf olduğu surətdə əvəzini verməlidir.

**Məsələ:** ٢٤١٠. Əgər paklıq şərt olan bir işə görə nəcis bir şeyi ariyə versə, məsələn, nəcis bir qabı yemək yemək üçün ariyə versə, onun nəcis olduğunu ariyə edən kəsə deməlidir. Əgər nəcis libası namaz qılmaq üçün ariyə versə, onun nəcis olduğunu xəbər vermək lazım deyildir. Lakin paltarı ariyə götürən şəxs, həqiqətdə pak olan libasla namaz qılmaq istədiyi surətdə, vacib ehtiyat budur ki, paltarın nəcis olduğunu ona bildirsin.

**Məsələ:** ٢٤١١. Ariyə etdiyi bir şeyi, sahibinin icazəsi olmadan başqasına icarə, ya ariyəyə verə bilməz.

**Məsələ:** ٢٤١٢. Əgər ariyə etdiyi bir şeyi sahibinin icazəsi ilə başqasına ariyə versə və onu ariyə edən birinci şəxs ölsə, ya dəli olsa, ikinci ariyə batil olmaz.

**Məsələ:** ٢٤١٣. Əgər ariyə etdiyi malın qəsbi olduğunu bilsə, onu sahibinə çatdırmalıdır; onu, ariyə verənə qaytara bilməz.

**Məsələ:** ٢٤١٤. Əgər qəsbi olduğunu bildiyi malı ariyə edib ondan istifadə etsə və onun əlində tələf olsa, malik malın əvəzini və ariyə edənin etdiyi istifadənin əvəzini ariyə edəndən, ya malı qəsb edəndən tələb edə bilər. Əgər ariyə edəndən alarsa o (ariyə edən) malikə verdiyini ariyə verəndən tələb edə bilməz.

**Məsələ:** ٢٤١٥. Əgər ariyə etdiyi malın qəsbi olduğunu bilməsə və onun əlində tələf olsa, bu halda mal sahibi ondan o malın əvəzini alsa o da mal sahibinə verdiyini ariyə verəndən tələb edə bilər. Lakin ariyə etdiyi şey qızıl və gümüş olsa, ya ariyə verən həmin şey tələf olduqda onun əvəzini verməyi şərt etsə, onun mal sahibinə verdiyi əvəzini ariyə verəndən tələb edə bilməz.

## HİBƏNİN HÖKMLƏRİ

Hibə – əvəzində heç bir şey almadan, hər hansı bir şeyi başqasının mülkiyyətinə keçirməkdir. Bağışlanan şey də gərək – hətta müşa şəklində olsa belə – "eyn" olsun, mənfəət yox; istər xaricdə mövcud olsun, istərsə də zimmədə – əgər onun zimməsində olan şəxsdən qeyrisinə bağışlayırsa. Əgər o "eyn"i elə zimməsində olan şəxsə bağışlayarsa, borclunun zimməsi götürülür və bağışladığı şeyi geri ala bilməz.

**Məsələ:** ٢٤١٦: Hibədə "icab" və "qəbul" şərtdir, istər sözlə olsun, misal üçün, (hibə edən şəxs) desin: "bu kitabı sənə bağışladım", hibə olunan şəxs isə desin: "Qəbul etdim". İstərsə də əməllə olsun, misal üçün, kitabı bəxşiş ünvanı ilə birinə versin, o da qəbul etmək ünvanı ilə alsın.

**Məsələ:** ٢٤١٧: Hibə edən şəxsdə ağıllı olmaq, həddi-buluğa çatmaq, iradə üzündən hibə etmək, hibəyə məcbur edilməmək, səfehlik və müflis olduğuna görə öz əmlakında təsərrüfdən qadağan olunmamaq şərtdir. Habelə, hibə etdiyi şeyin maliki olması, yaxud ona vilayət haqqı olması şərtdir, əks halda, o hibə füzulidir və onun səhihliyi, icazəsi mö`təbər olan şəxsin icazəsi ilə şərtlənir.

**Məsələ:** ٢٤١٨: Hibədə qəbz (almaq) şərtdir, deməli, əgər bir şeyi bir şəxsə bağışlasa, onun ixtiyarına keçirməyincə, hibə gerçəkləşmir. Mal verilən şəxs də malı, hibə edənin izni ilə ixtiyarına keçirməlidir. Amma əgər hibə edilən şey, əvvəlcədən elə hibə olunan şəxsin ixtiyarında olarsa, bu, qəbz (almaq) üçün kifayət edər.

Nəql oluna bilməyən şeylərin – ev və torpaq sahəsi kimi – qəbzi (ixtiyara keçirilməsi) belədir ki, onun təsərrüf etməsinə mane olan şeyləri aradan qaldırsın və malı bağışladığı şəxsin ixtiyarına keçirin. Nəql oluna bilən şeylərdə isə belədir ki, onu həmin şəxsə versin, o da təhvil alsın.

**Məsələ:** ٢٤١٩: Əgər bir şeyi həddi-buluğa çatmayan, yaxud dəli bir şəxsə bağışlasa, bu ikisinin vəlisinin qəbul etməsi və ixtiyarına keçirməsi şərtdir. Amma əgər vəli o ikisinə bağışlasa və öz əlində qalsa, o malın vəlinin ixtiyarında olması, qəbz etmək (almaq) əvəzindən kifayət edər.

**Məsələ:** ٢٤٢٠: Əgər öz qohumlarından birinə bir şey bağışlasa, onun ixtiyarına keçirdikdən sonra onu geri ala bilməz. Həmçinin, hibə edən şəxs, hibə etdiyi şəxsə şərt etsə və o şərtə əməl olunsa, yaxud hibə

olunan şəxs, hibənin əvəzində hibə edənə bir şey vermiş olsa (hibə edən onu geri ala bilməz). Bundan qeyri hallarda hibə olunan malın "eyni" qaldığı bir vaxta qədər bağışladığı malı ala bilər. Amma əgər bağışlanan şey tələf oluba, yaxud başqasına veribsə, yaxud da malda müəyyən dəyişiklik edibsə, (məsələn, ona hibə olunan parçanı rəngləyibsə), onda onu geri ala bilməz.

**Məsələ:** ٢٤٢١: Ər və arvad hibənin lazım olmasında qohumların hökmünə malik deyillər.

**Məsələ:** ٢٤٢٢: Əgər bir şeyi bir nəfərə bağışlayıb o şəxsə şərt etsə ki, (əvəzində) ona bir şey versin, yaxud müəyyən bir iş – caiz olan iş– görsün, (hibənin olunduğu) şəxs bu şərtə əməl etməlidir. Hibə edən şəxs də onun şərtə əməl etməsindən qabaq onu geri ala bilər. Həmçinin, hibənin edildiyi şəxs də şərtə əməl etməsə, yaxud əməl edə bilməsə, hibə edən şəxs onu geri ala bilər.

**Məsələ:** ٢٤٢٣: Əgər hibə edən şəxs, yaxud malın hibə edildiyi şəxs malı ixtiyarına keçirməzdən əvvəl ölərsə, hibə batil olur.

**Məsələ:** ٢٤٢٤: Əgər hibə edən şəxs malı (hibə olunan şəxsin) ixtiyarına keçirdikdən sonra ölsə, onun varisləri onu geri ala bilməzlər. Həmçinin, əgər malın bağışlandığı şəxs ölsə, hibə edən onu geri ala bilməz.

**Məsələ:** ٢٤٢٥: Rücu (hibəni geri almaq) sözlə məsələn, "etdiyim bəxşişdən qayıtdım" - deməklə gerçəkləşdiyi kimi, əməllə də gerçəkləşir, məsələn, qayıtmaq məqsədi ilə onu geri alsın, yaxud bağışladığı şeyi qayıtmaq məqsədi ilə başqasının ixtiyarına keçirsin. Rücunun gerçəkləşməsində hibə olunan şəxsin (bu işi) bilməsi şərt deyildir.

**Məsələ:** ٢٤٢٦: Bir şəxsə bağışladığı mal, əgər şəxsin mülkiyyətində qalsa və malın özündən ayrıla bilən, yaxud əvvəlcədən ayrı olan artım yaranarsa, (məsələn, qoyun doğarsa, yaxud ağac meyvə verərsə) o şəxsin (hibə olunanın) malıdır. Əgər hibə edən şəxs qoyun və ağac kimi şeydə rücu edərsə, quzunu və meyvəni ondan ala bilməz.

## NİKAHIN HÖKMLƏRİ

İzdivac əqdi vasitəsilə kişi və qadın biri-birinə halal olur və o iki qismdir:

١. Daimi.

٢. Qeyri-daimi (müvəqqəti izdivac).

Daimi əqd odur ki, izdivac üçün heç bir müddət tə`yin olunmasın. Bu cür izdivacla əqdə keçirilən qadına «daimə» deyilir.

Qeyri-daimi əqd odur ki, izdivacın müddəti onda müəyyən olunsun. Məsələn, qadını bir saat, ya bir gün, ya bir ay, ya bir il, ya daha artıq müddətə əqd etsinlər. Lakin vacib ehtiyata əsasən, izdivac müddəti kişi və qadının, ya onlardan birinin ömründən çox olmamalıdır. Bu cür əqd olunan qadının «mit`ə» deyilir.

**Əqdin hökmləri**

**Məsələ:** ٢٤٢٧. Daimi və qeyri-daimi olmasından asılı olmayaraq, izdivacda gərək siğə oxunsun, kişi və ya qadının sadəcə razı olması kifayət deyildir. Əqd siğəsini kişi, ya qadının özü oxuya bilər, yaxud onların tərəfindən oxusn deyə, başqasını vəkil edə bilərlər.

**Məsələ:** ٢٤٢٨. Vəkilin kişi olması lazım (vacib) deyildir; qadın da başqası tərəfindən əqd siğəsi oxumaq üçün vəkil ola bilər.

**Məsələ:** ٢٤٢٩. Kişi və qadın vəkilin onların siğələrini oxumasına arxayın olmayınca nikahın hökm və əsərlərinə əməl edə bilməzlər. Vəkilin siğə oxuduğuna güman etmələri kifayət etməz. Əgər vəkil siğəni oxuduğunu desə, bu halda siqə (inanılmış, e`timadlı) və dediyinin əksi güman olunmayan, ya onun sözündən arxayınlıq hasil olan şəxs olsa, kifayət edər. Deyilən bu iki surətdən başqa onun xəbər verməsi ilə kifayətlənmək məhəlli-işkaldır.

**Məsələ:** ٢٤٣٠. Əgər bir qadın bir kəsi vəkil etsə ki, onu məsələn, on günlük bir kişiyə əqd etsin və on günün əvvəlini müəyyən etməsə, vəkil istədiyi vaxt onu on günlüyə o kişiyə əqd edə bilər. Ancaq qadının müəyyən bir gün, ya saatı qəsd etməsi mə`lum olsa, siğəni onun qəsdinə uyğun olaraq oxumalıdır.

**Məsələ:** ٢٤٣١. Bir nəfər hər iki tərəfdən daimi və ya qeyri-daimi əqdin siğəsini oxumaq üçün vəkil ola bilər. Həmçinin, kişi qadının tərəfindən vəkil olaraq onu özü üçün daimi, ya qeyri-daimi əqd edə bilər. Ancaq müstəhəbb ehtiyat budur ki, əqdi iki nəfər oxusun, məxsusən özü üçün əqd etməyə vəkil edildikdə.

**Daimi əqd oxumağın qaydaları**

**Məsələ:** ٢٤٣٢. Əgər daimi əqd siğəsini kişi və qadının özü oxuyursa, əvvəl qadın deməlidir:

زَوَّجْتُكَ نَفْسِي عَلىَ الصِّداقِ الْمَعْلُومِ

«Zəvvəctukə nəfsi ələs-sidaqil-mə`lum» (yə`ni özümü tə`yin olunmuş mehr ilə sənə arvad etdim).

Ondan sonra kişi «icab» və «qəbul»u camaat arasında fasiləsizlik pozulmayacaq şəkildə deməlidir:

قَبِلْتُ التَزْوِيجَ عَلىَ الصِّداقِ المَعْلُوْمِ

«Qəbiltut-təzvicə ələs-sidaqil-mə`lum» (yə`ni tə`yin olunmuş mehr ilə izdivacı qəbul etdim).

Yaxud قَبِلْتُ التَزْوِيجَ «qəbiltut-təzvicə» desə və izdivacı həmin mehr ilə qəbul etdiyini qəsd etsə, əqd səhihdir.

Əgər onların tərəfindən əqd oxumağa başqasını vəkil etsələr və məsələn, kişinin adı Əhməd, qadının adı isə Fatimə olsa, qadının vəkili:

زَوَّجْتُ مُوَكِّلَتِي فاطِمَةَ مُوَكِّلَكَ أَحْمَدَ عَلىَ الصِّداقِ الْمَعْلُومِ

«Zəvvəctu muvəkkiləti Fatimətə muvəkkiləkə Əhmədə ələs-sidaqil-mə`lum» - desə, ondan sonra isə kişinin vəkili camaat arasında fasiləsizlik pozulmayacaq şəkildə:

قَبِلْتُ التَزْوِيجَ لِمُوَكِّلِي أَحْمَدَ عَلَى الصِّداقِ المَعْلُومِ

«Qəbiltut-təzvicə limuvəkkilii Əhmədə ələs-sidaqil-mə`lum» desə əqd səhihdir.

Yaxşı olar ki, qadının vəkili bu cür desin:

زَوَّجْتُ مُوَكِّلَكَ أَحْمَدَ مُوَكِّلَتِي فاطِمَةَ عَلَى الصِّداقِ المَعْلُومِ

«Zəvvəctu muvəkkiləkə Əhmədə muvəkkiləti Fatimətə ələs-sidaqil-mə`lum».

Müstəhəbb ehtiyata əsasən, kişinin dediyi kəlmə qadının dediyi kəlmə ilə uyğun olmalıdır. Məsələn, əgər qadın «zəvvəctu» desə, kişi də gərək «qəbiltut-təzvicə» desin. Buna baxmayaraq, «qəbiltun-nikahə» deməyinin də maneəsi yoxdur.

## MÜVƏQQƏTİ ƏQD OXUMAĞIN QAYDASI

**Məsələ:** ٢٤٣٣. Əgər müvəqqəti əqdin siğəsini kişi və qadın özləri oxumaq istəsələr, müddət və mehriyyəni tə`yin edəndən sonra qadın

زَوَّجْتُكَ نَفْسِي فِي الْمُدَّةِ الْمَعْلُومَةِ عَلَى الْمَهْرِ الْمَعْلُومِ

«Zəvvəctukə nəfsi fil-muddətil-mə`luməti ələl-məhril-mə`lum» - desə və ondan sonra kişi, camaat arasında fasiləsizlik pozulmayacaq şəkildə قَبِلْتُ هكَذا «qəbiltu hakəza» desə, səhihdir. Əgər başqasını vəkil etsələr, əvvəlcə qadının vəkili kişinin vəkilinə

زَوَّجْتُ مُوَكِّلَتِي مُوَكِّلَكَ فِي المُدَّةِ المَعْلُومَةِ عَلَى المَهْرِ المَعْلُومِ

«Zəvvəctu müvəkkiləti muvəkkiləkə fil-muddətil-mə`luməti ələl-məhril-mə`lum» - desə və ondan sonra kişinin vəkili camaat arasında fasiləsizlik pozulmayacaq şəkildə

قَبِلْتُ لِمُوَكِّلِي هٰكَذا «qəbiltu li muvəkkili hakəza» desə, səhih olar.

## ƏQDİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢٤٣٤. İzdivac əqdinin bir neçə şərti vardır:

١. Vacib ehtiyata əsasən, əqd ərəbcə düzgün oxunmalıdır və əgər qadın və kişinin özü siğəni ərəbcə düzgün oxuya bilməsələr, ərəb dilindən qeyri bir dildə oxuya bilərlər. Lakin elə bir kəlmə deməlidirlər ki, «zəvvəctu» və «qəbiltu»nun mə`nasını çatdırsın. Hərçənd müstəhəbb ehtiyat budur ki, mümkün olan surətdə siğəni ərəbcə düzgün oxuya bilən bir kəsi vəkil etsinlər.

٢. Qadın və kişi, ya onların vəkili siğəni oxuyanda inşa qəsdi etsinlər. Yə`ni əgər siğəni kişi və qadının özü oxuyarsa, qadın «zəvvəctukə nəfsi» deyəndə özünü onun arvadı qərar verdiyini qəsd etsin, kişi də «qəbiltut-təzvicə» deyərkən onu özü üçün arvadlığa qəbul etdiyini qəsd etsin. Əgər siğəni kişi və qadının vəkilləri oxusalar «zəvvəctu» və «qəbiltu» deyərkən onları vəkil etmiş kişi və qadının bir-birinin ər-arvadı olmasını qəsd etməlidirlər.

٣. Siğəni oxuyan kəs ağıllı olmalıdır. Baliğ olmayan, amma əqd inşa etməyə qadir olan bir kəs, vəlisinin icazə və izni olmadan özü üçün siğə oxusa, batildir. Vəlinin icazə və izni ilə olsa, maneəsi yoxdur. Siğəni başqasının vəkili olaraq oxuduğu surətdə əqdi səhihdir.

٤. Əgər qadının və ya kişinin vəkili, ya onların vəlisi siğəni oxusalar əqd oxuyarkən kişi və qadını müəyyən etməlidirlər, məsələn, onların adını çəkib, ya onlara işarə etsinlər. Deməli, bir neçə qızı olan kəs, bir kişiyə «zəvvəctukə ihda bənati», yə`ni «qızlarımdan birini sənə arvad etdim» - desə və o da «qəbiltu», yə`ni «qəbul etdim» - desə, əqd zamanı qızın hansı biri olduğunu tə`yin etmədiyi üçün, əqd batildir.

٥. Kişi və qadın izdivaca razı olmalıdırlar. Lakin qadın zahirən ikrah hissi ilə izn versə və qəlbən razı olduğu mə`lum olsa, əqd səhihdir.

**Məsələ:** ٢٤٣٥. Əgər əqd oxuyarkən bir hərfi səhv oxunsa və nəticədə onun mə`nası dəyişsə, əqd batildir.

**Məsələ:** ٢٤٣٦. Ərəb dili qaydalarını bilməyən bir kəs, əgər əqdi səhih oxusa və əqddəki hər kəlmənin mə`nasını bilərək hər kəlmədən onun öz mə`nasını qəsd etsə, əqd oxuya bilər.

**Məsələ:** ٢٤٣٧. Əgər bir qadını bir kişiyə, onların razılığı olmadan əqd etsələr və sonra kişi və qadın o əqdə icazə versələr, əqd səhihdir.

**Məsələ:** ٢٤٣٨. Əgər kişi və qadını, ya onlardan birini izdivaca məcbur etsələr, əqdi onların özü oxuduğu təqdirdə, əgər əqd

oxunduqdan sonra razı olsalar, əqd səhihdir. Lakin əgər (əqdi) başqası oxuyarsa, icazə versələr, məsələn, «o əqdə razıyıq» - desələr, əqd səhihdir.

**Məsələ:** ٢٤٣٩. Ata və ata tərəfdən olan babası özünün baliğ olmayan, yaxud dəlilik halında baliğ olan övladlarını evləndirə bilərlər. Uşaq baliğ olandan, ya dəli ağıllanandan sonra edilən izdivacın onun üçün bir fəsadı olmadığı halda onu poza bilməzlər. Əgər fəsadı olsa, onu qəbul, ya rədd edə bilərlər. Lakin baliğ olmayan qız və oğlanı ataları bir-birlərinin əqdinə keçirsələr, əgər baliğ olandan sonra icazə verməsələr, gərək talaq, ya yenidən əqd oxunması əsasında olan ehtiyat tərk olunmasın.

**Məsələ:** ٢٤٤٠. Həddi-buluğa çatmış və rəşidə – yə`ni öz məsləhətini ayırd edə bilən qız – ərə getmək istəsə, bu halda bakirədirsə, vacib ehtiyata əsasən, öz atasından, ya ata tərəfdən olan babasından icazə almalıdır. Ana və qardaşın icazəsi lazım (vacib) deyildir.

**Məsələ:** ٢٤٤١. Əgər qız bakirə olmasa, ya bakirə olsa, ancaq ata, ya ata tərəfdən olan babasından icazə almaq mümkün olmasa, ya çətinliyi olsa və qızın ərə getməyə ehtiyacı olsa, ata və ata tərəfdən olan babasının icazəsi lazım deyildir.

**Məsələ:** ٢٤٤٢. Əgər ata, ya ata tərəfdən olan babası özünün baliğ olmayan oğlu üçün arvad alsa, oğlan baliğ olandan sonra o qadının xərcini verməlidir. Vacib ehtiyata əsasən, baliğ olmazdan qabaqkı xərclərdə, oğlan ləzzət almağa qabil olubsa və qız da ərinə ləzzət verməyə qabil olubsa, bu surətdə sülh, ya ondan başqa bir vasitə ilə xərcin öhdəsindən çıxdığına əminlik hasil etməlidir.

**Məsələ:** ٢٤٤٣. Əgər ata, ya ata tərəfdən olan babası öz baliğ olmayan oğlu üçün qız alsa, əqd zamanı oğlanın malı olan təqdirdə qadının mehrinə borcludur. Əgər əqd zamanı malı olmasa, ata, ya ata tərəfdən olan babası qadının mehriyyəsini verməlidir.

## ƏQDİN POZULMASINA SƏBƏB OLA BİLƏCƏK EYBLƏR

**Məsələ:** ٢٤٤٤. Kişi əgər əqddən sonra aşağıdakı yeddi eybdən birinin qadında olduğunu başa düşsə, əqdi poza bilər:

١-Dəlilik;

٢-Xora xəstəliyi;

٣-Bərəs xəstəliyi;

٤-Korluq;

٥-İflic, ya şil olması; amma onun şil olması camaat arasında eyb sayılmayacaq dərəcədə olsa, bu hal istisnadır.

٦-İfza – yə`ni bövl ilə heyz, yaxud heyz ilə ğait yolunun bir olması.

٧-Onun fərcində yaxınlıq etməyə mane olacaq ət, ya sümüyün olması.

**Məsələ:** ٢٤٤٥. Əgər qadın əqddən sonra ərinin əqddən əvvəl dəli olduğunu, ya onda kişilik alətinin olmadığını, ya əqddən sonra və yaxınlıq etməzdən əvvəl kişilik alətinin kəsildiyini bilsə; ya yaxınlıq edə bilməyəcəyi bir xəstəliyinin olduğunu başa düşsə, hərçənd onun xəstəliyi əqddən sonra və yaxınlıq etməzdən əvvəl əmələ gəlsə də, əqdi poza bilər. Lakin əri yaxınlıq edə bilmədiyi surətdə qadın şəriət hakiminə müraciət etməlidir. Şəriət hakimi isə kişiyə bir il müddətində möhlət verər; əgər bu müddət ərzində kişi o qadınla, yaxud (əqdinə keçirdiyi) başqa bir qadınla yaxınlıq edə bilməzsə, bundan sonra qadın əqdi pozar.

Amma kişi, əqddən sonra istər yaxınlıqdan əvvəl, istərsə sonra dəli olsa, vacib ehtiyata əsasən, qadın ondan talaqsız ayrıla bilməz. Əgər kişilik aləti yaxınlıq edəndən sonra kəsilmiş olarsa, yaxud yaxınlıq etməyə mane olan bir xəstəlik yaxınlıq edəndən sonra tapılarsa, qadın əqdi poza bilməz.

**Məsələ:** ٢٤٤٦. Əgər qadın əqddən sonra kişinin xayalarının çıxarıldığını başa düşsə, qadın aldadılmış olduğu, tədlisə yol verildiyi surətdə əqdi poza bilər. Amma tədlisdən – aldadılmadan başqa hallarda isə, əqdi pozmaq istəsə, talaqla olan ehtiyatı tərk etməməlidir.

**Məsələ:** ٢٤٤٧. Əgər qadın, kişinin yaxınlıq edə bilmədiyi üçün əqdi pozarsa, əri mehrin yarısını verməlidir. Lakin əgər deyilmiş eyblərdən başqa birinə görə kişi, ya qadın əqdi pozarsa, bu halda kişi qadınla yaxınlıq etməmişsə, ona bir şey vacib deyildir. Əgər yaxınlıq etmiş olsa, mehrin hamısını verməlidir. Amma qadının özü tədlis etdiyi (kişini aldatdığı) surətdə kişiyə bir şey vacib deyildir.

## İZDİVAC EDİLMƏSİ HARAM OLAN QADINLAR

**Məsələ:** ٢٤٤٨. İnsana məhrəm olan qadınlarla – ana, bacı, xala, qız, bibi, qardaşın və bacının qızı və arvadın anası (qayınana) kimi qadınlarla izdivac etmək haramdır.

**Məsələ:** ٢٤٤٩. Əgər bir kəs bir qadını özü üçün əqd etsə, onunla yaxınlıq etməmiş olsa da, o qadının anası və anasının anası, atasının anası və nə qədər yuxarıya getsə, o kişiyə məhrəm sayılırlar.

**Məsələ:** ٢٤٥٠. Əgər bir qadını əqd edib, onunla yaxınlıq etsə, o qadının qızı, oğul və qız nəvəsi nə qədər aşağı getsə də; istər əqd zamanı olsunlar, istərsə də sonradan dünyaya gəlsinlər, o kişiyə məhrəm olurlar.

**Məsələ:** ٢٤٥١. Əgər özü üçün əqd etdiyi qadınla yaxınlıq etməsə, qadın onun əqdində olduğu vaxta qədər onun qızı ilə izdivac edə bilməz.

**Məsələ:** ٢٤٥٢. İnsanın xala və bibisi, atasının xalası və bibisi, ata tərəfdən, ya ana tərəfdən olan babasının xalası və bibisi, anasının xalası

və bibisi, anasının anasının, ya anasının atasının bibisi və xalası; hər nə qədər yuxarıya getsə, insana məhrəmdirlər.

**Məsələ:** ٢٤٥٣. Ərin atası, babası nə qədər yuxarı getsə; və onun oğlu, qız və oğul nəvəsi, hər nə qədər aşağı getsə belə; istər əqd zamanı olmuş olsunlar, istərsə də əqddən sonra dünyaya gəlmiş olsunlar, onun arvadına məhrəmdirlər.

**Məsələ:** ٢٤٥٤. Əgər insan bir qadını özü üçün əqd etsə, istər daimi, istərsə qeyri-daimi olsun, qadın onun əqdində olduğu müddətdə o qadının bacısı ilə izdivac edə bilməz.

**Məsələ:** ٢٤٥٥. Talaq məsələlərində deyiləcək tərtiblə, kişi əgər öz arvadına ric`i talaq verərsə, iddə əsnasında onun bacısını əqdinə keçirə bilməz. Həmçinin, vacib ehtiyata əsasən, əqd müvəqqəti olduğu surətdə də belədir. Lakin bain talaqının iddəsində ikən o qadının bacısı ilə izdivac edə bilər.

**Məsələ:** ٢٤٥٦. İnsan öz arvadının icazəsi olmadan onun bacısı qızı, ya qardaşı qızı ilə izdivac edə bilməz. Lakin arvadın icazəsi olmadan onlarla əqd etsə və sonra arvad icazə versə, işkalı yoxdur.

**Məsələ:** ٢٤٥٧. Qadın, öz ərinin onun bacısının, ya qardaşının qızı ilə əqd etdiyini başa düşüb bir söz deməsə və onun susması razılığından hekayət etməsə və sonradan da razılıq verməsə onların əqdi batildir.

**Məsələ:** ٢٤٥٨. Əgər insan öz xalası qızını almamışdan öncə (nəuzu billah!) onun anası ilə zina etsə, artıq o qızla izdivac edə bilməz. Vacib ehtiyata əsasən, bibisi qızının da hökmü belədir.

**Məsələ:** ٢٤٥٩. Əgər bibisi, ya xalası qızı ilə evlənsə və onlarla yaxınlıq edəndən sonra onların anaları ilə zina etsə, bu iş onların ayrılmasına səbəb olmaz. Lakin onlarla yaxınlıq etməmişdən əvvəl anaları ilə zina etmiş olsa, vacib ehtiyata əsasən, onlardan talaq ilə ayrılmalıdır.

**Məsələ:** ٢٤٦٠. Əgər öz xalasından və bibisindən başqa bir qadınla zina etsə, müstəhəbb ehtiyat budur ki, onun qızı ilə izdivac etməsin. Əgər bir qadını əqd etsə və onunla yaxınlıq etməmiş onun anası ilə zina etsə, vacib ehtiyata əsasən, o qadından talaq vasitəsilə ayrılsın. Lakin onunla yaxınlıq etdikdən sonra onun anası ilə zina etsə, o qadından ayrılması lazım (vacib) deyildir.

**Məsələ:** ٢٤٦١. Müsəlman bir qadın kafir bir kişiyə ərə gedə bilməz. Həmçinin, müsəlman kişi də kitab əhli olmayan kafir qadınlarla izdivac edə bilməz. Ancaq kitab əhli olan qadınları, yə`ni yəhudi və xristianları siğə etməyin eybi yoxdur. Müstəhəbb ehtiyata əsasən, onlarla daimi izdivac etməsin. Amma kişi öz müsəlman arvadının razılığı olmadan əhli-kitab qadınları ilə daimi və ya müvəqqəti izdivac edə bilməz. Özlərini müsəlman bilən, amma kafir hökmündə olan bə`zi

firqələr – xəvaric, ğulat və nəvasib kimi – müsəlman kişi və qadın onlarla müvəqqəti, yaxud daimi izdivac edə bilməz.

**Məsələ:** ٢٤٦٢. Əgər ric`i talaq iddəsində olan bir qadınla zina etsə, o qadın ehtiyata əsasən, ona haram olar. Əgər müvəqqəti əqd iddəsində, ya bain talaq və ya vəfat iddəsində olan qadınla zina etsə, sonradan onu əqd edə bilər. Bain, ric`i talaqının, müvəqqəti əqd və vəfat iddəsinin mə`nası talaq hökmlərində deyiləcəkdir.

**Məsələ:** ٢٤٦٣. Əgər bir kəs iddədə olmayan ərsiz bir qadınla zina edərsə, sonradan onu özü üçün əqd edə bilər. Ancaq vacib ehtiyat budur ki, zina etməsi aşkar olan qadınla izdivacdan çəkinsin, yalnız onun tövbə etməsi mə`lum olan hal istisnadır. Vacib ehtiyata əsasən, o qadının heyz görməsinə qədər gözləyib sonra onu əqd etsin. Əgər başqası o qadını əqd etmək istəsə, bu, müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٢٤٦٤. Əgər başqasının iddəsində olan bir qadını özü üçün əqd etsə, bu halda qadın və kişi, ya onlardan biri qadının iddəsinin başa çatmadığını bilsə və iddədə olan qadını əqd etməyin haram olmasını bilsə, kişi əqddən sonra o qadınla yaxınlıq etməsə də belə, həmin qadın əbədi olaraq o kişiyə haram olar.

**Məsələ:** ٢٤٦٥. Əgər başqasının iddəsində olan bir qadını özü üçün əqd edib onunla yaxınlıq etsə, həmin qadın ona əbədi olaraq haram olur, hətta həmin qadının iddədə olduğunu, yaxud iddədə olan qadını əqd etməyin haram olmasını bilməsə də belə.

**Məsələ:** ٢٤٦٦. Əgər insan bir qadının ərli olduğunu və onunla izdivacın haram olduğunu bilərək onunla izdivac etsə, gərək ondan ayrılsın və o qadın ona əbədi olaraq haram olur. Həmçinin əgər o qadının ərli olduğunu bilməyib, izdivacdan sonra yaxınlıq etdikdə də həmin hökmdədir.

**Məsələ:** ٢٤٦٧. Ərli olan bir qadın zina etdikdə öz ərinə haram olmur. Əgər tövbə etməyib öz əməlində qalarsa, yaxşı olar ki, əri ona talaq versin, lakin hər bir surətdə onun mehriyyəsini verməlidir.

**Məsələ:** ٢٤٦٨. Talaq verilmiş olan, eləcə də müddəti başa çatmış, ya əri tərəfindən müddətin qalanı bağışlanmış qadın, əgər bir müddətdən sonra ərə getsə və sonra ikinci ərinin əqdi zamanı əvvəlki ərindən olan iddəsinin tamam olub-olmamasında şəkk etsə, bu halda şəkk edərkən əqd zamanı iddədə olmağından qafil olmamasına ehtimal etdiyi surətdə ikinci ərlə əqdi səhihdir. Bu surətdən başqasında əqdin səhihliyi məhəlli-işkaldır.

**Məsələ:** ٢٤٦٩. Həddi-buluğa yetişmiş halda livat verən oğlanın anası, bacısı və qızı livat edənə haramdır. Həmçinin, ehtiyata əsasən, onun nənəsi və qızının qızı da eyni hökmdədir. Əgər livat olunan baliğ olub, yaxud livat edən baliğ olmasa, livat edən deyilən kəslərlə əqd etmiş olsa, vacib ehtiyata əsasən, qadın kişidən talaqla ayrılmalıdır.

Həmçinin, livat edənin livat olunanın nənəsi və qızının qızı ilə əqd edərsə də; və əgər livat zamanı düxul olmasına güman, ya şəkk etsə, ona haram olmur.

**Məsələ:** ٢٤٧٠. Əgər bir oğlanın anası, ya bacısı ilə izdivac edəndən sonra o oğlanla livat etsə, onlar (ana-bacısı) ona (livat edənə) haram olmur, hərçənd müstəhəbb ehtiyat budur ki, öz arvadından məxsusən, o oğlanın bacısı olduğu surətdə, talaqla ayrılsın. Vacib ehtiyat budur ki, əgər livat edən öz arvadına talaq verərsə, sonradan (ikinci dəfə) onunla izdivac etməsin.

**Məsələ:** ٢٤٧١. Əgər bir şəxs ehram halında bir qadınla izdivac etsə, onun əqdi batildir və əgər ehramlı halda izdivacın haram olduğunu bilərək izdivac etsə o qadın əbədi olaraq ona haram olur.

**Məsələ:** ٢٤٧٢. Əgər ehram halında olan bir qadın, ehram halında olmayan bir kişi ilə izdivac etsə, onun əqdi batildir və əgər qadın ehram halında izdivacın haram olduğunu bilirmişsə, ehtiyata əsasən, o kişi ona əbədi haram olur.

**Məsələ:** ٢٤٧٣. Əgər kişi həcc və müfrədə ümrəsinin əməllərindən biri olan nisa təvafını etməsə, öz arvadı və ehram səbəbilə ona haram olan digər qadınlar ona halal olmaz. Həmçinin, əgər qadın nisa təvafını yerinə yetirməsə, kişi (istər əri, istərsə qeyrisi) ilə evlənmək ona halal olmaz. Lakin nisa təvafını sonradan yerinə yetirsələr, halal olar.

**Məsələ:** ٢٤٧٤. Əqd edilmiş qız baliğ olmayınca, onunla yaxınlıq etmək haramdır. Lakin qızın ٩ yaşı tamam olmamışdan öncə onunla yaxınlıq etsə, qız baliğ olandan sonra hətta əgər ifza olmuş olsa da, onunla yaxınlıq haram deyildir. (İfzanın mə`nası ٢٤٤٤-cü məsələdə deyildi).

**Məsələ:** ٢٤٧٥. Üç dəfə əri tərəfindən talaq verilmiş azad bir qadın ərinə (talaq verənə) haram olur. Lakin talaq hökmlərində deyiləcək şərtlər daxilində başqa bir kişi ilə izdivac etsə, ikinci ərinin vəfatından, ya talaq verməsindən və iddəsi tamam olandan sonra birinci əri onunla yenidən izdivac edə bilər.

## DAİMİ ƏQDİN HÖKMLƏRİ

**Məsələ:** ٢٤٧٦. Daimi əqd olunmuş qadın ərinin icazəsi olmadan evdən çıxmamalıdır və ərinin hər bir (şər`i) ləzzət alması üçün özünü ona təslim etməlidir. Eləcə də şər`i üzrü olmadan onunla yaxınlıq etməsinin qabağını almamalıdır. Əgər bu vəzifələri yerinə yetirsə, qadının, adət üzrə olan yemək, libas, mənzil və s. kimi ehtiyaclarını tə`min etməsi ərinə vacibdir. Əgər əri bu ehtiyacları ödəməsə, istər qüdrəti olsun, istərsə olmasın, o qadına borclu qalır.

**Məsələ:** ٢٤٧٧. Əgər qadın yuxarıda deyilmiş işlərdə ərinə itaət etməsə, günahkardır və ərindən yemək, libas, ev və sair tələbatları ondan

tələb etmək və onunla yatmaq (yaxınlıq etmək) haqqı yoxdur. Lakin mehriyyəsi aradan getmir.

**Məsələ:** ٢٤٧٨. Kişi öz arvadını ev işlərini görməyə məcbur edə bilməz.

**Məsələ:** ٢٤٧٩. Qadının səfər xərcləri, əgər onun vətənindəki xərclərindən artıq olarsa, ərinin öhdəsinə deyildir. Amma əgər onun səfəri, camaat arasında nəfəqəsi sayılsa, məsələn, xəstələnsə, müalicəsi səfər etməyə bağlı olsa, bu surətdə səfərin normal xərcləri kişinin öhdəsinədir. Eləcə də kişi öz qadınını səfərə aparmaq meyli olduqda, xərc kişinin öhdəsindədir.

**Məsələ:** ٢٤٨٠. Xərcləri ərinin öhdəsinə olan bir qadının xərci əri tərəfindən ödənilməsə, onu tələb etdikdən və kişi də imtina edəndən sonra qadın öz xərcini icazəsiz olaraq kişinin malından götürə bilər. Vacib ehtiyata əsasən, – əgər mümkün olsa – o xərcləri götürmək üçün şəriət hakimindən icazə alsın. Əgər kişinin malından götürə bilməsə, onu «hisbiyyə» işlərinin məs`ulunun vasitəsilə bu işə məcbur etmək müyəssər olmasa, bu halda öz məişəti üçün vəsait əldə etmək məcburiyyətində qalarsa, onları əldə edərkən ərinin itaətində dayanmaq ona vacib deyildir.

**Məsələ:** ٢٤٨١. Kişi, vacib ehtiyata əsasən, hər dörd gecədən bir, gecə öz daimi arvadının yanında qalmalıdır. Lakin əgər iki arvadı olmuş olsa, birinin yanında bir gecə qalarsa digərinin yanında dörd gecə içərisində bir gecə qalması vacibdir.

**Məsələ:** ٢٤٨٢. Kişi dörd aydan çox öz cavan və daimi arvadı və vacib ehtiyata əsasən, cavan olmayan arvadı ilə də yaxınlıq etməyi tərk edə bilməz. Amma qadının razılığı ilə olarsa, yaxınlıq etməyin kişiyə zərəri və ya çətinliyi varsa və bu (zərəri və ya çətinlik) qadını narahat etmirsə; ya qadın naşizədirsə, ya izdivac əqdi vaxtı yaxınlıq etməyin ixtiyarının kişidə olacağını şərt edərsə, eybi yoxdur (yaxıınlığı, deyilən müddətdə tərk edə bilər).

**Məsələ:** ٢٤٨٣. Əgər daimi əqddə mehriyyəni müəyyən etməsələr, əqd səhihdir. Ancaq kişi qadınla yaxınlıq etsə, gərək onun mehriyyəsini, onun kimi olan qadınların mehrinə uyğun şəkildə versin. Müvəqqəti əqddə isə mehr müəyyən edilmədikdə əqd batildir.

**Məsələ:** ٢٤٨٤. Əgər daimi əqd oxuyarkən mehrin verilməsi üçün müddət müəyyən edilməzsə, qadın mehriyyəni almazdan qabaq kişi ilə yaxınlıq etməkdən imtina edə bilər, istər ərin mehriyyəni verməyə qüdrəti olsun, istərsə də olmasın. Lakin əgər mehriyyəni almamış yaxınlıq etməyə razı olsa və əri onunla yaxınlıq etsə, artıq şər`i bir üzrü olmadan ərinin onunla yaxınlıq etməsinə mane ola bilməz.

## MÜTƏ (MÜVƏQQƏTİ İZDİVAC)

**Məsələ:** ٢٤٨٥. Ləzzət almaq qəsdi ilə olmasa da, qadını siğə etmək səhihdir.

**Məsələ:** ٢٤٨٦. Vacib ehtiyata əsasən, qadının razı olduğu hallar istisna olmaqla, ər dörd aydan çox öz siğəsilə yaxınlıq etməyi tərk etməsin.

**Məsələ:** ٢٤٨٧. Siğə olunmuş qadın əqddə ərinin onunla yaxınlıq etməyəcəyini şərt edərsə, onun şərti və əqdi səhihdir, ər ondan yalnız sair ləzzətlər ala bilər. Lakin sonradan qadın yaxınlıq etməyə razı olsa, əri onunla yaxınlıq edə bilər.

**Məsələ:** ٢٤٨٨. Siğə olunmuş qadın, əgər hamilə olsa da belə xərclik almağa haqqı yoxdur, amma əgər müt`ə əqdi, yaxud digər bir lazım əqddə; eləcə də, əqdin bərqərar olduğu vaxta qədər caiz bir əqd zamanı şərt etmiş olsalar (bu halda haqqı vardır).

**Məsələ:** ٢٤٨٩. Siğə olunmuş qadının ərilə yaxınlıq etməyi tələb etməyə haqqı yoxdur, ərindən irs aparmır və əri də ondan irs aparmır. Ancaq irs aparmağı şərt etdikləri halda, şərt edən kəs irs aparar.

**Məsələ:** ٢٤٩٠. Siğə olunmuş qadın əri ilə birlikdə yatmaq (yaxınlıq etmək) və xərclik haqqına malik olmadığını bilməsə də, onun əqdi səhihdir və bilmədiyi üçün ərinin üzərində hər hansı bir haqq əmələ gəlməz.

**Məsələ:** ٢٤٩١. Siğə ilə əqd olunmuş qadın ərinin icazəsi olmadan evdən çıxa bilər, lakin icazəsiz evdən çıxmaqla ərinin haqqı aradan gedərsə, bu iş haramdır.

**Məsələ:** ٢٤٩٢. Əgər qadın bir kişini müəyyən müddət və məbləğə onun özünə siğə etmək üçün vəkil edərsə, kişi isə onu öz daimi əqdinə keçirsə, ya müəyyən olunmuş müddətə və məbləğə deyil, başqa müddət və məbləğə siğə etsə, qadın bunu başa düşərkən icazə verərsə əqd səhihdir, əks təqdirdə batildir.

**Məsələ:** ٢٤٩٣. Əgər ata, ya ata tərəfdən olan baba bir qadını, məsələn, bir saatlıq az bir müddətə, ləzzət almaq qabiliyyətinə malik olan oğluna məhrəm olmaq üçün əqd etsə, səhihdir. Ata, ya ata tərəfdən olan baba o oğlanın xeyir və məsləhətinə riayət etməklə müddəti qadına bağışlaya bilər. Həmçinin, ata, ya ata tərəfdən olan baba öz həddi-buluğa çatmayan və ləzzət alınmaq qabiliyyəti olan qızını qeyd olunan müddətdə məhrəm olmaq üçün bir kəsə əqd edə bilər. Hər iki surətdə əqdin uşaq üçün fəsadlı olmaması mö`təbərdir (şərtdir).

**Məsələ:** ٢٤٩٤. Əgər ata, ya ata tərəfdən olan baba başqa yerdə olan və diri, yoxsa ölü olduqlarını bilmədikləri uşaqlarını məhrəm olmaq üçün bir kəsə əqd etsələr, bu halda izdivac müddətində əqd olunmuş uşaq ləzzət alınmağa qabiliyyəti olan surətdə zahirən, məhrəmçilik hasil olur. Belə ki, sonradan o qızın, əqd zamanında diri olmaması mə`lum

olarsa, əqd batildir və əqd vasitəsilə zahirən məhrəm olanlar naməhrəmdirlər.

**Məsələ:** ٢٤٩٥. Əgər kişi siğə müddətini qadına bağışlasa, onunla yaxınlıq etmiş olduğu təqdirdə qərara aldıqları şeylərin (mehriyyənin) hamısını ona verməlidir. Əgər yaxınlıq etməyibsə mehriyyənin yarısını ona verməlidir, bütün mehriyyəni verməsi isə müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٢٤٩٦. Kişi özünün müt`əsi olub, müddəti tamam olan, ya müddətini bağışladığı, lakin hələ iddəsi tamam olmayan qadını öz daimi əqdinə, yaxud ikinci dəfə müvəqqəti əqdinə keçirə bilər.

## BAXMAĞIN HÖKMLƏRİ

**Məsələ:** ٢٤٩٧. Kişinin naməhrəm qadının bədəninə və saçlarına baxmağı haramdır – istər ləzzət qəsdi ilə olsun, istərsə də ləzzət qəsdi olmasın; istər harama düşmə qorxusu olsun, istərsə də olmasın. Naməhrəm qadının üzünə və əllərinə baxmaq isə, ləzzət qəsdi ilə olsa və ya harama düşmək qorxusu olsa, haramdır. Müstəhəbb ehtiyat budur ki, ləzzət almaq qəsdi və harama düşmə qorxusu olmasa da, üzünə və biləyə qədər əllərinə də baxmasın. Həmçinin, qadının da naməhrəm kişinin bədəninə baxması haramdır. Amma qadının kişinin başı, üzü, boynu, əlləri və ayaqlarının saqı kimi, kişilərin mütəşərriə və dindarların sirəsində örtülməyən yerlərinə ləzzət məqsədi olmadan və harama düşmək qorxusu yaranmadan baxması caizdir.

**Məsələ:** ٢٤٩٨. Bir kəs tərəfindən öz bədənlərini naməhrəmdən örtməyi əmr edildikdə məhəl qoymayacaq qadınların – istər müsəlman, istərsə də kafir qadınların – adətən bədənlərinin örtmədiyi yerlərinə ləzzət məqsədi və harama düşmək qorxusu olmadığı surətdə baxmaq caizdir.

**Məsələ:** ٢٤٩٩. Qadın öz bədən və saçını naməhrəm kişilərdən örtməlidir. Həmçinin, üzünü və biləyə qədər əllərini göstərmək məqsədi olsa və kişi də ləzzət məqsədilə baxsa; eləcə də vacib ehtiyata əsasən, qadının bu yerləri göstərmək məqsədi olmasa da, kişinin ləzzət məqsədi ilə baxdığını bildiyi təqdirdə yenə də örtməlidir. Baş və saçı həddi-buluğa çatmayan oğlandan örtmək vacib deyildir. Amma əgər bununla onun şəhvət hissi təhrik olunacaqsa, vacib ehtiyata əsasən, baş və saçlarını da örtməlidir.

**Məsələ:** ٢٥٠٠. Başqasının övrətinə, hətta yaxşını-pisi başa düşən müməyyiz uşağın övrətinə baxmaq, hətta şüşə arxasından, ya güzgüdə, ya saf (duru) suda və ya bu kimi şeylərdə də olsa belə, haramdır. Ər və arvad bir-birinin bütün bədəninə baxa bilərlər. Kafirin övrətinə baxmaq ehtiyat vacibə əsasən, caiz deyildir.

**Məsələ:** ٢٥٠١. Bir-birinə məhrəm olan kişi və qadın ləzzət məqsədi olmadan övrətdən başqa bir-birinin bütün bədəninə baxa bilərlər.

**Məsələ:** ٢٥٠٢. Ləzzət məqsədilə kişinin başqa bir kişinin, qadının başqa bir qadının bədəninə baxması haramdır.

**Məsələ:** ٢٥٠٣. İnsanın tanıdığı və özünü naməhrəmə göstərməsini qadağan edərkən qəbul edən qadının şəklinə baxması ehtiyata əsasən, caiz deyildir.

**Məsələ:** ٢٥٠٤. Əgər qadın başqa bir qadını və ya ərindən başqa bir kişini imalə etmək istəsə, ya onun övrətini suya çəkmək istəsə, gərək əlinə bir şey salsın ki, əli onun övrətinə dəyməsin. Həmçinin, əgər kişi, başqa bir kişini, ya arvadından başqa bir qadını imalə etmək, ya onun övrətini suya çəkmək istəsə, yenə də hökm eynidir.

**Məsələ:** ٢٥٠٥. Əgər qadın çarəsiz qalıb müalicə məqsədilə naməhrəm kişiyə müraciət etsə, kişi də müalicə məqsədilə ona baxmağa məcbur olsa və əlini onun bədəninə vursa, caizdir. Lakin baxmaqla müalicə edə bilərsə, əlini ona vurmamalıdır. Əgər əl vurmaqla müalicə edə bilərsə, ona baxmamalıdır. Hər bir surətdə əgər əlcəklə müalicə edə bilərsə, gərək əlini vurmasın.

**Məsələ:** ٢٥٠٦. Əgər insan müalicə üçün bir şəxsə müraciət etmək məcburiyyətində qalsa və o şəxs onun övrətinə baxmağa məcbur olsa, vacib ehtiyata əsasən, ovrətinə güzgü vasitəsilə baxmalıdır. Lakin ovrətə baxmaqdan başqa çarə olmasa və ya güzgüdə baxmağın çox çətinliyi olarsa, baxmağın eybi yoxdur.

## EVLƏNMƏYİN MÜXTƏLİİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢٥٠٧. Evlənməmək vasitəsilə harama düşən şəxsin evlənməsi vacibdir.

**Məsələ:** ٢٥٠٨. Əgər kişi, əqd zamanı qadının bakirə olmasını şərt etsə və əqddən sonra bakirə olmadığı mə`lum olsa; ya qadının e`tirafı etməsilə, ya dəlil-sübut vasitəsilə bakirəliyin əqddən qabaq yaxınlıq etməklə aradan getmiş olduğu mə`lum olsa, kişinin əqdi pozmaq haqqının sabit (sübuta yetməsinin) üstün nəzər olmasına baxmayaraq, ehtiyat vacib budur ki, əgər əqdi pozsa (fəsx etsə), talaq da versin. Kişi istər əqdi qüvvədə saxlasın, istərsə də əqdi pozsun, bu surətdə bakirə qadın ilə qeyri-bakirənin mehr fərqini mülahizə edərək (artıq miqdarı) mehriyyədən çıxa bilər.

**Məsələ:** ٢٥٠٩. Naməhrəm kişi və qadının bir kəsin, hətta müəyyiz uşağın belə, olmadığı xəlvət bir yerdə qalması, harama düşmə ehtimalı olduğu surətdə caiz deyildir.

**Məsələ:** ٢٥١٠. Əgər kişi qadının mehriyyəsini əqddə müəyyən etsə və onun qəsdi verməmək olsa və qadının əqdə razılığı da mehrin verilməsi qəsdilə şərtlənməsə əqd səhihdir, lakin mehriyyəni verməlidir.

**Məsələ:** ٢٥١١. İslamdan üz döndərib kafir olan bir müsəlman mürtəd adlandırılır. (Küfrün mə`nası ١٠٧-ci məsələdə deyilmişdir.)

**Mürtəd iki qismdir: fitri və milli.**

Fitri mürtəd – hər ikisi, ya biri müsəlman olan ata-anadan dünyaya gələn həddi-buluğa yetdikdən, ağlı kamil olandan sonra üz ixtiyarı ilə islam dinindən üz döndərənə deyilir.

Milli mürtəd isə kafir ata və anadan dünyaya gələn, sonra islamı qəbul edən və müsəlman olduqdan sonra islamdan üz döndərənə deyilir.

**Məsələ:** ٢٥١٢. Əgər qadın izdivacdan sonra mürtəd olsa bu halda əri onunla yaxınlıq etməmişdirsə, onun əqdi batildir və iddəsi də yoxdur. Həmçinin, əgər yaxınlıq etmiş olsa, amma ٩ yaşı tamam olmamışdırsa, yaxud yaisədirsə, yenə də eyni hökmdədir. Ancaq ٩ yaşı tamam olmuşsa və yaisə deyilsə, (yaisənin mə`nası ٤٤١-ci məsələdə deyilib) talaq hökmlərində deyiləcək qaydaya uyğun olaraq iddə saxlamalıdır; əgər iddənin axırına qədər mürtəd olaraq qalsa, əqd batildir və əgər iddə əsnasında müsəlman olsa, əqdin qalması məhəlli-işkaldır. Vacib ehtiyata əsasən, əgər onunla yaşamaq istəsə, ikinci dəfə əqd etməli, ayrılmaq istədikdə isə talaq verməlidir.

**Məsələ:** ٢٥١٣. Müsəlman övladı olan bir kişi, hətta ata-anasından biri müsəlman olan halda mürtəd olsa, arvadı ona haram olur. Qadın, talaq məsələlərində deyiləcək vəfat iddəsi qədər iddə saxlamalıdır.

**Məsələ:** ٢٥١٤. Müsəlman olmayan ata-anadan dünyaya gəlmiş bir kişi müsəlman olsa və izdivacdan sonra mürtəd olsa bu halda qadını ilə yaxınlıq etməyibsə, ya qadının ٩ yaşı tamam olmayıbsa, yaxud yaisədirsə, onun əqdi batildir və (qadının) iddəsi də yoxdur. Əgər yaxınlıqdan sonra mürtəd olsa, yaxud qadının ٩ yaşı tamam olmuşsa və yaisə də olmamışdırsa, o qadın talaq məsələlərində deyiləcək qədər talaq iddəsi saxlamalıdır. Əgər iddə tamam olana qədər (əri) müsəlman olmasa, əqd batildir. Amma iddə tamam olmazdan qabaq müsəlman olsa, əqdin qalması məhəlli-işkaldır. Vacib ehtiyata əsasən, onunla yaşamaq istəsə, ikinci dəfə əqd etməli, ayrılmaq istədikdə isə talaq verməlidir.

**Məsələ:** ٢٥١٥. Əgər qadın əqddə kişiyə, onu şəhərdən çıxarmamağı şərt etsə və kişi də qəbul etsə, razılığı olmadan qadını şəhərdən qırağa çıxarmamalıdır.

**Məsələ:** ٢٥١٦. Əgər arvadın əvvəlki ərindən bir qızı olsa, sonrakı əri o qızı, o arvaddan olmayan oğlu üçün əqd edə bilər. Əgər bir kişi bir qızı oğlu üçün alsa o qızın anası ilə izdivac edə bilər.

**Məsələ:** ٢٥١٧. Əgər bir qadın zinadan hamilə olsa, qadının özü, ya onunla zina edən kişi, ya hər ikisi müsəlmandırsa, uşağı siqt etmək

(saldırmaq) o qadına caiz deyildir. Həmçinin, vacib ehtiyata əsasən, müsəlman olmadıqda da caiz deyildir.

**Məsələ:** ٢٥١٨. Əgər bir kəs ərsiz olan və bir kəsin iddəsində olmayan bir qadınla zina etsə, ٢٤٦٣-cü məsələdə deyilmiş qaydada istibra etdikdən sonra onu əqd etsə və ondan uşaq dünyaya gəlsə, uşağın halal, yoxsa haram nütfədən olmasını bilmədiyi surətdə o uşaq işkalsız olaraq halaldan əmələ gəlmişdir. Lakin istibradan əvvəl onu əqd edib yaxınlıq etsə, uşağın halaldan olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٥١٩. Əgər kişi bir qadının iddədə olmasını bilmədən onunla izdivac etsə, bu halda qadın da bilməsə və onlardan uşaq dünyaya gəlsə, halalzadədir və şər`i baxımdan hər ikisinin övladı sayılır. Ancaq qadın iddədə olduğunu bilirmişsə, şər`ən uşaq atanın övladıdır. Bir kəs iddədə olduğunu qəti şəkildə bilərək iddənin tamam olub-olmamasında şəkk etsə, onun hökmü iddədə olduğunu bilənin hökmü kimidir. Hər bir surətdə onların əqdi batildir və biri-birinə haramdırlar.

**Məsələ:** ٢٥٢٠. Əgər qadın «yaisəyəm» - desə, onun sözü qəbul edilməməlidir. Ancaq «ərim yoxdur» - desə, onun sözü qəbul olunur.

**Məsələ:** ٢٥٢١. Əgər qadın «ərim yoxdur» desə və insan onunla izdivac edib sonra bir kəs o qadının ərli olduğunu ona desə, belə ki, həmin kəsin sözü şər`ən sibut olunmasa, onun sözü qəbul edilməməlidir.

**Məsələ:** ٢٥٢٢. Oğlan və ya qız uşağının iki yaşı tamam olmamış atası onu anasından ayıra bilməz. Vacib ehtiyat budur ki, qız uşağını ٧ yaşına qədər anasından ayırmasınlar.

**Məsələ:** ٢٥٢٣. Həddi-buluğa çatmış olan qıza elçi gəlsə, əgər dindarlıq və əxlaq baxımından bəyənilən bir kəs olsa, onu ərə verməkdə tələsmək müstəhəbbdir.

**Məsələ:** ٢٥٢٤. Əgər qadın öz mehriyyəsini başqa arvad almasın deyə, ərinə sülh etsə, qadın mehriyyəni ala bilməz və kişiyə də vacibdir ki, başqa bir qadın almasın.

**Məsələ:** ٢٥٢٥. Zinadan dünyaya gəlmiş bir şəxs əgər evlənsə və uşaq dünyaya gəlsə, o uşaq halazadədir.

**Məsələ:** ٢٥٢٦. Əgər kişi öz qadını ilə Ramazan ayının gündüzündə, yaxud heyz halında yaxınlıq etsə, günah etmiş olsa da, lakin onlardan uşaq dünyaya gəlsə, halalzadədir.

**Məsələ:** ٢٥٢٧. Ərinin, məsələn, səfərdə öldüyünü qəti bilən qadın, talaq hökmlərində deyiləcək qədər vəfat iddəsi saxladıqdan sonra ərə gedərsə və əvvəlki əri (ölməmiş olub) səfərdən qayıtsa, ikinci ərindən ayrılmalıdır və əvvəlki ərinə halaldır. Lakin əgər ikinci əri onunla yaxınlıq etmişdirsə, gərək iddə saxlasın və ikinci əri onun mehriyyəsini onun mislində olan qadınların mehriyyəsinə uyğun olaraq verməlidir, ancaq iddə müddətində xərci (ikinci ərinə) yoxdur.

## SÜD VERMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٢٥٢٨. Əgər bir qadın bir uşağa ٢٥٣٨-ci məsələdə deyiləcək şərtlər daxilində süd versə o uşaq aşağıdakı adamlara məhrəm olar:

١-O qadının özünə ki, ona «süd anası» deyirlər.

٢-O qadının əri ki, süd ona məxsusdur və ona «süd atası» deyirlər.

٣-O qadının ata-anası, nə qədər yuxarı getsə, hətta onun süd ata-anası olsa da belə.

٤-O qadından dünyaya gəlmiş və ya sonradan dünyaya gələcək uşaqlar.

٥-O qadının övdalarının uşaqları və nə qədər aşağı getsə də – istər onun övladlarından dünyaya gəlsin, istərsə də onun övladı o uşaqlara süd vermiş olsun.

٦-O qadının bacı və qardaşı, hətta süd bacı-qardaşı olsalar da; yə`ni süd əmmək vasitəsilə o qadına bacı-qardaş olsalar da.

٧-O qadının əmi və bibisi, süd əmi-bibisi olsa, da.

٨-O qadının dayı və xalası, süd dayı və xalası olsa da.

٩-O qadının ərinin (başqa arvadından olan) uşaqları ki, süd ona (ərə) məxsusdur; və nə qədər aşağı getsələr belə, hətta süd uşaqları olsalar da.

١٠-Qadının süd sahibi olan ərinin ata-anası və nə qədər yuxarı getsələr və süd ata-anası olsalar da.

١١-O qadının süd sahibi olan ərinin bacısı, qardaşı, hətta onun süd bacı-qardaşı olsalar da.

١٢-Süd sahibi olan ərin əmisi, bibisi, xalası, dayısı və nə qədər yuxarı getsələr və onun süd əmisi, süd bibisi, süd xalası və süd dayısı olsalar da.

Həmçinin, sonrakı məsələlərdə deyiləcək şəxslər də süd verməklə məhrəm olurlar.

**Məsələ:** ٢٥٢٩. Əgər bir qadın bir uşağa ٢٥٣٨-ci məsələdə deyiləcək şərtlərlə süd versə, uşağın atası o qadının nəsəbi[١] qızları ilə izdivac edə bilməz. Lakin o qadının süd qızları ilə izdivacı caizdir, amma müstəhəbb ehtiyat budur ki, onlarla da izdivac etməsin. Həmçinin, o daqının ərinin – ki, süd ona məxsusdur – nəsəbi və hətta süd qızlarını belə, özü üçün əqd edə bilməz. Hər iki surətdə əgər onlardan biri hazırda onun arvadı olsa, onun əqdi batildir.

---

١

**Məsələ:** ٢٥٣٠. Əgər bir qadın ٢٥٣٨-ci məsələdə deyiləcək şərtlərlə bir uşağa süd versə, o qadının, süd sahibi olan əri o uşağın bacılarına məhrəm olmur, lakin müstəhəbb ehtiyat budur ki, onlarla izdivac etməsin. Həmçinin, ərin qohumları o uşağın bacı-qardaşına məhrəm olmurlar.

**Məsələ:** ٢٥٣١. Əgər bir qadın uşağa süd versə, o uşağın qardaşlarına məhrəm olmur və həmçinin, o qadının qohumları o uşağın bacı-qardaşına məhrəm olmurlar.

**Məsələ:** ٢٥٣٢. Əgər insan, bir qıza kamil süd vermiş olan bir qadınla izdivac və onunla yaxınlıq etsə, artıq o qızı özü üçün əqd edə bilməz.

**Məsələ:** ٢٥٣٣. Əgər insan bir qızla izdivac etsə, sonradan o qıza kamil süd vermiş qadın ilə izdivac edə bilməz.

**Məsələ:** ٢٥٣٤. İnsan, öz anası və ya nənəsinin kamil süd verdiyi bir qızla izdivac edə bilməz. Həmçinin, əgər insanın atasının (başqa) arvadı onun atasına məxsus olan süd ilə bir qıza süd vermiş olarsa, insan o qızla izdivac edə bilməz. Belə ki, əgər südəmər bir qızı özü üçün əqd etsə, sonra onun anası, ya nənəsi o qıza süd verərsə; ya onun atasının (o biri) arvadı o qıza süd verərsə əqd batil olar.

**Məsələ:** ٢٥٣٥. İnsanin, bacısının, ya qardaşının arvadının, qardaşına məxsus olan süddən kamil süd verdiyi bir qızla izdivac etmək olmaz. Həmçinin, əgər insanın bacısı uşağı, ya qardaşı uşağı, ya bacısı nəvəsi, yaxud qardaşı nəvəsi o qıza süd versə, hökm eynidir.

**Məsələ:** ٢٥٣٦. Əgər bir qadın, öz qızının uşağına kamil süd verərsə, o qız öz ərinə haram olur. Həmçinin, qadın qızının ərinin başqa qadından olan uşağına süd versə, hökm eynidir. Ancaq bir qadın öz oğlunun uşağına süd versə, südəmər uşağın anası, yə`ni o qadının oğlunun arvadı, öz ərinə haram olmaz.

**Məsələ:** ٢٥٣٧. Əgər bir qızın atasının (o biri) arvadı, o qızın ərinin uşağına, atasına məxsus olan süddən süd versə, o qız ərinə haram olur, istər uşaq həmin qızdan, istərsə də başqa arvaddan olsun.

## MƏHRƏMLİYƏ SƏBƏB OLAN SÜDVERMƏNİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢٥٣٨. Məhrəmliyə səbəb olan südvermənin ٨ şərti vardır:

١-Uşağın süd əmdiyi qadın diri olsun; Deməli, ölmüş qadının döşündən süd yesə onun (məhrəmliyə) tə`siri yoxdur.

٢-O qadının südü uşaq təvəllüdündən olsun və haramdan olmasın. Deməli, əgər zina vasitəsilə əmələ gələn südü başqa bir uşağa versə, o süd vasitəsi ilə uşaq bir kəsə məhrəm olmaz.

٣-Uşaq südü onun döşündən əmsin. Deməli, əgər südü onun boğazına töksələr, (məhrəmliyə) tə`siri yoxdur.

٤-Süd xalis olmalı və başqa bir şeylə qarışmamalıdır.

٥-Süd bir ərdən olmalıdır. Deməli, əgər süd verən qadına talaq verilsə, sonra başqa bir ərə getsə və ondan hamilə olsa, doğana qədər birinci ərindən olan süd qalsa və məsələn, doğmamışdan öncə əvvəlki ərinə məxsus olan süddən ٨ dəfə, doğandan sonra isə ikinci ərinə məxsus olan süddən ٧ dəfə uşağa versə o uşaq heç kəsə məhrəm olmaz.

٦-Uşaq südü qusmamalıdır. Əgər qusarsa, ehtiyata əsasən, süd əmmək vasitəsilə o uşağa məhrəm olan şəxslər onunla evlənməməli və ona məhrəm nəzəri ilə baxmamalıdırlar.

١٥ dəfə, ya bir gecə-gündüz, sonrakı məsələdə deyiləcək kimi, doyunca süd əmməlidir, yaxud ona o qədərdə süd versinlər ki, «o südlə sümüyü bərkiyib və bədəninə ət əmələ gəlib» - desinlər. Əgər ona ١٠ dəfə süd versələr, ehtiyat müstəhəbbə əsasən, süd vasitəsilə ona məhrəm olan şəxslər onunla evlənməsinlər və ona məhrəm nəzəri ilə baxmasınlar.

٨-Uşağın iki yaşı tamam olmamalıdır. Əgər iki yaşı tamam olandan sonra ona süd versələr, heç bir kəsə məhrəm olmaz. Hətta əgər, misal üçün, iki yaşı tamam olmazdan öncə ٨ dəfə və ondan sonra ٧ dəfə süd içsə, heç bir kəsə məhrəm olmaz. Ancaq süd verən qadının doğmasından iki ildən çox vaxt keçsə və südü qalarsa, onu bir uşağa verdiyi təqdirdə uşaq deyilən şəxslərə məhrəm olar.

**Məsələ:** ٢٥٣٩. Uşaq bir gecə-gündüz ərzində yemək yeməməli və başqasının südündən əmməməlidir. Lakin əgər çox az miqdarda yemək yesə və onun qədəri camaat arasında «arada yemək yedi» - deyilməyəcək qədər az olsa, eybi yoxdur. Həmçinin, ١٥ dəfəni bir qadının südündən əmməlidir və ١٥ dəfə arasında başqa bir kəsin südünü əmməməlidir. Hər dəfə də fasiləsiz olaraq kamil süd əmməlidir. Lakin əgər süd əmərkən nəfəs dərsə, ya bir az gözləyib, yenidən süd əmsə, belə ki, südü əmməyə başladığı birinci vaxtdan doyana qədər camaatın nəzərində həqiqətən bir dəfə hesab edilsə, eybi yoxdur.

**Məsələ:** ٢٥٤٠. Əgər qadın öz ərinə məxsus olan südlə bir uşağa süd versə və sonra başqa ərə gedib ikinci ərə məxsus olan südü başqa bir uşağa versə, o iki uşaq bir-birinə məhrəm olmazlar. Amma yaxşı olar ki, onlar bir-biri ilə izdivac etməsinlər və bir-birlərinə məhrəm nəzəri salmasınlar.

**Məsələ:** ٢٥٤١. Əgər qadın öz ərinə məxsus olan südlə bir neçə uşağa süd versə, onların hamısı bir-birinə, habelə, onlara süd verən qadına və ərinə məhrəm olurlar.

**Məsələ:** ٢٥٤٢. Əgər bir kəsin bir neçə arvadı olsa və onların hər biri, deyilmiş şərtlərlə bir uşağa süd versələr, uşaqların hamısı bir-birinə, o kişiyə və o qadınların hamısına məhrəm olurlar.

**Məsələ:** ٢٥٤٣. Əgər bir şəxsin iki süd verən arvadı olsa və onlardan biri bir uşağa, məsələn ٨ dəfə, o birisi isə ٧ dəfə süd verərsə, o uşaq bir kəsə məhrəm olmaz.

**Məsələ:** ٢٥٤٤. Əgər bir qadın bir kişiyə (ərinə) məxsus olan süddən bir oğlan və bir qıza kamil süd versə, o qızın bacı-qardaşı o oğlanın bacı-qardaşına məhrəm olmazlar.

**Məsələ:** ٢٥٤٥. İnsan öz arvadının icazəsi olmadan süd əmməklə arvadının (süd) qardaşı qızı, ya bacısı qızı sayılan qadınlarla evlənə bilməz. Həmçinin, əgər bir kişi bir oğlanla (Allah eləməmiş) livat etsə, livat olunanın süd bacısı, süd qızı, süd anası, eləcə də vacib ehtiyata əsasən, süd nənəsi və qızının qızını özü üçün əqd edə bilməz. Həmçinin, vacib ehtiyata əsasən, livat edən baliğ olmadığı və ya livat olunanın baliğ olduğu surətdə də hökm eynidir. Ehtiyat ediləsi yerlərdə, əgər livatdan sonra əqd baş versə, vacib ehtiyat budur ki, talaq verilsin.

**Məsələ:** ٢٥٤٦. İnsanın qardaşına süd vermiş qadın həmin insana məhrəm olmur, amma müstəhəb ehtiyat budur ki, onunla izdivac etməsin.

**Məsələ:** ٢٥٤٧. İnsan iki bacı ilə, hətta süd vasitəsilə biri-digərinə bacı olanlar da, izdivac edə bilməz; əgər iki qadını əqd etsə və sonra onların bacı olduqlarını başa düşsə, bu halda onların əqdi eyni vaxtda baş vermişsə, hər hansını seçməkdə ixtiyarlıdır. Əgər əqd bir vaxtda baş verməmişdirsə, birincinin əqdi səhih, ikincininki isə batildir.

**Məsələ:** ٢٥٤٨. Əgər qadın öz ərinə məxsus olan südü aşağıda deyiləcək şəxslərə versə, ehtiyat etmək yaxşı olmasına baxmayaraq, əri ona haram olmaz:

١-Öz bacısına və qardaşına.

٢-Öz əmisinə, bibisinə, dayısına və xalasına.

٣-Öz əmisinin və dayısının övladlarına.

٤-Öz qardaşının uşağına.

٥-Öz ərinin qardaşına, ya bacısına.

٦-Öz bacısı uşağına, ya ərinin bacısı uşağına.

٧-Ərinin xalasına, dayısına, əmisinə və bibisinə.

٨-Öz ərinin başqa arvadından olan nəvəsinə.

**Məsələ:** ٢٥٤٩. Əgər bir qadın insanın xalası qızına, ya bibisi qızına süd versə, ona məhrəm olmaz, amma müstəhəbb ehtiyat budur ki, onunla izdivacdan çəkinsin.

**Məsələ:** ٢٥٥٠. İki arvadı olan kişinin, o iki arvadından biri, o biri arvadın əmisi uşağına süd versə, əmisi uşağına süd verilmiş qadın öz ərinə haram olmaz.

## SÜD VERMƏYİN QAYDALARI

**Məsələ:** ٢٥٥١. Uşağa süd vermək üçün hamıdan daha yaxşısı onun anasıdır. Yaxşı olar ki, ana öz uşağına süd vermək üçün ərindən muzd almasın və yaxşısı budur ki, əri muzd versin. Əgər ana, dayənin aldığından daha çox muzd almaq istəsə, ata uşağını ondan alıb dayəyə verə bilər.

**Məsələ:** ٢٥٥٢. Uşaq üçün tutulan dayənin on iki İmam şiəsi, ağıllı, iffətli və gözəl surətli olması müstəhəbbdir. Ağlı kəm, on iki İmam şiəsi olmayan, ya çirkin, pis və kobud əxlaqlı və ya zinadan dünyaya gələn qadını dayə tutmaq məkruhdur. Həmçinin, öz uşağını zina yolu ilə dünyaya gətirən dayə tutmaq da məkruhdur

## SÜD VERMƏYİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢٥٥٣. Müstəhəbb ehtiyat budur ki, qadınlar hər uşağa süd verməsinlər; çünki hansı uşağa süd verdiyini yaddan çıxarması mümkündür ki, nəticədə bir-birinə məhrəm olan iki nəfər izdivac etmiş olsun.

**Məsələ:** ٢٥٥٤. Süd vasitəsi ilə qohum olan şəxslərin bir-birlərinə ehtiram göstərmələri müstəhəbbdir, ancaq bir-birindən irs aparmazlar və insanın öz qohumları ilə olan qohumluq hüquqları da onlar üçün yoxdur.

**Məsələ:** ٢٥٥٥. Uşağa tam iki il süd vermək müstəhəbbdir.

**Məsələ:** ٢٥٥٦. Əgər (başqasının uşağına) süd verməklə ərin haqqı aradan getməzsə, qadın ərinin icazəsi olmadan başqasının uşağına süd verə bilər. Lakin elə bir uşağa süd vermək caiz deyildir ki, o uşağa süd verməklə qadın öz ərinə haram olsun. Məhşur fəqihlərin (Allah onların məqamlarını uca eləsin!) buyurduğu: «Əgər bir kişi südəmər bir qızı özü üçün əqd edərsə, kişinin arvadı o qıza süd verməməlidir. Çünki, əgər süd verərsə, özü ərinin arvadının anasına (qayınanasına) çevrilir və ona haram olur» - hökmü məhəlli-işkaldır, lakin ərin əqd etdiyi qız ona haram olur, istər süd ərə məxsus olsun, istərsə də ərindən qeyrisinə məxsus olsun və qadınla yaxınlıq edilmiş olsun.

**Məsələ:** ٢٥٥٧. Fəqihlərin (Allah onların məqamlarını uca eləsin!) bir qrupu fətva vermişlər ki, «əgər bir kəs qardaşı arvadının ona məhrəm olmasını istəsə, südəmər bir qız uşağını, məsələn, iki günlüyə özü üçün siğə etsin və qardaşı arvadı o iki gün ərzində ٢٥٣٨-ci məsələdə deyilmiş qayda ilə o qıza süd versin. Çünki, bu surətdə onun qardaşı arvadı onun arvadının süd anası olur», lakin bu fətva işkaldan xali deyil.

**Məsələ:** ٢٥٥٨. Əgər kişi bir qadını özü üçün əqd etməzdən öncə süd əmmək vasitəsilə o qadının ona haram olduğunu, məsələn, onun anasının südünü əmdiyini desə, bu halda onu təsdiq etmək mümkündürsə, o qadınla evlənə bilməz. Əgər əqddən sonra desə və qadının özü də onun sözünü qəbul etsə, əqd batildir. Deməli, əgər kişi

onunla yaxınlıq etməyibsə, yaxud yaxınlıq edibsə də amma yaxınlıq edən vaxt qadın o kişiyə haram olduğunu bilibsə, mehriyyəsi yoxdur. Əgər yaxınlıqdan sonra o kişiyə haram olduğunu anlasa, əri onun mehriyyəsini, onun mislində olan qadınlara uyğun olaraq verməlidir.

**Məsələ:** ٢٥٥٩. Əgər qadın əqddən əvvəl süd əmməklə bir kişiyə haram olduğunu desə, onun təsdiq olunması mümkün olan halda o kişi ilə evlənə bilməz. Əgər əqddən sonra söyləsə, bu surətdə kişinin əqddən sonra o qadının haram olduğunu deməsi kimidir və onun hökmü bundan əvvəlki məsələdə deyildi.

**Məsələ:** ٢٥٦٠. Məhrəmliyə səbəb olan süd vermək iki şeylə sübut olunur:

١-İnsanın özü yəqinlik, ya xatircəmlik tapsa.

٢-İki adil kişinin, ya bir adil kişi və iki adil qadının, ya dörd adil qadının şəhadət verməsi ilə. Ancaq onlar süd verməyin şərtlərini də deməlidirlər. Məsələn, deməlidirlər ki, «biz filan uşağın iyirmi dörd saat ərzində filan qadının döşündən süd əmdiyini və arada heç bir şey yemədiyini gördük».

Həmçinin, ٢٥٣٨-ci məsələdə deyilən sair şərtləri də şərh verməlidirlər.

**Məsələ:** ٢٥٦١. Əgər uşağın məhrəm olmağa səbəb olacaq qədər süd əmib-əmməməsində şəkk etsələr, yaxud o miqdar süd əmdiyinə güman etsələr, uşaq bir kəsə məhrəm olmaz, ancaq ehtiyat edilməsi daha yaxşıdır.

## TALAQIN HÖKMLƏRİ

**Məsələ:** ٢٥٦٢. Öz arvadına talaq vermək istəyən kişi baliğ olmalıdır. On yaşlı uşağın talaq verməsinin səhihliyi üstün nəzər olsa da, lakin ehtiyata riayət olunmalıdır. Həmçinin, talaq verən aqil olmalı və öz ixtiyarı ilə talaq verməlidir. Əgər onu, öz arvadına talaq verməyə məcbur etsələr talaq batildir. Eləcə də talaq vermək qəsdində olmalıdır, əgər talaq siğəsini, məsələn, zarafatla desə, səhih deyil.

**Məsələ:** ٢٥٦٣. Qadın talaq verilərkən heyz və nifas qanından pak olmalıdır və əri həmin paklıqda onunla yaxınlıq etməməlidir. Bu iki şərtin əlavə izahı gələcək məsələlərdə deyiləcəkdir.

**Məsələ:** ٢٥٦٤. Heyz və nifas halında olan qadına talaq verilməsi üç halda səhihdir:

١-Əri izdivacdan sonra onunla yaxınlıq etməmiş olsun.

٢-Hamilə olması mə`lum olsun; əgər mə`lum olmasa və əri heyz halında ona talaq versə və sonradan hamilə olduğunu başa düşsə, vacib ehtiyat budur ki, ona yenidən talaq versin.

٣-Kişi hazırda olmamaqla (qaib olmaqla) və ya bunun kimi hallarda arvadının heyz, ya nifas qanından pak olub-olmamasından xəbərdar olmasın.

**Məsələ:** ٢٥٦٥. Əgər qadının heyz və nifas qanından pak olduğunu hesab edərək ona talaq versə və sonra heyz, ya nifas halında talaq verdiyi mə`lum olsa, onun talaqı batildir. Amma onun heyz, ya nifas halında olduğunu bilib ona talaq versə və sonradan (həmin vaxt) pak olduğu mə`lum olsa, talaqı səhihdir.

**Məsələ:** ٢٥٦٦. Arvadının heyz, ya nifas halında olduğunu bilən bir kəs, əgər qaib olsa (hazırda olmasa), məsələn, səfərdə olsa və ona talaq vermək istəsə, onun vəziyyətini öyrənməyə imkanı da olmasa, onun pak olduğuna əmin, ya arxayın olan vaxta qədər gözləməli və sonra talaq verməlidir.

**Məsələ:** ٢٥٦٧. Hazırda olmayan (qaib olan) kişi əgər arvadına talaq vermək istəsə, onun heyz, ya nifas halında olub-olmadığını öyrənə bilərsə, yəqin və ya arxayınlıq gətirəcək hər hansı bir vasitə ilə mə`lumat əldə etməlidir. Əgər mə`lumat ala bilməsə, qaib olduğu vaxtdan bir ay keçdikdən sonra ona talaq verə bilər.

**Məsələ:** ٢٥٦٨. Əgər öz əyalı ilə, heyz və nifas qanından pak olan halda yaxınlıq edib, talaq vermək istəsə, yenidən heyz görüb, pak olana qədər gözləməlidir. Ancaq ٩ yaşı tamam olmamış, ya hamilə olduğu

mə`lum olan qadınla yaxınlıq etdikdən sonra talaq versələr eybi yoxdur. Yaisə olduqda da hökm belədir. (Yaisənin mə`nası ٤٤١-ci məsələdə deyilmişdir.)

**Məsələ:** ٢٥٦٩. Heyz və nifas qadından pak olmuş bir qadınla yaxınlıq edib, həmin paklıqda talaq versə, bu halda sonradan, talaq verilərkən hamilə olduğu mə`lum olsa, vacib ehtiyata əsasən, ona yenidən talaq verməlidir.

**Məsələ:** ٢٥٧٠. Heyz və nifasdan pak olmuş qadını ilə yaxınlıq edəndən sonra qaib olsa, məsələn, səfərə getsə və səfərdə olarkən talaq vermək istəsə, amma onun vəziyyətindən xəbər tuta bilməsə, bu halda bir aya qədər gözləməlidir.

**Məsələ:** ٢٥٧١. Əgər kişi əsl xilqətində heyz olmayan, ya bir başqa səbəbə görə heyz görməyən qadınına talaq vermək istəsə, onunla yaxınlıq etdiyi vaxtdan üç ay müddətində özünü cimadan saxlamalı və sonra ona talaq verməlidir.

**Məsələ:** ٢٥٧٢. Talaqın siğəsi ərəbcə düzgün və "taliq" kəlməsi ilə oxunmalı, iki adil kişi onu eşitməlidir. Əgər ərin özü talaq siğəsini oxumaq istəsə və arvadının adı məsələn, Fatimədirsə, gərək زَوْجَتِي فاطِمَةُ طالِق «zovcəti Fatimətu taliq» - desin (yə`ni mənim arvadım Fatimə (arvadlıqdan) azaddır). Əgər başqasını vəkil etsə, o vəkil gərək زَوْجَةُ مُوَكِّلِي فاطِمَةُ طالِق «zovcətu muvəkkili Fatumətu taliq» - desin. Qadın müəyyən olduqda onun adını çəkmək lazım (vacib) deyil.

**Məsələ:** ٢٥٧٣. Müvəqqəti əqd olunmuş, məsələn, bir ay, ya bir illiyə siğə edilən qadının talaqı yoxdur; onun (zövciyyətdən) azad olması, ya müddətinin başa çatması ilədir, ya da əri tərəfindən müddətin ona bağışlanması ilədir. Bu mə`naya ki, məsələn, ər desin «müddəti sənə bağışladım». (Müt`ədə) şahid tutmaq və qadının heyz, ya nifasdan pak olması lazım deyildir.

## TALAQIN İDDƏSİ

**Məsələ:** ٢٥٧٤. Doqquz yaşı tamam olmamış və yaisə olan bir qadının iddəsi yoxdur; yə`ni əgər əri onunla yaxınlıq etmiş olsa da, talaqdən dərhal sonra ərə gedə bilər.

**Məsələ:** ٢٥٧٥. Doqquz yaşı tamam olmuş və yaisə olmayan bir qadının əri, onunla yaxınlıq edib, sonra talaq versə, talaqdan sonra iddə saxlamalıdır. Üç, ya dörd ayda bir dəfə heyz görən qadınlar kimi olmayan, heyz görən, heyz görməyi normal və vaxtlı-vaxtında olan azad (kəniz olmayan) qadının iddəsi, əri paklıq halında onunla yaxınlıq etməyib talaqını verdikdə, talaqdan sonra bir anlığa olsa belə, heyz görsə də, ikinci dəfə heyz görüncəyə qədər səbr edib gözləməli və pak olmalıdır, üçüncü heyzi görən kimi iddəsi tamam olur və ərə gedə bilər.

Lakin, əgər əri onunla yaxınlıq etmədən talaq versə, iddəsi yoxdur; yə`ni dərhal ərə gedə bilər.

**Məsələ:** ٢٥٧٦. Yaşı heyz görən qadınlar yaşında olub, amma heyz görməyən bir qadının əri, onunla yaxınlıq edəndən sonra talaq versə, talaqdan sonra ٣ ay iddə saxlamalıdır.

**Məsələ:** ٢٥٧٧. İddə müddəti ٣ ay olan bir qadına, əgər ayın əvvəlində talaq verilsə, üç hilali ay qədər, yə`ni ayın əvvəlindən ayı gördüyü andan ٣ ay müddətində iddə saxlamalıdır və əgər ayın əsnasında talaqı verilsə, ayın qalanını sonrakı ٢ ayla birlikdə və birinci aydan çatışmayan (kəsir) hissəni ٤-cü aydan iddə saxlamalıdır, vacib ehtiyata əsasən, birinci ayın qalan hissəsi ٤-ci aydan hesablanmalıdır ki, məcmu halında ٣٠ gün olsun, məsələn, əgər ayın ٢٠-də qürub çağında talaq versələr və o ay ٢٩ gün olarsa, o ayın ٩ gününü, sonrakı ٢ ayla birlikdə və sonra ٤-cü aydan ٢٠ gün iddə saxlamalıdır. Vacib ehtiyata əsasən, (٤-cü aydan) ٢١ gün iddə saxlasın.

**Məsələ:** ٢٥٧٨. Əgər hamilə olan bir qadına talaq verilsə və onun uşağı zinadan deyildirsə, onun iddəsi uşaq dünyaya gələn, ya siqt olan vaxta qədərdir. Buna görə də, məsələn, əgər uşaq talaqdan bir saat sonra dünyaya gəlsə, iddəsi tamam olur.

**Məsələ:** ٢٥٧٩. Doqquz yaşı tamam olmuş və yaisə olmayan bir qadın əgər siğə olunsa, məsələn, bir aylığa, ya bir illiyə ərə getsə, bu halda əri onunla yaxınlıq etsə və o qadının müddəti başa çatsa, ya əri müddəti ona bağışlasa, iddə saxlamalıdır; əgər heyz görürsə iki kamil heyz miqdarında iddə saxlamalı və (iddə vaxtında) ərə getməməlidir. Əgər heyz görmürsə, ٤٥ gün iddə saxlamalıdır. Hamilə olduğu surətdə isə onun iddəsi doğuş, ya uşağın siqt olması ilə sona çatır. Müstəhəbb ehtiyat budur ki, doğuş müddəti, ya ٤٥ gündən hansı çoxdursa, onu iddə saxlasın.

**Məsələ:** ٢٥٨٠. Talaq iddəsinin əvvəli talaq siğəsi oxunub qurtardıqdan sonra başlayır, istər qadın ona talaq verildiyini bilsin, istərsə bilməsin. Deməli, əgər iddə tamam olandan sonra ona talaq verildiyini başa düşərsə, ikinci dəfə iddə saxlaması lazım deyildir.

## ƏRİ ÖLMÜŞ QADININ İDDƏSİ

**Məsələ:** ٢٥٨١. Əri ölmüş bir qadın əgər hamilə deyilsə, ٤ ay ١٠ günə qədər iddə saxlamalı, yə`ni ərə getməkdən çəkinməlidir, istər əri onunla yaxınlıq etmiş olsun, istərsə yox; istər kiçik olsun, istərsə böyük; istər yaisə olsun, istərsə yox; istər daimi əqddə olsun, istərsə müvəqqəti əqddə. Əgər hamilədirsə, doğuş vaxtına qədər iddə saxlamalıdır. Lakin, əgər uşaq ٤ ay ١٠ gün keçməzdən qabaq dünyaya gəlsə, ərinin ölümündən e`tibarən ٤ ay ١٠ gün səbr etməlidir, buna «vəfat iddəsi» deyilir.

**Məsələ:** ٢٥٨٢. Vəfat iddəsində olan azad (kəniz olmayan) qadının bədən və paltara zinət verməsi, o cumlədən, sürmə çəkməsi, ətirlənməsi, bəzəkli, əlvan libaslar geyməsi kimi haramdır. Bu hökm səğirə və dəlidən götürülmüşdür və onların vəlisinin onları bu işdən çəkindirməli olması sübuta yetməyibdir. Siğə olunmuş qadına isə müddəti iki gün, ya daha az olduğu surətdə zinətlənmək haram deyildir.

**Məsələ:** ٢٥٨٣. Əgər qadın ərinin öldüyünə əmin olub, vəfat iddəsi tamamlanandan sonra ərə getsə və sonradan ərinin, onun fikirləşdiyi vaxtdan sonra öldüyü[١] mə`lum olsa, bu zaman ٢-ci ərindən ayrılmalıdır. Hamilə olduğu təqdirdə vacib ehtiyata əsasən, ٢-ci əri üçün talaq iddəsinin miqdarı doğuşa qədər olan iddə saxlamalıdır, ondan sonra isə ١-ci əri üçün vəfat iddəsi saxlamalıdır. Əgər hamilə olmasa ١-ci ər üçün vəfat iddəsi və ondan sonra ٢-ci əri üçün talaq iddəsi kimi olan "vəty be şübhə"[٢] iddəsi saxlamalıdır.

**Məsələ:** ٢٥٨٤. Vəfat iddəsinin başlanması arvadın, ərinin ölümündən xəbərdar olan andandır.

**Məsələ:** ٢٥٨٥. Əgər qadın «iddəm tamam olub» - desə, ondan bu şərtlə qəbul olunar ki, ərinin ölümündən, ya talaqı verildiyi vaxtdan o qədər vaxt keçmiş olsun ki, bu zamanda iddə müddətinin tamam olması mümkün olsun.

## BAİN VƏ RİC`İ TALAQ

**Məsələ:** ٢٥٨٦. Bain talaqı odur ki, talaq verəndən sonra kişinin yenidən öz arvadına qayıtmaq haqqı olmur, yə`ni (yenidən) əqd oxunmadan onu arvadlığa qəbul edə bilməz. O, beş qismdir:

١-Doqquz yaşı tamam olmamış qadına talaq verildikdə;

٢-Yaisə olan qadına talaq verildikdə;

٣-Əri əqddən sonra yaxınlıq etmədiyi qadına talaq verildikdə;

٤-Üç dəfə talaq verilmiş qadının ٣-cü talaqı;

٥-Xul` və mubarat talaqı.

Bunların hökmləri sonradan deyiləcək. Bunlardan başqaları ric`i talaqdır, yə`ni qadın iddədə olduğu vaxta qədər əri yenidən (əqd oxumadan) qayıda bilər.

**Məsələ:** ٢٥٨٧. Arvadına ric`i talaq verən şəxsə, qadını talaq verdiyi zaman yaşadığı evdən çıxarması haramdır. Lakin bə`zi hallarda, məsələn, söyüş söyən, yaramaz sözlər danışan və zina edən qadını bayıra çıxarmağın eybi yoxdur. Həmçinin, ərinin icazəsi olmadan zəruri olmayan işlərə görə (ric`i talaqda olan) arvadın evdən bayıra çıxması haramdır.

---

[١] Nəticədə vəfat iddəsi tamam olmamış ərə getmiş olur.

[٢] Şübhə və səhv əsasında cinsi yaxınlıq.

## RÜCU ETMƏYİN (QAYITMAĞIN) HÖKMLƏRİ

**Məsələ:** ٢٥٨٨. Ric`i talaqda kişi ٢ yolla öz arvadına rücu edə (qayıda) bilər:

١-Bir söz deyib o sözlə qadını yenidən öz arvadı etməsini qəsd etməklə; nəinki onu arvadlığa qaytarmaq xəbərini verməsilə;

٢-Rücu qəsdi ilə bir iş görsə və bu işdən kişinin qayıtdığı başa düşülsə, məsələn, əl vurmaq və öpmək kimi. Hətta rücu qəsdi olmasa da yaxınlıq etməklə rücu gerçəkləşir.

**Məsələ:** ٢٥٨٩. Rücu etmək üçün kişinin şahid tutmağı lazım (vacib) deyildir, lakin şahid tutmaq əfzəldir. Həmçinin, qadına xəbər verməsi də lazım deyildir; hətta əgər bir kəs başa dişmədən rücu etsə, səhihdir. Əgər rücu etdiyini iddia etsə, bu halda iddə əsnasındadırsa, isbat etməsi lazım deyildir. Amma əgər iddə başa çatandan sonra rücu etdiyini iddia etsə, sübut etməsi gərəkdir.

**Məsələ:** ٢٥٩٠. Öz arvadına ric`i talaq vermiş bir kişi əgər ondan bir şey alıb rücu etməyəcəyini (onu yenidən arvadlığa qəbul etməyəcəyini) onunla sülh etsə, sülhün tələbinə əməl etməsi vacibdir. Lakin əgər rücu etsə, səhihdir.

**Məsələ:** ٢٥٩١. Əgər azad bir qadına ٢ dəfə talaq versə və hər talaqdan sonra rücu eləsə, ya ٢ dəfə talaq verib, hər talaqdan sonra onu əqd etsə, ya bir dəfə talaq verib sonra rücu etsə və yenidən talaq verərək əqd etsə, beləliklə ٣-cü talaqdan sonra o qadın ona haram olar. Lakin əgər ٣-cü talaqdan sonra başqasına ərə getsə (sonra boşansa və ya əri ölsə), bir neçə şərtlə ١-ci ərinə halal olar, yə`ni ١-ci əri onu yenidən özünə əqd edə bilər:

١-İkinci ərin əqdi daimi olsun; əgər əqd müddətli, məsələn, bir aylıq, ya bir illik olarsa, ondan ayrılandan sonra ١-ci əri onu əqd edə bilməz;

٢-İkinci əri onunla qabaq tərəfdən yaxınlıq və düxul etməlidir, belə ki, hər ikisi cimadan ləzzət almalıdır;

٣-İkinci əri ona talaq verməli, ya da vəfat etmiş olmalıdır;

٤-İkinci ərdən olan talaq iddəsi, ya vəfat iddəsi tamamlanmış olmalıdır;

٥-Vacib ehtiyata əsasən, ٢-ci əri baliğ olmalıdır.

## XÜL` TALAQI

**Məsələ:** ٢٥٩٢. Ərinə meyli olmayan (ikrahlı olan), onun vacib haqlarına riayət edə bilməyəcəyi və harama düşməsi qorxusu olan qadının, mehriyyəsini, ya başqa malını ona talaq verməsi üçün ərinə bağışlamasına "xül` talaqı" deyilir.

**Məsələ:** ٢٥٩٣. Əgər ərin özü xül` talaqının siğəsini oxumaq istəsə və qadının adı, misal üçün, Fatimə olsa, malı alandan sonra desin:

زَوْجَتِي فاطِمَةُ، خَلَعْتُها عَلى ما بَذَلَتْ

«Zövcəti Fatimətu xələ`tuha əla ma bəzələt» - yə`ni arvadım Fatiməyə, verdiyi şey müqabilində xül` talaqı verdim. Müstəhəbb ehtiyata əsasən, xül` sözünə şamil olan cümlədən sonra هِيَ طالِقٌ "hiyə taliqun" kəlməsini də əlavə etsin. Qadın müəyyən olduğu surətdə onun adını çəkmək lazım (vacib) deyildir.

**Məsələ:** ٢٥٩٤. Əgər bir qadın, öz mehriyyəsini ərinə bağışlamaq üçün bir kəsi vəkil etsə və əri də həmin şəxsi arvadına talaq vermək üçün vəkil etsə, bu halda, məsələn, ərin adı Məhəmməd, arvadın adı isə Fatimə olsa, vəkil talaq siğəsini bu cür oxumalıdır:

عَنْ مُوَكِّلَتِي فاطِمَةَ بَذَلْتُ مَهْرَها لِمُوَكِّلِي مُحَمَّدٍ لِيَخْلَعَها عَلَيْهِ

"Ən muvəkkiləti Fatimətə bəzəltu məhrəha li muvəkkili Muhəmmədin liyəxləəha ələyhi", bundan sonra ehtiyata əsasən, camaat arasında fasilə pozulmayacaq sayılan bir tərzdə deməlidir:

زَوْجَةُ مُوَكِّلِي خَلَعْتُها عَلى ما بَذَلَتْ

"Zövcətu muvəkkili xələ`tuha əla ma bəzələt". Əgər bir qadın öz mehriyəsini deyil, başqa bir malını talaq verməsi məqsədilə ərinə bağışlaması üçün bir kəsi vəkil etsə vəkil "məhrəha" kəlməsinin əvəzində həmin şeyin adını deməlidir, məsələn, əgər ١٠٠ manat vermiş olsa, "bəzəltu miətə mənatin" deməlidir.

## MUBARAT TALAQI

**Məsələ:** ٢٥٩٥. Əgər kişi və qadın bir-birlərini istəməsələr (ikrahlı olsalar) və qadın onu boşaması üçün ərinə bir mal versə, bu talaqa «mubarat talaqı» deyilir.

**Məsələ:** ٢٥٩٦. Əgər ər mubarat talaqının siğəsini oxumaq istəsə, arvadın da adı, məsələn, Fatimə olsa, belə deməlidir:

بارَأْتُ زَوْجَتِي فاطِمَةَ عَلى ما بَذَلَتْ فَهِيَ طالِقٌ

"Barə`tu zovcəti Fatimətə əla ma bəzələt fə hiyə taliqun" (yə`ni mən və arvadım Fatimə, onun verdiyi şey müqabilində bir-birimizdən ayrılıq və o (ər-arvadlıqdan) azaddır).

Əgər başqasını vəkil etsə, gərək vəkil belə desin:

بارَأْتُ زَوْجَةَ مُوَكِّلِي فاطِمَةَ عَلى ما بَذَلَتْ فَهِيَ طالِقٌ

"Barə`tu zovcətə muvəkkili Fatimətə əla ma bəzələt fə hiyə taliqun", yaxud

**عَنْ قِبَلِ مُوَكِّلِي بارَأْتُ زَوْجَتَهُ فاطِمَةَ عَلى ما بَذَلَتْ فَهِيَ طالِقٌ**

"ən qibəli muvəkkili barə`tu zovcətəhu Fatimətə əla ma bəzələt fə hiyə taliqun".

Bu siğələrdə **فَهِيَ طالِق** "fəhiyə taliqun" kəlməsinin deyilməsi vacib ehtiyata əsasəndir.

Əgər **عَلى ما بَذَلَتْ** "Əla ma bəzələt" kəlməsinin yerinə **بِما بَذَلَتْ** "bima bəzələt" desə, eybi yoxdur.

**Məsələ:** ٢٥٩٧. Xül` və mubarat talaqının siğəsi (ifadəsi) ərəbcə düzgün oxunmalıdır. Lakin əgər qadın öz malını ərinə bağışlamaq üçün, məsələn, azərbaycanca "talaq üçün filan malı sənə bağışladım" - desə, işkalı yoxdur. Əgər kişi siğəni ərəbcə səhih oxuya bilməsə, vacib ehtiyata əsasən, vəkil tutmalıdır. Əgər vəkil də tuta bilməsə, talaq siğəsinin ərəbcə sinonimi olan hər hansı kəlməni işlətməklə xül` və mubarat talaqı versə, səhihdir.

**Məsələ:** ٢٥٩٨. Qadın xül`, ya mubarat talaqının iddəsi əsnasında ərinə bağışladığını geri alsa, ər ona rücu edə bilər və əqdsiz olaraq onu yenidən arvadlığa qəbul edə bilər.

**Məsələ:** ٢٥٩٩. Ərin mubarat talaqı üçün aldığı mal mehriyədən çox olmamalıdır. Ancaq xül` talaqında mehriyədən artıq olsa, eybi yoxdur.

## TALAQIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢٦٠٠. Əgər kişi, naməhrəm bir qadının öz arvadı olduğunu güman edib, onunla yaxınlıq etsə – istər qadın onun əri olmadığını bilsin, istərsə də əri olduğunu güman etsin – iddə saxlamalıdır.

**Məsələ:** ٢٦٠١. Əgər kişi, öz arvadı olmadığını bildiyi bir qadınla zina etsə, bu halda qadın o kişinin öz əri olmadığını bilsə, iddəsi yoxdur. Əgər (əri olmadığını) bilməsə (yəni əri olduğunu fikirləşsə), vacib ehtiyat budur ki, iddə saxlasın.

**Məsələ:** ٢٦٠٢. Əgər kişi, bir qadının öz ərindən boşanıb onunla evlənməsi üçün hiylə işlədərsə, talaq və əqd səhihdir, lakin hər ikisi böyük günah etmişdir.

**Məsələ:** ٢٦٠٣. Əgər əqd zamanı qadın, ərinin (uzunmüddətli) səfərə getdiyi, ya məsələn, ٦ ay onun xərcini vermədiyi halda talaqın ixtiyarının ona məxsus olacağını (əri ilə) şərt etsə, bu şərt batildir. Ancaq şərt etsə ki, əgər əri (uzunmüddətli) səfərə getsə, ya məsələn, ٦ ay xərcini verməsə, onun tərəfindən özünə talaq verilməsi üçün vəkil olsun, bu halda vəkalət yox, talaq şərtli olsa, şərt səhihdir, şərt hasil olduğu surətdə özünə talaq versə, talaq səhihdir.

**Məsələ:** ٢٦٠٤. Əri itkin düşmüş qadın əgər başqasına ərə getmək istəsə, gərək adil müctəhidin yanına getsin və onun göstərişinə əməl etsin.

**Məsələ:** ٢٦٠٥. Dəliliyi həmişəlik olan şəxsin atası və ata tərəfdən olan babası dəlinin məsləhətinə olduqda, onun daimi arvadına talaq verə bilərlər.

**Məsələ:** ٢٦٠٦. Ata və ata tərəfdən olan baba öz (səğir) uşağının daimi arvadına talaq verə bilməzlər. Əgər ata, ya ata tərəfdən olan baba öz uşağı üçün bir qadını siğə etsələr, uşağın mükəlləf olma vaxtının bir hissəsi siğə müddətində olsa da, məsələn, bir qadını on dörd yaşlı uşağı üçün ٢ il müddətinə siğə edibsə, bu halda uşağın məsləhətinə olarsa, o qadının müddətini bağışlaya bilərlər.

**Məsələ:** ٢٦٠٧. Əgər şəriətdə müəyyən edilmiş yollarla iki nəfərin ədalətli olması bir kişi üçün sübut olunsa və o şəxs onların yanında öz arvadına talaq versə, başqa bir şəxs ki, o iki nəfərin ədaləti o şəxsin yanında sübüt olunmayıb, həmin şəxs o qadını, iddəsi tamam olandan sonra özü, ya başqası üçün əqd edə bilər, lakin müstəhəbb ehtiyat budur ki, onunla izdivac etməkdən çəkinsin və başqası üçün də onu əqd etməsin.

**Məsələ:** ٢٦٠٨. Əgər bir şəxs arvadının xəbəri olmadan ona talaq versə və onun xərclərini, arvadı olduğu vaxtdakı kimi ödəsə və məsələn, bir ildən sonra "bir il bundan qabaq sənə talaq vermişəm" - deyib, şər`ən də sübut etsə, qadının nəfəqəsi ona vacib olmayan həmin müddət ərzində ona verdiyi şeyləri, əgər qadın xərcləməyibsə, ondan geri ala bilər. Ancaq xərcləmiş olduğu şeyləri ondan tələb edə bilməz.

## QƏSBİN HÖKMLƏRİ

İnsanın zülmlə başqasının haqqına, ya malına sahib olmasına qəsb deyildir. Bu, böyük günahlardan biridir ki, əgər bir kəs bu əməli etsə, qiyamətdə ağır əzaba düçar olacaqdır. Həzrət Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alih)-dən rəvayət olunur ki, ***«hər kəs başqasından bir qarış yeri qəsb etsə, qiyamətdə o yeri, onun yeddi təbəqəsindən (yeddi təbəqəsi ilə birlikdə) zəncir kimi onun boynuna asacaqlar.»***

**Məsələ:** ٢٦٠٩. Əgər insan camaatın, ümumxalqın istifadəsi üçün tikilmiş məscid, körpü, mədrəsə və başqa yerlərdən istifadəsinə mane olsa, onların haqını qəsb etmişdir. Həmçinin, əgər bir kəs məsciddə bir yeri tutsa və başqası onu həmin yerdən istifadə etməyə qoymasa, eyni hökmdədir.

**Məsələ:** ٢٦١٠. İnsanın, borclu olduğu şəxsin yanında girov qoyduğu bir şey, onun yanında qalmalıdır ki, onun borcunu ödəmədikdə, öz alacağını onun vasitəsilə ələ gətirsin. O, öz borcunu verməzdən öncə həmin şeyi ondan (tələbkardan) alsa, onun haqqını qəsb etmişdir.

**Məsələ:** ٢٦١١. Bir kəsin yanında girov qoyulmuş bir malı başqası qəsb etsə, tələbkar (borc sahibi) və mal sahibi qəsb etdiyi şeyi ondan (qəsbkardan) tələb edə bilər. Qəsbkardan ala bildikləri halda yenə də girov olaraq qalır. Əgər həmin şey tələf olaraq aradan getsə və (onun) əvəzində başqa bir şey alsalar, əvəz olaraq alınan şey girov qoyulan şeyin özü kimidir.

**Məsələ:** ٢٦١٢. Əgər insan bir şeyi qəsb etsə, onu sahibinə qaytarmalıdır. Əgər o şey tələf olsa, onun əvəzini ona verməlidir.

**Məsələ:** ٢٦١٣. Əgər qəsb etdiyi şeydən müəyyən bir mənfəət əldə etsə, məsələn, qəsb etdiyi qoyun doğsa, o da mal sahibinindir. Həmçinin, bir kəs, məsələn, evi qəsb etsə, orada oturmasa da, onun icarəsini verməlidir.

**Məsələ:** ٢٦١٤. Əgər uşaqdan, ya dəlidən, onların malı olan bir şeyi qəsb etsə, onu onların vəlisinə verməlidir. Əgər tələf olsa, gərək əvəzini versin.

**Məsələ:** ٢٦١٥. Əgər iki nəfər birlikdə bir şeyi qəsb etsələr və yarı-yarı bölsələr, hər biri onun yarısına zamindir; əgər (hər biri) bütünlüklə onu ixtiyarlarına keçirsələr, hər biri onun bütününə zamindir.

**Məsələ:** ٢٦١٦. Əgər qəsb etdiyi şeyi, başqa bir şeylə qarışdırsa, məsələn, qəsb etdiyi buğdanı arpa ilə qarışdırsa, bu halda onları ayırmaq mümkündürsə, zəhmətlə də olsa, ayırıb sahibinə qaytarmalıdır.

**Məsələ:** ٢٦١٧. Əgər bir şəxs üzərində sənətkarlıq işi görülmüş bir şeyi, məsələn, sırğa düzəldilmiş bir qızılı qəsb və onu xarab etsə, gərək onun maddəsini (materialını) və düzəlmə qiymətini xüsusiyyətləri ilə birlikdə sahibinə versin. Əgər onun xarab edildikdən sonrakı maddəsinin qiyməti, xarab edilməmişdən qabaqkı qiymətindən az olsa, onun qiymətlər fərqini verməlidir. O, «onu əvvəlki kimi düzəldərəm» - desə, malik qəbul etməyə bilər və malik də onu, əvvəlki kimi düzəltməyə məcbur edə bilməz.

**Məsələ:** ٢٦١٨. Əgər qəsb etdiyi şeyi əvvəlki vəziyyətindən də yaxşı tərzdə dəyişdirsə, məsələn, qəsb etdiyi qızıldan sırğa düzəltsə, bu halda mal sahibi «onu həmin formada ver» - desə, gərək versin və çəkdiyi zəhmət üçün muzd ala bilməz. Həmçinin, malikin icazəsi olmadan onu əvvəlki formaya sala bilməz. Əgər icazəsiz olaraq onu əvvəlki formaya salsa, o formanın qiymətinə zamin olması məhəlli-işkaldır və əhvət – sülh etməkdir.

**Məsələ:** ٢٦١٩. Əgər qəsb etdiyi bir şeyi əvvəlkindən daha yaxşı şəklə salsa və mal sahibi isə onu əvvəlki hala qaytarmasını tələb etsə, onu əvvəlki formaya salması vacibdir. Əgər onun qiyməti dəyişiklik vasitəsilə əvvəlki qiymətindən az olsa, qiymətlər fərqini sahibinə verməlidir.

**Məsələ:** ٢٦٢٠. Əgər qəsb etdiyi yerdə əkin əksə, ya ağac əksə əkin, ağaclar və onların meyvəsi onun az malıdır. Əgər yerin sahibi razı olmasa ki, əkin və ağaclar onun yerində qalsın, qəsb edən kəs zərərə düşsə də, öz əkin, ya ağaclarını dərhal oradan çıxarmalıdır. Həmçinin, əkin və ağacların orada olduğu müddətin, hətta ondan qabaqkı – qəsb etdiyi vaxtdan e`tibarən icarə haqqını da yer sahibinə verməlidir. Bu zaman yerdə əmələ gələn xarablıqları düzəltməlidir, məsələn, ağacların yerini doldurmalıdır. Əgər bu işlərin vasitəsilə yerin qiyməti əvvəlkindən ucuz olarsa, onun fərqini ödəməlidir; yer sahibini yeri ona satmağa, ya icarəyə verməyə məcbur edə bilməz. Həmçinin, yer sahibi də (qəsbkarı) əkini və ağacları ona satmağa məcbur edə bilməz.

**Məsələ:** ٢٦٢١. Əgər yer sahibi əkin və ağacların onun sahəsində qalmasına razı olsa, qəsb edənin onları çıxarması lazım (vacib) deyildir. Lakin qəsb etdiyi vaxtdan yer sahibinin razılıq verdiyi vaxta qədər olan müddətin icarəsini verməlidir.

**Məsələ:** ٢٦٢٢. Əgər qəsb etdiyi şey tələf olsa, bu halda həmin şey heyvanlar kimi qiymidirsə, yə`ni onun fərdlərinin xüsusiyətləri dəyər baxımından və aqillərin rəğbəti nəzərində (başqa fərdin qiyməti ilə) fərqlidirsə, onun qiymətini verməlidir. Əgər onun bazar qiyməti qəsb

etdiyi vaxtdan qiyməti ödəməli olduğu vaxta qədər fərq etsə, vacib ehtiyata əsasən, qəsb etdiyi vaxtdan tələf olan vaxta qədərki ən yüksək qiymətini verməlidir. Müstəhəbb ehtiyat budur ki, qəsb etdiyi vaxtdan qiyməti ödəməli olan vaxta qədərki ən yüksək qiymətini versin.

**Məsələ:** ٢٦٢٣. Əgər qəsb etdiyi və tələf olub aradan gedən şey mislidirsə – yə`ni onun müxtəlif növlərinin xüsusiyətləri adətən aqillərin rəğbəti və dəyər vermələri baxımından bir-birindən fərqlənmir, məsələn, (noxud, lobya, mərci kimi) dənli bitkilər – qəsb etdiyi həmin şeyin növü və sinfi xüsusiyyətində olan mislini verməlidir; məsələn, əgər deym[1] buğdası qəsb edibsə, əvəzində suvarma vasitəsilə becərilən buğda verə bilməz. Həmçinin, deym buğdası ə`la növ olduğu surətdə əvəzində aşağı növünü verə bilməz.

**Məsələ:** ٢٦٢٤. Əgər qoyun kimi bir şeyi qəsb etsə və tələf olsa, onun bazar qiyməti dəyişməyibsə, amma onun yanında oduğu müddətdə, məsələn, kökəlmişdisə, (tələf olandan sonra) kök qoyunun qiymətini verməlidir.

**Məsələ:** ٢٦٢٥. Əgər qəsb etdiyi şeyi başqa birisi ondan qəsb etsə və o şey tələf olub aradan getsə, malın sahibi onun əvəzini onların hər birindən; ya da onların hər birindən bir miqdarını ala bilər. Əgər onun əvəzini birincidən alsa, birinci də verdiyi şeyi ikincidən ala bilər. Ancaq, malı tələf etmiş ikinci şəxsdən alsa, o, verdiyi şeyi birincidən ala bilməz.

**Məsələ:** ٢٦٢٦. Əgər alverdə müamilə şərtlərindən biri olmasa, məsələn, miqdarı mə`lum olan halda satılmalı olan şey, miqdarı mə`lum olmadan satılsa, müamilə batildir. Əgər satıcı və alıcı, müamiləni nəzərə almadan bir-birinin malından istifadə etməyə razı olsalar, eybi yoxdur, əks təqdirdə bir-birindən aldıqlarını biri-digərinə qaytarmalıdırlar. Hər birinin malının digərinin əlində tələf olduğu surətdə isə, onun əvəzini verməlidirlər, istər müamilənin batil olduğunu bilmiş olsunlar, istərsə də bilməsinlər. Əgər mislidirsə mislini; və əgər qiymidirsə, tələf olduğu vaxtdakı qiymətini verməlidir. Amma əhvət budur ki, malı götürdüyü vaxtdan e`tibarən tələf olduğu vaxta qədərki ən yüksək qiymətini versin. Bundan da əhvəti budur ki, götürdüyü vaxtdakı qiymətindən onu qaytarmalı olduğu vaxta qədərki ən yüksək qiymətini versin.

**Məsələ:** ٢٦٢٧. Əgər bir malı satıcıdan baxmaq üçün götürsə, ya götürüb bir müddət öz yanında saxlayaraq bəyəndiyi təqdirdə almaq istəsə, bu halda mal tələf olsa, onun əvəzinə zamin olmaq hökmü məhəlli-işkaldır və əhvət sülh etməkdir.

---

[1] Süni suvarma ilə deyil, ancaq yağış vasitəsilə becərilən buğda.

## İNSANIN TAPDIĞI MALIN HÖKMLƏRİ

**Məsələ:** ٢٦٢٨. İnsan, heyvan qismindən olmayan itmiş bir şeyi tapsa, onun sahibini tapmaq üçün – bir neçə müəyyən nəfərin arasında da olsa – nişanələri olmasa və onun qiyməti bir dirhəmdən (yə`ni ١٢،٦ noxud sikkəli gümüşdən) az olsa, onu götürüb mülkiyyətinə keçirməsi caizdir və sahibini axtarmaq lazım (vacib) deyildir. Lakin müstəhəbb ehtiyat budur ki, sahibinin tərəfindən fəqirə sədəqə versin.

**Məsələ:** ٢٦٢٩. Əgər qiyməti bir dirhəmdən az və nişanələri olan bir şeyi tapsa, bu halda onun sahibi hətta müəyyən şəxslər arasında belə, mə`lum olsa, onun razılığı bilinməyənədək, icazəsiz onu götürə bilməz. Əgər onun sahibi heç cür mə`lum olmasa, onu özü üçün götürə bilər. Vacib ehtiyata əsasən, malın sahibi hər vaxt tapılsa, tələf olmadığı surətdə malı, tələf olduğu surətdə isə əvəzini ona versin.

**Məsələ:** ٢٦٣٠. Əgər sahibini mə`lum edəcək nişanələrə malik olan bir şey tapsa, istər sahibi müsəlman olsun, istərsə malı möhtərəm olan kafir, onun qiyməti bir dirhəmə çatdığı surətdə onu tapdığı gündən e`tibarən bir il müddətində camaatın toplaşdığı yerlərdə e`lan etməlidir.

**Məsələ:** ٢٦٣١. Əgər insanın özü e`lan etmək istəməsə, inandığı bir kəsə, onun tərəfindən e`lan etməsini deyə bilər.

**Məsələ:** ٢٦٣٢. Əgər bir ilə qədər e`lan etsə və sahibi tapılmasa, bu halda onu Məkkə hərəmindən başqa bir yerdə tapmışsa, onu sahibi üçün saxlaya bilər ki, hər vaxt tapsa, ona versin; yaxud sahibi tərəfindən fəqirlərə sədəqə verə, ya özü üçün götürə bilər. Lakin sahibi hər vaxt tapılsa, almağa haqqı var. Əgər o malı hərəmdə tapıbsa, sahibinin tərəfindən fəqirlərə sədəqə verməlidir.

**Məsələ:** ٢٦٣٣. Bir il e`lan edəndən sonra malın sahibini tapmadıqda, əgər malı sahibinə vermək üçün saxlasa və tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq etməsə və ifrata varmasa, zamin deyildir. Ancaq özü üçün götürsə və tələf olsa, maliki tapıldığı və tələb etdiyi surətdə zamindir. Əgər sədəqə vermiş olsa, mal sahibi sədəqəyə razı olmaqla, malın əvəzini almaqda ixtiyar sahibidir. Hər halda sədəqənin savabı, sədəqə verənindir.

**Məsələ:** ٢٦٣٤. Bir malı tapan kəs, yuxarıda deyilmiş qayda ilə qəsdən e`lan etməsə, günah etmişdir, amma təklif (vəzifə) boynundan düşmür və gərək həmin qaydada e`lan etsin.

**Məsələ:** ٢٦٣٥. Əgər dəli olan, ya baliğ olmayan uşaq e`lan olunası bir şeyi taparsa, onun vəlisi deyilmiş qayda ilə e`lan edə bilər. Ancaq

onların əlindən alsa, e`lan etməsi vacib olur. Deməli, bir ildən sonra, ya onu sahibi üçün saxlasın, ya dəli və ya uşağın mülkiyyətinə keçirsin, ya da sahibinin tərəfindən fəqirlərə sədəqə versin. Əgər sahibi tapılsa və sədəqəyə razı olmasa, vacib ehtiyata əsasən, vəli onun əvəzini öz malından verməlidir.

**Məsələ:** ٢٦٣٦. Əgər insan e`lan verdiyi il əsnasında mal sahibini tapmaqdan naümid olsa, onu öz mülkiyyətinə keçirməyinin işkalı vardır. Ancaq onu sahibinin tərəfindən sədəqə verə bilər. Vacib ehtiyata əsasən, (bu halda) şəriət hakimindən icazə almalıdır.

**Məsələ:** ٢٦٣٧. Əgər e`lan etdiyi il ərzində mal tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq etsə və həddi aşsa, zamindir. Əgər səhlənkarlıq etməyib, həddi aşmasa, zamin deyildir.

**Məsələ:** ٢٦٣٨. Əgər tapdığı bir malın qiyməti bir dirhəmə çatsa və nişanəsi olmasına baxmayaraq, elə bir yerdə tapıb ki, e`lan etməklə onun sahibinin tapılmasının mümkün olmaması mə`lumdur, ya nişanəsi yoxdur, bu halda onu tapdığı ilk gündən e`tibarən sahibi tərəfindən fəqirlərə sədəqə verə bilər və vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsi ilə olmalıdır.

**Məsələ:** ٢٦٣٩. Əgər bir malı tapsa və öz malı olduğunu güman edib götürsə, sonradan öz malı olmadığını başa düşsə, əvvəlki məsələdə deyilmiş itik malın hökmləri ona aiddir.

**Məsələ:** ٢٦٤٠. Tapdığı şeyi e`lan edərkən onun cinsini (nə olmasını) deməsi lazım deyildir; hətta "bir şey tapmışam" - deməsi də kifayətdir. Amma cinsini (nə olmasını) demədən e`lan etməklə malı itmiş şəxsin bu məsələyə diqqət yetirməsi faydasız olacaqsa, cinsi deməlidir.

**Məsələ:** ٢٦٤١. Əgər bir kəs bir şey tapsa və başqası "mənim malımdır" desə və onun nişanələrini desə, onun malı olduğuna tam arxayın olduğu surətdə ona verməlidir. Mal sahibinin əksər hallarda diqqət yetirmədiyi nişanələri də deməsi lazım deyildir.

**Məsələ:** ٢٦٤٢. Əgər tapdığı şeyin qiyməti bir dirhəmə çatsa, bu halda e`lan etmədən məscidə, ya başqa bir yerə qoysa və o şey tələf olsa, ya başqası onu götürsə, onu tapan şəxs zamindir.

**Məsələ:** ٢٦٤٣. Meyvə və göyərti kimi, bir il saxlanma qabiliyəti olmayan, qalmaqla xarab olan bir şey taparsa, vacib ehtiyata əsasən, xəsarət dəyməyən vaxta qədər saxlasın, sahibi tapılmadıqda şəriət hakiminin, ya onun vəkilinin; və onlar olmadıqda isə, mümkün olduğu təqdirdə ədalətli mö`minlərin icazəsi ilə onu qiymət edib satsın, ya özünə götürüb, pulunu saxlasın. Vacib ehtiyata əsasən, tapdığı vaxtdan e`tibarən bir il müddətində e`lan etsin, sahibi tapılmadığı təqdirdə isə, ٢٦٣٢-ci məsələdə deyilən qaydaya əməl etsin.

**Məsələ:** ٢٦٤٤. Əgər tapdığı bir şey dəstəmaz alarkən və namaz qılarkən onun yanında olsa, bu halda məqsədi onun sahibini tapıb onu vermək olsa, eybi yoxdur, əks təqdirdə, onu hətta yanında saxlamaqla olsa belə, onda təsərrüf etməsi haramdır. Lakin dəstəmaz və namazı, onu sadəcə yanında saxlamağa görə batil olmaz.

**Məsələ:** ٢٦٤٥. Əgər bir kəsin ayaqqabısını aparıb, yerinə başqa ayaqqabı qoysalar, bu halda mövcud şahidlərdən, qalan ayaqqabının, ayaqqabını aparan şəxsin olduğunu bilsə, xatircəm olsa və onun ayaqqabısını götürdüyü ayaqqabının əvəzində götürməsinə razı olduğunu bilsə, onu öz ayaqqabısının əvəzində götürə bilər. Həmçinin, əgər onun ayaqqabısını nahaq yerə, zülmlə götürüldüyünü bilsə, hökm eynidir, lakin bu fərzdə onun qiyməti öz ayaqqabısının qiymətindən artıq olmamalıdır. Əks təqdirdə (artıq olsa), qiymətin artıq miqdarına maliki bilinməyən (məchulul-malik) malın hökmü aid olur. Bu iki surətdən başqa o ayaqqabıya maliki bilinməyən (məchulul-malik) malın hökmü cari olar.

**Məsələ:** ٢٦٤٦. Əgər insanın əlindəki mal məchulul-malik – "maliki bilinməyən" mal olsa, yə`ni onun sahibi müəyyən şəxslər arasında belə, mə`lum olmasa ona «itirilmiş mal» adı aid edilə bilməsə, onun sahibini tapmaqdan naümid olana qədər axtarmalı, ümidsiz olandan sonra onu fəqirlərə sədəqə verməlidir. Vacib ehtiyata əsasən şəriət hakiminin icazəsi ilə verilməlidir. Əgər sahibi sonradan tapılsa zamin deyildir.

## HEYVAN BAŞINI KƏSMƏYİN VƏ OVLAMAĞIN HÖKMLƏRİ

**Məsələ:** ٢٦٤٧. Əgər əti halal olan heyvanı – istər vəhşi, istərsə əhliləşdirilmiş olsun – sonradan müfəssəl deyiləcək şərtlərlə kəsərək, təzkiyə etsələr, can verdikdən sonra onun əti halal, bədəni də pakdır, aşağıdakı hallar istisna olmaqla:

١-Həddi-buluğa çatmış olan bir şəxsin (nəuzu billah) yaxınlıq etdiyi əti halal heyvan və onun nəslindən olan heyvanlar; həmçinin, vacib ehtiyata əsasən, vəty edən baliğ olmasa da, hökm eynidir.

٢-İnsan nəcasətini yeməyə adət etmiş və şəriətdə müəyyən olunmuş qaydaya əsasən istibra edilməmiş bir heyvan;

٣-Sümüyü donuz südü ilə qidalanma nəticəsində bərkimiş çəpiş və ondan törəyənlər, həmçinin, vacib ehtiyata əsasən, südəmər quzu da belədir.

٤-Sümüyü donuz südü ilə qidalanmaqla bərkiməyən, amma şəriətdə müəyyən edilmiş qaydaya əsasən istibra edilməyən çəpiş və quzu.

**Məsələ:** ٢٦٤٨. Ahu (ceyran), kəklik, dağkeçisi kimi əti halal olan vəhşi heyvanları, eləcə də öküz və dəvə kimi əvvəlcə əhli olub sonradan qaçaraq vəhşiləşən heyvanları,sonradan deyiləcək qayda ilə ovlasalar, pak və halaldır.[١] Ancaq əti halal olan əhli heyvanı, məsələn qoyunu, ev toyuğunu, eləcə də əhliləşdirməklə əhli olan halal ətli vəhşi heyvanı ovlamaqla pak və halal olmazlar.[٢]

**Məsələ:** ٢٦٤٩. Əti halal olan vəhşi heyvan ovlamaqla o halda pak və halal olar ki, uça, ya qaça bilsin. Deməli, ahunun qaça, kəkliyin uça bilməyən balası ovlamaqla pak və halal olmur. Əgər ceyran və onun qaça bilməyən balası bir oxla ovlansa, ceyran halal, balası isə haramdır (amma ölməmiş başını şər`i qaydada kəssələr, pak və halal olar).

**Məsələ:** ٢٦٥٠. Balıq kimi, sıcrayıcı qanı olmayan heyvan, onun halal olması (təzkiyəsi) üçün deyilən qaydadan başqa yolla ölsə, pakdır, ancaq onu yemək haramdır.

---

[١] Bu şərtlərlə ovlandıqda, başını kəsməyə imkan olmasa da, əti pak və halal olur.

[٢] Amma ölməmiş başını şər`i qaydada kəssələr, pak və halal olur.

**Məsələ:** ٢٦٥١. İlan kimi, əti haram və sıcrayıcı qanı olmayan heyvanın başını kəsməklə halal olmaz, ancaq onun ölüsü, yaxud öldürülmüşü pakdır.

**Məsələ:** ٢٦٥٢. İt və donuz başı kəsilmək və ovlanmaqla pak olmazlar, onların ətini də yemək haramdır. Canavar və pələng kimi yırtıcı və ət yeyən, əti haram olan heyvanı, deyiləcək qayda ilə kəssələr, yaxud ox və bu kimi şeylərlə ovlasalar, pak olar, ancaq onların əti halal olmaz. Əgər onları ov iti ilə ovlasalar, pak olması da məhəlli-işkaldır.

**Məsələ:** ٢٦٥٣. Fil, ayı və meymunun başını deyiləcək qayda ilə kəssələr, ya ox və bu kimi şeylərlə ovlasalar pak olar. Lakin siçan kimi, yerin daxilində yaşayan kiçik heyvanların əgər sıçrayıcı qanı olsa və dərisi faydaya yararlı olmasa, başını kəssələr, yaxud onu ovlasalar, pak olmaz. Əgər dərisi istifadə üçün yarayarsa, onların pak olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٦٥٤. Əgər diri heyvanın qarnından ölmüş bala çıxsa, yaxud onu çıxartsalar, (ölmüş balasının) ətini yemək haramdır.

## HEYVANIN BAŞINI KƏSMƏK QAYDALARI

**Məsələ:** ٢٦٥٥. Heyvanın başını kəsməyin qaydası budur ki, onun boynunun dörd böyük damarı: udlaq (yemək borusu), nəfəs borusu və hülqumun yan tərəflərində olan iki yoğun damar, hülqumun çıxıntısının aşağı tərəfindən tam surətdə kəsilsin. Əgər onları deşsələr, kifayət etməz.

**Məsələ:** ٢٦٥٦. Əgər dörd damardan bə`zisini kəsib, qalanını heyvanın ölməsindən sonra kəssələr, halal və pak olmaz. Həmçinin, vacib ehtiyata əsasən, əgər dörd damarı can verməmişdən qabaq kəssələr, amma ardıcıllıq adi qaydada olmasa, eyni hökmü daşıyır.

**Məsələ:** ٢٦٥٧. Əgər canavar qoyunun boğazının bir miqdarını yırtsa və dörd damar qalsa, ya bədəninin digər yerini qopartsa, qoyun diri olsa və deyiləcək şərtlərlə onun başını kəssələr halal və pak olar. Əgər qoyunun boğazını, kəsilməli olan dörd damardan bir bir şey qalmayacaq qədər qopartsa, o qoyun haram olar. Lakin əgər boğazdan bir az yuxarı və aşağı damarları kəsmək mümkün olacağı tərzdə onun bə`zi damarlarını qopartmış olsa, heyvanın halal olması məhəlli-işkaldır.

## HEYVAN BAŞI KƏSMƏYİN ŞƏRTLƏRİ

**Məsələ:** ٢٦٥٨. Heyvan başı kəsməyin bir neçə şərti vardır:

١-Heyvanın başını kəsən bir kəs müsəlman olmalıdır, istər qadın, istərsə də kişi; müsəlman uşağı da pis-yaxşını dərk edən müməyyiz olsa heyvan başı kəsə bilər. Əgər kafir, nəvasib, xəvaric və kafirliyinə hökm olunan ğulat kimi, Əmirəl-mö`minin Əli (əleyhissalam)-ın Allah

olmasına əqidə bağlayan firqə ardıcılları heyvanın başını kəssələr, halal olmaz.

٢-Heyvanın başı dəmirdən olan bir şeylə kəsilməlidir. Amma əgər dəmir tapılmasa, onun ٤ damarını ayıra biləcək iti bir şeylə, məsələn, şüşə və iti daşla onun başını kəsmək olar, amma ehtiyat vacibə görə, başı kəsilmədiyi təqdirdə heyvanın öləcəyi, ya başqa bir zərurət onun başını kəsməyi tələb etdiyi şəraitdə olmalıdır.

٣-Başını kəsərkən heyvanın bədəninin qabaq tərəfi üzü qibləyə olmalıdır. Heyvanın başının üzü qibləyə kəsilməli olduğunu bilən bir kəs əgər qəsdən heyvanı üzü qibləyə döndərməsə, heyvan haram olar. Lakin əgər bunu unutsa, ya məsələni bilməsə, ya qibləni dəyişik salsa, ya qiblənin hansı tərəfdə olduğunu bilməsə, ya heyvanı üzü qibləyə döndərə bilməsə və onun təzkiyə edilməsinə məcbur olsa, (bu kimi hallarda üzü qibləyə olmasa) işkalı yoxdur.

٤-Heyvanın başını kəsmək istədikdə, ya bıçağı onun boğazına qoyduqda başı kəsmək niyyəti ilə Allahın adını çəkməlidir. Bu zaman "Bismillah", ya "Allahu Əkbər" və bu kimi bir zikr deməsi kifayətdir, hətta təkcə "Allah" da desə, kifayətdir. Əgər baş kəsməyi qəsd etmədən Allahın adını çəksə o heyvan pak olmaz və onun əti də haram olar. Lakin əgər unutduğu üçün Allahın adını deməsə, işkalı yoxdur. Müstəhəbb ehtiyat budur ki, hər vaxt yadına düşsə, Allahın adını çəksin və desin: "Bismillahi əla əvvəlihi və əla axirih".

٥-Heyvan, başı kəsiləndən sonra hətta gözünü, quyruğunu tərpətməklə, ya ayaqlarını yerə vurmaqla olsa belə, hərəkət etməlidir. Bu hökm, heyvanın diri olduğu şübhəli olan surətə aiddir. Əks təqdirdə, buna lüzum yoxdur. Həmçinin, heyvanın bədənindən, o heyvanın bədəninə mütənasib olan adi miqdarda qan çıxması vacibdir.

٦-Vacib ehtiyata əsasən, heyvanın başını – quşlardan başqa – ruhu bədənindən çıxmazdan əvvəl bədənindən ayırmasınlar. Hətta bu iş quşlar barədə də məhəlli-işkaldır. Lakin qəflət səbəbindən, ya bıçağın iti olmasına görə başı bədəndən ayrılsa, eybi yoxdur. Həmçinin, vacib ehtiyata əsasən, heyvanın boynundan quyruğuna qədər uzanan və "nuxa" adlanan ağ damarı – onurğa beyni olan iliyi (can verməmiş) qəsdən kəsməsinlər.

٧-Vacib ehtiyata əsasən, heyvanın başı boyun tərəfdən deyil, məzbəhdən – qabaqdan kəsilməlidir. Həmçinin, vacib ehtiyata əsasən, bıçağı boyuna batırıb damarları qarşı tərəfə doğru kəsmək caiz deyildir.

## DƏVƏ KƏSMƏYİN QAYDASI

**Məsələ:** ٢٦٥٩. Əgər dəvəni, can verəndən sonra pak və halal olsun deyə, kəsmək istəsələr, heyvanın başını kəsmək üçün deyilmiş

şərtlərdən əlavə bıçaq, ya dəmirdən olan başqa iti bir şeyi onun sinəsi ilə boynu arasındakı çökək yerə batırmalıdırlar.

**Məsələ:** ٢٦٦٠. Bıçağı dəvənin boğazına batırarkən dəvənin ayaq üstə olması daha yaxşıdır. Lakin əgər dizlərini yerə qoymuşsa, ya yanı üstə uzanmışsa və üzü qibləyədirsə, bıçağı boynunun çökəyinə batırsalar, eybi yoxdur.

**Məsələ:** ٢٦٦١. Əgər bıçağı dəvənin boynunun çökəyinə batırmaq əvəzinə, onun başını kəssələr; ya inək, qoyun və bu kimi heyvanların başını kəsmək əvəzinə dəvə kimi, bıçağı onların boynunun çökəyinə batırsalar, onların əti haram və bədəni nəcis olar. Lakin əgər dəvənin ٤ damarını kəssələr və nə qədər ki, diridir, bıçağı deyilən tərzdə boynunun çökəyinə batırsalar, onun əti halal və bədəni pak olar. Həmçinin, əgər bıçağı qoyun, inək və bu kimi heyvanların boynunun çökəyinə batırsalar və hələ diri olduqları halda başını kəssələr, halal və pak olar.

**Məsələ:** ٢٦٦٢. Əgər bir heyvan ipə-sapa yatmasa, özbaşınalıq etsə və onu şəriətdə deyilən qayda ilə kəsə bilməsələr, ya, məsələn, quyuya düşmüş olsa və orada öləcəyi ehtimal edilərsə və şər`i qayda ilə onu öldürmək mümkün olmasa, bədəninin hər hansı bir yerinə qılınc, xəncər, nizə və bu kimi şeylərlə yara vursalar və o yaranın tə`sirindən can verərsə, halal olar və onun üzü qibləyə olması da lazım deyildir. Lakin heyvanların kəsilməsi üçün deyilmiş digər şərtlər mövcud olmalıdır.

## HEYVAN KƏSƏRKƏN MÜSTƏHƏBB OLAN ŞEYLƏR

**Məsələ:** ٢٦٦٣. Heyvanın kəsilməsində bir neçə şey müstəhəbbdir:

١-Qoyunun başını kəsərkən onun iki qabaq ayağı və bir dal ayağını bağlamaq, o biri ayağını açıq saxlamaq; inəyin başını kəsərkən ٤ ayağını bağlayıb quyruğunu açıq saxlamaq; dəvəni kəsərkən oturan halda, iki qabaq ayağını aşağıdan dizə qədər və ya qoltuğunun altına qədər bir-birinə bağlayıb, arxa ayaqlarını açıq saxlamaq; toyuğu kəsdikdə isə qanad çalması üçün sərbəst buraxmaq müstəhəbbdir.

٢-Heyvanı kəsən şəxsin üzü qibləyə olması;

٣-Heyvanı kəsməzdən öncə onun qabağına su qoymaq;

٤-Heyvana az əziyyət olması üçün bir iş görmək, məsələn, bıçağı yaxşı itiləmək, başını sür`ətlə kəsmək və s.

## HEYVAN KƏSİLMƏSİNDƏ MƏKRUH OLAN ŞEYLƏR

**Məsələ:** ٢٦٦٤. Heyvan kəsilməsində bir neçə şey məkruhdur:

١-Məşhur nəzərə əsasən, heyvanın ruhu çıxmamış onun dərisini soymaq; vacib ehtiyat bu işi tərk etməkdir.

٢-Heyvanı, öz növündən olan başqa heyvanın görəcəyi bir yerdə kəsmək, məsələn, qoyunu digər qoyun, dəvəni digər dəvənin gözü qarşısında kəsmək.

٣-Heyvanı gecə ikən kəsmək; amma əgər ölməsi ehtimal olunsa, bu hal istisnadır. Həmçinin, cümə günü zöhrdən qabaq kəsmək məkruhdur, lakin zərurət olduqda, eybi yoxdur.

٤-İnsanın özü bəslədiyi heyvanı kəsməsi.

## SİLAHLA OV ETMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٢٦٦٥. Əgər əti halal olan vəhşi heyvanı silahla ovlasalar və ölsə, beş şərtlə halal və bədəni pakdır:

١-Ov silahı qılınc və bıçaq kimi kəsici, ya nizə və ox kimi iti bir şey olmalıdır. Əgər bir heyvanı tələyə salmaq, ağac, ya daş və bu kimi şeylərlə ovlasalar (və ölsə) pak deyildir və onu yemək haramdır. Əgər bir heyvanı tüfənglə ovlasalar, onun gülləsi iti olub heyvanın bədəninə bataraq bədənini parçalasa (və ölsə) pak və halaldır. Əgər güllə iti olmasa və təzyiqlə (güclə) heyvanın bədəninə bataraq onu öldürsə və ya hərarətin vasitəsilə heyvanın bədənini yandırsa və yanıq nəticəsində ölsə, onun pak və halal olması məhəlli-işkaldır.

٢-Ov edən kəs müsəlman olmalıdır, yaxud pis-yaxşını ayıra bilən müsəlman övladı olmalıdır. Deməli, əgər kafir, nəvasib, xəvaric və kafirliyinə hökm olunmuş və ğulat kimi, Həzrət Əmirəl-mö`minin Əli (əleyhissalam)-ı Allah bilənlərin ovladığı heyvan halal deyildir.

٣-Silahı heyvan ovlamaq üçün atmalıdır; əgər məsələn, bir yeri nişan alsa və təsadüfən heyvana dəyib öldürsə, o heyvan pak deyildir və onu yemək haramdır.

٤-Silahı işə salarkən Allahın adını çəkməlidir; və əgər qəsdən Onun adını çəkməsə, ov halal olmaz. Ancaq unutsa işkalı yoxdur.

٥-Heyvanın öldüyü zaman ona çatsın, və ya diri olsa da, onun başını kəsmək miqdarında vaxt olmasın, əgər onun başını kəsmək miqdarında vaxt ola-ola başını kəsməsə və o ölsə haramdır.

**Məsələ:** ٢٦٦٦. Əgər iki nəfər birlikdə bir heyvanı ovlasa və biri ovlamağı qəsd etsə, o biri qəsd etməsə; ya biri müsəlman, digəri kafir olsa; ya onlardan biri Allahın adını çəksə, digəri isə qəsdən çəkməsə, o heyvan halal deyildir.

**Məsələ:** ٢٦٦٧. Əgər heyvanı oxla vurandan sonra, məsələn, suya düşsə və insan o heyvanın həm ox vasitəsilə, həm də suya düşərək (bu iki səbəbin birlikdə tə`sir etməsini və nəticədə) can verməsini bilsə, halal deyildir, hətta əgər bilməsə ki, təkcə ox vasitəsilə can verib, yenə də halal olmaz.

**Məsələ:** ٢٦٦٨. Əgər heyvanı qəsbi silah, ya itlə ovlasa, ov halaldır və onun öz malı olur. Lakin günah etməkdən əlavə, itin və silahın icarə haqqını sahibinə verməlidir.

**Məsələ:** ٢٦٦٩. Əgər ov etməyin səhih olduğu qılınc, ya başqa bir şeylə şikar edib, ٢٦٦٥-ci məsələdə deyilmiş şərtlərlə heyvanı iki hissəyə

bölsələr, baş və boyunu bir tərəfdə qalsa və insan onun can verdiyi vaxt ona yetişsə hər iki hissə halaldır. Həmçinin, (gəlib çatdığı vaxt) heyvan diri olsa, ancaq başını kəsmək miqdarda vaxt qalmasa da, hökm eynidir. Amma əgər baş kəsmək miqdarda vaxt olsa və bir qədər diri qalması mümkün olsa, baş və boynu olmayan hissə haramdır, baş və boynu olan hissə isə, şəriətdə müəyyən olunmuş qayda ilə kəsilsə halal, əks təqdirdə isə haramdır.

**Məsələ:** ٢٦٧٠. Əgər heyvanı ov etməyin səhih olmadığı ağac, ya daş, ya başqa bir şeylə iki hissəyə bölsələr, baş və boyun olmayan hissə haramdır, baş və boyun olan hissə isə diri olub, bir miqdar diri qalması da mümkün olsa və onu şəriətdə müəyyən olunmuş qayda ilə kəssələr halal, əks təqdirdə həmin hissə də haram olar.

**Məsələ:** ٢٦٧١. Əgər heyvanı ov etsələr, ya başını kəssələr və onun qarnından diri bala çıxsa, onun başını şəriətdə müəyyən edilmiş qayda ilə kəssələr halal, əks təqdirdə isə haram olar.

**Məsələ:** ٢٦٧٢. Əgər heyvanı ov etsələr, ya başını kəssələr və onun qarnından ölü balasını çıxartsalar, bu halda onun xilqəti mükəmməl olsa və bədənində tük, ya yunu çıxmış olsa və anasını ovlamaq, ya başını kəsmək vasitəsilə ölmüş olsa, balasını anasının qarnından çıxarmaqda adi miqdardan çox tə`xirə yol verməsələr, pak və halaldır.

## OV İTİ İLƏ OV ETMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٢٦٧٣. Əgər ov iti ilə əti halal olan vəhşi bir heyvanı ovlasalar, onun pak və halal olmasının ٦ şərti vardır:

١-İt onu istənilən vaxt ovu götürmək üçün göndərdikdə gedəcəyi və qarşısını alan vaxt dayanacağı tərzdə tə`lim verilmiş it olmalıdır. Həmçinin, vacib-ehtiyata əsasən, adəti belə olmalıdır ki, sahibi gələnə qədər ovdan yeməsin, amma əgər adəti ovun qanını yemək olsa, ya təsadüf hallarda ovdan yesə, eybi yoxdur.

٢-Onu ova göndərsinlər. Əgər özü ovun dalınca getsə və bir heyvanı ovlasa (o ölsə), o heyvanı yemək haramdır. Hətta əgər özü ovun dalınca getsə və sonradan sahibi ova tez çatmaq üçün onu səsləsə, sahibinin səsi ilə tələssə də, vacib ehtiyata əsasən, o ovu (öldürdüyü halda) yeməkdən çəkinmək lazımdır.

٣-İti göndərən şəxs müsəlman, ya pis və yaxşını anlayan müsəlman övladı olmalıdır. Əgər kafir, ya nasibi, ya xəvaric, ya kafir hökmündə olan bə`zi ğulatlar kimisi iti ov dalınca göndərsə, o itin ovu haramdır.

٤-İti göndərərkən Allahın adı çəkilməlidir; əgər qəsdən Allahın adını çəkməsə, o ov haramdır. Ancaq unutmuş olsa, eybi yoxdur.

٥-Ov, itin dişindən aldığı yara nəticəsində ölmüş olsun; deməli, əgər it ovu boğsa, ya ov qaçmaqdan, ya qorxudan ölsə, halal deyildir.

٦-İti göndərən şəxs heyvanın öldüyü vaxt ora çatsın, ya əgər diri olsa da, onun başını kəsməyə vaxt qalmasın, bu şərtlə ki, gecikməkdə səhlənkar olmasın. Deməli, baş kəsmək qədər vaxt olsa və heyvanın başını kəsməsə, nəticədə heyvan özü ölsə, halal deyildir.

**Məsələ:** ٢٦٧٤. İti göndərən şəxs heyvanın başını kəsməyə vaxt olan zaman ora yetişsə, bu halda səhlənkarlıq etmədən məsələn, bıçağı çıxarmaq və bu kimi səbəblərlə vaxt keçsə və heyvan ölsə halaldır. Ancaq əgər yanında heyvanın başını kəsmək üçün bir şeyi olmasa və heyvan ölsə, halal olmaz; əgər bu halda iti buraxsa ki, onu öldürsün, halal olar.

**Məsələ:** ٢٦٧٥. Əgər bir heyvanı birlikdə ovlamaq üçün bir neçə iti göndərsə və onların hamısı ٢٦٧٣-cü məsələdə deyilmiş şərtlərə malik olsa, ov halaldır. Əgər onlardan birində o şərtlər olmasa, ov haramdır.

**Məsələ:** ٢٦٧٦. Əgər iti, bir heyvanı ovlamaq üçün göndərsələr və o, başqa bir heyvanı ovlayarsa o, ov halal və pakdır. Həmçinin əgər o heyvanı başqa bir heyvanla birgə ovlasa, onların hər ikisi halal və pakdır.

**Məsələ:** ٢٦٧٧. Əgər bir neçə nəfər birlikdə iti göndərsələr və onlardan biri kafir, ya kafir hökmündə olan bir kəs olsa, o ov haramdır. Həmçinin, onlardan biri Allahın adını qəsdən çəkməsə və itlərdən biri ٢٦٧٣-cü məsələdə deyilmiş tərzdə tə`lim görməmiş olsa, o ov haramdır.

**Məsələ:** ٢٦٧٨. Əgər şahin, ya ov itindən başqa bir heyvanla ov etsələr, o ov halal deyildir. Lakin heyvan diri olan bir vaxtda yetişib şəriətdə müəyyən olunmuş qaydalara əsasən başını kəssələr, halal olar.

## BALIQ OVU

**Məsələ:** ٢٦٧٩. Əgər pulcuqlu balığı diri halda sudan çıxarsalar və sudan kənarda can versə, pak və yeyilməsi halaldır. Əgər suda ölsə pakdır, ancaq yeyilməsi haramdır. Əgər balıqçının toruna düşüb suda ölsə, onun yeyilməsi halaldır. Pulcuqsuz balıq sudan diri çıxarılsa da və sudan kənarda can versə də haramdır.

**Məsələ:** ٢٦٨٠. Əgər balıq (atılıb) sudan kənara düşsə, ya dalğa onu sudan kənara atsa, ya su çəkilməklə balıq kənarda (quruda) qalsa, ölməmişdən əvvəl bir kəs onu əllə və ya hər hansı bir vasitə ilə tutsa, can verəndən sonra halaldır.

**Məsələ:** ٢٦٨١. Balığı ovlayanın müsəlman olması və balığı tutarkən Allahın adını çəkməsi lazım (vacib) deyildir. Lakin müsəlman onun tutulmasını görməli, ya başqa bir yolla arxayın olmalı, ya şər`i bir dəlili olmalıdır ki, balıq sudan diri tutulub, ya suda, (amma) torun içində ölüb.

**Məsələ:** ٢٦٨٢. Sudan ölü, yoxsa diri tutulması mə`lum olmayan ölü balıq müsəlmanın əlində olsa halaldır. Əgər kafirin əlində olsa və o,

müsəlmanın əlindən almamışdırsa, "diri tutmuşam" - desə də belə, haramdır. Ancaq onu diri tutduğuna dair dəlil olsa, yaxud sözünün əksi güman olunmayan siqə bir şəxs xəbər versə, halaldır.

**Məsələ:** ٢٦٨٣. Diri balığı yemək caizdir, amma əhvət ondan çəkinməkdir.

**Məsələ:** ٢٦٨٤. Əgər balığı diri-diri qızartsalar, ya (özü) ölməmişdən əvvəl onu öldürsələr, yemək caizdir, ancaq ondan çəkinmək müstəhəbb ehtiyatdır.

**Məsələ:** ٢٦٨٥. Əgər balığı sudan kənarda iki yerə bölsələr və onun diri qalan hissəsi suya düşsə, ehtiyata əsasən, sudan kənarda qalan hissəsini yemək caiz deyildir.

## ÇƏYİRTKƏ OVU

**Məsələ:** ٢٦٨٦. Əgər çəyirtkə əl və ya başqa bir vasitə ilə diri olaraq tutulsa, can verəndən sonra halaldır, onu tutan kəsin müsəlman olmağı və tutanda Allahın adını çəkməsi lazım (vacib) deyildir. Ancaq kafirin əlində ölü olan çəyirtkəni müsəlmandan almadığı və onu diri, yoxsa ölü halda götürdüyü mə`lum olmasa, "diri tutmuşam" - desə də belə, haramdır. Amma dəlil olsa, ya sözünün əksi güman olunmayan inanılmış bir şəxs kafirin onu diri tutduğunu desə, halaldır.

**Məsələ:** ٢٦٨٧. Qanad çıxarmamış və ya uça bilməyən çəyirtkəni yemək haramdır.

## YEMƏLİLƏRİN VƏ İÇMƏLİLƏRİN HÖKMLƏRİ

**Məsələ:** ٢٦٨٨. Ev toyuğunun, göyərçin və sərçə qismindən olanların ətini yemək halaldır. Bülbül, sığırçın və torağay da sərçə qismindəndir. Gecə quşu (yarasa), tovuz quşu və qarğanın bütün növləri və şahin, qartal, qırğı kimi caynaqlı olan, ya uçarkən qanad qalmağı (qanadlarını açıq halda saxlayıb) süzməyindən az olan hər bir quşun əti haramdır; həmçinin, qanad çalmağı, süzməyindən çox olması mə`lum olan quşlar istisna olmaqla, çinədanı, pətənəsi və ayağının arxasında caynağı olmayan quşlar da eyni hökmdədir. Qaranquş və şanapipiyi öldürmək və ətini yemək məkruhdur.

**Məsələ:** ٢٦٨٩. Əgər diri heyvandan ruhu olan bir şey qoparılrsa, məsələn, qoyunun quyruğunu, ya bir parça ətini qoparsalar, nəcis və haramdır.

**Məsələ:** ٢٦٩٠. Əti halal olan heyvanların bə`zi üzvləri haramdır və onlar aşağıdakılardan ibarətdir:

١) Qan;

٢) Fəzlə;

٣) Erkəklik cinsiyyət üzvü;

٤) Fərci (dişilik cinsiyyət üzvü);

٥) Balalığı;

٦) Duşvəl adlanan vəzlər (əzələlərin arasında olan artıq piylər);

٧) Donbəlan adlanan toxumu (xayalar);

٨) Beynində noxud şəklində olan şey;

٩) Bel sümüyün (fəqərə sütununun) içindəki haram ilik (onurğa beyni);

١٠) Öd kisəsi;

١١) Dalaq;

١٢) Sidik kisəsi;

١٣) Gözün bəbəyi.

Vacib ehtiyata əsasən, fəqərə sütununun hər iki tərəfində olan sarı (çeynənilə bilməyən) damarlar və dırnağın arasında olan piyi (buna «zatul-əşace» deyilir) yeməkdən çəkinsin. Bu ehtiyat piy barəsində daha tə`kidlə buyurulmuşdur. Quşlarda isə, qan və fəzlə kimi işkalsız olaraq haram olanlardan başqa, yuxarıda deyilən şeylərin hər hansı onlarda olsa, vacib ehtiyata əsasən, onların yeyilməsindən çəkinməlidir.

**Məsələ:** ٢٦٩١. Əti haram olan heyvanın, həmçinin, əti halal olan heyvanın bövlünü içmək haramdır. Eləcə də insan təbiətinin nifrət etdiyi

iyrənc şeylərin yeyilib-içilməsi caiz deyildir. Lakin müalicə məqsədilə dəvə, inək və qoyunun bövlünü, onlara ehtiyac duyulduğu surətdə içməyin maneəsi yoxdur.

**Məsələ:** ٢٦٩٢. Palçıq yemək haramdır. Həmçinin, ehtiyata əsasən, yerin torpaq, qum və daş kimi digər hissələri də eyni hökmü daşıyır. Dağıstan və ermənistan gilini müalicənin yalnız ona həsr odluğu surətdə yeməyin eybi yoxdur. Şəfa tapmaq üçün Həzrət Seyyidüş-şühəda (əleyhissalam)-ın türbətindən orta həcmli noxuddan çox olmayan miqdarda yeməyin eybi yoxdur. Daha yaxşı olar ki, türbəti bir miqdar suda həll edib qarışdırdıqdan sonra onun suyu içilsin.

**Məsələ:** ٢٦٩٣. Burun suyunu və ağıza gələn sinə bəlğəmini udmaq haram deyildir. Həmçinin, dişlərin dibini təmizləyərkən onun dibindən çıxan şeyi, əgər insanın təbiəti qəbul edirsə, udmağın eybi yoxdur.

**Məsələ:** ٢٦٩٤. Ölümə səbəb olacaq, ya insana əsaslı, nəzərə çarpacaq zərər verən şeylərin yeyilib-içilməsi haramdır.

**Məsələ:** ٢٦٩٥. At, qatır və ulaq ətini yemək məkruhdur. Əgər bir kəs (nəuzu billah) onlara yaxınlıq etsə, özü və törəmələrinin əti və südü haram, büvlü və peyini nəcis olar. Onları şəhərdən çıxarıb başqa bir yerdə satmaq lazımdır. Vəty edən şəxs onun qiymətini sahibinə verməlidir.

Əgər inək və qoyun kimi, əti halal olan heyvanla (nəuzu billah) yaxınlıq edilsə, onların büvlü və peyini nəcis olar. Onların ətini yemək və südünü içmək haram olar. Həmçinin, onların törəmələri də bu hökmü daşıyır. Onları dərhal öldürüb yandırmaq lazımdır. Onunla vəty edən şəxs onun pulunu sahibinə verməlidir.

**Məsələ:** ٢٦٩٦. Əgər çəpiş, əti və sümüyü bərkiyən miqdarda donuzdan süd əmsə özü və törəməsi haram olur. Həmçinin, südəmər quzu da vacib-ehtiyata əsasən, eyni hökmü daşıyır. Amma ondan (sümüyü bərkiyəndən) az miqdarda süd əmdiyi surətdə vacib-ehtiyata əsasən, istibra olunduğu təqdirdə halal olar. Onların istibrası yeddi gün qoyunun, ya keçinin döşündən süd əmməsi ilədir. Əgər süd əmməyə ehtiyacı yoxdursa, ٧ gün ot yeməlidir. Həmçinin, insanın nəcasətini yeməyə adət etmiş bir heyvanın da əti haramdır və istibra olunduqda halal olar. Onun istibra qaydası ٢٢٦-cı məsələdə deyilmişdir.

**Məsələ:** ٢٦٩٧. Şərab və sair spirtli içkiləri içmək haramdır və rəvayətlərdə həddindən çox məzəmmət olunmuşdur. Onların bə`zisi bu məzmundadır ki, Allaha qarşı spirtli içki içməkdən də şiddətli olacaq bir günah yoxdur. İmam Cə`fər Sadiq (əleyhissalam)-dan soruşdular ki, "şərab içmək daha pisdir, yoxsa namazı tərk etmək?" Həzrət buyurdu ki, *«şərab içmək. Çünki, şərab içən, onu içərkən öz Allahını tanımayacaq bir hala düşür.»* Həzrət Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih)-dən belə rəvayət olunmuşdur ki, *"Bütün günahların kökü şərabdır"* və bə`zi

rəvayətlərdə şərab içmək zina və oğurluqdan da ağır bir günah hesab edilmişdir. Allah-Taala şərabı, bütün pisliklərin, şər və xəbis işlərin kökü və mənşəyi olduğu üçün haram buyurmuşdur. Şərab içən kəs öz ağlını əldən verir, nəticədə öz Pərvərdigarını tanımır, hər bir günaha qurşanır, heç kəsin ehtiramını saxlamır, hər bir qohumu ilə əlaqəsini kəsir və hər bir aşkar çirkinliklərə mürtəkib olur.

**Məsələ:** ٢٦٩٨. İnsanın şərab içənlərdən biri hesab olunacağı təqdirdə, şərab içilən bir süfrədə oturması, habelə o süfrədən bir şey yeməsi haramdır.

**Məsələ:** ٢٦٩٩. Hər bir müsəlmana vacibdir ki, aclıq və susuzluqdan ölüm ayağında olan bir müsəlmana çörək və su verməklə onu ölümdən xilas etsin.

## YEYİB-İÇMƏKDƏ MÜSTƏHƏBB VƏ MƏKRUH OLANLAR

Hökmə istinad edilən bə`zi rəvayətlər, (bir əməlin) şər`ən müstəhəbb və məkruh olmasını bəyan etmək məqamında olmasa da, o işlərin zərər və faydasını açıqlayır.

**Məsələ:** ٢٧٠٠. Yemək yeməkdə bir neçə şey müstəhəbbdir:

١-Yeməkən öncə hər iki əlləri yumaq.

٢-Yemək yedikdən sonra hər iki əlləri yuyub dəsmalla qurulamaq.

٣-Süfrə sahibinin hamıdan qabaq yeməyə başlayıb, hamıdan axırda qurtarması və yemək yeməzdən qabaq əvvəlcə süfrə sahibinin öz əllərini yuması, sonra onun sağ tərəfində oturan adamdan başlayıb, sol tərəfində oturan adama qədər tərtibə əllərini yumaları. Yeməkdən sonra süfrə sahibinin sol tərəfində oturan birinci adamın əlini yumağa başlayaraq həmin tərtiblə süfrə sahibinə qədər hamının əllərini yumaları.

٤-Yeməyə başlayanda "Bismillah" demək. Ancaq süfrədə bir neçə cür yemək olsa, onların hər birini yeməyə başlayanda "Bismillah" demək müstəhəbbdir.

٥-Yeməyi sağ əl ilə yemək.

٦-Üç və daha artıq barmaqla yemək, iki barmaqla yeməmək.

٧-Əgər süfrə başında bir neçə nəfər əyləşmişsə, hər kəsin öz qarşısındakı yeməkdən yeməsi.

٨-Tikələri kiçik götürmək.

٩-Süfrədə çox oturub, yeməyi uzatmaq.

١٠-Yeməyi yaxşı-yaxşı çeynəmək.

١١-Yeməkdən sonra Allaha həmd-səna etmək.

١٢-Barmaqları yalamaq.

١٣-Yeməkdən sonra dişləri xilal etmək – aralarını təmizləmək. Lakin nar ağacının çöpü, reyhan çubuğu, qamış və xurma ağacının yarpağı ilə dişləri təmizləməmək.

١٤-Süfrədən yerə tökülənləri yığıb yemək. Ancaq çöldə, biyabanda yemək yedikdə, yerə tökülənləri quş və heyvanlar üçün saxlamaq müstəhəbdir.

١٥-Gecənin və gündüzün əvvəlində yemək yemək, günün ortasında və gecənin ortasında yemək yeməmək.

١٦-Yemək yeyəndən sonra arxası üstə uzanıb sağ ayağı sol ayağın üstünə qoymaq.

١٧-Yeməyin əvvəlində və axırında azacıq duz yemək.

١٨-Meyvəni yeməzdən əvvəl onu su ilə yumaq.

**Məsələ:** ٢٧٠١. Yemək yeyəndə bir neçə şey məkruhdur:

١-Tox halda yemək;

٢-Çox yemək;

٣-Yemək yeyəndə, yemək halında olan başqa birisinin üzünə baxmaq;

٤-Yeməyi isti (qaynar) halda yemək;

٥-Yeyib-içdiyini üfürmək;

٦-Süfrəyə çörək qoyulandan sonra başqa bir şeyi gözləmək;

٧-Çörəyi bıçaqla kəsmək;

٨-Çörəyi yemək qabının altına qoymaq;

٩-Sümüyə yapışmış əti, heç nə qalmayacağı şəkildə təmizləmək;

١٠-Meyvənin qabığını soymaq;

١١-Meyvəni axıra qədər yemədən atmaq.

**Məsələ:** ٢٧٠٢. Su içilməsində bir neçə şey müstəhəbbdir:

١-Suyu somurub içmək;

٢-Gündüz ayaq üstə durub su içmək;

٣-Suyu içməzdən öncə "Bismillah", sonra "Əl-həmdu lillah" demək;

٤-Suyu üç nəfəsə içmək;

٥-Su içməyə meyli olduqda su içmək;

٦-Su içəndən sonra həzrət Seyyidüş-şühəda İmam Hüseyn (əleyhissalam) və onun əhli-beytini yad etmək və o həzrətin qatillərinə lə`nət demək.

**Məsələ:** ٢٧٠٣. Çox su içmək, yağlı xörəkdən sonra və gecə ayaq üstə su içmək məzəmmət olunmuşdur. Həmçinin, sol əllə su içmək, qabın sınıq yerindən və dəstəyi olan yerindən su içmək də məzəmmət olunmuşdur.

## NƏZİR VƏ ƏHDİN HÖKMLƏRİ

**Məsələ:** ٢٧٠٤. Nəzir odur ki, insan Allah rizası üçün xeyirli bir işi görməyi özünə vacib etsin (iltizamlı olsun), ya edilməməsi üstün olan bir işi tərk etsin.

**Məsələ:** ٢٧٠٥. Nəzirdə siğə oxunmalıdır, amma onun ərəbcə oxunması lazım (vacib) deyil. Deməli, "əgər xəstəm sağalsa, Allah üçün fəqirə ١٠ manat vermək mənim boynumdadır" - desə, onun nəziri səhihdir.

**Məsələ:** ٢٧٠٦. Nəzir edən baliğ və aqil olmalı, qəsd və öz ixtiyarı ilə nəzir etməlidir. Buna görə də əgər bir kəs əsəbiləşdiyinə görə ixtiyarsız olaraq nəzir etsə, ya onu nəzir etməyə məcbur etsələr, onun nəziri səhih deyildir.

**Məsələ:** ٢٧٠٧. Müflis, yə`ni şəriət hakimi tərəfindən öz malından istifadə etməsi qadağan olunmuş şəxs və səfeh, yə`ni öz malını əbəs, lazımsız yerlərə sərf edən bir kəs əgər bir malını fəqirə verməyi nəzir etsə, səhih deyildir.

**Məsələ:** ٢٧٠٨. Əgər ər, öz arvadına nəzir etməyi qadağan etsə, bu halda nəzirə əməl etmək, ərinin haqqı ilə zidd olacaqsa, nəzir edə bilməz. Hətta bu surətdə ərin icazəsi olmadan qadının etdiyi nəzir batildir. Qadının, ərinin icazəsi olmadan öz malından həcc, ya zəkat, ya ata-anasına ehsan, ya sileyi-rəhim etmək kimi işlərdən qeyri şeyləri nəzir etməsinin səhihliyi məhəlli-işkaldır.

**Məsələ:** ٢٧٠٩. Əgər arvad ərinin icazəsi ilə nəzir etsə, ər onun nəzirini poza və onun nəzirə əməl etməyinin qarşısını ala bilməz.

**Məsələ:** ٢٧١٠. Əgər övlad atasının icazəsi ilə, ya icazəsi olmadan nəzir etsə, gərək nəzirinə əməl etsin. Lakin atası, ya anası onu, nəzir etdiyi əməldən çəkindirsə, onun nəziri səhih olmaz.

**Məsələ:** ٢٧١١. İnsan elə bir iş üçün nəzir etməlidir ki, onu yerinə yetirməyi mümkün olsun. Buna görə də, məsələn, Kərbəlaya piyada gedə bilməyəcək bir kəs oraya piyada getməsin nəzir etsə, nəziri səhih deyildir.

**Məsələ:** ٢٧١٢. Əgər bir şəxs haram, ya məkruh olan bir işi yerinə yetirəcəyini, ya vacib, yaxud müstəhəbb bir əməli tərk edəcəyini nəzir etsə, nəziri səhih deyildir.

**Məsələ:** ٢٧١٣. Əgər mübah bir işi yerinə yetirəcəyini, ya tərk edəcəyini nəzir etsə, bu halda onun yerinə yetirilməsi və tərk edilməsi hər bir cəhətdən eyni səviyyədə olarsa, nəziri səhih deyildir. Əgər onu

yerinə yetirmək müəyyən bir cəhətdən yaxşı olarsa və insan da məhz o cəhətə görə nəzir etsə, məsələn, ibadət etməyə quvvə toplamaq üçün yemək yeməyi nəzir edərsə, nəziri səhihdir. Həmçinin, mübah işi tərk etmək müəyyən bir cəhətdən yaxşı olarsa və insan da elə o cəhətə görə nəzir edərsə, məsələn, siqaret (sağlamlığa) zərərli olduğu üçün onu çəkməməyi nəzir edərsə, onun nəziri səhihdir.

**Məsələ:** ٢٧١٤. Əgər öz vacib namazını, öz-özlüyündə savabını artırmayan bir yerdə, məsələn, otaqda qılmağı nəzir edərsə, orada namaz qılmaq müəyyən bir cəhətə görə yaxşı olarsa, məsələn, sakitlik (xəlvət bir yer) olduğu üçün insan orada hüzuri-qəlb tapırsa, həmin cəhətə görə nəziri səhihdir.

**Məsələ:** ٢٧١٥. Əgər bir işi görəcəyini nəzir etsə, həmin işi nəzir etdiyi şəkildə yerinə yetirməlidir. Əgər ayın birində sədəqə verəcəyini, ya oruc tutacağını nəzir edərsə, bunları o gündən bir gün sonra, ya bir gün əvvəl yetirdiyi halda kifayət etməz. Həmçinin, xəstəsinin sağaldığı vaxt sədəqə verəcəyini nəzir edərsə, xəstə sağalmamışdan əvvəl sədəqə versə, kifayət etməz.

**Məsələ:** ٢٧١٦. Əgər oruc tutacağını nəzir etsə, lakin onun vaxtını və miqdarını müəyyənləşdirməsə, bu halda bir gün oruc tutsa, kifayət edər. Əgər namaz qılacağını nəzir edib, onun miqdar və xüsusiyyətlərini müəyyən etməsə, iki rükətli bir namaz qılsa, kifayət edər. Əgər sədəqə verəcəyini nəzir edib onun növünü və miqdarını müəyyən etməzsə, "sədəqə verdi" deyiləcək bir şey verərsə, öz nəzirinə əməl etmiş olur. Əgər Allah rizası üçün bir iş görəcəyini nəzir edərsə, bir namaz qılsa, ya bir gün oruc tutsa, ya bir şeyi sədəqə verərsə, öz nəzirini yerinə yetirmişdir.

**Məsələ:** ٢٧١٧. Əgər müəyyən bir gün oruc tutacağını nəzir etsə, gərək həmin günü oruc tutsun. Əgər qəsdən (həmin gün) oruc tutmasa, onu qəza etməkdən əlavə, kəffarəsini də verməlidir. Onun kəffarəsi andı pozmağın kəffarəsi kimidir (necə ki, ٢٧٣٤-cü məsələdə deyiləcək). Ancaq həmin gün ixtiyari olaraq səfərə gedə və oruc tutmaya bilər. Əgər (o gün) səfərdə olsa, iqamət qəsdi edib oruc tutması lazım deyildir. Amma səfər, ya xəstəlik səbəbinə oruc tutmasa, onun qəzasını tutması lazımdır. Həmçinin, vacib ehtiyata əsasən, heyz səbəbinə oruc tutmadıqda da hökm eynidir; hər bir halda, kəffarəsi yoxdur.

**Məsələ:** ٢٧١٨. Əgər insan öz ixtiyarı ilə nəzirinə əməl etməsə, kəffarə verməlidir.

**Məsələ:** ٢٧١٩. Əgər bir əməli müəyyən bir vaxta qədər tərk edəcəyini nəzir etsə, həmin vaxt keçdikdən sonra o əməli əncam verə bilər. Əgər o vaxt tamam olmazdan qabaq unudaraq, ya məcburiyyət qarşısında qalaraq o əməli yerinə yetirərsə ona bir şey vacib deyildir, lakin yenə də gərək həmin vaxta qədər o əməli yerinə yetirməsin. Amma

o vaxt tamam olmamış üzürlü səbəb olmadan o əməli ikinci dəfə yerinə yetirsə, gərək kəffarə versin.

**Məsələ:** ٢٧٢٠. Əgər bir kəs bir əməli tərk edəcəyini nəzir edib, onun üçün vaxt müəyyən etməsə, bu halda unudaraq, yaxud məcbur olaraq və ya qəflətdə olaraq o əməli yerinə yetirsə, ona kəffarə vacib deyildir. Lakin sonralar ixtiyarı ilə hər vaxt o əməli yerinə yetirsə, kəffarə vacibdir.

**Məsələ:** ٢٧٢١. Əgər hər həftədə müəyyən bir günü, məsələn, cümə gününü oruc tutacağını nəzir etsə, bu halda cümələrin biri Qurban, ya Fitr bayramına düşərsə, ya cümə günü başqa bir üzürlü səbəb irəli gəlsə, məsələn, səfər, ya xəstəlik qarşıya çıxsa, o günü oruc tutmamalı və onun qəzasını yerinə yetirməlidir. Həmçinin, vacib ehtiyata əsasən, heyz səbəbilə oruc tutmasa da, hökm eynidir.

**Məsələ:** ٢٧٢٢. Əgər müəyyən qədər sədəqə verəcəyini nəzir etsə və sədəqəni verməzdən qabaq ölsə, onun malından həmin miqdarda sədəqə verilməsi lazım (vacib) deyildir. Ancaq müstəhəbb ehtiyat budur ki, meyyitin varislərindən baliğ olanlar sədəqəni, öz paylarından (və) meyyitin tərəfindən versinlər.

**Məsələ:** ٢٧٢٣. Əgər müəyyən bir fəqirə sədəqə verəcəyini nəzir etə, onu başqa bir fəqirə verə bilməz. Əgər həmin fəqir ölsə, müstəhəbb ehtiyat budur ki, onun vərəsəsinə versin.

**Məsələ:** ٢٧٢٤. Əgər imamlardan (əleyhimussalam) birinin, məsələn, İmam Hüseyn (əleyhissalam)-ın ziyarətinə gedəcəyini nəzir etsə, başqa bir imamın ziyarətinə getməsi kifayət etməz. Əgər üzürlü səbəbə görə o imamın ziyarətinə gedə bilməsə, ona bir şey vacib deyildir.

**Məsələ:** ٢٧٢٥. Ziyarətə gedəcəyini nəzir edən bir şəxs ziyarət qüslünü və namazını nəzir etməsə, onları yerinə yetirməsi lazım (vacib) deyildir.

**Məsələ:** ٢٧٢٦. Əgər İmam (əleyhissalam) və İmam övladlarından birinin hərəminə nəzir etsə və onun sərf olunma yerlərini nəzərində tutmasa, onu hərəmin tə`miri, döşənməsi və işıqlandırılması və s. işlər üçün sərf etsin.

**Məsələ:** ٢٧٢٧. Əgər imamın (əleyhissalam) özü üçün bir şeyi nəzir etsə, bu halda müəyyən bir şeyə sərf edəcəyini qəsd etsə, gərək onu həmin yerə sərf etsin. Əgər müəyyən bir yerə sərf edəcəyini qəsd etməsə, gərək imamla (əleyhissalam) nisbəti (aidiyyatı) olacaq bir şeyə sərf etsin, məsələn, imamın fəqir zəvvarına, ya o imamın hərəminin tə`mir və bu kimi işlərinə; ya İmam (əleyhissalam)-a tə`zim və ehtiram oluncaq bir şeyə sərf etsin. Müstəhəbb ehtiyat budur ki, həmin işlərin savabını da o İmam (əleyhissalam)-a hədiyyə etsin. Həmçinin, imam övladlarına da bir şey nəzir etdikdə hökm eynidir.

**Məsələ:** ٢٧٢٨. Sədəqə, ya imamlardan biri üçün nəzir edilmiş qoyun, onu həmin yerə sərf etməzdən əvvəl süd, ya bala versə, nəzir edən kəsin malıdır, lakin qoyunun yunu və kökəldiyi artıq miqdar nəzirin bir hissəsidir.

**Məsələ:** ٢٧٢٩. Əgər xəstəsinin sağalacağı, ya müsafirinin qayıdacağı təqdirdə müəyyən bir əməli yerinə yetirəcəyini nəzir etsə, bu halda xəstəsinin nəzir etməzdən əvvəl sağalmış, ya müsafirinin nəzir etməzdən əvvəl gəlmiş olduğu mə`lum olsa, o nəzirə əməl etməsi lazım deyildir.

**Məsələ:** ٢٧٣٠. Əgər ata, ya ana öz qızını seyyidə ərə verəcəyini nəzir edərsə, qız təklif həddinə çatdıqdan sonra ərə getmək ixtiyarı onun öz əlindədir və onların nəzirinin e`tibarı yoxdur.

**Məsələ:** ٢٧٣١. Əgər şər`i bir ehtiyacı rəva olduğu təqdirdə xeyir bir iş yerinə yetirəcəyini Allahla əhd bağlasa, hacəti yerinə yetdikdən sonra o işi yerinə yetirməlidir. Həmçinin, əgər heç bir hacəti olmadan əhd etsə ki, müəyyən bir əməli yerinə yetirsin, o əməli əncam vermək ona vacib olar. Həmçinin, vacib ehtiyata əsasən, o iş mübah olsa, hər iki surətdə hökm eynidir.

**Məsələ:** ٢٧٣٢. Əhddə də, nəzirdə olduğu kimi, siğə oxunmalıdır və əhd etdiyi şey mərcuh (bəyənilməyən, məkruh) omamalıdır. Ancaq onun aid olduğu iş, əməlin rüchanının mö`təbər (şərt) olması – necə ki, bunu məşhur buyurmuşlar – məhəlli-işkaldır.

**Məsələ:** ٢٧٣٣. Əgər öz əhdinə əməl etməsə, gərək kəffarə versin; yə`ni ya bir qul azad etsin, ya ٦٠ fəqiri doyursun, ya iki ay ardıcıl olaraq tutsun.

## AND İÇMƏYİN HÖKMLƏRİ

**Məsələ:** ٢٧٣٤. Əgər bir kəs bir işi yerinə yetirəcəyi, ya müəyyən bir işi tərk edəcəyi, məsələn, oruc tutacağı, ya siqaret çəkməyəcəyi üçün and içsə, qəsdən (andını pozub) onunla müxalifət etsə, kəffarə verməlidir; yə`ni ya bir qul azad etməli, ya ١٠ fəqiri doyurmalı, ya onları geyimlə tə`min etməli, yaxud da əgər bunları edə bilməsə, üç gün ardıcıl olaraq oruc tutmalıdır.

**Məsələ:** ٢٧٣٥. And içməyin bir neçə şərti vardır:

١-And içən kəs baliğ və ağıllı olmalı, ixtiyar üzündən və qəsd edərək and içməlidir. Deməli, uşağın, məst adamın, dəlinin və and içməyə məcbur edilən bir kəsin andı düzgün deyildir. Həmçinin, əgər əsəbi halda, qəsd etmədən and içsə də hökm eynidir. Müflis və səfeh şəxsin and içməyi onun öz malından istifadə etməyi lazım tutursa, səhih deyildir.

٢-Yerinə yetirəcəyinə dair and içdiyi iş haram, ya məkruh; tərk edəcəyinə dair and içdiyi iş vacib, ya müstəhəbb bir iş olmamalıdır. Din və dünya məsləhətinə şamil olmayan mübah bir işi əncam vermək, yaxud tərk etməklə əlaqədar anda əməl olunmasının vacibliyi məhəlli-işkaldır.

٣-Allahın, müqəddəs Zatından başqa heç kəsə deyilməyəcək adlarından birinə, məsələn, "Allah" və "Xuda" kimi adlarına and içməlidir. Həmçinin, "Xaliq"və "Raziq" kimi bir ada and içsə ki, o ad Allahdan başqasına da deyildiyi halda, Allah-Taalaya daha çox deyildiyi üçün o adı bir şəxsə deyərkən ancaq Onun müqəddəs Zatı nəzərə gələrsə, andı səhihdir. Hətta həm Allaha, həm də başqalarına deyilən bir ada, Allahı nəzərdə tutub and içsə, vacib ehtiyata əsasən, o andına əməl etməlidir.

٤-Andı dilinə gətirməli, tələffüz etməlidir. Əgər yazsa, yaxud qəlbində qəsd etsə, səhih deyil. Ancaq lal insan işarə ilə and içsə, səhihdir.

٥-Andına əməl etmək onun üçün mümkün olmalıdır; əgər and içdiyi zaman mümkün olub, sonradan onu əncam verməkdən aciz olarsa, aciz olduğu zamandan e`tibarən, onun andı pozulur. Həmçinin, nəzir, and və əhdinə əməl etməyi dözülməz dərəcədə çətin olarsa, hökm eynidir.

**Məsələ:** ٢٧٣٦. Əgər ata öz övladının and içməsinin qarşısını alsa, ya ər öz arvadının and içməsinin qarşısını alsa, onun andı səhih deyildir.

**Məsələ:** ٢٧٣٧. Əgər övlad atasının və arvad ərinin icazəsi olmadan and içsə, ata və ər onların andını poza bilərlər. Hətta zahir budur ki, onların andı ata və ərin icazəsi olmadan səhih deyildir.

**Məsələ:** ٢٧٣٨. Əgər insan unutduğu üçün, ya məcburiyyət qarşısında olaraq, ya qəflətdə olma səbəbi ilə andına əməl etməsə, ona kəffarə vacib deyildir. Həmçinin, andına əməl etməməyə məcbur edildikdə də hökm eynidir. Vəsvas bir şəxsin and içməsi, məsələn, "Allaha and olsun ki, indi namaza başlayıram" - desə və vəsvəsəli olduğu üçün namaza məşğul olmasa, bu halda onun vəsvəsəsi qeyri-ixtiyari olaraq andına əməl etməyəcək dərəcədə olsa, kəffarəsi yoxdur.

**Məsələ:** ٢٧٣٩. Düz danıdşığına dair and içən şəxsin danışığı düz olarsa and içməsi məkruhdur; əgər yalan olsa, haram və böyük günahlardandır. Ancaq özünü, ya başqa bir müsəlmanı zalımın şərrindən xilas etmək üçün yalandan and içsə, eybi yoxdur, hətta bə`zən vacib də olur. Amma tövriyə edə bilsə – yə`ni and içdiyi vaxt elə niyyət etsin ki, yalan olmasın – vacib ehtiyat budur ki, tövriyə etsin. Məsələn, əgər zalım, bir kəsə əziyyət vermək istəsə və insandan onu görüb-görmədiyini soruşsa və insan o kəsi bir saat əvvəl gördüyü halda "görməmişəm" deyər, niyyətində isə ٥ dəqiqə bundan əvvəl görmədiyini qəsd edər.

## VƏQFİN HÖKMLƏRİ

**Məsələ:** ٢٧٤٠. Əgər bir kəs bir şeyi vəqf etsə, vəqf edən şəxsin özü və başqaları onu bağışlaya, sata bilməzlər, həmçinin, bir kəs ondan irs apara bilməz. Ancaq ٢١٢٢, ٢١٢٣-cü məsələlərdə deyilən bə`zi hallarda, vəqfin satılmasının eybi yoxdur.

**Məsələ:** ٢٧٤١. Vəqf siğəsini ərəbcə oxumaq lazım (vacib) deyil; hətta əgər "öz evimi vəqf etdim" - desə də, kifayət edər. Həmçinin, vəqfin inşa edilməsi bir əməli etməklə də gerçəkləşir, məsələn, vəqf etmək qəsdilə həsiri məscidə salsa, yaxud bir yeri məscid bina etmək üçün tikməyə başlasa. Məscid, mədrəsə kimi ümumi vəqflərədə, yaxud məsələn fəqirlərə, seyyidlərə vəqf edilən yerlərdə, vəqfin səhih omasında kiminsə onu qəbul etməsi lazım deyildir. Hətta xüsusi vəqflərdə də, məsələn, övlada olunan vəqfdə, qəbulun şərt olmaması əhvət olsa da, əqva budur ki, mö`təbər (şərt) deyildir.

**Məsələ:** ٢٧٤٢. Əgər vəqf üçün bir mülkü tə`yin etsə və vəqfi inşa etməmiş peşman olsa, ya ölsə, vəqf gerçəkləşmir.

**Məsələ:** ٢٧٤٣. Bir malı vəqf edən kəs, vəqfi inşa etdiyi zamandan malı həmişəlik olaraq vəqf etməlidir. Əgər məsələn "bu mal mən öləndən sonra vəqf olsun" - desə, siğə oxuduğu andan ölənə kimi vəqf olmadığı üçün, səhih deyildir. Həmçinin, əgər "on il vəqf olsun və ondan sonra olmasın" desə, ya "on il vəqf olandan sonra beş il vəqf olmasın, sonra yenə vəqf olsun" - desə, vəqf səhih deyildir.

**Məsələ:** ٢٧٤٤. Xüsusi vəqf o surətdə səhihdir ki, vəqf olunan malı kimin üçün vəqf edibsə, onun özünün, yaxud vəkilinin, ya vəlisinin istifadəsinə versin. Ancaq əgər bir şeyi öz səğir uşağına vəqf etsə və malı onun tərəfindən mülkiyyətə keçirib ixtiyarında saxlasa, vəqf səhihdir.

**Məsələ:** ٢٧٤٥. Məscid, mədrəsə və bu kimi ümumi vəqflərdə qəbz (ixtiyara keçirmək, təhvil almaq) əhvət olsa da, mö`təbər (şərt) deyildir. Qəbz də bubunla gerçəkləşir ki, məsələn, məscid vəqf edildikdə bir nəfər o məsciddə namaz qılsın, ya məqbərə (dəfn yeri) vəqf edildikdə bir kəsi orada dəfn etsinlər.

**Məsələ:** ٢٧٤٦. Vəqf edən kəs baliğ (həddi-büluğda) olmalıdır. Vəlisi tərəfindən vəqf etməyə icazəli olan müməyyiz uşağın vəqfinin səhih olması, məsləhət olduqda, uzaq görüş deyildir. Həmçinin, vəqf edən ağıllı olmali, bu işi qəsd etməlidir, bir kəs onu vəqfə məcbur etməməlidir, şər`ən öz malından istifadə (təsərrüf) edə bilməlidir. Buna görə də səfeh, yə`ni öz malını əbəs, boş yerə sərf edən və həmçinin,

şəriət hakimi tərəfindən öz malından istifadəyə qadağa qoyulmuş müflis şəxs əgər bir şeyi vəqf etsələr, nafiz (yetərli, kifayət) deyildir, ancaq (səfehdə) vəlinin və (müflisdə) tələbkarların icazəsi olsa, eybi yoxdur.

**Məsələ:** ٢٧٤٧. Əgər bir malı, ana bətnində olub hələ dünyaya gəlməmiş bir uşağa vəqf etsə, onun səhih olması məhəlli-işkaldır, ancaq hazırda mövcud olan şəxslərə və onlardan sonra, gələcəkdə dünyaya gələcək kəslər üçün vəqf etsə, hətta vəqf gerçəkləşən zaman ana bətnində olmasalar da belə, məsələn, bir şeyi öz övladlarına vəqf etsə ki, vəqf onlardan sonra onun nəvələri üçün olsun və hər dəstə biri-digərindən sonra o vəqfdən istifadə etsinlər, bu halda səhihdir.

**Məsələ:** ٢٧٤٨. Əgər bir şeyi özü üçün vəqf etsə, məsələn, bir dükanı, mənfəətinin ölümündən sonra qəbrinə sərf edilməsi üçün vərf etsə, səhih deyildir. Lakin, məsələn, bir malı fəqirlərə vəqf etsə və özü də fəqir olsa, vəqfin mənfəətlərindən istifadə edə bilər.

**Məsələ:** ٢٧٤٩. Əgər vəqf etdiyi bir şey üçün mütəvəlli[1] tə`yin etsə, vəqfin ixtiyarı vəqf edənin tə`yin etdiyi kəsdədir. Əgər mütəvəlli tə`yin etməsə, bu halda, məsələn, öz övladları kimi məxsus fərdlərə vəqf etmiş olsa və baliğ olsalar, ixtiyarı onların özü ilədir. Əgər baliğ olmasalar, ixtiyarı onların vəlisinin əlindədir. Ancaq vəqfin məsləhətinə və sonrakı təbəqələrin məsləhətinə aid olan təsərrüflərdə şəriət hakiminin icazəsi mö`təbərdir (şərtdir).

**Məsələ:** ٢٧٥٠. Əgər bir mülkü, məsələn, fəqirlərə, ya seyyidlərə vəqf edərsə, ya onun mənfəətinin xeyir işlərə sərf olunması üçün vəqf edərsə, onun üçün mütəvəlli tə`yin etmədiyi surətdə ixtiyarı şəriət hakiminin əlindədir.

**Məsələ:** ٢٧٥١. Əgər bir mülkü məxsus fərdlərə, məsələn, öz övladı kimi, vəqf etsə ki, nəsilbənəsil ondan istifadə etsinlər, bu halda vəqfin mütəvəllisi onu icarəyə versə və ölsə, icarə batil olmaz. Amma əgər vəqfin mütəvəllisi olmasa və mülk kimlərə vəqf olunubsa, o təbəqədən olanlar onu icarəyə versələr və icarə müddəti əsnasında ölsələr, bu halda sonrakı nəsil o icarəyə razı olmasalar, icarə batil olar. Əgər icarəyə götürən kəs icarə müddətinin hamısının pulunu veribsə, onların ölümündən icarə vaxtının axırına qədərki pulu onların malından ala bilər.

**Məsələ:** ٢٧٥٢. Əgər vəqf olunmuş mülk xarab olsa, vəqflikdən xaric olmaz, lakin vəqf elə bir ünvana bağlı olsa ki, həmin ünvan aradan getməklə vəqf üçün heç bir aidiyyat qalmır, məsələn, bir evi həmin quruluşda və formada qalacağı təqdirdə, məskən kimi istifadə etmək üçün vəqf etsələr, o (məskənlik ünvanı) aradan getdikdə vəqf batil olur və vəqf edənə, o olmadıqda isə onun vərəsəsinə qayıdır.

---

[1] Vəqfin idərə olunma məs`uliyyəyini öhdəsinə alan şəxs

**Məsələ:** ٢٧٥٣. Bir hissəsi müşa şəklində vəqf olan, bir hissəsi isə vəqf olmayan bir mülkün məxsus mütəvəllisi olsa, o, maliklə birlikdə vəqf olmayan hissəni mütəxəssislərin nəzarəti ilə vəqf olan hissədən bölə bilər. Əgər məxsus mütəvəllisi olmasa, şəriət hakimi və malik bölməyi öhdəsinə alırlar.

**Məsələ:** ٢٧٥٤. Əgər vəqfin mütəvəllisi vəqf olunan şeyə xəyanət etsə, şəriət hakimi əmin bir şəxsi ona qoşar ki, xəyanət etməsinə mane olsun. Əgər mümkün olmasa, onun yerinə başqa bir əmin (əanətdar) şəxsi mütəvəlli tə`yin edər.

**Məsələ:** ٢٧٥٥. Hüseyniyyəyə vəqf olunmuş xalçanı, üzərində namaz qılmaq üçün məscidə aparmaq olmaz, hətta o məscid hüseyniyyənin yaxınlığında olsa da belə.

**Məsələ:** ٢٧٥٦. Əgər bir mülkü məscidin tə`miri üçün vəqf etsələr, bu halda o məscidin tə`mirə ehtiyacı olmasa və ehtiyacın yaranması da hələ gözlənilmirsə, o mülkün mənfəətini (yığıb) tə`mir üçün saxlamaq ağıla batan olmasa, bu cür vəqfin səhih olması məhəlli-işkaldır.

**Məsələ:** ٢٧٥٧. Əgər bir mülkü, mənfəətini məscidin tə`mirinə, camaatın imamına (pişnamaza) və o məsciddə azan verən kəsə sərf etmək üçün vəqf etsələr, (bu işlərin) hər biri üçün nə qədər müəyyən edildiyini bilsələr, ya buna əmin olsalar, elə həmin qaydada sərf etməlidirlər. Əgər yəqin etməsələr, yaxud əmin olmasalar, əvvəlcə məscidi tə`mir etməlidirlər, əgər bundan artıq qalsa, vacib ehtiyata görə, imam və azan verən kəs öz aralarında bölməkdə sülh etməlidirlər.

## VƏSİYYƏTİN HÖKMLƏRİ

**Məsələ:** ٢٧٥٨. Vəsiyyət odur ki, insan, ölümündən sonra onun üçün bə`zi işləri yerinə yetirməyi tövsiyə etsin, ya ölümündən sonra malından bir şeyin bir kəsin mülkü olmasını desin, ya onun malından bir şeyi bir kəsin mülkiyyətinə keçirmələrini, ya vəqf etmələrini, ya xeyirli işlərədə sərf etmələrini desin, ya öz övladları və ixtiyarı onun əlində olan kəslər üçün qəyyum və başçı müəyyən etsin. Vəsiyyət olunan şəxsə «vəsi» deyilir.

**Məsələ:** ٢٧٥٩. Danışa bilməyən kəs, əgər işarə ilə öz məqsədini başa sala bilsə, hər bir iş üçün vəsiyyət edə bilər. Hətta danışa bilən şəxs də əgər məqsədini işarə ilə başa salaraq vəsiyyət etsə, səhihdir.

**Məsələ:** ٢٧٦٠. Əgər meyyitin imza və möhürü ilə olan bir yazı görsələr, bu halda yazı onun məqsədini başa salşa və onu vəsiyyət etmək üçün yazdığı mə`lum olsa, o yazıya uyğun olaraq əməl edilməlidir.

**Məsələ:** ٢٧٦١. Vəsiyyət edən kəs ağıllı olmalı, onu bu işə heç kim məcbur etməməlidir. Müməyyiz olduğu surətdə və vəsiyyəti əql sahibləri nəzərindən qəbul olunan on yaşlı uşaq öz malının ١/٣-ni qohumlarına və xeyir işlərə sərf olunmasını vəsiyyət etsə, səhihdir (yetərlidir). Vacib ehtiyata əsasən, ٧ yaşlı müməyyiz olan oğlan uşağının, malının bir miqadrını layiqli yerlərə sərf etmək üçün etdiyi vəsiyyətə əməl edilməlidir. Amma səfeh adamın vəsiyyəti, onun malından istifadə edilməsinə səbəb olacaqsa, səhih (yetərli) deyildir.

**Məsələ:** ٢٧٦٢. Özünü öldürmək qəsdilə məsələn,özünü yaralayan, ya zəhər içən və onun səbəbilə ölən bir kəs (ölməmişdən qabaq) öz malında vəsiyyət etməsi səhih deyildir. Lakin əgər bu əməldən əvvəl vəsiyyət etmiş olsa, vəsiyyəti səhihdir.

**Məsələ:** ٢٧٦٣. Əgər insan öz malından bir şeyin başqa bir kəsin olmasını vəsiyyət etsə və o şəxs vəsiyyəti qəbul etsə, vəsiyyəti, vəsiyyət edənin sağlığında qəbul etsə də, vəsiyyət edən (musi) öləndən sonra o, həmin şeyə malik olur. Hətta zahir budur ki, qəbul etmək mö`təbər (şərt) deyildir və vəsiyyətdən imtina (rədd) etmək malik olmağa sadəcə bir maneədir.

**Məsələ:** ٢٧٦٤. İnsan özündə ölüm əlamətlərini gördükdə dərhal camaatın əmanətləri ilə əlaqədar ٢٣٩٥-ci məsələdə deyilən vəzifələrinə əməl etməlidir. Əgər camaata borcludursa və borcu qaytarmağın vaxtı çatıbsa, tələbkar da öz haqqını istəyirsə, gərək versin. Əgər özü verə bilmirsə, ya hələ onu qaytarmaq vaxtı çatmayıbsa, ya borc sahibi onu

tələb etmirsə, vəsiyyət etmək və ona (vəsiyyətə) şahid tutmaqla olsa, gərək borcun ödənəcəyinə arxayın olsun.

**Məsələ:** ٢٧٦٥. Özündə ölüm əlamətlərini görən kəs əgər xüms, zəkat və məzalim verməyə borcludursa və dərhal verə bilməsə, bu halda özünün malı olduğu təqdirdə, ya kiminsə onları ödəməsinə ehtimal etdikdə, vəsiyyət etməlidir. Ona həcc vacib olsa da, hökm eynidir.

**Məsələ:** ٢٧٦٦. Özündə ölüm əlamətlərini görən kəsin əgər qəza namazı və orucu varsa, gərək onları yerinə yetirmək üçün vəsiyyət etsin, məsələn, malından onları yerinə yetirmək üçün əcir tutulmasını vəsiyyət etməlidir. Əgər malı olmasa və kiminsə onları təmənnasız yerinə yetirəcəyinə ehtimal etsə, yenə də vəsiyyət etməsi vacibdir. Əgər onun qəza namazları və orucları, ١٣٩٨-ci məsələdə izahatı ilə deyildiyi kimi, böyük oğula vacib olsa, bunu ona bildirməlidir.

**Məsələ:** ٢٧٦٧. Özündə ölüm əlamətləri hiss edən bir kəsin bir adamın yanında malı varsa və ya vərəsələrinin onu tapmayacağı bir yerdə gizlədibsə, bu halda bunu bilməməklə onların haqqı aradan gedəcəksə, gərək onlara xəbər versin. Bu zaman öz səğir uşaqları üçün qəyyum və başçı tə`yin etməsi lazım (vacib) deyil, lakin qəyyum olmadıqda onların malı aradan gedəcəksə, ya özləri tələf olacaqlarsa, onlar üçün əmin bir şəxsi qəyyum tə`yin etməlidir.

**Məsələ:** ٢٧٦٨. Vəsi ağıllı və əhvət budur ki, baliğ də olmalıdır. Ancaq işlərin yerinə yetirilməsində şərik olsun deyə, baliğ olandan sonra (baliğ olmayanı) digər vəsiyə əlavə etməyin eybi yoxdur. Müsəlman bir şəxsin vəsisi, onun kiçik uşaqlarına qəyyum olmaq kimi müsəlmana vilayəti (qəyyumluğu) gərəkli edərsə, müsəlman olmalıdır.

Vəsi, vəsiyyət edənə aidiyyatı olmayan vacib haqqları əda etmək və kiçik uşaqların malında təsərrüf etmək və bu kimi işlərdə, e`timad olunası şəxs olmalıdır. Ancaq vəsiyyət edənin vacibata aid olmayan işlərdə, məsələn, malının ١/٣-ni xeyir işlərdə sərf edilməsini vəsiyyət etmək kimi işlərdə isə vəsinin e`timad olunası şəxs olması lazım (vacib) deyildir.

**Məsələ:** ٢٧٦٩. Əgər insan özü üçün bir neçə vəsi tə`yin edərsə, onlara, hər birinin ayrı-ayrılıqda vəsiyyətə əməl etmələrinə icazə verərsə, vəsiyyəti yerinə yetirərkən bir-birindən icazə almaları lazım deyildir. Amma əgər icazə verməyibsə – istər hamısının vəsiyyətə birlikdə əməl edəcəyini desin, istərsə deməsin – bir-birinin nəzəri ilə vəsiyyətə əməl etməlidirlər. Əgər şər`i bir üzr olmadan birlikdə vəsiyyətə əməl etməyə hazır olmasalar, şəriət hakimi onları (həmkarlığa) məcbur edər, əgər itaət etməsələr, ya şər`i üzürləri olsa onlardan birinin yerinə başqasını tə`yin edər.

**Məsələ:** ٢٧٧٠. Əgər insan öz vəsiyyətindən dönsə, məsələn, malının ١/٣-ni bir kəsə vermələrini deyib, sonra «ona verməyin» - desə,

vəsiyyət batil olur. Əgər öz vəsiyyətini dəyişsə, məsələn, öz uşaqları üçün bir qəyyum tə`yin etsə və sonra başqasını onun yerinə seçsə, birinci vəsiyyəti batil olur və ikinciyə əməl olunmalıdır.

**Məsələ:** ٢٧٧١. Əgər öz vəsiyyətindən dönməsini mə`lum edəcək bir iş görsə, ya vəsiyyəti ilə zidd olan bir iş görsə, vəsiyyət batil olur.

**Məsələ:** ٢٧٧٢. Əgər müəyyən bir şeyin bir kəsə verilməsini vəsiyyət edəndən sonra, onun yarısını başqa birisinə verilməsini vəsiyyət etsə, onu iki yerə bölməli və hər birinə bir hissə verilməlidir.

**Məsələ:** ٢٧٧٣. Əgər bir şəxs ölümünə səbəb olan xəstəlik vaxtında malının bir qədərini birinə bağışlasa və vəsiyyət etsə ki, ölümündən sonra başqasına bir qədər mal versinlər, bağışladığı malı ٢٣٠٨-ci məsələdə deyildiyi kimi malın əslindən, vəsiyyət etdiyi malı isə malın ١/٣-dən xaric etməlidir.

**Məsələ:** ٢٧٧٤. Əgər malının ١/٣-ni satmayıb, gəlirini müəyyən bir yerə sərf etməyi vəsiyyət etsə, onun dediyinə uyğun əməl etməlidirlər.

**Məsələ:** ٢٧٧٥. Əgər ölümünə səbəb olan xəstəlik vaxtında bir kəsə borclu olduğunu desə, varislərə zərər vurmaq üçün dediyində ittiham olunsa, müəyyən etdiyi miqdarı malının ١/٣-dən verməlidirlər. Əgər ittiham olunmasa, onun iqrarı səhihdir və həmin miqdar malın əslindən verilməlidir.

**Məsələ:** ٢٧٧٦. Vəsiyyət əsasında bir şey veriləcək şəxsin vəsiyyət edilən vaxt mövcud olması lazım (vacib) deyil. Deməli, əgər filan bir qadının hamilə olacağı təqdirdə dünyaya gəlməsi mümkün olan uşağa bir şey verməyi vəsiyyət etsə və o uşaq vəsiyyət edənin ölümündən sonra mövcud olsa, həmin şeyi ona vermək lazımdır. Amma əgər mövcud olmasa, bu halda vəsiyyət edənin vəsiyyətindən, ya digər şahid və əlamətlərdən mə`lum olsa ki, uşağın olmadığı təqdirdə vəsiyyət edənin nəzəri həmin şeyi başqa yerdə sərf etməkdir, onun nəzərinə müvafiq əməl olunmalıdır. Əks təqdirdə vəsiyyət batildir və (uşaq üçün tə`yin olunan mal) vərəsələrə keçir. Əgər malından bir qədərinin ölümündən sonra başqa bir kəsin olmasını vəsiyyət etsə, bu halda vəsiyyət edən şəxs ölən vaxt həmin şəxs mövcud olsa, vəsiyyət səhihdir, əks təqdirdə batildir və onun üçün vəsiyyət etdiyi hər şey vərəsələrə keçir.

**Məsələ:** ٢٧٧٧. Əgər insan, bir şəxsin onu vəsi tə`yin etdiyini başa düşsə, (meyyitin təchizatından başqa bir şeylər üçün ki, onun hökmü ٥٥٥-ci məsələdə deyilib) bu halda vəsiyyət edənə xəbər vermiş olsa ki, vəsiyyətə əməl etməyə razı deyil, onun ölümündən sonra (vəsi tə`yin edilənin) vəsiyyətə əməl etməsi lazım (vacib) deyil. Ancaq o, ölməmişdən qabaq onu vəsi tə`yin etdiyini başa düşməsə, yaxud başa düşsə də, vəsiyyətə əməl etmək üçün hazır olmadığını ona bildirməmişdirsə, əgər məşəqqəti olmasa, gərək onun vəsiyyətinə əməl

etsin. Əgər vəsi, onun ölümündən qabaq elə bir vaxt agah olsa ki, vəsiyyət edən xəstəliyinin şiddətindən, ya başqa bir maneəyə görə özgəsinə vəsiyyət edə bilməsə, ehtiyata əsasən, vəsiyyəti qəbul etməlidir.

**Məsələ:** ٢٧٧٨. Əgər vəsiyyət edən kəs ölsə, vəsi özünü kənarlaşdırıb vəsiyyət edilən işləri yerinə yetirmək üçün başqasını tə`yin edə bilməz. Ancaq meyyitin məqsədinin vəsinin şəxsən özünün bu işləri yerinə yetirməsi olmadığını, əksinə o işlərin yerinə yetirməsini qəsd etdiyini bilsə, başqasını öz tərəfindən vəkil edə bilər.

**Məsələ:** ٢٧٧٩. Əgər bir şəxs iki nəfəri birlikdə vəsi etsə, bu halda onların biri ölsə, ya dəli olsa şəriət hakimi başqa bir nəfəri onun yerinə tə`yin edər. Əgər hər ikisi ölsə, ya dəli olsa, onda şəriət hakimi onların yerinə başqa iki nəfəri tə`yin edər. Ancaq əgər bir nəfər vəsiyyətə əməl edə bilərsə ikisini tə`yin etmək lazım deyil. Həmçinin o iki nəfərdən biri, ya hər ikisi kafir olsalar və vəsi olmaları səğir uşaqlar üzərində qəyyumluq kimi bir vilayət gətirdiyi surətdə də hökm eynidir.

**Məsələ:** ٢٧٨٠. Əgər vəsi təklikdə, ya başqasının köməkliyi ilə meyyitin işlərini yerinə yetirə biləməsə, şəriət hakimi ona kömək üçün əlavə bir nəfəri tə`yin edər.

**Məsələ:** ٢٧٨١. Əgər meyyitin malından bir miqdarı vəsinin əlində tələf olsa, bu halda o malı saxlamaqda səhlənkarlıq etmişsə, məsələn malı e`tibarlı, əmin-amanlı bir yerə qoymamışdırsa, ya onu sərf etməkdə həddi aşmışsa, məsələn, meyyit malın filan miqdarını filan şəhərin fəqirlərinə verilməsini vəsiyyət etmiş və o da malı başqa bir şəhərə aparsa və yolda tələf olsa, zamindir. Əgər səhlənkarlıq etməyib, ifrata da varmasa, zamin deyildir.

**Məsələ:** ٢٧٨٢. Əgər insan birini vəsi edib, onun öləcəyi təqdirdə başqasının vəsi olacağını desə, birinci vəsi öləndən sonra ikinci vəsi meyyitin işlərini yerinə yetirməlidir.

**Məsələ:** ٢٧٨٣. Meyyitə istitaət vasitəsilə vacib olmuş həcci, eləcə də xums, zəkat və məzalim kimi yerinə yetirilib, ödənilməsi vacib olan hüquq və borcları, hətta meyyit onları vəsiyət etməsə də belə, meyyitin malının əslindən verməlidirlər. Amma bu işlər üçün malının ١/٣-indən verilməsini vəsiyyət etsə, əməl olunmalıdır, amma əgər١/٣-i kifayət etməsə onda malın əslindən çıxarılmalıdır.

**Məsələ:** ٢٧٨٤. Əgər meyyitin malı borcundan, vacib həcc və ona vacib olan xüms, zəkat və məzalim kimi haqlarından artıq qalsa, bu halda malın ١/٣-ni, ya ١/٣-nin müəyyən bir qədərini bir yerə sərf etməyi vəsiyyət edibsə, o vəsiyyətə əməl olunmalıdır. Əgər vəsiyyət etməyibsə qalan mal varislərindir.

**Məsələ:** ٢٧٨٥. Əgər vəsiyyət etdiyi şey onun malının ١/٣-dən çox olsa, vəsiyyət ١/٣-dən artıq hissədə o surətdə səhihdir ki, varislər

vəsiyyətə icazə verdiklərini bildirən bir söz desinlər, ya bir iş görsünlər və onların sadəcə razı olmaqları kifayət etməz. Əgər o öləndən bir müddət sonra da icazə versələr, səhihdir. Varislərin bə`zisinin icazə verdiyi, bə`zisinin isə icazə vermədiyi surətdə vəsiyyət yalnız icazə verənlərin hissəsinə nisbətən səhih və yetərlidir.

**Məsələ:** ٢٧٨٦. Əgər meyyitin sərf etmək üçün tə`yin etdi malı, malının ١/٣-dən çox olsa və varislər onun ölümündən əvvəl icazə versələr, o öləndən sonra icazələrindən dönə bilməzlər.

**Məsələ:** ٢٧٨٧. Əgər malının ١/٣-dən onun xüms, zəkat və ya başqa borclarını verməyi vəsiyyət etsə, eləcə də (qəza) namaz və orucu üçün əcir tutmağı və fəqirlərə təam vermək kimi müstəhəbb bir iş görməyi də vəsiyyət etsə, əvvəlcə onun borcunu malının ١/٣-dən verməli, sonra bir şey artıq qalsa, namaz və orucu üçün əcir tutmalıdırlar. Əgər artıq qalsa, müəyyən etdiyi müstəhəbb işlərə sərf etməlidirlər. Əgər onun malının ١/٣-i yalnız borclarına çatsa vərəsələr də ١/٣-dən artıq xərclənməsinə icazə verməsələr, malın ١/٣-ni onun borcları ilə namaz, orucu arasında bölərlər və vacib olan mali çatışmamazlıq qalanını malın əslindən verilər.

**Məsələ:** ٢٧٨٨. Əgər borclarının verilməsini, (qəza) namaz və orucu üçün əcir tutulmasını, həmçinin, müstəhəbb bir iş yerinə yetirilməsini vəsiyyət etsə, bu halda bunları malının ١/٣-dən verilməsini vəsiyyət etməsə, bu surətdə onun borcu malının əslindən verilməlidir, əgər bir şey artıq qalsa, onun ١/٣-ni namaz, oruc və tə`yin etdiyi müstəhəbb işə sərf edərlər. Malın ١/٣-i bu işlərə kifayət etməsə, bu halda vərəsələr icazə versə, onun vəsiyyətinə əməl edilməlidir. Əgər icazə verməsələr, namaz və oruc üçün malın ١/٣-dən verərlər və əgər bir şey artıq qalarsa, müəyyən etdiyi müstəhəbb işə sərf edərlər.

**Məsələ:** ٢٧٨٩. Əgər bir şəxs meyyitin ona müəyyən məbləğdə mal verilməsini vəsiyyət etdiyini desə, bu halda iki adil kişi onun dediyini təsdiq etsə; ya and içsə və bir adil kişi də onu təsdiq etsə; ya bir adil kişi və iki adilə qadın, yaxud dörd adilə qadın onun dediklərinə şəhadət versələr, onun dediyi miqdarı ona verməlidirlər. Əgər bir adilə qadın şəhadət versə, tələb etdiyinin ١/٤-ni, iki adilə qadın şəhadət versə yarısını, ٣ adilə qadın şəhadət versə ٣/٤-nü ona verməlidirlər. Eləcə də, əgər öz dinlərində adil sayılan və kitab əhli olan iki kafir kişi onun dediyini təsdiq etsələr, bu halda meyyit vəsiyyət etməyə məcbur olubsa və vəsiyyət edərkən adil kişi və qadın omayıbsa, tələb etdiyi şeyi ona verməlidirlər.

**Məsələ:** ٢٧٩٠. Əgər bir şəxs "mən meyyitin malını müəyyən yerə sərf etmək üçün onun vəsisiyəm", ya "meyyit məni öz uşaqları üçün qəyyum tə`yin etmişdir" - desə, iki adil kişi onun dediyini təsdiq edən surətdə sözü qəbul olunmalıdır.

**Məsələ:** ٢٧٩١. Məşhur nəzərə əsasən, «bir kəs malından bir şeyi başqa bir kəsə verməyi vəsiyyət etsə və o kəs qəbul, ya rədd etməzdən qabaq ölsə, onun vərəsələri vəsiyyətdən imtina etməyincə, o şeyi qəbul edə bilərlər.» Lakin uzaq nəzər deyildir ki, əgər vəsiyyət edən ölsə, o malı vərəsələri irs aparsınlar və bu hökm o haldadır ki, vəsiyyət edən öz vəsiyyətindən dönməsin; əks təqdirdə onların o şey üzərində heç bir haqqı yoxdur.

## İRSİN HÖKMLƏRİ

**Məsələ:** ٢٧٩٢. Qohumluq (nəsəb) vasitəsilə irsə sahib olan kəslər üç dəstədir:

**١-ci dəstə:** meyyitin ata-anası və övladlarıdır. Övladları olmasa, övladların övladları nə qədər aşağı getsə də (nəvə, nəticə və s.), meyyitə hansı lap yaxındırsa o irs aparar. Birinci dəstədən bir nəfər də qalmış olsa, ikinci dəstə irs aparmaz.

**٢-ci dəstə:** baba, nənə, qardaş və bacılardır. Qardaş və bacısı olmadıqda, onların övladlarından meyyitə ən yaxın olanlar irs aparar. Bu dəstədən bir nəfər də olsa belə, qalmışdırsa, üçüncü dəstə irs aparmaz.

**٣-cü dəstə:** əmi, bibi, dayı, xala və onların övladlarıdır. Meyyitin əmisi, bibisi, dayısı və xalalarından biri diri olduqda onların övladları irs aparmaz. Ancaq meyyitin varisi ata tərəfdən bir olan bir əmisi və ata-ana tərəfdən bir olan əmisi oğlu olarsa, ata-anadan bir olan əmioğlusu irs aparır və təkcə ata tərəfdən olan əmisi irs aparmaz. Bu deyilən surətdən başqasında ehtiyat vacib budur ki, məxsusən onlarla yanaşı iki dayı, ya xala olduğu surətdə, irs sülh etməklə tamamlansın.

**Məsələ:** ٢٧٩٣. Əgər meyyitin özünün əmi, bibi, dayı və xalası və onların övladları, nə qədər aşağı getsə, olmasa, meyyitin ata və anasının əmisi, bibisi, dayısı və xalası irs aparar. Əgər bunlar da olmasa, onların övladları irs aparar. Onlar da olmadıqda meyyitin baba və nənəsinin əmisi, bibisi, dayısı və xalası irs aparar. Əgər bunlar da olmasa, onların övladları irs aparar.

**Məsələ:** ٢٧٩٤. Ər və arvad sonradan deyiləcək qayda ilə biri-birindən irs aparar.

### BİRİNCİ DƏSTƏNİN İRSİ

**Məsələ:** ٢٧٩٥. Əgər meyyitin varisi yalnız birinci dəstədən bir nəfər olsa, məsələn, ata, ya ana, ya bir oğlu, ya bir qızı olsa, meyyitin malının hamısı ona çatar. Əgər bir neçə oğlu, ya bir neçə qızı olsa, malın hamısı onların arasında bərabər şəkildə bölünər və əgər oğlan və qız olsa, malı elə bölməlidirlər ki, hər oğlan qızdan iki dəfə artıq irs aparsın.

**Məsələ:** ٢٧٩٦. Əgər meyyitin varisi yalnız onun ata və anası olsa, malı ٣ hissəyə bölünər: onun iki hissəsi atasına və bir hissəsi anasına çatar. Ancaq əgər meyyitin iki qardaşı, ya dörd bacısı, ya bir qardaşı və iki bacısı olmuş olsa və onların hamısı müsəlman, azad və meyyitlə

birgə bir atadan olsalar, – istər onların anası da meyyitin anası ilə bir olsun, istərsə də olmasın, həmçinin həml (ana bətnində) olmasalar, meyyitin ata-anası olduğu vaxta qədər bunlar irs aparmasa da, onların olmasına görə ana malın ١/٦-ni irs aparır, ata isə qalanını irs aparar.

**Məsələ:** ٢٧٩٧. Əgər meyyitin varisi yalnız ata, ana və bir qız olsa, bu halda meyyitin atadan bir olan iki qardaşı, ya ٤ bacısı, ya bir qardaşı və iki bacısı olmasa, (şərtləri əvvəlki məsələdə deyildi) malı beş yerə bölərlər: ata və ana hər biri onun bir hissəsini, qız isə üç hissəsini irs aparar. Əgər ata tərəfdən bir olan iki qardaşı, ya ٤ bacısı, ya bir qardaşı və iki bacısı olsa, (əvvəlki məsələdə deyilən şərtlə) malı ٦ yerə bölərlər: ata və ananın hər biri bir hissəni, qız isə üç hissəni irs aparar. Yerdə qalan bir hissə dörd yerə bölünər: bir hissəsi ataya, üç hissəsi isə qıza verilər. Nəticədə meyyitin malı ٢٤ hissəyə bölünmüş olur ki, onun ١٥-i qızın, beşi atanın və dördü isə ananın payına düşür. Amma tə`kidli ehtiyat budur ki, malı ata və qızın razılığı ilə beş hissəyə bölsünlər.

**Məsələ:** ٢٧٩٨. Əgər meyyitin varisi yalnız atası, anası və bir oğlu olsa, onun malı ٦ hissəyə bölünməlidir: ata və anası hər biri bir hissə, oğlu isə dörd hissəni irs aparır. Əgər bir neçə qızı və ya bir neçə oğlu olsa, o dörd hissəni bərabər şəkildə bölməlidirlər. Əgər oğlan və qız olsalar, o ٤ hissəni elə bölməlidirlər ki, hər oğul qızdan iki dəfə artıq irs aparsın.

**Məsələ:** ٢٧٩٩. Əgər meyyitin varisi yalnız ata və ya anası və bir, yaxud bir neçə oğlu olsa, malı ٦ hissəyə bölərlər, onun bir hissəsi ata və ya anaya və ٥ hissəsi isə oğula çatır. Əgər bir neçə oğlu olsa, o beş hissəni bərabər surətdə bölərlər.

**Məsələ:** ٢٨٠٠. Əgər meyyitin varisi yanız atası və ya anası, eləcə də oğul və qızı olsa, malı ٦ yerə bölünər: bir hissəsini ata və ya anası irs aparır, qalanını isə hər oğlunun qızdan iki dəfə çox mala sahib olacağı tərzdə bölərlər.

**Məsələ:** ٢٨٠١. Əgər meyyitin varisi yalnız atası və ya anası və bir qızı olsa, malı ٤ yerə bölərlər: onun bir hissəsi ata və ya nanın, qalanı isə qızın payına düşər.

**Məsələ:** ٢٨٠٢. Əgər meyyitin varisi yalnız atası və ya anası və bir neçə qızı olsa, malı ٥ yerə bölərlər: onun bir hissəsini ata və ya ana aparır, qalan ٤ hissəsini isə qızlar öz aralarında bərabər şəkildə bölərlər.

**Məsələ:** ٢٨٠٣. Əgər meyyitin övladı olmasa və oğul nəvəsi, hətta qız da olsa, meyyitin oğlunun payını irs aparar. Əgər onun qız nəvəsi, oğlan olsa da, meyyitin qızına düşən payı irs aparar, məsələn, əgər meyyitin öz qızından bir oğul nəvəsi və oğlundan bir qız nəvəsi olsa, malı ٣ yerə bölərlər: bir hissəsini qızının oğluna və ٢ hissəsini isə oğlunun qızına verərlər.

## İKİNCİ DƏSTƏNİN İRSİ

**Məsələ:** ٢٨٠٤. Qohumluq (nəsəb) vasitəsilə irs aparan ikinci dəstə – meyyitin babası, nənəsi, qardaşı və bacısıdır. Əgər qardaşı və bacısı olmasa, onların övladları, nə qədər aşağı getsələr də, irs aparar.

**Məsələ:** ٢٨٠٥. Əgər meyyitin varisi yalnız bir bacısı, ya bir qardaşı olsa, malın hamısı ona çatar. Əgər ata-anadan bir olan bir bir neçə qardaşı, ya bacısı olsa, mal onların arasında bərabər surətdə bölünər. Ata-anadan bir olan bacı və qardaş bir yerdə olsa hər qardaş, bacının iki bərabəri irs aparar. Məsələn, əgər ata-anadan bir olan iki qardaş və bir bacısı varsa, malı beş yerə bölərlər: qardaşlardan hər biri iki, bacısı isə bir hissəni irs aparar.

**Məsələ:** ٢٨٠٦. Əgər meyyitin ata-anadan bir olan qardaş və bacısı olsa, (meyyitlə) anadan ayrı olan və yalnız atadan bir olan qardaş və bacısı irs aparmaz. Əgər meyyitin ata-anadan bir olan qardaşı və bacısı yoxdursa, bu halda yalnız atadan bir olan bir bacısı, ya bir qardaşı varsa, malın hamısı ona çatar.Əgər təkcə atadan bir olan bir neçə qardaşı, ya bir neçə bacısı varsa, mal onların arasında bərabər surətdə bölünər. Əgər atadan bir olan həm bacısı həm də qardaşı varsa, hər qardaş bacısından iki qat artıq irs aparar.

**Məsələ:** ٢٨٠٧. Əgər meyyitin varisi yalnız anadan bir olan və atadan ayrı olan bir qardaşı, ya bir bacısı olsa, malın hamısı ona çatır. Əgər anadan bir olan bir neçə qardaşı, ya bir neçə bacısı varsa, ya anadan bir olan bir neçə qardaşı və bacısı olsa, mal onların arasında bərabər surətdə bölünər.

**Məsələ:** ٢٨٠٨. Əgər meyyitin ata-anadan bir olan bacısı və qardaşı, atadan bir olan qardaşı və bacısı və anadan bir olan bir qardaşı və ya bacısı olarsa, atadan bir olan qardaş və bacısı irs aparmaz və meyyitin malı ٦ yerə bölünər: onun bir hissəsini anadan bir olan qardaş və bacısı (öz aralarında bərabər şəkildə) bölərlər və qalanını isə ata-anadan bir olan bacı və qardaş irs aparar və hər qardaş bacıdan iki qat artıq irs aparar.

**Məsələ:** ٢٨٠٩. Əgər meyyitin ata-anadan bir olan qardaş və bacısı, atadan bir olan qardaş və bacısı və anadan bir olan qardaş və bacısı olsa, atadan bir olan irs aparmaz və mal ٣ hissəyə bölünər: onun bir hissəsini anadan bir olan qardaş və bacı bərabər surətdə öz aralarında bölər və qalanını isə ata-anadan bir olan qardaş və bacıya verərlər: hər qardaş bacıdan iki qat artıq irs aparar.

**Məsələ:** ٢٨١٠. Əgər meyyitin varisi atadan bir olan qardaş və bacısı, anadan bir olan bir qardaşı, ya anadan bir olan bir bacısı varsa, onun malı ٦ yerə bölünər: onun bir hissəsini anadan bir olan qardaşı,

yaxud bacısı götürər, qalanını isə atadan bir olan qardaş və bacısına verərlər: hər bir qardaş, bacıdan ٢ dəfə çox irs aparar.

**Məsələ:** ٢٨١١. Əgər meyyitin varisi atadan bir olan qardaşı və bacısı, anadan bir olan bir neçə qardaşı və bacısı olarsa, onun malı ٣ yerə bölünər: onun bir hissəsi anadan bir olan qardaş və bacı arasında bərabər bölünər və qalanını isə atadan bir olan bacı və qardaşına verərlər: hər bir qardaş bacıdan iki dəfə çox irs aparar.

**Məsələ:** ٢٨١٢. Əgər meyyitin varisi yalnız onun qardaşı, bacısı və arvadı olsa, arvadı, sonradan izahı veriləcək qaydada öz irsini götürər, qardaşı və bacısı əvvəlki məsələdə deyilən qaydada irs apararlar. Həmçinin, əgər bir qadın ölsə və onun varisi yalnız onun bacısı, qardaşı və əri olsa, əri malın yarısını irs aparır, qardaş və bacısı əvvəlki məsələlərdə deyilmiş qayda ilə öz irslərini götürərlər. Lakin ər, ya arvad irs apardığına görə anadan bir olan bacı və qardaşın payından bir şey azalmaz, amma ata-anadan bir olan bacı və qardaşın, ya atadan bir olan bacı və qardaşın payından bir şey əskilər, məsələn, əgər meyyitin varisi əri, anadan bir olan bacısı və qardaşı, eləcə də ata-anadan bir olan bacı və qardaşı olarsa, malın yarısı ərə çatar və malın əslinin ١/٣-i anadan bir olan qardaş və bacıya verilər, qalanı isə ata-anadan bir olan qardaş və bacıya çatar. Buna görə də əgər onun malının hamısı ٦ manat olsa, üç manat ərə, ٢ manat anadan bir olan qardaş və bacıya çatar, bir manat isə ata-anadan bir olan bacıya və qardaşa çatır.

**Məsələ:** ٢٨١٣. Əgər meyytin qardaşı və bacısı yoxdursa onların irs payını övladlarına verərlər. Onun anadan bir olan qardaşın və bacısının uşaqlarının payı onların arasında bərabər surətdə bölünər. Anadan, yaxud ata-anadan bir olan qardaş və bacısı uşaqlarına, hər oğlan uşağı qızdan iki dəfə çox irs aparar. Amma əhvət budur ki, (payların bölünməsində) sülh etsinlər.

**Məsələ:** ٢٨١٤. Əgər meyyitin varisi yalnız bir baba, ya bir nənədirsə, ana, ya ata tərəfdən olmasından asılı olmayaraq malın hamısı ona çatar. Meyyitin babası ola-ola babasının atası irs aparmaz. Əgər meyyitin varisi yalnız ata tərəfdən olan baba və nənəsidirsə, malı ٣ hissəyə bölünər: iki hissəsi babasının, bir hissəsi isə nənəsinin payına düşər. Əgər ana tərəfdən baba və nənəsi olsa, malı bərabər surətdə öz aralarında bölərlər.

**Məsələ:** ٢٨١٥. Əgər meyyitin varisi yalnız ata tərəfdən olan bir babası, ya nənəsi və ana tərəfdən olan bir babası, ya nənəsi olsa, malı ٣ yerə bölüb ٢ hissəsini ata tərəfdən olan baba, ya nənə, bir hissəsini isə ana tərəfdən olan baba, ya nənə götürər.

**Məsələ:** ٢٨١٦. Əgər meyyitin varisi ata tərəfdən olan baba və nənəsi, eləcə də ana tərəfdən olan baba və nənəsi olsa, malı ٣ hissəyə bölərlər, onun bir hissəsini ana tərəfdən olan babası və nənəsi bərabər

şəkildə bölər, iki hissəsini isə ata tərəfdən olan babası və nənəsi götürər. Baba nənədən iki dəfə artıq irs aparar.

**Məsələ:** ٢٨١٧. Əgər meyyitin varisi yalnız arvadı, ata tərəfdən olan babası və nənəsi ilə ana tərəfdən olan baba və nənəsi olsa, arvad izahı sonradan veriləcək qayda ilə öz irsini göürər və meyyitin malının əslinin üçddə biri onun ana tərəfdən olan baba və nənəsinə verilər və öz aralarında bərabər surətdə bölərlər. Malın qalanı isə ata tərəfdən olan baba və nənəsinə çatar; baba nənədən iki dəfə çox irs aparar. Əgər meyyitin varisi babası və nənəsi ilə əri olsa, ər onun malının yarısını irs aparır, baba və nənə isə əvvəlki məsələlərdə deyildiyi kimi öz irslərini götürərlər.

**Məsələ:** ٢٨١٨. Qardaşın, ya bacının, yaxud qardaşların, ya bacıların baba, ya nənə ilə, yaxud babalar, ya nənələrlə birlikdə olduqda irs aparmasının bir neçə surəti var:

١-Baba, ya nənənin və qardaş, ya bacının hamısı ana tərəfdən olsa, bu təqdirdə meyyitin malı onların arasında, kişi və qadın olmaqda cinsləri müxtəlif olsa da, bərabər surətdə bölünər.

٢-Onların hamısı ata tərəfdən olsa, bu surətdə onların hamısı qadın, ya hamısı kişi olduğu fərz olunsa, mal onların arasında bərabər olaraq bölünər. Əgər (cins baxımından) müxtəlif olsalar, bu surətdə kişi qadından iki dəfə çox irs aparar.

٣-Baba və ya nənədən hər biri ata tərəfdən olsa və qardaş, ya bacı ata və ana tərəfdən olsa, bu surətin hökmü keçən surətdəki hökmdür. ٢٨٠٩-cu məsələdən mə`lum oldu ki, meyyitin ata tərəfdən olan qardaşı, ya bacısı əgər ata-ana tərəfdən bir olan qardaş, ya bacısı ilə birgə irs aparsalar, təkcə ata tərəfdən olan irs aparmaz.

٤-Babaların, ya nənələrin bə`zisi ata tərəfdən, bə`zisi ana tərəfdən olsa, istər irs aparanların hamısı kişi, istərsə də hamısı qadın və yaxud müxtəlif olsalar; həmçinin, qardaşlar, ya bacılar da belə olsalar, bu surətdə meyyitin malının ١/٣-i ana tərəfdən olan qohumların – qardaşlar, bacılar, babalar və nənələrin arasında bərabər surətdə bölünər, hətta (irs aparanlar) kişi və qadınlıqda müxtəlif olsalar da belə. Amma ata tərəfdən olan qohumlara isə kişinin qadından iki dəfə çox irs aparması əsasında malın ٢/٣-si verilər. Əgər onların arasında müxtəliflik olmasa, yə`ni hamısı kişi, ya hamısı qadın olsalar, onların arasında bərabər surətdə bölünər.

٥-Ata tərəfdən olan baba, ya nənə ilə, ana tərəfdən olan qardaş, ya bacı irs aparsalar, bu surətdə qardaş, ya bacının bir nəfər olduğu fərz edildikdə, malın ١/٦-ni irs aparar. Əgər bir neçə nəfər olsalar, ١/٣-ni öz aralarında bərabər surətdə bölərlər. Malın qalanı isə baba, ya da nənənindir. Əgər baba və nənə hər ikisi də varsa, baba nənədən iki dəfə çox irs aparar.

٦-Ana tərəfdən olan baba, ya nənə ilə ata tərəfdən olan qardaşla birgə irs apardığı surətdə, baba, ya nənə üçün ١/٣-dir – bir nəfər olsa da baba, ya nənə malın ١/٣-ni, həmçinin, bir nəfər qardaş olduqda o da malın ٢/٣-ni irs aparar; yox əgər baba, ya nənə ilə ata tərəfdən olan bacı da onunla olsa, bir nəfər olduğu surətdə yarısını götürər. Əgər bir neçə nəfər olsa, ٢/٣-ni götürər. Hər bir surətdə baba, ya nənə ١/٣-ə sahib olar. Buna görə də əgər bir bacı olsa, vacibi irsdən (fərizədən) artıq qalan ١/٦-i əqvaya görə bacıya qayıdır, amma sülh etmək əhvətdir.

٧-Babalar, ya nənələrdən bə`zisi ata, bə`zisi ana tərəfdən olmaqla, ata tərəfdən olan qardaş, ya bacı ilə birgə irs aparsalar, bir, ya bir neçə nəfər olmağına baxmayaraq, ana tərəfdən olan baba, ya nənə malın ١/٣-ni irs aparar, bir neçə nəfər olduqda isə, kişi və qadın olmaqla müxtəlifliyə baxmayaraq, malı öz aralarında bərabər surətdə bölərlər. Ata tərəfdən olan baba, ya nənə ilə ata tərəfdən olan qardaş və ya bacı malın ٢/٣-ni irs aparırlar, kişi və qadın kimi müxtəlif olduğu halda kişi qadından iki dəfə artıq irs aparar, amma müxtəlif olmadıqda bərabər surətdə bölünər. Əgər baba, ya nənələrlə, ana tərəfdən olan qardaş, ya bacı da irs aparsa, ana tərəfdən olan baba, ya nənə ilə ana tərəfdən olan qardaş, ya bacı malın ١/٣-ni öz aralarında bərabər surətdə bölərlər, hətta kişi və qadın olmaqla müxtəlif olsalar da belə. Ata tərəfdən olan baba, ya nənə malın ٢/٣-ni irs aparır, kişi və qadınlıqda müxtəlif olduqda kişi qadından iki qat artıq, müxtəlif olmadıqda isə bərabər surətdə bölərlər.

٨-Qardaş, ya bacıların bə`zisi ata tərəfdən, bə`zisi isə ana tərəfdən olsa və onlarla ata tərəfdən olan baba, ya nənə olsa, bu halda bacı, ya qardaşın tək olduğu surətdə malın ١/٦-i, əgər bir neçə nəfər olsalar, ١/٣-ni öz aralarında bərabər surətdə bölәcəklər. Ata tərəfdən olan bacı, ya qardaş, ata tərəfdən olan baba, ya nənə ilə birgə malın qalanını, kişi və qadın olmaqla müxtəlif olmayan surətdə öz aralarında bərabər bölәcəklər. Müxtəlif olan surətdə isə, kişi qadından iki dəfə çox irs aparacaq. Əgər o qardaş, ya bacılarla ana tərəfdən olan baba, ya nənə də olsa, ana tərəfdən olan baba və ya nənə, ana tərəfdən olan qardaş, ya bacı ilə birlikdə malın ١/٣-ni öz aralarında bərabər surətdə bölәcəklər. Ata tərəfdən olan bacı, ya qardaşı irsin ٢/٣-ni aparır, cinsləri müxtəlif olduqda kişi və qadından ٢ dəfə çox, müxəlif olmadıqda isə öz aralarında bərabər surətdə bölәcəklər.

**Məsələ:** ٢٨١٩. Meyyitin qardaş və ya bacısı olduğu təqdirdə qardaşının və ya bacısının uşağına irs yetişməz. Lakin bu hökm, qardaşın və ya bacının övladının irs aparmasının qardaşın və bacının irsinə maneçilik törətmədiyi yerlərə aid deyildir, məsələn, əgər meyyitin ata tərəfdən olan qardaşı və ana tərəfdən olan babası varsa, ata tərəfdən olan qardaşı malın ٢/٣-ni və ana tərəfdən olan babası ١/٣-ni irs

aparır. Bu surətdə əgər meyyitin ana tərəfdən olan qardaşının oğlu da olsa, ana tərəfdən olan babası ilə birgə malın ١/٣-nə şərik olur.

## ÜÇÜNCÜ DƏSTƏNİN İRSİ

**Məsələ:** ٢٨٢٠. Üçüncü dəstə: əmi, bibi, xala, dayı və onların övladlarıdır ki, əgər birinci və ikinci dəstədən bir kəs olmasa, bunlar irs aparacaqlar.

**Məsələ:** ٢٨٢١. Əgər meyyitin varisi təkcə bir əmisı, yaxud bir bibisi olsa, istər meyyitin atası ilə ata-anadan bir olsun, istər atadan bir olsun, istərsə də anadan bir olsun, malın hamısı ona çatar. Əgər bir neçə əmisi, ya bir neçə bibisi olsa və hamısı ata-anadan, ya atadan bir olsa, malı öz aralarında bərabər böləcəklər. Əgər hər ikisi – həm əmisi, həm də bibisi olsa və hamısı ata-anadan, ya atadan bir olsa əmi bibidən iki dəfə çox irs aparacaq. Məsələn, əgər meyyitin varisi iki əmi və bir bibi olsa, malı beş yerə böləcəklər, onun bir hissəsini bibiyə verəcək, qalan dörd hissəsini isə əmilər öz aralarında bərabər böləcəklər.

**Məsələ:** ٢٨٢٢. Əgər meyyitin varisi yalnız ana tərəfdən olan bir neçə əmi, ya ana tərəfdən olan bir neçə bibisi olsa, malı öz aralarında bərabər şəkildə böləcəklər. Lakin əgər ana tərəfdən əmi və bibisi (hər ikisi) olsa, vacib ehtiyata əsasən, bölgüdə bir-biri ilə razılaşıb sülh etməlidirlər.

**Məsələ:** ٢٨٢٣. Əgər meyyitin varisi əmi və bibisi olsa və onların bə`zisi atadan, bə`zisi anadan, bə`zisi isə həm ata, həm də anadan bir olsa, atadan bir olan əmi və bibi irs aparmaz. Deməli, əgər meyyitin ana tərəfdən bir olan bir əmisi, ya bibisi varsa, məşhur nəzərə əsasən, əsasən malı ٦ yerə böləcəklər: bir hissəsi anadan bir olan əmiyə, ya bibiyə, qalanını ata-anadan bir olan əmi və bibiyə verəcəklər. Onlar olmadıqda atadan bir olan əmiyə və bibiyə verəcəklər. Lakin vacib ehtiyata əsasən, malın ١/٥-ni bölüşməkdə ata-anadan, ya atadan bir olan əmi və bibi, anadan bir olanla öz aralarında sülh edəcəklər. Əgər anadan bir olan həm əmisi, həm də bibisi varsa, malı ٣ yerə böləcəklər: iki hissəsini ata-anadan bir olan əmi və bibiyə verəcəklər, onlar olmadıqda isə atadan bir olan əmi və bibiyə, bir hissəsini də anadan bir olan əmiyə və bibiyə verərlər. Hər bir surətdə ata-anadan və ya atadan bir olan əmi, ata-anadan, ya atadan bir olan bibidən iki dəfə çox irs götürər. Vacib ehtiyat budur ki, anadan bir olan bibi və əmi biri-biri ilə sülh etsinlər.

**Məsələ:** ٢٨٢٤. Əgər varis yalnız bir dayı, ya bir xala olsa, malın hamısı ona çatır. Əgər həm xalası, həm də dayısı varsa və hamısı ata-anadan, ya atadan, ya anadan bir olsalar, məşhur nəzərə əsasən, «mal onların arasında bərabər surətdə bölünər.» Ancaq vacib ehtiyat budur ki, dayı ilə xala bölgüdə biri-biri ilə razılaşıb sülh etsinlər.

**Məsələ:** ٢٨٢٥. Əgər meyyitin varisi təkcə ana tərəfdən bir olan bir dayı, ya bir xala və ana-atadan bir olan dayı və xala olsa; və ata-ana tərəfdən bir olan dayı və xalanın olmadığı surətdə, atadan bir olan dayı və xalası olsa, məşhura əsasən, «malı ٦ yerə bölüb, onun bir hissəsini anadan bir olan dayı, yaxud xalasına, qalanını ata-anadan bir olan dayı və xalaya, ya atadan bir olan dayı və xalaya verərlər. Anadan bir olan həm dayı və həm xala olduğu surətdə malı üç yerə bölüb bir hissəsini anadan bir olan dayı və xalaya, iki hissəsini isə atadan, ya ata-anadan bir olan dayı və xalaya verəcəklər.» Ancaq vacib ehtiyat budur ki, hər iki surətdə ana tərəfdən (meyyitə) yaxın olanlarla ata tərəfdən yaxın olanlar həmçinin, dayı və xala bölgüdə biri-biri ilə razılaşıb sülh etsinlər.

**Məsələ:** ٢٨٢٦. Əgər meyyitin varisi bir, yaxud bir neçə dayı, ya bir, ya da bir neçə xala, ya dayı və xala və bir, ya bir neçə əmi, ya bir, yaxud bir neçə bibi, ya əmi və bibi olsa, malı ٣ yerə bölüb, onun bir hissəsini dayı, ya xala, ya hər ikisinə və qalan hissəsini isə əmi, ya bibi, ya hər ikisinə verərlər.

**Məsələ:** ٢٨٢٧. Əgər meyyitin varisi bir dayı, ya bir xala və əmi ilə bibi olsa, bu halda əmi və bibi ata-anadan, ya atadan bir olsa, malı ٣ yerə bölərək bir hissəsini dayı, ya xala götürər və qalandan iki hissəsi əmiyə və bir hissəsi də bibiyə verirlər. Buna əsasən, malı ٩ yerə bölərlər: onun ٣ hissəsini dayı, ya xalaya, ٤ hissəsini əmiyə və ٢ hissəsini isə bibiyə verərlər.

**Məsələ:** ٢٨٢٨. Əgər meyyitin varisi bir dayı, ya bir xala və ana tərəfdən bir olan bir əmi, ya bir bibi və ata, ya ata-anadan bir olan əmi və bibi olsa, malı ٣ yerə bölərək onun bir hissəsini dayı, ya xalaya verərlər və qalanının iki hissəsini isə məşhura əsasən «٦ yerə bölərlər: onun bir hissəsini anadan bir olan əmi, ya bibiyə, qalanını isə ata, ya ata-anadan bir olan əmi və bibiyə verərlər, əmi bibidən iki dəfə çox pay götürər. Buna əsasən, əgər malı ٩ yerə bölsələr, onun ٣ hissəsini dayı, ya xalaya, bir hissəsini anadan bir olan əmi, ya bibiyə, qalan ٥ hissəsini isə ata, ya ata-anadan bir olan əmi və bibiyə verərlər.» Lakin vacib ehtiyat budur ki, atadan bir olan əmi və bibi, anadan bir olanla o ٥ hissədən birinin bölgüsündə sülh etsinlər.

**Məsələ:** ٢٨٢٩. Əgər meyyitin varisi hamısı ata-anadan bir, ya təkcə atadan, ya təkcə anadan bir olan bir neçə dayı və bir neçə xala olsa, eləcə də əmisi və bibisi də olsa, malı ٣ yerə bölərlər: onun ٢ payı əmi və bibiyə verilər. Əgər o ikisi ata, ya ata-ana tərəfdən bir olsalar, əmi bibidən ٢ dəfə çox götürər. Əgər təkcə anadan bir olsalar, vacib ehtiyata əsasən, böldükdə sülh etməlidirlər. Onun bir hissəsi dayılara və xalalara çatar, vacib ehtiyata əsasən, bölgünü sülhlə aparmalıdırlar.

**Məsələ:** ٢٨٣٠. Əgər meyyitin varisi anadan bir olan dayı, ya xala və ata-anadan bir olan bir neçə dayı və xalası, ya təkcə atadan bir

olmaqla bir neçə dayı və xalası olsa və ata-anadan bir olanlar olmasa, habelə, əmisi və bibisi də olsa, mal ٣ yerə bölünər: onun ٢ hissəsi əvvəlki məsələdə deyilən qayda ilə əmi və bibi arasında bölüşdürülər və qalan bir hissə də əvvəldə deyilən qayda ilə bölüşdürülər.

**Məsələ:** ٢٨٣١. Əgər meyyitin əmi, bibi, dayı və xalası olmamış olsa, irsin əmi və bibiyə çatmalı olan miqdarı onların övladlarına; dayı və xalasına çatmalı olan miqdarı isə onların övladlarına verilər.

**Məsələ:** ٢٨٣٢. Əgər meyyitin varisi atasının xalası, dayısı, əmisi və bibisi və anasının xalası, dayısı, əmisi və bibisi olsa, onun malı ٣ yerə bölünər. Onun bir hissəsini məşhura əsasən «meyyitin anasının xalası, dayısı, əmisi və bibisi öz aralarında bərabər surətdə bölərlər. Qalan iki hissəsini isə ٣ yerə bölərək birini meyyitin atasının xala və dayısı öz aralarında bərabər surətdə bölər və qalan iki hissəni isə meyyitin atasının əmisi və bibisinə verərlər, əmi bibidən iki dəfə çox irs aparar.» Lakin vacib ehtiyat budur ki, meyyitin anasının dayısı, xalası, əmisi və bibisi malın əslinin ١/٣-nin bölüşdürülməsində sülh etsinlər və həmçinin, atasının dayı və xalası malın ٢/٣-sinin ١/٣-ni bələndə və meyyitin atasının əmi və bibisi isə bölgüdə ٢٨٢٣-cü məsələdə buyurulmuş qaydaya əsasən əməl etməlidir.

## ƏR VƏ ARVADININ İRSİ

**Məsələ:** ٢٨٣٣. Əgər bir qadın ölsə və övladı olmasa, onun bütün malının yarısını əri, qalan yarısını isə digər vərəsələri irs apararlar. Əgər həmin ərdən, yaxud başqa bir ərdən övladı olmuş olsa, onun bütün malının ١/٤-ni əri, qalanını isə digər vərəsələr irs apararlar.

**Məsələ:** ٢٨٣٤. Əgər bir kişi ölsə və övladı da yoxdursa, onun malının ١/٤-ni arvadı, qalanını isə digər vərəsələr irs aparar. Əgər həmin qadından, ya başqa bir qadından övladı olmuş olsa, malın ١/٨-ni qadın və qalanını isə digər vərəsələr irs aparar. Qadın evin yeri, bağ, əkin və digər yerlərdən irs aparmır: nə yerin özündən, nə də qiymətindən irs aparmaz. Amma evin fəzasının özündən, məsələn bina və ağacından irs aparar. Lakin əgər qalan varislər bina və ağacın qiymətini (ona) vermək istəsələr, gərək qadın qəbul etsin. Həmçinin, bağın, əkinin yerində və digər yerlərdə olan ağac, əkin və binanın da hökmü eynidir.

**Məsələ:** ٢٨٣٥. Əgər arvad, evin yeri kimi, irs aparmadığı bir şeydən istifadə etmək istəsə, digər vərəsələrdən icazə almalıdır. Həmçinin, arvadın payını qiymətdən də verməmiş olsalar, onun irs apara biləcəyi fəzadakı şeylərdən – bina və ağac kimi – onun icazəsi olmadan istifadə edə bilməzlər.

**Məsələ:** ٢٨٣٦. Əgər bina, ağac və bu kimi şeylərə qiymət qoymaq istəsələr ki, arvadın payını həmin qiymətdən versinlər, bu surətdə onların aradan gedəcəkləri zamana qədər icarəsiz o yerdə qalacaqları

halda nə qədər dəyərə malik olarsa, hesab edib arvadın payı həmin qiymətdən ödənilməlidir.

**Məsələ:** ٢٨٣٧. Kəhriz suyunun məcrası və bu kimi şeylər yer hökmündə, orada işlədilən kərpic və digər şeylər isə bina hökmündədir.

**Məsələ:** ٢٨٣٨. Əgər meyyitin bir neçə arvadı olsa, özünün övladı olmadığı təqdirdə malının ١/٤-i, övladı olduğu təqdirdə isə malın ١/٨-i əvvəldə şərh olunduğu kimi, o qadınların arasında bərabər surətdə bölünəcəkdir, hətta ər onlardan heç biri ilə və ya bə`zisi ilə yaxınlıq etməmiş olsa da belə. Amma ölümünə səbəb olan xəstəlik zamanı bir qadını nikah etmiş və onunla yaxınlıq etməmişdirsə, o qadın ondan irs aparmaz və mehr haqqı da yoxdur.

**Məsələ:** ٢٨٣٩. Əgər qadın bir xəstəlik halında ərə getsə və o xəstəliklə ölsə, əri onunla yaxınlıq etməmiş olsa da ondan irs aparar.

**Məsələ:** ٢٨٤٠. Əgər talaq hökmlərində deyilən qayda ilə bir qadına ric`i talaq versələr və qadın iddə əsnasında ölsə, əri ondan irs aparar. Həmçinin, əgər əri o iddə əsnasında ölsə, qadın ondan irs aparar. Amma əgər iddə qurtarandan sonra, ya bain talaqı iddəsində olarkən onların biri ölsə, o biri ondan irs aparmaz.

**Məsələ:** ٢٨٤١. Əgər ər, xəstə halında ikən öz arvadına talaq versə və on iki hilal ayı keçməzdən əvvəl ölsə, qadın ٣ şərt ilə ondan irs aparar:

١-Bu müddət ərzində başqa ərə getməsin; ərə getmiş olduğu surətdə vacib ehtiyat budur ki, sülh etsin.

٢-Qadın ərinə meyli olmadığı üçün talaq verməyə razı olması məqsədilə ərinə bir mal verməsə; hətta bir şey verməmiş olsa da, amma qadının istəyi ilə talaq verilərsə, qadının irs aparması məhəlli-işkaldır.

٣-Ər, qadına talaq verdiyi vaxtdakı xəstəlikdə həmin xəstəlik, yaxud başqa bir səbəbə görə ölsə; deməli, əgər həmin xəstəlikdən sağalıb başqa bir cəhətə görə dünyadan getsə, qadın ondan irs aparmaz.

**Məsələ:** ٢٨٤٢. Ərin öz arvadının geyinməsi üçün aldığı paltarı, qadın geymiş olsa da, ərin ölümündən sonra ərin malından hesab olunur.

## İRSİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

**Məsələ:** ٢٨٤٣. Əgər ata ölsə, onun Qur`anı, üzüyü, qılıncı və geyinmiş olduğu paltarları böyük oğulun malıdır. Əgər Quran, qılınc və üzüyü birdən artıq olsa, məsələn iki Quranı, ya iki üzüyü olsa, vacib ehtiyat budur ki, böyük oğul bunlarda digər vərəsələrlə sülh etsin. Həmçinin, kitab, dəvə və onun palan, yüyən və s. kimi vəsaitləri və qılıncdan başqa bir silahında vacib ehtiyata əsasən (başqa övladlar ilə) sülh etməlidirlər.

**Məsələ:** ٢٨٤٤. Əgər meyyitin böyük oğlu birdən çox olsa, məsələn, onun iki arvadından eyni vaxtda iki oğlu olsa, gərək əvvəlki məsələdə deyilən əşyaları öz aralarında bərabər olaraq bölsünlər.

**Məsələ:** ٢٨٤٥. Əgər meyyitin borcu olsa və borcu onun malı miqdarında, ya ondan çox olsa, yuxarıdakı məsələdə deyilmiş, böyük oğlun malı olacaq əşyalardan onun borcunu versinlər. Əgər borcu onun malından az olsa, böyük oğluna çatan şeylərdən onun borcuna nisbət ödənməlidir. Məsələn, onun malının hamısı ٦٠ manat dəyərindədirsə və onun ٢٠ manat dəyərində olanı böyük oğula çatacaq o şeylərdən olsa, borc da ٣٠ manatdırsa, böyük oğul o şeylərdən on manat dəyərində götürərək meyyitin borcuna verər.

**Məsələ:** ٢٨٤٦. Müsəlman kafirdən irs aparar, kafir isə, hətta əgər müsəlman meyyitin atası, ya oğlu da olsa, ondan irs aparmaz.

**Məsələ:** ٢٨٤٧. Əgər bir şəxs, öz qohumlarından birini qəsdən və nahaq yerə öldürsə, ondan irs aparmaz; amma əgər xəta üzündən olsa, məsələn, daşı havaya atsa və təsadüfən qohumlarından birinə dəyib onu öldürsə, ondan irs aparar. Lakin onun qətlin diyəsindən (qan bahasından) irs aparmağı məhəlli-işkaldır.

**Məsələ:** ٢٨٤٨. Əgər irsi bölmək istəsələr, ana bətnində olan uşaq diri dünyaya gəlsə irs aparar. Bir uşaqdan çox olmasına ehtimal verilmədiyi surətdə ehtiyata əsasən, bir oğlanın payını kənara qoyub, yerdə qalanını varislər öz aralarında bölərlər. Lakin birdən artıq uşağın olduğu əql sahibləri tərəfindən verilən (yerli) ehtimaldırsa, ehtiyata əsasən, ehtimal olunanın payı gərək kənara qoyulsun və qalanını vərəsələr öz aralarında böləcəklər. Amma əgər ehtimal verilənin haqqının aradan getməyəcəyinə arxayın olsalar, bu halda deyilən bir paydan artığını öz alaralarında bölə bilərlər.

# ƏLAVƏLƏR

## BANKLARLA ƏLAQƏDAR MƏSƏLƏLƏR

Banklar iki cürdür: İslami və qeyri-islami

İslami banklar üç növdür:

١-Şəxsi banklar;

٢-Dövlət bankları;

٣-Dövlətlə camaatın şərikliyi əsasında tə`sis olunan banklar.

Dövlət bankları və dövlətlə camaatın şərikliyi əsasında tə`sis olunan banklarla şər`i müamilələr caizdir. Lakin vacib ehtiyat odur ki, bu banklarla müamilədən hasil olan faydaların beşdə birini "ma fiz-zimmə" niyyəti ilə fəqir seyidlərə versin və yerdə qalanı isə həmin ildə hasil olan qazanc və mənfəətdən hesab edilir, əgər həmin ilin xərclərinə sərf olunmazsa, onun xümsünü ödəməlidir.

**Məsələ:** ٢٨٤٩: İslami banklardan borc (kredit) götürmək və onlara borc vermək (pul qoymaq) fayda və qazanc şərti ilə olarsa, riba (sələm) və haramdır, lakin müəyyən yollarla ribaya düçar olmaqdan qaçmaq olar. Misal üçün, borc alan tərəf müəyyən bir əmtəəni bankdan, yaxud onun vəkilindən bazarda mövcud olan qiymətdən müəyyən nisbətlə, misal üçün, on, yaxud iyirmi faizlə artıq qiymətə alsın və şərt etsin ki, bank onun istədiyi məbləği müəyyən müddətə qədər ona borc versin; yaxud şəxs müəyyən bir əmtəəni banka, yaxud onun vəkilinə müəyyən nisbətlə bazardakı qiymətdən ucuz qiymətə satsın və şərt etsin ki, bank onun istədiyi məbləği müəyyən müddətə qədər ona borc versin.

Həmçinin banka borc verməkdə də (pul qoymaq da) bu yoldan istifadə etmək olar. Misal üçün, bank müəyyən bir əmtəəni, bazardakı qiymətdən artıq qiymətlə şəxsdən alsın, yaxud müəyyən bir əmtəəni bazar qiymətindən aşağı qiymətə ona satsın və şərt etsin ki, o şəxs müəyyən bir məbləği müəyyən müddətə qədər banka borc versin.

Bu nəticə icarə, sülh və borc şərti ilə olan hibə ilə də gerçəkləşir.

**Məsələ:** ٢٨٥٠: Əvvəlki məsələdə qeyd olundu ki, banka borc verməyin hökmü eyni ilə bankdan borc götürməyin hökmü kimidir. Qazanc və fayda şərti ilə olan müqavilə haram və riba sayıldığı və banka verdiyi pulun istər sabit əmanət (müddətli depozit) olaraq qoyulsun (yə`ni pulun sahibi müqavilə əsasında müəyyən müddətə qədər öz pulundan istifadə edə bilməməlidir), istərsə də cari hesab şəklində olsun (yə`ni istədiyi hər vaxt öz pulundan istifadə edə bilər), lakin qazanc şərt edilməsə və özünü tələbkar bilməsə, hətta bank ona qazanc versə belə, o bankın hesabına pul qoymaq caizdir, lakin ehtiyat vacib budur ki, hasil olan mənfəətlərin beşdə birini ma fiz-zimmə niyyəti ilə fəqir seyidlərə versin, yerdə qalanlar o ilin mənfəətlərindən hesab olunur ki, əgər həmin ilin xərclərinə sərf olunmasa, onun xümsünü verməlidir.

**Məsələ:** ٢٨٥١: Sərmayəsi kafirlərə məxsus olan qeyri-islami banklardan – istər dövlət bankı olsun, istərsə də şəxsi – onlar pul götürmək işkalsız olaraq caizdir, bu banklara pul qoymaq və ondan əlavə qazanc götürməyin eybi yoxdur. Eləcə də qazancın miqdarını istinqaz (tələf olmasının qarşısını almaq üçün götürülən pul) ünvanı ilə götürə bilər.

## BANK E`TİBARLARI

Bank e`tibarları iki cürdür:

١-Ölkəyə əmtəə gətirmək (idxal) üçün olan e`tibarlar. Xarici ölkələrdən müəyyən əmtəəni ölkəyə idxal etmək istəyən bir şəxs – mövcud qayda-qanunlara əsasən – əmtəəni gətirmək istədiyi ölkənin banklarından birində e`tibar açır (yə`ni bankda öz e`tibarını təsdiq etdirir və bank onun alacağı malların pulunun ödənilməsini öz öhdəsinə alır) və e`tibar açmaqla bank iltizam verir ki, tərəflər (alıcı və satıcı) arasında müamilə əncam verildikdən sonra, yazışma, yaxud satıcının, alıcının ölkəsində olan nümayəndə və vəkilinə müraciət etməklə, satıcının tərəfindən göndərilən faktora əsasən (bu, keyfiyyət və kəmiyyət baxımından müamilə olunan əmtəələrin bütün xüsusiyyətlərindən və vəsflərindən hekayət edir) tərəflər arasında razılaşmış məbləği satıcının ölkəsində olan bankın vasitəsi ilə satıcıya ödəyir və bank bu tədbirlə sifariş olunmuş əmtəənin ümumi məbləğindən müəyyən bir faizi (misal üçün, ١٠, yaxud ٢٠ faizi) sifariş verən şəxsdən alır, müamilənin qurtarmasından sonra satıcıya e`lan edir ki, satıcı əmtəənin pulunu almaq üçün əmtəənin daşınma sənədlərini banka təhvil versin. Əmtəənin daşınma sənədlərinin təhvil verilməsi ilə (bankda e`tibar açılan zaman razılaşılmış maddələrə əsasən) bank bütün məbləği satıcıya ödəyir.

٢-Müəyyən bir əmtəə ixrac etmək üçün e`tibar açılması. Bir şəxs müəyyən bir əmtəəni xarici ölkələrdən birinə ixrac etmək istəsə, (mövcud qayda-qanunlara uyğun olaraq) xarici alıcı onun öz ölkəsinin (satıcının) bankında e`tibar açmalıdır ki, bank əmtəə gətirilməsi üçün e`tibar açılması qismində deyilən mərhələləri qət etdikdən sonra əmtəəni ixrac edən şəxslə əlaqə yaratsın, əmtəəni alıcıya, onun pulunu isə satıcıya təhvil versin.

Buna əsasən, bankın idxal və ixrac üçün e`tibar açmasındakı gördüyü işlər eynidir.

Bə`zən əmtəəni ixrac edən şəxs, yaxud onun vəkili və nümayəndəsi əvvəlcədən idxal edən şəxslə heç bir müamilə əncam vermədən əmtəənin növü, keyfiyyəti, kəmiyyəti və cüz`iyyatını göstərən sənədləri banka göndərir və banka öz tərəfindən vəkalət verir ki, o faktoru və sənədləri o əmtəələri almaq istəyən şəxslərə göstərsin. Əgər alıcı müəyyən olunmuş qiymətlə qəbul edərsə, bundan sonra şəxs bankda e`tibar açsın, bank da yuxarıda qeyd olunan tərtibə əsasən, əmtəənin alıcıya, onun qiymətini satıcıya təhvil verilməsi işlərini yerinə yetirir.

**Məsələ:** ٢٨٥٢: Alıcı üçün e`tibar açılması, eləcə də e`tibar açılması işinin qəbul edilməsi və iltizamların yerinə yetirilməsi bank tərəfindən caizdir.

**Məsələ:** ٢٨٥٣: Bankların e`tibar açmaq və həmin işlərlə əlaqədar olan iltizamları yerinə yetirmək üçün sifariş verən şəxsdən (alıcıdan) müəyyən məbləği alması caizdir.

Şər`i cəhətdən e`tibar açılması və müəyyən məbləğin alınması müəyyən ünvanlarla uyğun gələ bilər ki, aşağıda onlardan üçünə işarə edirik:

١-İcarə ünvanı olsun, yə`ni sifariş verən şəxs bankı e`tibar açmaq üçün əcir etsin və ödəniş məbləğini "işin haqqı" ünvanı ilə banka versin ki, bu da bank ilə sifariş verən tərəf arasında razılaşmaya uyğun olaraq sifariş olunmuş əmtəənin dəyərinin müəyyən nisbətindən ibarətdir.

٢-Cüalə ünvanı olsun, yə`ni sifariş verən şəxs bankla qərarlaşır ki, əgər bank onun üçün e`tibar açılması əməlini yerinə yetirərsə müəyyən bir məbləği banka ödəsin, bank da hesab açılması əməlini yerinə yetirdikdən sonra o məbləği həmin şəxsdən almağa haqlıdır.

٣-Alver ünvanı ilə yerinə yetirilsin. Yə`ni bank sifariş olunmuş məbləği xarici pul dəyəri, eləcə də əmtəəni satan ölkənin pulu ilə ona ödəyir və sifariş verən şəxsdən və alıcıdan onun əvəzini öz ölkəsində mövcud olan pul ilə alır. (O xarici pulu alıcının zimməsində (öhdəsində) öz ölkəsinin pulunun müqabilində aldığı qazanc ilə birlikdə satır)[١] və bu zaman pulun alveri iki müxtəlif növdən olduğuna görə işkalı yoxdur.

## BANKLARIN VASİTƏSİ İLƏ ƏMTƏƏLƏRİN SAXLANILMASI

Bə`zən bank əmtəəni, ölkəyə gətirən şəxsin hesabına saxlayır. Belə ki, idxal və ixrac edən şəxslər arasında müqavilə bağlandıqdan, sifariş olunmuş məbləğin satıcıya ödənişindən, sənədlərin və əmtəələrin alıcının ölkəsinə çatmasından və bankın alıcıya əmtəələri təhvil götürmək üçün xəbər verməsindən sonra alıcı əmtəəni almaqda tə`xirə yol verir və bank əmtəəni onun hesabına saxlayır, bunun müqabilində bu əməl üçün müəyyən zəhmət haqqı alır.

Bə`zən bank əmtəəni ixrac edən şəxsin hesabına saxlayır. Belə ki, ixrac edən şəxs əvvəlcədən heç bir müqavilə və müamilə olmadan əmtəəni nəql edir, onun sənədlərini və faktorunu banka göndərir ki, bank ölkənin tacirlərinə təqdim etsin. Lakin heç kəs o əmtəəni almır və bank həmin əmtəəni ixrac edən şəxsin hesabına olaraq saxlayır və bunun

---

[١] Bu o deməkdir ki, bank həqiqətdə xarici valyutanı, müştərinin öz ölkəsinin pulunun müqabilində onun öhdəliyinə satır (və sonra onun tərəfindən xarici satıcıya ödəyir).

müqabilində də ondan bu əməlin zəhmət haqqı olaraq müəyyən məbləği alır.

**Məsələ:** ٢٨٥٤: Qeyd olunan hər iki halda – istər bank əmtəəni alıcının hesabına saxlasın, istərsə də satıcının – əmtəənin saxlanmasının əmək haqqı əqd daxilində olan şərt əsasında olarsa hətta irtikaz surətində olarsa belə, yə`ni tərəflərin zehnində olsun və ondan qəflət edilməsin (belə ki, bu kimi müamilələrdə adi bir qaydadır), yaxud əmtəənin qorunub saxlanılması idxal və ya ixrac edən şəxsin öz istəyi ilə olsun, onun müqabilində zəhmət haqqı almaq caizdir. Bu iki haldan qeyri surətlərdə isə bankın əmtəəni saxlamaq ünvanı ilə bir şeyi zəhmət haqqı almağa haqqı yoxdur.

Əgər əmtəənin daşınması və onların sənədlərinin göndərilməsi, bank vasitəsi ilə və əvvəlcədən idxal edənlə ixrac edən şəxs arasındakı müqavilə əsasında baş vermiş olarsa və bank sənədlərin çatmasını idxal edən şəxsə xəbər verərsə, amma o, sənədləri almaqdan imtina edərsə, bank üçün caizdir ki, öz haqqını almaq üçün (o, sifariş olunmuş məbləği satıcıya ödəmiş olduğundan), bu kimi hallarda idxal edən şəxsin banka verdiyi ixtiyara əsasən, əmtəəni başqasına sata bilər.

## BANK ZƏMANƏTNAMƏLƏRİ

Bə`zən bir şəxs müəyyən bir işin yerinə yetirilməsini dövlətdən, yaxud şəxsdən qətiləşmiş bir iş ünvanı ilə qəbul edir, misal üçün, məktəb, xəstəxana tikmək, yol salmaq və s. Müqavilə əsasında iş sahibi işçinin öz sözünə iltizamlı olmasına əmin olmaq üçün ondan müəyyən bir məbləğdə bank zəmanətnaməsi tələb edir ki, onun işin əslini yerinə yetirməkdən boyun qaçırdığı, yaxud müqavilədə qeyd olunan şərtləri pozduğu zaman ehtimal üzrə dəyə biləcək xəsarətləri ödəmək üçün zəmanətnamədən istifadə etsin və müəyyən olunmuş məbləği alsın. Bu məqsədlə işçi banka müraciət edir və bankdan, sahibkarın istədiyi məbləğlədə zəmanətnamə verilməsini istəyir. Bank lazımi təzminat aldıqdan sonra işçi üçün zəmanətnamə verir və onun verilməsi üçün işçi tərəfindən zəmanətdə qeyd olunan məbləğlə nisbətdə zəhmət haqqı əldə edir.

**Məsələ:** ٢٨٥٥: Zəmanət əqdi, o iltizama dəlalət edən hər bir şeylə – istər sözlə, misal üçün, "icab" və "qəbul" ilə olsun, istərsə də ona dəlalət edən bir əməllə – gerçəkləşir. Bunların arasında fərq yoxdur ki, zamin sahibkara iltizam versin ki, işçi zəmanət olunmuş miqdarı ödəsin, yaxud iltizam versin ki, işçi öz iltizam və şərtlərinə vəfa etsin və bu şərtlər pozulduqda zəmanət verilmiş məbləği ödəsin.

**Məsələ:** ٢٨٥٦: İşçiyə vacibdir ki, müqavilənin şərtlərini pozduğu halda zəmanət verilmiş məbləğin ödənməsinə dair öz şərtinə – bu şərt əqd əsnasında qərar verilmişdirsə – əməl etsin. Əgər zəmanətdə qeyd

olunan məbləği ödəməkdən imtina edərsə, sahibkar zəmanətnaməni verən banka müraciət edir. Zəmanətnamə işçinin istəyi ilə verildiyinə görə, o, banka zamindir və bankın ödədiyi miqdarı işçi sonradan banka ödəməlidir. Bankın da həmin məbləği ondan tələb edib almağa haqqı vardır.

**Məsələ:** ٢٨٥٧: Bankın zəmanətnamə vermək müqabilində işçidən tələb etdiyi əmək haqqı caizdir və bankın işçi ilə etdiyi müamilə müəyyən yollarla səhih hesab olunur, o cümlədən icarə əqdi kimi olarsa. Yə`ni işçi bankı müəyyən bir məbləğ əsasında qeyd olunan işləri yerinə yetirməyə əcir edir, yaxud cüalə əqdi şəklində ola bilər, belə ki, işçi əmək haqqını qeyd olunan əməl (yə`ni cüalə əqdində qərar verilən əməl) müqabilində cü`l qərar verir.

## SƏHMLƏRİN SATILMASI

Bə`zi vaxtlar səhmdar şirkətlər özlərinin qiymətli kağız və səhmlərini satmaq üçün bankları vasitə edir və banklar vasitə ünvanı ilə müəyyən məbləğ almaq müqabilində müqavilədə qeyd olunan kimi o səhmlərin və kağızların satılmasını və məsrəf olunmasını öhdəsinə alır.

**Məsələ:** ٢٨٥٨: Bankla bu cür müqavilə bağlamaq caizdir, istər icarə surətində olsun, belə ki, səhmdar şirkət bankı həmin işi yerinə yetirmək (yə`ni səhmlərin və qiymətli kağızların satılması) və əvəzində əmək haqqı vermək müqabilində əcir edir. İstərsə də cüalə şəklində olsun, belə ki, səhmdar şirkət iltizam verir ki, əgər bank bu işi yerinə yetirərsə, ona bu məbləği ödəyəcəkdir. Hər iki surətdə bank qeyd olunan əməli yerinə yetirməklə müəyyən olunmuş əmək haqqını almağa haqlı olur.

**Məsələ:** ٢٨٥٩: Səhmdar şirkətlərin səhmlərinin alınıb-satılması, əgər onlarda ribalı müamilələr kimi haram müamilə olmazsa, caizdir. Haram müamilələr edən şirkətlərin səhmlərinin alınıb-satılması, əgər haramdan hasil olan qazanc şirkətin sərmayəsinin bir hissəsi olarsa, bu zaman caiz deyildir. Bundan qeyri hallarda səhmin özünün alınıb-satılması caizdir, lakin gərək onun haram qazanclarından pərhiz olunsun.

## DAXİLİ VƏ XARİCİ HƏVALƏLƏR

Həvalə bir neçə növdür:

Birincisi budur ki, müştəri (bu kimi məsələlərdə müştəri dedikdə, hesabın sahibi və o kəsdir ki, bank ilə müamilə üçün banka müraciət etmiş olsun) bankda müəyyən qədər pulu olsun və bankdan istəsin ki, ölkə daxilində, yaxud xaricdə hesab tərəfi olan bankların birinin öhdəsinə olaraq çek, yaxud həvalə çıxarsın, yaxud bankdan istəsin ki, onun pulunu o bankın digər şəhərdə və ya ölkədə olan şö`bəsinə

köçürsün və müştəri o məbləği həmin yerdə alsın. Bank bu əməl müqabilində müştəridən əmək haqqı almağa haqlıdır. Bu əmək haqqının alınması belə düzgün ola bilər ki, bank şər`ən müştəridən aldığı pulu digər ölkədə, yaxud şəhərdə ödəməyə iltizamlı olmadığına və müştəridən aldığı yerdən qeyrisində onu ödəməkdən imtina etməyə haqlı olduğuna görə, bu haqdan əl götürmək müqabilində caizdir ki, müştərinin pulunu digər şəhərdə, yaxud ölkədə ona ödəmək üçün o məbləği alsın.

İkincisi odur ki, müştərinin bankda müəyyən məbləğdə pulu olmasın və bank onun üçün çek, yaxud həvalə çıxarsın ki, bu bankın hesab tərəfi olan bank ölkənin daxilində, yaxud xaricində onun müştərisinə borc versin, yaxud bu bank, digər şö`bənin məs`ullarından istəsin ki, o müştəriyə borc versinlər. Bu iş də bankın öz tərəfindən olan digər bir banka, yaxud digər bir şö`bəsinin məs`ullarına vəkalət verməsidir ki, pulu o şəxsə borc versin; yaxud o şəxsə vəkalət verməkdir ki, pulu borc ünvanı ilə öz ixtiyarına keçirsin. Bu vəkalət vermə üçün bank o şəxsdən əmək haqqı ala bilər.

Əgər ölkədən xaricdə müştəriyə verilən həvalə, xarici ölkənin pulu ilə olsa və müştəri, yuxarıda qeyd olunan şəkildə o pulu bankdan özü üçün borc götürsə, bankın haqqı vardır ki, öz alacağını həmin xarici pulla ondan tələb etsin, eləcə də o müəyyən məbləğ almaq müqabilində öz haqqından keçə, yaxud o xarici pulu müştərinin ölkəsinin pulu ilə müəyyən qədər artığına dəyişə bilər.

Üçüncüsü budur ki, şəxs müəyyən bir məbləği öz şəhərində banka verir ki, onun bərabərini ölkə daxilində, yaxud xaricində o bankın tərəfi olan bankdan alsın. Misal üçün, müəyyən miqdarda pulu Nəcəfi-Əşrəfdə banka verir ki, onu Bağdadda alsın, yaxud Şamda, Livanda, yaxud digər ölkələrdə alsın. Bank da bu iş üçün əlavə miqdar pul alır. Bankın bu əməli və qeyd olunan məbləği alması caizdir. Əlavə məbləğin alınmasının caizliyinin səbəbi budur ki, borcda haram riba (sələm) o artıq miqdardır ki, borc verən şəxs borc alan şəxsdən almış olsun. Lakin əgər borc alan şəxs, borc verən şəxsdən artıq alarsa, bu, caizdir. İki pul iki növdən olarsa, misal üçün, İrandakı tümənlə İraqdakı dinar kimi, bank xarici pulu müəyyən məbləğə – dəyəri müştərinin ölkəsində daha artıq olan o miqdar pula sata bilər.

Dördüncüsü odur ki, şəxs müəyyən bir yerdə bankdan bir məbləğ pul götürür və bank tərəfindən heç bir istək və məcburiyyət (icbar) olmadan pulu alan şəxs xahiş edir ki, o məbləği digər bir yerdə banka ödəsin. Bank da bu əməli qəbul etmək müqabilində o şəxsdən müəyyən məbləğdə pul alır. Bu əlavə məbləğin alınması iki haldan biri ilə caizdir:

١-Əgər o iki pul iki növdən olarsa, misal üçün, şəxs bankdan İran riyalı alsın və onun müqabilində bank ondan qeyri-İran pulu alsın. Bank

həmin şəxsdən artıq məbləğdə aldığı o xarici pulu, ona verdiyi pul ilə dəyişir.

٢-Bank o şəxsə verdiyi pulu digər bir yerdə almağa şər`ən iltizamlı olmadığına və alan şəxsin istəyini qəbul etməmək haqqına malik olduğuna görə bu haqdan keçməsi müqabilində şəxsdən müəyyən miqdar pul ala bilər.

**Məsələ:** ٢٨٦٠: Bank həvalələrinin qisimlərində və onların fiqhi ünvanlarla uyğunlaşdırılmasında qeyd edilənlər şəxslər barəsində də qüvvədədir. Misal üçün, bir şəxs bir yerdə müəyyən bir məbləği başqa bir şəxsə verir ki, o məbləği, yaxud onun bərabəri olan pulu başqa bir yerdə alsın və şəxs həmin şəxsdən artıq məbləğ alsın; və ya müəyyən bir şəxsdən bir qədər pulu alır ki, onun əvəzini, yaxud bərabərini artıq miqdarla digər ölkədə, yaxud şəhərdə ödəsin.

**Məsələ:** ٢٨٦١: Həvalədə istər həvalə edən şəxsin həvalə etdiyi şəxsdə, yaxud bir bankda müəyyən məbləğ pulu olsun, istərsə olmasın, hər iki surətdə həvalə səhihdir.

## BANKIN MÜKAFATLARI

Bə`zən banklar camaatı onda hesab açmağa, yaxud müştəriləri o bankda daha artıq pul qoymağa təşviq etmək üçün müəyyən mükafatlar nəzərdə tutur və püşk atma yolu ilə bu mükafatlar adına çıxan şəxslərə verir.

**Məsələ:** ٢٨٦٢: Bankın verdiyi mükafatlar iki növdür:

١-Bank üçün püşk atmaq şərt edilməsin; əksinə püşk yalnız təşviq ünvanı ilə olsun. Bu kimi hallarda püşk əməli caizdir və püşkün adına çıxdığı şəxsin o mükafatı alması caizdir. Əgər dövlət bankı, yaxud müştərək banklar (dövlət ilə əhalinin şirkəti ilə təsis olunur) olsa ehtiyat vacib odur ki, onun (mükafatın) beşdə birini ma fiz-zimmə niyyəti ilə fəqir seyidlərə versin, yerdə qalanlar o ilin qazancından hesab olunur ki, əgər həmin ilin xərclərinə sərf olunmasa gərək onun xümsünü versin.

٢-Püşk atmaq şərt olunsun və bank o şərtə əməl etmək məqsədilə püşk atsın, bu surətdə püşk atmaq əməli caiz deyildir. Eləcə də püşk kimin adına çıxıbsa, onun həmin mükafatları alması da caiz deyildir.

## BANKLARIN VASİTƏSİ İLƏ SƏFTƏLƏRİN[١] (VEKSELLƏRİN) NAĞD PULA ÇEVRİLMƏSİ (FAKTORİNQ ƏMƏLİYYATI)

Bank xidmətlərindən biri də müştərilərin səftələrini (veksellərini) vüsul etməkdir.[٢] Belə ki, vaxtı çatmamışdan qabaq o səftənin varlığını, bankdakı nömrəsini, miqdarını və onun tə`yin olunmuş vaxtını səftəyə (vekselə) iltizamlı olan şəxsə e`lan edir ki, onu vaxtında ödəmək üçün hazırlaşsın. Bank da səftənin vüsulundan sonra onun məbləğini müştərinin hesabına köçürür, yaxud nağd olaraq ona verir. Bu xidmətlər üçün də müəyyən miqdarda əmək haqqı alır.

Bankın xidmətlərindən biri də çekləri vüsul etməkdir ki, müştərilər onları bankın yanında əmanət qoymuşdur və bank müştəridən bu xidmət müqabilində əmək haqqı alır.

**Məsələ:** ٢٨٦٣: Səftənin vüsulu və əmək haqqını almağın bir neçə surəti vardır:

١-Səftəyə iltizam verən şəxsin bankda pulu vardır və o səftədə qeyd olunmuşdur ki, tələbkar onun vaxtı çatan zaman o banka müraciət edəcək və bank da səftənin məbləğini borclu şəxsin hesabından götürüb borc sahibinə təqdim edəcək, yaxud da tələbkarın hesabına köçürəcəkdir. Bu işin mə`nası budur ki, səftəyə iltizamlı olan şəxs öz tələbkarını (borclu olduğu şəxsi) banka həvalə etmişdir. Onun bankda pulu olduğuna və bank ona borclu olduğuna görə, həvalə səhihdir və "qəbul" edilməyə ehtiyac yoxdur.

Bu kimi surətlərdə bankın borcu ödəmək üçün müəyyən məbləğ alması caiz deyildir.

٢-Səftəyə iltizamlı olan şəxs bankda pulu olmadan və bank da ona borclu olmadan səftənin (vekselin) məbləğini banka həvalə edir ki, bu həvalə "bəri`" olan şəxsə (yə`ni o kəs ki, borclu deyildir) – caizdir. Bank bu həvaləni qəbul edir və onun məbləğini ödəyir, səftəyə iltizamlı olan şəxsdən həvaləni qəbul etmək müqabilində əmək haqqı alır və bu əmək haqqını almaq da caizdir.

٣-Müştəri öz səftəsini iltizamlı şəxsdən heç bir həvaləsi olmadan vüsul etmək üçün banka verir. Bu əməli cüalə şəklinə olan bir əməl ünvanında yerinə yetirmək olar. Müəyyən bir məbləğin cü`l ünvanı ilə alınması bu əməl üçün caizdir. (Cüalədə əvəz ünvanı ilə verilən şeyə cü`l deyilir.) Əgər bank yalnız borcun əslini almaqda müdaxilə edərsə, lakin o borc üçün ribalı qazanc və fayda qərar vermiş olsa, bu iş bank tərəfindən caiz deyildir.

---

[١] Borc alan şəxs tərəfindən banka, zəmanətnamə ünvanı ilə qoyulan rəsmi dövlət sənədi.

[٢] Yə`ni pulu müştəridən alır və səftəni onun özünə qaytarır.

***Xarici pulların alveri***

**Məsələ:** ٢٨٦٤: Xarici pulların alverinin (dinarın tümənə alveri kimi) – alınmış qiymətindən baha, yaxud az, yaxud ona bərabər şəkildə satılması caizdir və bu məsələdə müamilənin müddətli, yaxud müddətsiz olması arasında heç bir fərq yoxdur.

## CARİ HESABLARDA E`TİBAR

**Məsələ:** ٢٨٦٥: Bankda cari hesabı olan və ora pul qoyan şəxsin haqqı vardır ki, hesabında olan miqdardan artıq olmayan miqdarı - istədiyi hər hansı bir məbləği ondan götürsün. Lakin bə`zən bank icazə verir ki, onun müştərisi hesabda pulu olmadan müəyyən bir məbləği götürsün, bu da öz müştərisinə e`timadı əsasındadır. Buna "azad pul götürmək" deyilir. Bank belə borcu vermək müqabilində müəyyən qədər qazanc alır. Bu cür borc verib əvəzində artıq faiz almaq caiz deyildir.

## SƏFTƏLƏRİN (VEKSELLƏRİN) ALVERİ

Maliyyətin (alıcılıq qabiliyyəti, dəyər) mənşəyi iki şeydən biridir:

Birincisi budur ki, hər hansı bir şeyin əql sahibləri nəzərində müəyyən mənfəəti və xassəsi xatirinə ona rəğbət artsın, misal üçün, geyilməli, yeyilməli və içilməli şeylər.

İkincisi o şeydir ki, e`tibar sahibi olan bir məqam o şey üçün maliyyət e`tibarı versin, misal üçün, hökumətlərdə dəyəri və maliyyəti olan kağız pullar və markalar.

**Məsələ:** ٢٨٦٦: Bey` (alver) mövzu və hökm baxımından borcla fərqlənir. Mövzu baxımından bey` (alver) malın özünü (eynini) əvəzə çevirməkdir – izafədə;[١] istər o izafə milkiyyət (mal və mənfəət) olsun, istərsə də haqq. Borc isə, onu alan şəxsin zəmanəti ilə malın özünə malik olmaqdan ibarətdir ki, əgər mislidirsə mislinə, qiymidirsə qiymətinə zamin olur. Hökm baxımından da müxtəlifdirlər ki, onların bə`zilərinə işarə edirik:

١-Borc və alverdə olan riba müxtəlifdir: borcda şərt olunan hər növ artıqlıq riba və haramdır, lakin alverdə artıq almaq o zaman haramdır ki, satılan şeylə onun əvəzi olan şey eyni cinsdən olsun və peymanə (ölçü qabı) və çəki ilə satılanlardan olmuş olsun ki, bu halda artıq alınan miqdar haramdır. Deməli, əgər bir cinsdən olmasalar, yaxud peymanə və çəki ilə satılanlardan olmasalar, onda artıq almaq haram deyildir. Misal üçün, ədədlə satılan mallar kimi.

---

[١] İzafə - mənsubiyyət, nisbət. Misal üçün, bir şəxs özünün malik olduğu bir şeyi başqasının malik olduğu digər bir şey müqabilində satır. Alverdən sonra birinci şeyin milkiyyəti ikinci şəxsə, ikinci şeyin milkiyyəti isə birinci şəxsə aid olur. (Müt)

٢-Alverdə riba alverin batil olmağına səbəb olur, alınan və satılan şeylərin müştəri ilə satıcıya nəql olunması (şər`ən) gerçəkləşmir. Borcda isə riba borcun batil olmasına səbəb olmur və borc alan şəxs borc aldığı şeyə sahib olur, lakin borc verən şəxs şərt olunmuş artıq miqdarın maliki olmur.

**Məsələ:** ٢٨٦٧: Kağız şəklində olan bütün pullar, o cümlədən iraq dinarı, Amerika dolları, İran tümənləri və s. kimi şeylərin maliyyəti (dəyəri) vardır, çünki bu dövlətlərdən hər birinin tərəfindən öz kağız pulları ilə əlaqədar müəyyən dəyərlər tə`yin olunmuşdur ki, bütün dövlətlərdə qəbul olunur, buna görə də maliyyət kəsb etmişdir. Dövlətlər istədikləri vaxt həmin pulları e`tibardan və maliyyətdən çıxara bilərlər.

Mə`lumdur ki, bu pullar peymanə və çəki ilə satılmır, buna görə də fəqihlərdən bə`ziləri (Allah onların məqamın yüksəltsin!) buyurmuşlar: "Bu pulların öz növündən olan başqa pullarla, artıq miqdara dəyişilməsi caizdir, həmçinin zimmədə (öhdədə) borc şəklində olan bu pulların müamiləsi nağd olaraq az və ya çox ilə mübadiləsi caizdir." Lakin e`tibari maliyyəti olan, say ilə alver edilən şeylərin öz cinsindən, amma artığına, yaxud əskiyinə dəyişdirilməsi məhəlli-işkaldır. Əgər az verən şəxs, çox verən şəxs ilə "artıq alanın maliki onu həmin şəxsə bağışlasın, o da az satılan miqdarı artıq alan malikə bağışlasın" deyə müsalihə etsələr, işkalı yoxdur. Misal üçün, doqquz yüz tümənin sahibi min tümənin sahibinə, müsalihə məqsədi ilə deyir ki, "mən sənlə bu əsasda müsalihə edirəm ki, min tüməni mənə bağışlayasan, mən də doqquz yüz tüməni sənə bağışlayam."

**Məsələ:** ٢٨٦٨: Camaatın və tacirlərin arasında adi halda olan və onunla müamilə olunan riyal vekselləri özləri üçün maliyyət (dəyər) kəsb edən kağız pullar kimi deyildir, əksinə onlar borc sənədidir ki, iltizam verən və səftəni imzalayan şəxsin öhdəsindədir. Deməli, müştəri mal sahibinə səftə verən zaman həqiqətdə alınmış əmtəənin dəyərini verməmişdir və buna görə də o səftə satıcının əlində itsə, yaxud yansa satıcının malından heç bir şey tələf olmamışdır və müştərinin öhdəsindən götürülməmişdir. Lakin əgər əmtəənin dəyərini kağız pulla vermiş olsa və o itsə, bu halda satıcının hesabından gedir və o, zərər görmüş olur.

**Məsələ:** ٢٨٦٩: Veksellər iki qisimdir:

Birincisi odur ki, bir həqiqi borcdan hekayət etsin, yə`ni səftədə (vekseldə) qeyd olunan məbləği imzalayan şəxs həqiqətən səftə sahibinə borcludur və səftə (veksel) də bu borcun sənədi sayılır.

İkincisi isə həqiqəti olmayan və yalnız zahiri şəkildə olan (formal) səftələrdir.

Həqiqətən, səftə sahibinin müddətli bir borcu tələbkar olduğu birinci növdə onun öz qiymətindən aşağı, yaxud yuxarı qiymətə satılması ixtilaflı hallarda – məsələn, dinar tümənə satılarsa – bu halda səmən (pul) nisyə olmazsa, işkalı yoxdur. Lakin ixtilafı olmayan hallarda – misal üçün, dinarın dinara, riyalın riyala – satılması hallarında məhəlli-işkaldır. Əgər ٢٨٦٧-ci məsələdə deyilən kimi, müsalihə ilə müamilə edərlərsə, onda işkalı yoxdur.

Səftənin zahiri (formal) olduğu ikinci növdə isə, səftənin sahibi onu başqasına sata bilməz; çünki o səftəni imza edən şəxsdən heç bir alacağı yoxdur, əksinə səftə bu məqsədlə verilmişdir ki, səftənin sahibi ondan istifadə edə bilsin. Ondan şər`i müamilə əsasında istifadə olunması belədir ki, misal üçün, səftəni imza edən şəxs səftəni verdiyi şəxsə vəkillik verir ki, səftənin məbləğini – misal üçün, əlli Səudiyyə riyalı on bir min İran tüməni miqdarında – onun zimməsində, digər növdən olan bir pulla və onun dəyərindən az qiymətə – misal üçün, on min tümənə – banka satsın və vəkillik haqqı olsun ki, həmin on min tüməni də səftəni imza edən şəxsin tərəfindən onun özünə əlli Səudiyyə riyalına satsın və bununla da səftə sahibinin zimməsi onu imza edən şəxsə səftəni imza edən şəxsin banka borclu olduğu miqdarda, yə`ni əlli Səudiyyə riyalı miqdarında borclu olur. Yaxud belə ola bilər ki, bank səftənin miqdarını səftə sahibinə borc versin və səftə (veksel) sahibi müəyyən bir məbləği, bank rəsmi dəftərlərdə qeyd olunmaq üçün əmək haqqı ünvanı ilə və onun vaxtı çatan zaman əldə edilməsi üçün ona şərt etmədən banka versin. Lakin əgər – hətta əqdin zimnində – onun daxilində, onunla yanaşı olan şərtlə yanaşı olsa, sələm borcu olacaqdır.

Səftəyə (vekselə) iltizamlı olan şəxsin ondan istifadə edən şəxsə müraciət etməsi və səftənin (vekselin) bütün məbləğini ondan almasının işkalı yoxdur, çünki səftədən istifadə edən şəxs bankı, səftəyə iltizamlı olan şəxsə bütün məbləğdə həvalə etmişdir.

***Bank işləri***

Bank işləri iki qisimdir:

١-Sələmli müamilələrə aid olan işlər – onlarda işləmək caiz deyildir, bu kimi işlərdə işləyən şəxslər də bu işlərin müqabilində əmək haqqı ala bilməzlər.

٢-Sələmli müamilələrlə əlaqəsi olmayan işlərdir ki, onlarda işləmək və əmək haqqı almaq caizdir.

## SIĞORTANIN HÖKMLƏRİ

Sığorta – sığorta edənlə sığorta olunan şəxs arasında bağlanan bir müqavilədir ki, sığorta olunan şəxs sığorta edən şəxsə müəyyən miqdar malı ödəyir, istər o mal "eyn" olsun, istər mənfəət, istərsə də iş; istər bir

yerdə, istərsə də hissə-hissə. Bunun əvəzində sığorta edən şəxs, sığorta olunan şəxsə, yaxud başqasına dəyən xəsarətləri, müqavilədə müəyyən olunmuş şəkildə tə`min edir.

**Məsələ:** ٢٨٧٠: Sığortanın müxtəlif növləri və qisimləri vardır, o cümlədən həyat sığortası, sağlamlıq sığortası, mal-dövlət sığortası. Onların hamısının hökmü bir olduğuna görə qisim və növlərini bəyan etməyə ehtiyac yoxdur.

**Məsələ:** ٢٨٧١: Sığorta əqdlərdəndir və "icab" və "qəbul" ilə həyata keçir. Misal üçün, sığorta edən şəxs belə desin: "Mən iltizam verirəm ki, mal və ya cana dəyən xəsarəti, filan miqdar mal ödəməsi müqabilində cübran (bərpa) edəm." Sığorta olunmaq istəyən şəxs isə belə desin: "Qəbul etdim." Yaxud sığorta olunmaq istəyən şəxs desin: "Mən iltizam verirəm ki, müəyyən miqdarda malı filan xəsarətin ödənilməsi müqabilində ödəyəm", sığorta edən şəxs də "qəbul etdim" desin.

Bu əqd, sair əqdlərdə olduğu kimi, həm sözlə, həm də əməllə gerçəkləşir. Əqdlərin ümumi şərtləri, o cümlədən həddi-buluğa çatmaq, ağıl sahibi olmaq, qəsd, məcburiyyətin olmaması, səfehlik və iflas kimi öz mal-dövlətində təsərrüf etməkdən qadağan olunmamaq kimi şərtlər onda mö`təbərdir. Həmçinin şərtdir ki, sığorta olunan şey, o cümlədən can, yaxud mal, eləcə də can və ya malın sığortalanmasına səbəb olan ehtimali xətərlər müəyyən olunsun. Həmçinin veriləcək mal da; əgər hissə-hissə ödəniləcəksə aylıq, yaxud illik məbləğ və sığorta müddətinin əvvəli və axırı da tə`yin olunsun.

**Məsələ:** ٢٨٧٢: Sığorta əqdinin qisimlərinin hamısını sığorta edən və sığorta olunan şəxslərin müəyyən malın verilməsi və xəsarətin ödənməsinə dair iltizamı qəbilindən də qərar vermək olar, baxmayaraq ki, əhvət nəzər budur ki, misal üçün, sığorta olunan şəxs müəyyən miqdarda malı sığorta edən şəxslə bu şərtlə sülh etsin ki, sığorta edən şəxs müəyyən olunmuş ehtimali xəsarətləri ödəsin və sığorta edən şəxsə də bu işləri tə`min (bərpa) etmək vacib olur. Həmçinin sığorta olunan şəxs tərəfdən müəyyən olunan şey malın eynidirsə, sığorta əqdini "ehtimali xəsarətləri sığorta edən şəxs tərəfindən bərpa etmək şərti ilə hibə" ünvanında qərar vermək olar ki, şərtə əməl etmək sığorta edən şəxsə vacib olur.

**Məsələ:** ٢٨٧٣. Sığorta əqdi xəsarəti ödəmək şərti ilə sülh, yaxud xəsarəti ödəmək şərti ilə hibə surətində olarsa, sığorta edən şəxs də sığorta olunan şəxsə xəsarət dəyən zaman onun ödənməsindən imtina edərsə və öz şərtinə əməl etməzsə, sığorta olunan şəxs "təxəllüfü-şərt" ixtiyarına malik olur və sülh, yaxud hibəni qüvvədən salıb fəsx edə, sığortaya ödədiyi məbləğləri geri ala bilər.

**Məsələ:** ٢٨٧٤: Sığorta olunan şəxs sığortanın ödəniş qismlərini müqaviləyə uyğun olaraq ödəməzsə varid olan xəsarətləri ödəmək sığorta edən şəxsə vacib deyildir, sığorta olunan şəxsin də haqqı yoxdur ki, ödəniş hissələrini geri alsın.

**Məsələ:** ٢٨٧٥: Sığorta əqdinin səhihliyində müddətin, – misal üçün, bir illik olsun iki illik, yaxud daha artıq – müəyyən olunması şərt deyildir ki, əksinə sığorta edənlə sığorta olunanın razılaşmasına tabedir.

**Məsələ:** ٢٨٧٦: Əgər müəyyən bir şirkət bir neçə nəfərin sərmayə qoyması ilə tə`sis olunarsa və şəriklərdən hər biri, yaxud onlardan təkcə biri şirkət əqdi bağlanan zaman başqalarına şərt etsə ki, onun canına və malına hər hansı bir zərər dəyərsə, yaxud hadisə baş verərsə – hadisənin növünü tə`yin etməklə – şirkət o hadisənin xəsarətini özünə qayıdan qazancdan tə`min etsin, bu zaman hadisə baş verərsə, şirkətin bu şərtə əməl etməsi vacibdir.

## SƏRQUFLİNİN HÖKMLƏRİ

Camaat arasında yayılmış müamilələrdən biri də sərqufli müamiləsidir. Sərqufli haqqı budur ki, bir yeri icarə edən şəxs, icarə olunmuş yerin özünü boşaldıb başqasına (icarəyə) verməklə haqqına malik olsun, yaxud malikin, icarə haqqını artırmaq və icarənin eynini geri almağa haqqı olmasın.

**Məsələ:** ٢٨٧٧: Bu müamilənin səhih olması icarə edən şəxs üçün bir haqqın sübuta yetməsinə bağlıdır və o haqq, yaşayış yeri, kəsb-ticarət yerinin icarə edilməsi ilə – hərçənd icarə müddəti uzun olsa, yaxud kəsb-ticarətin keyfiyyəti və icarəçinin şəxsiyyəti iş yerinin dəyərinin artmasına səbəb olsa belə, hasil olmur və camaat arasında, yaxud dövlət qanunları əsasında icarəçini haqq sahibi bilsələr də (bunun) e`tibarı yoxdur. İcarə müddəti qurtarandan sonra icarə edilən şeydə hər hansı təsərrüf icarəçiyə haram və onun bu icarə etdiyi şeyə və onun mənfətinə olan ixtiyarı "üdvan əli"[1] və zamindir, o şeyi başqa şəxsə icarə vermək füzulidir və malikin icazə vermədiyi halda fasiddir.

Haqqın sabit olması şər`ən qanuni şərt vasitəsi ilə mümkündür. Məsələn, icarə əqdi bağlanan zaman şərt olunsun ki, – istər icarəyə verən şəxsin şərti üçün müəyyən bir məbləğ alsın, istərsə də almasın – icarə müddəti qurtardıqdan sonra o yeri onun özünə, yaxud onun tə`yin etdiyi bir şəxsə (həmçinin əvvəlki icarəçinin tə`yin etdiyi hər hansı bir icarəçiyə) əvvəlki icarə məbləğində icarəyə versin, bu halda həqquş-şərt haqqının tələbinə əsasən, hər bir icarəçi sərquflini ala və o yeri (başqasına) həvalə edə bilər, icarə verən şəxs də "şərtə əməl etməyin vacib olması"nın tələbinə əsasən, birinci icarəçiyə, yaxud onun tə`yin

[1] Yə`ni o, qəsbkar sayılır.

etdiyi şəxsə, eləcə də əvvəlki icarəçinin tə`yin etdiyi şəxsə icarə verməkdən imtina etməyə haqqı yoxdur.

**Məsələ:** ٢٨٧٨: Əgər icarə əqdində şərt olunsa ki, icarəyə götürən şəxs əvvəlki icarə məbləğində icarənin vaxtını istədiyi vaxta qədər uzadaraq o yerdə qala bilər, onda icarəyə alan şəxs həmin yerin boşaldılması üçün sərqufli ala bilər, baxmayaraq ki, icarəyə verən şəxs, sərqufli verən şəxsə icarə verməyə iltizamlı deyildir.

## "İLZAM QAYDASI" BARƏSİNDƏ BƏ`Zİ MƏSƏLƏLƏR

**Məsələ:** ٢٨٧٩: Sünnü alimlərinin – onlardan az bir miqdar istisna olmaqla – fətvasına əsasən, nikah əqdinin səhihliyində şahidlərin iştirak etməsi şərtdir. Hənəfilər, hənbəlilər və şafeilər onun vaxtını nikah siğəsinin icra olunduğu vaxt bilirlər, malikilər isə onun vaxtını duxuldan əvvəlki vaxta qədər genişləndirmişlər. Bu şərt imamiyyə alimlərinin nəzərində mö`təbər deyildir. Buna əsasən, əgər sünnülərdən bir kişi – öz alimlərinin məşhur nəzərinə tabe olaraq – şahidlər olmadan əqd edərsə, bu əqd onun məzhəbinə uyğun olaraq batildir və o qadın onun həyat yoldaşı olmamışdır. Belə olan halda, şiə məzhəbindən olan bir kişi ilzam qaydasına uyğun olaraq o qadını öz əqdinə keçirə bilər.

**Məsələ:** ٢٨٨٠: Sünnü alimlərinin fətvasına əsasən bir kəsin, aralarındakı qohumluq münasibəti bibi və bibinin qardaşı qızı, eləcə də xala ilə xalanın bacısı qızını olan iki şəxsi birlikdə əqdinə keçirməsi caiz deyildir: yalnız onların biri ilə izdivac edə bilər. Deməli, əgər hər iki əqd eyni zamanda baş verərsə, onların hər ikisi batildir, əgər eyni zamanda olmazsa, onda ikincisi batildir. Lakin imamiyyə alimlərinin nəzərində xalanın və bibinin (yəni insanın öz arvadının) icazəsi ilə onların ikisini birlikdə nikaha keçirmək səhihdir. Buna əsasən, əgər sünnü məzhəbinin ardıcılı olan bir şəxs bibi və onun qardaşı qızını, yaxud xala və onun bacısının qızını eyni zamanda əqd edərsə, onun məzhəbinə əsasən hər iki əqd batildir. Şiə məzhəbinin ardıcılı ilzam qaydasına əsasən onlardan hər biri ilə izdivac edə bilər. Əgər bir-biri ilə eyni zamanda baş verməzsə, şiə məzhəbli şəxs onun ikincisi ilə izdivac edə bilər.

**Məsələ:** ٢٨٨١: Sünnü məzhəbində ərinin yaxınlıq etdiyi yaisə və səğirə qadının talağında qadının iddə saxlaması vacibdir, baxmayaraq ki, səğirə ilə əlaqədar sünnü məzhəbinin bə`zilərində təfsilata inanmışlar (müəyyən şərtlər qoymuşlar), – lakin şiə məzhəbində yaisə və səğirə qadının talağında iddə vacib deyildir.

Deməli, sünnü məzhəbinə əsasən onlar iddə hökmlərinə riayət etməyə iltizamlı olmalıdırlar. Sünnülərdən bir yaisə, yaxud səğirə qadın şiə olsa, onda iddə saxlaması vacib deyildir və əgər onun talağı ric`i olsa, öz iddə günlərinin nəfəqəsini öz sünnü ərindən tələb etməsi və həmçinin, həmin günlərdə başqa bir şəxslə evlənməsi caizdir. Əgər

sünnü bir kişi şiə olsa, caizdir ki, talaq verdiyi və iddə günlərində hələ sünnü məzhəbində olan yaisə və səğirə qadının bacısı ilə izdivac etsin, iddənin hökmlərinə riayət etməsi də vacib deyildir.

**Məsələ:** ٢٨٨٢: Əgər sünnülərdən bir kişi iki adil şəxsin olmadığı halda öz arvadına, yaxud onun bədən üzvlərindən birinə, misal üçün, arvadının barmağına talaq versə, onun məzhəbinə əsasən, bu talaq səhihdir, lakin imamiyyə məzhəbinə əsasən bu talaq batil sayılır. Deməli, şiə olan bir kişi ilzam qaydasına əsasən iddəsi tamam olduqdan sonra talaq verilmiş o qadınla izdivac edə bilər.

**Məsələ:** ٢٨٨٣: Əgər sünnülərdən bir kişi öz arvadına adət halında, yaxud onunla yaxınlıq etdiyi paklıq dövründə talaq versə, onun məzhəbinə əsasən bu talaq səhihdir, lakin imamiyyə məzhəbində batil sayılır. Deməli, şiə bir kişi ilzam qaydasına əsasən iddə günləri qurtardıqdan sonra o qadınla evlənə bilər.

**Məsələ:** ٢٨٨٤: Əbu Hənifə və sünnü fəqihlərinin bə`zilərinin fətvasına əsasən bir şəxs icbar və ikrah əsasında (razı olmadığı halda) öz qadınına talaq versə, o talaq səhihdir, lakin imamiyyə məzhəbində batil sayılır. Deməli, şiə bir kişi ilzam qaydasına əsasən əri tərəfindən icbar və ikrahla talaq verilən bir qadınla, Əbu Hənifənin və onun həm rəylərinin məzhəbində olduğu halda talaq verilmiş olsa evlənə bilər.

**Məsələ:** ٢٨٨٥: Əgər sünnülərdən bir kişi "filan işi yerinə yetirsəm, arvadım talaq verilmiş olsun" - deyə and içərsə və sonradan o işi yerinə yetirərsə öz məzhəbinə əsasən onun arvadı talaq verilmiş olur, lakin imamiyyə məzhəbinə əsasən talağa and gerçəkləşmir. İlzam qaydasına əsasən, şiə bir kişi üçün caizdir ki, iddəsi qurtardıqdan sonra o qadınla evlənsin. Həmçinin sünnü məzhəbinə əsasən talaq yazılma ilə də caizdir, lakin şiə məzhəbinə əsasən talaq yazılmaqla gerçəkləşmir. Deməli, ilzam qaydasına əsasən şiə bir kişi yazı əsasında talaq verilən bir (sünnü) qadınla, iddəsi qurtardıqdan sonra evlənə bilər.

**Məsələ:** ٢٨٨٦: İbni Qüdamədən nəql olunanlara görə, Əbu Hənifənin fətvasına əsasən əgər bir şəxs müəyyən bir şeyi görmədən (sadəcə) satıcının vəsf etməsi ilə alarsa və onu sonradan görərsə hətta onun satıcının söylədiklərinə uyğun çıxsa belə, alıcı üçün "rö`yət ixtiyarı" sabit olur, amma imamiyyə şiəsində bu halda rö`yət xiyarı yoxdur. Deməli, əgər şiə, Əbu Hənifənin ardıcılı olan bir şəxsdən müəyyən bir şeyi vəsf etməklə alsa və ondan sonra müşahidə etsə, ilzam qaydasına əsasən o şiə şəxsə "rö`yət xiyarı" sabit olur.

**Məsələ:** ٢٨٨٧: İbni Qüdamənin "Əl-muğni" kitabında nəql etdiyi kimi, Əbu Hənifənin və Şafeinin məzhəbinə əsasən, əgər bir şəxs müamilədə məğbun olarsa, "ğəbn xiyarı" sübuta yetimr. Buna əsasən, əgər şiə bir şəxs Şafei və Hənəfi məzhəbli bir şəxsdən müəyyən bir şeyi

alsa və sonradan satıcının məğbun olması mə`lum olsa ilzam qaydasına əsasən, şiə alıcı satıcını öz əqdinə əməl etməyə vadar edə bilər.

**Məsələ:** ٢٨٨٨: Əbu Hənifənin məzhəbində "sələm" əqdinin (müəyyən bir şeyi külli və müddətli şəkildə, hazırda nağd olan səmənlə – qiymətlə – satmaq) səhih olmasında şərt edilir ki, o şey əqd zamanı xaricdə mövcud olsun, lakin şiə məzhəbinə əsasən bu şərt sələm müamiləsinin səhihliyində mötəbər deyildir. Deməli, əgər şiə bir şəxs hənəfi məzhəbli bir adamla sələm müamiləsini yerinə yetirsə və üzərində müamilə baş verən şey mövcud olmazsa, şiə, ilzam qaydasına əsasən Hənəfi məzhəbli satıcını müamilənin batil etməsinə vadar edə bilər. Həmçinin, əgər müamilə baş verən zaman satıcı hənəfi məzhəbli olub müamilədən sonra şiə olsa belə, höki eynidir.

**Məsələ:** ٢٨٨٩: Əgər sünnülərdən bir şəxs ölsə və onun sünnü məzhəbli bir qızı qalsa və onun bir qardaşı da olsa, bu halda qardaşı şiədirsə, yaxud öləndən sonra qardaşı şiə olsa, ilzam qaydasına əsasən şiə qardaş meyitin tərəkəsindən artıq qalanlarını tə`sib babətindən ixtiyarına keçirə bilər, hətta tə`sib şiələrdə batil olsa belə. Həmçinin əgər sünnülərdən bir şəxsin sünnü məzhəbli bir bacısı onun varisi olsa və onun ata-anadan bir olan əmisi olsa, onun əmisi şiə olsa, yaxud qardaşı oğlunun vəfatından sonra şiəliyi qəbul etsə, ilzam qaydasına əsasən tə`sib qəbilindən ona çatanları götürə bilər. Tə`sibin sair hallarında da hökm eyni ilə belədir.

**Məsələ:** ٢٨٩٠: Sünnü məzhəbində meyitin arvadı meyitdən qalan hər şeydən – qızıl, gümüş, mətah, ərazi, bostan və s. – irs aparır, lakin imamiyyə məzhəbində qadın torpaqdan – nə onun özündən, nə də qiymətindən – irs aparmır. Buna əsasən, ölən şəxs sünnü məzhəbli, onun arvadı isə şiə olarsa, ilzam qaydasına əsasən, şiə arvad torpaqdan irs aparır.

Burada qeyd edilənlər ilzam qaydası əsasında olan məsələlərdən bir qismi idi.

Varis üçün vəsiyyət etmək, ehram halında əqd oxumaq, şüf`e be cəvaz, xiyari şərt, xiyari təsriyə və s. kimi şeylərdə də bu qanun qüvvədədir.

## TƏŞRİHİN (CƏNAZƏNİ YARMAĞIN) HÖKMLƏRİ

**Məsələ:** ٢٨٩١: Ölmüş müsəlman şəxsin bədənini yarmaq caiz deyildir. Əgər bir şəxs onun bədənini yararsa, "diyat" kitablarında qeyd olunan təfsilata əsasən, müsəlman ceninin (ana bətnində olan üşağın) diyəsini verməlidir.[١]

[١] Yə`ni belə bir işi görən şəxs, ana bətnində olan uşağı tələf edən şəxs qədər diyə (cərimə) verməlidir.

**Məsələ:** ٢٨٩٢: Zimmi olmayan ölmüş kafirin bədənini yarmaq caizdir, zimmi kafirin bədənini yarmağın caizliyi, eləcə də onun bədəninin yarılmasında zimmi ceninin diyəsinin sabit olmamağı məhəlli-işkaldır. Amma əgər onların ayinində caiz olsa bu kimi hallarda eybi yoxdur. Əgər ölən şəxsin müsəlman, yoxsa zimmi olmasında şəkk olunarsa, onun bədənini yarmaq caizdir.

**Məsələ:** ٢٨٩٣: Əgər müsəlman bir şəxsin həyatı ölü bir şəxsin bədəninin yarılmasına bağlı olsa, bu zaman qeyri-müsəlman ölü, yaxud müsəlman olmağında şəkk olunan bir ölü bədəninin yarılması mümkün olmazsa və o müsəlmanın sağ qalması üçün digər bir yol olmazsa, bu kimi hallarda caizdir ki, ölü bir müsəlmanın bədənini yarsınlar. Bu zaman müsəlman ceninin diyəsi – diyə kitablarında qeyd olunan təfsilata əsasən – bədəni yaran şəxsə vacibdir.

**Məsələ:** ٢٨٩٤: Ölmüş müsəlmanın bədən üzvülərindən hər hansını diri bir şəxsin bədəninə peyvənd vurmaq məqsədi ilə kəsib götürmək – göz və s. kimi – caiz deyildir. O üzvü kəsən şəxs müsəlman ceninin üzvülərinin diyəsində qeyd olunduğu əsasda, o üzvün diyəsini verməlidir. Lakin müsəlman şəxsin sağ qalması ölü bir müsəlmanın hər hansı bir bədən üzvünün götrülərək ona peyvənd vurulmasına bağlı olarsa, o üzvün kəsilib götrülməsi caizdir, lakin o üzvü kəsən şəxs onun diyəsini ödəməlidir. O üzv diri şəxsin bədən üzvünə çevrildikdən sonra ona diri bədənin hökmləri cərəyan edir.

Əgər bir şəxs öz sağlığında "ölümündən sonra onun hər hansı bir üzvünü kəsib başqasına peyvənd vursunlar" -deyə vəsiyyət etsə, bu vəsiyyətin səhihliyi məhəlli-işkaldır.

**Məsələ:** ٢٨٩٥: Əgər bir şəxs öz sağlığında bədən üzvlərindən hər hansı birinin götürülüb başqasına peyvənd vurulmasına (köçürülməsinə) razı olsa, bu zaman həmin üzv, kəsiləcəyi surətdə onun həyatına xəsarət yetirən, yaxud onda nöqsan və eybin icad olunmasına səbəb olan əsaslı üzvlərdən olarsa, onun kəsilib götürülməsi caiz deyildir. Əgər o üzvün götürülməsi ilə ona heç bir zərər və eyb gəlməzsə – o cümlədən, dərinin bir hissəsi, kəsildikdə yeri ətlə dolan bud və s. – o üzvün sahibinin razılığı ilə kəsilib götürülməsi caizdir, o üzvdən "rəfi` yəd"[1] etmək üçün müəyyən bir məbləğ də almaq olar.

**Məsələ:** ٢٨٩٦: Qana ehtiyacı olan xəstələrə qan hədiyyə etmək caizdir, qanı vermək müqabilində müəyyən məbləğ (pul) almağın da eybi yoxdur. Hər bir halda qan vermək sahibinə canla əlaqədar bir zərər çatdırmamalıdır.

**Məsələ:** ٢٨٩٧: Yarılması caiz olan kafir şəxsin ölüsünün, yaxud müsəlman, yoxsa zimmi olma arasında şəkdə olan bir ölünün bədəninin

[1] Öz ixtiyarından çıxarmar, onun üzərində olan haqqından keçmək.

hər hansı bir üzvünü, müsəlman bir şəxsin bədəninə peyvənd vurmaq (köçürmək) məqsədi ilə götürmək caizdir. O üzv müsəlmanın bədəninin bir hissəsinə çevrildiyi zaman müsəlmanın hökmləri ona da cari olur.

Həmçinin nəcisul-eyn (zatən nəcis olan) heyvanın bədən üzvlərindən hər hansı birini müsəlmanın bədəninə peyvənd vurmaq (köçürmək) caizdir və o hissə müsəlmanın bədən üzvülərindən birinə çevrildikdən sonra müsəlman bədənin hökmləri o üzvə cari olur.

## TƏLQİHİN (SÜN`İ MAYALANDIRMANIN) HÖKMLƏRİ

**Məsələ:** ٢٨٩٨: Yad kişinin nütfəsini qadına təlqih etmək (sün`i mayalandırmaq) caiz deyildir, istər bu mayalandırma yad şəxsin vasitəsi ilə olsun, istərsə də o qadının öz ərinin vasitəsi ilə. Mayalandırma əməli fərz olunan halda, haram olsa da, zina sayılmır. Əgər bu yolla mayalandırılan qadın uşaq dünyaya gətirsə o uşaq nütfə sahibinə məxsusdur, övladın bütün hökmləri də ona cərəyan edir. Sün`i mayalandırma vasitəsi ilə hamilə olan qadın o uşağın anasıdır və övladın bütün hökmləri onda cərəyandadır.

**Məsələ:** ٢٨٩٩: Hər hansı bir kişinin nütfəsini götürüb onu sün`i bir bətnə qoymaq və övlad dünyaya gətirmək məqsədi ilə onu bəsləmək caizdir. Amma əgər bu işlər haram işə səbəb olacaqsa, bu işləri görmək haramdır. Əgər bu yolla övlad dünyaya gələrsə, hətta qadının yumurta hüceyrəsi olmasa,[1] o uşaq nütfə sahibinin övladı sayılır, ata-övlad hökmləri o ikisinin barəsində qüvvədədir, lakin anası yoxdur. Əgər qadının yumurta hüceyrəsi olsa, o qadın onun anası sayılır.

**Məsələ:** ٢٩٠٠: Ərin nütfəsini onun arvadına, ərin özünün vasitəsi ilə (sün`i şəkildə) mayalandırmaq caizdir. Ərindən başqasının vasitəsi ilə olarsa, haram bir iş ilə nəticələnəcəyi halda o işi görmək haramdır. Bu mayalandırma yolu ilə dünyaya gələn uşağa övladın hökmləri cərəyandadır.

## DÖVLƏT VASİTƏSİ İLƏ SALINAN XİYABANLARIN VƏ YOLLARIN HÖKMLƏRİ

**Məsələ:** ٢٩٠١: Yol və xiyaban salınan zaman camaatın evi, əmlakı o yolun üzərində olarsa və dövlət zorla, güc işlətməklə onları uçuraraq yol salarsa, onlardan keçmək caizdir. Lakin o əmlakın tikinti materiallarında sahibinin icazəsi olmadan təsərrüf etmək caiz deyildir.

**Məsələ:** ٢٩٠٢: Yolların üzərində yerləşən və yolun bir hissəsi sayılan məscidlərdə ehtiyat vacib budur ki, onlarla əlaqədər də məscidin hökmləri riayət olunsun, amma əgər nəcis olarsa onu paklamaq vacib

[1] Müasir aparatların vasitəsilə təkcə kişinin nütfəsi (sperması) ilə də övlad dünyaya gəlməsi mümkündür.

deyildir. Yollarda yerləşən vəqf məkanları vəqflikdən xaric olmur və xüsusi mütəvəllisinin, yaxud şəriət hakiminin, yaxud onun vəkilinin izni olmadan ondan istifadə etmək caiz deyildir.

**Məsələ:** ٢٩٠٣: Ümumi vəqf yerlərində, o cümlədən xiyabanlarda yerləşən məscidlər kimi, gediş-gəliş etmək caizdir, lakin xüsusi şəxslərə vəqf olunan vəqf yerlərdə, o cümlədən övladlara və mədrəsələrə vəqf olunan yerlərdə, məhəlli-işkaldır.

**Məsələ:** ٢٩٠٤: Yol və küçə salındıqdan sonra onun üzərində qalan məscidlərin yeri, əgər onlardan namaz və sair ibadətlər üçün istifadə etmək mümkün olacaq miqdarda olsa, qalanlarının üzərində məscidin hökmləri cərəyandadır və mütəşərriə irtikazında[1] məscid olmaqla ziddiyyətli olan hər növ istifadə caiz deyildir.

**Məsələ:** ٢٩٠٥: Müsəlmanların qəbiristanlığı əgər yolda yerləşərsə və yolun bir hissəsi sayılarsa, bu zaman həmin qəbristanlığın torpağı bir kəsin mülküyyətindədirsə, onun hökmü əvvəlki məsələdə deyilən şəxsi əmlakın hökmüdür. Əgər vəqf olarsa onun hökmü ikinci və üçüncü məsələdə (٢٩٠٢-٢٩٠٣) qeyd olundu, amma əgər o torpaqlardan gediş-gəliş etmək müsəlman ölülərinə hörmətsizlik sayılarsa, bu halda oradan keçmək caiz deyildir. Əgər bir şəxsin mülkü deyilsə, vəqf də olunmayıbsa və ölülərin hörmətsizliyinə səbəb olmazsa, ondan istifadə etmək caizdir. Fərz olunan birinci halda (şəxsi mülk olanda) onlardan qalmış materiallardan istifadə etmək malikinin icazəsi olmadan caiz deyildir. Fərz olunan ikinci halda isə (vəqfedə) xüsusi mütəvəllisinin icazəsinə ehtiyaclıdır; o olmadıqda isə şəriət hakimindən, yaxud onun vəkilindən icazə almaq lazımdır. Fərz olunan üçüncü halda isə icazəyə ehtiyac yoxdur.

## NAMAZ VƏ ORUCLA ƏLAQƏDAR BƏ`Zİ MƏSƏLƏLƏR

**Məsələ:** ٢٩٠٦: Əgər oruc tutan şəxs Ramazan ayında gün batandan sonra, təyyarə ilə hələ gün batmamış bir yerə səfər etsə, o yerə çatdıqdan sonra gün batana qədər orucunu davam etdirməsi vacib deyildir – istər öz yerində iftar etmiş olsun, istərsə də iftar etməmiş olsun.

**Məsələ:** ٢٩٠٧: Əgər mükəlləf şəxs sübh namazını öz vətənində qılıb hələ sübh açılmamış bir yerə səfər etsə, yaxud zöhr və əsr namazını qılıb hələ orada günorta olmamış bir yerə səfər etsə, yaxud məğrib və işa namazını qılıb hələ günəşin quruba enmədiyi bir məhəllə səfər etsə, ehtiyat vacib odur ki, qılmış olduğu namazları yenidən qılsın.

---

[1] İslam nəzərindən, müsəlmanların arasında əməl olunan və adət-ən`ənə şəklində mövcud olanlar.

**Məsələ:** ٢٩٠٨: Əgər öz yerində namazın vaxtı keçmiş olsa və namazını qılmamışsa, misal üçün, gün çıxmış olsa və şəxs sübh namazını qılmamış olsa; yaxud günəş batsa və zöhrlə əsr namazını qılmamış olsa və hələ günəş çıxmayan, yaxud günəş batmayan bir yerə səfər etsə, ehtiyat vacib görə ondan fövtə gedən namazları mafiz-zimmə niyyəti ilə – qəza və əda niyyəti etmədən – yerinə yetirsin.

**Məsələ:** ٢٩٠٩: Əgər bir şəxs təyyarədə səfərə çıxsa və namazlarını orada qılmaq istəsə, onda qiblə və sair şərtləri yerinə yetirməklə namazını qıla bilsə, onun namazı səhihdir; əgər qıla bilməsə, namazını heç olmasa üzü qibləyə yerinə yetirsin. Əgər namazın vaxtı çox olsa və təyyarədən düşdükdən sonra üzü qibləyə yerinə yetirə bilsə, bu halda təyyarədə namaz qılması batildir. Əgər namazın vaxtı az olsa və təyyarədən endiyi vaxta qədər namazın vaxtı tamam olsa, vacibdir ki, onu, təyyarədə qiblənin hansı tərəfdə yerləşdiyinə elmi olduğu istiqamətdə yerinə yetirsin. Əgər elmi yoxdursa, qiblənin yerləşdiyinə güman etdiyi hər tərəfə qıla bilər. Əgər gümanı da yoxdursa, istədiyi tərəfə namaz qıla bilər, baxmayaraq ki, ehtiyat müstəhəb budur ki, dörd tərəfə namaz qılsın. Əgər qibləyə doğru namaz qılmağa ümumiyyətlə imkan yoxdursa, bu şərt götürülür.

**Məsələ:** ٢٩١٠: Əgər bir şəxs sür`əti yerin sür`ətinə bərabər olan təyyarəyə minsə və şərq tərəfdən qərb tərəfə hərəkət edib bir müddət yerin ətrafına fırlansa, ehtiyat vacibə görə hər ٢٤ saatda özünün beş vaxt namazlarını yerinə yetirməli və o namaz və orucların qəzasını da əncam verməlidir.

Əgər təyyarənin sür`əti yerin hərəkət sür`ətindən iki dəfə artıq olsa, vacibdir ki, sübh namazını fəcrin tüluunda (dan yeri söküləndə), zöhr və əsr namazını günəşin günortaya çatdığı vaxt, məğrib və işa namazlarını isə gün batandan sonra yerinə yetirsin.

Əgər təyyarənin hərəkət sür`əti elə bir həddə olsa ki, misal üçün, hər üç saatdan bir, bir dəfə yerin ətrafına fırlansa, vacib ehtiyata görə gərək namazlarını fəcrin tüluunda, günəşin günortaya çatdığı və batdığı zaman qılsın və hər ٢٤ saatda bir daha beş namazını yerinə yetirsin.

Əgər təyyarə qərbdən şərqə doğru hərəkət edirsə, bu zaman onun hərəkət sür`əti yerin hərəkət sür`ətinə bərabər, yaxud ondan az olarsa, namazlarını fəcrin tüluunda, günəş günortaya çatanda və qürub etdikdə yerinə yetirməsi vacibdir.

Əgər təyyarənin sür`əti yerin sür`ətindən artıq olarsa, belə ki, misal üçün, hər üç saatda bir dəfə yerin ətrafına fırlanırsa, yuxarıda deyilən ehtiyata əməl etməlidir.

**Məsələ:** ٢٩١١: Vəzifəsi səfərdə oruc tutmaq olan bir şəxs – peşəsi səfər etmək olan şəxslər kimi – əgər sübh açılandan və oruc niyyəti

etdikdən sonra təyyarə ilə hələ sübh açılmamış bir yerə səfər etsə, onda orucu batil edən işlərdən görməsi onun üçün caizdir.

**Məsələ:** ٢٩١٢: Əgər bir şəxs mübarək Ramazan ayında zöhrdən sonra səfərə gedib hələ zöhr olmamış bir yerə çatsa, vacibdir ki, imsak edərək orucunu axıra çatdırsın.

**Məsələ:** ٢٩١٣: Əgər fərz üzrə, mükəlləf şəxs altı ay gecə və altı ay gündüz olan yerdə olsa, o şəxs oruc və namazlarını şər`i vaxta yerinə yetirə biləcəyi şəhərə köçə bilərsə, onun köçməsi vacibdir. Əgər köçə bilməzsə, ehtiyat vacibə görə hər ٢٤ saat ərzində beşlik namazlarını qılmalı və onların qəzalarını da yerinə yetirməli və orucun qəzasını da tutmalıdır.

***Əl-həmdu lillahi Rəbbil-aləmin.***

## ŞƏR`İ İSTİLAHLARİN İZAHI

| | |
|---|---|
| Böyük hədəs | Qüslə səbəb olan hər şey, cima və heyz kimi |
| Vacib | Görülməsi, əncam verilməsi lazım (ilzami), tərk olunması isə ilahi əzaba səbəb olan əməldir (namaz, oruc və s. kimi). |
| Vacibi-eyni | Hər bir şəxsin özünə (başqalarını nəzərə almadan) vacib olan əməldir (namaz, oruc kimi). |
| Vacibi-təxyiri | Bir neçə vacibdən, istədiyini görməkdə ixtiyar sahibidir |
| Vacibi-kifai | Hamıya vacib olan, amma bir, yaxud bir neçə nəfər yerinə yetirdikdə hamının öhdəsindən götörölən əməl (meyyit namazı kimi) |
| Vəqfin tovliyəti | İdarə etmək, aidiyyəti olan bütün işlərə baxma məs`uliyyəti |
| Vacib səcdəsi olan surələr | ١. “Səcdə” surəsi (٣٢-ci surə);<br>٢. “Füssilət” surəsi (٤١-ci surə);<br>٣. “Nəcm” surəsi (٥٣- cü surə);<br>٤. “Ələq” surəsi (٩٦- cı surə). |
| Vilayət | Şər`i cəhətdən ixtiyar sahibi olmaq |
| Vəty | Cinsi əmələ işarədir |
| Vəli | Şər`i cəhətdən ixtiyar sahibi olan şəxs |
| Qasir cahil | Şər`i məsələsini bilməyən və öyrənməyə imkanı olmayan, üzürlü olan |
| Qiymi | Növ və fərdlərinin xüsusiyətləri dəyər baxımından və aqillərin rəğbəti nəzərində başqa fərdin qiyməti ilə fərqli olan şeyə deyilir. |
| Qəyyum | Başçı, sərpərəst |
| Ğulat | İmamlar barəsində ifrata varıb Allahın onların bədəninə hülul etməsinə, daxil olmasına e`tiqad bəsləyənlər. |
| Ğusalə | Adətən, bir şeyi yuyan zaman, yaxud yuyandan sonra o şeydən öz-özünə və ya onu sıxmaq və bu kimi əməllə ayrılan suya deyilir. |
| Ğait | İfrazat |
| Ehtiyat, | O əməldir ki, ehtiyata müvafiqdir, amma fəqih |

| | |
|---|---|
| ehtiyatən, ehtiyat vacib | onunla yanaşı fətva verməyibdir. Belə olan hallarda müqəllid sonrakı ə`ləmlikdə rütbədə gələn müctəhidin fətvasına əməl edə bilər. |
| Ehtiyat-lazım | O ehtiyatdır ki, müctəhid ona riayət etməyi əqli dəlillər vasitəsi ilə isbat etmişdir. |
| Ehtiyat müstəhəbb | Müstəhəb əsasda olan ehtiyat |
| Zira | Dirsəkdən barmaqların ucuna qədər olan məsafədir |
| Zimmə əhli, zimmi kafir | Müəyyən şərtlər daxilində İslam hökumətinin pənahında yaşamağa iltizamlı olan kitab əhli – yəhudilər və məsihilər kimi. |
| Zahiri paklıq | Paklığında şəkk olunan şeyə, Şəriət sahibinin hökm etdiyi paklıq |
| Yaisə | Qadınlar altmış yaş tamam olandan sonra yaisə olurlar və bundan sonra qan görsələr, heyz qanı deyildir. |
| Kafir | Allahı, sonuncu Peyğəmbərin (səlləllahu əleyhi və alih) risalətini və ya məadı inkar edən və yaxud Allah, Onun Rəsulunda şəkk edən, yaxud Allaha şərik qoşan və ya Allahın yeganəliyinə şəkk edən kəs. |
| Kiçik hədəs | Yalnız dəstəmazın pozulmasına səbəb olan hər iş, məsələn, bövl və ğaitin xaric olması kimi |
| Məkruh | Tərk edilməsi yaxşı və savablı, lakin görülməsi ilahi əzaba səbəb olmayan əməldir (xörəyi üfürmək, qaynar xörək yemək və s. kimi). |
| Müsətəhəb | Görülməsi yaxşı, savabı olan, lakin tərk edilməsi ilahi əzaba səbəb olmayan əməldir (salam vermək, sədəqə və s. kimi). |
| Mübah | Görülməsi və tərk edilməsi eyni dərəcədə olan əməldir. Onun savabı yoxdur, ilahi əzaba da səbəb olmur. |
| Misqal | ٤،٦٤ qramdır (٢٤ noxud bir misqaldır, deməli, bir noxud misqalın ٢٤-də biri qədərdir. |
| Məhəlli-işkal | İşkalı var, onun səhih olması şübhəlidir. (Müqəllid bu kimi məsələlərdə başqa müctəhidə müraciət edə bilər). |
| Meyyitin malının əsli | Meyyitə məxsus olan üçdə biri çıxılmamış, vərəsələrin payı ayrılmamış olan malı |
| Mövzuiyyə şübhəsi | Mövzunun ayırd edilməsindəki şübhə, şəkk. |

| | |
|---|---|
| Müdd | Təqribən ٧٥٠ qramdır (bir "sir" ٧٥ qram, ١٠ "sir" bir müdd, yə`ni ٧٥٠ qramdır) |
| Müstəhəq | Xüms almaq üçün lazım olan şərtlərə malik olan şəxs |
| Müflis | Borcları mal-dövlətindən çox olduğuna görə cameüş-şərait müctəhid tərəfindən öz malında təsərrüf etməsi qadağan olunan şəxs |
| "Mən" | Çəki vahididir, təqribən ٣ kiloqramdır. |
| Məzalim | İnsanın boynunda olan və sahibini tanımadığı, yaxud sahibini tapa bilmədiyi şeylər |
| Mütəvəlli | Məscidin, vəqfin işlərinə baxan adam |
| Müşrik | Allaha şərik qoşan |
| Milli mürtədd | Kafir ata və anadan dünyaya gələrək sonra islamı qəbul edərək müsəlman olduqdan sonra islamdan üz döndərənə deyilir. |
| Mü`təsim su | Yağış, kür və axar su kimi, nəcis dəydikdə nəcis olmayan su. |
| Misli | Onun müxtəlif növlərinin xüsusiyətləri baxımından qiyməti aqillərin nəzərində başqa fərdin qiyməti ilə fərqli olmayan şey |
| Müqəssir cahil | Şər`i məsələsini bilməyən və öyrənməyə imkanı ola-ola üzürsüz səbəbə görə öyrənməyən |
| Mütləq qürbət qəsdi | Şəriət sahibinin əmrini yerinə yetirmək qəsdi – istər vacib olsun, istərsə müstəhəb |
| Müəyyəndə olan külli | Aid edilməsi bir, yaxud bir neçə müəyyən haldan xaric olan külli və ümumi bir şey |
| Ma fizzimmə | İnsanın öhdəsinə aldığı şey |
| Məchulül-malik | Maliki mə`lum olmayan və itiyin hökmləri ona aid edilməyən şey |
| Məhəlli-işkal | Ehtiyat olunmalıdır. (Müqəllid belə məsələlərdə başqa müctəhidə müraciət edə bilər.) |
| Məzalim | İnsanın öhdəsində olan haqq və s. Ki, onun sahibi, hətta bir neçə müəyyən şəxs arasında olsa belə, mə`lum deyil, yaxud mə`lum olsa da insan onu tapa bilmir. |
| Nəvasib | İmamlara (xüsusilə həzrət Əli (əleyhis-salam)-a qarşı nalayiq sözləri rəva bilənlər |
| Rəca qəsdi | Allah taalanın əmr və ya nəhy etməsi ehtimalı ilə bir əməlin yerinə yetirilməsi, yaxud tərk |

| | |
|---|---|
| | edilməsi |
| Səmən | Əmtəənin qiyməti |
| Siğə | Alver və nikah kimi ikitərəfli ərqin, yaxud talaq kimi birtərəfli ərdin gerçəkləşməsinə səbəb olan cümlə |
| Təəmmül-məhəlli | Ehtiyat olunmalıdır. (Müqəllid belə məsələlərdə başqa müctəhidə müraciət edə bilər.) |
| Təsərrüf etmək | İxtiyarına keçirmək, alıb-satmaq, hədiyyə etmək, ümumiyyətlə hər növ istifadə nəzərdə tutulur. |
| Tərci | Səsin boğaza salınması ilə olan səs. |
| Tərəxxüs həddi | Müsafirin öz vətənindən azan səsini eşitməyəcək dərəcədə aralandığı məsafə |
| Ücrətul-misl | Bir şeyin, yaxud işin camaat arasında mövcud olan haqqı; bunun icarədə və s.də müəyyən olunan miqdardan az, yaxud çox və ya bərabər olması mümkündür. |
| Ücrətul-müsəmma | Adi zikr edilmiş haqq ya əmək haqqı; icarə və s. Müqavilələrində tə`yin olunan əmək haqqı, qiymət |
| Fitri mürtədd | Valideyninin hər ikisi, ya biri müsəlman olaraq həddi-buluğa yetdikdən sonra ağlı kamil olan surətdə ixtiypri halda islam dinindən üz döndərənə deyilir. |
| Füzuli əqd | Malikin icazəsi olmadan baş verən və səhihliyi sonrakı razılıqla şərtlənən müamilə, yaxud əqddir |
| Xəvaric | Mə`sum İmam (əleyhimus-salam)-ın əleyhinə qiyam edənlər |
| Xüzu və xüşu | Allahın əzəməti müqabilində tə`zim, Onun dərgahında bəndəliyin, zəlilliyin izhar edilməsi. |
| Haram | Tərk edilməsi lazım (ilzami), görülməsi isə ilahi əzaba səbəb olan əməldir (yalan danışmaq, zülm etmək və s. kimi). |
| Həqqüt-təhcir (təhcir haqqı) | Sahibi olmayan yerin ətrafına daş düzərək və ya hasar çəkərək onu öz mülkiyyətinə keçirmək və ona sahib olmaq. |
| Hökmiyyə şübhəsi | Hökmün ayırd edilməsində olan şübhə |
| Hərəc | Adətən döziləsi mümkün olmayan çətinlik |

| | |
|---|---|
| Hərbi kafir | Zimmə şərtlərini qəbul etməyən və müsəlmanlarla müqavilə bağlamayan kafir |
| Cameüş-şərait müctəhid | Mərcəyi-təqlid olmaq üçün lazım olan bütün şərtlərə malik olan şəxs |
| Şər`i fərsəx | Təqribən ٥،٥ km |
| Şəriət hakimi | Şər`i cəhətdən hökm vermək səlahiyyətinə malik olan müctəhid |
| Yəqin | Heç bir xilaf ehtimalı verilməyən |
| Xatircəmlik | Düzlüyü güclü nəzərə gələn və ərlən xilaf |
| Arxayınlıq | ehtimalı da verilən |
| Şəkk | Baş verməsi ilə baş verməməsi bərabər səviyyədə olan |

# Mündəricat


TƏQLİDİN HÖKMLƏRİ ..... ١
TƏHARƏTİN HÖKMLƏRİ ..... ٥
MÜTLƏQ VƏ MUZAF (QARIŞIQ) SU ..... ٥
١. KÜRR SUYU ..... ٥
٢. AZ SU ..... ٦
٣. AXAR SU ..... ٦
٤. YAĞIŞ SUYU ..... ٧
٥. QUYU SUYU ..... ٨
SULARIN HÖKMLƏRİ ..... ٨
AYAQ YOLUNA GETMƏYİN (TƏXƏLLİNİN) HÖKMLƏRİ ..... ٩
İSTİBRA ..... ١١
TƏXƏLLİNİN MÜSTƏHƏBB VƏ MƏKRUH ƏMƏLLƏRİ ..... ١٢
NƏCİS ŞEYLƏR ..... ١٣
١ – ٢ BÖVL VƏ ĞAİT ..... ١٣
٣ – MƏNİ (SPERMA) ..... ١٣
٤-MURDAR (ÖZÜ ÖLMÜŞ VƏ YA ŞƏR`İ GÖSTƏRİŞLƏ KƏSİLMƏMİŞ HEYVAN) ..... ١٣
٥-QAN ..... ١٤
٦ – ٧–İT VƏ DONUZ ..... ١٥
٨-KAFİR ..... ١٥
٩-ŞƏRAB ..... ١٦
١٠-PİVƏ ..... ١٦
NƏCASƏTİN SÜBUT OLUNMA YOLLARI ..... ١٦
PAK ŞEY NECƏ NƏCİS OLUR? ..... ١٧
NƏCASƏTLƏRİN HÖKMLƏRİ ..... ١٩
MÜTƏHHİRAT (PAKEDİCİLƏR) ..... ٢١
١. SU ..... ٢١
٢. YER ..... ٢٥
٣. GÜNƏŞ ..... ٢٦
٤. İSTİHALƏ ..... ٢٧
٥. İNQİLAB ..... ٢٧
٦. İNTİQAL ..... ٢٨
٧. İSLAM ..... ٢٨
٨. TƏBƏİYYƏT ..... ٢٩
٩. NƏCASƏTİN EYNİNİN ARADAN GETMƏSİ ..... ٢٩
١٠. NƏCASƏT YEYƏN HEYVANIN ISTIBRASI ..... ٣٠
١١. MÜSƏLMANIN QAIB OLMASI ..... ٣٠
QABLARIN HÖKMLƏRİ ..... ٣١
DƏSTƏMAZ ..... ٣٣
İRTİMASİ DƏSTƏMAZ ..... ٣٥
DƏSTƏMAZ ALARKƏN MÜSTƏHƏBB OLAN DUALAR ..... ٣٥
DƏSTƏMAZIN DÜZGÜN OLMASI ŞƏRTLƏRİ ..... ٣٧
DƏSTƏMAZIN HÖKMLƏRİ ..... ٤٢
DƏSTƏMAZ ALINMASI ŞƏRT OLAN VACİB ƏMƏLLƏR ..... ٤٤
DƏSTƏMAZI BATLİ EDƏN ŞEYLƏR ..... ٤٥

*Şər`i istilahların izahı*.....٤٦٥
CƏBİRƏ DƏSTƏMAZININ HÖKMLƏRİ.....٤٦
VACİB QÜSLLƏR.....٤٩
CƏNABƏTİN HÖKMLƏRİ.....٤٩
CÜNUB (CƏNABƏTLİ) ŞƏXSƏ HARAM OLAN ŞEYLƏR.....٥٠
CÜNUB ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR.....٥١
CƏNABƏT QÜSLÜ.....٥١
TƏRTIBI QÜSL.....٥٢
İRTIMASI QÜSL.....٥٢
QÜSL ETMƏYİN HÖKMLƏRİ.....٥٣
İSTİHAZƏ.....٥٦
İSTİHAZƏNİN HÖKMLƏRİ.....٥٦
HEYZ.....٦٢
HAİZİN HÖKMLƏRİ.....٦٤
HAİZ QADINLARIN QİSMLƏRİ.....٦٧
١. VƏQTIYYƏ VƏ ƏDƏDIYYƏ ADƏTINƏ SAHIB OLANLAR...٦٧
٢. VƏQTIYYƏ ADƏTINƏ SAHIB OLANLAR.....٦٧
٣. ƏDƏDIYYƏ ADƏTINƏ SAHIB OLANLAR.....٦٧
٤. MÜZTƏRIBƏ.....٦٧
٥. MÜBTƏDIƏ.....٦٧
٦. NASIYƏ.....٦٧
١. VƏQTİYYƏ VƏ ƏDƏDİYYƏ ADƏTİ OLAN QADINLAR.....٦٧
٢. VƏQTİYYƏ ADƏTLİ QADINLAR.....٧٠
٣. ƏDƏDİYYƏ ADƏTLİ QADINLAR.....٧١
٤. MÜZTƏRİBƏ.....٧٢
٥. MÜBTƏDİƏ.....٧٣
٦. NASİYƏ.....٧٤
HEYZİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ.....٧٥
NİFAS.....٧٦
MƏSSİ-MEYYİT QÜSLÜ.....٧٩
MÖHTƏZİRİN (CAN VERƏNİN) HÖKMLƏRİ.....٨١
ÖLÜMDƏN SONRAKI HÖKMLƏR.....٨٢
MEYYİTİN QÜSL, KƏFƏN, NAMAZ VƏ DƏFNİNİN HÖKMLƏRİ.٨٢
MEYYİTƏ QÜSL VERMƏYİN QAYDASI.....٨٣
MEYYİTİ KƏFƏNƏ BÜKMƏYİN HÖKMLƏRİ.....٨٥
HƏNUTUN HÖKMLƏRİ.....٨٧
MEYYİT NAMAZININ HÖKMLƏRİ.....٨٧
MEYYİT NAMAZININ QAYDASI.....٨٩
MEYYİT NAMAZININ MÜSTƏHƏBB ƏMƏLLƏRİ.....٩١
DƏFNİN HÖKMLƏRİ.....٩٢
DƏFNİN MÜSTƏHƏB ƏMƏLLƏRİ.....٩٣
VƏHŞƏT NAMAZI.....٩٧
QƏBRİN AÇILMASI.....٩٨
MÜSTƏHƏBB QÜSLLƏR.....٩٩
TƏYƏMMÜM.....١٠١
TƏYƏMMÜMƏ SƏBƏB OLANLARDAN BIRINCISI.....١٠١
TƏYƏMMÜMƏ SƏBƏB OLACAQ IKINCI YER.....١٠٣

TƏYƏMMÜMƏ SƏBƏB OLAN ÜÇÜNCÜ YER ..... ١٠٣
TƏYƏMMÜMƏ SƏBƏB OLAN DÖRDÜNCÜ YER ..... ١٠٤
TƏYƏMMÜMƏ SƏBƏB OLAN BEŞINCI YER ..... ١٠٤
TƏYƏMMÜMƏ SƏBƏB OLAN ALTINCI YER ..... ١٠٤
TƏYƏMMÜMƏ SƏBƏB OLAN YEDDINCI YER ..... ١٠٥
ÜZƏRİNƏ TƏYƏMMÜM EDİLMƏSİ SƏHİH OLAN ŞEYLƏR ..... ١٠٥
DƏSTƏMAZ, YA QÜSL ƏVƏZİ EDİLƏN TƏYƏMMÜMÜN QAYDALARI ..... ١٠٧
TƏYƏMMÜMÜN HÖKMLƏRİ ..... ١٠٧
NAMAZIN HÖKMLƏRİ ..... ١١٢
VACİB NAMAZLAR ..... ١١٣
GÜNDƏLİK VACİB NAMAZLAR ..... ١١٤
ZÖHR VƏ ƏSR NAMAZININ VAXTI ..... ١١٤
MƏĞRIB VƏ IŞA NAMAZLARININ VAXTI ..... ١١٥
SÜBH NAMAZININ VAXTI ..... ١١٥
NAMAZ VAXTININ HÖKMLƏRI ..... ١١٦
TƏRTİBLƏ QILINMALI OLAN NAMAZLAR ..... ١١٨
MÜSTƏHƏBB NAMAZLAR ..... ١١٩
GÜNDƏLİK NAMAZLARIN NAFİLƏSİNİN VAXTI ..... ١٢٠
ĞUFEYLƏ NAMAZI ..... ١٢١
QİBLƏNİN HÖKMLƏRİ ..... ١٢٢
NAMAZDA BƏDƏNİ ÖRTMƏK ..... ١٢٣
NAMAZ QILANIN PALTARININ ŞƏRTLƏRİ ..... ١٢٤
BIRINCI ŞƏRT ..... ١٢٤
İKINCI ŞƏRT ..... ١٢٧
ÜÇÜNCÜ ŞƏRT ..... ١٢٨
DÖRDÜNCÜ ŞƏRT ..... ١٢٨
BEŞINCI ŞƏRT ..... ١٢٩
ALTINCI ŞƏRT ..... ١٢٩
NAMAZ QILANIN BƏDƏN, YA PALTARININ PAK OLMASI LAZIM OLMAYAN YERLƏR ..... ١٣٠
NAMAZ QILANIN LİBASINDA MÜSTƏHƏB OLANLAR ..... ١٣٢
NAMAZ QILANIN LİBASINDA MƏKRUH OLANLAR ..... ١٣٣
NAMAZ QILANIN MƏKANI ..... ١٣٣
BIRINCI ŞƏRT: MÜBAH OLMALIDIR. ..... ١٣٣
İKINCI ŞƏRT ..... ١٣٤
ÜÇÜNCÜ ŞƏRT ..... ١٣٥
DÖRDÜNCÜ ŞƏRT ..... ١٣٥
BEŞINCI ŞƏRT ..... ١٣٥
ALTINCI ŞƏRT ..... ١٣٦
YEDDINCI ŞƏRT ..... ١٣٦
NAMAZ QILMAĞIN MÜSTƏHƏBB OLDUĞU YERLƏR ..... ١٣٦
NAMAZ QILMAĞI MƏKRUH OLAN YERLƏR ..... ١٣٧
MƏSCİDİN HÖKMLƏRİ ..... ١٣٨
AZAN VƏ İQAMƏ ..... ١٣٩

AZAN VƏ İQAMƏNİN TƏRCÜMƏSİ ..... ١٤٠
NAMAZIN VACİBATI ..... ١٤٣
NIYYƏT ..... ١٤٤
TƏKBIRƏTUL-EHRAM ..... ١٤٥
QIYAM (AYAQ ÜSTƏ DURMAQ) ..... ١٤٦
QIRAƏT ..... ١٤٩
RÜKU ..... ١٥٤
SƏCDƏLƏR ..... ١٥٧
ÜZƏRİNƏ SƏCDƏ OLUNMASI SƏHİH OLAN ŞEYLƏR ..... ١٦٠
SƏCDƏDƏ MÜSTƏHƏBB VƏ MƏKRUH OLAN ŞEYLƏR ..... ١٦٢
QUR'ANIN VACİB SƏCDƏSİ ..... ١٦٣
TƏŞƏHHÜD ..... ١٦٤
NAMAZIN SALAMI ..... ١٦٥
TƏRTIB ..... ١٦٦
MUVALAT (ARDICILLIQ) ..... ١٦٦
QUNUT ..... ١٦٧
NAMAZIN TƏRCÜMƏSİ ..... ١٦٨
١ – «HƏMD» SURƏSININ TƏRCÜMƏSI: ..... ١٦٨
٢ – «QUL HUVƏLLAHU ƏHƏD» SURƏSININ TƏRCÜMƏSI: .. ١٦٩
٣ – RÜKUNUN, SƏCDƏNIN VƏ ONLARDAN SONRA MÜSTƏHƏBB OLAN ZIKRLƏRIN TƏRCÜMƏSI: ..... ١٦٩
٤ – QUNUTUN TƏRCÜMƏSI: ..... ١٦٩
٥ – TƏSBIHATI-ƏRBƏƏNIN TƏRCÜMƏSI: ..... ١٧٠
٦ – TƏŞƏHHÜD VƏ SALAMIN TƏRCÜMƏSI ..... ١٧٠
NAMAZIN TƏ'QİBATI ..... ١٧٠
PEYĞƏMBƏRƏ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) SALAVAT GÖNDƏRMƏK ..... ١٧١
NAMAZI BATİL EDƏN ŞEYLƏR ..... ١٧١
NAMAZDA MƏKRUH OLAN ŞEYLƏR ..... ١٧٦
VACİB NAMAZI POZMAĞIN CAİZ OLDUĞU HALLAR ..... ١٧٦
ŞƏKKİYYAT ..... ١٧٧
BATIL EDƏN ŞƏKLƏR ..... ١٧٧
E'TINA OLUNMAYAN ŞƏKLƏR ..... ١٧٧
١. MƏHƏLLI KEÇMIŞ ŞEYLƏRDƏ ŞƏKK ETMƏK ..... ١٧٨
٢ – SALAMDAN SONRAKI ŞƏKK ..... ١٨٠
٣ – VAXT ÖTDÜKDƏN SONRA EDILƏN ŞƏKK ..... ١٨٠
٤. KƏSIRUŞ-ŞƏKKIN (ÇOX ŞƏKK EDƏN ŞƏXSIN) ŞƏKK ETMƏSI ..... ١٨٠
٥ – İMAM VƏ MƏ'MUMUN ŞƏKK ETMƏSI ..... ١٨١
٦ – MÜSTƏHƏBB NAMAZLARDA ŞƏKK ETMƏK ..... ١٨١
SƏHIH ŞƏKLƏR ..... ١٨٢
EHTİYAT NAMAZI ..... ١٨٦
SƏHV SƏCDƏSİ ..... ١٨٩
SƏHV SƏCDƏSİNİN QAYDASI ..... ١٩٠
YADDAN ÇIXMIŞ SƏCDƏ VƏ TƏŞƏHHÜDÜN QƏZASI ..... ١٩٠

NAMAZIN HİSSƏ VƏ ŞƏRTLƏRİNİNAZALDILIB-ÇOXALDILMASI ..... ١٩٢
MÜSAFİRİN NAMAZI ..... ١٩٣
MÜSAFİRİN NAMAZININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ ..... ٢٠٤
QƏZA NAMAZI ..... ٢٠٦
ATANIN, BÖYÜK OĞULA VACİB OLAN QƏZA NAMAZLARI .. ٢٠٩
CAMAAT NAMAZI ..... ٢١٠
CAMAAT NAMAZI İMAMININ ŞƏRTLƏRİ ..... ٢١٦
CAMAAT NAMAZININ HÖKMLƏRİ ..... ٢١٧
CAMAAT NAMAZINDA İMAMIN VƏ MƏ'MUMUN VƏZİFƏLƏRİ ..... ٢١٩
CAMAAT NAMAZINDA MÜSTƏHƏBB OLAN ƏMƏLLƏR ..... ٢١٩
CAMAAT NAMAZINDA MƏKRUH OLAN İŞLƏR ..... ٢٢٠
AYƏT NAMAZI ..... ٢٢٠
AYƏT NAMAZININ QILINMA QAYDASI ..... ٢٢٢
FİTR VƏ QURBAN BAYRAMLARININ NAMAZI ..... ٢٢٣
NAMAZ ÜÇÜN ƏCİR TUTMAQ ..... ٢٢٧
ORUCUN HÖKMLƏRİ ..... ٢٣٠
NIYYƏT ..... ٢٣٠
ORUCU BATİL EDƏN ŞEYLƏR ..... ٢٣٣
١- YEMƏK VƏ IÇMƏK ..... ٢٣٣
٢- CIMA ..... ٢٣٤
٣- İSTIMNA ..... ٢٣٥
٤- ALLAHIN VƏ PEYĞƏMBƏRIN (SƏLLƏLLAHU ƏLEYHI VƏ ALIH) ADINDAN YALAN SÖYLƏMƏK ..... ٢٣٥
٥. TOZU BOĞAZA ÇATDIRMAQ ..... ٢٣٦
٦- BAŞI SUYA BATIRMAQ ..... ٢٣٧
٧- SÜBH AZANINA QƏDƏR CƏNABƏT, HEYZ VƏ NIFAS HALINDA QALMAQ ..... ٢٣٨
İMALƏ ETMƏK ..... ٢٤٠
QUSMAQ ..... ٢٤١
ORUCU BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ ..... ٢٤١
ORUC TUTANA MƏKRUH OLAN ŞEYLƏR ..... ٢٤٢
QƏZA VƏ KƏFFARƏ VACİB OLAN YERLƏR ..... ٢٤٢
ORUCUN KƏFFARƏSİ ..... ٢٤٢
ORUCUN YALNIZ QƏZASI VACİB OLAN YERLƏR ..... ٢٤٥
QƏZA ORUCUNUN HÖKMLƏRİ ..... ٢٤٧
MÜSAFİRİN ORUCUNUN HÖKMLƏRİ ..... ٢٤٩
ORUC TUTMAQ VACİB OLMAYAN ŞƏXSLƏR ..... ٢٥٠
AYIN ƏVVƏLİNİN SABİT OLMA YOLU ..... ٢٥١
HARAM VƏ MƏKRUH OLAN ORUCLAR ..... ٢٥٢
MÜSTƏHƏB ORUCLAR ..... ٢٥٣
ORUCU BATİL EDƏN İŞLƏRDƏN ÇƏKİNMƏYİNMÜSTƏHƏBB OLAN YERLƏRİ ..... ٢٥٣
E`TİKAFIN HÖKMLƏRİ ..... ٢٥٥

*Şər`i istilahların izahı*.....٤٦٩

XÜMSÜN HÖKMLƏRİ..... ٢٥٨
١-KƏSB QAZANCI..... ٢٥٨
٢. MƏ`DƏN..... ٢٦٣
٣. XƏZINƏ..... ٢٦٤
٤. HARAMA QARIŞMIŞ HALAL MAL..... ٢٦٥
٥. DƏNIZƏ BAŞ VURMAQLA ƏLDƏ EDILƏN CƏVAHIRAT.. ٢٦٦
٦. QƏNIMƏT..... ٢٦٧
٧. ZIMMI KAFIRIN MÜSƏLMANDAN ALDIĞI YER..... ٢٦٨
XÜMSÜN SƏRF OLUNAN YERLƏRI..... ٢٦٨
ZƏKATIN HÖKMLƏRİ..... ٢٧١
ZƏKATIN VACİB OLMA ŞƏRTLƏRİ..... ٢٧١
BUĞDA, ARPA, KİŞMİŞ VƏ XURMANIN ZƏKATI..... ٢٧٢
QIZIL VƏ GÜMÜŞÜN ZƏKATI..... ٢٧٦
DƏVƏ, İNƏK VƏ QOYUNUN ZƏKATI..... ٢٧٧
DƏVƏNIN NISABI..... ٢٧٨
İNƏYIN NISABI..... ٢٧٨
QOYUNUN NISABI..... ٢٧٩
ZƏKATIN XƏRCLƏNDİYİ YERLƏR..... ٢٨٠
ZƏKAT ALMAĞA HAQQI OLAN KƏSLƏRİN – MÜSTƏHƏQLƏRİN ŞƏRTLƏRİ..... ٢٨٣
ZƏKATIN NİYYƏTİ..... ٢٨٤
ZƏKATIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ..... ٢٨٤
FİTRƏ ZƏKATI..... ٢٨٨
FİTRƏ ZƏKATININ XƏRCLƏNMƏSİ..... ٢٩٠
FİTRƏ ZƏKATININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ..... ٢٩١
HƏCCİN HÖKMLƏRİ..... ٢٩٣
ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN HÖKMLƏRİ... ٢٩٦
ALVERİN HÖKMLƏRİ..... ٣٠٢
ALQI-SATQININ MÜSTƏHƏBBLƏRI..... ٣٠٢
MƏKRUH ALVERLƏR..... ٣٠٢
HARAM VƏ BATIL ALVERLƏR..... ٣٠٣
SATICI VƏ ALICININ ŞƏRTLƏRI..... ٣٠٧
MAL VƏ ONUN ƏVƏZININ ŞƏRTLƏRI..... ٣٠٨
ALQI-SATQININ ƏQDI..... ٣١٠
MEYVƏLƏRIN ALQI-SATQISI..... ٣١٠
NƏQD VƏ NISYƏ..... ٣١١
SƏLƏF ALVERI..... ٣١١
SƏLƏF ALVERININ ŞƏRTLƏRI..... ٣١٢
SƏLƏF ALVERININ HÖKMLƏRI..... ٣١٣
QIZILI QIZILA VƏ GÜMÜŞÜ GÜMÜŞƏ SATMAQ..... ٣١٣
ALVERI POZMAĞIN MÜMKÜN OLDUĞU YERLƏR..... ٣١٤
ALQI-SATQININ MÜXTƏLIF MƏSƏLƏLƏRI..... ٣١٧
ŞƏRIK OLMAĞIN HÖKMLƏRI..... ٣١٨
SÜLHÜN (RAZILAŞMANIN) HÖKMLƏRI..... ٣٢٢
İCARƏNIN HÖKMLƏRI..... ٣٢٤
İCARƏYƏ VERILƏN MALIN ŞƏRTLƏRI..... ٣٢٥

İCARƏYƏ VERILƏN MALDAN ISTIFADƏ ETMƏYIN ŞƏRTLƏRI ..... ٣٢٦
İCARƏYƏ AID OLAN MÜXTƏLIF MƏSƏLƏLƏR ..... ٣٢٧
CÜALƏNIN HÖKMLƏRI ..... ٣٣١
MÜZARIƏNIN HÖKMLƏRI ..... ٣٣٣
MÜZARIBƏNIN HÖKMLƏRI ..... ٣٣٦
MUSAQAT (SUVARMA) VƏ MUĞARISƏNIN (AĞAC ƏKMƏK) HÖKMLƏRI ..... ٣٤٠
ÖZ MALINDAN ISTIFADƏ ETMƏSI QADAĞAN OLUNMUŞ ŞƏXSLƏR ..... ٣٤٣
VƏKALƏTIN HÖKMLƏRI ..... ٣٤٥
BORCUN HÖKMLƏRI ..... ٣٤٨
HƏVALƏ ETMƏYIN HÖKMLƏRI ..... ٣٥١
RƏHNIN (GIROV QOYMAĞIN) HÖKMLƏRI ..... ٣٥٣
ZAMIN OLMAĞIN HÖKMLƏRI ..... ٣٥٥
KƏFALƏTIN (ÖHDƏÇILIK) HÖKMLƏRI ..... ٣٥٧
VƏDIƏNIN (ƏMANƏTIN) HÖKMLƏRI ..... ٣٥٨
ARIYƏNIN (MÜVƏQQƏTI ISTIFADƏ ÜÇÜN ALINAN ŞEYLƏRIN) HÖKMLƏRI ..... ٣٦١
HİBƏNIN HÖKMLƏRI ..... ٣٦٣
NIKAHIN HÖKMLƏRI ..... ٣٦٥
MÜVƏQQƏTI ƏQD OXUMAĞIN QAYDASI ..... ٣٦٦
ƏQDIN ŞƏRTLƏRI ..... ٣٦٧
ƏQDIN POZULMASINA SƏBƏB OLA BILƏCƏK EYBLƏR ..... ٣٦٨
İZDIVAC EDILMƏSI HARAM OLAN QADINLAR ..... ٣٦٩
DAIMI ƏQDIN HÖKMLƏRI ..... ٣٧٢
MÜTƏ (MÜVƏQQƏTI IZDIVAC) ..... ٣٧٤
BAXMAĞIN HÖKMLƏRI ..... ٣٧٥
EVLƏNMƏYIN MÜXTƏLIF MƏSƏLƏLƏRI ..... ٣٧٦
SÜD VERMƏYIN HÖKMLƏRI ..... ٣٧٩
MƏHRƏMLIYƏ SƏBƏB OLAN SÜDVERMƏNIN ŞƏRTLƏRI ..... ٣٨٠
SÜD VERMƏYIN QAYDALARI ..... ٣٨٣
SÜD VERMƏYIN MÜXTƏLIF MƏSƏLƏLƏRI ..... ٣٨٣
TALAQIN HÖKMLƏRI ..... ٣٨٥
TALAQIN IDDƏSI ..... ٣٨٦
ƏRI ÖLMÜŞ QADININ IDDƏSI ..... ٣٨٧
BAIN VƏ RIC`I TALAQ ..... ٣٨٨
RÜCU ETMƏYIN (QAYITMAĞIN) HÖKMLƏRI ..... ٣٨٩
XÜL` TALAQI ..... ٣٨٩
MUBARAT TALAQI ..... ٣٩٠
TALAQIN MÜXTƏLIF MƏSƏLƏLƏRI ..... ٣٩١
QƏSBIN HÖKMLƏRI ..... ٣٩٣
İNSANIN TAPDIĞI MALIN HÖKMLƏRI ..... ٣٩٦
HEYVAN BAŞINI KƏSMƏYIN VƏ OVLAMAĞIN HÖKMLƏRI ٣٩٩
HEYVANIN BAŞINI KƏSMƏK QAYDALARI ..... ٤٠٠

*Şər`i istilahların izahı*.....٤٧١

HEYVAN BAŞI KƏSMƏYIN ŞƏRTLƏRI ..... ٤٠٠
DƏVƏ KƏSMƏYIN QAYDASI ..... ٤٠١
HEYVAN KƏSƏRKƏN MÜSTƏHƏBB OLAN ŞEYLƏR ..... ٤٠٢
HEYVAN KƏSILMƏSINDƏ MƏKRUH OLAN ŞEYLƏR..... ٤٠٢
SILAHLA OV ETMƏYIN HÖKMLƏRI ..... ٤٠٤
OV ITI ILƏ OV ETMƏYIN HÖKMLƏRI..... ٤٠٥
BALIQ OVU ..... ٤٠٦
ÇƏYIRTKƏ OVU..... ٤٠٧
YEMƏLILƏRIN VƏ IÇMƏLILƏRIN HÖKMLƏRI ..... ٤٠٨
YEYIB-IÇMƏKDƏ MÜSTƏHƏBB VƏ MƏKRUH OLANLAR..... ٤١٠
NƏZIR VƏ ƏHDIN HÖKMLƏRI ..... ٤١٢
AND IÇMƏYIN HÖKMLƏRI..... ٤١٦
VƏQFIN HÖKMLƏRI..... ٤١٨
VƏSIYYƏTIN HÖKMLƏRI ..... ٤٢١
İRSIN HÖKMLƏRI ..... ٤٢٧
BIRINCI DƏSTƏNIN IRSI. ..... ٤٢٧
İKINCI DƏSTƏNIN IRSI..... ٤٢٩
ÜÇÜNCÜ DƏSTƏNIN IRSI. ..... ٤٣٣
ƏR VƏ ARVADININ IRSI..... ٤٣٥
İRSIN MÜXTƏLIF MƏSƏLƏLƏRI..... ٤٣٦
ƏLAVƏLƏR ..... ٤٣٧
BANKLARLA ƏLAQƏDAR MƏSƏLƏLƏR ..... ٤٣٧
BANK E`TIBARLARI..... ٤٣٩
BANKLARIN VASITƏSI ILƏ ƏMTƏƏLƏRIN SAXLANILMASI .. ٤٤٠
BANK ZƏMANƏTNAMƏLƏRI ..... ٤٤١
SƏHMLƏRIN SATILMASI ..... ٤٤٢
DAXILI VƏ XARICI HƏVALƏLƏR..... ٤٤٢
BANKIN MÜKAFATLARI ..... ٤٤٤
BANKLARIN VASITƏSI ILƏ SƏFTƏLƏRIN (VEKSELLƏRIN)
NAĞD PULA ÇEVRILMƏSI – FAKTORINQ ƏMƏLIYYATI ..... ٤٤٥
XARICI PULLARIN ALVERI..... ٤٤٦
CARI HESABLARDA E`TIBAR..... ٤٤٦
SƏFTƏLƏRIN (VEKSELLƏRIN) ALVERI ..... ٤٤٦
BANK IŞLƏRI ..... ٤٤٨
SIĞORTANIN HÖKMLƏRI ..... ٤٤٨
SƏRQUFLININ HÖKMLƏRI..... ٤٥٠
"İLZAM QAYDASI" BARƏSINDƏ BƏ`ZI MƏSƏLƏLƏR ..... ٤٥١
TƏŞRIHIN (CƏNAZƏNI YARMAĞIN) HÖKMLƏRI ..... ٤٥٣
TƏLQIHIN (SÜN`I) MAYALANDIRMANIN HÖKMLƏRI ..... ٤٥٥
DÖVLƏT VASITƏSI ILƏ SALINAN XIYABANLARIN VƏ
YOLLARIN HÖKMLƏRI ..... ٤٥٥
NAMAZ VƏ ORUCLA ƏLAQƏDAR BƏ`ZI MƏSƏLƏLƏR ..... ٤٥٦
ŞƏR`İ İSTİLAHLARIN İZAHI ..... ٤٥٩